***"Milli ideologiyamız, şübhəsiz ki, tarixi keçmişimizlə, millətimizin adət-ənənələri ilə, xüsusiyyətləri ilə, xalqımızın, dövlətimizin bu günü və gələcəyi ilə bağlı olmalıdır".***

**Heydər ƏLİYEV**

# TARİX VƏ ONUN PROBLEMLƏRİ

1997-092

HİSTORY AND İTS PROBLEMS    ИСТОРИЯ И ЕЁ ПРОБЛЕМЫ

NƏZƏRİ, ELMİ, METODİK JURNAL

ISSN 2708-0641 (print)
2708-065X (online)

1

ADİLOĞLU
BAKI – 2021

*Baş Redaktor -* **Əsməd İmamməmməd qızı Muxtarova / Asmed Mukhtarova**
*Bakı Dövlət Universiteti / Baku State University (Azerbaijan)*
*Baş redaktorun müavini -* **İsmayıl Məhəmməd oğlu Məmmədov / Ismayıl Mammadov**
*Bakı Dövlət Universiteti /Baku State University (Azerbaijan)*
*Məsul katib -* **Qabil Əli oğlu Əliyev / Qabil Aliyev**
*Bakı Dövlət Universiteti /Baku State University (Azerbaijan)*

**Redaksiya heyəti** (əlifba sırası ilə verilib / assigned in alphabetical order)

**Nərgiz Çingiz qızı Axundova / Nargiz Akhundova**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu / İnstitute of History named A.A.Bakıkhanov of ANAS (Azerbaijan)*
**Andrzej L.Bonusiak / Andrzej L.Bonusiak**
*Jeşuva Universitetinin Tarix İnstitutu (Polşa)/ University of Rzeszów (Poland)*
**Hatice Palaz Erdemir / Hatice Palaz Erdemir**
*Manisa Calal Bayar Universiteti (Türkiyə) / Manisa Celal Bayar University (Turkey)*
**Sevinc İsrafil qızı Əliyeva / Sevinj Aliyeva**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azerbaijan State Pedagogical University (Azerbaijan)*
**Hikmət Əbdül oğlu Əlizadə / Hikmet Alizade**
*Bakı Dövlət Universiteti / Baku State University (Azerbaijan)*
**Məmməd Böyükxan oğlu Fətəliyev / Mammad Fataliyev**
*Bakı Dövlət Universiteti / Baku State University (Azerbaijan)*
**İsmayıl Muxtar oğlu Hacıyev / Ismayıl Hajıyev**
*AMEA Naxçıvan bölməsi / Nakhchivan Division of ANAS (Azerbaijan)*
**Sani Tofiq oğlu Hacıyev / Sani Hajıyev**
*Bakı Dövlət Universiteti / Baku State University (Azerbaijan)*
**Zeynəddin Camal oğlu Hacıyev / Zeynaddin Hajıyev**
*Bakı Dövlət Universiteti / Baku State University (Azerbaijan)*
**İradə Mehtiqulu qızı Hüseynova / Irada Huseynova**
*Bakı Dövlət Universiteti / Baku State University (Azerbaijan)*
**Lalə Cavid qızı Hüseynova / Lala Huseynova**
*AR Prezidentinin İşlər İdarəsi Siyasi sənədlər arxivi /*
*Archive of Political Documents of the Office of the President AR (Azerbaijan)*
**Anar Camal oğlu İsgəndərov / Anar İsgandarov**
*Bakı Dövlət Universiteti / Baku State University (Azerbaijan)*
**Qüdrət Seyfulla oğlu İsmayılov / Qudrat İsmayılov**
*Bakı Dövlət Universiteti / Baku State University (Azerbaijan)*
**Musa Cəfər oğlu Qasımlı / Musa Qasımlı**
*AMEA Qafqazşünaslıq İnstitutu / İnstitute of the Caucasian Studies of ANAS (Azerbaijan)*
**Nərgiz Məlik qızı Quliyeva / Nargiz Quliyeva**
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu / İnstitute of Archeology and Etnography of ANAS (Azerbaijan)*
**Kvitsiani Con Cokiyevich / Kvitsiani John Jokiyevich**
*İ.V.Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin "Qafqazşünaslıq" Elmi-Tədris İnstitutu (Gürcüstan)*
*İnstitute of Caucasiology of İvane Javakhishvili Tbilisi State University (Georgia)*
**Yaqub Mikayıl oğlu Mahmudov / Yagub Makhmudov**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu / İnstitute of History named A.A.Bakıkhanov of ANAS (Azerbaijan)*
**Georgi Quramoviç Mamulia / Georges Quramovich Mamoulia**
*Sosial Elmlər üzrə Ali Araşdırmalar Məktəbi (Fransa) /*
*School for Advanced Studies in the Sosial Scences - EHESS (France)*
**Nisbət Canməmməd qızı Mehdiyeva / Nisbat Mehdiyeva**
*Bakı Dövlət Universiteti / Baku State University (Azerbaijan)*
**Adil Mirabdulla oğlu Mirabdullayev / Adil Mirabdullayev**
*Bakı Dövlət Universiteti / Baku State University (Azerbaijan)*
**Daniş Miroslav / Danish Miroslav**
*Bratislava Komenski Universiteti (Slovakiya)/ Comenius University in Bratislava (Slovakia)*
**Barış Özdal / Barısh Ozdal**
*Bursa Uludağ Universiteti (Türkiyə) / Bursa Uludag University (Turkey)*
**Mohammad Salmansızadeh / Mohammad Salmansızadeh**
*Təbriz Universiteti (İran)/ Tabriz University (İran)*
**Turiçın İqor Victoroviç / Turichın İqor Victoroviç / Турицын Игорь Викторович**
*Moskva Tarix, İqtisadiyyat və Hüquq Elmi-Tədqiqat İnstitutu (Rusiya)*
*Moskow Scientific Research Institute of History, Economics and Law (Russia)*
**Nailə Məmmədəli qızı Vəlixanlı / Naila Valikhanlı**
*Azərbaycan tarx müzeyi / Azerbaijan Museum of History (Azerbaijan)*
**Sevinc Ziya qızı Yusifzadə / Sevinj Yusifzade**
*Bakı Dövlət Universiteti / Baku State University (Azerbaijan)*
**İbrahim Xudaverdi oğlu Zeynalov / İbrahim Zeynalov**
*Bakı Dövlət Universiteti / Baku State University (Azerbaijan)*

web-sayt: - http://publish.bsu.edu.az/az/content/tarix_ve_onun_problemleri_jurnali_illerle
http://ek.anl.az/search/query?term_1=Tarix+v%C9%99+onun+probleml%C9%99ri&theme=e-kataloq
*Redaksiya ilə əlaqə:* TarixVeOnunProblemleri@gmail.com
Şəhadətnamə № 0060079 (1997)
©Lisenziya ser.AB - №22477

**MÜNDƏRİCAT**

**QƏDİM DÖVR VƏ ORTA ƏSRLƏR**


| | | |
|---|---|---|
| MEHTİZADƏ S.Ç. | *Cənubi Amerikanın qədim mədəniyyəti – Tiuanako* | 5-9 |
| ƏHMƏDOV M. | *Xəzər xaqanlığı və Bizans imperiyası arasında hərbi-siyasi münasibətlər* | 10-15 |
| HƏMİDOVA N. | *Atabəylik müəssisəsi və Atabəy Şəmsəddin Eldəniz* | 16-21 |
| KÜRŞAD KÖSE | *Həştərxan xanlığının yaranması* | 22-27 |
| | **YENİ DÖVR** | |
| TURAN BABAŞ | *Şeyxülislam Əbdüssalam Axundzadənin dini və elmi-pedoqoji fəaliyyəti* | 28-33 |
| | **MÜASİR DÖVR** | |
| QASIMOV Ş. | *Bərpa və restavrasiyasını gözləyən, Laçının əsirlikdən azad olan abidələri* | 34-44 |
| ASLANOV E.M., ABDULLAYEVA S.F. | *Azərbaycan Xalq Cümhuriyyətinin ilk qadın jurnalisti* | 45-49 |
| QASIMOVA S.Ə. | *1918-ci il Şamaxı qəzasında Azərbaycan xalqına qarşı soyqırımı* | 50-53 |
| HƏSƏNOV İ.Y. | *Bakı Dövlət Universitetinin tibb fakültəsində türkləşdirmə və proletarlaşdırma xətti* | 54-59 |
| HƏTƏMOV R.Q. | *SSRİ-Almaniya müharibəsi dövründə erməni millətçilərinin nasist rejimi ilə əməkdaşlığı* | 60-67 |
| ƏLİYEV N., QƏNİ-ZADƏ Ə. | *1993-2003-cü illərdə Azərbaycanda hərbi təhsil* | 68-72 |
| ИСМАИЛОВА Э. | *Внешняя политика Турции: 1923-1990 гг.* | 73-75 |
| MUSTAFAYEVA S., QURBANOVA Ş. | *Ronald Reyqanın prezidentliyinin ikinci dövründə ABŞ-ın daxili siyasəti* | 76-80 |
| MÜTƏLLİMOV D., MÜTƏLLİMOVA A. | *Rusiyada İslamafobiya fenomeni* | 81-86 |
| ƏLİZADƏ S.Q. | *Türk dünyasına qarşı çevrilən erməni təhdidinin nəticələri* | 87-90 |
| MƏHƏRRƏMOVA Ə. | *Sovet hakimiyyətinin XX əsrin 20-ci illərində Azərbaycanda tətbiq etdiyi dini siyasət* | 91-94 |
| BƏŞİROVA G.H. | *XX-XXI əsrlərin qovuşuğunda Azərbaycan Respublikasında qaçqınlıqla bağlı problemlərin həllində Sumqayıt şəhərinin yeri və roluna dair* | 95-101 |
| MƏMMƏDOVA S. | *Paris sülh konfransında İranın Azərbaycan Xalq Cümhuriyyətinə qarşı irəli sürdüyü ərazi iddiaları* | 102-107 |
| ƏSGƏROV E. | *XX əsrin sonunda Azərbaycanda siyasi vəziyyət (1990-1991-ci illər)* | 108-112 |
| ÇİVİŞOVA L.S. | *II dünya müharibəsinin sonları və müharibədən sonrakı ilk illərdə SSRİ - İran münasibətləri* | 113-118 |
| SƏFƏROVA Ç.Q. | *Türkiyə-Gürcüstan münasibətlərini şərtləndirən amillər* | 119-123 |

## ARXEOLOGİYA VƏ ETNOQRAFİYA


| | | |
|---|---|---|
| ОРУДЖЕВА Л.Р. | *Оборонительные сооружения и погребальные памятники в эпоху культуры средней бронзы в Азербайджане* | 124-128 |
| MAHMUDOVA H.R. | *Dəmir dövründə türk tayfalarının kurqanları* | 129-132 |
| HƏVİLOVA F.H. | *Qərbi Azərbaycanın maddi mədəniyyəti* | 133-137 |
| ŞABANOVA A. | *Azərbaycanlıların milli geyimlərində rəng semantikası* | 138-141 |
| ƏLİYEVA N. | *XIX-XX əsrin əvvəllərində Naxçıvan diyarında sənətkarlığın tarixi coğrafiyası* | 142-147 |
| ƏLƏSOVA A.F. | *Azərbaycan və Yaxın Şərqin mədəni irsi erkən əkinçilik dövründə* | 148-151 |
| NURUŞOVA G.Q. | *Antropologiyada etniklik məsələsi* | 152-155 |
| MƏMMƏDZADƏ S.Ə. | *Urmiya hövzəsində və Naxçıvanda protoşəhər mədəniyyətinin xüsusiyyətləri* | 156-160 |
| ORUCOVA M.B. | *Ənənəvi cəmiyyətlərdə qadının statusu məsələsi* | 161-164 |


## MƏNBƏŞÜNASLIQ, TARİXŞÜNASLIQ, METODİKA


| | | |
|---|---|---|
| MƏMMƏDOV A.B. | *Azərbaycanın 40-50-ci illər tarixşünaslığında tarixi demoqrafiya məsələləri* | 165-168 |
| ŞAHBAZOVA R.Ş. | *V.V.Bartoldun əsərlərində orta əsr Azərbaycan dövlətləri: Eldənizlər və Şirvanşahlar* | 169-173 |
| QASIMLI Y.Ə. | *Rusiya tarixşünaslığında Sibirin türk xalqlarının dini inanc sistemi* | 174-178 |
| SULTANOVA L.H. | *Azərbaycan Xalq Cümhuriyyətinin aqrar siyasəti XX əsrin 20-30-cu illər sovet tarixşünaslığında* | 179-182 |
| ARƏŞ İFTİXARİ | *İran tarixşünaslığında ermənilər və Ermənistanın yeri məsələsinə dair* | 183-189 |
| XOŞQƏDƏM İSLAM, HEYDƏROVA S.C. | *Təhsilin informasiyalaşdırılmasında şagird bacarığının ümumi nəzəri məsələləri* | 190-194 |
| MƏMMƏDOVA E.K. | *Borcalı sultanlığının tarixindən* | 195-198 |
| ƏBİLOV E.N. | *Heydər Əliyevin əsərlərində Azərbaycan tarixinin dövrləşdirilməsi* | 199-202 |

**UOT 94(3)**

**SAYAD MEHTİZADƏ**
*Bakı Dövlət Universiteti,*
*Tarix fakültəsi Qədim dünya və orta əsrlər tarixi*
*kafedrasının müəllimi*
**E-mail: sayad.mehtizade@gmail.com**

# CƏNUBİ AMERİKANIN QƏDİM MƏDƏNİYYƏTİ – TİUANAKO

*Tiuanako Cənubi Amerika regionunda geniş yayılan mədəniyyətlərdən olub, Pukin dövlətinin mərkəzi olan Tiuanako şəhərinin adı ilə adlandırılmışdır. Şəhər qalın qatla örtülmüş torpağın altında qaldığından konkistadorlar tərəfindən dağıdılmamış və beləliklə şəhərdəki abidələr dövrümüzədək gəlib çatmışdır. Akapana ehramı, "Daş başlar" ehramı, Kalasasaya sarayı, Günəş qapısı, Ay qapısı, Bennett monoliti və s. kimi abidələr hələ də tarixçilər tərəfindən araşdırılır və onların qarşısında bir çox suallar yaranır. 2000-ci ildə Tiuanako arxeoloji kompleksi Kolumbaqədərki Amerikanın inkişafında əsas rol oynayan qüdrətli mədəniyyətin təzahürü kimi Yuneskonun Ümumdünya irsi reyestrinə daxil edilmişdir.*

*Açar sözlər*: Tiuanako, mədəniyyət, ehram, Cənubi Amerika, Pukin.

*Giriş.* Qədim dövrdən başlayaraq orta əsrlərədək Amerika qitəsində bir çox mədəniyyət mövcud olmuşdur. Bu mədəniyyətlər biri digərini əvəz edərək avropalıların Amerikaya qədəm qoyduğu dövrə qədər öz ənənələrini qoruyub saxlamışlar. İspan konkistadorlarının Amerika qitəsinə ayaq basması ilə avropalıların Amerikaya axını başlayır ki, nəticədə bu torpaqların nəinki yeraltı və yürüstü sərvətləri qəddarcasına talanır, əhalisi qətl edilir, həm də qədim dövrə aid abidələr, şəhərlər yerlə bir edilir, əlyazmalar yandırılır. Bu səbəbdən bu gün qədim sivilizasiyalar haqqında məlumat əldə etmək olduqca çətindir. Tiuanako mədəniyyəti (e.ə.1500 - eramızın 1180-ci illər) belə mədəniyyətlərdəndir.

*Tiuanako abidələri və mədəniyyətin tədqiqi səviyyəsi.* Tiuanako Cənubi Amerika regionunda geniş yayılan mədəniyyətlərdən olub, Pukin dövlətinin mərkəzi olan Tiuanako şəhərinin adı ilə adlandırılmışdır. O, Mərkəzi And regionunun ən iri şəhəri idi. Məlumdur ki, And Himalay dağından sonra dünyanın ən hündür dağ sistemidir və təsərrüfat fəaliyyəti burada 4,5 km. yüksəkliyə qədər mümkündür (4, s.34). Tiuanako Boliviyanın dəniz səviyyəsindən 4.000 metr hündürlükdə yerləşir və bu şəhər adətən "Amerikanın Tibeti" adlanırdı. Pukin dilində Taypikala ("dünyanın mərkəzi") adlanan şəhərin tikililəri iri daş bloklardan ibarət idi. İndiyədək ucqar yüksəklikdə belə iri daş qurğuların necə tikildiyi naməlumdur, çünki bəzi daş blokların çəkisi 200 tona çatır.

Tiuanako mədəniyyətinin tədqiqində yaranan çətinliklərdən biri onun yazılı mənbələrinin olmamasıdır. Bütün mühüm hadisələr hinduların nəsildən-nəslə ötürdüyü mahnılarda və əfsanələrdə öz əksini tapıb. Bəzi yazılı mənbələr isə ispan keşişlərinin salnamələrindən ibarətdir. Bu salnamələr yerli hinduların adətlərini öyrənmək və onlara xristianlığı təbliğ etmək məqsədilə yazılmışdır. Lakin keşişlərin məlumatları çox vaxt ya onlar tərəfindən doğru başa düşülmədiyindən, ya da hinduların onlarla əməkdaşlıq etmək istəmədiyindən bilərəkdən təhrif olunduğuna görə etibarlı deyil.

İspanlar bir tərəfdən hindulara aid mühüm məlumatları toplayır, digər tərəfdən də onların mədəniyyətini dağıdırdılar. Konkistadorların dağıdıcı əməllərindən sonra indiki dövrümüzə yalnız yerin altında qalan abidələr çatıb. Tiuanako kompleksi, xoşbəxtlikdən, qalın qatla örtülmüş torpağın altında qalmışdı.

Bəzi tarixçilər Tiuanako sivilizasiyasının dilinin məlum olmadığını düşünürlər. Digərləri isə qeyd edir ki, qədim şəhər Tiuanako güclü And dövlətinin ilk paytaxtı olub və burada pukin dili yayılıb (ölü dildir). Bəzi alimlər astronomik mərasim mərkəzi olan tikilini təxminən eyni zamanda Meksikada yaranan Teotiuakanla müqayisə edirlər (5, s.214).

Pukin dövləti çiçəklənmə dövründə (700-900-cü illər) And yaylasının xeyli hissəsini tuturdu və Sakit Okeanın sahillərinə qədər genişlənmişdi. Hal-hazırda bu ərazidə bir neçə müasir dövlət yerləşir: Boliviyanın qərb hissəsi, Perunun cənubu, Şimali Çili və və şimal-qərbi Argentina. Tiuanakoya sonradan digər ərazilər də daxil olmuşdu. Qeyd etmək lazımdır ki, digər xalqlara qarşı

heç bir təcavüz edilməmiş və hərbi əməliyyatlar aparılmamışdır. Şəhər böyük dövlətin mədəni, iqtisadi və dini mərkəzi olmuşdur. Tiuanakonun digər sivilizasiyalara təsir etdiyi də düşünülür. Məsələn, Uari şəhərində yarıyeraltı ehram aşkar edilmişdir. Bu ehram Tiuanakodakı "Daş başlar" ehramına bənzəyir. Ola bilsin ki, Uari mədəniyyətinin qurucularının Tiuanako ilə əlaqələri var idi. Amma bu əlaqələrin xarakteri bizə məlum deyil (6, s.34).

Şəhərin 2 fəlakət yaşadığı fikrində isə tarixçilər yekdildirlər. Onlardan biri təbii fəlakətdir ki, burada daşqın olmuşdur. Digəri isə mənşəyi naməlum olan faciədir. Daşqının olduğunu çökəkliklərdə tapılan insan skeletləri ilə yanaşı balıq sümükləri və göl florasının qalıqları sübut edir. Sümük və qalıqlar əmək alətləri, mərasim əşyaları, daş plitələrlə qarışmış və nizamsız şəkildə idi.

Tədqiqatçıların qənaətinə görə 1150-ci ildə köklü iqlim dəyişiklikliyi baş verir. Avropa yağışlara qərq olur, müasir Boliviyaya isə bir damcı da yağış düşmür. Amerikalı tarixçi, arxeoloq və antropoloq Alan Kolata da belə hesab edir ki, qüdrətli sivilizasiyanın süqutuna daşqın yox, əksinə quraqlıq səbəb olub. Bunun sübutu And buzlaqlarında və Titikaka gölünün dib çöküntülərdə qorunub saxlanmışdır. Uzunmüddətli quraqlıq dövrü qıtlığa, sonra isə aclığa gətirib çıxarıb. Bəzi tarixçilər belə hesab edir ki, təxminən 1180-ci ildə Pukin kolya (aymar) qəbiləsi tərəfindən darmadağın edilib. İnsanlar şəhəri tərk edib və dağətəyi balaca kəndlərdə sığınacaq tapıblar.

Pukin dağıdılandan sonra Tiuanako İnk mifologiyasında mühüm rol oynamağa başlamışdır. Onlar öz əfsanəvi ilk hökmdarları - sapa inka Manko Kapakın və Mama Oklonun Tiuanakodan olduğunu hesab edirdilər. Bu, inklərin mənşəyində Tiuanakonun mühüm rol oynadığının göstəricisidir. İnklər Tiuanakonu qədim sivilizasiya kimi sevir, heyranlıqla bu sivilizasiyanı öyrənir və abidələrini bərpa etmək istəyirdilər.

Tiuanako Titikaka gölündən 15 km. cənubda inşa olunub. O, kiçik ərazidə yaranmış, sonradan görünməmiş vüsət almışdır. Güclü divarlarla əhatə olunan şəhərdə yaşayış kompleksləri, inzibati və hərbi binalar, anbarlar və sənətkar məhəllələri də var idi. Bütün tikililər həndəsi düzgünlüyü ilə fərqlənirdi.

Bu mədəniyyətdə Günəşə ibadət əsas yer tutur. Buna görə də qızıl Günəş metalı kimi xalqın çox sevdiyi material idi. Onunla məbədlər, paltarlar, evlər bəzənirdi. Keramik məmulatların istehsalı da inkişaf etmişdi.

Tiuanako mədəniyyətinin mövcud olduğu zamandan onun iqtisadiyyatının əsasını əkinçilik təşkil edirdi. Burada təxminən 200 hektar torpaq kənd təsərrüfatı üçün ayrılmışdı. Belə əraziləri əkib-becərmək üçün geniş elmi biliyə malik olmaq lazım idi. Hal-hazırda Titikaka gölü dairəsindəki torpaqlar klassik üsullarla əkinçiliyin aparılması üçün az yararlıdır ki, bu da rayonda kənd təsərrüfatı sahəsinin hazırkı acınacaqlı vəziyyətini göstərir. Araşdırmalar isə göstərir ki, qədim dövlətdə əkinçilik yüksək səviyyədə idi.

Tədqiqatçılar ərazini araşdırarkən gölün suyu çəkilən torpaqlarda bir-birini əvəz edən xarakterik zolaqlara rast gəlmişlər. Bu zolaqların və xırda kanalların mahiyyəti isə XX əsrin 60-cı illərində başa düşülüb. Hindular bunları "varu-varu" adlandırırdılar, onlar qədim əkinçiliyin mürəkkəb sisteminin hissələri idi. İndi bu sistem "qaldırılmış sahə" adlanır. Göl ətrafında hindular torpaq sahəsini süni şəkildə qaldırır, yəni əlavə torpaq səpirdilər. Bu sahələr kanallar vasitəsilə suvarılırdı.

1993-cü ildə qonşuluqda yerləşən fermer təsərrüfatında eksperiment aparılmış və qədim üsul kartof əkimində istifadə edilmişdir. Nəticə gözləniləndən də yaxşı olmuşdu. Eksperiment aparılan sahələrdə fermerlər yüksək keyfiyyətli bol məhsul əldə etmişlər. Adətən belə yüksəklikdə donmalar məhsula ziyan vurur. "Qaldırılmış sahə"lərdə isə bu təsir kanalların vasitəsilə minimuma endirilir. Kanaldakı su günün istisini topladığından məhsula zərər vermir.

XVII əsrdə Tiuanakonun dağılması və qarət edilməsindən sonra şəhərə maraq xeyli azalır. Qədim dağıntılara münasibət isə 1810-1826-cı illər İspaniyaya qarşı müstəqillik uğrunda müharibə zamanı dəyişir. Qədim yer milli mənlik şüurunun statusunu daşımağa başlayır. 1825-ci ildə Antonio Xose Sukre (Boliviyanın xilaskarı və prezidenti) Tiuanakoda Günəş qapısını əvvəlki yerində qurmağı əmr edir və abidələri yeni millətlərin yaranması rəmzi elan edir. Amma bu vətənpərvərlik əhval-ruhiyyəsi çox az sürür.

XX əsrin əvvəllərində şəhər vəhşi keçmişlə əlaqələndirilir və abidələr məhv edilir. Qədim şəhərin sistemli dağıdılması baş verir. Şəhəri öz məişət və kommersiya ehtiyaclarını ödəmək üçün

daş karxanası kimi görən müasir Tiuanako kəndinin hindu əhalisi də, Quaki-La Pas dəmiryolu inşaatçıları da dağıdırlar.

Tiuanakoya münasibət 1952-ci il inqilabından sonra yenidən dəyişir. Hakimiyyətə millətçi liderlər gəlir və onlar "Tiuanako - şanlı keçmişdir" şüarını irəli sürürlər. 1953-ci ildə ölkə hökuməti tərəfindən arxeologiyanın institusionalizasiyası istiqamətində mühüm addımlar atılır. 1957-ci ildə Arxeoloji tədqiqatlar üzrə Boliviya dövlət Mərkəzi yaranır. Mərkəzdə nadir tarixi abidələrin bərpası, qorunması və öyrənilməsi istiqamətində işlər aparır.

Şəhərin böyük tikililərindən biri uzunluğu 250 m., hündürlüyü 15 m. olan Akapana ehramıdır. (1, s.58). Akapana aymar dilində "insanlar ölən yer" deməkdir. Tiuanako üçün bu "Müqəddəs dağ" Paçamama ilahəsinin ehramıdır. Bura dünyanın və şəhərin mərkəzi idi. Ehram dağıldığından onun nə məqsədlə tikildiyi məlum deyil. Akapana 7 pilləli piramidasının hündürlüyü 17 metr, uzunluğu isə təxminən 200 metr olub, yarıyeraltında yerləşən məbədə birləşirdi. Piramidanın zirvəsində xaç formalı hovuz var. Ehramda 2006-cı ildə quyu aşkar edilmişdir. Ehramın daxilində mürəkkəb daş kanalı mövcuddur ki, onun küncləri zərgər dəqiqliyi ilə işlənmişdir. Akapanada aparılan restavrasiya işləri Yuneskonun işə müdaxiləsi ilə 2009-cu ildə dayandırılmışdır.

Tiuanakonun maraqlı tikililərindən biri "Daş başlar" ehramıdır. Onun dərinliyi 1,70 metrə çatır. Onu bəzən "Kiçik Kalasasaya" adlandırırlar (1, s.62). Divar müxtəlif hündürlükdə olan sütunlardan ibarətdir və onların araları doldurulmuşdur. Ehramda 175 daş baş var. Başlar müxtəlif olduğu üçün bəzi tədqiqatçılar belə hesab edir ki, onlar Tiuanako dövlətinə daxil olan müxtəlif etnosların nümayəndələrinin təsviridir. Heykəllərin qorunma dərəcəsi eyni deyil, başların işlənmə səviyyəsi də müxtəlifdir. Görünür ki, onlar müxtəlif ustalar tərəfindən fərqli zamanlarda yaradılmışdır. Ehramın mərkəzində "Saqqallı Monolit" durur. Bu qəribə tikilinin mərkəzində iki sütun qoyulub ki, bu da onların dini mərasimə aid edilməsi haqqında mühakimə yürütmək imkanı verir.

Şəhərin ən dəbdəbəli abidələrindən biri Kalasasaya kompleksidir. Kalasasaya memarlıq ansamblı Akapanadan şimalda yerləşir və Tiuanakonun ən sirli abidələrindən biridir (1, s.59). Sarayın həyəti yer səthindən aşağıda yerləşirdi. Bu memarlıq kompleksi qızılla bəzədilmişdi. Sarayın divarlarına qızıl mismarlar vurulmuşdu, onlardan mis və bürünc lövhələr asılırdı. Əvvəllər tarixçilər buranın saray, qala olduğunu düşünürdülər. İndi isə buranın astronomik rəsədxana olduğu qənaətindədirlər. Divarlardakı bəzi konstruktiv elementlər müəyyən bürclərə tam uyğun gəlir və bunlar elə düzəldilib ki, ilin müxtəlif zamanlarında Günəşi rahat müşahidə etmək mümkün olur. Məbədin iki tərəfində 7 ədəd olmaqla 14 yarızirzəmi otaq yerləşir.

Professor Artur Poznanski həyatının yarısını Tiuanakonun tədqiq edilməsinə həsr etmişdir. Alim özünün "Amerika insanının beşiyi - Tiuanako" (Tiahuanacu: The Cradle of American Man) əsərində şəxsi arxeoloji tədqiqatları və astronomik hesablamaları əsasında sübut edir ki, Kalasasayanın layihəçiləri və inşaatçıları onu hələ 12-17 min il əvvəl göydəki ulduzların yerləşməsinə uyğun inşa etmişlər.

Təbii ki, ortodoksal elmin tərəfdarlarının əksəriyyəti A.Poznanskinin kəşfini skeptisizmlə əlaqələndirmişlər. Lakin bir qrup görkəmli alim onun tədqiqat və hesablamaların nəticələrini təhlil etmişlər. Bu qrupa Potsdam rəsədxananın direktoru, doktor Hans Lüdendorff, doktor Fridrix Beker, həmçinin iki astronom - Bonn universitetinin professoru Rolf Müller və Potsdam astrofizika institutunun doktoru Arnold Kolsxutter daxil idi. Alimlər 1927-ci ildən 1930-cü ilədək işləmiş və belə qənaətə gəlmişlər ki, Poznanskinin gəldiyi nəticələr, əsasən, doğrudur.

Kalasasaya 1960-cı ildə bərpa edilmişdir, amma rekonstruksiya uğurlu alınmamışdır.

Tiuanakoda sağ qalan üç heykəl var ki, (biri "Daş başlar məbədində", digər ikisi Kalasasayada) onlar tədqiqatçıları qeyri-adi düşünməyə və müqayisə etməyə vadar edirlər. Bu heykəllər böyüklüyünə, xüsusiyyətinə və icrasına görə bir-birindən fərqlənir. Amma hər üç varlıq insan-balıq təsvirini özündə birləşdirir. Amerikalı jurnalist və səyyah Qreyyem Henkok Tiuanako şəhərində yerli sakinlərlə söhbət edərkən maraqlı məlumat əldə edib. Sən demə, qədim rəvayətdə deyilir ki, Çullua və Umantua adlanan göl tanrılarının balıq kimi quyruqları var idi.

Bu əfsanələr və Tiuanako heykəltəraşlıq personajları şumer dastanlarındakı balıq-insan olan Oannesi xatırladır. O, dənizdən Mesopotamiya sahilinə çıxaraq aborigenlərə təlim-tərbiyə verirdi.

XVI əsrdə ispan müstəmləkəçisi Qarsilaso de-la-Veqa Tiuanakonu görüb heyrətə gəlmişdi: "Bunu təsəvvür etmək mümkün deyil. Öz gözlərinlə görəndən sonra anlayırsan ki, burada insan əməyi yox, tilsimlə iş görülmüşdür. O, çox və elə iri daşlarla tikilmişdir ki, dərhal sual yaranır ki, hindular bu daşları necə çıxarmış və bura gətirmişlər, necə cilalamış və dəqiqliklə bir-birlərinin üstünə qoymuşlar".

Şəhərin monumental heykəltəraşlığı da diqqəti cəlb edirdi. Bunlardan məşhuru "Bennett monoliti" (kütləsi – 20 ton) adlanan heykəl idi. Heykəlin başı çəhrayı daşdan hazırlanmışdı. Heykəlin qolları sinəyə qoyulmuş, qarın hissəsi geniş kəmərlə bağlanmış, gözlər isə önə zillənmiş formadadır. Bu onun ağlaması təsəvvürünü yaradır. Onun sol əlində kero (mərasim qabı), sağ əlində əsa var idi. Amerikalı arxeoloq Uendell Bennett 1932-ci ildə Tiuanakoya arxeoloji qazıntılar aparmaq məqsədi ilə gəlir. "Daş başlar" məbədində qazıntılar zamanı daş monolit aşkar edilir. Lakin Boliviya-Paraqvay müharibəsi başladığına görə arxeoloq buranı tərk etməli olur. 1933-cü ildə bura gələn Artur Poznanski öz hesabına monoliti La-Pas şəhərinə köçürür. Şəhər əhalisinin şəhərdə baş verən pis hadisələrdə monoliti günahkar bildiyindən o, 2002-ci ildə yenidən Tiuanakoya qaytarılır.

Digər Tiuanako heykəli "Günəş Qapısı" (İnti-Lunku) adlanır. Heykəl andezit daşının parçalarından olub, hündürlüyü 3 m., eni isə 4 m. təşkil edir. Onların hər birinin ümumi çəkisi 10 tonu təşkil edirdi. Qapının üst hissəsi zəngin relyeflərlə bəzədilmişdi. Bu cür heykəllərin və buradakı təsvirlərin süjetlərinin mahiyyətini mifoloji süjet təşkil edirdi. Onun mərkəzində nurla əhatə olunan böyük başlı insan fiquru şəklində ali tanrı yerləşir. Onu 24 şüa əhatə edir ki, hər şüa yaquar və ya puma başı ilə bitir. Tanrının gözlərindən yaş axır. Görünür, bu torpağa su bəxş etmək mənasını verir. Onun əlində böyük hökmdar əsası var. Əfsanəvi varlığın hər iki tərəfində 48 kiçik "insan-kondor" təsvir edilmişdir. Onların hamısının üzü mərkəzə doğru çevrilmişdir (1, s.65).

Relyefin məzmununu alimlər müxtəlif cür yozurlar. Bəzi alimlər hesab edirlər ki, mərkəzi fiqur Günəş tanrısının rəmzidir, yarıinsan-yarıquş fiqurları isə üzlərini səma hökmdarına tutmuş ulduzlardır. Digərlərinin fikrincə, Günəş qapısında Tiuanako təqvimi - günəş və ya ay təqvimi təsvir edilmişdir. Əgər Kalasasaya kompleksi həqiqətən rəsədxanadırsa, onda təqvim bu tikiliyə tamamilə uyğun gəlir.

Burada "Ay Qapısı" aşkar edilib. O, Günəş qapısından tamamilə fərqlənir. Tapılan qızıl mismarlara görə, ehtimal etmək olar ki, darvazalar qızıl yarpaqlarla örtülmüşdü. Onun hündürlüyü 2, 25 metr təşkil edir.

2005-ci ildə Titikaka gölü yaxınlığında Timoko dağında Tiuanako xalqının son sığınacağı - yeraltı şəhər aşkar edilib. Burada 1400-cü ilə qədər 8 min nəfər yaşayırdı. 2009-cu ildə tikilinin böyük hissəsi zəlzələ nəticəsində məhv olmuşdu.

*Nəticə.* XII əsrin əvvəllərində Tiuanako dövləti süquta uğrayır. Bu gün tarixçilər hər nə qədər şəhərin abidələri, həyatı, inancları, təsərrüfatı haqqında dəqiq məlumatlar əldə etməyə çalışsalar da, hələ də bir çox məqamlar əsrarəngizliyini qoruyub saxlayır. 2000-ci ildə Tiuanako arxeoloji kompleksi "Kolumbaqədərki Amerikanın inkişafında əsas rol oynayan qüdrətli mədəniyyətin təzahürü" kimi Yuneskonun Ümumdünya irsi reyestrinə daxil edilir.

## ƏDƏBİYYAT


1. Башилов, В.А. Древние цивилизации Перу и Боливии. – Москва: Наука, - 1972. - 212 s.
2. Башилов, В.А. Периодизация культуры Мольо в Боливии XI - XVI вв. // Советская археология, - 1967. № 1, - s.99-111.
3. Башилов, В.А. Связи древних цивилизаций Нового Света, с.270-290. В сборнике: Археология Старого и Нового света, Москва: Наука, - 1966. - 296 с.
4. Березкин, Ю.Е. Инки:исторический опыт империи. – Москва: Наука, - 1991. - 232 s.
5. Ершова, Г.Г. Древняя Америка: полет во времени и пространстве. Северная Америка. Южная Америка. - М.: Алетейя, - 2002. - 416 s.
6. Созина, С.А., Янчук, И.И. История Перу с древнейших времен до конца XX века. – Москва: Наука, - 2000. - 457 s.

**SAYAD MEHTIZADEH**
***Lecturer of Baku State University***

**SOUTH AMERICA'S ANCIENT CULTURE – TIWANAKU**

Tiwanaku was one of the most widely spread cultures in the South American region and it is named after the city of Tiwanaku, the center of Pukina state. As the city was under a thick layer of land, it has not been destroyed by the conquistadors and monuments in the city have survived to the present time. Monuments of Akapana, "Stone Blocks", Kalasasaya Palace, Gate of Sun, Gate of Moon, Bennett Monolith, etc. are still being studied by historians and many questions arise. In 2000, the Tiwanako archaeological complex was included in the UNESCO World Heritage List as a manifestation of the mighty culture that played a key role in the development of America till Columbus.

*Keywords*: Tiwanaku, culture, pyramid, South America, Pukin.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 20 fevral 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 06 yanvar 2021-ci il.*
*Rəyçilər: t.ü.f.d. Elvira Lətifova, t.e.d. Qüdrət İsmayılov.*

**UOT 94 (479.24)**

**MƏHƏRRƏM ƏHMƏDOV**
*AMEA Tarix İnistutunun dissertantı*
**E-mail: maqerram@ lenta.ru**

# XƏZƏR XAQANLIĞI VƏ BİZANS İMPERİYASI ARASINDA HƏRBİ-SİYASİ MÜNASİBƏTLƏR

*Xəzər-Bizans münasibətləri orta əsrlər tarixinin mühüm mərhələlərindən biridir. Xəzər və Bizans arasında dostluq münasibətlərinin tarixi daha qədimdir. Məqalədə Bizans-Xəzər münasibətləri və onların Sasani imperiyası, Ərəb xilafətinə qarşı birgə mübarizəsi təhlil olunur. Xəzər xaqanlığının Bizans imperiyasının saray daxili hadisələrə təsir imkanları təhlil edilir. Müxtəlif ədəbiyyatlar təhlil olunduqdan sonra, bu nəticəyə gəlinir ki, Xəzər xaqanlığı Bizans imperiyasının varlıq səbəblərindən biri olmuşdur. Sasani imperiyasının və Ərəb xilafətinin əsas məqsədi Bizans imperiyasının varlığına son qoymaq olmuşdur. Xəzər-Bizans ittifaqı bu məqsədə maneə olmuşdur. Xəzərlər və Bizans imperiyası arasında müxtəlif səbəblərdən narazılıqlarda olmuşdur. Müəllif bunun səbəblərini təhlilil edir.*

*Açar sözlər*: Xəzər, Bizans, imperiya, müharibə, münasibətlər.

*Giriş.* Türk dövlətçilik tarixində mühüm yeri olan Xəzər xaqanlığının tarixinin hərtərəfli öyrənilməsi, hər zaman öz aktuallığını qorumaqdadır. Xəzər xaqanlığı haqqında məlumatların azlığı və müxtəlifliyi çox zaman fərqli yanaşmalara səbəb olmuşdur. Dünya xəzərşünaslıq tarixində xüsusi yeri olan Amerika tədqiqatçısı D.M.Dunlop bildirir ki, « Xəzərlərlə bağlı məlumatların az olması, Yunan, Ərəb, Yəhudi, Suryani, Erməni, Gürcü, Rus, Fars, Türk dillərində yazılmış və bir-birini təkzib edən mövcud əsərlərlə işləmənin çətinliyindən doğur» [3, s.16]. VII-X əsrlərdə dunya tarixində mühüm iz qoymuş Xəzər xaqanlığı Sasani, Bizans imperiyaları və Ərəb xilafəti kimi, dünyanın qüdrətli dövlətlərilə nüfüz mübarizəsi aparmışdır. O, bir çıx dövlətlərin formalaşmasında bir başa və ya dolayı yollarla iştirak etmişdir. Xəzər xaqanlığının tarixini tədqiq edərkən, onunla hərbi- siyasi, dini-ideoloji, iqtisadi- ticari münasibətlərdə olan müxtəlif dövlət və xalqları görmək olar. Onlardan, Sasani və Bizans imperiyaları, Ərəb xilafəti, qədim Azərbaycan dövləti Albanya, Bulqar xanlığı, Kiyev Rus dövləti, Qıbçaq, Oğuz türk tayfa birlikləri, Macarlar nümunə göstərmək olar. Bu münasibətləri qeyd edərkən, öz qüdrətinə və tarixi dövlətçilik ənənələrinə görə, dünya tarixində mühüm yer tutan Bizans imperiyası ilə Xəzər xaqanlığı arasındakı uzun müddətli siyasi əlaqələrin tədqiqinə, təhlilinə xüsusi ehtiyac duyulur. Bizans imperiyası və Xəzər xaqanlığı arasında hərbi-siyasi münasibətlər özünün dostluq və qohumluluq əlaqələil ilə fərqlənir.

Bizans imperiası dərin dövlətçilik ənənələrinə malik, böyük ərazi və hərbi qüdrətilə dünya super güclərindən biri idi. Onun ərazisi Balkan yarımadası, Yunanstan, Krım yarımadasının cənubu, Kiçik Asiya, Ərməniyyənin şərqi, Mesapatomiyanın bir hissəsi, Suriya, Fələstin, Misir, Liviya kimi dövlətlərin ərazisini əhatə edirdi [6, s.16].

*Bizans-Xəzər münasibətləri*

*1.1. Bizans-Sasani minasibətlərində xəzərlərin rolu.* Bizans və Sasani imperiyaları arasında Yaxın Şərq, Kiçik Asiya, Mesapotomiya və Qafqaz uğrunda uzun müddətli müharibələr baş verirdi. Bu müharibələrin müxtəlif zaman kəsimində baş verdiyini nəzərə alaraq, mövzumuza uyğun hadisələrə müraciət edək. Bunun üçün VII əsrin əvvələrindən başlayaraq, 630-cu ilədək davam edən Bizans-Sasani müharibələrini araşdırmaq ehtiyaçı duyuruq.

Bunun üçün ilk növbədə yuxarıda qeyd olunan zaman müddətində Bizans imperiyasında ictima, iqtisadi və siyasi mənzərə haqqında qısa məlumat vermək ehtiyaçı yaranır. Bizanşünaslardan F.İ.Uspenski imperator Fokinin hakimiyyəti illərini Bizans imperiyası üçün ən utanc verən mərhələ kimi xarakterizə edir [14, s.395] . 602-ci ildə Foki Mavrikiyi taxtan saldı. Onun hakimiyyəti illərində sosial narazılıq, olkə daxilində qeyri sabitlik, zülm əhali arasında imperatoru nüfuzdan salmışdı. Digər tərəfdən, Sasani ordularının hücumları Bizansı müdafiəsiz hala gətirmişdi. 603- cü ildə Sasani şahı Xosrov Bizansa qarşı müharibəyə başladı [1, s.236].

Sasani orduları bütün Ərməniyyə və yuxarı Mesopatomiyanı (607) ələ keçirdilər [10, s.118]. Bizans imperiyası özünün imperialist planlarını həyata keçirmək üçün, müxtəlif dini narazılıqlardan istifadə etdiyi kimi, Sasani imperiyasıda bu metodlardan faydalanırdı. Yəhudilərin Sasani imperiyasına kömək edərək, monofizitləri nestorionlara qarşı qaldırmaları, onlarda Konistantinopola qarşı kin yaratdı [ 7, s.114]. Sasani şahı Xosrov monofizitləri himayə edirdi. Ardıcıl məğlubiyyətlərə baxmıyaraq, İmperator ölkə daxilində bütün yəhudilərin zorla xristianlaşdırılması haqqında qərar verdi. Bu, ölkənin müxtəlif bölgələrində narazı qüvvələrin ayaqlanmasına səbəb oldu. İraklinin hakimiyyətinin ilk illərində onun Sasani imperiyasına qarşı cəsarətsiz və qorxaq addımlarını görmək olar. O, heç bir nəticəsi olmayan sülh danışıqları aparırdı. Sasani orduları bu cəsarətsizlikdən ruhlanaraq, yen-yeni Bizans ərazilərini işğal edirdi. Onlar Suriya və Antoxiyanı (611), Fələstini (614), Misiri (619) işğal etdilər [ 10, s.118]. Misirin işğal edilməsi, İrakli üçün yeni bir problem yaratdı. Misir Konistantinopolun əsas buğda bazası hesab edilirdi. Onun işğali edilmesi, ərzaq çatışmamazlığı yaradırdı. Şərqdə Sasani şahı Xosrovun parlaq qələbələri Balkan yarmadasında Avar təhlükəsi, Bzansı çıxılmaz vəziyyətə salmışdı. Bütün təhlükələri sovuşdurmaq üçün, imperator İrakli özündə güc və cəsarət tapa bildi. F.İ.Uspenski bildirir ki, «622-ci ildən başlayaraq, imperator İrakli müəyyənləşdirilmiş xarici siyasət kursu ilə çıxış edir, özü tərəfindən yaradılmış və sistemləşdirilmiş yeni ordunun komandanlığını öz üzərinə götürmüşdür » [14, s.405].

O, 620-ci ildə yenidən Avar xanı ilə sülh müqaviləsi bağladı. Lakin müqavilənin şərtləri İrakli üçün çox ağır idi. O, böyük miqdardakı xəracdan başqa, oğlu İonni və bacısı Mariyanın oğlu Stefanı xanın yanında girov qoymaq məcburiyyətində qalmışdı. Əldə olunmuş sülh müqaviləsinə baxmayaraq, imperator Avar xanına inanmırdı. İrakli bu çətin şəraitdən çıxmaq üçün, Qərbi Türk xaqanlığı ilə münasibətləri sıxlaşdırmağa başladı [9]. Qafqaz uğrunda Sasani-Bizans arasında mübarizə gedirdi. Bu regona qonşu olan Qərbi Türk xaqanlığınında işğalçı niyyətləri var idi. Bizans üçün Cənubi Qafqazı Qərbi Türk xaqanlığı ilə bölüşdürmək, Sasani imperiyası ilə bölüşməkdən, daha məqsədə uyğun idi. Çünki Sasani imperiyasının hədəfləri və istəkləri daha geniş idi. O, Bizansla heç nəyi bölüşmək istəmirdi. Xaqanlığın maraq dairəsi Bizansla kəsişmirdi. Digər tərəfdən, Xaqanlıq və Bizans yaxınlaşdığı zaman, ikincinin, dövlət kimi mövcudluğu sual altında idi. Sasani imperiyası 608, 615, 626-cı illərdə Bizansın paytaxtı Konistantinapolu mühasirəyə almışdır [10, s.118].

Bu yaxınlaşmada Bizansın iki üstünlüyü var idi. Birinci, Qərbi Türk Xaqanlığının həm Orta Asiya, həm də Cənubi Qafqazda Sasani imperiyası ilə qonşu olması, ikinci, Cənubi Qafqaz ölkələri, Albaniya, İberiya və Ərməniyyənin Xristian dininə etiqad etmələri idi. Digər tərəfdən, imperator İrakli Avarları neytrallaşdırmaq üçün, anti Avar cəbhəsi yaratmağa nail olmuşdu. O, avarların və slavyanların maraqlarını parçaladı [14, s.429]. İrakli Sasani imperiyasina qarşi müharibənin yeni mərhələsini Cənubi Qafqazdan başladı. Onun xəzərlərlə yaratdığı dostluq münasibətləri bu cəbhədə uğurun başlıca səbəblərindən biri oldu. Sasani ordusuna öz ərazilərində vurulan zərbə hərbi-strateji və taktiki baxımdan çox uğurlu oldu. Xəzərlərlə-Bizans arasında müqavilənin şərtlərinə gorə, Xəzər ordusu Sasani torpaqlarına hücum etməli və Qafqazın dağlıq keçidlərini nəzarətdə saxlayaraq, şimal istiqamətdən təhlükəsizliyi qorumalı idı [14, s.433].

Xəzər –Bizans güclərinin birgə fəaliyyəti Sasani imperiyasını çətin vəziyyətə saldı. Qeyd olunmalidır ki, Türk xaqanlığı ilə Bizans arasında ittifaqin tarixi yeni deyildi, 529-cu ildə Bizans və Sasani imperiyaları qərb sərhədlərində müharibə apararkən, Türk ordusu Dəryal keçidini keçərək, Albaniya və Ərməniyyəyə hücum etmişdilər [8, s.125]. 625-ci ildə Bizans danışıqlar üçün öz elçisini xəzərlərin yanına göndərmişdi [9, s.9]. Çox güman ki, bu görüşdə, müharibənin vaxtı və planı müzakirə olnmuşdur. L.N.Qumlyov bildirir ki, Bizans-Sasani münasibətlərində avarlar sabirilər kimi mövqelərini dəyişdilər. İlk zamanlarda avarlar Bizansla müttəfiq olsalar da, sonralar Sasani imperiyası ilə ittifaqa girdilər. Nəticədə, Avar-Sasani və Xəzər- Bizans ittifaqı yarandı [8, s.37-39]. 627-ci ildə xəzər ordusu Şadın başçılığı altında Albaniyaya hücum etdi. Onlar, orada çoxlu sayda əsir və böyük miqdarda qənimət ələ keçirdilər. Xəzərlərin hücumu Bizans ordularının Qafqaz cəbhəsindəki manevr imkanlarını asanlaşdırdı, digər tərəfdən, Sasani ordularının gücünü zəiflətdi [4, s.146].

Gözlənilmədən, Bizans ordusu Sasani imperiyasının paytaxtına doğru hərəkət etdi. Onlar Ktesifonun yaxınlığına qədər irəlləyə bildilər. İmperator İrakli Qandzakda olarkən, Sasani sarayında

çevriliş baş verdiyini eşitdi. Sui-qəsd nəticəsində Xasrov Pərviz öldürülmüş, yerinə oğli Qubad Şiruyyə gətirilmişdi. Müharibənin uğursuz və nəticəsini qeyr müəyyənliyini görən Qubad, Bizansla danışıqlara başladı. 628-ci il 3 apreldə tərəflər arasında sülh sazişi imzalandı. Bizans Sasani imperiası ilə sülh sazişi imzalasada, Xəzər orduları Cənubi Qafqazda hərbi əməliyyatlarını dayanırmadılar. Xəzər ordusu Tiflis qalasını aldıqdan sonra, qala komandanın dərisini soyaraq, İrakliyə göndərdilər [4, s. 150]. Xəzərlər Albaniyaya hücum edərək, onu işğal etdilər. Bu hadisələrdən, o nəticəyə gəlmək olar ki, ya xəzərlər bu addımları Bizansla aralarındaki razılaşmaya uyğun atırdılar, və ya onlar öz haqqlarını qəbul etdirmək üçün, müttəfiqlərinə təyziq edirdilər.

Qərbi Türk xaqanlığında başlayan vətəndaş müharibəsi xəzərləri Albaniyanı tərk etmək məcbur etdi [2, s.260]. III Yəzdəgirdin (632-652) zamanında Albaniya Sasani imperiyasının tərkibinə qatıldı [4, s.155]. V.V.Bartold yazır ki, «Xaqan Şabolanın (634-638) hakiyyəti illərində xaqanlıqdakı xalqlar iki yerə bölündü, qərblilər Nişubi, şərqlilər Dulo sülaləsini müdafiə edirdilər [5, s.33]. Baş verən vətəndaş muharibəsi VII əsrin ortalarında Qərbi Türk xaqanlığının mövcudlğuna son qoydu. Onun qərb ərazilərində yeni dövlət, Xəzər xaqanlığı yarandı [9, s.31].

*1.2. Ərəb xilafətinə qarşı Bizans-Xəzər ittifaqı.* Bu hadisələrin baş verdiyi dövürdə, Ərəbistan yarmadasında yeni dövlət yaranırdı. Bu, Məhəmməd ibn Abdullahın ( s.a.v) başçılığı altında yaranan Mədinə şəhər dövləti idi. Sonralar Ərəb xilafəti adlanan bu dövlət az bir zaman ərzində Sasani İmperiyasını tarixdən silərək, Bizans imperiyasının mövcudluğunu sual alitında qoydu. Şimal sərhədləri Dərbənd şəhərinə çatan Xilafət, yeni yaranmış Xəzər xaqanlığı üçün də təhlükə mənbəyinə çevrildi.

Bizans sürətlə öz ərazilərini itirirdi. Buna baxmayaraq, onların ittifaq üçün xəzərlərə müraciət etdikləri haqqında, məlumat yoxdur. Bunu belə izah etmək olar ki, ya tərəflər arasında müəyyən narazılıqlar olmuşdur, və ya xəzərlərin kifayət qədər gücünün olmaması haqqında, onların məlumatları var idi. F.İ.Uspenski Bizansın məğlubiyyəti səbəblərini təhlil edərək, bildirir ki, «Ərəb–Yunan müharibələrində yunanların məğlubiyyətinin səbəbi, onların arasında satqınlıq, qorxaqlıq və xəyanətin adi hal alması idi» [14, s.536]. Ərəb xilafəti eyni zamanda müxtəlif cəbhələrdə müharibələr aparırdı. Bizans imperiyas və Xəzər xaqanlığı təklikdə onlara müqavimət göstərmək gücündə deyildilər [7, s.59]. Bu problem, yenidən Bizans və Xəzər ittifaqının zəruriliyini ortaya qoydu.

Xəlifə Ömər bin Xəttabın (634-644) hakimiyyətinin sonlarında artıq Ərəb xilafət Xəzər xaqanlığının cənub qonşusu idi. Ərəb orduları bununla kifayətlənməyib, xəlifə Osman bin Affan (644-656) hakimiyəti zamanı Xəzər ərazilərinin dərinliklərinə doğru üz tutmuşdular. Lakin onun hakimiyyətinin ikinci yarısından başlayaraq, Xilafət daxilində çaxnaşmalar və xəlifə Əli bin Əbu Talibin (656-661) zamanındaki vətəndaş müharibələri, ərəbləri hədəflərindən yayındırdı. Xilafət daxilində baş verən hadisələr Bizans və Xəzər xaqanlığının leyhinə oldu. Bizans bu hadisələrdən ordusunun dincəlməsi, döyüş qabiliyyətinin bərpas və iqtisadi dirçəlişi üçün itifadə etdi. Xəzərlər isə şimal istiqamətində öz ərazilərini genişləndirdilər. Onlar Bulqar xanı Kubratın ölümündən sonra, dörd yerə bölünmüş xanlığın ərazilərini işğal etdilər [13, s.21].

Xəzərlər qərb istiqamətində hücum edərək, Bizansa məxsus olan Krım yarmadasının bir hissəsini işğal etdilər. Onlar Xersonu işğal etməsələr də, onu ərzaqla təmin edən bolgələrlə əlaqələrini kəsdilər [4, s.211-212]. Xersonun iqtisadi vəzyiyəti Roma Papasının Xersondakı nümayəndəsi Martının Konistantinapoldakı dostuna yazdığı məktubda ayydın şəkildə görünür. «Bu torpaqlarda aclıq və ehtiyac o səviyyədədir ki, çörəyin adını eşidirsən, özünü görmürsən. Buna görədə, bizə yemək göndərməsələr, yaşaya bilmərik. Bu ölkədə ölməmək üçün, pulla yemək tapmaq olmur. Oradan çörək, şərab, zeytun yağı və digər ərzaqlar göngrilləcəksə, tələsin!» [ 9, s.80].

Təbiidir ki, Bizans ərazilərinin xəzərlər tərəfindən işğalı, onlar tərəfindən xoş qarşılanmırdı. Ancaq Ərəb xilafətinə qarşı uğursuz müharibə, buna göz yummağa məcbur edirdi. Xəzərlərin Bizans ərazilərini işğal etməsi, imperiyanın fiziki varlığına təhlükə deyildi. M.İ.Artamonov bildirir ki, VII əsrin ikinci yarısında Xəzər və Bizans dövlətləri arasında umumi siyasi marağa əsaslanan güclü yaxınlıq yox idi. Əksinə, gənc Xəzər dövləti Bizans üçün təhlükəli düşmən idi [4, s.193]. Lakin tədqiqatçının fikirləri ilə razılaşmamaq da olar. Belə ki, Bizans imperatorları II Konstantin (642-668), Konstanin IV Poqanat (668-685) hadisələri yaxından izləyirdilər. Onlar, Balkanlarda Bulqarların siyasətini İmperiya üçün daha təhlükəli görürdülər, nəinki, xəzərlərin Krimin bir

hissəsini ilhaq etməsini. Təsadüfü deyildir ki, Krimin işğalına göz yumsalar da, Konstantin Poqanat Bulqarlara qarşı hücumlar təşkil edirdi [14, s.485]. Digər səbəb, Xəzər xaqnlığının Ərəb xilafəti ilə bir başa həmsərhəd olması idi.

681-ci ildə Hüseyin bin Əlinin Kərbaladakı qətli nəticəsində, Əməvi xilafətində yaranmış siyasi qarşıdurma, Bizansın leyhinə oldu. Onlar Ərəb ordularının hücumlarından sğortalanmaqla yanaşı, Əməvi xilafətindən xəracda alırdı. Bununla yanaşı, onlar Cənubi Qafqazdada fəallaşmışdılar. Demək olar ki, onların xəzərərlə sülh ittifaqı yaratmasına ehtiyacı da yox idi.

685-ci ildə IV Konstantin öldü, taxta onun 16 yaşlı oğlu II Yustinian çıxdı [9, s.82]. Bizan-Xəzər münasibətlərində gərginlik, İmperator II Yustinianın 695-ci ildə saray çevrilişi nəticəsində devrilərək, Xersonesə sürgün edilməs ilə başlayır [3, s.185]. O, sürgün olunsada, yenidən hakimiyətə yiyələnmək ümüdini itirməmişdi, siyasi mübarizəsini sürgündə davam etdirirdi [9, s.84].

Xersonlular onun fəaliyyətindən narahat olaraq, imperator III Tverziyə məlumat çatdırdılar. Xersonluların xəyanətindən xəbər tutan II Yustinian Xersondan qaçaraq, Xəzər xaqanından yardım istədi [13, s.23]. Onun müraciəti xaqan tərəfindən yaxşı qarşılandı. Xaqan bacısını da keçmiş imperatora ərə verərək, qohumluq əlaqələri yaratdı. II Yustinian və xaqan arasında yaxın münasibət və qohumluq, təbii olaraq, Bizans imperatorunda narahatlığa səbəb oldu. O, Xəzər xaqanına hədiyələr göndərərək, II Yustinianın ölüsünü və ya dirisini istədi. Xəzər xaqanı bu təklifi qəbul etdi. Feodora xəbəri eşitdikdən sonra, ərini məlumatlandırdı. IIYustinian Feodoranı xəzər torpaqlarında qoyub, özü balıqçı qayığı vastəsi ilə Dunay bulqarlarının xanı Tervlinin yanına qaçdı [4, s.196-197]. O, xanın köməyilə Konistantinapola qayıdaraq, 705-ci ildə hakimiyyəti yenidən ələ keçirdi. Xəzər xaqanın bir-birni təkzib edən addımları və Bulqar xanın məsələyə baxışının səbəbləri maraq döğurur. Birinci, Qara dənizdə Bizansla qonşu idi. Təbiidir ki, o, Bizansda baş verən dəyişiklikləri yaxından izləyirdi. Bizans taxtına iddəali bir şəxsin müraciətinə laqeyd qalması, mümkün deyildi. Lakin Onun sonrakı addımı sual doğurur.

II Yustinianın elçis Stefan bu maraqları nəzərə alaraq, Tervel xanı razı saldı və bu ittifaqı möhkəmləndirmək üçün, imperatorun qızını xana ərə verdi [14, s.457]. Bu halda, düşünmək olar ki, Xəzər xaqanı II Yustinianın gələcəkdə imperator olmaq perespektivinə tam inamı olmayıb, ona görə də, onu Bizansa təslim etmək fikrinə düşüb.

II Yustinian hakimiyyətə yiyələndikdən sonra, keçmiş xəyanətləri unutmadı. O, istər xersonlulara, istərsə də xəzərlilərə qarşı düşmən mövqeyi sərgilədi. Onun hakimiyətini, ailəsini və öz həyatını itirməsində də, bu yanlış siyasətin səbəbi az olmadı. O, imperatriça Feodora və oğlu Tıveriyanı Konistantinapola gətirdi. Xersonluları cəzəalandırmaq üçün, ora 100 minlik ordu göndərdi. Ordu Xersonda böyük dağıntılara səbəb oldu. Xəzər xaqanın Xersondakı nümayəndəsi əsir tutularaq, digər əsirlərlə birlikdə Konistantinapola aparıldı [3, s.188]. Bunula kifayətlənməyən imperator, Xersona yenidən ordu göndərdi. Xersonlular Xəzər xaqanından onları himayə etmək üçün ordu göndərməsini xahiş etdilər. Xersonluların imperator seçdikləri Filip xaqanlıq ərazisinə qaçdı [ 9, s.87-89].

Xəzər xaqanın himayə etdiyi Filip 711-ci ildə II Yustinianı devirərək, taxta sahib oldu. M.İ.Artamonov II Yustinianın hakimiyyətdən salınmasında xəzərlərin rolu və qazanımını təhlil edərkən, bildirir ki, «onlar Bizansla uzun müddətli və möhkəm ittifaq yaratdı. Bu ittifaqın əsas hədəfi ümumi düşmən, ərəblərə qarşı birgə mübarizə və Cənubi Qafqazda nüfuz sərhədinin bölünməsi idi» [4, s.201].

Bizans imperiyası xəzərlərlə ittafaqın zərurətini 717/18-ci il, Ərəb orduları Məsləmə bin Əbdülməlikin başçılığı altında Konistantinapolu mühasirə etdiyi zaman hiss etdi [15, s.11]. Bu, ərəblərin əleyhinə ikinci cəbhənin açılması demək idi. Həmin il, Xəzər orduları Dərbəndi istila edərək, Cənubi Qafqaza hücum etdilər. İkinci cəbhənin açılması, Bizansı rahatlatdı. Bizans imperatoru Lev III İsavr (717-741) 14 yaşlı oğlu Konistantini Xəzər xaqanının qızı Çiçəklə evləndirdi. Konstantin onun varisi sayılırdı. Bilindiyi kimi, İsavr sülaləsi hakimiyyəti hüquqi varislik nəticəsində əldə etməmişdir. O, uzun zaman imperiya daxilində baş verən anarxiyadan istifadə edərək, hakimiyyətə gəlmişdi. Sülaləsinin hüquqi varisliklə hakimiyyəti bir-birinə ötürməyi təmin etmək vəzifəsidə onun üzərinə düşürdü [14, s.597]. V Konstantin Koproni (741-775) uzun müddət Bizans imperatoru oldu. Çicək xristianlığı qəbul edərək, İrina adını aldı. Bizans sarayında onun xüsusi nüfuzu olmuşdur. Onların oğlu, IV Lev (775-780) xəzər Lev diyə tanınmışdır.

Bu hadisədən sonra Bizans-Xəzər dostluq münasibətləri yüksələn xətlə davam etmişdir. Onlar Krım problemini sülh yolu ilə həll etdilər [15, s.13]. Xerson Bizansa qaytarıldı, yarımadanın böyük hissəsi xəzərlərdə qaldı.

737-ci ildə Mərvan bin Məhəmmədin başçılığındakı Ərəb ordusu Xəzər xaqanlığına qarşı uğurlu hərbi əməliyyat keçirdi. Xəzərlər tam məğlubiyyətə uğradı. Xaqan ölkəsini və hakimiyyətini qorumaq üçün, İslam dinini qəbul etmək məcburiyyətində qaldı. Həmin il, ərəblər eyni zamanda Bizans üzərinə də hüçum etmişlər. Ola bilər ki, bu müttəfiqləri bir-birinə yardımının qarşısını almaq və yaxud da onu minumuma endirmək məqsədi ilə edilmişdir.

Ərəblərə qarşı Bizans-Xəzər ittifaqı öz əhəmiyyətini itirirdi. Şərqi Avropa məkanında isə bu münasibətlər fərqli idi. Abxaziya məsələsində Bizans-Xəzər maraqları kəsişirdi. Abxaziya Bizans imperiyasına tabe idi. Abxaz hakimi II Lev Xəzər xaqanının nəvəsi idi. II Lev xəzərlərə arxalanaraq, müstəqil siyasət aparırdı. O, 787-ci ildə Abxaziyanın müstəqilliyini elan etdi [4, s.248; 3, s.200]. Onlar arasında münasibətləri zədələyən hadisə Krım Qotiyasında yaşandı. Əvvəllər Bizansa tabe olan bu bölgə, VIII əsrdə Xəzər xaqanlığının nəzarətində idi.

Bölgə siyasi baxımdan xəzərlərə bağlı olsa da, dini baxımdan Bizansa tabe idi. 758- ci ildə Krım Qot krallığına İonn Qotski hakim seçildi. O, Xəzər hakimiyyətindən azad olmaq üçün, mübarizəyə başladı. İonn yardım üçün Bizans imperatoru IV Levin dül qadını İrinaya müraciət etdi. Çox güman ki, İrina mərkəzi Krimda öz hakimiyyətlərini bərqərar etmək və ya xəzərlərin nüfuzunu minumuma endirmək üçün, buna razılıq verdi. Xəzərlər Bizansdakı dini münaqişələrdən qorxan yerli qotların köməyi ilə İonn Qotskini zərərsizləşdirdilər. İonn üsyanı xəzərlərin nüfuzunu zəiflətmədi, əksinə, möhkəmləndirdi. Xəzər xaqanın himayəsinə arxalanaraq, çoxlu sayda bulqar ora yerləşdi [9, s.148]. Bizans Xəzər xaqanlığını xristianlaşdırmaq üçün çox saylı cəhdlər göstərsədə, buna nail ola bilmədi. Bizans Şərqi Avropada nüfuzunu qorumaq və Xəzər xaqanlığını zəiflətmək üçün zaman-zaman ruslardan, pəçənəklərdən, alanlardan məharətlə istifadə etmişdir.

*Nəticə.* Bizans-Xəzər münasibətlərinin Bizans imperiyasının mövcudlüğunun əsas səbəblərindən biri olduğunu qeyd etsək, yanılmarıq. Belə ki, Xəzər xaqanlığı Bizans-Sasani müharibələri zamanı müharibənin nəticəsini Bizansın leyhinə dəyişilməsində böyük rol oynamışdır. Ərəb xilafətinə qarşı xəzərlərin 100 illik müharibəsi Bizans imperiyası üçün həyati əhəmiyyət daşımışdır. Ərəb orduları yaxın cəbhələrdə qüvvələrini bölmək məcburiyyətində qalmışdır. Bizans – Xəzər münasibətləri müsbət və mənfi çalarla zəgin olmuşdur. Yuxarıda qeyd edilmiş hadisələrdən çıxış edərək, demək mümkündür ki, Xəzər xaqanlığı yeni yaranmış bir dövlət olmasına baxmayaraq, Bizans kimi, qədim dövlət ənənələri olan bir imperiyanın hakimiyyət oyunlarında yaxından iştirak etmiş və əsas tərəflərdən biri olmuşdur. Xəzər xaqanlarının bəsirəti də diqqətə layiqdir. Onlar, çox zaman dövlət məsələlərini şəxsiləşdirməmişlər. Bəzən onları ağrıdan şəxsi məsələlərə dövlətçilik nöqteyi-nəzərindən baxmışlar. Bunu, Xəzər xaqanın himayə etdiy imperator Filipin hakimiyyəti zəbt etikdən sonra, Feodoranın və az yaşlı oğlu Tıveriyanı qətl etdirməsində də, görürük.

## ƏDƏBİYYAT


1. Azərbaycan Tarixi. Dərslik / Red. hey. Z.M.Bünyadov, T.Ə.Bünyadov, Ə.Q.Səfərli, Y.B.Yusifov, İ.H.Nərimanov.- Bakı: Azərnəşir, - 1994, -680 s.
2. Brook, K. A. Hazar yahudileri:/K.Brook. - İstanbul: Nokta kitab, - 2005. -473 s.
3. Dunlop D.M. Hazar Yahudi tarihi:/ D.Dunlop. - İstanbul: Selenge Yayın evi, - 2008. – 304 s.
4. Артамонов.М.И. История Хазары:/M.Artamonov.-Ленинград: Государственные Эрмитажи, - 1962. – 522 с.
5. Бартольд. В.В. Сочинения (9 томах) / В.Бартольд. - Москва: Восточной Литературы, т. 2. - 1964. – 658 с.
6. Гийу Андре. Византийская Цивилизация: Пер. с фран. Д Лоевского /А. Гийу. -Екатернбург: У-Фактория, - 2007. – 545 с.
7. Гумилев Л.Н. Древня Русь и Великая Степь:/Л.Гумилев. - Москва: Мысль, -1989. – 764 с.
8. Гумилев Л.Н. Древние Тюрки:/ Л. Гумилев.- Москва: Наука, -1967. -501с.
9. Ивик Олег. Хазары : /О. Ивик, В. Ключников. - Москва: Ломоносов, -2015. – 336 с.

10. История Ирана / Отв. ред. М.С.Иванов. - Москва: МГУ, -1977. - 488 с.
11. Никофор Григор. Римскя история:/ перевод с гречес. Е.Хвальков. -Москва: Восточная Литература, - 2011.
12. Новосельцев А.П. Хазарское государство и его роль в истории Восточной Европы и Кавказа:/ А. Новосельцев.- Москва: Наука, -1990. – 264 с.
13. Плетнева.С.А. Хазары: / С. Плетнева.- Москва: Наука, - 1986.- 96 с.
14. Успенский Ф.И. История Византийской империи VI-IX вв:/. Ф Успенский. -Москва: Мысль, -1999. – 827 с.
15. Чичуров.И.С. Византийские исторические сочинения:/ И. Чичуров -Москва: Наука, - 1980. – 213 с.

**MAHERRAM AHMEDOV**
***Doctoral student of NASA***

## MILITARY- POLITICAL RELATIONS BETWEEN THE KHAZARKAGANATE AND BYZANTINE EMPIRE

Khazar - Byzantine relations are one of the most important stages of medieval history. Although the history of friendly relations between the Khazars and Byzantium is more ancient, the author analyzed the joint struggle against the Arab Caliphate and the Byzantine-Khazar relations against the Sassanids at the beginning of the 7th century. In addition, he analyzed the role and influence of the KhazarKhaganate in Byzantine court conflicts. After analyzing a variety of literature, he comes to the conclusion that the Khazar Kaganate played an important role in preserving the existence of Byzantium. The main goal of the Sassanid Empire and the Arab Caliphate was to put an end to the Byzantine Empire. However, the Byzantine-Khazar alliance prevented them from fulfilling this goal. Of course, at times there were unfriendly relations between the Khazars and Byzantium, and the author tried to reveal and analyze them.

*Keywords*: Khazar, Byzantine, empire, war, relations.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 03 fevral 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 06 yanvar 2021-ci il.*
*Rəyçilər: t.ü.f.d Xeyirbəy Qasımov, t.e.d. İsmayıl Məmmədov.*

**UOT 94(479.24); UOT 94"04/15"**

**NİGAR HƏMİDOVA**
*Bakı Dövlət Universiteti, doktorant*
**E-mail: nigaribrahimova555@gmail.com**

# ATABƏYLİK MÜƏSSİSƏSİ VƏ ATABƏY ŞƏMSƏDDİN ELDƏNİZ

*Böyük Səlcuqlu imperiyasının parçalanması nəticəsində Orta Şərqin müxtəlif bölgələrində atabəylik adlı yeni müstəqil dövlətlər meydana gəldi. Bu titul əslində qədim türk dövlətçiliyinin ənənələrinə əsaslanaraq bu dövlətlərin başçılarına verildi. Məqalədə atabəy institutunun təkamül dinamikasına yenidən baxılmış və dövrün ilkin mənbələri, eləcə də mövcud tədqiqat əsərləri əsasında təhlil edilmişdir. Atabəylik müəssisəsinin təkamülü prosesi Azərbaycan Atabəyliyinin qurucusu və ilk hökmdarı olan Atabəy Şəms əd-Din Eldənizin fəaliyyəti əsasında da dəyərləndirilmişdir.*

*Açar sözlər:* Atabəylik müəssisəsi, Atabəy Eldəniz, Atabəylər dövləti.

*Giriş*. Səlcuqlularda və daha sonra meydana gələn türk dövlətlərində istifadə olunan, türkcə idari termin olan "atabəy" adı ata və bəy sözlərindən yaranmışdır. Atabəy adı əvvəlki türk mədəniyyətlərində mövcud olsa da, ilk dəfə siyasi və hüquqi məna qazanaraq Səlcuqlu dövründə meydana çıxmışdır. Səlcuqlularda atabəy adı ilk dəfə vəzir Nizamülmülkə verilmişdir. Bu haqda mənbələrdə kifayət qədər məlumat var. İbn əl-Əsir Məlikşahın hakimiyyətindən bəhs edərkən, Məlikşahın dövlət işlərinin idarəsi ilə birlikdə bir neçə ünvanla bərabər atabəy ünvanını da Nizamülmülkə həvalə etdiyini və ona atəbəy adını verdiyini qeyd edir [6,712]. Mirxond qeyd edir ki, Malazgird döyüşündən sonra Sultan Alp Arslan oğlu Məlikşaha dövlət işlərinin sirlərini öyrətməyi Nizamülmülkə həvalə etmiş və ona "ata", "hoca" "atabəy" kimi adlar vermişdir [5,38]. Rauf Hüseynov isə Nizamülmülkün 1063-1092-ci illərdə Səlcuq imperatorları Alp Arslan və Məlikşahın vəziri olduğunu, bununla yanaşı hər iki sultanın atabəyi vəzifəsini daşıdığını bildirir [10,182]. 1082/1083-cü illərə aid bir neçə epiqrafik kitabələrdə Abbasi xəlifəsi əl-Müqtədi, Məlikşah və Tutuşun adından sonra Nizamülmülkün adı "Vəzir, şeyx əl-əcəll, Nizam əl-Mülk atabəy" şəklində qeyd edilmişdir [10,183].

*Səlcuqlu dövlətindən əvvəlki müsəlman-türk dövlətlərində atabəylik müəssisəsi.* Atabəyliyin Səlcuqlulardan əvvəlki müsəlman türk dövlətlərində, yəni Qaraxanlılar və Qəznəvilərdə mövcud olması haqqında heç bir bilgimiz yoxdur. Qaraxanlılar sülələsi ilə bağlı qaynaqların azlığı bu bilgisizliyə səbəb olsa da, Qəznəvilər haqqında kifayət qədər bilgimiz olduğundan onlarda bu müəssisənin mövcud olmadığını söyləyə bilərik. Oğuz ənənələrinə sadiq qalaraq imperatorluqlarının əsasını qoyan Səlcuqluların atabəylik müəssisəsini daha islamiyyətdən əvvəlki türk dövlətlərindən aldıqlarını və yaxud daha qədim bir ənənəni davam etdirdiklərini söyləmək olar. Çünki bu qədər əhəmiyyətli bir müəssisə Səlcuqlular dövründə birdən-birə yarana bilməzdi. Bu məsələ ilə bağlı əlimizdə bir neçə material vardır ki, onlar da atabəy adının Səlcuqlulardan əvvəl mövcud olması haqqında məlumat verir. Bu barədə ilk dəqiq məlumatımız Oğuz Yabqu dövləti başçısı Əli xanın öz oğlu və vəliəhdi Qılınc Arslana "Şahməlik" adıyla birlikdə Bəkdüz Kuzıci adlı birini də atabəy təyin etməsidir [12, s.289]. Bu məlumat atabəy adının Oğuzlar dönəmindən mövcud olduğu haqqında məlumat verir.

Göytürklərdə də atabəy adının mövcud olmasına dair bir neçə faktlar vardır. İkinci Göytürk dövlətinin banisi İltəriş Kağan, vəziri isə Tonyuquq idi. Tonyuquq eyni zamanda İltərişdən sonra taxta çıxan qardaşı Kapağan Kağana da "atabəylik" etmişdir [8, s.289-290]. Son illərdə rus araşdırmacılarından N.N.Kozmin Göytürklər tərəfindən yazılan, həmçinin tarixdə Göytürk yazıları kimi tanınan Orxun kitabələrində kitabələrin yaradıcısı olan Yolluq Tiginin öz-özünə verdiyi "Kül Tiginin atısı" ləqəbi üzərində dayanaraq, indiyə qədər bu kitabələrin tərcüməsi ilə məşğul olan Tomsen, Radloff və Melioranskiy kimi alimlərin şübhəli olaraq üzərində dayandıqları bu ləqəbin "atabəy" mənasına gəldiyini isbata çalışmışdır [6, s.712]. Bu məlumatları əsas alaraq qədim türklərdə "vəzirlik" məqamının "atabəylik" olduğunu söyləyə bilərik. Bu müəssisənin qədimliyi yalnız bunlarda deyil, digər türk siyasi təşəkküllərində və qəbilə konfederasiyalarında olması ehtimalı

atabəyliyi qədim türk ailə hüququna bağlayan bəzi etnoqrafiq müşahidələrlə də qüvvətlənməkdədir. Qafqazda müxtəlif qövmlərin ailə həyatları haqqında araşdırmalar aparan bəzi alimlər, bir neçə türk zümrələrinin öz uşaqlarını hələ kiçik ikən yad bir ailədə tərbiyə etdirdiklərini və bu ailəyə atalıq adı verildiyini, beləcə bu iki ailə arasında hüquqi bir qohumluq yarandığını qeyd edirlər. Krım xanlarının da şahzadələrinə tətbiq etdikləri bu adətin mənşəyi nə olur olsun, bunda atabəylik siyasi müəssisəsinin ictimai köklərini görmək mümkündür [6, s.714]. Beləliklə, əldə etdiyimiz məlumatlara dayanaraq söyləyə bilərik ki, atabəylik müəssisəsi Səlcuqlu dövründə birdən-birə yaranmamış, türklərə məxsus qədim ictimai-siyasi müəssisə olub, Səlcuqlu imperatorluğu dövründə yenidən siyasi məna daşıyaraq müstəqil bir təşkilat kimi meydana çıxmışdır.

Atabəylik müəssisəsi və atabəy ünvanı atabəy sülalələrindən sonra da Osmanlı dövlətində lələ, Misirdə yaranan Məmlüklər dövlətində "atabəy əl akasir" ordu komandiri vəzifəsi mənasında işlənmişdir. Əyyubilər dövlətində və Məmlüklərdə bu ad öz varlığını davam etdirirdi. Ancaq mənbələrdən atabəyliyin sonradan əsgəri bir vəzifə və ünvan mahiyyəti daşıdığı məlum olur: Malik Muizz əl-Din Aybəy Şəcərət əl-Durr zamanında "atabəy əl-əkasir" təyin edilmişdi [6, s.75]. Misirdə əsgəri təşkilatın idarəsini əlində saxlayan bu mühüm vəzifə Məmlük imperatorluğunda, səltənət naibliyindən sonra, dövlətin ən yüksək və ən nüfuzlu məqamı idi. İnzibati idarə təşkilatında Səlcuq imperatorluğunun ənənələrinin təsiri altında olan monqollarda da bu müəssisəni görürük [6,716]. Olcaytu oğlu Əbu Səidə doğulduğunun səkkizinci günü Əmir Sevinci atabəy olaraq təyin etmişdi [6, s.716]. Atabəylik sistemi daha sonra Səfəvilərdə və Osmanlılarda "lala" olaraq ortaya çıxmaqdadır. Lala ünvanının ilk dəfə Türkiyə Səlcuqlularında ortaya çıxdığı məlumdur [12, s.291]. I Şah İsmayıl kiçik yaşlı şahzadələrini dövlətin hüdudlarındakı ən mühüm vilayətlərin idarrəsinə məmur etdiyi zaman əmir əl-üməra ünvanını daşıyan, əksəriyyəti böyük qəbilələrin irsi rəisləri olan nüfuzlu, təcrübəli komandiri lala ünvanı ilə mürəbbi və naibi sifəti ilə onların yanına təyin edirdi [6,716]. Bu ünvan Səlcuqlulardan bəri bir çox müsəlman türk dövlətində gördüyümüz atabəylik müəssisəsinin Səfəvilərdə də XVI əsrdə eyni əhəmiyyətlə və eyni şəkildə yalnız fərqli adda mövcudluğunun şahidi oluruq.

*Atabəylik müəssəsinin siyasi statusu və mahiyyəti.* Tarixi ədəbiyyatda atabəy ləqəbinin siyasi statusu haqqında müxtəlif mülahizələr vardır. Bəzi tədqiqatçılar atabəy ləqəbinin sadəcə bir ünvan olduğunu, bəziləri isə bir məmuriyyətin və vəzifənin adı olduğunu qeyd edirlər. Ancaq fikrimizcə, tarixi qaynaqların verdiyi məlumatlardan aydın olduğu kimi atabəylik Böyük Səlcuq imperatorluğunda çox yüksək bir vəzifə olmuş və sonradan da yüksək bir ünvan mahiyyəti daşımışdır. Səlcuqlu dövlət təşkilatında yer tutan, mühüm bir ünvan və müəssisə olan atabəy adı kimlərə verilirdi? – Bütün qaynaqların Səlcuq idarə sistemi haqqında verdiyi məlumata görə, sultanlar imperatorluq torpaqlarının müxtəlif hissələrini ailə fərdləri arasında böldükləri zaman hələ yaşları kiçik olan şahzadələrə atabəy təyin edirdilər. Oğuz bəyləri və ya sultanın məmlükləri arasından seçilən atabəylər dəyərli xidmət göstərmiş, böyük əmirlik dərəcəsinə yüksəlmiş komandirlər idilər [8, s.549; 6, s.712]. Onlar şahzadənin tərbiyə və himayəsi ilə vəzifələndirilməklə bərabər, göndərildikləri torpaq sahəsinin idarəsi ilə də məşğul olmalı idilər. Atabəylər atəbəy ünvanına sahib olmaqla birlikdə, sultan öldüyü zaman şahzadənin anası ilə evlənə bilər, ayrıca öz qızı ilə şahzadəni də evləndirə bilərdi [8, s.549]. Beləliklə, şahzadənin üzərində nüfuzunu artıran atabəy, şahzadənin səltənətə keçməsi yolunda birinci dərəcəli rol oynayırdı. Bu vəziyyət atabəyliyin qədim türk ailə hüququ ilə əlaqəsini göstərir. Atabəyliyə seçilən əmirlərin türk olmasına xüsusi önəm verilirdi.

Himayəsi və tərbiyəsi atabəyə əmanət edilən şahzadələrin əsgəri və dövlət işləri baxımından yaxşı yetişdirilməsi üçün göndərildikləri əyalətin sərhəd bölgəsi olmasına önəm verilirdi [8, s.550]. Atabəylik şahzadənin tərbiyəsi və himayəsi ilə bərabər, Böyük Səlcuq imperatorluğunda yüksək rütbəli əmirlərin öz aralarında ittifaq yaradaraq sultana və dövlətə yönələn hər hansı bir təhdidin qarşısını almaq məqsədi ilə yaradılmış bir sistem idi [8, s.550].

Atabəylik müəssisəsi Böyük Səlcuqlu imperatorluğundan başqa onun qolları olan Kirman Səlcuqluları, Türkiyə Səlcuqluları və Suriya Səlcuqlularında da tətbiq edilmişdi [8, s.550].

Atabəylik ilk başlarda şahzadələrin tərbiyəsi ilə bağlı bir vəzifə ikən zamanla bir ünvana və müəssisəyə çevrilmiş, mərkəzi hakimiyyətin güclü olduğu vaxtlarda müstəqillik üçün sərbəst fəaliyyət göstərə bilməyən atabəylərin dövlət hakimiyyətinin zəifləməsi ilə birlikdə himayələrində olan şahzadələrin yerinə öz adlarına hakimiyyəti icra etməyə başlamaları üzərinə bu ad ilə tanınan dövlətlər meydana çıxmışdır. Sultan Səncərin ölümündən sonra atabəylərdən bir çoxu tərbiyəçisi olduqları Səlcuq şahzadələrinin yerinə hakimiyyətlərini doğrudan-doğruya icra etməyə başladılar, yəni uzun zamandan bəri feli hakimiyyətlərinə hüquqi şəkil verdilər [6, s.714]. Beləliklə, ortaçağ islam tarixində, Səlcuq sülaləsinə xələf olaraq ümumi surətdə Atabəylər deyilən müxtəlif sülalələr təşəkkül etdi: Dəməşq Atabəyliyi - Toğ-Teginlər (1104-1154), Azərbaycan Atabəyliyi-Eldənizlilər (1136-1225), Fars Atabəyliyi-Salgurlular (1194-1286), Mosul Atabəyliyi-Zəngilər (1127-1233) [8, s.550; 6, s.714].

*Atabəylik məüssisəsi və Şəmsəddin Eldəniz*. Mövcud olan yeni vəziyyət Orta Şərqdəki türk hakimiyyətinin ikinci dövrünün başlaması idi. Yəni, Səlcuqlularla birlikdə böyük bir türk imperatorluğu hakimiyyətdən çəkilir, onun yerinə daha kiçik və bölgəsəl türk dövlətlərinin hakim olduğu yeni bir dövr başalyırdı. Elə bu dövrdə ortaya çıxan türk dövlətləri içərisində Qafqaz bölgəsinin hakimi Azərbaycan Atabəylər dövləti önəmli rol oynayırdı. Bu dövlət 75 il yaşayaraq həm qərbi İran, həm də Azərbaycanda güclü bir hakimiyyət quracaq, bununla bərabər artıq süquta doğru gedən İraq Səlcuqluları dövlətinin 25 ildən çox yaşamasına kömək edəcək, Abbasi xəlifələrinin yenidən Orta Şərqdə hakimiyyətlərini qurmağa yönələn siyasətlərini önləyəcəkdi. Və bütün bunları bacaran Səlcuqlu əmiri Atabəy Şəmsəddin Eldəniz idi.

Orta əsr mənbələri Atabəy Şəmsəddin Eldənizin ailəsi və uşaqlığı haqqında cüzi məlumatlar vermişdir. Ancaq XV əsr müəllifləri olan Mirxond (1433-1498) "Rövzət əs səfa" və onun nəvəsi Xondəmir (1475-1536) "Həbib əs-siyar" əsərində Eldənizin gəncliyi haqqında bir qədər ətraflı məlumat vermişlər [4, s.48]. Mirxond öz əsərində yazır: Məlumatlı tarixçilər xəbər verirlər ki, qıpçaq ölkəsində qədim çağlarda belə bir adət var idi: əgər hər hansı bir tacir bir dəfəyə 40 qul alsaydı, onları satan ondan yalnız otuz doqquz qulun pulunu alır, qırxıncını pulsuz verirdi. Belə olmuşdu ki, Sultan Mahmudun hakimiyyəti dövründə (1118-1131) bir qul alverçisi 39 qulu satıb, qırxıncı qul üçün pul götürməmişdi. Həmin qul da yöndəmsiz və çirkin Eldəniz olmuşdur [4, s.48]. İraqda bu qulları sultanın vəziri Əbu Hamid Əli ibn Əhməd əs-Sümeyrəmi tacirdən satın alır [9, s.46]. Eldəniz ilk əfəndisi olan vəzir Sümeyrəminin yanına kölə olaraq gətirildikdən sonra qısa zamanda onun rəğbətini qazanmışdır. Sümeyrəminin 9 may 1122-ci ildə Bağdadda Batinilər tərəfindən bir suiqəsd nəticəsində öldürülməsindən sonra bütün sərvəti Sultan Mahmud tərəfindən müsadirə edilincə, Eldənizin də yeni əfəndisi İraq Səlcuqluları sultanı oldu [9, s.46]. Sultan Mahmudun 1131-ci ildə ölümündən sonra qısa müddət taxta oğlu Davud, daha sonra qardaşı Toğrul keçdi. Sultan II Toğrulun hakimiyyəti zamanı Eldəniz sultanın şəxsi məmlükləri sırasına keçirildi. Sultanın məsləhətçisi olan xanımı Mömünə xatın Eldənizə xüsusi iltifat göstərirdi. Eldəniz Mömünə xatının göstərişlərinə əməl edərək heç vaxt saray münaqişələrinə qarışmır və bir-birilə kəskin ədavət aparan əmirlərin hər hansı bir dəstəsinin tərəfini saxlamırdı. Eldəniz tezliklə sultanın rəğbətini qazanır və Sultan II Toğrul onun sadiqliyini qiymətləndirərək onu əmir rütbəsinə qədər qaldırır [9, s.47]. Çox keçməmiş Sultan II Toğrul Eldənizi kiçik yaşlı oğlu Arslan şahın atabəyi vəzifəsinə təyin etdi [4, s.49]. Sultan II Toğrulun ölümündən sonra Sultan Məsud atabəy Eldənizi mərhum II Toğrulun dul qadını Mömünə xatınla evləndirdi və onu iqamətgahı Gəncə olan Arranın valisi təyin etdi. İbn əl-Əsir "Əl kamil fi-t-tarix" əsərində yazır: Arrana gedəndən sonra Eldəniz nə Sultan Məsudun, nə də başqalarının xidmətinə qayıtmadı. Sonra Eldəniz Azərbaycanın böyük hissəsinə, əl-Cibal ölkəsinə, Həmədana və onun torpaqlarına, İsfahana, Reyə və başqa yerlərə malik oldu və bu yerlərdə arvadının oğlu olan Arslan şah ibn Toğrula xütbə oxutdurdu [7, s.116].

Eldənizin gəldiyi zaman Azərbaycan və Arran torpaqlarının valisi olan Qara Sunqur gürcü basqınlarına qarşı mübarizə aparırdı. Qara Sunqurun ordusu ilə birlikdə Fars və Xuzistanda olduğu vaxt gürcü komandir Yovane zəlzələ nəticəsində dağılmış Gəncəyə hücum etmiş, minlərlə insanı öldürmüşdü. Həyat yoldaşı və uşaqları da ölənlər arasında olan Qara Sunqur gürcüləri geri çəkilməyə müvəffəq olsa da, ailəsinin ölümünə dayana bilməyib Ərdəbildə vəfat etmişdi (1140-1141) [9, s.47].

Onun ölümündən sonra Sultan II Toğrulun kölələrindən olan Çavlı Candar bölgənin idarəsini öz əlinə aldı və bu vəziyyət Sultan Məsud tərəfindən təsdiq olundu [9, s.48]. Çavlı Candarın 1146-cı ildə ölümündən sonra iqtaları olan Gəncə və Arran torpaqları Hacib Əbdürrəhman Toğan Yürəyə atabəy adı ilə iqta edildi [4, s.39]. Bu əmirin üsyançı hərəkətlərini görən Sultan Məsud Əmir Xass-bəy və Zəngi Candarın əli ilə gürcülər üzərinə yürüşə hazırlanan Toğan Yürəyi öldürtdü [9, s.48]. Bu güclü əmirlərin ortadan qaldırılmasından sonra bütün Azərbaycanın idarəsi 50 minlik güclü orduya sahib olan Atabəy Şəmsəddin Eldənizin idarəsi altında oldu. Sultan Məsudun Azərbaycanda canişini olan Çavlının ölümündən (1146) sonra Eldəniz yaranmış qarışıqlıqdan istifadə edərək, Naxçıvan vilayətini də öz torpaqlarına birləşdirdi [7, s.110]. Eldənizin atabəy olaraq Azərbaycana göndərildiyi tarixin mənbələrdə dəqiq olaraq göstərilməməsi tarixçilər arasında bu məsələ ilə bağlı fikir ayrılığı yaradır. Ziya Bünyadov Eldənizin Azərbaycana göndərildiyi tarixi, dolayısı ilə Atabəylər dövlətinin yaranmasını 1136-cı il olaraq qeyd edir. Müəllif yazır: Sultan Məsud 1136-cı ildə Arranı Atabəy Eldənizə iqta torpağı verdi və o, Bərdəyə öz iqamətgahına yola düşdü [1, s.49]. İbn əl-Əsir 543 (1148) il hadisələrindən bəhs edərkən Eldəniz üçün “Gəncə və Arranın sahibi” sözünü işlətmişdir [7, s.110]. Bu tarixdən əvvəlki hadisələrdən bəhs edərkən Azərbaycanın və Arranın sahibi olaraq Qara Sunqur, Çavlı və Toğan Yürəyi qeyd etmişdir. Bunu əsas gətirərək bəzi tarixçilər Eldənizin Azərbaycan atabəyliyinə təyin olunmasını 1148-ci il kimi qeyd edirlər.

İraq Səlcuqlu dövləti qulamların və dövlətdə əsgəri xidmətdə olan türkmən bəylərinin basqı və təhdidi altında qalmışdı. Bu qulam və türkmən bəyləri Abbasi xəlifələri ilə, həmçinin türklərin Orta Şərqdə varlığına son qoymağı özünün milli siyasəti halına gətirmiş bir qrup insanlarla ortaqlıq etməkdən çəkinmirdilər. Bütün bunlar Səlcuqluların bölgədə nüfuzuna zərbə vururdu. Ancaq Eldəniz uzaqgörən siyasəti nəticəsində bu əmirlərdən fərqlənirdi. O, Sultan Məsuddan sonra taxta çıxan hökmdarların yanlış idarəetmələri nəticəsində İraq Səlcuqluları dövlətinin süquta doğru getdiyini görmüş, dövləti idarəsi altına alaraq süqutunu gecikdirmişdi. Səlcuqlu xanədanı çökərkən onların hakim olduqları torpaqlar üzərində mərkəzi hakimiyyət quraraq, türklərin hakimiyyətini qorumağa çalışmış və oğullarını bu yöndə yetişdirmişdi [9, s.49]. Həyat yoldaşı vasitəsilə Səlcuqlu sarayına qohum olması ona bu istiqamətdə böyük kömək etmişdi. Mənbələrdən görünür ki, Şəmsəddin Eldəniz bu həyəcanlı dövrdə irəli getməsinə kömək edən döyüşçü və siyasətçi keyfiyyətlərinə malik idi. Mənbələr onun fəaliyyətinin birinci dövründən danışarkən sultana və onun ailəsinə sədaqətliyini qeyd edirlər.

Sultan Məsudun vəfatından sonra hakimiyyət başına gəlmiş yeni Sultan Məhəmməd xəlifə əl-Müqtəfini öz hökmranlığına tabe etməyə cəhd etdi. İraq və Bağdadda adına xütbə oxunması istəyinin bir neçə dəfə xəlifə tərəfindən rədd edilən Sultan Məhəmməd 30 minlik ordu ilə Bağdad üzərinə yürüş etdi [9, s.51]. Xəlifə Səlcuq əmirlərinin arasındakı ziddiyyətlərdən istifadə edərək, Eldənizi dilə tutdu ki, uzun müddətdir Bağdadı mühasirədə saxlayan Sultan Məhəmmədə qarşı çıxış etsin. Xəlifənin vəziri ibn Hübeyrə bu barədə Eldənizə bir neçə məktub yazdı və Eldəniz Azərbaycan qoşunları ilə İraq sultanlığının paytaxtı Həmədan şəhərinə hərəkət etdi [4, s.192]. Sultan Məhəmməd dərhal Bağdadın mühasirəsindən əl çəkərək, Həmədana yollandı. Lakin Eldəniz gürcülərin Azərbaycana soxulması bəhanəsi ilə öz qoşunlarını dərhal Həmədandan geri çəkdi [4, s.192]. Sultan Məhəmmədin 1160-cı ildə ölümündən sonra taxta kimin keçəcəyi əmirlər arasında fikir ayrılığı yaratmış, Sultan Məhəmmədin qardaşı şahzadə Məlikşah, Süleymanşah və Eldənizin himayəsi altında olan Arslan şah arasında seçim edilmişdi. Nəticədə Süleyman şahın tərəfdarları üstünlük qazandı. Yeni sultan Süleyman şah atabəy Eldənizin qüdrət və nüfuzunu, onun necə təhlükə yarada biləcəyini görüb, atabəyə oğulluğu Arslan şahın vəliəhd təyin edilməsi haqqında əmr göndərdi. Sultan Süleyman şah tədbirsiz, ağılsız və ifrat dərəcədə şərab içən idi [9, s.52]. Əsgərlər onun əmirlərini yerinə yetirmir, əmirlər isə ondan şikayətçi idilər. Beləliklə, əmirlər Arranın və Azərbaycanın əksər yerlərinin sahibi Şəmsəddin Eldənizin yanına adam göndərib onu dəvət etdilər ki, onun yanında qalan Arslan şahın adına xütbə oxutsunlar [9, s.51]. 1161-ci ildə Eldənizin qoşunları Həmədanı tutdu və Sultan Süleyman şah taxtdan salındı, sonra isə qalaya salınaraq öldürüldü. İraq sultanlığının taxtına Eldənizin oğulluğu Arslan şah çıxarıldı. Arslan şahın adı xütbələrdə çəkilməyə, sikkələrdə basılmağa başladı [4, s.192; 7, s.111]. Arslan şah sultan elan

olunduqdan sonra onun atabəyi "ulu atabəy" ləqəbini aldı [3, s.409]. Eldənizin oğlanları - Arslan şahın ana tərəfdən qardaşları da yüksək dövlət vəzifələrini tutdular. Əbu Cəfər Məhəmməd Cahan Pəhləvan böyük əmir hacib vəzifəsinə təyin olundu, Müzəffərəddin Qızıl Arslan Osman isə ali baş komandan oldu [8, s.279]. Beləliklə, Şəmsəddin Eldəniz İraq sultanlığının həqiqi başçısı oldu, Arslan şah yalnız sözdə dövlətin başçısı idi, atabəy Eldəniz "fərmanlar verir, torpaqları iqta şəklində paylayır, xəzinə anbarlarını ixtiyarında saxlayır, özü istədiyi kimi onları ölkənin hər hansı bir yerinə köçürürdü". Bu dövrdən başlayaraq, "atabəy" ləqəbinin "vəliəhd şahzadənin tərbiyəçisi" kimi ilkin mənası öz məzmununu dəyişir və hökmdarın ali tituluna çevrilir. Bu sözü adi mənasından fərqləndirmək üçün ləqəbə "ən böyük" (əl-əzəm) sözü artırılır [3, s.410]. Eldəniz dövlət işlərində həlledici səsə malik idi, o həm də, "məlik" titulunu daşımağa başladı ki, bu da onun hakimiyyətinin öz torpaqlarında irsi olduğunu göstərirdi. O xarici siyasət üçün məsuliyyət daşıyır, müharibə elan olunması və qoşun toplanması məsələlərini həll edirdi. O, həmçinin öz adını sikkə üzərində zərb olunması və xütbələrdə xəlifə və sultan adları ilə yanaşı öz adının da çəkilməsi hüququnu qazandı.

*Nəticə*. Rauf Hüseynov Şəmsəddin Eldəniz və onun varislərinin iki atabəy vəzifəsini daşıdığını qeyd edir: canişin və tərbiyəçi [11, s.89]. Yuxarıda qeyd olunduğu kimi, Sultan Süleyman şah Şəmsəddin Eldənizi 1160-cı ildə "vəliəhd şahzadə Arslan şahın atabəyi" təyin etdi və Arslan şahın taxtın vəliəhdi olması haqqında fərman verdi. Beləliklə, atabəy-canişin Eldəniz atabəytərbiyəçi oldu. Bir məsələyə də aydınlıq gətirək ki, Eldəniz özünü sultan atabəyi təyin etməmişdi. O, şahzadə Arslan şahın atabəyi idi və Arslan şah sultan olarkən də atəbəy olaraq öz vəzifəsini icra edirdi. Eynilə də, Rauf Hüseynovun dediyi kimi, özünü "ulu atabəy" də təyin etməmişdi. Şəmsəddin Eldəniz "ulu atabəy" adını Arslan şahın taxta çıxması ilə əlaqədar olaraq almışdı [11, s.89].

## ƏDƏBİYYAT


1. Ahmed bin Mahmud. Selçuk-name. II cild. İstanbul, "Kervan kitabçılık" 1977, 204 s.
2. Azərbaycan tarixi (Uzaq keçmişdən 1870-ci illərə qədər). Prof. S.S.Əliyarlının redaktəsi ilə. Bakı, "Çıraq", 2009, 872 s.
3. Azərbaycan tarixi. Yeddi cilddə. II cild (III-XIII əsrin I rübü). Bakı, "Elm", 2007, 608 s.
4. Bünyadov Z. Azərbaycan Atabəyləri dövləti (1136-1225-ci illər). Bakı, "Şərq-Qərb", 2007, 312 s.
5. İslam Ansiklopedisi. IV cilt. İstanbul, "Türkiye Diyanet Vakfı" 1991, 559 s.
6. İslam Ansiklopedisi. İslam alemi Tarih, Coğrafya, Etnografya ve Biografya luğati. I cild. İstanbul, "Milli Eğitim Basımevi", 1967, 700 s.
7. İzzəddin ibn Əl-Əsir. Əl-kamil-fi-t-tarix. Ərəbcədən tərcümə Z.Bünyadovundur. Bakı, "Şur" nəşriyyatı, 1996, 192 s.
8. Halit İbrahim Gök. Musul Atabegliği: Zengilər (Musul kolu: 1146-1233). Ankara, "T.C. Yüksek Öyretim Kurulu" 2001, 764 s.
9. Hüseyn Kayhan. Azerbaycan Atabegliğinin kuruluşu və Atabey İldeniz // "Türkiyyət Məcmuası", C.28/1, 2018, s.45-65.
10. Гусейнов Р.А. Институт атабеков // [Православный] Палестинский сборник, вып.15(78): История и филология стран Ближнего Востока. М.-Л., Изд-во АН СССР, 1966, с.181-196.
11. Гусейнов Р.А. Титулатура и тамга Ильдегизидов // "Советская Тюркология", №4 1970, с.87-93.
12. Нəcəf Ə.N. Səlcuqlular dövləti və Atabəyləri tarixi (Oğuzların ortaya çıxmasından – XIVəsrə qədər). Bakı, "Qanun", 2010, 756 s.
13. Ravendi. Rahat-üs-sudur və Ayet-üs-Sürur, türkçeye çeviren Ahmet Ateş, Ankara, "Türk Tarih Kurumu" C.I, 1957, 238 s, c.II, 1960, 470 s.
14. Turan O. Selçuklular tarihi ve türk-islam medeniyyeti. Ankara, "Turan Nəşriyyat Yurdu" 1969, 542 s.

**NIGAR HAMIDOVA**
***Baku State University, PhD Student***

**THE ATABEG INSTITUTION AND SHAMS AD-DIN ELDIGUZ**

As a result of the disintegration of the Greater Seljuk Empire had emerged new independent states in different regions of the Middle East which called Atabegs. The title were given to the heads of these states in fact, based on the traditions of the ancient Turkic statehood. The article revised the evolution dynamics of the Atabeg institution and analyzed on the basis of primary sources of the period as well as the existing scholars' works. The evolution of atabeg title was also assessed on the basis of the activities of Atabey Shams ad-Din Eldiguz who was a founder and ruler of the Atabegs of Azerbaijan.

*Keywords:* Atabeg institution, Atabeg Eldiguz, Atabegs of Azerbaijan.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 17 yanvar 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 06 yanvar 2021-ci il.*
*Rəyçilər: t.e.d.Zabil Bayramov, t.e.d.Qabil Əliyev.*

UOT 94”16/18”

**KÜRŞAD KÖSE**
*Bakı Dövlət Universitetinin doktorantı*
**E-mail: kursadkose207@gmail.com**

# HƏŞTƏRXAN XANLIĞININ YARANMASI

*Həştərxan xanlığının yaranma tarixi kifayət qədər mənbə olmadığına görə aydın deyildir. Həştərxan xanlığının nə vaxt yarandığına dair bir çox müzakirə var. Tarixçilər bu mövzuda müxtəlif fikirlər irəli sürürlər. Bəzi tarixçilər xanlığın XV əsrin ikinci yarısında Qızıl Orda dövlətinin zəifləməsi ilə yarandığını, bəziləri isə XVI əsrin əvvəllərində Qızıl Orda dövlətinin tamamilə süqutu ilə yarandığını düşünürlər. Biz Həştərxan xanlığının 1466-cı ildə Qasım xan tərəfindən yarandığına inanırıq. Bir çox mənbələr baxışımızı dəstəkləyir.*

*Açar sözlər*: Həştərxan xanlığı, Qasım Xan, Qızıl Orda, Krım xanlığı.

*Giriş*. Həştərxan xanlığı Qızıl Orda dövlətinin XV əsrin ikinci yarısında zəifləməsi nəticəsində yaranan xanlıqlardan biridir. XVI əsr əsrin başlarında bugünkü Sibirdə Sibir xanlığı, Dəşt-i Qıpçaqda Nogay Ordası, bugünkü Krımı da içinə alan ərazidə Krım xanlığı, Orta və Yuxarı İtil ərazisində Qazan xanlığı, bugünkü Həştərxan şəhəri və Orta İtil ərazisində Həştərxan xanlığı mövcud idi. Krım xanı Məngli Gərayın 1502-ci ildə Saray şəhərinə saldırması ilə bu dövlət tamamilə sükuta uğramış, daha əvvəl yaranan və Çingiz xanın nəslindən gələn Krım, Qazan və Həştərxan xanları özlərini Qızıl Orda dövlətinin varisi hesablamaqla öz aralarında mübarizə apardılar [1, s.144-146 ].

Həştərxan xanlığının nə vaxt yarandığı bu gün hələ mübahisəlidir. Mənbələrin qeyri-kafi olması səbəbi ilə xanlığın nə vaxt və hansı şəxs tərəfindən yarandığı müəyyən deyildir. Bizim fikrimizcə xanlığın banisi Qızıl Orda xanı Kiçik Məhəmməd Xanın nəvəsi Qasım xandır. Ancaq Rus müəllif İlya Zaytsev 2006-cı ildə nəşr olunan Həştərxan xanlığı kitabında xanlığın, 1502-cü ildə Krım xanı Məngli Gərayın Saray şəhərini işğal edib Qızıl Orda dövlətini yıxması ilə yarandığını iddia edir [2, s.62-63]. Bu mövzu həm keçmişdəki həmdə bugünkü tarixçilər arasında müzakirə edilməyə davam edir. İndi mövzunu mənbələrə əsaslanaraq qeyd edək.

Türk tarixçi Akdes Nimet Kurat Qızıl Orda dövlətinin paytaxtı Taxt-ili (Saray) da baş verən qarışıqlıq və mübarizələr əsnasında Kiçik Məhəmməd xanın oğlu Mahmud xanın oğlu Qasım xanın 1466-ci illərdə Hacı Tarhan (Həştərxan) şəhərində müstəqil bir xanlıq qurduğunu deyir. Kuratın fikrincə Qasım xan Nogay mirzələri tərəfindən xan ilan edilmişdi. Qasım xan ayrıca İtil boyundakı Bərəkzan və Uslan kimi şəhərlərə də hakim idi. Həştərxan xanlığının Həştərxan şəhərində yaranması ilə bu xanlıq Qızıl Orda dövlətinin paytaxtı Saray şəhərinin yerini almaya başladı. Qasım xanın Həştərxanda müstəqil bir xanlıq qurması əmisi olan Qızıl Orda xanı Əhməd xana hoş gəlmədi və aralarında mübarizə başladı [1, s.275-276]. Ancaq 1480-ci ildə Qızıl Orda xanı Əhməd xanın Moskva Knyazı III.İvana elan etdiyi müharibədə qardaşı oğlu Qasım xanın, 6 oğlu və bir çox Tatar ilə birlikdə Əhməd xana kömək etdiyini görürük [3, s.20, 4, s.199]. Ugra çayı sahilində yapılan müharibə 5 gün müddətində davam etmiş ancaq Əhməd xan Moskva knyazlığını cəzalandırma məqsədinə çatmadan Saraya qayıtmağa məcbur qaldı [5, s.122-123]. Akdes Nimet Kuratın verdiyi məlumat düzdür. Rus xroniklərində Qasım xan haqqında братаничь его цар касымь ifadəsindən istifadə edilir. Rus xronikləri və mənbələrinin hamında Qızıl Orda xanları üçün цар= xan titulundan istifadə edilməkdə daha sonrakı illərdə Qazan və Krım xanları müstəqil olduqdan sonra цар titulu onlar üçündə istifadə edilmişdi. Rus xronikləri Həştərxan, Krım və Qazan xanlarına yalnız цар deməkdə, Qızıl Orda xanlığı 1502-ci ildə yıxılana qədər Qızıl Orda xanları üçün царя болшия орды titulundan istifadə edirdilər. 2 xronikdə Qasım xana цар deyildiyi üçün onun müstəqil bir xan olduğunu anlaya bilərik.

Afanasiy Nikitin isimli tacir Rusiyadan Hindistana ticarət etmək üçün yola çıxdı. Bu səyahətlə bağlı təəssüratlarını ‘’Üç Deniz Ötesine Seyahat’’(хождение за три моря) adı ilə yazdı. Bu səyahətin 1466 yada 1468-ci illərdə başladığı təxmin edilir [6, s. IX]. Nikitin bu səyahəti əsnasında Həştərxan şəhərindən və Həştərxan xanı Qasım xandan da qısaca bəhs edir. Nikitin Novgorod şəhərindən yanında Şirvanşah elçisi Həsən Bəylə yola çıxdı. İdil çayının bir qolu olan Buzan çayına çatdıqlarında 3 Tatar, Həştərxan xanı Qasımın tacirləri qarət üçün üç min tatarla

gözlədiyini deyir. Həsən Bəy Həştərxandan təhlükəsiz keçmək üçün tatarlara bir neçə palto verib. Ancaq tatarlar bunları alsalar da Həştərxan xanına xəbər verirlər. Nikitin və Həsən bəy Həştərxanın qarşısında ikən Həştərxan xanı Qasım bəy onlara hücum edir. Edilən müharibə nəticəsində tatarlardan 2, Nikitinin yanındakılardan 1 nəfər ölür [6, s.3-5].

Afanasiy Nikitin kitabında Qasım xanı Касымь солтань=Qasım soltan, həm də царь=çar kimi qeyd edir. Qasım xan üçün çar titulunun yanında soltan titulunun da istifadə edilməsi bizə Qasım xanın müstəqil bir xan olduğunu göstərir [6, s.32-33].

Türk tarixçi Reşit Rahmeti Arat da Həştərxan xanlığının 1466-cı ildə Qasım xan tərəfindən yarandığını deyir. Xanlığın, Qasım xan (1466-1490) və qardaşı Abdülkərim (1490-1504) dövründə əmiləri olan Qızıl Orda xanları ilə əməkdaşlıq münasibətləri olduğunu bildirir. Buna görə Həştərxan xanlığı 1502-ci ildə Qızıl Orda xanlığa yıxılışına qədər sakit bir dövr keçirmiş, sonrakı illərdə Krım xanlığı və Nogay Ordasının hücumlarına məruz qalmışdır [7, s.415].

Alman tarixçi Bertold Spulər, Həştərxan xanlığını 1466-cı ildə Qasım xanın qurduğunu deyir. Nogay mirzələri, Kiçik Məhəmməd xanın soyundan gələn Qasım xanı Həştərxan da hakimiyyətə gətirdilər [8, s.721].

Rus tarixçi Anton Gorskiy yazdığı əsərdə Afanasiy Nikitinin səyahəti əsnasında Həştərxanda Mahmud xanın oğlu Qasım xanın hökmdar olduğunu deyir. Bu illərdə Qasım xanın atası olan Mahmud xan Qızıl Orda taxtı üçün qardaşı Əhməd xan ilə mübarizə aparmış, mübarizəni itirib Qızıl Orda taxtından imtina etmək məcburiyyətində qaldı [9, s.151-152]. Qasım xanın atası olan Mahmud xan 1465-cı ildə Qızıl Orda xanı idi. Mahmud xan qardaşı Əhməd xanı qısa müddətdə məğlub edib özünü xan elan etmişdi. Mahmud xan, Osmanlı padşahı Fateh Soltan Məhəmmədə 10 Aprel 1466-cı ildə bir bitik göndərmişdi. Bu bitikdə Mahmud xan, Osmanlı padşahına Qızıl Orda xanlığındakı qarışıqlıqdan bəhs edir [10, s.44]. Mahmud xan 1465-cı ildə Moskvaya hücum etmiş, ancaq Krım xanı Qazı Gəraya məğlub oldu [11, s.151]. Qasım xanın əmisi və Mahmud xanın qardaşı olan Qızıl Orda xanı Əhməd xan 1445-1481 illər arasında Qızıl Orda Dövlətini idarə etdi [10, s.44]. Ancaq biz bunu görürük ki qardaşı Mahmud xan 1465-ci ildə qısa bir müddət də olsa Qızıl Orda taxtını elə keçirdi. Fikrimizcə bu illərdə həm Qızıl Ordanın paytaxtı Saray şəhərindəki dahili qarışıqlıqlar, həm də Krım xanlığının Qızıl Orda Dövlətinə düşmənliyi nəticəsində, Mahmud xanın oğlu Qasım xan Aşağı İdil bölgəsinə gedib Həştərxan xanlığını qurdu.

Amerikalı tarixçi Janet Martin XV əsrin ortalarında qüdrətli Qızıl Orda xanlığının zəiflədiyini, XVI əsrin əvvəlində dağıldığını deyir. Qızıl Ordanın yıxılması ilə Aşağı İdil ərazisində Həştərxan xanlığı, Sibir xanlığı, Krım və Qazan xanlıqları Qızıl Ordanın varisləri olaraq yarandılar [12, s.225-226]. XVI əsrin başlarında Həştərxan xanlığı, Böyük Orda (Qızıl Orda) dövlətini əvəz etdi [12, s.337]. J. Martin, Həştərxan xanlığını nə vaxt və kimin qurduğu haqqında məlumat vermir.

Hollandiyalı tarixçi Leo de Hartog, 1502-ci ildə Krım xanı Məngli Gərayın Qızıl Ordu xanlığını yıxması ilə Moskva Böyük knyazlığını şərqdə narahat edən 2 xanlığın mövcud olduğunu yazır. Bu xanlıqlardan biri 1437-ci ildə yaranan Qazan Xanlığı, digəri 1466-cı ildə yaranan Həştərxan xanlığı idi. Müəllif Qazan və Həştərxan xanlığının bir-birindən fərqli olduğunu, Həştərxan xanlığında hələ köçərilər və köçəri iqtisadiyyat mövcud ikən, Qazan xanlığında kənd təsərrüfatı və şəhər həyatının mövcud olduğunu deyir [13, s.151-152].

Başqırd tarixçi Murad Rəmzi Krım xanı Məngli Gərayın Şeyx Əhməd xanı məğlub edib Qızıl Orda xanlığını yıxması ilə Həştərxan xanlarının tarixi başlayır deyir. Bu tarixdən sonra da tarixi mənbələrdə Həştərxan xanlarından bəhs edilirkən ‘’Nogay’’ sözündən istifadə edilməyə başlanılır [14, s.491].

Türk tarixçi Yılmaz Öztuna da Həştərxan xanlığının 1466-cı ildə, Qasım xan tərəfindən qurulduğunu, ilk üç Həştərxan xanının qardaş olduğunu və bu şəxslərin atalarının Mahmud xan olduğunu ifadə edir. Onun fikrincə ilk iki Həştərxan xanı olan Qasım xan və Abdülkərim xan, əmiləri olan Qızıl Orda xanı Əhməd xana 1502-ci ildə Qızıl Orda Dövləti yıxılana qədər təbi oldular [15, s.552-553]. Öztunanın yazdıqları ziddiyyət təşkil edir. Öztuna bir tərəfdən xanlığın 1466-cı ildə yarandığını yazarkən, digər tərəfdən ilk iki xanın 1502-ci ilə qədər əmiləri olan Əhməd xana təbi olduğunu yazır.

"История отечества с древнейших времен до наших дней" adlı kitabda Həştərxan xanlığının, Krım xanının Qızıl Orda dövlətini 1502-ci ildə yıxması ilə yarandığını yazır [16, s.100].

Məşhur Rus tarixçi George Vernadskiy yazdığı московское царство kitabında qəribədir ki, Krım, Qazan, Nogay Orda və Sibir xanlığını müstəqil bir xanlıq kimi sayarkən, Həştərxan xanlığını müstəqil bir siyasi təşkilat olaraq saymır [17, s.8].

Vernadskiy digər bir kitabında 1502-ci ildə Qızıl Orda xanlığının yıxılmasından sonra Həştərxanın, Aşağı İtil ərazisində Sarayın tarixi rolunu almağa başladığını yazır [18, s.292].

Sovet tarix ensiklopediyasında 1459-1460-cı illərdə Hacı Çərkəzin Qızıl Orda dövlətindən müstəqil hərəkət edib Həştərxanda hökm sürdüyünü deyir. Davamında Həştərxanın ilk xanının Əhməd xanın qardaşı Mahmud xan olduğunu söyləyir [20, s.908].

Rus Tarixçi İ.B Grekov Krım hanı Hacı Gərayın 1465-ci ildə Qızıl Orda xanı Mahmud xanı məğlub etməsindən sonra Mahmud xanın qardaşı Əhməd xan, taxtı elə keçirmək üçün hərəkətə başladı. Əhməd xan qardaşı Mahmud xana üsyan etdi və Qızıl Orda taxtını ələ keçirdi. Mahmud xan Həştərxana qaçdı. Burada daha sonra Həştərxan xanlığı quruldu.1440-1460-cı illərdə şərq Avropasında Krım, Qazan, Həştərxan və Böyük Orda kimi feodal dövlətlər mövcud idi [20, s.150-151]. Müəllif əsərində xanlığı hansı şəxsin qurduğunu yazmır. Mənbələrdə Mahmud xanın Həştərxana qaçdığı ilə əlaqəli bir məlumat yoxdur. Nikitin 1466 və ya 1468-ci ildə Həştərxandan keçərkən Mahmud xandan deyil, onun oğlu Qasım xandan bəhsədir. Bəlkə Mahmud xan həqiqətən buraya qaçmış, ancaq qısa müddət sonra ölmüşdür.

Rus tarixçi Stenil Len Pul əhəmiyyətsiz Həştərxan xanlığının Kiçik Məhəmməd xanın nəvəsi olan Qasım xan tərəfindən 1466-cı ildə yarandığını deyir [21, s.164].

Həştərxan xanlığının yaranması haqqında ən əhatəli tədqiqatlardan birini də Rus tarixçi M.G. Safargaliyev yapdı. Ona görə 10 Mart 1466-cı ildə Həştərxan xanlığının banisi Mahmud xan türk Sultanı Fateh Soltan Məhəmmədə bir məktub göndərdi. Onun fikrincə bu məktub Həştərxan xanlığının bu dövrdə müstəqil olduğunu göstərən bir sənəddir. Xanlığın banisi Mahmud xandır. Bu dövrdə Mahmud xan xanlığı qurmaqla məşğul idi. Xanlığın qurulması mərhələsinin davam etdiyi bu dövrdə Mahmud xan Osmanlı Dövləti ilə diplomatik münasibətlər qurmaya başladı. Safargaliyev rus tacir Afanasiy Nikitin Həştərxana gəldiyində xanlığın mövcud olduğunu deyir [22, s.265-266].

Venesiya respublikası səfiri olaraq Ağqoyunlu Dövlətinə vəzifəli gedən Josaph Barbaro Həştərxan şəhəri və Həştərxan xanlığı haqqında məlumat verir. Krım xanı Məngli Gəray Kəfə şəhərine 6 mil məsafədəki Sorgathi (Köhnə Krım) şəhərini elə keçirir və Əminək bəyi öldürüb bölgənin hökmdarı olur. Məngli Gəray bundan sonra Həştərxanı elə keçirməyə qərar verir. Bu əsnada Həştərxan hanı Murtaza idi. Murtaza Aşağı İtil ərazisində hökmdar idi. Krım xanı, Murtazayı məğlub etdi. Krım xanının özü qış ayını çayın kənarında keçirdi. Bu günlərdə başqa bir tatar xanı təsadüfən Krım xanına yaxın idi. Tatar xanı Məngli Gəraya hücum edib onu məğlub etdi. Murtaza xan Krım xanından qaçdı və Murtaza xan gələn yaz Kəfə şəhərinə qədər yaxınlaşıb ərazini məhv etdi. Ancaq şəhəri ələ keçirmədən qayıtdı. Barbaro daha sonra Murtaza xanın yenə Kəfəyə gedib Məngli Gərayla döyüşmək istədiyini eşidir. Barbora bu əsnada Böyük xan ilə Murtaza xanın arasında mübahisə olduğunu yazır. Davamında Böyük xanın Kəfəyə gedəcəyini duyduğunu deyir [23, s.31]. İlya Zaytsev 1480-1485 illərdə Həştərxan da Murtaza deyə bir xan olmadığını, rus xroniklərini əsaslanaraq deyir. Murtaza, Qızıl Orda xanı Əhməd xanın oğlu idi. 1485-ci ildə Murtaza Həştərxan xanı deyil, Qızıl Orda xanı idi [2, s.45].

Başqa bir Venesiya səfiri Ambrogio Contarini yazdığı səyahətnamədə Həştərxan xanlığı haqqında məlumat verir. Contarini 1476-cı ildə Həştərxan da olmuşdur. Həştərxanda Qasım xanın ölkənin başında olduğunu, hər il Moskva knyazına hədiyyələr almaq üçün bir səfir göndərdiyini yazır. Contarini imperatorun (Qızıl Orda xanı Əhməd xanın) qardaşının oğlu(Qasım xan) ilə müharibədə olduğunu yazır. Contarini, Qasım xanın gerçək xanın özü olduğunu və atasının da(Mahmud xan) Ordanın xanı olduğunu dediyini dilə gətirir. Ayrıca Həştərxan xanlığının Qasım xanın öz hökmranlığı altında olduğunu yazır [24, s.120-121]. Contarinin verdiyi bu məlumat bizim üçün çox vacibdir. Qasım xan1476-cı ildə Moskva knyazına səfir göndərdiyinə görə özü müstəqil bir xandır və Həştərxan xanlığı da müstəqil bir xanlıqdır. Qasım xanın atası Mahmud xan bu illərdə

qardaşı Əhməd xan ilə Sarayda Qızıl Orda taxtını almaq üçün mübarizə aparırdı. Bu bizə göstərir ki Mahmud xan heç vaxt Həştərxan xanlığında olmayıb. xanlığın əsl banisi Qasım xandır.

Soltan Babur "Baburnamə " isimli əsərində Həştərxandan qısaca qeyd edir. Babur, Teymurlu hökmdarı Soltan Hüseyn Mirzənin bacısı (1469-1506) Büdeke Begimin Qızıl Orda xanı Əhməd ilə evli olduğunu və Qazaqlıqları Əhməd xanın Hacı Tarhana verdiyini deyir [25, s.252]. Baburun qeyd etdiyi məlumat səhvdir. Əhməd xan qısa müddət Həştərxana hakim olmuş ola bilər. Ancaq xanlığın təməlini Əhməd xan deyil qardaşı Mahmud xan atmış, xanlığı da Mahmud xanın oğlu Qasım xan qurmuşdur.

Böyük Türk tarixçisi Ahmət Zəki Velidi Togan, 1502-ci ildə Krım xanı Məngli Gərayın Qızıl Orda dövlətini yıxması ilə Teymur Qutluğun nəslindən gələn xanların Aşağı İtil və Həştərxanda bir müddət hökm sürdüyünü, Əhməd xanın Həştərxanı idarə edən qardaşı və qardaşı oğullarının öz aralarında mübarizə apardığını deyir. Xanlığın nə vaxt hansı şəxs tərəfindən yarandığı ilə əlaqəli bir məlumat vermir [26, s.509].

Tatar tarixçi Şehabettin-i Mercani Qızın Orda dövləti zəiflədikdən sonra Qızıl Orda xanlığının bir hissəsi, Cuçi xan soyundan bir şəhzadəyi özlərinə xan etdi və bu xan kiçik və müstəqil Həştərxan xanlığını qurduğunu deyir. Mərcani davamında müstəqil Həştərxan xanlığının 1395-cı ildə Tuy xoca ilə başladığını dəyir. Əhməd xandan sonra qardaşı Mahmud xanın gəldiyini, bu xanın Həştərxanda öz adı ilə sikkə kəstirdiyini söyləyir. 1465-ci ildə Qasımın xan olduğunu və bir müddət 2 qardaşın xanlıq etdiklərini yazır. Ancaq Qasımın qardaşı olan xanın adını söyləmir [27, s.136].

Rus tarixçi Velyana Zernova 1863-cü ildə yazdığı 'касимовскихь царяхь и царевичась'' adlı kitabında ilk Həştərxan xanının Kutluq Teymur oğlu Teymur Kutluq olduğunu deyir. Davamında bir-bir 1556-cı ildə xanlıq yıxılana qədər xanların adlarını yazır [28, s.46].

Qısaca Həştərxan xanlarının nəsli haqqında danışaq. Həştərxan xanları Cuçi xan oğlu, Tokay-Teymur oğlu, Kin- Teymur oğlu, Abay oğlu, Togan oğlu, Kutluq- Teymur oğlu, Teymur- Kutluq oğlu, Teymur xan oğlu, Kiçik Məhəmməd xan oğlu Əhməd xan nəslindən gəlir [29, s.31-32]. Mustafa Kafalının verdiyi bu məlumatın son hissəsi səhvdir. İlk 3 Həştərxan xanı Qasım, Abdülkərim və Canibək xan, Əhməd xanın deyil, qardaşı Mahmud xanın soyundan gəlir. Son Qızıl Orda xanı olan və bu dövlətin 1502-ci ildə yıxılmasından sonra Həştərxana gəlib 1525-1528-ci illərdə Həştərxan xanı olan Səyyid Əhməd xan, Əhməd xanın oğludur [2, s.249].

*Nəticə*. Həştərxan xanlığının nə vaxt hansı şəxs tərəfindən yarandığı ilə əlaqəli bir çox fikir vardır. Çoğu tarixçi xanlığın Qızıl Orda dövlətinin XVI əsrin ikinci yarısında zəifləməsi ilə yarandığını qəbul edir. Bizdə mənbələrə əsaslanaraq xanlığın 1460-cı illərdə Qasım xan tərəfindən yarandığını məqaləmizdə yazmaya çalışdıq.

## ƏDƏBİYYAT

1. Kurat A.N. IV-XVIII. Yüzyıllarda Karadeniz Kuzeyindeki Türk Kavim ve Devletleri. Ankara, Murat Kitapevi, 1992, 511 s.
2. Зайцев И.В. Астраханское ханство. Москва, Издательская фирма "Восточная литература" ран, 2006, 303 с.
3. Полное собраные русскихь летописей, изданное по высочайшему повеленю археографическою коммиссыею, "vı.софийской первой летописи". Санктпетербург, Том шестой, 1853, 358 с.
4. Полное собраные русскихь летописей, изданное по высочайшему повеленю археографическою коммиссыею, "vııı.летописный сборникь, именуемный патрыаршею или никоновскою летописью". Санктпетербург, том двенадцатый, 1901, 266 с.
5. Kemaloğlu İ. Altın Orda ve Rusya, Rusya Üzerindeki Türk-Tatar Etkisi. İstanbul, Ötüken Neşriyat, 2015, 366 s.
6. Nikitin A. Üç Deniz Ötesine Seyahat. Çeviren: Serkan Acar, Ankara, Türk Tarih Kurumu Yayınları, 2019, 56 s.
7. Arat R.R. Astırhan Hanlığı "Türk Dünyası El Kitabı Birinci Cilt Coğrafya Tarih". Birinci Cilt. Ankara, Türk Kültürünü Araştırma Enstitüsü, 1992, 544 s.

8. Spuler B. Astrakhan. “The Encyclopaedia of Islam”. Volume 1 A-B, Leiden, E.J Brill, 1986, 1359p.
9. Горский А.Г. Москва и Орда. Москва, Издательство “Ломоносовь”, 2016, 288 с.
10. Kurat A.N. Topkapı Sarayı Müzesi Arşivindeki Altın Ordu, Kırım ve Türkistan Hanlarına Ait Yarlık ve Bitikler. İstanbul, Dil ve Tarih-Coğrafya Fakültesi Yayınları, 1940, 209 s.
11. Полное собраные русскихь летописей, изданное по высочайшему повеленю археографическою коммиссыею, “vıı. Продолжние летописи по воскресенскому списку”, Санктпетербург, томь восьмый, 1859, 301 с.
12. Martin J. Medieval Russia 980-1584. New York, Cambridge University Press, 2007, 507 p.
13. Hartog L.D. Russia and Mongol Yoke, The History of the Russian Principalities and the Golden Horde 1221-1502. London, British Academic Press, 1996, 211 p.
14. Рамзи М. Талфик аль-ахбар ва талких аль-асар фи вакан казан ва булгар ва мулюк ат-татар том 1. Уфа, Башкирский Государственный Университет Центр изучения исторического наследия Башкортостана “Шежере” национальная библиотека рб, 2017, 600 с.
15. Öztuna Y. Devletler ve Hanedanlar İslam Devletleri. Cilt 1, Ankara, Kültür ve Turizm Bakanlığı Yayınları, 2005, 1006 s.
16. История отечества с древнейших времен до наших дней энциклопедический словарь. Москва, 1999, 639 с.
17. Вернадский Г.В. Московское царство 1547-1682 том 1. Тверь Москва, леан аграф, 2001, 508 с.
18. Vernadsky G. The Mongols and Russia. New Haven A.B.D, Yale Unıversity Press, 1959, 437 p.
19. Советская Историсеская Энциклопедия государственное на учное издательство “Астраханское ханство”. Москва, Государственное Научное Издательство Советская Энциклопедия, 1961, 1024 с.
20. Греков И.Б. По истории международных отношений восточной Европы XIV-XVI вв. Москва, Издательство Восточной литературы, 1963, 372 с.
21. Стэнли Л.П. Мусульманские династии. Москва, издательство восточной литературы, 2004, 310 с.
22. Сафаргалиев М.Г. Распад Золотой Орды. Саранск, Мордовское книжное издательство, 1960, 275 с.
23. Barbaro J. Anadolu’ya ve İran’a Seyahat Çeviren: Tufan Gündüz.İstanbul, Yeditepe Yayınevi, 2016, 120 s.
24. Contarini A. ve Zeno C. Uzun Hasan-Fatih Mücadelesi Döneminde Doğu’da Venedik Elçileri Caterino Zeno ve Ambrogio Contarini’nin Seyahatnameleri Çeviren: Tufan Gündüz.İstanbul, Yeditepe Yayınevi, 2009, 152 s.
25. Babürname Babürün Hatıraları Hazırlayan: Reşid Rahmeti Arat. Ankara, Kültür Bakanlığı Yayınları, 2000, 621 s.
26. Togan A.Z.V. Umumi Türk Tarihine Giriş. İstanbul, Türkiye İş Bankası Kültür Yayınları, 2019, 552 s.
27. Mercani Ş. Müstedadü’l- Ahbar Fi Ahval-i Kazan ve Bulgar. Ankara, Atatürk Kültür Merkezi Yayını, 2008, 347 s.
28. зернова в.в. касимовскихь царяхь и царевичась том 1. Санктпетербург, в типографий императорской академии наукь, 1863, 558 с.
29. Kafalı M. Altın Orda Hanlığının Kuruluş ve Yükseliş Devirleri. İstanbul, İstanbul Üniversitesi Edebiyat Fakültesi Yayınları, 1976, 169 s.

**KURSAD KOSE**
***PhD student of Baku State University***

## THE FOUNDATİON OF THE ASTRAKHAN KHANATE

The establishment date of Astrakhan Khanate is not clear due to insufficient resources**.** There are many discussion about when the Astrakhan Khanate was founded. Historians have put forward

different opinions on this subject. Some historians have suggested that the khanate was founded in the second half of the 15th century with the weakening of the Golden Horde State, while others have suggested that it was founded in the early 16th century with the complete collapse of the Golden Army state. We believe that the Astrakhan Khanate was founded in 1466 by Kasım Khan. Many sources support our point of view.

*Keywords*: Astrakhan Khanate, Kasım Khan. Golden Horde, Crimean Khanate.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 28 fevral 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 06 yanvar 2021-ci il.*
*Rəyçilər: t.ü.f.d.Sənubər İsmayılova, t.e.d. İsmayıl Məmmədov.*

**UOT 94(479.24)**

**TURAN BABAŞ**
*Bakı Dövlət Universitetinin Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının doktorantı*
**E-mail: turan.babash@yahoo.com**

# ŞEYXÜLİSLAM ƏBDÜSSALAM AXUNDZADƏNİN DİNİ VƏ ELMİ-PEDOQOJİ FƏALİYYƏTİ

*Şeyxülislam Abdussalam Axundzadə 19-cu əsrdə Azərbaycanın görkəmli elm, təhsil və din xadimlərindən biri olmuşdur. 1895-ci ildə Tbilisidə Qafqaz Müsəlmanları Dini İdarəsinin sədri təyin edilmişdir. O, Qafqaz müsəlmanlarının lideri olmaqla yanaşı Azərbaycanın ictimai-siyasi, elmi-mədəni, dini-mənəvi həyatında böyük xidmətlər göstərmişdir. O, erməni-müsəlman mübarizəsinin qarşısını almağa çalışmış, soyqırım zamanı yaralanan azərbaycanlılara mənəvi və maddi kömək etmişdir.*

*Açar sözlər:* şeyxülislam, ruhani idarəsi, ali mədrəsə, soyqırımı, sülhpərvər.

*Giriş*. Azərbaycan öz dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra ölkədə mənəvi dəyərlərlə yanaşı, ruhanilik və şeyxülislamlıq təsisatının tarixi, eləcə də şeyxülislamların fəaliyyətinə maraq yaranmış, bu sahədə araşdırmalar aparılmışdır. Bu zamanadək isə istər çarizm, istərsə də sovet dövründə müsəlman ruhanilər daim sıxışdırılmış, təqiblərə məruz qalmış, fəaliyyətləri kiçildilmişdir. Halbuki şeyxülislamlar tarixin bütün dövrlərində regiondakı dini-mənəvi, ictimai-siyasi, elmi-mədəni proseslərdə aparıcı qüvvə olmuş, müsəlmanların rifahı, maariflənməsi üçün xidmət göstərmiş, millətlər, dinlər, məzhəblər arasında dostluğun, qarşılıqlı hörmətin, barışın olmasında uğrunda ciddi cəhdlə çalışmışlar. Odur ki, onların həyatının və fəaliyyətlərinin öyrənilməsi və təbliği olduqca vacib məqamlardandır.

Azərbaycanın elm, maarif və din tarixində böyük xidmətləri olan ziyalılardan biri də Qafqaz Müsəlmanları Ruhani İdarəsinin Şeyxülislamı, ədib və alim Əbdüssalam Axundzadədir. O, 1843-cü ildə Salyan şəhərində ruhani ailəsində anadan olmuşdur. Atası Axund Vəliməhəmməd Allahverdi oğlu ona ilk təhsilini verməklə yanaşı, ərəb və fars dillərini də öyrətmişdir. O, 12 yaşında ikən ilk müəllimi olan atasını itirmiş, lakin atasından miras qalan zəngin kitabxanaya sahib olmuşdur ki, bu da onun gələcək həyatının, elmi və dini yaradıcılığının əsasını formalaşdırmışdır. Maddi və mənəvi sıxıntılar içərisində yaşamasına baxmayaraq o, təhsildən ayrılmamışdır.

18 yaşı olarkən anasının məsləhəti ilə Tiflisə gedərək Qafqaz müsəlmanları Ruhani İdarəsinin sədri Şeyxülislam Əhməd Hüseynzadə ilə görüşmüşdür. Şeyxülislam onun dərin bilik və dünyagörüşünə malik olduğunu görüb, 1861-ci ildə şəhərdəki dini mədrəsələrin birində ərəb və fars dillərini tədris etməyi təklif etmişdir. Dərsvəsaitlərinin olmaması səbəbindən Ə.Axundzadə özü dərslik tərtib edib, elə öz əlyazması əsasında da dərs demişdir.

Tiflisdə tam elmi kursu bitirdikdən sonra o, 1864-cü ildə Salyana molla təyin olunmuş və burada bir müddət molla kimi fəaliyyət göstərərək, camaat arasında böyük nüfuz qazanmışdır.

Qafqaz Sərdarının 1872-ci il 1 oktyabr əmri ilə ruhani rütbəsindən azad edilmiş, 25-26 yanvar 1873 cü il № 873 qərarı ilə isə Tiflis müsəlman gimnaziyasına şiə şəriət müəllimi təyin olunmuşdur [1]. Bundan sonra Axundzadə ailəsi ilə birlikdə Tiflisə köçməli olmuşdur. Qoridə Müəllimlər seminariyası açılana qədər burada tədrislə məşğul olmuş, öz bilik və bacarığı ilə Tiflis mühitində tanınmışdır.

Mütərəqqi fikirli ruhanilərdən olan Ə.Axundzadə öz uşaqlarının dini təhsili ilə yanaşı, dünyəvi təhsil almaları üçün də çalışmış və buna nail olmuşdur.

Həmin dövrdə çar üsul-idarəsi tərəfindən mədrəsələrdə dini dərslərin – Quran, hədis, şəriət, ərəb, fars və rus dillərinin ümumi şəkildə tədrisinə icazə versə də, İslam tarixi, İslam coğrafiyası, İslam hüququ, İslam əxlaqi kimi fənlərin tədrisi qadağan olunmuşdu. O cümlədən, müsəlmanların dünyəvi təhsil almasına həmişə mane olunmuş, mollaxanalarda, müsəlman ruhani seminariyalarında ümumi təhsil fənlərinin keçirilməsini qadağan edilmişdir. Çünki çar məmurları müsəlman xalqın maarifləndirilməsini, inkişafını qorxu və ehtiyatla qarşılayırdılar.

1876-cı ildə Gürcüstanın Qori şəhərində Zaqafqaziya Müəllimlər Seminariyası açılan zaman Azərbaycanın qabaqcıl ziyalıları yeni məktəb uğrunda mübarizə apararaq, Azərbaycanlılar üçün nəzərdə tutulan "Tatar şöbəsinin" açılmasına nail oldular. Çar məmurları buna mümkün qədər müqavimət göstərsələr də sonda yerli əhalidən savadlı kiçik məmurların çatışmamazlığı probleminin həlli üçün məcburiyyət qarşısında razılıq vermişdilər. Baxmayaraq ki, Rejim məmurları əsassız olaraq müsəlman dindarların sözügedən təhsil ocağının – şöbənin fəaliyyətinə maneə göstərməsi dəlilini əsas gətirərək Azərbaycan torpaqlarından uzaq bir yerdə açılmasını uyğun görmüşdülər. Əslində isə M.F.Axundovla yanaşı müfti Əbdülhəmid Əfəndizadə və şeyxülislam Əhməd Hüseynzadə də sərdarla müşavirədə iştirak etmiş və şöbənin açılmasını rica etmişdilər. Digər bir sübut isə seminariyada şəriət və ana dili dərsi demək üçün mufti Ə. Əfəndizadə və Ə. Axundzadə müəllim seçilmiş, onlar da bu dəvəti məmuniyyətlə qəbul etmişlər.

Ə.Axundzadəyə Qafqaz Təhsil Dairəsinin Popeçiteli tərəfindən 1879-cu il sentyabrın 1-də Qori seminariyasının nəzdində açılan "Tatar şöbəsi"ndə (Azərbaycan) müəllim kimi işləmək icazəsi verilmişdir [1].

Nəriman Nərimanovun Qori seminariyasına həsr olunmuş seriya məqalələrindən birində orada təhsil aldığı illəri xatırlayaraq yazmışdır: "Türk dili və şəriət müəllimi indiki Şeyxülislam cənab Axund Molla Əbdüssalam olub. Orada tərbiyə alan müsəlman uşaqlarına böyük nəfələr (fayda) götürdü. Demək olar ki, indiki hali-nisbə Qori seminariyası xüsusən müsəlman şöbəsi böyük tərəqqidə bulunurdu. Cənab Axund Əbdüssalam türk dilinə və şəriət dərslərinə artıq diqqət verirdi. Dərsləri az idisə də vaxtı itirməyib bacardığı qədər cidi-cəhd edirdi. O vaxt təlim kitabları yox idi. Bununla bərabər gecələr işləyib, gündüz dərsləri üçün hekayələr düzəldirdi. Türk dilində sərf və nəhv öyrədirdi, şəriətdən tarixi müqəddəsdən savayı ən mühüm məsələləri həll edirdi. Qeyri dinlərdən təfavütünü və insani nəfəni (insani keyfiyyətləri) söyləyib uşaqların gözlərini açmağa çalışırdı. İnsaf məqamında demək olar ki, Qori seminariyasından elmini tamam edib indi millətpərəst və yainki əli qələm tutan beş-üç nəfər varsa cənab Axund Molla Əbdüssalamın tərbiyəsinə bağlıdır" [2].

Azərbaycan dilində dərsliklər tərtib etmək, ana dili tədrisinin metodikasını yaratmaq, əlifba, orfoqrafiya və bu kimi bir sıra mühüm məsələləri həll etmək məqsədilə bir sıra kitablar nəşr olunmağa başlamışdır. Ə. Axundzadənin tədris məqsədi ilə qələmə aldığı bir çox əsərlər vardır. Bunlardan "İslam haqqında tədris kitabı", "Umdətul-əhkam", "Zubdətul əhkam", "Müqəddəs peyğəmbərlər tarixi", "Xətti-təliq və nəstəliq adlı sərməşq", "Fars dilinin sərf və nəhvi", "Qəvaid müxtəsəre farsi", "Kitab-müəllifi ətfal", "Sərfi müxtəsər" və başqa əsərlərini göstərmək olar ki, onlar dərslik məqsədilə istifadə olunduğundan müxtəlif illərdə bir neçə dəfə təkrar nəşr olunmuşdur.

Əlyazmalar İstitutunda onun əlyazma şəklində saxlanılan "İslam haqqında tədris kitabı", "Qəvaid müxtəsəre farsi" və illərdə çap olunmuş bir çox əsərləri qorunub saxlanılır.

Ə.Axundzadə əsərlərinin müqəddiməsində ibratamiz və nəsihətamiz fikirlərlə yeniyetmələri tərbiyələndirməyə, həyatı dərk etdirməyə çalışır. "Təlim və tərbiyyə yolunda işlədiyim vaxtlarda sevgili vətənin övladı uğrunda canıma nəhayətdə nuş və güvara (dadlı, tamlı şey, asan həzm olunan yemək) bildiyim zəhmətlərdən biri də bu risaleyi həqiredir (az, kiçik, görkəmsiz, hörmətsiz). İbtidayi halda bu rənc (zəhmət) acizanənin səmərə bəxş olması və əbnaye (oğulları) vətənin əxlaq və adabinə xidmət etməsi zənn təxmin dərəcəsində idi. Şükürlər olsun bu zənn və təxminim müəxxərən (sonradan) eynəl-yəqin (gözlə görüb inanma, şübhəsiz) məqamında ayan və aşkar oldu." [3].

Ə.Axundzadə "Zubdətul Əhkam" əsərinin "Ey əziz və sevgili ovlade vətən" müraciəti ilə başlayan "Vəsiyyət və nəsiyyət" bölümündə öz təxəyyülündən istifadə edərək fəlsəfi bənzətmələr etmişdir. O, insan həyatını dağların başından süzülüb gələn bir bulağa, çıraq və şamdan parlaq olan bir nura bənzədir. O, ədib və müəllimlərə üz tutaraq deyir ki, necə ki, öz düz yolu ilə axan bulağın önündən xırdaca daşları və çör-çöpü təmizləməklə o saf və şəffavlığı ilə yoluna davam edəcəkdir. Bir ədib də öz təlim və tərbiyəsi ilə, haqq və həqiqəti olan nəsihəti ilə ehtirasını bitəcrübə cavanın qəlbindən çıxartsa şübhəsiz onun ömrü və yaşayışı doğru istiqamət və səadət üzrə olacaqdır. Əql və fikrində olan şər işlər və zəlalət dumanını dağıdacaqdır.

"Pəs xoşbəxt o cavandır ke, əyyame şəbabında (cavanlığında) həvaihəvəsini (ehtirasını) zahirdə şirin və batində zəhərli olan müştəhiyyatına (arzularına) allanmayıb, özünün qızıl kimi bahalı və ziyalı olan ömrüni və ən əziz və ləziz olan günlərini və saatlarını zay etməyib kəsbi maarifə və əxlaq və ədəbe həsənə, təhsilinə sərf edə və bu vəsilə ilə səadət və şərafət və izzət toxumunu əkə. Bu

toxum İnşəallah bir uca və barvər (məhsuldar) bir ağac olar ke sayəsində rahat və fərağətli (ehtiyacsız, istirahət) yaşayıb və tənd işlərdə nəfə və fayda götürərsən".

O, bu dərsliyin sonunda gözəl xətlə yazılmış bir sıra hikmətamiz, tərbiyətamiz nəsihətlər də qeyd etmişdi: "Bu günə görə bildiyin işi sabaha qoyma", "Qələmin gücü qılıncın gücündən ziyadədir", "Nitqin hünərini əl saxlar", "Yuxu və təam başqa vaxta qoyula bilər, amma fürsət tərk olunmamalıdır" və s. [3].

Ə. Axundzadə "Umdətul-əhkam" əsərinin müqəddiməsində bu kitabın Qafqazın şəhər və kəndlərində bütün xüsusi və dövlət məktəblərində geniş yayılmasından, çap olunmuş nüsxələri qurtardığı üçün II dəfə nəşr edilməsindən, bu zaman düzəlişlər edilməsindən, bu çapda xeyli əhəmiyyətli və lazımi mətləblərin əlavə edilməsindən, türkçə savadı olan kəslərin öz dininin əqaidini öyrənmək üçün bu kitabdan xeyli fayda götürəcəklərindən bəhs etmişdir. Axundzadə bu kitabın təlimindən əvvəl tərtib etdiyi "Zubdətul- əhkam" kitabının tədrisinin vacibliyini vurğulamışdır. Bu kitab əsasən 14 yaşdan yuxarı, savadlı uşaqlara öyrədilməli. Sonda müəllif bu nüsxədə elədiyi əlavə və ixtisarların səbəbini açıqlayır. Bu kitab sonradan III dəfə təkrar çap olunmuşdur.

Onun yeniyetmə və uşaqlar üçün qələmə aldığı "Sərməşq" adlı kitabı gözəl xətlə yazmaq qaydalarına, yazı nümunələrinə və hikmətli sözlərə həsr edilmişdir.

Ötən əsrin əvvəllərində onun "Ən gözəl fikirlər kitabı", "Vəz və nəsihət", "Yəqin etmək kitabının mütaliəsi və ora dakı mətləblərin rədd edilməsi", "Hökmlərin başlıcası", "Cəhalət dərdinin dərmanı və təbavi üsulunun şərh və bəyanı", "Tərbiyə kitabı", eləcə də digər kitabları Tiflis, Təbriz və Tehran şəhərlərində müxtəlif vaxtlarda nəfis şəkildə çap edilmişdir [4, s.58].

1894-cü ildə Zaqafqaziya Şiə Ruhani İdarəsinin sədri Şeyxülislam Mirzə Həsən Tahirzadə vəfat edir. Çar üsul-idarəsi yeni sədrin təyin olunması üçün hökumətə sədaqəti şübhə doğurmayan namizədlərin – din xadimlərinin axtarışına başlayır. Seçiləcək namizədin İslami biliklərlə müqayisədə rus dilinə və Rusiya qanunlarına bağlılığına daha çox üstünlük verilirdi. Ruhani İdarəsinin sədri olmağa real namizəd Ə.Axundzadə idi. Çünki o, Qori seminariyasında müəllim işlədiyi müddətdə rus dilini mükəmməl öyrənmiş, rus və Avropa ədəbiyyatı, tarixi, mədəniyyəti ilə yaxından tanış olmuşdu. Eyni zamanda, xalq arasında olan nüfuzu, dərin elmi bilgilərə malik olması, dövrün görkəmli ziyalıları və elm adamları ilə sıx münasibətləri də Axundzadənin şeyxulislam seçilməsinə səbəb olmuşdur [5, s.102].

Əlahəzrətin təyinatı ilə 21 iyun 1894-cü ildə Əbdüssalam Axundzadəyə Şeyxülislamlıq rütbəsi verilir və bu ildən etibarən Tiflisdə yerləşən Qafqaz Müsəlmanları Ruhani İdarəsinin rəisi təyin olunur. Qafqaz Mülki işlər üzrə Baş idarənin 22 avqust № 7402 qərarında göstərilir: "Daxili işlər nazirliyi Baş idarəni xəbərdarlıq edir ki, Əlahəzrət İmperator Zaqafqaziya Müəllimlər seminariyası Tatar şöbəsinin şiə müəllimi Kollegiya sovetniki Ə.Axundzadə Zaqafqaziya Şeyxülislamı təyin etmişdir [1].

Şeyxülislam Ə.Axundzadəni narahat edən məsələlərdən ən başlıcası ölkədə ali ruhani təhsili verən müəssisənin olmaması idi. O, Qafqaz Müsəlmanları Ruhani İdarəsinin sədri olduğu müddətdə təhsilə xüsusi diqqət yetirmiş, yeni ali mədrəsələrin açılması üçün əlindən gələni əsirgəməmişdir. İmperiya qanunları çərçivəsində buna nail olmaq çox çətinliklər törədiyindən, onun hakim dairələrə dəfələrlə etdiyi müraciətlər, bu müraciətlərində xalqın mədrəsənin bütün xərclərini öz üzərinə götürməsini bildirməsi və s. nəticəsiz qalmışdır. Şeyxülislamın bu məsələdəki qətiyyəti onun fərqli bir ideyaya əl atmasına səbəb olmuşdur. Belə ki, 12 avqust 1904-cü ildə çar II Nikolayın oğlu vəliəhd Alekseyin dünyaya gəlişi münasibətilə o, çarı təbrik etməklə yanaşı, müsəlmanların bu günü əbədiləşdirmək məqsədi ilə mədrəsə tikərək, onu şahzadənin şərəfinə "Alekseyevski" adlandırmaq istədiklərini bildirmiş və müsbət cavab almışdır. Mədrəsənin tikilişinə icazə verilən kimi şeyxülislam Qafqaz müftisi Mirzə Hüseyn Əfəndi Qayıbzadə ilə birgə Bakıya gələrək, şəhərin müsəlman mötəbərləri ilə görüşərək mədrəsə haqqında ümumi məlumatlar vermişdilər. Dövrün ən böyük maarifpərvər xeyriyyəçisi Hacı Zeynalabdin Tağıyevin təşəbbüsü ilə mədrəsənin tikilməsi üçün 53.270 rubl ianə yığılmışdır [6]. Lakin uğrunda çalışdığı ali ruhani mədrəsəsinin açılışını görmək ona qismət olmur.

1905-ci ildə Rusiyanın özündə baş verən iğtişaşlar, Cənubi Qafqazda da çarizmə qarşı narazılıq dalğasının güclənməsinə səbəb oldu. Bu qarışıqlıqdan ermənilər məharətlə istifadə etdilər. Rusiyanın hakim şovinist dairələri də zərbəni özlərindən yayındırmaq üçün ermənilərin anti-türk, anti-müsəlman kampaniyasını qızışdırırdılar. Qafqaz canişinliyinin yüksək rütbəli erməni və

ermənipərəst məmurları vasitəsilə silahlandırılan erməni dəstələri 1905-1906-cı illərdə Qarabağda, Gəncədə, Bakıda, İrəvanda, Naxçıvanda, Zəngəzurda, Tiflisdə və başqa yerlərdə yaşayan azərbaycanlılara qarşı silahlı hücumlar edərək, etnik təmizləmə siyasəti aparır, həmin ərazilərdə ermənilərin say üstünlüyünə nail olmaq istəyirdilər. Çünki həmin dövrdə Qafqazda mövcud olan 54 qəzadan yalnız beşində ermənilər çoxluq təşkil edirdilər.

Millətlər arasında sülh yaratmaq missiyasını öz üzərinə götürməli olduqları halda erməni ruhanilər əksinə, təcavüzkarlara maddi yardım göstərir, bütün erməniləri bu müharibədə iştirak etməyə çağırırdılar. Şeyxülislam Ə.Axundzadə nəzarət altında saxlanılır, erməni katalikosu Mikır Tıç öz çirkin niyyətlərini sərbəst həyata keçirir, erməniləri mübarizələrinə davam etməyə həvəsləndirən moizələr oxuyur, "Daşnaksütyun" partiyası tərəfindən göndərilən silah-sürsatlar kilsələrin zirzəmilərində gizlədilir, çarizm bundan xəbərdar olsa da göz yumurdu [7].

"Erməni keşişləri hər ölüm hadisəsindən sonra məscidə gəlir, dua oxuyur, müsəlmanların yas məclislərində iştirak edir, başsağlığı verir, yağlı və fəndgir dillərini işə salaraq bütün baş verənlərin təsadüf olduğunu bildirirdilər. Ermənilər azərbaycanlıların əks hücumlarını görüb, rus dövlətinə teleqramla müraciət etdilər ki, Zaqafqaziya şeyxülislamı Axundzadəni sülh yaratmaqdan ötrü Şuşaya göndərsin. Həmçinin mayın 16-da Axund Qazıyev, arximandrit Qaregin və şəhər qlavası vəzifəsini icra edən Bünyadov əhalinin tələbi ilə həmin vaxt Naxçıvanda olan şeyxülislama teleqram vurdular ki, Tiflisə qayıdarkən İrəvana baş çəksin və "iki xalqın mövcud qardaşlığına xeyr-dua versin". Mayın 31-də saat 11-də Zaqafqaziya şeyxülislamı, İrəvan qazısı və şəhərin nüfuzlu müsəlmanları Göy məsciddən, ermənilərin arxiyepiskopu Karapetin başçılığı ilə nümayəndə heyəti isə kilsədən çıxıb, şəhər bağına yığışdılar. İrəvan qubernatorunun və general Şvedovun iştirakı ilə keçirilən toplantını şeyxülislam açaraq, əhalini sülhə çağırdı. Türk dilində çıxış edən arximandrit Karapet atəşkəsin pozulmasının günahını müsəlmanların üstünə yıxmağa cəhd etdi. General Şvedov isə bundan sonra da tərəflər barışmasalar, tüfənglərin gücü ilə onları barışmağa məcbur edəcəyi ilə hədələdi" [8].

Həmin zaman, Ə.Axundzadənin xalqımıza ən böyük xidməti münaqişə baş verən ərazilərə gedərək, nüfuzundan istifadə edib tərəfləri sülhə çağırması, zərərçəkmişlərə mənəvi köməklik göstərməsi, çar üsul-idarəsinə bu qırğınlara ermənilərin səbəbkar olduğunu bildirməsi olmuşdur. Şeyxülislam Ə.Axundzadənin sülhpərvərlik, iki xalq arasında barışıq yaratmaq missiyasını öz üzərinə götürməsi tarixi yazılı mənbələrdən də aydın şəkildə görünməkdədir.

Hadisələr baş verən ərazilərə gedən Ə.Axundzadənin bu səfərləri qəzet səhifələrində də işıqlandırılmışdır. Şeyxülislamın Tiflisdə ermənilər tərəfindən nəşr olunan "Novoe obozrenie" qəzetinə verdiyi müsahibədən: "Naxçıvandan Yeravana gəldikdətəcili Təbriz müctəhidinə teleqram yollayıb, nüfuzuna tabe dairələrdəki müsəlmanlarınsakitliyi pozmamasına diqqət etməsini rica etmişəm. Eçmiədzidən qayıtdıqdan sonramənə məlumat verdilər ki, Təbriz müctəhidi Katalikos cənablarına göndərdiyi teleqramdaTəbrizdə qarışıqlığın çıxmasının ermənilərin özlərinə aid olduğunu, onlar tərəfindənsalındığını bəyan etmişdir. Bəli, tədbirli olmaq gərək. Halbuki, iki qövm bir-biri iləbarışdıqdan sonra ermənilər İtqıran adlı müsəlman kəndinə basqın edib, oranı dağıtmışlar.İtqıran vaqeəsi bundan ibarətdir: 200 erməni səhər sübhdən yatmış müsəlmanlara xəncərvə tüfənglə hücum edib, hamısını öldürmüşlər. Hətta qorxusundan ot tayasında gizlənmişuşağa belə rəhm etməmişlər. Müsəlmanların tərəfindən olan hücumlar qəzetlərdəmübaliğəli göstərilmişdir" [9, s.66].

Dövrünün tanınmış mütəfəkkiri Mir Möhsün Nəvvab özünün 1905-1906-cı illərdə erməni-müsəlman davası" əsərində baş verən hadisələri – illərdə çar Rusiyasının xalqımıza qarşı ikiüzlü siyasətini, ermənilərin xalqımızın başına gətirdiyi müsibətləri, soyqırımları, qətliamları təsvir etməklə yanaşı Ə.Axundzadənin Şuşaya gəlişindən də bəhs etmişdir: "Üç gün bundan sonra cənab şeyxülislam Şuşa şəhərinə təşrif gətirdi. Şəhər əhalisi onu böyük ehtiramla qarşıladı. Şeyxülislamı üç yüz atlı, hörmətli şəxslər, alimlər, erməni keşişləri və xəlifəsi, eləcə də erməni böyükləri faytonlarda, otuz nəfər atlı kazaklar sursatları ilə birlikdə müşayiət edirdilər. Onlar şəhərə daxil olaraq cənab qazının evində qərar tutdular.

Elə ki, sabah oldu, yenə alimlər, seyidlər, əyan-əşrəflər, ermənilərin xəlifəsi, keşişləri və əyanları cənab şeyxülislamın hüzuruna gələrək xoş gəldin etdilər. Bundan sonra şeyxülislam buyurdu ki, ey erməni və müsəlman camaatı! Bir para başqa vilayətlərdə fitnə-fəsad işləri vəba xəstəliyi kimi yayılarkən məscidlərdə və yığıncaqlarda mərifət əhli Şuşa qalasının erməni və müsəlman əhalisinin mehriban dolanmağını misal gətirərək, iğtişaş salanları məzəmmət edirdilər. Onlar Avropanın Paris

şəhərində olan xoş davranışı Qafqaz şəhəri içərisində Şuşa əhalisinin mehriban münasibətləri ilə müqayisə edirdilər.

Mənə məlumdur ki, siz iki tayfa, yəni erməni və müsəlmanlar keçmiş zamanlarda qardaş kimi dolanmısınız. Hətta Məlik Şahnəzərin qızı Hürizad xanımı mərhum İbrahimxəlil xan özünə halal övrət edib, qohum olublar. İndi sizdən sual edirəm: bu fitnə-fəsada nə bais olur?..

Xülasə, o biri gün səhər tezdən cənab şeyxülislam məscidə təşrif gətirdi. Yenə də erməni və müsəlmanlar məscidin ətrafına toplaşdılar. Şeyx həzrətləri burada da çıxış edərək, onların bütün fitnə-fəsadlarına son qoymalarını və mehriban dolanmalarını nəsihət etdi. Hərbi qubernator da camaata elan etdi ki, aranızda gedən vuruşlara son qoymaq və hər iki tayfa (erməni-müsəlman) arasında sülhü bərqərar etmək üçün dövlət məni buraya qubernator təyin etmişdir. Hər hansı bir fitnə-fəsada görə mən məzlumun tərəfində olub zalımı tənbeh edəcəyəm. Buna mənim səlahiyyətim var. Buradakı çıxışlardan sonra onların hamısı erməni kilsəsinin yanına gəldilər. Burada da erməni xəlifəsi və qubernator çıxış edib, hamını fitnə-fəsadlardan əl çəkib, əmin-amanlığı qorumağa çağırdılar" [10, s.75-77].

Şeyxülislamın təşəbbüsü ilə Ruhani idarəsində erməni hücumlarından ziyan çəkmiş müsəlmanlar üçün ianə toplanmışdır. Bura yazılı şəkildə müraciət etmiş zərərçəkmişlərə maddi yardım göstərilmişdir.

Həmin ərəfədə mətbuatda Zaqafqaziya şeyxülislamı Axund Əbdüssəlam Axundzadənin milliyyətindən və dinindən asılı olmayaraq, Cənubi Qafqaz xalqlarına müraciəti yayımlanmışdır: "Tiflisdə rüsvayçı erməni-müsəlman qırğınının qara günləri onlarla günahsız insanı qurban apardı. Sağ qalanlar onlara həsəd aparır. Yaralılar, yetimlər, dullar, qarətlərdən və yanğınlardan mülklərini itirənlərin hamısı böyük ehtiyac içindədirlər və maddi kömək üçün mənə müraciət edirlər. Onlar kasıb və əslində, zərərdə olan öz tiflisli dindaşlarından yardım uma bilmirlər. 22-30 noyabr hadisələrinin iztirab çəkən qurbanları adından, taleyin hökmünə buraxılmış və yaşamaq üçün heç bir vəsaitləri olmayan qadınlar, qocalar, uşaqlar adından Cənubi Qafqazın milliyyətindən və dinindən asılı olmayaraq, bütün əhalisinə yoxsullaşmış qardaşlarına imkan daxilində kömək göstərmələri xahişi ilə müraciət edirəm". Şeyxülislamın son dərəcə təsirli müraciəti cavabsız qalmır. "Vozrojdeniye" qəzeti zərər çəkmiş Tiflis müsəlmanları üçün "İ.V." inisiallı şəxsin (İbrahim ağa Vəkilov - F.V.) öz iş yoldaşları və dost-tanışlarından 70 rubl 50 qəpik, "Ş.M." inisiallı şəxsin (Şərif Mirzəyev - F.V.) isə 47 rubl 20 qəpik toplayıb şeyxülislama verdiyini yazırdı" [11, s.390-403].

Ermənilərin törətdiyi qırğınlardan onun qarşısını almağa çalışan Ə.Axundzadənin həyatında daha böyük faciə baş verir. Belə ki, ermənilərin törətdiyi qırğınlara dözə bilməyərək əsəb gərginliyi keçirən 18 yaşlı qızı Zabitə xanım ağır xəstəliyə dücar olaraq dünyasını dəyişir.

Erməni-müsəlman qırğınları və qızını vaxtsız itirməsi şeyxülislam həzrətlərini bərk sarsıtmış, onu xəstə yatağına məhkum etmişdir. Hətta xəstə yatağında ikən M.Şahtaxtinskinin "Kavkaz" qəzeti vasitəsilə qırğınların dayandırılması üçün xalqa müraciət ünvanlamışdır: "Bütün bu mənasız münaqişə boyu mən bütün qəlbimlə xalqımın qurbanları və itkiləri üçün iztirab çəkirəm. İztirab və itkilər sıravi bir insan kimi mənə də rəhm eləmədi. Mən heç vaxt xəstələnməzdim əgər bu mənasız münaqişə olmasaydı. Mən indi gəlin qızımı itirdim, hələ ölçüyə gəlməz mənəvi iztirabları və maddi ziyanları demirəm. Bu özbaşınalığa dözməyə nə mənim, nə də xalqımın gücü qalmayıb. İndi təxirə salınmadan, son və həqiqi sülh bağlanmalıdır. Mən bu vəhşi, insanları məhv edən münaqişəyə son qoymaq üçün bütün tədbirlərə əl atan, özünün bütün qüvvəsini buna sərf edən hər bir müsəlmana xeyir-dua verirəm. Mən bu insaniyyətə qarşı olan müharibəni qurtarmaq üçün edə biləcəyi halda heç nə etməyən hər bir müsəlmanı lənətləyirəm" [12].

Görkəmli maarifçi, din alimi və yazıçı 1907-ci ilin may-noyabr aylarında Tiflisdəki Qızlar İnstitutunda oxuyan azərbaycanlı qızlar üçün şəriət və ana dili fənlərini tədris etmiş, hətta həmin il buraxılış mərasimində iştirak etmişdir [13, s.319].

Ə.Axundzadə 1907-ci il noyabr ayının 18-də 64 yaşında ikən Tiflis şəhərində vəfat etmiş və M.F.Axundovun dəfn olunduğu "Nəbatət bağında" – müsəlman qəbiristanlığında dəfn olunmuşdur.

*Nəticə.* Bütün bunlar göstərir ki, Ə.Axundzadə Qafqazın şeyxülislamlıq tarixində öz savadı, bilik və bacarıqları ilə sayılıb-seçilmiş, həyatını xalqının dini və dünyəvi elmlərə yiyələnməsinə, maariflənməsinə, elmi-mədəni inkişafına, əmin-amanlığına, təhlükəsizliyinə həsr etmiş, cəmiyyətin sosial-siyasi həyatında mühüm rol oynamış şeyxülislamlarından biri olmuşdur. Onun ali ruhani məd-

rəsəsinin açılması, mədrəsələrdə dərslik, dini təhsillə yanaşı, dünyəvi təhsilin tədrisi problemlərinin həllində, çarizmin əsarətdə saxladığı digər xalqlarla müqayisədə müsəlmanlara qarşı yürütdüyü ayrı-seçkilik siyasətinin aradan qaldırılması istiqamətində fəaliyyəti, eləcə də ermənilərin törətdikləri qırğınlara qarşı səssiz qalmaması, azərbaycanlıların haqq səsi olması danılmaz həqiqətlərdir.

## ƏDƏBİYYAT


1. ARDTA, fond №29023, g-3183, siyahı 6, №1627.
2. "Tərcüman" qəzeti, 20 may 1905-ci il.
3. "Zubdətul Əhkam" Əlyazmalar İnstitutu - XVI-780/4918.
4. F.Nurullayev. Şeyxülislamliq zirvəsi: Haci Allahşükür Paşazadə. - Bakı: «NURLAR» Nəşriyyat-Poliqrafiya Mərkəzi, - 2014. - 272 s.
5. H.Məmmədli. Qafqazda İslam və Şeyxülislamlar. – Bakı: "MBM", - 2005. - 179 s.
6. "Tərcüman" qəzeti, 4 mart 1905-ci il.
7. "İrşad" qəzeti, 22 noyabr 1907-ci il.
8. "Xalq" qəzeti, 29 mart 2005-ci il.
9. S. Rəhnulla. Əbdüssəlam Axundzadənin şeyxülislamliq fəaliyyəti barədə // Dövlət və Din, № 04 (45) iyul - avqust 2016, s.64-69.
10. M.M.Nəvvab. «1905-1906-cı illərdə erməni-müsəlman davası». – Bakı, «Azərbaycan». nəşriyyatı, 1993. – 128 s.
11. F.Məmmədov. Ermənilərin azərbaycanlılara qarşı törətdikləri 1905-ci il Tiflis kütləvi qırğınları dövrün arxiv mənbələrində və yerli mətbuatda // AMEA-nın Tarix İnstitutunun elmi əsərləri (xüsusi buraxılış - "Birinci Dünya müharibəsi və Azərbaycan" beynəlxalq elmi konfransının materialları). Bakı, 2014, № 48-50, 438 s.
12. "Кавказ" qəzeti, 15 fevral 1906-cı il.
13. Ş.Nəzirli. Qoridən gələn qatar. - Bakı: "Şərq-Qərb", - 2011. - 492 s.


**TURAN BABASH**
***Doctoral student of Baku State University***

## RELIGION AND SCIENTIFIC-PEDAGOGICAL ACTIVITY OF SHEIKHULISLAM ABDUSSALAM AKHUNDZADE

Sheikhulislam Abdussalam Akhundzadeh was one of the prominent figures of science, education and religion in Azerbaijan in the 19th century. In 1895, he was appointed chairman of the Caucasian Muslims Religious Board in Tbilisi. In addition to being the leader of the Caucasian Muslims, he made great contributions to the socio-political, scientific, cultural, religious and spiritual life of Azerbaijan. He tried to prevent Armenian-Muslim fight, made moral and material assistance to Azerbaijanis, injured during genocide.

*Keywords:* sheikhulislam, religious board, higher madrasa, genocide, peaceful.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 12 dekabr 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 06 yanvar 2021-ci il.*
*Rəyçilər:t.e.d. Anar İsgəndərov, t.e.d.Qabil Əliyev.*

**UOT 94(479.24)**

**ŞİKAR QASIMOV**
*Azərbaycan Texniki Universiteti,*
*"İctimai fənlər" kafedrasının müdiri, tarix elmləri doktoru, professor*
**E-mail: shikarqasimov@mail.ru**

# BƏRPA VƏ RESTAVRASİYASINI GÖZLƏYƏN, LAÇININ ƏSİRLİKDƏN AZAD OLAN ABİDƏLƏRİ

*Arxeoloji və tarixi tədqiqatlar təsdiqləyir ki, Azərbaycan ərazisi bəşər sivilizasiyasının meydana gəldiyi ilk yerlərdəndir. Bu ərazilərdə yaşamış qədim insanlar zəngin tarix və maddi-mədəniyyət nümunələri yaratmışlar. Belə abidələrilə zəngin olan Laçın bölgəsi ölkəmizin ən qədim insan məskənlərindəndir. Belə ki, Cicimli kəndi ərazisində daş dövrünə aid "Kurqan", dəmir dövrünə aid "Qız qəbri", qədim Qəbristanlıq", "Malik-Əjdər" türbəsi, Rayonun Mirik kəndi ərazisindəki "Qaranlıq kaha", "Bayqara" mağaraları, Hoçaz kəndindəki "mağara məbəd", hələ eramızdan əvvəl II-I minilliyə aid edilən Azıx və Tağlar mağaraları ilə müqayisə edilə biləcək qədər tariximizin dəyərli və nadir sənət əsərlərindəndir. Bununla yanaşı rayonun ərazisində olan Ağoğlan qəsri (IX əsr), Dəmrovlu Pir Məbədi (XI əsr), Uşaq qalası (XV əsr), Kar kümbəz (XVII əsr), Güləbird, Soltanlar, Zeyvə, Malıbəy, Bülövlük, Araflı, Əliqulu, Malxələf, Hüsülü, Kosalar, Seyidlər, Pircahan, Kürdhacı kəndlərindəki tarixi abidələr, habelə X-XIX əsrlərə aid birtağlı, ikitağlı körpülər öz memarlıq üslubu ilə min illər boyu bu torpaqlarda yaşayan əcdadlarımızın bizə yadigar qoyduğu nişanələrdi.*

*Əfsuslar olsun ki, tarix və mədəniyyət nümunələrimiz münaqişələrin qurbanlaına çevrilmiş və bir çoxu zəmanəmizə qədər gəlib çıxmamışdır. XX əsrin əvvəllərində və sonlarında ermənilərin, "Böyük Ermənistan" yaratmaq xülyası nəticəsində Azərbaycan xalqının tarixini, mədəniyyətini və qədimiliyini özündə əks etdirən yüzlərlə abidələrimiz yer üzündən silinmişdir.*

*Laçın rayonunu işğal etdikdən sonra ermənilər Ağoğlan monastırının divarları üzərində olan bir neçə daş yazıları, simvolları silmiş onlardan bir çoxunun tanınmaz hala salmışlar.*

*Nankor ermənilər hələ sovetlər dövründə Cicimli kəndində olan hər iki abidənin üstündəki yazıları silmiş və türbənin birinin içərisində olan qəbri qazmışlar. İşğal zamanı isə türbələrin əvvəl birinin sonra isə ikincisinin kümbəzlərini dağıtmışlar. Rayon Tarixi Diyarşünaslıq muzeyinin əsas fondunda olan 5 mindən artıq və yardımçı fondda olan beş min eksponat ermənilər tərəfindən talan edilmişdir. İşğalçıların Güləbird kəndində Sarı Aşığın 350 eksponatı olan Xatirə muzeyini və qəbirüstü ziyarətgahını talan etmişdir. Ümumilikdə, Laçın rayonunda işğala qədər mövcud olan 54 dünya və 250-yə yaxın yerli əhəmiyyətli qədim tarixi abidə işğala məruz qalmışdı.*

*Qəhrəman ordumuzun gücü ilə 44 günlük Vətən müharibəsi gedişində torpaqlarımızla birlikdə abidələrimiz də işğaldan azad olundu. İşğaldan azad olmuş ərazilərimizdə, o cümlədən Laçında ermənilər tərəfindən vandalcasına dağıdılmış və zəngin mədəniyyət tariximizin neçə-neçə sirlərini aça biləcək abidələrimiz var. Bu əsirlikdən azad edilmiş abidələrimiz dövlətin, bələdiyyələrin, İcra nümayəndələrinin, Abidələrin mühafizə cəmiyyətinin, imkanlı adamların, QHT-lərin və ictimayyətin köməyi ilə bərpa və restavrasiya olunmalıdırlar. Bir çox abidələrimiz var ki, onlar saxtakarlıqla erməniləşdirilmişdir. Bu abidələri restavrasiya edərək əvvəlki adını bərpa etmək əsas işimiz olmalıdır.*

*Açar sözlər*: Muzey, Eksponat, Qəbr, Məbəd.

*Giriş*. Arxeoloji və tarixi tədqiqatlar təsdiqləyir ki, Azərbaycan ərazisi bəşər sivilizasiyasının meydana gəldiyi ilk yerlərdəndir. Təbii coğrafi mühitin və həyat şəraiti üçün zəruri şərtlərin olduğu bu ərazilər ilk insan məskənləri kimi tarixə düşmüşdür. Aparılan arxeoloji və tarixi tədqi-qatların nəticəsində məlum olmuşdu ki, burada yaşamış qədim insanlar zəngin tarixə malik olmuş və maddi mədəniyyət nümunələri yaratmışlar.

Manna və Atropatena dövlətlərinin mədəni abidələri, müdafiə tikililəri, qalalar, yolüstü karvansaralar, o dövrün qala divarları, Urmiya gölü ətrafındakı sərdabələrin tədqiqi göstərir ki, hələ e.ə.IV əsrdə bu yerlərdə yaşayış mədəniyyəti o səviyəyə olub ki, hətta eyvanlı evlər də tikilirmiş (8).

Qafqaz Albaniyasında Qəbələnin möhkəm qala divarları, saxsı borularda şəhərə su çəkilməsi, Çıraqqala, və Mingəçevirdəki məbədlər kompleksi, yaxud Sasanilər dövrü tarixini özündə qoruyub saxlayan müdafiə xarakterli abidələr (1) də bunları söyləməyə əsas verir. İslam dininin Qafqazda yayılmasından sonra Azərbaycan memarlığının inkişafında müəyyən dəyişik-liklər özünü göstərmiş, yeni tipli memarlıq tikililəri, məscidlər, mədrəsələr və türbələr tikilməyə başlanmışdı. Ərdəbil, Marağa, Urmiya, Şamaxı, eləcə də Bərdə, Şabran və digər yaşayış yerləri o dövr üçün Azərbaycanın ən inkişaf etmiş mədəniyyət mərkəzləri sayılırdı (1).

Qədim tarixi abidələrilə zəngin olan Laçın bölgəsi antik dövrlərdə və erkən orta əsrlərdə Albaniya və Atropatena dövlətlərinin tərkib hissəsi olmaqla ölkəmizin ən qədim insan məskənlərindəndir. Ərazinin çoxsaylı kəndləri, yaşayış məskəni kimi çox-çox qədimlərdən xəbər verir. Belə ki, bu ərazilərdə xristianlıqdan əvvəllərə aid abidələrin günümüzə qədər qalması fikrimizi təsdiq edir. Qalalar, Qəbirüstü abidələr, kahalar, mağaralar, kurqanlar bu gündə sirli olaraq qalır. Qurdqajı (Kürdhacı) və Ərikli kəndi arasında olan Alban abidəsi, Kiş dağında yerləşən Vəng abidəsi, Cicimli kəndi ərazisində daş dövrünə aid “Kurqan”, dəmir dövrünə aid “Qız qəbri”, qədim Qəbristanlıq”, “Mir Cəfər qalası”, “Malik-Əjdər” türbəsi və s. abidələr bu ərazilərin qədim minilliklərdən xəbər verdiyini göstərir. Abidələr içərisində diqqəti xüsusilə Kiş sülaləsinin adını daşıyan Laçında Kiş dağı, Şəkidəki Kiş kəndi və Kiş çayı cəlb edir. Altı min illik tarixi yaddaşımız bu abidələr vasitəsilə təsdiqini tapır (4, 66-67). Bununla biz Laçın rayonu ərazisində məskunlaşmış ulu babalarımızın altı min illik bir tarixə malik olmasının, e.ə IV minillikdə bu yerlərin sahibi olduqlarının bir daha şahidi oluruq.

Rayonun Mirik kəndi ərazisindəki “Qaranlıq kaha”, “Bayqara” mağaraları, Hoçaz kəndindəki “mağara məbəd”, hələ eramızdan əvvə II-I minilliyə aid edilən Azıx və Tağlar mağaraları ilə müqayisə edilə biləcək qədər tariximizin dəyərli və nadir sənət əsərlərindəndir. Bununla yanaşı rayonun ərazisində olan qədim qaya təsvirləri, daş üzərində süjet xarakterli oymalar, qəbirüstü abidələr, at və qoç fiqurları, həmçinin gildən hazırlanmış müxtəlif bəzək, məişət və digər əşyalar, ərazidəki Ağoğlan qəsri (IX əsr), Dəmrovlu Pir Məbədi ( XI əsr), Uşaq qalası (XV əsr), Kar kümbəz (XVII əsr), habelə X-XIX əsrlərə aid birtağlı və ikitağlı körpülər, eləcədə çoxsaylı su dəyirmanları (17) və s. kimi tarixi abidələr öz memarlıq üslubu ilə qədim dövrlərdən ərazidə türk tayfalarının məskən saldığını təsdiqləyirlər.

Əfsuslar olsun ki, tarix və mədəniyyət nümunələrimiz münaqişələrin qurbanlaına çevrilmişdi. Onların bir çoxu zəmanəmizə qədər gəlib çıxmamışdır. XX əsrin əvvəllərində və sonlarında ermənilərin, “Böyük Ermənistan” yaratmaq xülyası nəticəsində Azərbaycan xalqının tarixini, mədəniyyətini və qədimiliyini özündə əks etdirən, yer üzündən silinən abidələrimiz yüzlərlədir. Azərbaycan Prezidenti İlham Əliyev də Qoşulmama Hərəkatının XVIII Zirvə görüşündəki çıxışında bu barədə demişdi: “Azərbaycanın işğal olunmuş ərazilərində bütün tarixi abidələr, məscidlər, məzarlıqlar Ermənistan tərəfindən dağıdılmış, muzeylər və maddi-mənəvi sərvətlərimiz talan edilmişdir” (5). Bunların təsdiqi olaraq “Tarix və mədəniyyət abidələrini müdafiə təşkilatı”nın Azərbaycanın işğal olunmuş ərazilərində qalan 4500 abidədən 2550-sinin hansı coğrafi ərazidə yerləşməsi və yaşı haqqında görüntülərlə mühüm məlumatlar əldə etməsini (5) göstərmək olar. Qalan abidələr isə görünür məhf edilmiş və yaxud da Ermənistana daşınmışdır.

Mövcud olan abidələrə əsasən demək olar ki, tariximizin qədim dövrlərini özündə yaşadan, abidələrin çox olduğu ərazilərdən biri də Laçın bölgəsidir. Laçın ərazisində qədim Tarix və memarlıq abidələri ilə təbiət bir-birini sanki tamamlayırdı. Cicimli, Güləbird, Soltanlar, Zeyvə, Malıbəy, Bülövlük, Araflı, Əliqulu, Malxələf, Hüsülü, Kosalar, Seyidlər, Pircahan, Kürdhacı və digər kəndlərdəki tarixi abidələr (12 qoç, 28 at fiquru, 36 müxtəlif sujetli yazılar(3) və rəsmlər, sal daş, müxtəlif dövrlərdə ərəb əlifbası ilə yazılmış, bir-birinə bənzəməyən sənət rəmzləri həkk edilmiş qəbirüstü daşlar, məşhur Sarı Aşığın sevgilisi Yaxşının məzarı) (2, 7) və s. bu torpaqlarda min illər boyu yaşayan əcdadlarımızın bizə yadigar qoyduğu nişanələrdi. Abidələrin əksəriyyəti xristianlıqdan əvvəlki dövrə aid, Qafqaz Albaniyası dövrünün yadigarlarıdır (15).

Minilliklərin yadigarı olan abidələr, təəsüf ki, heç də hamısı bu günümüzə qədər gəlib çıxmayıb. Bu abidələrin sıradan çıxmasının təbii və süni səbəbləri olmuşdu. Belə ki, təbii aşınmalara və baxımsızlığa məruz qalan abidələr təəsüf ki, insan əməlinin də qurbanlarına çevrilmişlər. Çox

heyflər ki, Qarabağın, o cümlədən Laçının işğalı nəticəsində bu tarixi incilər də təcavüzün qurbanına çevrildi. Bütün bunlar azimış kimi, tarixin yadigarları olan qala və məbədlər saxtakarcasına talan edilərək erməniləşdirilmişdir.

Uzaq keçmişimizin yadigarı olan hər bir abidə mənsub olduğu xalqın tarixini, onun mədəniyyətini, özünəməxsus ənənə və xüsusiyyətlərini əyani surətdə əks etdirən "canlı" tarixdir. Adətən belə deyirlər, hər hansı xalqın mədəni keçmişi, milli mənsubiyyəti və koloriti barədə ilk təsəvvür əldə etmək üçün onun bircə abidəsinə baxmaq kifayyətdir. Azərbaycanda isə belə abidələr olduqca çoxdur. Belə ki, Laçının Böyük Seyidlər kəndində yerləşən, müqəddəs yerlərindən olan Alı Xəlifə (ocağı) sərdabəsi, Seyid Hüseyn ziyarətgahı və Hacı İbrahim ağanın dəfn edildiyi "Güllü qəbir" piri, Zeyvədə Şeyx Əhməd, 1-ci və 2-ci Soltanbaba (14; 17), Minkənddə XV əsr məbədi, Qarıqışlaqda Dəmirovlu pir məbədi, Bülövlük kəndinin şimalındakı qədim Kişpəyədə Alban məbədi, Piçənisdə Alban məbədi, Xan qəbiristanlığındakı Zəngəzurun sultanları Qara Murtuza bəyin, 1-ci Alməmmədin, 2-ci Alməmmədin hasardakı türbələri, Şeyx Şamillə dostluq etmiş, ona kömək göstərmiş Cəbrayıl bəyin türbəsi, Pircahan çayında Məşədi Mehralı körpüsü, Seyidlər kəndində bir tağlı və Minkənddə bir-iki tağlı körpülər (15) belə abidələrdəndir. Göründüyü kimi qəhrəmanlıq mübarizələrinin möhtəşəm rəmzi olan qədim məbədlər, qalalar, dini təriqətlərin keçirildiyi məscidlər, ayrı-ayrı şəxsiyyətləri əbədiyyətə qovuşduran məqbərə və sərdabələr zəngin xalq sərvətinin parlaq




*Ağoğlan məbədi. IX əsr.*
*(İşğaldan sonra)*



*Ağoğlan məbədi.IX əsr.*
*(İşğaldan əvvəl)*

nümunələridir. Belə nümunələrdən biri Laçının incisi olan Ağoğlan məbədidir. Məbəd Laçında Həkəri çayının sağ sahilində, Kosalar kəndinin yaxınlığında 2 hektarlıq ərazidə yerləşir. Ağoğlan məbədi V-VI əsrlərə aid alban monastırıdır. Abidə müxtəlif dövrlərdə uçqun və dağıntılara məruz qaldığından IX əsrdə yenidən inşa edilərək forma etibarı ilə kilsə üslubuna - məbədə, monastıra uyğunlaşdırılıb. Bu abidə bərpa edilərkən özünün ilk bünövrələri olduğu kimi saxlanmış, onun üzərində yeni divarlar tikilmişdir. Bərpadan sonra Ağoğlan məbədi Azərbaycan tarixinin alban dövrü memarlığının ən möhtəşəm abidələrindən birinə çevrilmişdir. Ağoğlan məbədinin uzunluğu 25, eni isə 12,5 metrdir (3). Kvadrat formalı səkkiz dayaq sütununun iki sırası binanın daxilini üç hissəyə bölür.

Əvvəllər məbədin qəsr kimi tanınması rəvayətlərdə də öz əksini tapmışdır. Belə rəvayət edilir ki, qədim zamanlarda bu ərazidən keçən gənc bir səyyah buranın gözəl təbiətinə heyran olmuş və bu məkanda qəsr tikdirmək qərarına gəlmişdir. Yerli əhalidən, tikinti işini bacaran könüllülərindən dəstə toplayıb işə başlamışdı. Xalqın sevgisini və rəğbətini qazanan gənc, çox yaraşıqlı olduğundan yerli əhali onu "Ağ oğlan" adlandırırmış. Tikilən qəsr vaxtilə "Qaranquş qəsri" adı ilə də tanınmışdir. Bununla bağlı olan rəvayət də çox maraqlıdır. Deyilənə görə, günlərin bir günü, günorta yeməyi vaxtı bir qaranquş aşpazın başına fırlanıb, onun işçilərə yemək verməsinə mane olmağa çalışırmış. Ətrafdakı insanlar quşun bu hərəkətinə maraqla tamaşa edir, lakin heç nə anlamırmışlar. Qəflətən qaranquş özünü qaynar qazanın içinə ataraq ölür. Bundan qəzəblənən aşbaz yeməyi kənara boşaldarkən qazanda ilan ölüsü olduğunu görür. Camaat isə heyrətdən donub qalır. Qəsrin sahibi

xilaskar quşun ölüsünü təntənə ilə tikilinin yanında basdırırlar. Qəsri də onun şərəfinə "Qaranquş qəsri" adlandırır. Lakin zaman ötdükcə qəsrin bu adı unudulmuş və məbədə çevriləndən sonra isə xalq arasında onu tikdirənin şərəfinə "Ağoğlan" kimi tanınmağa başlanmışdır.

Məbəd 1992-ci il may ayının 18-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. Laçın rayonunu işğal etdikdən sonra ermənilər Ağoğlan monastırının divarları üzərində olan bir neçə daş yazıları, eləcə də alban dövrünə məxsus xeyli sayda ornament və simvolları silib, onlardan bir çoxunun isə formalarını dəyişdirərək tanınmaz hala salıblar. Əldə etdiyimiz məlumata görə 2006-cı ildə ermənilər abidəni ikinci dəfə təmir etmək adı ilə divarların müxtəlif yerlərinə abidənin erməni Qriqorian dininə məxsusluğunu göstərən 26 yazı lövhəsi yerləşdiribər. Kompleksin həyətinə sağ tərəfdən giriş qapısının yaxınlığına cərgə ilə 2 məzar daşı və kompleksin ümumi giriş qapısının önündə İrəvandan gətirilmiş qırmızı bazalt daşdan 2 xaç daşı basdırıb və üzərinə xaç qoymuşlar (3). İşğaldan sonra ermənilər bu abidəni "Cicernavank" adlandırblar.

Rayonun Cicimli kəndi ərazisində, geniş məzarlıq içərisində yerləşən Malik-ƏJdər türbələri



*Malik-Əjdər türbəsi XII- XIV əsrlə*
*(İşğaldan əvvəl, Cicimli kəndi)*



*Kar Kümbəz- türbəsi XVII əsr*
*(İşğaldan əvvəl, Cicimli kəndi)*





*Malik-Əjdər türbəsi və Kar kümbəz türbəsi Oyma-Cicimli kəndi*
*(İşğaldan sonra, Cicimli kəndi)*

dünya memarlığının nadir incilərindəndir. Türbələrin tikilməsi barədə dəqiq məlumat yoxdur. Deyilənə görə yüzillik Səlib müharibəsində qələbə çalan, sonralar Qafqazda xristianlarla müharibələr

zamanı böyük qəhrəmanlıq göstərmiş sərkərdə Malik və Əjdərin şərəfinə tikilmişdir. Cicimlidəki türbənin XII-XIV əsrlərdə tikildiyini ehtimal etmək olar. Belə ki, mən özüm 1980-1983-cü illərdə türbənin ətrafında traktorun yer şumlamasından sonra müxtəlif vaxtlarda tapıb topladığım, XII- XIV əsrlərə aid ərəb dilində üstü yazılmış sikkələri Laçın rayon diyarşünaslıq muzeyinə təhfil vermişəm.

Malik Əjdər Türbəsinin içərisi dairəvi, bayır tərəfdən isə səkkizbucaqlı formadadır. Türbəyə düzbucaqlı aşırımı olan giriş qapısı abidənin şimal üzündə yerləşir. Qapı gözünün üstü sivri tağ forması verilmiş bütöv bir daş ilə örtülmüşdür. Onun haşiyəsi içərisində yonma atlı fiqurun izləri müşahidə olunur. Bu yerlərin müdrik qocaları, Şah İsmayıl Xətainin gəcavə yolu ilə İrəvan çökəkliyinə gedərkən həmin bu türbələrdə gecələməsindən danışırlar. Bu türbələr Azərbaycan memarlığının tədqiq olunmamış böyük mənəvi sərvəti kimi qalmaqdadır. Nankor ermənilər hələ sovetlər dövründə hər iki abidənin üstündəki yazıları qaşımış, türbənin birinin içərisində olan qəbri qazmış və xeyli daş kitabələri çıxarıb aparmışlar. İşğal zamanı isə türbələrin əvvəl birinin sonra isə ikincisinin kümbəzlərini dağıtmışlar. El arasında "Kar günbəz" adlanan ikinci türbə bayır tərəfdən kvadrat şəkilindədir. Bu abidənin də XVII əsrdə inşa edildiyi ehtimal olunur.



*Həmzə Soltan sarayı. Soltanlar kəndi. 1761. (İşğaldan əvvəl)*



*Həmzə Soltan sarayı. Soltanlar kəndi.1761.(İşğaldan sonra)*

Hər iki abidə hazırda işğalından azad olunmuş Cicimli kəndində dağıdılmış vəziyyətdədir.

Həmzə Soltan sarayı rayonun Hüsülü kəndində yerləşir. Sarayın tikilmə tarixi 1761-ci ilə ehtimal edilir. Sarayın ümumi mənzərəsindən aydın olur ki, qəsrin hündür qülləsi olub. Qəsrin cənub tərəfinin küncündə giriş qapısı var imiş. Saray ikimərtəbəlidir. Geniş və böyük zalı, xeyli sayda yardımçı otaqları və divanxanası vardı. Sarayın qapı və pəncərələri qoz ağacından hazırlanıb. Binanın tikintisində şərq memarlıq ənənələrindən istifadə edilib. Ehtimala görə burada sultanlıq XVIII əsrdə yaranıb və Zəngəzur vilayətinin böyük bir hissəsini idarə edib. Saray binası yerli daşlardan və gəc-əhəng qatışığından inşa edilib. İşğaldan sonra ermənilər Saray olan kəndin adını dəyişdirərək Melikatun adlandırıblar. "Həmzə Soltan" sarayını təmir edərək hotel kimi istifadə ediblər.

Bölgənin tarixini özündə əks etdirən Laçın Tarix və Diyarşünaslıq Muzeyi 1974-ci ildən 1992-ci ilin may ayına qədər fəaliyyət göstərmişdir. Yüksək bədii və tarixi səciyyə daşıyan eksponatlarla zəngin olan bu muzey əsrlərin canlı salnaməsi idi. Muzeydə toplanmış nadir eksponatlar Laçının zəngin tarixi keçmişi haqqında dolğun təsəvvür yaradırdı. (9, 76-77). Muzeyin yerləşdiyi bina tarix və mədəniyyət abidəsi kimi qiymətləndirilirdi. Muzeyin ümumi sahəsi 1200 kv/metrdən çox idi. Muzey 24 otaqdan, 1 nümayiş salonundan və 72 kv/metrlik bir fonddan ibarət idi. Muzeyin həyətində müxtəlif əsrlərdə hazırlanmış plastik sənət nümunələri, süjetli oymalar, at, qoç heykəlləri və bir çox məişət əşyaları açıq havada nümayiş etdirilirdi. 1983-cü ildən 1992-ci ilə



*Laçın Diyarşünaslıq muzeyinin həyat tərəfdən görüntüsü*

qədər muzeydə geniş şəkildə ekspozisiyalar təşkil olunurdu. Muzeyin əsas fondunda 5 mindən artıq eksponat toplanmışdı. Yardımçı fondla birlikdə muzeydə ümumilikdə 10 minə yaxın əşya olmuşdur. 1989-cu ildə Laçın Tarix-Diyarşünaslıq Muzeyi Ümumittifaq muzeylərə baxış müsabiqəsində qalib seçilmişdi. 1992-ci ilin may ayında Laçın rayonu işğal olunarkən muzeyin eksponatlarını çıxarmaq mümkün olmamışdır. Muzey kompleksi erməni vandalları tərəfindən darmadağın edilmiş (13) və ya Ermənistana aparılmışdır. Bunlarla yanaşı, Laçın şəhəri Dövlət Rəsm Qalereyasının 50 eksponatı və Mişni kəndindəki muzeydə olan 250 eksponat da erməni işğalına məruz qalmışdı (7, 34; 15). Erməni işğalçılarının dağıtdığı abidələrimizdən biri də Sarı Aşığın muzeyidir. XVII əsrdə yaşamış bayatı ustadı Sarı Aşığın xatirə muzeyi 1988-ci ildə Laçın rayonunun Güləbird kəndində istifadəyə verilmişdi. Xatirə muzeyinə Sarı Aşıqla bağlı 150 əşya bağışlanılmış və abidəsi ucaldımışdı. 1992-ci ildə Ermənistan Silahlı Qüvvələri tərəfindən Laçın rayonunun işğal edilməsi nəticəsində Sarı Aşığın qəbirüstü ziyarətgahı (9,78) və 200-ə yaxın eksponatı da talan olunmuşdur (19).

Laçının Mirik kəndində ilk insan məskənlərinin mövcudluğu ibtidai icma dövrünə qədər gedib çıxır. Bu kəndin ərazisindəki siklop xarakterli memarlıq nümunələri, antik qala, yeraltı






*Varazqum abidəsi Sarı Aşıq abidəsi, Güləbird kəndi*

mağaralar, tunellər və kəhrizlər Azərbaycan tarixininin müxtəlif dövrlərini öyrənmək üçün çox maraqlı, əvəzsiz mənbədirlər. Qədim dövrlərə aid daş əmək alətləri, daşdan yonulmuş istehsal vasitələri və Azərbaycanın qiymətli mədəniyyət nümunələrindən sayılan bədii daşlar, qabartmalar, oymalar, ornamentlər və digər dekorativ tətbiqi sənətə aid olan əvəzsiz nümunələr Laçının işğalına

qədər Mirik kəndinin ərazilərində qalırdı. Dağıdılmış abidələri kimi, kəndin adını da dəyişərək Herik adlandırmışlar. Hansı səbəbdənsə 2010-cu ildən sonra kəndin adı yenidən dəyişdirilərək köhnə adı ilə Mirik adlandırılmlşdı.

Qeyd etmək yerinə düşər ki, siklop tipli memarlıq abidələrinə Respublikamızda çox nadir hallarda rast gəlinir. Amma Mirik kəndi ərazisində siklop tipli memarlıq abidələrindən sayılan, böyük bir şəhərin xarabalığını xatırladan ərazi mövcud idi (6,92). Bütün bu kimi tarixi faktların mövcudluğu, Azərbaycanın digər bölgələrində olduğu kimi Laçın ərazisinin də eradan əvvəl II minilliyin sonu və I minilliyin əvvəllərində ibtidai icma quruluşunun dağılması və sinifli cəmiyyətə keçilməsinin göstəricisidir.






*Laçın, Mirik kəndi. Qala, antik dövr.* *Laçın, Mirik kəndi. Sirli mağara, antik dövr.*

Belə qədim abidələrimizdən biri də Mirik qalasıdı. Qala Mirik kəndin qərb tərəfindəki dağın zirvəsində şimala doğru uzanan dağ silsiləsinin cənub qurtaracağında dağın zirvəsində yerləşir. Qalanın uzunluğu 200 – 250 metr, eni isə 30 – 50 metrdir. Qala divarları siklop tipli memarlıq üslubu ilə tikilib, divarların hündürlüyü 3-5 metr, qalınlığı isə 2,5-3 metrdir. Qüllənin qapısı qalanın içərisində inşa edilən bir otağa açılır. Qalanın zirzəmisi, müxtəlif istiqamətlərə şaxələnən tunellərdən və müxtəlif ölçülü otaqlardan ibarətdir (6, 92-94). Qala 2013-cü ildən ermənilər tərəfindən qeyri-qanuni arxeoloji qazıntılara məruz qalıb. Abidədən Arutyun Xudanyanın apardığı qazıntı zamanı, bir qəbirdən aşkar etdiyi 6 küpə qızıl zinnət əşyaları və pul əskinasları tapması səbəbindən 2018-ci ilin avqust ayından qazıntını genişləndirmişlər. Ermənistan hökuməti tərəfindən ərazi nəzarətə götürülərək, ekspedisiya təşkil edilib və ərazi başdan-başa qazılmağa başlanılıb. Hərbi hissənin əsgərləri və kənddə məskunlaşdırılan ailələrin azyaşlı uşaqları qazıntıya cəlb edilmişdir (11). Tərkibdən göründüyü kimi əksəriyyəti qeyri-peşəkarlardan ibarət təşkil edilən ekspedisiya elmi tədqiqat işləri üçün deyil qarətçilik məqsədi ilə yaradıldığı bir daha açıq görünür.





*Ermənilər Laçının qədim yaşayış məskənlərini dağıdırlar.*

1954-cü il Haaqa Konvensiyasına, 1999-cu ildə qəbul edilmiş İkinci Protokol - silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunması dairəsini daha da genişləndirmişdi. Protokolun 9-cu bəndi işğalda iştirak edən tərəfin "işğal edilmiş ərazilərə münasibətdə" mədəni mülkiyyətin, istənilən arxeoloji qazıntı nümunəsinin qanunsuz ticarəti, bu ərazilərdən çıxarılması, abidələrin mədəni, tarixi və ya elmi sübut xüsusiyyətinin dəyişdirilməsi və ya dağıdılmasının qadağan etməsini təsbit etmişdi (6,103). Eyni zamanda “Mədəni dəyərlərin qeyri-qanuni yolla gətirilməsinin, aparılmasının və mülkiyyət hüququnun verilməsinin qadağan edilməsi və qarşısının alınmasına yönəlmiş tədbirlər haqqında” 1970-ci il Paris Konvensiyası və “Oğurlanmış və qeyri-qanuni yolla ölkədən çıxarılmış mədəni dəyərlər haqqında” 1995-ci il Konvensiyasında təsbit edilən müddəalara əsasən silahlı münaqişələr zamanı mədəni mülkiyyət və mədəni irsə qarşı əməllər, beynəlxalq cinayət hüququ ilə hərbi cinayət hesab olunurdu. Bütün bunlara baxmayaraq erməni işğalçıları abidələrimizlə də vandalcasına davranmışlar.

Ölkəmizdə mövcud olan və müxtəlif dövrlərdən bizim zəmanəmizədək gəlib çıxmış minədək arxeoloji və memarlıq abidəsi dövlət tərəfindən qorunub mühafizə olunur. Mədəni irsimizi qoruyub, onlardan səmərəli istifadə etmək barədə tarixi missiyanı rəhbər tutan dövlətimiz hələ sovet hakimiyyətinin ilk illərindən tarix və mədəniyyət abidələrinə fikir vermiş, onların qorunub saxlanmasına və bərpasına diqqəti ildən-ilə artmışdı. Baxmayaraq ki, XX əsrin 20-30-cu illərində ölkədə olan ab-hava, inzibati-amirlik sistemi bir çox tarixi və memarlıq abidələrindən, məscidlərdən və məqbərələrdən də yan keçməmişdir. Ancaq bütün bunlara baxmayaraq Azərbaycanın hər bir yerində olduğu kimi Laçın ərazisində də olan tarixi abidələrin bir qismi mühafizə olunaraq 1992-ci ilə - erməni işğalına qədər gəlib çıxmışlar. Lakin təssüflər olsun ki, Ermənistan silahlı qüvvələri tərəfindən Laçının işğal olunmasına qədər, ərazidə mövcud olan tarix və memarlıq abidələrinin heç də hamısı yetərincə tədqiq, bərpa, restavrasiya olunmamış və qeydiyyatdan kənarda qalmışdır (16).

Abidələrimizin tədqiqinə və bərpasına xüsusilə II Dünya müharibəsindən sonra başlanmışdır. Bu sahədə arxeoloqlarımız tərəfindən görülən işlər tarixilik baxımından böyük əhəmiyyətə malik olsa da, tarixi abidələrimizin bir çoxunu yalnız qeydiyyata almaqla kifayətlənilsə və dövlət tərəfindən qorunsa da, mərkəzdən uzaq olan bir çox tarix və memarlıq abidələrmiz elə o vaxtdan bərpasını və restavrasiya olunmasını gözləyir.

Respublikamızın 20%-dən çox ərazisinin erməni işğalçıları tərəfindən zəbt olunması səbəbindən bu ərazilərdə olan tarix, memarlıq və mədəni abidərimiz də talan edilibdi. Qarabağ və onun ətrafında 7 rayonun bütün abidələri darmadağın edilib. Belə ki, Dünya birliyi abidələrin beynəlxalq mühafizəsindən danışdığı bir vaxtda, ermənilər vandalcasına Azərbaycanın maddi-mədəniyyət nümunələrini yer üzündən silməklə məşğuldur. Dəfələrlə beynəlxalq tribunalardan səsləndirilsə də ermənilər heç bir beynəlxalq qanunlara əməl etmək fikrində olmamışlar. Erməni işğalçılarının Azərbaycan ərazilərinə təkcə ötən əsrin doxsanıncı illərinin əvvəllərində təcavüzü nəticəsində Dağlıq Qarabağ və ona bitişik rayonlarda 13 dünya əhəmiyyətli (6 memarlıq və 7 arxeoloji) 292 ölkə əhəmiyyətli (119 memarlıq və 173 arxeoloji) və 330 yerli əhəmiyyətli (270 memarlıq, 22 arxeoloji, 23 bağ, park, monumental və xatirə abidələri, 15 dekorativ sənət nümunəsi) tarix və mədəniyyət abidələri qalmışdı (19). Eyni zamanda işğal olunmuş ərazilərdə 40 mindən artıq əşyanın toplandığı 22 muzey, 4,6 milyon kitab fondu olan 927 kitabxana, 808 klub, 4 teatr və 2 konsert müəssisəsi, 8 mədəniyyət və istirahət parkı, 4 rəsm qalereyası, 85 musiqi məktəbi, 103,3 min ədəd mebel avadanlığı, 5640 musiqi aləti, 481 kinoqurğu, 20 ədəd kinokamera, 423 video-maqnitafon, 5920 dəst milli kişi və qadın geyimləri, 40 komplekt səsgücləndirici, 25 iri və 40 kiçik həcmli attraksion işğal altında qalıb (2, 7; 12). Bu tarixi və mədəniyyət nümunələrinin yerlə yeksan edilməsi faktı artıq bir sıra beynəlxalq təşkilatların rəsmi sənədlərində də əksini tapıbdı. Laçın ərazisində işğalçılar vandalcasına Soltan Əhməd sarayını, məscidləri, ziyarətgah və ibadətgahları, daş heykəlləri, qədim qəbirləri, kurqanları, tarixi abidə olan yaşayış binalarını dağıtmış, daşınması mümkün olan maddi mədəniyyət abidələrini Ermənistana aparmışlar (10, 24).

Laçının ərazisindəki əsir abidələrimizin vəziyyəti, işğal altında qalan torpaqlarımıza vaxtaşırı səfər edən beynəlxalq faktaraşdırıcı missiyanın üzvlərinə də məlum olmuşdu: Tarixin yaddaşı olan, Laçındakı abidələrimiz çoxu saxtalaşdırılaraq erməniləşdirilib. Bir sözlə, tarixi-mədəni irsimizi hədəf

seçən ermənilər işğal altında qalan abidələrimizi tamamilə və qəddarlıqla məhv etmişlər. Ümumilikdə, Laçın rayonunda işğala qədər mövcud olan 54 dünya və 250-yə yaxın yerli əhəmiyyətli qədim tarixi abidə (18) işğala məruz qalmışdı. Erməni işğalı nəticəsində ümumilikdə Laçın rayonuna 7.1 milyard ABŞ dollarından çox ziyan dəymişdi (5).

Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycanın tarixi və mədəniyyət, eyni zamanda, dini abidələrinin barbarcasına dağıdılması və qəsdən korlanması "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1554-cü il Haqda Konvensiyası, "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" UNESCO-nun 1972-ci il Konvensiyası, eləcə də "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyası ilə daban-dabana zidd olsa da, nədənsə beynəlxalq birlik vandalizmin qarşısının alınmasında qəti mövqe göstərməmiş, bu məsələyə ikili standartlarla yanaşılmışdır. 1983-cü ildə UNESCO-nun Beynəlxalq Abidələrin Mühafizəsi Assambleyasının təsis edilməsində də məqsəd diqqəti maddi mədəniyyət nümunələrinin




*Sultanbaba türbəsi, Zeyvə kəndi Uşaq (Abadxeyir) qalası.Quşçu kəndi. XVəsr.*

və tarixi ərazilərin qorunmasına yönəltmək olub (7, 53). Bəşər mədəniyyətinin tərkib hissəsi olan maddi-mənəvi irsin qorunması beynəlxalq əhəmiyyət kəsb etdiyindən, onların mühafizəsi bu gün xüsusilə diqqət mərkəzində olmalıdır. Azərbaycan dövlətinin yürütdüyü humanitar siyasət nəticəsində respublika ərazisindəki mövcud tarixi, dini və mədəniyyət abidələrinin aşkar edilməsi və mühafizəsi istiqamətində çox böyük və məqsədyönlü layihələr həyata keçirilir.

*Nəticə*. İşğaldan azad olmuş ərazilərimizdə, o cümlədən Laçında ermənilər tərəfindən vandalcasına dağıdılmış, zəngin mədəniyyət tariximizin neçə-neçə sirlərini aça biləcək və sirli qalmış abidələrimiz var. Bu abidələr Cənab Prezident, Müzəffər Ali baş komandan İlham Əliyevin rəhbərliyi və qəhrəman ordumuzun gücü ilə 44 günlük Vətən müharibəsi gedişində işğalçı ölkənin kapitulyasiyaya məcbur edilməsi sayəsində torpaqlarımızla birlikdə işğaldan azad olunubdur. Bundan sonra əsirlikdən azad abidələrimiz dövlətin, bələdiyyələrin, İcra nümayəndələrinin, Abidələrini mühafizə cəmiyyətinin, imkanlı adamların, QHT-lərin və ictimayyətin köməyi ilə bərpa və restavrasiya olunmalıdırlar. Bir çox abidələrimiz var ki, onlar saxtakarlıqla erməniləşdirilmişdir. Bu abidələri restavrasiya edərək əvvəlki adını bərpa etmək əsas işimiz olmalıdır.

Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, hələ işğaldan əvvəl Laçın rayonu ərazisində yerləşən bəzi abidələr diqqətdən kənarda qaldığı üçün məhv olmaq təhlükəsi qarşısında qalmışdı. Məsələn rayonun Zeyvə kəndində Soltanbaba türbəsi, Quşçu kəndində XV əsr Uşaq (Abadxeyir) qalası, Cicimli kəndində məscid (XIX əsr), körpülər, qəbrlər və başqaları bu sıradandır.

Tarix və mədəniyyət abidələrinin qorunması haqqında Azərbaycan Respublikasının 10 aprel 1998-ci il tarixli qanunu var. Göstərilir ki, abidələrin qorunub saxlanılması dövlətlə birlik də hamının işidir. Ona görə də torpaqlarımız artıq işğaldan azad olunubdur. Əsirlikdən azad, lakin, erməniləşdirilən, dağıdılan tarix və memarlıq abidələrimizin bərpası, restavrasiyası və konservasiyası işinə vaxt itirmədən başlamaq daha da yaxşı olar. Əsirlikdən azad abidələrimizin bərpası yəqin ki,

tariximizin qorunub saxlanması ilə yanaşı həm də mədəni irsimizə hörmət və ehtiramın göstəricisi olacaqdır. Abidələrin bərpası, restavrasiyası, tədqiqi və təbliği dövlətin və elm adamlarının işi olmasına baxmayaraq bu işə hamı qoşulmalıdır.

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi. Bakı, Azərnəşr, 1994, 687s.
2. "Azərbaycan" qəzeti, 17 may 2011.
3. "Azərbaycan" qəzeti, 18 may 2018.
4. Dördüncü Beynəlxalq Avrasiya Arxeologiyası Konfransının tezisləri. Ağsu, 1-5. oktyabr 2012.
5. Mükərrəmoğlu M. Ermənilər işğal etdikləri ərazilərdə tarixi və mədəni abidələri vəhşicəsinə dağıdıblar / "Xalq qəzeti", 28 oktyabr 2019. - http://xalqqazeti.com/az/news/33466 [Müraciət tarixi: 20.11.2020].
6. İsmayilov F. Laçın: həqiqətlər, mülahizələr, tarixi dəyərlər. Bakı, Nurlar, 2012, 184 s.
7. İsmayilov F. Tarixin faciəsi: Laçın. Bakı, Nurlar, 2003, 47, [1] s.
8. Культура, 18 апреля 2013.
9. Laçının tarixi, maddi mədəniyyət abidələri erməni vandalları tərəfindən məhv edilib, s.76-80. / "Qarabağ. Yaddaş" kitabında. Bakı, MHS-poliqraf, 2010, 190, [2] s.
10. Qasımov Ş.M. Əsirlikdə qalan Laçın. Bakı, Elm, 2012, 225s.
11. "Qarabağ", 1 sentyabr 2019
12. Olaylar 14 sentyabr 2013.
13. "Səs" qəzeti, 18 aprel 2012.
14. Əsir abidələr / Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi. Mənbə: http://www.dqdk.gov.az/az/view/pages/92/esir-abideler [Müraciət tarixi: 20.11.2020].
15. Laçın bidələrinin siyahısı. Mənbə: https://az.wikipedia.org/wiki/ [Müraciət tarixi: 20.11.2020].
16. Faiq İsmayılov: "Qeydiyyatdan kənarda qalmış abidələrimizin sayı 3 minə yaxındır". - Müsahibə. / Səs İnformasiya Agentliyi, 25 noyabr 2011. Mənbə: https://sia.az/az/news/culture/184754.html [Müraciət tarixi: 20.11.2020].
17. Laçın rayonu / Azerbaycanlı.org. Milli eyniyyətdən qlobal dünyaya pəncərə, 17.08.2014. Mənbə: http://azerbaycanli.org/az/page498.html [Müraciət tarixi: 20.11.2020].
18. Laçın rayonu haqqında: Tarixi / Mənbə: Azərbaycan Respublikası Laçın rayonu İcra hakimiyyətinin rəsmi internet səhifəsi - http://www.lachin-ih.gov.az/page/11.html [Müraciət tarixi: 20.11.2020].
19. Erməni vandalizmi: əsirlikdə olan Azərbaycan abidələri. Laçın rayonu. Mənbə: http://www.armenianvandalism.az/az_lachin.html [Müraciət tarixi: 20.11.2020].



**SHİKAR QASİMOV**

***Azerbaijan Technical University, Head of the Department of Social Sciences, Doctor of Historical Sciences, Professor***


## MONUMENTS OF LACHIN RELEASED FROM CAPTIVITY, WAITING FOR RESTORATION AND RESTORATION


Archaeological and historical research confirms that the territory of Azerbaijan was one of the first places where human civilization appeared. The ancient people who lived in these areas created rich historical and material-cultural samples. Lachin region, rich in such monuments, is one of the oldest human settlements in our country. Thus, in the territory of Cicimli village there are "Kurgan" of the Stone Age, "Maiden's grave" of the Iron Age, "Ancient Cemetery", "Malik-Ajdar" tomb, "Garanlig kaha", "Baygara" caves in Mirik village of the region, "Cave" in Khojaz village. The temple is one of the most valuable and unique works of art in our history, comparable to the caves of Azykh and Taglar, which date back to the II-I millennium bc. In addition, Agoghlan Castle (IX

century), Damrovlu Pir Temple (XI century), Children's Tower (XV century), Snow Dome (XVII century), Gulebird, Soltanlar, Zeyva, Malibey, Bulovluk, Arafli, Aligulu, Malkhalaf, Historical monuments in the villages of Husulu, Kosalar, Seyidlar, Pirjahan, Kurdhaci, as well as single-arch and double-arch bridges of the X-XIX centuries were the monuments left to us by our ancestors who lived in these lands for thousands of years with their architectural style.

Unfortunately, our historical and cultural examples have become victims of conflicts, and many of them have not survived. At the beginning and end of the 20th century, as a result of the Armenians' dream of creating a "Greater Armenia", hundreds of our monuments reflecting the history, culture and antiquity of the Azerbaijani people were wiped off the face of the earth.

After the occupation of the Lachin region, the Armenians erased several stone inscriptions and symbols on the walls of the Agoghlan monastery and made many of them unrecognizable.

Ungrateful Armenians erased the inscriptions on both monuments in the village of Cicimli during the Soviet era and dug a grave inside one of the tombs. During the occupation, the domes of one tomb and then the other were destroyed. More than 5,000 exhibits in the main fund of the regional Museum of History and Ethnography and 5,000 exhibits in the auxiliary fund were looted by Armenians. He looted the Memorial Museum and the tomb shrine with 350 exhibits of Sari Ashig in Gulabird village of the occupiers. In total, 54 world and pre-occupation ancient historical monuments of Lachin region were occupied before the occupation.

During the 44-day Patriotic War, our heroic army and our monuments were liberated along with our lands. In our liberated territories, including Lachin, we have monuments that were vandalized by Armenians and can reveal several secrets of our rich cultural history. Our liberated monuments must be restored with the help of the state, municipalities, executive representatives, the Society for the Protection of Monuments, wealthy people, NGOs and the public. We have many monuments that have been forged and Armenianized. Our main task should be to restore these monuments and restore their former name.

*Keywords*: Museum, Exhibit, Tomb, Temple.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 20 noyabr 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 06 yanvar 2021-ci il.*
*Rəyçilər: t.e.d. Qüdrət İsmayılov, t.e.d. Qabil Əliyev.*

**UOT 94(479.24)**

**ELGÜN ASLANOV**
*Azərbaycan Dövlət Aqrar Universitetinin dosenti*
**SEVDA ABDULLAYEVA**
*Dosent əvəzi,*
*Azərbaycan Dövlət Aqrar Universiteti*
**E-mail: sevda.abdullayeva.1986@mail.ru**

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN İLK QADIN JURNALİSTİ

*1918-ci ilin Bakısında bir qadının ziyalı elitada çalışması bir kişinin bu istiqamətdəki fəaliyyətindən azı on dəfə çətin idi. Cümhuriyyət dövrünün ziyalı qadınları əsasən mədəni-maarifçi, sosial, ictimai sahədə fəaliyyət göstərirdilər. Həm pedaqoji, həm də publisistik fəaliyyətlərinin kökündə maarifçilik missiyası duran bu xanımlar heç də dövrün kişilərindən geri qalmırdılar. Buna səbəb əslində Cümhuriyyət hakimiyyətinin qadın məsələsi və qadın hüquqları istiqamətində apardığı düzgün siyasət idi. Şərqdə ilk dəfə olaraq qadına seçkidə iştirak etmək hüququ verilmişdi. Yeni qız məktəbləri açılır və xanımlar hazır kadr kimi cəmiyyət üçün yetişdirilirdi. Məhz, bu addımlar cəmiyyətdə qadının da rolunu artırırdı. Onlardan biri də Şəfiqə Əfəndizadədir. O, Azərbaycan Cümhuriyyəti parlamentinin yeganə qadın əməkdaşı, Cənubi Qafqazın ilk qadın jurnalisti hesab edilir. Məqalədə Azərbaycanın ilk qadın jurnalisti Şəfiqə xanım Əfəndizadənin keçdiyi həyat yolu, ictimai-siyasi həyatda fəaliyyəti geniş işıqlandırılmışdır. Qadınlara Şərqdə ilk azadlıq verən Azərbaycan Xalq Cümhuriyyəti dövründə qadınların maarifləndirilməsində yönündə var gücü ilə çalışan Şəfiqə Əfəndizadə Azərbaycan tarixində "Mollaların qənimi" kimi də tanınmışdır.*

*Açar sözlər*: ilk, xanım, tarix, qadın, müəllim, jurnalist.

*Giriş.* Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı danışılanda ilk yada düşən M.Ə.Rəsulzadə, F.X.Xoyski, Ə.Ağayev, Ə.Topçubaşov, H.Ağayev, Ü.Hacıbəyov və digərləri olsada, bu dövrdə Azərbaycan Xalq Cumhuriyyətinə "İşıq saçan qadınlar" ı da unutmamalıyıq.

Etiraf edək ki, 1918-ci ilin Bakısında bir qadının ziyalı elitada çalışması bir kişinin bu istiqamətdəki fəaliyyətindən azı on dəfə çətin idi. Cümhuriyyət dövrünün ziyalı qadınları əsasən mədəni-maarifçi, sosial, ictimai sahədə fəaliyyət göstərirdilər. Həm pedaqoji, həm də publisistik fəaliyyətlərinin kökündə maarifçilik missiyası duran bu xanımlar heç də dövrün kişilərindən geri qalmırdılar. Buna səbəb əslində Cümhuriyyət hakimiyyətinin qadın məsələsi və qadın hüquqları istiqamətində apardığı düzgün siyasət idi. Şərqdə ilk dəfə olaraq qadına seçkidə iştirak etmək hüququ verilmişdi. Yeni qız məktəbləri açılır və xanımlar hazır kadr kimi cəmiyyət üçün yetişdirilirdi. Məhz, bu addımlar cəmiyyətdə qadının da rolunu artırırdı.Onlardan biri də Şəfiqə Əfəndizadədir. O, Azərbaycan Cümhuriyyəti parlamentinin yeganə qadın əməkdaşı, Cənubi Qafqazın ilk qadın jurnalisti hesab edilir [5].

Şəfiqə xanım 1882-ci ildə Gürcüstanın tarixən türklərin yaşadığı Cavahetiya bölgəsində, Axalsix rayonunun Azqur kəndində doğulub. Atası Məmmədəmin Şeyxzadə dövrünün tanınmış ziyalısı və müəllimi idi. Övladlarının təhsil alması ilə şəxsən özü məşğul olurdu. Şəfiqə də bacısı Səidə ilə təhsillərini məhz atasından alıb. On dörd yaşında ikən o, Şəki şəhərinə gedir. Burada atasının çalışdığı "Darrüssiyada" məktəbinin nəzdində qızlar üçün açılmış xüsusi qrupda dərs deməyə başlayır. Lakin burada çox qalmır, həmin il Bakıya gəlir. Qadın savadsızlığına qarşı mübarizə aparan ziyalılarla çiyin-çiyinə çalışır.

Bu zaman böyük mesenat, milyonçu Hacı Zeynalabdin Tağıyev Bakıda ilk qızlar məktəbini açır. Bununla da, müsəlman Şərqində qadınların yüksək təhsil almasının təməli qoyulur. Görkəmli ictimai-siyasi xadim Nəriman Nərimanov Məmmədəmin Şeyxzadəyə məktub yazaraq, ondan qızını həmin məktəbdə dərs deməyə göndərməsini xahiş edir. Ata bu dəvətdən məmnun qalır. Ancaq qızının dövlət məktəbində təhsil almadığı üçün belə bir hüququ olmadığını bildirir. Belə olan halda Şəfiqə 1901-ci ildə Tiflisə qayıdır, orada imtahan verir və müəllimlik attestatı alır. Sonra yenidən Bakıya dönür. Rus-müsəlman qızlar məktəbində ana dilindən dərs deyir.

Mollaların qənimi Şəfiqə xanım Cümhuriyyət dövrünün ən fəal xanımı hesab olunur. O, ali təhsil almamasına baxmayaraq, həm publisist, həm də pedaqoq kimi çox dəyərli fəaliyyətə sahiblənib. Həmçinin, Cümhuriyyət parlamentində stenoqramçı kimi çalışaraq, orada bütün Azərbaycan qadınlarını təmsil edib [5, s.105-106].

Bu xanım mütərrəqqi fikirlərinə görə xeyli təzyiqlərə də məruz qalıb. Məsələn, bir gün yas məclisində kişilərin yığışdığı məkana daxil olur və mollanın qələtini düzəldir. Baxmayaraq ki, o zaman qadının kişi məclisində olması qadağan idi. Amma buna rəğmən Şəfiqə xanım savadsız molla ilə də mübahisə edir ki, bu da məclisdəkilərin hiddətinə səbəb olur [1, s.326-327].

Tarix üzrə fəlsəfə doktoru Firdovsiyyə Əhmədova Şəfiqə xanım barəsində bir məqamı xüsusi qeyd edir: Milli istiqlal hərəkatının yükşəlişində qadınlarımızın da öz payı var. Onlar əsasən “Nəşri Maarif”, “Nicat” cəmiyyətlərində ictimai, maarifçi və xeyriyyə işləri ilə məşğul olurdular. Cumhuriyyət dövrünün faəl xanımlarından Şəfiqə Əfəndizadəni göstərə bilərik. Qeyd edək ki, həm Şəfiqə xanım, həm də dövrün digər ziyalı qadını Sara xanım qurultayda başıaçıq çıxış edəndə az qala böyük “İsmailiyyə” binası alqışlardan titrəyirdi. İnsanlar bir ağızdan “yaşasın hüruriyyəti nisvan!” deməklə bu iki xanımı alqışlayırdılar.

Daha sonra Kazanda ümumrus müsəlmanlar qurultayı keçirildi. Orada da Şəfiqə xanım Əfəndizadə, Səlimə xanım Yaqubova iştirak edirdilər. Şəfiqə xanım həm parlamentdə stenoqramçı işləyir, həm gimnaziyada dərs deyir, həm də publisistik fəaliyyət göstərirdi. “Şərq qadını”, “Dəbistan” jurnalında çalışıb. “İşıq” jurnalı var idi ki, o Azərbaycanın ilk qadın jurnalı olub” [3]. İctimai fəalların sevimlisi Ş.Əfəndizadə həm də ictimai işlərlə də məşğul olurdu. O, Hacının Qızlar məktəbində dərs deyən zaman müəllimə rəfiqələri - Hənifə xanım Məlikova, Səkinə Axundzadə, Sara Vəzirova ilə birlikdə dram dərnəyi yaratmışdı. Eyni zamanda, qızlara teatr mədəniyyəti, aktyorluq sənəti barədə məlumatlar verir, onları o dövrdə çıxan mətbuat xülasələri ilə tanış edirdi. Şəfiqə xanım bir müəllimə kimi də, şagirdlərdə Azərbaycan ədəbiyyatına maraq və həvəs yaradırdı. Qızlara nəinki ədəbi əsərləri, dərslikləri oxumağı, eyni zamanda sərbəst, aydın, savadlı yazmağı da öyrədirdi. Gənc qızların yüksək təhsil almasına çalışan Şəfiqə xanım 1910-cu ilədək bu məktəbdə müəllimə işləyib. Fars, rus və ərəb dillərini, Şərq klassik ədəbiyyatını dərindən öyrənib. Eyni zamanda, qadın pedaqoji məktəbindəki müəllimlik kurslarında dərs deyib. Cümhuriyyət dövrü mətbuatının araşdırıcısı Qərənfil Quliyeva Şəfiqə xanımın fəaliyyətinin çox az öyrənildiyini qeyd edir: “1917-ci ilin aprelində Bakıda İsmailiyyə binasında Zaqafqaziya müsəlmanlarının qurultayı keçirilib. Qurultayda müxtəlif təbəqələrdən olan kişilərlə yanaşı, cəmi üç qadın - Tiflisdən Sara Talışinskaya, Bakıdan Şəfiqə Əfəndizadə və Sara Vəzirova iştirak ediblər. Fars, rus və ərəb dillərini yaxşı bilən, Şərq ədəbiyyatını mükəmməl öyrənən, Avropa mədəniyyəti ilə yaxından tanış olan Şəfiqə xanımın səlis, aydın və savadlı çıxışı hamını heyran edir. Şəfiqə xanım çıxışının sonunda qadınların maariflənməsi üçün yeni məktəblərin və teatrların açılmasını tələb edir. Onun çıxışı salonda böyük əks-səda doğurur” [3]. İki haşiyə Tarixçi M.Oruclu yazır: "Şəfiqə Əfəndizadə və Sona Talışxanova adlı iki azərbaycanlı qadının çıxışından sonra vəziyyət nümayəndələri qadın məsələsinə ciddi münasibət bildirməyə vadar etdi. Qadınların çıxışından sonra keçmiş Bakı qazısı Ağa Məhəmməd Kərim tribunaya çıxaraq onları şəriət qanunlarına zidd olaraq kişilər qarşısında çıxış etdiklərinə görə mühakimə etdi. Bu zaman bütün zal qızışdı, kimin kimlə savaşdığı məlum olmadı. Maarifpərvər ziyalılar aranı sakitləşdirərək, qadınları gizlincə dal qapıdan cıxarmağa nail oldular" [4].

XX əsrin əvvəllərində Azərbaycan mətbuatının qadın azadlığı uğrunda apardığı çətin mübarizəsi nəticəsiz qalmadı. Əksinə, cəmiyyətin müxtəlif dairələri içərisində qadın problemləri üzrə mütərəqqi mövqe və meyillərin meydana çıxıb getdikcə daha da güclənməsinə dəstək verən amil oldu. Təsadüfi deyil ki, 1917-ci ildə Bakı Müsəlman İctimai Təşkilatlarının İcraiyyə Komitəsinə ərizə ilə müraciət ünvanlayan Behbud ağa Şahtaxtinski rayon ərzaq komitələrinə seçkilərdə müsəlman qadınların iştirakı məsələsini təklif kimi irəli sürdü. “Kaspi” qəzetinin yazdığına görə 1917-ci il mayın 19- da Bakı Qadın Müsəlman Xeyriyyə Cəmiyyətinin Şəfiqə xanım Əfəndizadənin sədrliyi ilə keçən yığıncağında Pəri xanım Topçubaşova rayon ərzaq komitələrinə qarşıdakı seçkilərdə qadınların da iştirak edəcəyi ilə bağlı məlumat verdi və məscidlərdəki seçkilərdə işləmək üçün 50 nəfər qadına ehtiyac olduğunu nəzərə çatdırdı [7]. Bu qadınlar yığıncağın 200 iştirakçısı

arasından seçildilər. Qadınların seçkilərdə iştirak edəcəyinə şübhə ilə yanaşanlar çox idi. Lakin seçki günü məscidlərin qarşısı səsvermədə iştirak etməyə gəlmiş çadralı qadınlarla dolu idi. Bakı müsəlman xeyriyyə cəmiyyətinin təyin etdiyi ziyalı qadınlar onların arasında gəzərək seçki qaydalarını başa salırdılar. Təxmini hesablamalara görə, 4 müsəlman seçki məntəqəsində 11 min qadın səs vermişdi. Bu, qadınlarımızın Azərbaycan Xalq Cümhuriyyətinin siyasi həyatında iştirakının debütü idi və onlar müsəlman Şərqində ilk dəfə olaraq seçkilərdə iştirak etmək hüququ qazandılar. Halbuki, həmin dövrdə seçki sahəsində gender bərabərliyi prinsipi nəinki müsəlman Şərqində, hətta Avropa dövlətlərinin əksəriyyətində hələ öz həllini tapmamışdı. Dünyanın bir çox ölkələrində qadınlar seçki hüququ almaqdan ötrü çox mürəkkəb və uzun mübarizə yolu keçiblər. Hələ XVIII əsrin sonlarında seçki hüquqları uğranda mübarizəyə başlamış ABŞ qadınları bu hüququ Azərbaycan qadınlarından sonra əldə etdilər. Yalnız 1920-ci ildə ABŞ senatı amerikalı qadınlara səs hüququ verən Konstitusiyaya 19-cu düzəlişi qəbul etdilər. Amerikalı qadınlar bu hüququ almaqdan ötrü 150 ildən artıq mübarizə aparmışdılar. Seçki hüququnu birincilər arasında 1906-cı ildə fın qadınları qazandılar. Norveçdə qadınlara seçki hüququ 1913-cü ildə, Danimarka və İslandiyada 1915-ci ildə, Rusiyada 1917-ci ildə, Kanadada 1918-ci ildə verildi. Feministlər Avstriyada, Almaniyada, Niderlandda, Polşada, İsveçdə, Lüksemburqda, Çexoslovakiyada 1919-cu ildə, ABŞ-da 1920-ci ildə, İrlandiyada 1922-ci ildə, Böyük Britaniyada yalnız 1928-ci ildə, nəhayət, İspaniya və Portuqaliya qadınları 1931-ci ildə seçki hüququ əldə etməyə nail oldular. Beləliklə, Azərbaycan qadınları müsəlman Şərqində birinci olaraq seçki hüququ aldılar. Azərbaycan milli liderləri, mütərəqqi ziyalı təbəqəsi və nəhayət, qadınlar özləri qadınların seçki hüququ alması uğranda mübarizədə aktiv iştirak edirdilər. Ümumiyyətlə qeyd etmək lazımdır ki, Müsəlman Şərqində və türk dünyasında ilk Demokratik Respublikanı yaratmaqla xalqımız sahib olduğu dövlətçilik ənənələrini bir daha təsdiq etdi. İnsan hüquq və azadlıqlarının bərqərar olması, etnik və dini mənsubiyyətdən asılı olmayaraq bütün vətəndaşların bərabər hüquqlarının tanınması, hətta bir çox Avropa ölkəsindən daha əvvəl qadınlara seçki hüququnun verilməsi, Azərbaycan dilinin dövlət dili elan edilməsi, təhsil və mədəniyyətin inkişafına xüsusi diqqət göstərilməsi, nizami milli ordunun, təhlükəsizlik strukturlarının qurulması Xalq Cümhuriyyətinin yürütdüyü siyasətin miqyasını, mahiyyət və mənasını əyani şəkildə səciyyələndirir. Demokratik Respublikanın Parlamenti tərəfindən keçirilən iclas və hazırlanan qanunlar xüsusi ilə də 16 yaşınadək uşaqların işləməsinin qadağan olunması, qadınların səhhətinə və fiziki imkanlarına uyğun olmayan işlərə qəbul edilməməsi, hamilə qadınlara güzəştlər edilməsi, müəssisələrdə işləyən qadınların südəmər uşaqları üçün xüsusi yerlərin ayrılması, uşaq bağçalarının açılması, məktəblərin sayının artırılması və digər məsələlərlə bağlı aparılan müzakirələr həmin dövrdə qadınlar üçün yaradılan imkanların parlaq nümunəsidir. 1919-cu ilin əvvəllərində qadın xeyriyyə cəmiyyətinin nəzdindəki qadın peşə məktəbinin fəaliyyətinin bərpa edilməsi haqqında məsələ qaldırmışdı. 1919-cu il aprelin 25-də hökumət hələ 1917-ci ildə qadın müsəlman xeyriyyə cəmiyyətinin nəzdində açılmış və 1918-ci ilin mart hadisələrindən sonra öz fəaliyyətini dayandırmış qadın məktəbində məşğələlərin bərpa edilməsindən ötrü vəsaitin ayrılması haqqında sərəncam verdi. Tezliklə Bakı qadın müsəlman xeyriyyə cəmiyyətinin nəzdindəki qadın peşə məktəbi yenidən açıldı. Bu məktəb yoxsul, yəni cəmiyyətin nəinki ali, hətta orta təhsil almağa imkanı çatmayan təbəqələrindən olan qadınlara real imkanlar yaradır və onlar üçün perspektivlər açırdı. Məryəm xanım Bayraməlibəyova Lənkəranda 50 uşağın təhsil aldığı ilk müsəlman qız məktəbində dərs deməklə yanaşı, 1921-ci ilədək bu məktəbə rəhbərlik etmiş, dram və xor dəməkləri təşkil etmişdi. Məryəm xanım 1919-1920-ci illərdə Lənkəran qızlar gimnaziyasının inspektoru olmuş, 1919-cu ildə Lənkəranda ilk qadın Xeyriyyə cəmiyyəti yaratmışdır. M.Bayraməlibəyovanın təsis etdiyi "Ünas" məktəbində 1920-ci ildə fəaliyyətə başlayan dram dərnəyi də işə başlamışdı. Burada hazırlanmış tamaşaların iştirakçıları yalnız qızlar idi [2].

C.Məmmədquluzadənin "Ölülər" pyesi ilk dəfə Bakıda 1916-cı ildə tamaşaya qoyulub. Tamaşa zamanı Şəfiqə xanım salonda bir qadının ağladığını görərək, ona yaxınlaşıb. Nə üçün ağladığını soruşanda qadın "Bu ki mənim həyatımdır, çəkdiyim əzablardır", - deyə həyəcanla cavab verib. "Ağlama, bacım. Bu, təkcə sənin yox, bütün Azərbaycan qadınlarının həyatıdır", - deyə Şəfiqə xanım onu sakitləşdirib. Bu hadisə onu çox təsirləndirib. "Açıq söz" qəzetində "Ölülər" pyesi

haqqında məqalə yazıb. Araşdırmaçı Qərənfil Quliyeva Şəfiqə xanımın AXC dövründəki fəaliyyəti haqqındakı araşdırma yazısında onun xeyli çətinliklər yaşadığını göstərir: “1918-ci ilin martında ermənilər tərəfindən törədilən mart faciəsi Şəfiqə xanımın da həyatına ağır zərbələr vurub. Bu qanlı olayda Şəfiqə xanımın başına bəlalar gəlib. Bir müddət Qubada, Azqurda və İstanbulda yaşayıb. Lakin Azərbaycanda baş verən hadisələri mütəmadi olaraq izləyib və münasibət bildirib. Azərbaycan Xalq Cümhuriyyətinin qələbəsindən sonra 1919-cu ilin aprelində Bakıya qayıdan Şəfiqə xanım yenidən pedaqoji işinə bərpa olunub” [7]. Amma o, Sovet dövründə də dinc oturmayıb. Bu illərdə də müəllimliklə yanaşı, publisistik fəaliyyətini davam etdirib. 1923-cü ildə nəşrə başlayan "Şərq qadını" jurnalının redaksiya heyətinin üzvü seçilib, jurnalın məsul katibi və bədii ədəbiyyat şöbəsinin müdiri olub. Jurnal o zaman onun haqqında yazırdı: "Şəfiqə xanım bütün Zaqafqaziyada ilk Azərbaycan dili müəlliməsi və bununla yanaşı, ilk Azərbaycan qadın jurnalisti və publisisti olmuşdur" [6, s.43-44]. Tədqiqatçıların yazdığına görə, 1932-ci ilə qədər pedaqoji fəaliyyətlə məşğul olan Şəfiqə xanım Zaqafqaziyada, Qafqazda, Moskvada keçirilən qadın konfrans və qurultaylarında nümayəndə kimi iştirak edirdi. Bütün ömrünü Azərbaycan qadınının maariflənməsinə, azadlığına həsr edən Şəfiqə xanım Əfəndizadə 1959-cu ildə Bakıda dünyasını dəyişib.

*Nəticə.* Bəli, tarixən igidlikdən çəkinməyən Azərbaycan qadını maariflənmək, irəli getmək, elmin müxtəlif sahələrinə də yiyəənməklə öz gücünü bir daha nümayiş etdirmişdir. Elə məqalədə də Azərbaycan qadının gücünü, əzmini bir daha görürük. Məhz Azərbycan Xalq Cümhuriyyətinin yeganə qadın əməkdaşı olan Şəfiqə Əfəndizadə çətin bir zamanda həm pedaqoq, həm jurnalist, həm də publisist kimi tarixin yaddaşına öz adını həkk etdirdi. Müsəlman Şərqində qadına ilk seçki hüququq verən bir dövlət, əlbəttəki, öz xalqına, kişisinə və illahda qadınının gücünə, əzminə bələd idi.Onu qeyd edimki, o zaman qadının çadranı atıb dövlətin istər elm sahəsində, istər jurnalistika sahəsində əməli fəaliyyətə keçmək düşündüyümüzdən də çətin idi. Təqiblərə, başına gələn bəlalara baxmayaraq Şəfiqə xanım bu yoldan dönmədi.

## ƏDƏBİYYAT

1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. I cild. Bakı, "Lider nəşriyyat", 2004, s.326-327.
2. Cümhuriyyət parlamentində ilk qadın – mollalarla, cahilliklə savaşan Şəfiqə Əfəndizadə // Sonxəbər.az, 26 may 2018. Mənbə: https://sonxeber.az/86659/cumhuriyyet-parlamentinde-ilk-qadin-mollalarla-cahillikle-savasan-sefiqe-efendizade [Müraciət tarixi: 19.02.2020].
3. Sabir Gəncəli. Azərbaycan Demokratik Cümhuriyyəti qadınlarımızın taleyində / Respublika qəzeti, 8 mart 2018-ci il. Mənbə: http://www.elibrary.az/docs/qazet/qzt2018_1244.pdf [Müraciət tarixi: 19.02.2020].
4. Savalan Fərəcov. Maarifçi qadın: Şəfiqə Əfəndizadə / Qadın.Net, 25.04.2020. Mənbə: https://qadin.net/cemiyyet/taninmishlar/c_muxtelif/100323-maarifi-qadn-fiq-fndizad.html [Müraciət tarixi: 19.02.2020].
5. Məmmədov S. Azərbaycanın maarifpərvər qadınları. Bakı, Elm, 1960, 140 s.
6. Süleymanova S. Azərbaycan qadınının ictimai-siyasi hərəkatda yeri və rolu (XIX əsrin sonu - XX əsrin əvvəlləri) // Tarix və onun problemləri, №2 2012, s.43-44.
7. AXC parlamentinin yeganə qadın üzvü kimdir? / Qaynarİnfo, 28.05.2018. Mənbə: https://qaynarinfo.az/az/axc-parlamentinin-yegane-qadin-uzvu-sefiqe-efendizade-kimdir/ [Müraciət tarixi: 19.02.2020].

**ELGUN ASLANOV**
*Associate Professor of Azerbaijan State Agrarian University*
**SEVDA ABDULLAYEVA**
*Azerbaijan State Agrarian Universit*

## THE FIRST WOMAN JOYRNALIST OF THE DEMOCRATIC REPUBLIC OF AZERBAIJAN

The People's Republic of Azerbaijan, which is the most glorious period of our history, is always welcomed by our people who have been respected. During this period research works are being carried out, monographs and books are written. Undoubtedly, the proclamation of the Year of the "People's Republic of Azerbaijan" on the occasion of the 100th anniversary of the Azerbaijan Democratic Republic was an obvious example of a high appreciation for our history, Republicans. I would like to mention that on this occasion in 2018 a lot of books reflecting the period of the Republic were published, and conferences were held both inside the country and abroad. But, as a historian, I think that this glorious page of the history of Azerbaijan is not only about the 100th anniversary of the history of Azerbaijan in 2018, but in general, Azerbaijan is spoken and written.

*Key words:* first, ledy, history, woman, teacher, journalist.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 19 fevral 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 06 yanvar 2021-ci il.*
*Rəyçilər: t.ü.f.d. Samirə Qasımova, t.e.d. Anar İsgəndərov.*

**UOT 94(479.24)**

**SAMİRƏ QASIMOVA**
*Dosent əvəzi,*
*Azərbaycan Dövlət Aqrar Universiteti*
**E-mail: samira.qasimova82@mail.ru**

# 1918-Cİ İL ŞAMAXI QƏZASINDA AZƏRBAYCAN XALQINA QARŞI SOYQIRIMI

*Məqalədə 1918-ci ilin mart-aprel aylarında Bakı Sovetinin yardımı ilə erməni silahlı tərəfindən Şamaxıda azərbaycanlılara qarşı törədilmiş soyqırım hadisəsindən bəhs olunur. Birinci dünya müharibəsi, Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. Erməni silahlı dəstələri Şamaxı qəzasında minlərlə dinc insanı amansızcasına qətlə yetirmiş. onların əmlakını qarət etmiş və evlərini yandırmışdır. Bu cinayətləri törətməkdə əsas məqsəd təbii sərvətlərlə zəngin olan Azərbaycan ərazisində ilk növbədə Bakı və onun ətrafında etnik təmizləmə aparmaqla bu əraziləri Sovet Rusiyasına tabe etməkdən ibarət idi.*

*Açar sözlər*: Azərbaycan, Çar Rusiyası, köçürülmə siyasəti, Şamaxı, erməni silahlı dəstələri, Bakı Soveti, milli qırğın.

*Giriş.* Havadarların yaxından köməyi və göstərişi ilə ermənilər XIX əsrin sonlarına yaxın "Böyük Ermənistan" yaratmaq xülyasına düşdülər. 1918-ci ilin yanvarından ermənilər Bakıda və Zaqafqaziyanın digər bölgələrində müsəlman qırğını törətmək üçün müxtəlif fitnəkarlıqlara əl atdılar. Bakıda azərbaycanlıların soyqırımı hələ başa çatmamış, bu qanlı qırğınları qəzalarda da həyata keçirməyə başlamışdılar. St.Şaumyanın fitvası ilə bolşevik-daşnak silahlı dəstələri, Şamaxıda Sovet hakimiyyəti qurmaq adı altında, Bakıda törədikləri dəhşətli qırğından sonra ikinci qırğını Şamaxı qəzasında törətmişdilər.

II Rus-İran müharibəsinin sonunda bağlanmış Türkmənçay müqaviləsinə (10 fevral 1828) əsasən Azərbaycanın çar Rusiyası tərəfindən işğalı nəticəsində onun bir çox şəhərlərində Türkiyədən və İrandan köçürülmüş ermənilər məqsədyönlü şəkildə yerləşdirilməyə başlandı. Bu dövrdə çarizm Azərbaycanda müstəmləkəçilik siyasətini işğal etdikləri torpaqlarda qeyri-müsəlman millətlərini yerləşdirməklə həyata keçirməyə çalışırdı. Çarizmin məhz bu məqsədyönlü siyasəti sayəsində Şamaxı şəhərində də xeyli erməni məskunlaşdırıldı [3, s.19].

Onlar qədim mədəniyyət beşiyi olan Şamaxıda ən səfalı, bir içim suyu yayın oğlan çağında diş donduran, abu-havası min bir dərdə dərmanı olan – Mədrəsə, Saqiyan, Meysəri, Kələxana, Zarxı və s. yerləri özlərinə "ata-baba" ocağı seçdilər. Bu yerlərdə xalqımızın keçmiş tarixinin izləri indi də yaşamaqdadır. Göründüyü kimi, həmin yaşayış yerlərinin adları, o ərazidə olan toponimlərin hamısı sırf türk mənşəli sözlərdir. Məsələn, ermənilərin XIX əsrdə məskunlaşdıqları Kələxana kəndi hələ XVI-XVII əsrlərdə Şirvanşahın mühafizə obyektlərindən biri olmuşdur. Bu ərazidə XVII əsr abidəsi olan Kələxana türbələri, XVIII əsrin böyük səyyahı Kortelnus de Bryninilin çəkdiyi rəsmdə 9 məqbərə təsvir edilmişdir. Bu gün onların yeddisi tam, biri yarımuçuq vəziyyətindədir. Məqbərələrdən birinin üstündə kimin üçün tikildiyi və müəllifinin adı yazılmışdır: "Bu günbəz Şeyx İbrahimin şərəfinə 1663-cü ildə Abdül Əzim Əmir Əli oğlunun rəhbərliyi altında tikilmişdir" [6, s.9-10].

Havadarların yaxından köməyi və göstərişi ilə günü-gündən iştah artmağa başlayan ermənilər hətta XIX əsrin sonlarına yaxın "Böyük Ermənistan" yaratmaq xülyasına düşdülər. Ən nəhayət, onlar öz mənfur, iyrənc niyyətlərini həyata keçirmək üçün 1891-ci ildə "Daşnaksütyun" adlı terror təşkilatı yaratdılar. Bir sıra xarici dövlətlər tərəfindən maliyyələşdirilən bu terror təşkilatına dünyanın müxtəlif yerlərinə səpələnmiş millətçi ermənilər də cəlb olundular. Bu mənfur təşkilat həmin vaxtdan "dənizdən-dənizə" "Böyük Ermənistan" yaratmaq uğrunda neçə-neçə planlar cızdı, qərarlar qəbul etdi, cinayətlər törətdi. "Böyük Ermənistan" yaratmaq xülyası, ermənilərin fikrincə, iki istiqamətdə həyata keçirilməlidir. Birincisi, ermənilərin göz dikdiyi türk torpaqlarının, o cümlədən də, Azərbaycan ərazilərinin müharibə, yaxud dinc yolla işğal edilib Ermənistana qatılması siyasətidir. İkincisi, buna nail olmadıqda milli qırğın törətmək yolu ilə türk xalqlarına, eləcə də azərbaycanlılara qarşı soyqırım siyasətinə həyata keçirməkdən ibarətdir" [7, s.6].

Birinci dünya müharibəsi, Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci ilin mart ayından etibarən əksinqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı Kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başlandı [11, s.10]. Birinci Dünya müharibəsi illərində (1914-1918) böyük dövlətlərdən yardım alan erməni-daşnak silahlı dəstələri, qabaqcadan hazırlanmış plana uyğun olaraq, bütün Azərbaycan torpaqlarında yerli türk-müsəlman əhaliyə qarşı yenidən dəhşətli soyqırımları həyata keçirdilər [9, s.7].

1918-ci ilin yanvarından ermənilər Bakıda və Zaqafqaziyanın digər bölgələrində müsəlman qırğını törətmək üçün müxtəlif fitnəkarlıqlara əl atdılar. Onlar Bakıda siyasi təsir üstünlüyünə nail olmaq üçün ən mühüm vəzifələrə yiyələnməyə can atırdılar. Əslində, bütövlükdə Zaqafqaziyaya sahib çıxmaq və keçmiş rus imperiyasının ərazisini yenidən bir dövlət tərkibində birləşdirmək Leninin arzusu idi. Çünki Bakı nefti Rusiyada öz hakimiyyətlərini qoruyub saxlamaq istəyən və buna görə də vətəndaş müharibəsi aparan bolşeviklərə çox lazım idi. Ona görə də Lenin başda olmaqla Moskvanın bolşevik hökuməti St.Şaumyana hər cür yardım etməyə çalışırdı. Bu yardımların içərisində hərbi yardım xüsusilə üstünlük təşkil edirdi. Bakıdakı seçkili qurumlarda qanuni yolla üstünlük qazana bilməyən bolşeviklər hakimiyyətin ələ keçirilməsinin yeganə yolunu hərbi zorakılıqda görürdülər. Bolşeviklər 1918-ci ilin başlanğıcında hakimiyyətin dinc yolla ələ keçirmək mübarizəsindən silahlı mübarizəyə hazırlaşmaq taktikasına keçirlər. 1918-ci il mart qırğını ərəfəsində, hətta ondan xeyli əvvəl, bolşeviklər və erməni daşnakları sürətlə silahlanmağı davam etdirirdilər [10, s.52-53].

1918-ci il mayın 16-da fəhlələr qarşısında çıxış edən St.Şaumyan bildirmişdi ki, müsavatçıların Bakını Muxtar Azərbaycanın paytaxtı elan etmək planı vardır. St.Şaumyanı qorxudan Azərbaycanın muxtariyyatı, Azərbaycan türklərinin müstəqil dövlət olmaq şansı idi. O, heç cür razılaşa bilmirdi ki, Azərbaycan müstəqil olsun. Bakıda daşnaklarla belə əməkdaşlıq edən və bütün dünya millətlərinin qurtuluşundan bəhs edən bolşeviklər azərbaycanlıların muxtariyyətini burjuaziyanın muxtariyyəti hesab edirdi [10, s.70].

Bakıda azərbaycanlıların soyqırımı hələ başa çatmamış, bu qanlı qırğınları qəzalarda da həyata keçirməyə başlamışdılar. Lakin St.Şaumyanın fitvası ilə bolşevik-daşnak silahlı dəstələri, Şamaxıda Sovet hakimiyyəti qurmaq adı altında, Bakıda törədikləri dəhşətli qırğından sonra ikinci qırğını Şamaxı qəzasında törətmişdilər. Nəticə olaraq 1918-ci ilin mart-aprel aylarında erməni vəhşiliyindən ən çox ziyan çəkən Azərbaycanın Şamaxı şəhəri və Şamaxı qəzasının azərbaycanlıların yaşadığı kəndləri olmuşdur. Fövqəladə Təhqiqat Komissiyası tərəfindən hazırlanmış 23 qərar layihəsi və 7 cild, 952 vərəqdən ibarət təhqiqat materialları erməni silahlı dəstələri tərəfindən Şamaxı şəhəri və Şamaxı qəzası üzrə törətdikləri vəhşiliklər haqqında ətraflı məlumat verir [2, s.4].

Hələ 1917-ci ilin sonu 1918-ci ilin əvvəllərindən başlayaraq S.Şaumyanın tapşırıqları ilə Şamaxıda böyük mülk, var-dövlət sahibi olan Stepan Lalayev (1905- ci ildə atası və əmisi törətdikləri əməllərin qurbanı olmuşlar) gizlincə Şamaxıda, eləcə də Mədrəsə, Kərkənc, Saqiyan, Zarxı, Meysəri kəndlərində yaşayan ermənilərə, həmçinin də rus kəndinə - Xilmilli, Qızmeydan, Çuxuryurda gizlincə silah, sursat paylatmış, onları başdan - ayağa silahlandıra bilmişdir [8, s.42].

Şamaxı faciəsi Stepan Lalayev, Gavriyil Karaoğlanov, Gülbandov, Mixail Arzumanov, Karapet Karamanov, Şuşintsa Ağamalova, Sedrak Vlasov, Samuel Daliyev, Petrosyants, İvanovlar (oğul və babası) və Şamaxının yerli erməni əhalisi tərəfindən törədilmişdi [1, s.75]. Materiallar subut edir ki, Lalayev azərbaycanlılara qarşı törədiyi soyqırımın icraçılarındandır. Onun Şamaxıda törətdiyi dəhşətli qırğınlara rəhbərlik etməsi şahid ifadələrində də öz əksini tapmışdır. Şahidlərin dediyinə görə Stepan Lalayev özünün cinayətkar silahdaşları Samson Aspirov və Saatzazbekovla birlikdə böyük bir erməni əsgər dəstəsinin başında Şamaxıya gəlmişdi. Onun quldur dəstəsi burada qadın, uşaq və qocaların da gizləndiyi məscidə od vurub yandırmış, çıxıb qaçmaq istəyənləri isə güllələmişlər. Ermənilər 1918-ci ilin mart-aprel aylarında Şamaxıya hücum zamanı 58 kənddə təxminən 7 min nəfər öldürmüş, onlardan 1653 qadın və 965 uşaq idi [1, s.76]. Samson Aspirov və Saatrazbəyovla birlikdə erməni əsgərlərindən ibarət böyük bir hərbi birləşmənin başında Şamaxıya gələn Lalayev müsəlman qocaların, qadınların və uşaqların gizləndikləri bütün məscidləri mühasirəyə almağı və yandırmağı əmr edib. Küçəyə qaçmağa

cəhd göstərənlər güllələnib. Məscidlərdə gizlənənlərin hamısı alov içində dəhşətli şəkildə öldürülüblər. Beləliklə, Şamaxı şəhərinin bütün müsəlman hissəsi məhv edilib...[5, s.64].

"Hümmət"in "Şamaxı əhvalı" sərlövhəli məqaləsində qeyd olunur ki, 17 yaşından 50 yaşınadək olan Şamaxı erməniləri bolşeviklərin Qırmızı ordusunun tərkibinə qatılmışdırlar. Vəziyyətin acınacaqlı olduğunu qəzet bu şəkildə təsvir edir: "Şamaxı şəhəri bütünlüklə yanıb". Milli mətbuatımızda Bakıda törədilən qırğınlarla yanaşı, Şamaxıda 7 mindən çox müsəlmanın qətlə yetirilməsinə diqqət yönəldilib, kəndlərində ermənilərin törətdikləri vəhşiliklər qələmə alınıb. "Azərbaycan" qəzeti Şamaxı qırğınında iştirak edən bolşevik-erməni silahlı birləşmələrinin sayını da göstərir: "Şamaxı mahalına bir qitə göndərilib, əhalı məhv edilir. 4 min əsgərin yüzdə səksəni erməni olub" [12, s.8].

Şamaxı hadisələri ilə bağlı "Azərbaycan" qəzetinin 1918-ci il 19 saylı buraxılışında gedən bir yazıda qeyd olunmuşdu ki, S.Lalayevin Şamaxı müsəlmanlarına tutduğu divan bizim bu müharibə dövründə üzləşdiyimiz bütün dəhşətləri geridə qoyur. Şamaxıda qırğına rəhbərlik edən S. Lalayevin qəddarlığı o həddə çatmışdır ki, bu hətta onun silahdaşları olan T. Əmirov və İ. Boqomolovun da narazılığma səbəb olmuşdu [13, s.15].

Bu dövrdə Şamaxı qəzasında 120 kənd olmuşdur ki, bunlardan da 86-sı erməni təcavüzünə məruz qalımşdı. Göründüyü kimi, komissiya öz işini dayandırdığından, soyqırıma məruz qalmış digər 33 kənd haqqında məlumat toplamaq mümkün olmamışdı. Şamaxı qəzası üzrə təcavüzə məruz qalmış kəndlər hazırda Şamaxı, Qobustan, Kürdəmir, Ağsu, İsmayıllı rayonlarının ərazisində yerləşir. Ermənilərin 1918-ci ildə Şamaxı qəzasında cinayət törətdikləri 86 kənd aşağıdakılardır: Qəbristan nahiyəsi (Qobustan) (19 kənd) -Mərəzəli, Şıxlar, Çuxanlı, Sündi, Mərzəndiyə, Nabur, Təklə-Hacı Məmməd Hüseyn, Yekəxana Talıb, Qurbançı, Ərəbşahverdi, Ərəbşalbaş, Cəmcəmli, Sıxzərli, Qaracüzlü, Təsi, Təklə-Mirzəbaba, Bəklə, Çəyirli, Ərəbqədim. Mədrəsə nahiyəsi (41 kənd) - Güyzi, Çaylı, Mirikənd, Muğanlı, Mırtı, Talış-Məlik-Umud, Şərədil, Qaravəlli -Vahid bəy, Məlcək, Xınıslı, Ağabəyli, Avtahi, Bico, Alpout, Osmanbəyli, Ləngəbiz, Qəşəd, Keçidinməz, Çarhan, Nüydü, Boyat, Adnalı, Kürdəmic, Qonaqkənd, Həmyəli, Cabanı, Çaylı-Baxış bəy, Avaxıl, Yuxarı Çağan, Dədəgünəş, Aşağı Çağan, Əngəxaran, Gəgəli, Cavanşir, Ağsu, Şeyməzid, Gorus - Çaparlı, Bortor-Navahı, Bağırlı, Ovçulu, Göylər. Qoşun nahiyəsi (26 kənd) - Nügədi, Nuran, Zeyla, Pur Qara-Çuxa, Suraxanı, Kiçatan, Koleybugut, Şabian, Maçahi, Tağlabiyan, Kelerarac, Koyurdivan, Pir Əbdül-Qasım, Bizlyan, Müdji, Gaciman, Dilman, Kelva (Nevla), Hatman, Hosa-dara, Sulut, Tircan, Talış-Nuri, Hon-kend, Sardagar, Zargava [13, s.18-19].

Ermənilər təkcə qətlə yetirməklə kifayətlənməmiş, eyni zamanda şəhərin ən abad, varlı və tanınmış müsəlmanlarına məxsus evlərə od vurub yandırmışdılar. Bu evləri, mülkləri yandırmaqla erməni daşnakları Azərbaycan elminə, maarifinə, ədəbiyyatına, incəsənətinə, tarixinə ağır zərbə vurmuşdu. Belə ki, o evlərdə elə sənədlər, elə kitablar, elə əlyazmaları məhv edilmişdir ki, onları nə tapmaq, nə bərpa etmək, nə də yenidən yaratmaq mümkün deyildi [2, s.23].

Beləliklə, 1917-1918-ci illərdə azərbaycanlıların soyqırıma məruz qalmaları, onlara məxsus əmlakların qarət olunması, evlərinin yandırılmasının əsas səbəblərindən biri Azərbaycanda qurulan hakimiyyətlərin (bolşeviklərin başçılıq etdiyi Bakı Soveti, onun yaratmış olduğu Bakı Xalq Komissarları Soveti və Sentrokaspi hökuməti nəzərdə tutulur) azərbayanlılara yad olması, onların yeritdiyi siyasətin kənardan gətirilməsi və zorakılığa söykənməsidir. Bolşeviklər müstəqil dövlət qurmaq fikirində deyildilər, onlar Azərbaycana Sovet Rusiyasının tərkib hissəsi kimi baxırdılar. Sovet hökuməti keçmiş Rusiya imperiyasının ərazisini bərpa etmək fikirində idi. İkinci bir amil isə, qurulan hakimiyyətin tərkibində azərbaycanlıların olmamasıdır. Bunu bir çox sovet tarixçisi də etiraf etmişdir. Azərbaycanda qurulan bolşevik sovet hakimiyyəti dövründə (1917-ci ilin noyabr - 1918-ci ilin iyul ayları) yerlərdə Sovet hakimiyyəti qurmaq adı altında yürütdüyü antiazərbaycan siyasəti nəticəsində azərbaycan xalqının dərin nifrətini qazanmışdır [2, s.10-11].

Ümumilikdə, 1918-ci ildə erməni silahlı qüvvələri tərəfindən Bakı quberniyasında 229 yaşayış məntəqəsi (o cümlədən Şamaxı qəzasında 58, Quba qəzasında 112), Gəncə quberniyasında 272 yaşayış məntəqəsi (Zəngəzurda 115, Qarabağda 157), İrəvan quberniyasında 211 (İrəvan qəzasında 32, Yeni-

Bayaziddə 7, Sürməlidə 75, Eçmiədzində 84), Qars vilayətində 82 yaşayış məntəqəsi yerlə yeksan edilmiş, yüz minlərlə əhali qırılmış və öz etnik ərazilərindən qaçqın düşmüşdü [4, s.92].

*Nəticə*. Tarixi faktlar 1918-ci ilin mart-aprel aylarında erməni vəhşiliyindən ən çox ziyan çəkən ərazilərdən birinin Azərbaycanın Şamaxı şəhəri və Şamaxı qəzasının azərbaycanlıların yaşadığı kəndlərin olduğunu sübuta yetirir.

## ƏDƏBİYYAT


1. Abışov V.Ş. Azərbaycanlıların soyqırımı (1917-1918-ci illər). Bakı, Nurlan, 2005, 176 s.
2. Abışov V. Şamaxı qəzasında Azərbaycan xalqına qarşı soyqırımı. Bakı: "Elm", 2017, 120 s.
3. Arzumanlı V., Həbiboğlu V., Muxtarov K. 1918-ci il qırğınları. Tarixi araşdırmalar. Bakı, "Öyrətmən", 1995, 90 s.
4. Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq. Bakı, "Qartal", 1998, 280 s.
5. Erməni xəyanəti: Terror, soyqırım və deportasiya siyasəti. Bakı, "Avropa nəşriyyatı servis" MMC, 2009, 121 s.
6. Qəniyev S. 1918-ci il Şamaxı soyqırımı. Bakı, "Nurlan", 2003, 152 s.
7. Həbiboğlu V. "Böyük Ermənistan" yaratmaq xülyası / "Respublika" qəzeti, 3 aprel, 1999.
8. Həbiboğlu V. Azərbaycan soyqırımı təşkilatçısı. Bakı, Azərnəşr, 2001, 301 s.
9. Mahmudov Y.M., Şükürov K.K. Qarabağ: Real tarix, faktlar, sənədlər. Bakı, "Təhsil", 2005, 380s.
10. Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı, Nicat, 1992, 246 s.
11. Soyqırım cinayəti (Beynəlxalq aktlar, normativ sənədlər, müraciət və şərhlər toplusu). Bakı, AZE Konsaltinq Qrup, Hüquqi İslahatlara Yardım Mərkəzi İB, 2010, 88 s.
12. Vəliyev A.A. (Aşırlı). 1918-ci ilin mart soyqırımı 1918-1920-ci illər mətbuatında. Bakı, "Elm və təhsil", 2011, 100 s.
13. Zülfüqarlı M. Şamaxı soyqırımı 1918. Bakı, AVCİYA, 2011, 78 s.


**SAMİRA QASIMOVA**
*Azerbaijan State Aqrarian University*

## GENOSIDE AGAINST THE AZERBAIJANI PEOPLE IN SHAMAKHI DISTRICT IN 1918

In the article deals about issue of the genocide committed by the armed forces of the armenians with the help of the Soviet of Baku in Shamakhi against the Azerbaijani people in March-April in 1918. The Armenians skillfully took advantage of the revolution that took place in Russia in February and October in 1917 during the First World War, managed to realize their claims under the Bolshevik flag. Armenian armed forces in the Shamakhi district brutally killed thousands of civilians, robbed their property and burned their homes. The main purpose of these crimes was to subjugate Azerbaijan, which is rich in natural resources, Soviet Russia, also conducted ethnic cleansing in Baku and its environs.

*Keywords:* Azerbaijan, char Russia, relocation policy, Shamakhi, armenian armed formation, Soviet of Baku, national genoside.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 11 dekabr 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 06 yanvar 2021-ci il.*
*Rəyçilər: t.ü.f.d.Elgün Aslanov, t.e.d. Anar İsgəndərov.*

**UOT 94(479.24)**

**İLHAM HƏSƏNOV**
*tarix üzrə fəlsəfə doktoru*
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
**E-mail: hasanovilham@mail.ru**

# BAKI DÖVLƏT UNİVERSİTETİNİN TİBB FAKÜLTƏSİNDƏ TÜRKLƏŞDİRMƏ VƏ PROLETARLAŞDIRMA XƏTTİ

*Azərbaycan Xalq Cümhuriyyəti ənənələrinə uyğun olaraq 1920-ci ildən sonra da Bakı Dövlət Universitetində və onun Tibb fakültəsində türkləşdirmə və proletarlaşdırma xətti həyata keçirilirdi. Türkləşdirmə xətti Birinci Ümumazərbaycan Sovetlər qurultayında (6-21 may 1921-ci il) konkret bir vəzifə kimi qarşıya qoyuldu. Bu vəzifədən irəli gələrək Azərb. SSR Xalq Maarif Komissarlığı 1922-ci il 30 iyun tarixində qərar qəbul etdi. Bu qərara müvafiq işlər həyata keçirilsə də milli dildə danışan ixtisaslı elmi-pedaqoji kadrların çatışmazlığı ucbatından rus dilində aparılan tədris öz əhəmiyyətin saxlayırdı. Bununla belə, türkləşdirmə xətti tədricən öz bəhrəsini verirdi.*

*1920-ci ilin dekabrından etibarən fəaliyyətə başlayan fəhlə fakültələri də fəhlə və kəndlilərin geniş miqyasda ali-tibb təhsili prosesinə cəlb edilməsinə şərait yaratdı. Milli mütəxəssislərin hazırlanması yerlərdə müalicə işinin səmərəli təşkili işinə çox müsbət təsir göstərdi.*

*Açar sözlər*: türkləşmə, proletar, dil, tibb, kadrlar.

*Giriş.* 1920-ci illərin əvvəllərində respublikada ali məktəblərin türkləşdirilməsi (tədrisin Azərbaycan dilində aparılması və milli mütəxəssislərin, elmi-pedaqoji kadrların hazırlanması nəzərdə tutulur – İ.H.) və proletarlaşdırılması (fəhlə, kəndli, zəhmətkeş və onların uşaqlarına üstünlük verilməsi – İ.H.) xətti götürülmüşdü [1, 147-148].

Birinci Ümumazərbaycan Sovetlər qurultayında (6-21 may 1921-ci il) respublikanın ali məktəblərində tədrisin rus dilində aparılmasının bu dili pis bilən minlərlə azərbaycanlı gəncin ali təhsil almalarına mane olduğu göstərilmişdi. Məhz bu səbəbdən 20-ci illərdə Azərbaycan SSR ali məktəblərinə əsasən başqa millətlərin nümayəndələri daxil olur, təhsillərini başa vurduqdan sonra isə yerlərə göndərildikdə Azərbaycan dilini bilmədiklərinə görə yerli əhali ilə işləməkdə çətinlik çəkirdilər. Bunu nəzərə alaraq I Ümumazərbaycan Sovetlər qurultayı yerli şəraitə, xalqın adət və ənənələrinə bələd olan ixtisaslı mütəxəssislərin gələcəkdə işləyəcəkləri müxtəlif sahələrdə daha müvəffəqiyyətlə çalışıb xalq ilə yaxından əlaqə saxlamaq imkanlarını təmin etmək məqsədilə qərara almışdı: "… respublika ali məktəblərinin bütün fakültələrində tədrisin rus dilində aparılması ilə yanaşı, türk dilinin də keçilməsi vacib sayılsın" [2, 147-148].

Bu qərara əsasən Azərbaycan SSR Xalq Maarif Komissarlığı 1922-ci il 30 iyun tarixli "Ali məktəblərdə türk dilinin (Azərbaycan dilinin – İ.H.) öyrənilməsinin vacib olması haqqında" qərar qəbul etmişdi [3, 11]. Lakin respublikanın əksər ali məktəblərində bu dildə tədrisi apara bilən elmi-pedaqoji kadrların az olmasına görə başqa ali məktəblərdə olduğu kimi Universitetdə və onun tibb fakültəsində də bu qərar zəif həyata keçirilirdi. Fakültədə oxuyanların əksəriyyəti başqa millətlərdən – rus, erməni, yəhudi və b. idi. Eyni zamanda universitetin, o cümlədən, tibb fakültəsinin rəhbərliyinin və tədris və elmi-pedaqoji kadrların demək olar ki, hamısı rus, yəhudi və digər qeyri-azərbaycanlı millətlərin nümayəndələri idi. Onların müəyyən hissəsi dolayı yolla türkləşdirmə xəttinin həyata keçməsinə müxtəlif vasitələrlə mane olurdular. Digər tərəfdən bir sıra yerli hakimiyyət orqanları keçmiş varlı nəslə mənsub olan və Şərqin, Qərbin habelə Rusiyanın ali tibb təhsili ocaqlarında oxuyub respublikada, xüsusən, Bakının səhiyyə və tibb ocaqlarında çalışan təcrübəli, savadlı milli həkim kadrlarına şübhə ilə yanaşır, onlara Azərbaycan milli burjuaziyası ailələrindən çıxan sinfi düşmən kimi baxırdılar. Milli ziyalı mütəxəssislərə bu cür münasibət maarif, təhsil, səhiyyə, tibb və b. sahələrə mənfi təsir edir, milli kadrlar hazırlanması işini pozurdu. Ali məktəblərin həyatında türkləşdirmənin xüsusi əhəmiyyətini qeyd edən Azərbaycan K (b)P MK-nın 1925-ci il 14 fevral tarixli "Ali məktəblər haqqında" qərarında yerli millətdən ixtisaslı mütəxəssislər hazırlamaq zərurəti haqqında deyilirdi: "… türk dilində ali məktəb təşkil etmək vəzifəsi sovet

hökumətinin milli siyasətindən doğur. Bu xətt dönmədən tam həyata keçirilməlidir" [4]. Qərarda türkləşdirmə siyasətinə qarşı hər cür müqavimət göstərilməsi hakim millətçilik təmayülü kimi qiymətləndirilir və pislənirdi.

20-ci illərin ortalarında Azərbaycan hökuməti ali məktəblərin türkləşdirilməsi xəttini dönmədən davam etdirdi. Azərbaycan K(b)P MK-nın və XKS-nin 1927-ci il 3 aprel tarixli "Bakı Universiteti haqqında" qərarında tibb fakültəsi professorlarının, hətta azərbaycanlı elmi işçilərin bəzilərinin türkləşdirmə siyasətinin mahiyyətini dərk etmədikləri, bu xəttə qarşı universitetdə gizli müqavimət göstərmək meyli tənqid olunmuşdu. Bununla əlaqədar Azərbaycan K(b)P Rəyasət Heyəti XMK-na universitetin türkləşdirilməsi planını işləyib hazırlamağı, bu siyasətə qarşı çıxan hakim şovinist millətçilik mövqeyində duran bir qrup professorların hərəkətlərinə qarşı mübarizə aparmağı təklif etmişdi [4, 262-263].

Azərbaycan K(b)P-nın VII (30.XI - 4.XII.1925) [5] və VIII (10-12 noyabr 1927-ci il) [6] qurultaylarının qərarlarında da türkləşdirmə siyasəti ilə əlaqədar qeyri-normal vəziyyət haqlı olaraq ciddi tənqid olunmuş və milli kadrların hazırlanması xəttinə qarşı çıxanlarla amansız mübarizə aparmaq, eyni zamanda milli kadrlara münasibətdə son dərəcə ehtiyatlı olmaq, onları sovet hakimiyyəti tərəfinə cəlb etməyin zərurəti qeyd olunmuşdu [6, 65-67].

Azərbaycan K(b)P MK-nın və Bakı partiya təşkilatının 1928-ci il Birləşmiş Plenumu (16-20 iyun) "Ali məktəblərin işi"nə dair xüsusi məsələ müzakirə edərək onların fəaliyyətində nəzərə çarpan hakim şovinist-millətçilik və yerli millətçilik meyllərini ciddi tənqid etmişdi. Plenum müəllimlərin, həkimlərin, aqronomların, mühəndislərin, ümumiyyətlə, ziyalılar dəstəsinin seçilib hazırlanmasını qüvvətləndirməyi, xüsusən Bakı universiteti tibb fakültəsində təhsilin milli dildə təşkilinə xüsusi diqqət yetirməyi tələb etmişdi. Plenum eyni zamanda tələbələrin maddi və məişət şəraitinin yaxşılaşdırılması zərurəti, təqaüdlərin sayını və həcmini artırmağı, yeni yataqxanaların tikilməsi, tələbələrə ucuz qiymətə yemək və paltar verilməsinin vacibliyini də göstərmişdi [4, 363].

Plenumda ali məktəblərin fəaliyyətində müşahidə olunan yerli və hakim millətçilik meylləri, rus şovinizmi faktları tənqid edilərək qeyd olunurdu ki, "ali məktəblərin professor-müəllim heyətinin bəzi hissələri arasında ali məktəblərin milliləşdirilməsinə qarşı sabotajçılıq ünsürləri, azərbaycanlı tələbələrin müəyyən hissəsi tərəfindən milliləşdirmə siyasəti ilə bağlı narazılıq nəzərə çarpmaqdadır. Belə ki, ali məktəblərdə və elmi idarələrdə azərbaycanlılardan milli kadrların hazırlanmasına qarşı təşkil olunmuş qrup və qruplaşmalar "sübut etmək" istəyirdilər ki, onlardan ixtisaslı mütəxəssislər hazırlamaq mümkün deyil, buna cəhd etmək sadəcə boş vaxt itirməkdir" [49, 364]. Plenum belə yanaşmanı absurd və dözülməz hesab edirdi.

O zaman respublikanın ali məktəblərində və elmi müəssisələrində çalışan görkəmli rus alimlərinin əksəriyyətinin böyük zəhmət və xidmətlərini etiraf etmək və yüksək qiymətləndirməklə yanaşı mütləq qeyd etməliyik ki, onların içərisində bəziləri azərbaycanlı milli mütəxəssislərin hazırlanmasına nəinki şübhə ilə yanaşır, hətta irqçilik mövqeyindən çıxış edərək, guya azərbaycanlılardan ixtisaslı kadrlar və elmi mütəxəssislərin hazırlanmasının mümkün olmayacağını "əsaslandırmağa" çalışırdılar. Məs., 1929-cu ilin mayında Xalq Maarif Komissarlığı tərəfindən Bakı universitetində təşkil olunmuş disputda (yığıncaqda) "Elmi kadrların hazırlanmasına dair" məsələ müzakirə edilərkən yenə onların bir hissəsi öz millətçi-şovinist münasibətlərini büruzə vermişdilər. Bakı universitetinin filologiya fakültəsinin professoru A.M.Yevlaxov çıxışında sübut etməyə cəhd edirdi ki, irqi nöqteyi-nəzərdən azərbaycanlılardan elmi kadrlar hazırlamaq mümkün deyil. Yığıncaqda iştirak edən bir qrup rus professoru, o cümlədən Bakı universiteti biologiya fakültəsinin kafedra müdiri prof. V.S.Yelpatevski, tibb fakültəsinin kafedra müdiri prof. P.Y.Rostovtsev və b. Yevlaxovun mövqeyini müdafiə etmişdilər. Yevlaxov və onun həmfikirlərinə qarşı prof. İ.İ.Şirokoqorov, prof. İ.İ.Lukov və b. Yevlaxovu və onu müdafiə edən qrupların əleyhinə çıxış edib bu bəhanələrin heç birinin anatomik-fizioloji və elmi dəlillərə əsaslanmadığını göstərmişdilər. Prof. İ.İ.Şirokoqorov öz çıxışında qeyd etmişdi ki, azərbaycanlı tələbələr arasında kifayət qədər istedadlı və bacarıqlı şəxslər var. Bunlar heç də əqli cəhətdən başqa millətlərdən geri qalmırlar. Prof. İ.İ.Lukov çıxışında Yevlaxovun baxışlarını rədd edərək göstərmişdi ki, əgər türklərə əlverişli tədris və elmi yaradıcılıq şəraiti yaradılarsa, onlar biliklərinə görə heç də başqalarından geri qalmazlar. Azərbaycanlılar rus dilində təhsil almasalar belə

onların çoxu rus dilini lazımi səviyyədə bilirlər. O, Yevlaxovun türk gənclərinin mənşəyinin ixtisaslı mütəxəssis və elmi işçi olmaq üçün kifayət qədər biliyə yiyələnmək qabiliyyətinə malik olmaması haqqında mülahizə və əsaslanmalarını rədd etmişdi [7, v.36]. Yığıncağın sonunda çıxış edən Azərbaycan SSR Xalq Maarif Komissarı M.Z.Quliyev (1893-1938) açıq irqçilik mövqeyində duran şovinist millətçilərin sərsəm fikirlərini ifşa edərək bildirmişdi: "Əgər biz türk və rus millətləri arasında belə bir ayrılıq – bölgü aparsaq bunun əsasında çox anlaşılmazlıq və narazılıq yarana bilər. Təəssüf ki, yalnız Yevlaxov deyil, bir çox rus professorları, türklərə "aşağı irq" kimi baxırlar. Yığıncaq Azərbaycan xalqının mənşəyinə, dilinə, tarixinə, mədəniyyətinə və görkəmli simalarına xorla baxan, kosmopolitizm xəstəliyinə tutulmuş bəzi milli müdafiəçilərin də hərəkətlərini pisləmişdi [8, 99-100].

Məlum olduğu kimi 20-ci illərin əvvəllərində Ali Pedaqoji İnstitut müstəsna olmaqla respublikanın bütün ali məktəblərində, o cümlədən Bakı Universitetinin bütün fakültələrində tədris prosesinin rus dilində aparılması bu dili pis və ya zəif bilən azərbaycanlı gənclərin ali məktəblərə daxil olmalarında ciddi sədd idi. Məhz bu səbəbdən həmin dövrdə Azərbaycan ali məktəblərinə qəbul edilənlərin böyük əksəriyyəti rus dilli və rus dilini qismən yaxşı bilən və ya dini əqidələrinə görə ruslara yaxın olan millətlərin və xalqların nümayəndələri idi. Bu isə Azərbaycan hökumətinin 1922-ci ildən başladığı ali məktəblərin türkləşdirilməsi siyasətini həyata keçirməyə imkan vermirdi. Digər tərəfdən, Azərbaycan ali məktəblərində, o cümlədən Bakı Universiteti və onun tibb fakültəsində bütün rəhbər vəzifələri (rektor, prorektor, dekan, kafedra müdiri və s.) tutan rus alimlərinin müəyyən hissəsi azərbaycanlı gənclərinin istedadlı və bacarıqlı nümayəndələrini belə mühüm tədris və elmi tədqiqat işinə cəlb edilməsinə qəsdən "dil səddini" əsas götürərək imkan vermirdilər. Milli gənc mütəxəssislər əsasən köməkçi tədris-texniki işlərdə çalışırdılar. Azərbaycan hökumətinin qərarı ilə 1926-cı ildən Bakı universitetinə ilk milli azərbaycanlı rektor təyin edilən T.A.Şahbazinin* səyi nəticəsində bu "sədd" sındırılıb tədricən aradan qaldırılmağa başlanmışdı. Bakı universitetinin rektoru olduğu 1926-1929-cu illərdə T.A.Şahbazi Universitetin yenidən qurulmasının əsasını onun türkləşdirilməsində görürdü. Tədrisin rus dili ilə yanaşı bütün fakültələrdə Azərbaycan dilində aparılmasına çalışırdı. Çünki bu məsələni həll etmədən Universiteti respublikada milli mədəniyyətin, elmin və təhsilin mərkəzinə çevirmək mümkün deyildi. O, Universitet Şurasının iclasındakı çıxışında demişdi: "… Yalnız bir qərar və əmr verməklə türkləşdirməni həyata keçirmək mümkün deyil. Bu o halda edilə bilər ki, bu və ya digər fənni tədris etmək üçün əlaqədar elmi-pedaqoji kadrlar olsun. Bizdə isə bu elmi qüvvələr yoxdur. Odur ki, qarşımızda duran əsas vəzifə türkləşdirmə ilə əlaqədar elmi əməkdaşlar hazırlamaqdan ibarətdir" [9, 87-90].

20-ci illərdə Bakı universitetində çalışan görkəmli rus alimlərinin mütərəqqi qrupu ilə bərabər Moskva, Peterburq, Kazan, Odessa, Kiyev, Xarkov universitetlərinin tibb fakültəsini bitirib həkim ixtisası alan və universitetin tibb fakültəsində tədris-pedaqoji fəaliyyətə başlayan M.Ə.Mirqasımov, M.D.Kajlayev, Ə.A.Atayev, S.İ.Vəlixan, Ə.F.Qarayev, H.K.Əliyev, A.P.Talışınski kimi istedadlı milli mütəxəssislərin köməyi ilə T.A.Şahbazi 1922-1926-cı illərdə Bakı Universitetinin tibb fakültəsini bitirib orada tədris və elmi-pedaqoji işə cəlb edilmiş C.P.Sultanova, A.İ.Şahtaxtinskaya, C.Y.Hüseynov, M.Ə.Əfəndiyev, M.B.Sultanov, K.Bağırbəyova, S.İ.Hacıqasımov və b. köməyinə

---

* *Şahbazi Tağı Abbas oğlu (Simurq 1892-1937-ci illər) Bakıda anadan olmuş, ilk təhsilini mollaxanada, sonra isə 1905-ci ildə əla qiymətlərlə bitirdiyi rus-tatar məktəbində almışdı. 1912-ci ildə Bakı realnı məktəbini fərqlənmə ilə bitirən T.A.Şahbazi sənədlərini Xarkov universitetinə verir. Lakin universitetə daxil olmaq üçün latın dilindən qəbul imtahanı verməк lazım idi. Realnı məktəbin proqramında latın dili olmadığından bir il müddətinə özü müstəqil hazırlaşaraq 1913-cü ildə Xarkov universitetinin biologiya fakültəsinə, sonra isə tibb fakültəsinə müvəffəqiyyətlə imtahan verib qəbul olunmuş. 1917-ci ilin fevral inqilabı dövründə T.A.Şahbazi Bakıya qayıdır. "Hümmət" təşkilatının məsul katibi seçilir. 1917-ci ilin sonunda təhsilini davam etdirmək məqsədilə yenidən Xarkova qayıdır. 1918-ci ildə imtahan verib müalicə həkimi diplomu alır. 1920-ci ildə Bakıya qayıdan T.A.Şahbazi Bakı Xalq Səhiyyə Şöbəsinin müdiri (1920-1922-ci illər), Xalq Maarif Komissarının müavini (1923-cü il), Azərbaycan MİK-nin katibi (1923-1926-cı illər), Bakı Universitetinin rektoru (1926-1929-cu illər), səhiyyə nazirinin müavini (1929-1934-cü illər), Azərbaycan tibb institutunun dosenti (1934-1937-ci illər) kimi məsul vəzifələrdə çalışır.O, 1937-ci ilin sonunda millətçilikdə və pantürkizmi təbliğ etməkdə ittiham edilərək 1938-ci ilin yanvarın 2-də əksinqilabçı kimi güllələnmişdir. T.A.Şahbazi azad və müstəqil Azərbaycan uğrunda həyatını fəda vermiş milli mücahidlərdən biri idi.*

arxalanaraq universitetdə milli kadrların hazırlanması üçün qismən normal şərait yaratmağa nail olmuşdu [9, 88].

Ali məktəblərin türkləşdirilməsi 20-ci illərin ikinci yarısından etibarən müvəffəqiyyətlə həyata keçirilməyə başlanırdı. Bakı universitetinin həyatında bu mühüm hadisə görkəmli dövlət xadimi, maarifçi, yazıçı və həkim T.A.Şahbazinin adı və fəaliyyəti ilə bağlıdır. Bakı universitetinin ilk azərbaycanlı rektoru kimi o, yalnız universitetin deyil, ümumiyyətlə respublikada ali təhsilin və səhiyyənin yenidən qurulmasında mühüm rol oynamış, xüsusən universitetə azərbaycanlı tələbələrin, elmi və elmi-pedaqoji qüvvələrin cəlb edilməsində əvəzsiz xidmətlər göstərmişdir. T.A.Şahbazi Bakı Universiteti ifadəsinin (adının) respublikanı tam təmsil etmədiyini qeyd edir və onun adında dəyişiklik edilməsini XMK-nın Kollegiyasında və Xalq Komissarlar Sovetindəki çıxışlarında qaldırır və universitetin türkləşdirilməsi ideyasını da əsaslandırırdı. T.A.Şahbazinin və onun həmfikirlərinin mülahizələrini nəzərə alan Azərbaycan hökuməti Bakı universitetinin adında dəyişiklik edilməsini məqsədəuyğun hesab edərək onu Azərbaycan Dövlət Universiteti adlandırmağı qərara almışdı. 1926-cı ildə Universitetin yeni nizamnaməsində bu dəyişiklik öz əksini taparaq sonrakı illərdə ali məktəblərdə, o cümlədən, universitetdə türkləşdirilmə xəttini daha səmərəli surətdə həyata keçirməyə imkan vermişdi. Onun rektorluğu dövründə tibb fakültəsinin bir qrup istedadlı milli məzunları: C.M.Abdullayev, Ü.S.Musabəyova, M.M.Hüseynov, G.R.Qurbanov, İ.Ə.Orucov, M.M.Mirsəlimov, M.M.Məlikov, M.B.Əbiyev, A.B.Feyzullayev, B.M.Mahmudbəyov, H.B.Ələkbərov, M.R.Nəzirov, F.Ə.Əfəndiyev, H.A.Ağabəyov, İ.M.İsmayılzadə və b. tibb fakültəsinə elmi-pedaqoji işə cəlb edilərək sonralar görkəmli səhiyyə təşkilatçıları, tanınmış alimlər kimi formalaşıb yetişmişdilər.

Universitetin, habelə tibb fakültəsinin proletarlaşması aprel 1920-ci il çevrilişi nəticəsində bərqərar edilmiş sosializm quruluşunun ictimai mahiyyətindən irəli gəlirdi. Türkləşdirmə siyasəti isə quruluşun milli düşüncə və hisslərə yabançı olmadığını göstərmək cəhdləri ilə bağlı idi. Gerçəkdə isə bolşeviklərin milli-siyasi baxışları bunun tam əksini tələb edirdi.

Tələbə heyətinin proletarlaşdırılması və yerləşdirilməsi istiqamətində görülən işlər sırasında fəhlə fakültələrinin açılmasına xüsusi diqqət yetirilirdi. Qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsində bu fakültə həlledici rol oynamalı idi. Belə bir təşəbbüsün reallaşmasında RSFSR-in təcrübəsinə istinad edildi. Orada ilk fəhlə fakültəsi 1919-cu ilin fevralın 2-də açılmışdı. 1919-cu ilin sentyabrın 11-də RSFSR Xalq Maarif Komissarlığı özünün ayrıca qərarında fəhlə fakültələrinin fəaliyyət əsaslarını müəyyən etdi. Xalq Komissarları Sovetinin V.İ.Lenin tərəfindən imzalanmış "Fəhlə fakültələri haqqında" adlı 1919-cu il sentyabrın 17-də qəbul edilmiş dekretdə birbaşa bildirilirdi ki, fəhlə fakültələrinin vəzifəsi "proletar və kəndli qüvvələrini geniş miqyasda ali məktəbə cəlb etməkdir" [12, 44]. Belə bir direktivə uyğun olaraq Bakı Universitetinin nəzdində fəhlə fakültəsinin yaradılması üçün komissiya formalaşdırıldı. Həmin komissiya qəbul fənləri üzrə komissiyalar kimi Universitetin 1920-ci il nizamnaməsində nəzərdə tutduğu Maarifçilik Cəmiyyətində birləşdilər. 1920-ci il dekabrın 1-də Azərbaycan İnqilab Komitəsi Universitet yanında fəhlə fakültəsinin açılması haqqında dekret qəbul etdi. Dekabr ayının 5-də Xalq Maarif Komissarlığı fəhlə fakültələrinin təşkil edilməsinə 2 milyon manat ayrılmasına icazə verdi və dekabr ayının 6-dan etibarən Bakı Ümumşəhər fəhlə fakültəsi və onun Balaxanı, Qara şəhər, Ağ şəhər və Vağzalyanı rayonlarından ibarət 4 şöbəsi fəaliyyətə başladı. İlk əvvəl məşğələlərdə 209 nəfər, o cümlədən 32 qadın iştirak edirdi [12, 130]. Dinləyicilərin sosial təşkili də fəhlə, kəndli və muzdurların xeyrinə dəyişməyə başladı.

*Nəticə.* Belə ki, əgər 1921-1922-ci dərs ilində fəhlə və kəndlilərin sayı 88 nəfər idisə, 1924-1925-ci dərs ilində onların sayı artaraq 1421 nəfərə çatdı. Müvafiq surətdə azərbaycanlı dinləyicilərin də sayı artaraq 98-dən 1023-ə qalxdı [11]. Akademik heyətin içərisində də azərbaycanlıların sayı artmışdı. Əgər 1920-1921-ci dərs ilində Universitet müəllimlərinin cəmi 7 nəfəri (102 nəfərdən) azərbaycanlı idisə 1924-1925-ci dərs ilində onların sayı 42 nəfərə çatdı (188 nəfər). Artım türkləşdirmə siyasətinin təzahürü idi.

Tibb fakültəsində 1920-ci ildən işləyən ilk azərbaycanlılar sonralar tanınmış alimlər kimi yetişdilər. Onların arasında assistent A.X.Talışınski, ordinatorlar A.Hacıyev, M.Cəfərov, M.Topçu-başov da var idi. 1921-ci ildə ordinator D.Rüstəmbəyov, prozektor köməkçisi M.A.Mirqasımov,

1922-ci ildə assistentlər Q.İldırım, M.Sultanov, ordinatorlar A.Abbasov, M.Həbibov, L.Mahmudbəyov, A.Şahtaxtinskaya, preparator M.Səfərəliyeva, 1923-cü ildə ordinator K.Bağırbəyova, preparatorlar K.Balakişiyev, B.Babayev, 1924-cü ildə ilk azərbaycanlı professor S.Kazımov, ordinatorlar N.Əlibəyov, A.Adıgözəlov, S.Axundova, N.Əliyev, Q.Atabəyov, M.Kajlayev, A.Sultanova, Q.Talışınski, S.Axundov, M.Səfərəlibəyov, M.Hacıyev, assistent S.Vəlixan və başqaları da onların sırasına qoşuldular.

Bununla birlikdə fakültənin akademik tərkibinin türkləşməsi prosesi ləng gedirdi 1923-cü il nizamnaməsi tələb edirdi ki, assistentlər, prozektorlar, onların köməkçiləri, ordinatorlar və elmi işçilər seçilərkən Azərbaycan dilini bilənlərə üstünlük verilsin Amma həmin il Xalq Maarif Komissarlığı nizamnaməyə dəyişiklik etdi ki, kiçik akademik vəzifələrini yalnız azərbaycanlılar tutmalıdır. Yalnız azərbaycanlılar olmadığı halda həmin vəzifələri başqa millətlərin nümayəndələri də tuta bilərdilər.

Beləliklə görülən tədbirlər milli kadrların yetişdirilməsi prosesinə öz müsbət təsirini göstərirdi.

## ƏDƏBİYYAT


1. Первый Всеазербайджанский съезд Советов, Стенографический отчет. Баку, Аз.гос. изд. 1921, 500 с.
2. Маковельский А.О. Азербайджанский Государственный Университет. Первое десятилетие. 1919-1929 гг. Баку, "Azərnəşr", 1930, 140 с.
3. Резолюции и постановления съездов Советов Азербайджанской ССР (1920-1937 гг.). Баку, Изд-во Верховного Совета Азерб. ССР, 1961, 746 с.
4. Azərbaycan Kommunist Partiyasının qurultayları, konfransları və MK plenumlarının qətnamə və qərarları 4 cilddə. I cild. Bakı, "Azərnəşr", 1987, 711 s.
5. Azərbaycan Kommunist (bolşeviklər) firqəsi VII qurultayı. Stenoqrafik hesabat. Bakı, "Azərnəşr", 1926, 632 s.
6. Azərbaycan Kommunist (bolşeviklər) firqəsi VIII qurultayının qərar və qətnamələri. Bakı, "Azərnəşr", 1928, 546 s.
7. Gürcüstan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi (GRPİİSSA), f.13, siy.1, iş 3574.
8. Salahov M.N. Azərbaycan SSR-də ali təhsilin təşkili və inkişafı (1920 iyun - 1941-ci illər), nam. diss., Bakı, Azərb. EA Tarix İnstitutu, 1967, 326 s.
9. Ağayev B.A., Salahov M.N., Şahbazov R.A. Görkəmli ictimai xadim, maarifçi və səhiyyə təşkilatçısı (Tacı Şahbazi haqqında) // Azərb. tibb jur., 1993, №1-2, 224 s.
10. V.İ.Lenin elm və təhsil haqqında. M., Siyasi ədəbiyyat nəşriyyatı, 1971, 780 s.
11. Atakişiyev A. Bakı Dövlət Universitetinin tarixi. Bakı Universitetin nəşriyyatı, 1991, 820 s.
12. Hesablama müəllifindir.



**ILHAM HASANOV**

***Doctor of Philosophy in History,***

***Institute of History named after AA Bakikhanov of ANAS***


## THE TURKIC AND PROLETARIAN LINE IN THE MEDICAL FACULTY OF BAKU STATE UNIVERSITY


In accordance with traditions of the Azerbaijan Democratic Republic, the line of Turkization and proletarianization was being implemented at Baku State University and its Medical faculty after the 1920 year as well. The line of Turkization was put forward as a concrete task at the First All-Azerbaijan Congress (May 6-21, 1921). Under the duties of it on June 30, 1922, the Azerbaijan Public Education Commissariat issued a decision. In spite of the fact that some works were implemented in accordance to this decision, teaching in Russian was important because of the shortage of qualified scientific and pedagogical staff speaking in the national language.

However, the line of Turkization was gradually giving its results. The rabfaks - workers' faculties, which began to function from December 1920, also contributed to the involvement of workers and peasants in the process of large-scale higher medical education. Training of national specialists had had a positive impact on rational organization of medical treatment**.**

*Keywords*: turkization, proletarization, language, medicine, personnel.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 27 dekabr 2019-cu il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 06 yanvar 2021-ci il.*
*Rəyçilər: t.ü.f.d. İlqar Niftəliyev, t.e.d. Qabil Əliyev .*

**UOT 94**

**RÖVŞƏN HƏTƏMOV**
*T.ü.f.d,*
*BDU-nun Avropa və Amerika ölkələrinin*
*yeni və müasir tarixi kafedrasının dosenti*
**E-mail:rovshanhatamov@bsu.edu.az**

# SSRİ-ALMANİYA MÜHARİBƏSİ DÖVRÜNDƏ ERMƏNİ MİLLƏTÇİLƏRİNİN NASİST REJİMİ İLƏ ƏMƏKDAŞLIĞI

*SSRİ-Almaniya müharibəsi dövründə erməni millətçi dairələrinin nasist rejimi ilə sıx əməkdaşlığı yaradılmışdı. Erməni müəllifləri tarixi həqiqəti saxtalaşdıraraq bu əməkdaşlığın yaranmasında Türkiyənin təzyiqi amilini bəhanə kimi irəli sürürlər. Əslində, nasist irqçi nəzəriyyəsi daşnakların tarixən müsəlman əhalisinə qarşı həyata keçirdikləri soyqırımların ideoloji cəhətdən əsaslandırılmasında daim istifadə olunmuşdur.*

*Nasist Almaniyasının SSRİ-yə qarşı həyata keçirdiyi diversiya-kəşfiyyat əməliyyatlarında erməni siyasi qüvvələrinin təklif etdikləri yardımdan istifadə edilmişdi. Bu xüsusilə, Qafqazda və Krımda aparılan hərbi əməliyyatlar dövründə daha çox müşahidə edilmişdir.*

*Dro və Njdenin rəhbərlik etdikləri erməni millətçi təşkilatları alman ordularına yardım etməklə yanaşı eyni zamanda onların işğalı altında olan erməni əhalisinin yalnız onların yaşayacaqları daha münasib məskənlərə köçürülməsi və yerli əhlinin hesabına onların təminatının yaxşılaşdırılmasına çalışırdılar. Erməni legionu sovet ərazisində partizanlara qarşı mübarizə adı altında mülki əhaliyə qarşı qəddar münasibət nümayiş etdirir və alman cəza dəstələrinə göstərdikləri yardımlara görə komandanlığın xüsusi diqqətini qazanırdılar.*

*1942-ci ilin yayı-payızında sovet-alman cəbhəsinin Qafqaza yaxınlaşdığı zaman Azərbaycan alman ordularının mümkün müdaxiləsinin qarşısını almağa hazırlaşmaqla yanaşı, arxa rayonlara atılmış və ermənilərin də daxil olduqları alman kəşfiyyat qruplarına qarşı mübarizə aparmalı olmuşdu.*

*Acar sözlər:* erməni millətçiliyi, “Dromedar”, erməni-nasist əlaqələri, erməni paraşütçü diversantları, Qafqaz cəbhəsi, erməni legionu.

*Giriş*. Rusiya ilə erməni xalqını çox əsrlik sıx müttəfiqlik əlaqələri və rus ordularının XIX əsrin I rübündə Cənubi Qafqazı işğal etməsindən sonra burada həyata keçirilən milli siyasət fonunda SSRİ-Almaniya müharibəsi dövründə 20 minlik erməni legionunun nasistlər tərəsində çıxış etməsi sovet hökuməti üçün bir qədər gözlənilməz hal idi. Əlbəttə, bunun baş verməsində sovet hakimiyyətinin bölgədə yürütdüyü siyasətdə yol verdiyi səhvlər ilə də əlaqələndirmək mümkündür. Digər tərəfdən, sovet ordusunda xidmət edən milli döyüşçülərə münasibətdə yuxarı hərbi komandanlığın kobud davranışı, hərbi kadr kimi yetişmələrinə zəruri diqqətin yetirilməməsi və təhqiramiz davranış da kütləvi fərariliyə və xəyanətə gətirib çıxarırdı.

Erməni müəllifləri hər hansı tarixi sənəd təqdim etmədən iddia edirlər ki, guya erməni siyasi mühacirətinin nasist Almaniyası ilə əməkdaşlığa razılıq verməlerində Türkiyənin erməni məsələsində mövqeyi həlledici rol oynamışdır. 1939-cu ilin aprelində Gerinqin məsləhəti ilə Hitler Frants Papeni danışıqlar aparmaq Türkiyəyə üçün göndərmişdi. Türkiyənin Almaniya ilə ittifaq sazişinə razılığı əvəzində guya Almaniyadan “yəhudi mənşəli” ermənilərə qarşı da adekvat tədbirlərin görülməsi tələbini qoyması fikri ümumiyyətlə heç bir sağlam məntiqə uyğun gəlmir. Erməni millətçi dairələrinin alman nasistləri ilə əməkdaşlığı SSRİ-nin digər xalqlarının siyasi mühacir qüvvələrinin kolloborasionizmindən əsaslı şəkildə fərqlənirdi. Əgər sonuncular alman qoşunlarının yardımı ilə Vətənlərində bolşevizmin kökünün kəsilməsinə ümid edərək əməkdaşlıq edərək yardım göstərirdilərsə, mütəmadi olaraq öz ölkələrində yaşayan digər xalqlara qarşı zorakılıq siyasəti aparan ermənilər nasistlərin “ari irqşiçiliyi” nəzəriyyəsindən bəhrələnərək ermənilərin digər xalqlardan üstünlüyünü iddia edirdilər.

Erməni ziyalıları nasistlərin irqçi nəzəriyyəsinə qoşulmaq üçün silsilə yazıları ilə onların diqqətlərini özlərinə çəkmək istəyirdilər. “Ermənilər-Ariçilik”, “Ermənilər və Ermənistan”,

"Narekaçtsi", "Zeytun", "Ermənilərin və almanların tarixi dostluğu", "Arilər sənə nəzər yetirir", "Ermənilər ümumi mübarizədə" və s. bu kimi adda əsərlərdə nasist ideyaları vəsf edilir və ermənilərin bu işdə fədakarlıqla iştirakına əminlik bildirilirdi. Berlin. Münhen, Buxarest, Sofiya və digər Avropa şəhərlərində müharibə ərəfəsində meydana çıxmış çoxsaylı erməni nasist və ya faşist təşkilatları irqçilik ideologiyasının müdafiəsinə qalxmışdılar.(2, 31-34)

*Metod və Materiallar*. Erməni millətçilərinin SSRİ-Almaniya müharibəsi dövründə nasist rejimi ilə sıx əməkdaşlığının miqyasını və formalarını aydınlaşdırmaq məqsədi ilə müəllif tərəfindən tədqiqatın əsas elmi metodu qismində tarixi-genetik və ya retrospektiv adlandırılan, hadisələrin və vəziyyətin inkişafında səbəb-nəticə əlaqələrinin və qanunauyğunluqların müəyyən olunmasına imkan verən metoddan istifadə olunmuşdur. Bu metod eyni zamanda təqdim olunan mövzunun ayrı-ayrı aspektlərinin, məsələn, erməni millətçiliyi ilə nasist ideologiyasının əsas ehkamlarının ümumiliyi, erməni kollaborasionizminin səbəbləri, erməni millətçi təşkilatları ilə nasist rejiminin əməkdaşlığının mahiyyəti və məqsədləri və s. məsələlərin araşdırılması zamanı subyektiv və obyektiv amillərin xüsusiyyətlərini müəyyən etmək imkanı verir.

*Tədqiqatın yekunları. Erməni millətçiləri nasist kəşfiyyatının xidmətində.* Dəqiqləşdirilməmiş məlumatlara görə, Almaniya orduları tərəfində 27 min nəfərə kimi erməni vuruşmuşdur ki, onlardan 3 min nəfərə qədər SS və Abverdə xidmət etmişlər. Alman hərbi komandanlığı 1941-ci ilin oktyabrından etibarən qoşunların Qafqaza doğru irəliləmələrinə yardım məqsədi ilə Qafqaz millətlərindən ibarət hərbi birləşmələrin yaradılmasına başlamışdı. Erməni milli legionu ober-şturmanfürer Valdemar Frentselin komandanlığı altında Polşanın Lyublin, Varşava və Pulava şəhərlərində təşkil edilirdi. Legionun şəxsi heyəti 10 min nəfərə çatırdı (19, 100-101).

Digər Şərq legionlarından fərqli olaraq erməni legionu yekcins milli tərkibə malik idi. Legionun tərkibinə hərbi əsirlər ilə yanaşı Almaniya, Polşa, Fransa və digər ölkələrdə yaşayan erməni mühacirləri də daxil olmuşdular. Almaniya rəsmiləri ermənilərə Türkiyənin təzyiqindən müdafiə ediləcəklərini vəd etmişdilər. 1942-ci ilin fevralın sonlarında erməni qaniçən qulduru Dro (Drastamat Kanayan) Berlində SS qoşunlarının reyxsfüreri Himler ilə görüşündən sonra hərbi əsir düşərgələrinə gedərək erməniləri legiona daxil olmağa çağırdı. 1942-ci ilin iyulunda digər erməni qaniçən qulduru Qaregin Njde (Ter-Arutyunyan) da Berlinə gəldi. Onun yaratdığı "Tseqakron" hərəkatı Ermənistana gizli yolla göndərilmələri üçün 20-30 nəfərlik diversant qrupların təşkilini həyata keçirirdi. Bir qədər sonra onlar Abverin sərəncamına veridilər. Erməni Milli komitələri alman qoşunlarının işğalı altında olan Simferopol, Sevastopol və digər şəhərlərdə fəaliyyət göstərirdilər.

1942-ci ilin avqustunda 808-ci erməni batalyonu Şərq cəbhəsinə göndərilmək haqqında əmr aldı. Armavirdən Maykopa kimi piyada yürüş edin erməni batalyonuna yerli əhali düşmən münasibət bəsləyirdi. Maykop yaxınlığında alman əsgərlərinin mühafizəsi altında çalışan qadınların kiliyi ilə maraqlandığı zaman qadınlardan biri erməni legionerinə "Sizin kimi qoyunlar" cavabını vermişdi. Hətta bu ərazilərdə yaşayan erməni əhalisi də legionerləri almanlar tərəfində döyüşdüklərinə görə qınayırdılar. Legionerlərin mənəvi ruhunun azalması və bununla bağlı meydana çıxan digər hallar fərariliyin artmasına səbəb oldu. Cəbhədəki mövqelərinə yaxınlaşdığı dövrdə, 1942-ci ilin sentyabrında, 50-ə yaxın legioner fərarilik etmişdilər. Erməni batalyonu Qafqaz dağ silsiləsində Daxovskaya – Temnolesskaya – Kameno- Mostskaya xəttində yerləşdirilmişdilər. 1942-ci il noyabrın 2-də Qırmızı Ordunun 40-cı atıcı briqadasının qarşısında mövqe tutmuş erməni batalyonundan 23 legioner fərarilik edərək sovet qoşunlarının tərəfinə keçdilər. 1942-ci ilin noyabr-dekabr aylarında Tuapse yaxınlığında baş verən döyüşlərin gedişində ZC qoşunlarına qarşı vuruşan alman hərbi birliklərində erməni legionerləri də iştirak edirdilər. Onlardan 249 nəfəri sovet qoşunlarının tərəfinə keçdilər. Keçənlərin əksəriyyəti 1942-ci ilin aprel-iyun aylarında cəbhədə gedən döyüşlərdə alman qoşunlarına əsir düşmüşdülər və daha sonra erməni milli legionuna daxil edilmişdilər. Erməni legionerlərindən 13 nəfəri Azərbaycanın Şəmkir, Şuşa, Xanlar, Mardakert və Kirovabad rayonlarından idilər (17, 2-3).

Fərarilik hallarının artması səbəbindən vermaxt rəhbərləri batalyonu yol-inşaat işlərinə yönləndirdilər. 1942-ci ilin sonlarında erməni batalyonu cəbhə zonasından çıxarıldı və bundan sonra yalnız partizanlara qarşı cəza əməliyyatlarında istifadə olundu.

Digər erməni batalyonu, 809-cu batalyon da 1942-ci ilin noyabrında 1-ci tank ordusunun tərkibində Nalçik və Mozdok yaxınlığında vuruşurdu. Batalyon yerli partizan dəstələrinə qarşı

qəddar mübarizə taktikası ilə fərqlənirdi. "A" ordu qrupunun qərargah rəisi general-leytenant Qrayfenberq batalyonun bu sahədə fəaliyyətini xüsusi qeyd etmişdi. Batalyon bu xidməti ilə daha sonralar Ukrayna, Belorusiya və Polşada da fərqlənmişdi (3). Təqribi hesablamalara görə, partizanlar ilə mübarizə adı altında erməni legionu tərəfindən 20 min nəfərdən çox yəhudi və qaraçı millətindən mülki şəxslər qətlə yetirilmişdir (10). Avstriyalı tədqiqatçı E.Fayql hesab edir ki, erməni hərbi qurumlarının faşist rejiminin tərəfində iştirakı "heç şübhəsiz, yəhudilərin məhv edilməsi məqsədini güdmüşdür". Digər tədqiqatçı Samuel Uims isə hesab edirdi ki, ermənilərin III Reyxin hərbi hissələrinin tərkibində vuruşan 100 min nəfərdən çox canlı qüvvəsi yəhudilərin məhv edilməsində iştirak etmişdilər (1, 137).

1942-ci il avqustun 20-25-dən Nalçik-Orcanikidze-Mahaçqala-Bakı istiqamətində 1-ci tank ordusunun "Abvertrupp-101" alman kəşfiyyat orqanı (1941-ci ilin mayında yaradılmışdır) (11) fəaliyyət göstərirdi. "Abvertrupp-101" Pyatiqorsk şəhərindən 6 km aralıda yerləşən Nikolayevskaya stansiyasında keçmiş "Maşuk" sanatoriyasının 7 binasında yerləşirdi. Qrupa mayor Foqt, kapitan Mak və kapitan Ranter başçılıq edirdilər. "Abvertrupp-101" ordu kəşfiyyat orqanı olub QO hissələrinə qarşı kəşfiyyat fəaliyyətini hərbi əsirlərin sorğu-sual edilməsi, sovet ordusunun arxasına atılmaq üçün agenturanın cəlb edilməsi və hazırlanması, hərbi əsirlərin alman hərbi komandanlığının təşkil etdiyi milli hissələrə cəlb edilməsi vasitəsi ilə həyata keçirirdi. "Abvertrup -101" sovet qoşunlarının arxasında quldur dəstələri təşkil edir və onlara rəhbərlik edirdi. "Abvertrupp-101" 1942-ci ilin fevralından sentyabrına kimi QO-nun arxasına Sevastopol, Kerç, Armavir, Bakı, Tbilisi və digər rayonlara 50-dən çox sabiq sovet döyüşçülərindən hazırladıqları agentlər atmışdılar (14, 190-191). 1942-ci il mayın 22-də Simferopol yaxınlığında yerləşən Sarabuz aerodromundan alman kəşfiyyat orqanları tərəfindən təyyarə ilə Qafqaz dağ silsiləsi rayonuna atılan diversiya-casus qrupu 3 ermənidən ibarət idi. Onlardan biri T.M.Ovagimyan iyunun 23-də istintaq verdiyi ifadəsində qrupun qarşısında qoyulmuş tapşırıqlar barəsində məlumat vermişdi (13, 604-607).

1942-ci il sentyabrın 18-də Mozdok şəhəri yaxınlığında Osetinskiy qəsəbəsində 30-cu Əlahiddə Süvari diviziyasının hərbi kəşfiyyatı tərəfindən qısa atışmadan sonra 3 alman diversantı ələ keçirilmiş, 1-i isə qətlə yetirilmişdi. İstintaqın gedişində müəyyən edildi ki, "Abvertrupp - 101" qrupunun rəhbərliyinə erməni mühaciri, daşnak hökumətində hərbi nazir olmuş sabiq general Dro Kananyan da daxil idi. Onun başçılıq etdiyi daşnak mühacirlərdən ibarət "Dromedar" zonderkomandası (Parol: Kars 1101) "Abvertrupp-101"-da ayrıca qurum hesab olunurdu. Qrupa Dronun yavəri, alman ordusunun kapitanı Pulluy, sabiq daşnak podpolkovniki Taraxanyan (ayaması Kuro), sabiq daşnak ordusunun polkovniki Tiqris, milliyətcə Fransa ermənisi olan Sikorski (13, 634-637), sabiq daşnak kapitanı və İrəvan şəhərinin komendantının köməkçisi Artavazd Atomyan, daşnak partiyasının fəallarından biri Quryan, və başqaları daxil idilər. "Dromedar"ın üzvlərindən Fransadan erməni mühacirləri Sikorskiy (Gevorkov), ayaması "Vatslav" olan Akop, "Smetana"ayamalı olan birisi, milliyətcə ukraynalı olan Antonenko və Ambakum həbs düşərgələrindən erməni əsirləri sırasından etibarlı hesab etdikləri şəxsləri seçərək qrupa gətirirdilər. Müharibəyə qədər məsul partiya işçisi olmuş Piloyan radistlərin qrupunda topoqrafiyadan, İrəvandan olan sovet ordusunun sabiq polkovniki Azizyan, Rumıniyada mühacir həyatı yaşayan Arto Atomyan, İrəvandan olan həkim Quren Martirosyan, Bakıdan olan sabiq sovet zabiti Eduard, Tbilisi ermənisi Robert kəşfiyyat qrupunda hərbi işdən dərs keçirdilər. Budyonnovsk şəhərində Aşot Erminak, Pyatiqorskda Suren İsraelyan, Nikolayevdə Simon Pilivosyan və Tatevos Petrosyan adlı əməkdaşlar isə casusların cəlb edilməsi ilə məşğul olurdular. Dronun şəxsi sürücüsü olmuş Q.A.Mirzoyan 1944-cü ilin mayında Sevastopolda SMERŞ orqanları tərəfindən yaxalandıqdan sonra istintaqa verdiyi ifadəsində "Dromedar" kəşfiyyat-təxribatçı qrupun 10 casusunun Krımda qaldığını bildirmişdi (4, 95-97).

1942-ci il mayın 8-də Abxaziyanın Oçamçir rayonunun Mokvin kənd soveti ərazisinə alman təyyarəsi tərəfindən paraşütlə atılmış 4 nəfərdən ibarət erməni diversiya qrupu zərəsizləşdirilmişdi. Onlar istintaqa bildirdilər ki, Simferopolda Dronun rəhbərlik etdikləri kəşfiyyat məktəbində təlim keçmişlər. Məktəbdə təlim alan 150 nəfər qafqazlının əksəriyyəti ermənilər idilər. Arxa rayonlara atılacaq qruplar 4 nəfərdən ibarət təşkil olunurdular: radist, atılacaq əraziyə yaxşı bələd olan 2 nəfər və Dronun etibar etdiyi siyasi mühacirlərdən biri (12, 417-418) 1942-ci il sentyabrın əvvəllərində Bakıda həbs olunan sovet döyüşçüsü, əslən Gürcüstanın Axalkalaki bölgəsindən olan və Lvov

yaxınlığında gedən döyüşlər zamanı almanlara əsir düşmüş A.M.Qalustyan istintaqda bildirmişdi ki, onunla əsirlikdə hərbi kəşfiyyat ilə əməkdaşlıq barəsində söhbət aparan alman zabiti milliyətcə erməni olmuşdur və ona döyüşməkdən əl çəkməyi təklif etmişdi (18, 41).

Qrup Armavirdə fəaliyyət göstərir və ratsiya ilə "Abvertrupp-101" ilə əlaqə saxlayırdı. Dromedar əsasən, alman qoşunlarının işğalı altında olan ərazilərdəki erməni əhalisi arasında kəşfiyyat və əks-kəşfiyyat işləri aparır, qrup tərəfindən təşkil olunmuş Erməni milli komitələri vasitəsi ilə faşistpərəst təbliğat aparır, kütlələrin şüuruna alman qoşunlarının yardımı ilə "Böyük Ermənistan"ın yaradılacağı ideyası yeridlirdi. 1941-ci ilin avqustunda Dromedar komandası Kiyevdə, sentyabr-oktyabrda Nikolayev şəhərində, 1942-ci ilin sentyabrına kimi Simferopolda yerləşmişdi. 1942-ci ildə Şimali Qafqaza göndərilən "Dromedar"ın mərkəzi Armavir şəhərində yerləşirdi və Stavropol, Krasnodar, Pyatiqorsk, Budyonovsk şəhərlərində filialları fəaliyyət göstərirdi. Armavir şəhərinin mərkəz qismində seçilməsi təsadüfü deyildi. Burada Dronun müharibə ərəfəsində antisovet fəaliyyətinə görə repressiya olunmuş qardaşı Armenak Kaniyan yaşamışdı və Dro buradakı erməni millətçi ünsürlərin yardımına ümid edirdi. Rostov şəhərində qrupun casus və radist məktəbi təşkil olunmuşdu. İstintaqa cəlb olunmuş diversantlar 1942-ci ilin sentybrında Mozdok yaxınlığında Dronun qrupu tərəfindən təşkil edilmiş erməni milli alayı ilə rastlaşdıqlarını bildirmişdilər. 1943-cü ilin aprelinin əvvəllərində Dronun 70 nəfərdən ibarət dəstəsi 114 saylı kəşfiyyat qrupuna çevrildi (20, 67). 1943-cü ilin iyulunda qrupun üzvlərinin sayı 100-120 nəfərə qədər artmışdı. Dromedar qrupu kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti ilə yanaşı təşkil etdiyi erməni milli komitəsinin yerli təşkilatları və milli birliklər vasitəsi ilə Krım və digər bölgələrdə yaşayan erməni əhalisinin mühafizəsini həyata keçirirdi. Erməni milli komitəsinin yerli komitələri erməni əhalisini müvafiq sənədlər əsasında onların maddi cəhətdən təminatına yardım edirdi. Yalnız erməni əhalisinin məskunlaşması üçün xüsusi olaraq yaşayış məntəqələri və məhəllələr müəyyən edilirdi və erməni əhalisi köçürülürdü. Yalnız erməni uşaqlarının təhsil almaları üçün məktəblər açılır, Almaniyanın protektoratlığı altında Böyük Ermənistanın yaradılacağı təbliğ edilir, SSRİ Osmanlı imperiyası ilə eyniləşdirilirdi (2, 67, 69, 71-72, 74).

Erməni milli komitələrinin və casus-kəşfiyyat qurumlarının sovet ordusu sıralarında döyüşən erməni hərbi qulluqçularının alman ordusu tərəfinə keçmələri üçün fəaliyyəti öz bəhrəsini verirdi. 1942-ci il sentyabrın 21-dən oktyabrın 6-a kimi ZC qoşunlarının Şimal qrupunun tərkibində vuruşan 89-cu erməni atıcı diviziyasından hər birində 2-dən 50 nəfərə kimi və ümumi sayı 224 nəfər olan 15 qrup düşmən tərəfə keçmişdi. Onlardan 12-i orta komandir, 48 nəfəri kiçik komandir və 154 nəfəri sıravi heyət üzvləri idilər. 1942-ci il sentyabrın 25-də 390-cı atıcı alayın 2-ci batalyonunun 4 rotasının 1-ci vzvodunda 9 əsgər komandirləri leytenant V.Akopyan başda olmaqla düşmən tərəfinə keçmişdi. Sentyabrın 26-da həmin alayın 4-cü rotasından 22 nəfər silahla vzvod komandirinin köməkçisi N.Akopyan ilə birlikdə düşmənin tərəfinə keçmişdilər. 526-cı atıcı alayın 3-cü batalyonunun 40-a yaxın döyüşçüsü komandirlərinin gözləri qarşısında süngülərinə ağ dəsmal və yaylıq bağlayaraq düşmənin tərəfinə keçsələr də, onlara qarşı heç bir cəza tədbiri görülməmişdi. 1942-ci il oktyabrın 1-də 526-cı atıcı alayın 45 mm-lik batareyasının 40 nəfərdən ibarət döyüşçü qrupu komandirlərini qətlə yetirərək hərbi komissar Ağacanovun başçılığı ilə düşmənin tərəfinə keçmişdilər.

Baş vermiş hadisələrin araşdırılması məqsədilə diviziyaya göndərilmiş Şimal qrupunun Xüsusi şöbələri tərəfindən 259 hərbi qulluqçu qorxaqlıq və təlaş yaratmaqda, fərarilik etməkdə, təslimçi və antisovet söhbətlər apardıqlarna görə həbs edilmişdilər. Onlardan 11 nəfəri sıra qarşısında güllələnmiş, 245 nəfəri cərimə rotalarına göndərilmişdilər. Təhqiqatın gedişində düşmən tərəfə keçməyə hazırlaşan leytenantlar Danielyan, Mkrtiçyan və siyasi rəhbərin köməkçisi Çilingəryanın başçılığı ilə 9 nəfərdən ibarət 2 qrup zərərsizlədirilmişdi.

Diviziyanın komandanlığı baş vermiş Vətənə xəyanət və fərarilik halları ilə bağlı onlara edilən yazılı və şifahi məlumatlara nəinki əhəmiyyət vermir, bir sıra hallarda bu barədə Şimal qrupu komandanlığına məlumatın təqdim olunmasına mane olurdular. 1942-ci il sentyabrın 23-də diviziya komandirinin müavini podpolkovnik Kazaryan telefonla diviziya komandiri polkovnik Sarkisyana 390-cı atıcı alaydan bir qrup döyüşçünün düşmən tərəfinə keçməsini bildirsə də, Sarkisyan bunun yalan olduğunu bildirmiş və məlumata əhəmiyyət verməmişdi. Sentyabrın 29-da artilleriya alayının komandiri mayor Bağırov 14 nəfər döyüşçünün düşmən tərəfinə keçməsi haqqında Sarkisyana

məlumat verdikdə, o, buna inanmadığını və bununla bağlı söhbətləri aradan qaldırmağı əmr etmişdi. Diviziyanın qərargah rəisi mayor Roqov da bildirirdi ki, diviziya komandanlığı şəxsi heyətin Vətənə xəyanəti ilə bağlı faktlara reaksiya bildirmir və ona bu barədə Qrup Qərargahına məlumat verilməsini qadağan edirdilər. Diviziya komandiri Sarkisyan və diviziyanın komissarı Ayrapetyan Şimal qrupunun qərargahına göndərilməsi məqsədilə Roqovun hazırladığı sənəddi imzalayarkən burada Vətənə xəyanət faktlarını pozmuşdular (15, 194-196).

*Alman təyyarələrindən Azərbaycan ərazisinə atılan erməni paraşütçüləri.* 1942-ci ilin yayında cəbhə xəttinin sürətlə Qafqaza doğru yaxınlaşması ilə bölgənin bir sıra ərazilərinə düşmənin paraşütçülərinin və aviadesantının atılması halları xeyli artmışdı. Həmin qruplar bır qayda olaraq alman əsirliyində olmuş sovet hərbi qulluqçularından, mühacirlərdən və alman kəşfiyyat qurumlarının əməkdaşlarından təşkil olunurdu. Onlar saxta sənədlər, silahlar, partlayıcı maddələr və faşist təbliğat vərəqələri ilə təchiz olunurdular. Qrupların qarşısına qoyulmuş əsas vəzifələr sırasında bölgənin mühüm sənaye müəssisələrində və nəqliyyat şəbəkəsində partlayışların törədilməsi, sovet qoşunlarının arxa cəbhəsində pozuculuq tədbirləri həyata keçirmək üçün yerli müxalif siyasi qüvvələrlə əlaqə qurmaq və antisovet çıxışlar təşkil etmək dururdu. Təkcə 1942-ci ilin avqust-sentyabr aylarında XDİK qüvvələri tərəfindən Qafqazda 50 nəfərdən çox alman diversantı və paraşütçüsü ələ keçirilmiş və ya məhv edilmişdi.

Ermənistan SSR-nin Mikoyan (əvvəllər Keşişkənd) rayonunun Ortakənd kəndindən olan 10-cu mühəndis-istehkam moto-atıcı alayın döyüşçüsü Matevosyants Andrey İvanoviç 1941-ci il iyulun 3-dən alman əsirliyində olmuşdu. Alman hərbi kəşfiyyatı ilə əməkdaşlığa razılıq verdikdən sonra 1942-ci ilin may-sentyabr aylarında Yevpatoriyada kəşfiyyat məktəbində təlim almışdı. Diversiya və terror aktları həyata keçirmək məqsədi ilə alman paraşütçü desantının tərkibində Azərbaycanın Xanlar rayonu ərazisinə atılmışdı. 1942-ci il avqustun 18-də burada yaxalanarkən yaxalanarkən ondan partlayıcı maddə, qumbara və tapança ələ keçirilmişdi.

Azərbaycan SSR DQMV-nin Dizaq (indiki Xocavənd) rayonunun Tağaser kəndindən sovet ordusu sıralarına səfərbər olunmuş İşxanov Şaqan Makaroviç, və ya Kasparov Aleksandr Makaroviç, (ayaması "Martirosov")1941-ci il sentyabrın 14-də 682-ci qaubitsa-artilleriya alayının kəşfiyyat bölüyünün komandiri vəzifəsində ikən əsir düşmüş İşxanov alman kəşfiyyatı ilə əməkdaşlığa razılıq vermiş və bu məqsədlə Könisberqin Balqa rayonunda və Varşava şəhərində kəşfiyyat məktəblərində təlim keçmişdi. Xüsusi diversant-casus qrupunun tərkibində paraşütlə Mahaçqalaya atılmışdı. 1942-ci il avqustun 26-da o, Bakıda yaxalanmışdı.

1942-ci il sentyabrın 17-də Şahbuz rayonu ərazisinə, sentyabrın 18-də isə Kirovabad şəhəri ətrafına hər biri 3 nəfərdən ibarət 2 alman paraşütçü-diversant qrupu atılmışdı. (6,36) Azərbaycan çekistləri tərəfindən 1942-ci il sentyabrın 15-də həbs olunmuş alman kəşfiyyatçısı-diversantı Aleksandr Makaroviç Kasparovun üzərində axtarış zamanı saxta pasport, əmək kitabçası və hərbi mükəlləfiyyətdən azad olunması haqqında arayış aşkar edilmişdi (5, 40).

Yerevan şəhərindən sovet ordusu sıralarına səfərbər olunmuş Vanyan Aykaz Qriqoryeviç 511-ci əlahiddə zenit-artilleriya alayının sürücüsü olduğu zaman 1942-ci il mayın 5-də alman qoşunlarına əsir düşmüşdü. O, da alman kəşfiyyatı ilə əməkdaşlığa razılıq verdikdən sonra Yevpatoriyada diversant məktəbində təlim almış və 3 nəfərlik qrupun tərkibində paraşütlə Azərbaycanın Xanlar rayonu ərazisinə atılmışdı. Vanyan 1942-ci il sentyabrın 19-da Dəstəfur və Xanlar rayonlarının hüdudlarında ələ keçirilərkən ondan partlayıcı maddə, qumbara və tapança müsadirə olunmuşdu. Onunla birlikdə yaxalanmış Sarkisyan Baqrat Yeqanoviç də Yerevandan sovet ordusuna səfərbər olunmuş və 511-ci əlahiddə zenit-artilleriya alayının döyüşçüsü olduğu zaman alman qoşunlarına əsir düşmüşdü. 1942-ci il mayın 18-dən alman əsirliyində olan Sarkisyan daha sonra Yevpatoriyada diversant məktəbində təlim keçmiş və 3 nəfərlik qrupun tərkibində Azərbaycanın Xanlar rayonu ərazisinə atılmışdı. Qrupun həmin gün yaxalanmış digər üzvü, Tatevosyan Aykaz Qeqamoviç Ermənistanın Sevan rayonundan sovet ordusu sıralarına çağırılmışdı. 1941-ci il iyulun 30-da 133-cü atıcı alayında bölük komandiri olduğu zaman alman qoşunlarına əsir düşmüş və hərbi kəşfiyyat ilə əməkdaşlığa razılıq vermişdi.

Şaumyankənd rayonunun Aşağı Hacıkənd kəndindən orduya səfərbər olunmuş İvan Ağaca-noviç Ağacanyan 1942-ci ildə Sevastopol yaxınlığında alman qoşun birliklərinə əsir düşmüşdü. O,

alman kəşfiyyatı ilə əməkdaşlığa razılıq vermişdi. 1942-ci ilin noyabrından 1943-cü ilin martına kimi Auşvits kəşfiyyat məktəbində radist təlimi almışdı. 1943-cü ilin yayında isə Berdyanski məntəqəsində yerləşən kəşfiyyat-diversant məktəbində təlim keçmişdi. 1945-ci il mayında "Çeppelin"in casusu Ağacanyan Bakıya qayıdan kimi aşkar edilmiş və həbs olunmuşdur (8, 183).

Cəbhənin Azərbaycan hüdudlarından uzaqlaşmasından sonra da təhlükəsizlik orqanları alman kəşfiyyatı ilə əməkdaşlıq etmiş erməni və digər millətlərdən olan Vətən xainlərinin aşkar edilərək yaxalanmasını həyata keçirirdilər. 1944-cü ilin sentyabrından 1945-ci ilin yanvarına kimi Bakı qarnizonu "SMERŞ" əks-kəşfiyyat şöbəsinin keçirdiyi əməliyyatlar nəticəsində Almaniyanın "Çeppelin" kəşfiyyat-diversiya orqanının casusu olmalarında şübhəli bilinən 7 nəfər həbs olunmuşdu. Onlardan 3 nəfəri rus, 3 nəfəri erməni və 1 nəfəri gürcü idi. Ermənilərdən biri – Xaçatur Mixayloviç Matevosyan Kirovabadda doğulmuşdu, lakin Bakıda yaşamışdı. Dnepropetrovsk aerodromunda alman kəşfiyyatına əməkdaşlığa cəlb edilmiş Nikolay Yakovleviç Burmaçenko Bakının yaxınlığındakı Nasosnıy stansiyasında SSRİ XMK-a məxsus olan yanacaq anbarında çalışdığı zaman aşkar edilərək həbs olunmuşdu (9, 96-97).

Fikrimcə, 1942-ci ilin dekabrın əvvəllərində əsasən azərbaycanlılardan təşkil olunmuş 402-ci atıcı diviziyasının 1942-ci ilin sonlarında alman qoşunları ilə döyüşdə alaylardan birinin erməni komandirinin cinayətkar əməli nəticəsində darmadağın edilməsi faktı ilə bu zaman erməni millətçi dairələrinin cəbhəyə yaxın ərazilərdə alman kəşfiyyatına göstərdikləri yardım arasında məntiqi təhlil ilə əsaslandırılan bağlılıq vardır.

Diviziya 833, 839 və 840-cı atıcı alaylar, 960-cı artilleriya alayı və müvəqqəti olaraq tabeliyinə verilmiş 133-cü minomyot alayı ilə birlikdə alman qoşunlarının müdafiə xəttini yarmaq məqsədilə hücuma keçmişdi. Hücumun gedişində 839-cu atıcı alayın komandiri erməni Tarayev İvan Misaakoviç özbaşına olaraq tabeliyində olan batalyonların komandirlərinə hücumun istiqamətini dəyişməyi əmr etdi. Alman qoşunlarının komandanlığı bu vəziyyətdən istifadə edərək 18 ədəd tank və digər zirehli maşınlarla buradan asanlıqla 833-cü atıcı alayın arxasına keçə bildilər və Düşmən artilleriya və pulemyot atəşləri ilə, həmçinin zirehli maşınların tırtılları ilə 833-cü atıcı alayın 1-ci və 3-cü batalyonların tank əleyhinə vasitələrinin və şəxsi heyətinin əsas hissəsini məhv edərək 90 nəfərə kimi döyüşçünü əsir aldı. 839-cu və 840-cı alayların şəxsi heyətindən isə yalnız 800 nəfərin mühasirədən çıxması mümkün olmuşdu. Hərbi hissələrindən kənar düşmüş Tarayev diviziyanın qərargahını aldadaraq döyüşçülər düşmənlə vuruşduqları zaman guya həmin hissələrin tamamilə məhv edilmələri haqqında yalan məlumatlar vermişdi (7, 1-3).

839-cu atıcı alayın həbs olunmuş sabiq komandiri Tarayevin ilkin istintaqı zamanı məlum oldu ki, o, əvvəllər daşnaksutyun partiyasının üzvü olmuşdur. Almaniya ilə müharibənin başlanmasının ilk dövrlərində o, hərbi xidmət keçdiyi Naxçıvan qarnizonunun komandirləri ilə söhbətlərində Bakının yaxşı müdafiə olunmadığı üçün alman qoşunları tərəfindən işğal olunacağını bildirmişdi. Tarayev səhvlərini etiraf edərək, bunu qorxaqlıqla izah etməyə çalışmışdı. Lakin Tarayev həbs olunarkən onun cibindən 1919-cu il yanvarın 11-də Kutaisi quberniyası komissarı tərəfindən ona verilmiş buraxılış vərəqəsi aşkar edilmişdi. Vərəqədə qeyd edilmişdi: "Mənim tərəfimdən azad edilmiş hərbi əsirə, erməni Tarayevə ondan ötrü verilir ki, o, sərbəst Tiflisə gedə bilər". Tarayevin cəbhədə xəyanət etmək niyyəti ilə bu vərəqəni üzərində saxlaması ehtimalı istintaqın gedişində araşdırılmışdı.

Azərbaycanın siyasi rəhbərliyi sovet ordu komandanlığının mütəmadi olaraq azərbaycanlıların döyüşə bilməmələri ilə bağlı böhtan xarakterli ittihamları fonunda baş vermiş bu hadisənin daha dərindən araşdırılmasına çalışırdı. Respublika rəhbərliyi milli hərbi birləşmələrə təyin olunmuş bir sıra komandirlərin döyüşlərin gedişində bacarıqsızlıqları, qorxaqlıqları və riyakarlıq-larının ifşa olunduğunu xüsusi olaraq qeyd edirdi. 1942-ci il dekabrın 13-də AK(b)P MK-nın 2 nəfər məsul şəxsi 44-cü ordunun qərargahına gəldilər. Respublika rəhbərliyi qətiyyətlə tələb edirdilər ki, 402-ci diviziyanın 839-cu alayının komandiri mayor Tarayevin bacarıqsızlığı, qorxaqlığı və ehtimal ki, xəyanəti səbəbindən alayın ilk mühüm əməliyyatının uğursuzluğa düçar olması, belə bir şəxsin alay komandiri vəzifəsinə təyin olunmasına görə məsul olan yuxarı hərbi dairələr buna görə izahat verməlidirlər. Görünür, onsuz da gərgin hərbi-strateji vəziyyətin olduğu müharibə cəbhələrində erməni xəyanəti amilinin qabardılmasının sovet ordusunda milli qarşıdurmanın gücləndirəcəyindən

narahat olan sovet rəhbərliyi Tarayevin daşnak dairələri ilə əməkdaşlığı ilə bağlı ehtimalları araşdırmaqdan imtina etdi.

*Nəticə*. SSRİ-Almaniya müharibəsi dövründə erməni mühacir siyasi dairələrinin nasist rejimi ilə sıx əlaqələr qurması nəticəsində alman ordularının işğalı altında olmuş sovet ərazilərində baş vermiş dəhşətli qırğınlara görə təkcə nasistlər deyil, həm də erməni millətçiləri də məsuliyyətə cəlb edilməlidirlər. Bəşəriyyətin kəskinliklə pislədiyi nasist irqçi ideologiyası bu gün erməni qəsbkarlarının Azərbaycana qarşı düşmən fəaliyyətində mövcudluğunu davam etdirməkdədir. Onların vəsf edərək heykəlini ucaltdıqları Njde müharibənin sonlarında sovet rəhbərliyinə Türkiyəyə qarşı müharibədə yardımını təklif etməsindən ruhlanan erməni işğalçıları öz əməllərinə dini don geyindirməklə dünyanı aldatmağa çalışırlar. Dünya ictimaiyyəti erməni millətçiliyinin özünün qəsbkarlıq niyyətlərinin həyata keçirilməsi üçün istənilən mürtəce qüvvə ilə əməkdaşlığa hazır olmalarını II Dünya müharibəsinin tarixindən ibrət götürərək yəqin etməlidir.

## ƏDƏBİYYAT


1. «Факты…Разоблачения…Выводы...». Институт по правам человека Национальной Академии Наук Азербайджана. Составитель: Аида Бандалиева. Баку, 2013, 153 с.
2. Абрамян Э. «Кавказцы в Абвере». М.: «Издатель Яуза», 2006, 352 с.
3. Абрамян Эдуард А. Из истории Армянского Легиона // http://roa.ru/armenische_leg.html#_ftnref1 [Müraciət tarixi: 20.08.2020].
4. Государственный Комитет Обороны 16 мая 1944 г. // ГА РФ фонд 9401, опись, 2, дело 65, лист 95, 96, 97
5. Директива наркома внутренних дел, ст. майора госбезопасности Якубова НКВД Нах.АССР, нач. УНКВД НКАО, начальнику Кировабадского и Нухинского ГОРО НКВД АзССР, начальникам оперотделов НКВД АзССР и тд. 15 сентября 1942 года. // ARPİİ SSA,f.1,siy.28, iş 144, v.39-40
6. Доклад зам. Наркома внутренних дел Азербайджанской ССР капитана госбезопасности Кулиева о политико-моральном состоянии органов и частей Азербайджанской милиции за сентябрь месяц 1942 года. 12 октября 1942 года. ARPİİ SSA, f.1, siy.27, iş 807, v.35-49.
7. Докладная записка нач. ОО 44 Армии Ефременко по делу бывшего командира 839 СП 402 СД подполковника Тараева И.М. 2 января 1943 года. // ARPİİ SSA, f.1, siy.28, iş 135, v.1-3.
8. Докладная записка начальника Управления Контрразведки «Смерш» НКО СССР Закфронта генерал-майора Н.Рухадзе о результатах борьбы с дезертирством, изменой родине и членовредительством по частям Закавказского фронта за июнь 1943 г. 6 июля 1943 года. ARPİİ SSA f.1, siy.30, iş 144, v.78-86.
9. Докладная записка начальника Управления Контрразведки «Смерш» НКО СССР Закфронта генерал-майора Н.Рухадзе о результатах борьбы с дезертирством, изменой родине и членовредительством по частям Закавказского фронта за октябрь 1943 г. 6 ноября 1943 года.ARPİİ SSA f.1, siy.30, iş 144, v.92-99.
10. Козлова Людмила Возрождение нацизма от Прибалтики до Армении // http://www.ng.ru/kartblansh/2018-02-06/3_7166_kartblansh.html [Müraciət tarixi: 20.08.2020].
11. Команды и группы Абвера на Восточном фронте// https://secrethistory.su/1130-komandy-i-gruppy-abvera-na-vostochnom-fronte.html [Müraciət tarixi: 20.08.2020].
12. Органы государственной безопасности СССР в Великой Отечественной войне. Сборник документов. Том третий. Книга 1. Крушение "блицкрига". 1 января - 30 июня 1942 года. Москва, Издательство "Русь", 2003 г.
13. Структура и деятельность органов германской разведки в годы второй мировой войны. Симферополь, Н.Оріаnda, 2011, 656 с.
14. Специальное сообщение начальника Особотдела НКВД СССР Закавказского фронта Н.Рухадзе секретарю ЦК КП(б) Азербайджана М.Д.Багирову от 31 октября 1942 года. //ARPİİ SSA,f.1, siy.27, iş 257, v.190-191.

15. Специальное сообщение начальника Особотдела НКВД СССР Закавказского фронта Н.Рухадзе. 27 октября 1942 года. // ARPİİ SSA, f.1, siy.27, iş 257, v.194-196.
16. Спецсообщение начальника ОО НКВД СГВ ЗКФ майора государственной безопасности Белкина секретарю ЦК КП(б) Азербайджана Багирову М.Д. от 1 января 1943 года. ARPİİ SSA, f.1, siy.27, iş 45, v.39-40.
17. Список солдат «Армянского национального легиона», перешедших на сторону Красной Армии, уроженцев Азербайджанской ССР. 4 января 1943 года. // ARPİİ SSA, f.1, siy.28, iş 144, v.2-3.
18. Справка НКВД Азербайджанской ССР по следственным материалам на арестованную агентуру германской разведки, заброшенную на территорию СССР с диверсионно-шпионскими заданиями. По состоянию на 09.11.1941 года. ARPİİ SSA, f.1, siy.26, iş 183, v.37-45.
19. Ставицкий Василий. Легион «Белой смерти». М., Ольма-Пресс, 2009, 383 с.
20. Чуев С.Г. Спецслужбы Третьего Рейха. Книга 1, Санкт-Петербург, Neva, 2003. 383 с.

**ROVSHAN HATAMOV**
***Candidate of historical science,***
***Assistant professor at the department of newtime and modern history of European and American Countries, Baku State Universiety***

## THE COOPERATION OF THE ARMENIAN NATIONALISTS WITH THE NAZI REGIME DURING THE USSR-GERMAN WAR

During the USSR-German war, the Armenian national circles established close cooperation with the Nazi regime. The Armenian authors have falsified the historical truth and propagated Turkey's pressure factor as a pretext for this cooperation. In fact, the Nazi racial theory has always been used to justify ideologically the genocide that Dashnaks have committed against the Muslim population historically.

Nazi Germany used diversion-intelligence operations against the USSR by the support of the Armenian political forces. This was especially the case during the military operations in the Caucasus and Crimea.

Dro and Njden's Armenian nationalist organizations, along with assisting the German armies, also sought to move the Armenian population under their occupation to the most suitable places where they would live and to improve their welfare at the expense of the local people. The Armenian Legion demonstrated brutal treatment against the civilian population under the name of the struggle against guerrilla fighters in the Soviet Union and was paying special attention to the command of the German penitentiaries.

In the spring-autumn of 1942, when the Soviet-German front approached the Caucasus, Azerbaijan was prepared to prevent the possible intervention of the German armies, as well as to fight against the German intelligence groups, including Armenians.

*Key words*: Armenian nationalism, "Dromedar", Armenian-Nazi relations, Armenian parachutist diversants, Caucasian Front, Armenian legion.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 20 avqust 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 06 yanvar 2021-ci il.*
*Rəyçilər: t.ü.f.d.Sevinc Ruintən, t.e.d.Məmməd Fətəliyev.*

**UOT 94(479.24)**

**NURULLA ƏLİYEV**
*SQ Hərbi Akademiyasının "Adyunktura və Elm" şöbəsinin hərb tarix üzrə professoru, e.o. I dərəcəli kapitan, t.ü.e.d*
**ƏZİZAĞA QƏNİ-ZADƏ**
*Silahlı Qüvvələrin Hərbi Akademiyasının dissertantı, ehtiyatda olan polkovnik*
**Email: yupiter 57@mail.ru**

# 1993-2003-CÜ İLLƏRDƏ AZƏRBAYCANDA HƏRBİ TƏHSİL

*Məqalədə 1991-ci ilin oktyabrında Azərbaycan Respublikası yenidən müstəqilliyinə qovuşduqdan sonrakı dövrdə ölkəmizdə dövlət quruculuğunun əsas istiqamətlərindən olan ordu quruculuğunun formalaşması və möhkəmləndirilməsi tarixi, hərbi təhsilin inkişafı, hərbi təhsildə baş vermiş yeniliklər, bütün bu taleəhəmiyyətli vəzifələrin həyata keçirilməsində xüsusi rola malik Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Azərbaycan ordusunda zabit kadrlarının hazırlanması işinin sistemli olaraq qurması və bunu daim nəzarətdə saxlaması mötəbər mənbələr və tədqiqatlar əsasında araşdırılmış və təhlil olunmuşdur.*

*Açar sözlər*: Dövlət, təhlükəsizlik, Ulu Öndər, ordu quruculuğu, hərbi təhsil.

*Giriş*. Azərbaycan xalqının XX əsrin ortalarında böyük mərhumiyyətlərə sinə gərərək öz müstəqilliyinə yenidən qovuşması onun ən yeni tariximizdə qazandığı ən böyük nailiyyətidir. Çətin və mürəkkəb ictimai- siyasi şəraitdə qazanılan bu nailiyyət xalqımızın möhkəm iradəsindən və əzmkarlığından xəbər verir.

Ölkəmiz zamanın müxtəlif dövrlərində bu bölgədə geosiyasi maraqları kəsişən qüvvələrin təzyiqlərinə məruz qalmışdır. Bu təzyiqlər müstəqillik illərində daha da şiddətlənmiş, ən nəhayət torpaqlarımızın 20 faizdən çoxu erməni işğalçıları tərəfindən zəbt olunmuşdur.

Yaranmış şərait erməni təcavüzünün qarşısını almağı bacaran, ölkəmizin müstəqilliyini, ərazi bütövlüyünü təmin edəcək gücü ordunun yaradılmasını şərtləndirirdi.

Tarixin həlledici dövrlərindən birini yaşayan Azərbaycan xalqının öz müstəqilliyini qoruyub möhkəmələndirməsi ondan dövlət quruculuğunun bütün sahələrində olduğu kimi, ordu quruculuğunda da xüsusi aktuallıq və strateji əhəmiyyət kəsb edən işlərin görülməsini tələb edirdi.

Ordu quruculuğu dövlət quruculuğunun əsas istiqamətlərindən biri kimi uzun sürən mürəkkəb bir prosesdir. Dövlətin müqəddəratı və cəmiyyətin siyasi sabitliyi birbaşa, bütövlükdə, bu sahədə qarşıda duran məsələlərin vaxtında və lazımi səviyyədə həll edilməsindən asılıdır.

Ordu nə qədər tez qurularsa, dövlətin ərazi bütövlüyünə də etibarlı təminat o dərəcədə tez yaradıla bilər. Azərbaycanda ordu quruculuğuna başlanan dövrün təhlili göstərir ki, Silahlı Qüvvələrin yaradılmasına çox mürəkkəb bir tarixi şəraitdə başlanılmışdır.

Müasir şəraitdə Azərbaycan Ordusunun formalaşma prosesi üç mərhələdən keçir: Birinci mərhələ, 1988-ci ilin ortalarından 1991-ci ilin avqustuna qədər olan dövrü əhatə edir. Bu dövr ilk müdafiə dəstələrinin meydana gəlməsinə təsadüf edir [9; 10; 14, s..182].

İkinci mərhələ, 1991-ci ilin avqust ayının 30-dan 1993-cü ilin noyabr ayına qədər olan dövrü əhatə edir. Bu dövr artıq gec də olsa, respublikanın ərazi bütövlüyünün və əhalisinin təhlükəsizliyini təmin etmək üçün rəsmi dövlət strukturunun yaradılması ilə səciyyələnir. Respublikanın Ali Qanunverici Orqanının 1991-ci ilin avqust ayının 30-da keçirilən iclasında Azərbaycan Respublikasının Milli Qvardiyasının yaradılması haqqında qərar layihəsi müzakirə edildi, həmin il dekabrın 25-də Milli Qvardiya yaradıldı [5; 6].

Bu sahədə fəaliyyəti tənzimləmək üçün 1991-ci ilin oktyabr ayının 9-da Ali Sovet tərəfindən ilk hüquqi-normativ sənəd – "Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında" Qanun qəbul edildi. Bu dövrü təhlil etsək, qısaca onu demək olar ki, ordu quruculuğunun bu dövrü çox mürəkkəb bir ictimai-siyasi tarixi şəraiti əhatə edir.

Ordu quruculuğunun üçüncü mərhələsi – 1993-cü ilin noyabr ayından, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin radio və televiziya ilə xalqa müraciətindən sonrakı dövrü əhatə edir.

Respublika Prezidenti Heydər Əliyev nəinki orduda hərbi vətənpərvərlik ruhunun artırılması işinə rəhbərlik edir, həm də özü bilavasitə bu işdə yüksək fəallıq göstərirdi. Ali Baş Komandan Heydər Əliyevin bu istiqamətdə apardığı işlərin nəticəsində ordu daxilində dərinləşməkdə olan böhranın qarşısı alındı və bu sahədə keyfiyyət dəyişikliyi yarandı. Ordu quruculuğunda aparılan kompleks işlərin nəticəsində Azərbaycan Respublikasının qanunvericilik orqanı olan Milli Məclisin 18 noyabr 1993-cü il tarixli iclasında müdafiə və təhlükəsizlik məsələsi müzakirə edildi və bununla bağlı Milli Məclisin daimi komissiyasının yaradılması haqqında qərar qəbul edildi [13].

Azərbaycan Respublikası Silahlı Qüvvələrində kadr probleminin aradan qaldırılması üçün keçmiş SSRİ-nin müxtəlif regionlarında yerləşmiş qoşun hissələrində xidmət edən azərbaycanlı zabitlərin Vətənə qayıtmasına xüsusi diqqət və qayğı göstərildi. Bununla bərabər, Milli Ordunun peşəkar zabit kadrları ilə təmin olunması üçün hərbi təhsilin inkişafına xüsusi diqqət ayrıldı.

Ümummilli lider Heydər Əliyev döyüş bölgələrindəki görüşlərindən birində vaxtı ilə C.Naxçıvanski adına ixtisaslaşmış ibtidai-hərbi məktəbdə təhsil almış və MDB-nin Silahlı Qüvvələrində xidmət edən zabitlərin böyük qisminin hələ də respublikaya qayıtmamasına öz təəssüfünü bildirərək qeyd edirdi ki, Azərbaycanın bu gün peşəkar hərbi qulluqçulara daha çox ehtiyacı var. Ona görə də Ali Baş Komandan respublikadan kənarda xidmət edən hərbi qulluqçuların Vətənə qayıtması məsələsinin həllini Müdafiə Nazirliyi qarşısında əsas vəzifə kimi qoymuşdur.

Bu gün Silahlı Qüvvələrdə gedən quruculuq işinin təhlili göstərir ki, bacarıqlı və sağlam zabit korpusunun böyük hissəsi C.Naxçıvanski adına ibtidai-hərbi məktəbin məzunlarıdır. Ümummilli lider Heydər Əliyevin şəxsi təşəbbüsü və fədakarlığı sayəsində yaradılan C.Naxçıvanski adına Hərbi Lisey nəinki Azərbaycanda, ümumiyyətlə, keçmiş SSRİ məkanında öz yüksək keyfiyyət göstəriciləri ilə daim öndə gedir və seçilirdi.

Sonradan C.Naxçıvanski adına Hərbi Liseyin filialı kimi Naxçıvan Muxtar Respublikasında fəaliyyətə başlayan, 2004-cü ildən isə öz tarixinin yeni bir mərhələsinə qədəm qoyan Heydər Əliyev adına Hərbi Lisey də məhz Ulu Öndərin səmərəli fəaliyyətinin bəhrəsidir.

Ümumiyyətlə, hərbi liseylərin yaradılması Heydər Əliyevin ən böyük xidmətlərindən biridir. Bu gün onun nəticələri göz qabağındadır. 2003-cü ilin aprelində C.Naxçıvanski adına Hərbi Liseyin kursantları və məzunları ilə görüşdə olarkən ümummilli lider Heydər Əliyev bir daha vurğulamışdı ki, Milli Ordumuzun yaranmasında C.Naxçıvanski adna Hərbi Liseyin böyük rolu olmuşdur. Silahlı Qüvvələrimizdə elə bir hərbi xidmət sahəsi yoxdur ki, orada bu liseyin yetirmələri xidmət etməsinlər [2, s.464].

Həqiqətdir ki, ümummilli lider Heydər Əliyev 48 il bundan öncə ixtisaslaşdırılmış hərbi məktəb yaratmaq təşəbbüsünü irəli sürərkən, Azərbaycanın gələcəyini, onun strateji maraqlarını düşünmüşdür. 1994-cü ilin mayında 1941-1945-ci illər müharibəsinin qələbə ilə başa çatmasının 49-cu ildönümü münasibəti ilə general C.Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi məktəbdə çıxışı zamanı Ali Baş Komandan deyirdi: "25 il bundan öncə mən Azərbaycanda heç vaxt oxşarı, analoqu olmayan ixtisaslaşdırılmış hərbi orta məktəb yaratmaq haqqında fikir irəli sürdüm. Bu məktəbi yaratdıq. Doğrudan da, mənim həyatımda gördüyüm işlər içərisində bu addımı, bu işi, bu təşəbbüsü o dövrdən keçən bu müddət ərzində şəxsən özüm çox yüksək qiymətləndirirəm" [2, s.203].

"Heydər Əliyev və hərbi təhsil" mövzusunda araşdırmalar apararkən, bir daha aydın oldu ki, ötən əsrin 70-ci illərində Azərbaycan Respublikasının rəhbəri Bakıda yerləşmiş Ali Ümumqoşun Komandirlər Məktəbinin və Xəzər Ali Hərbi Dənizçilik Məktəbinin Komandanlığı ilə sıx əlaqə saxlamış, bu məktəblərdə azərbaycanlı gənclərin təhsil almasına bilavasitə qayğı göstərmişdir. Hər iki məktəbin həyatında ən yaddaqalan hadisələr ümummilli lider Heydər Əliyevin müxtəlif vaxtlarda mütəmadi şəkildə məktəbləri ziyarət etməsi olmuşdur [2, s.371].

Məlum olduğu kimi, 1997-ci ilədək Azərbaycan Silahlı Qüvvələrinin hərbi təhsil ocaqları keçmiş SSRİ-də mövcud olmuş sistemə uyğun fəaliyyət göstərirdi. Orduda quruculuq işlərini müasir tələblər səviyyəsinə qaldırmağı daim diqqət mərkəzində saxlayan ümummilli liderimiz Heydər

Əliyevin bilavasitə rəhbərliyi ilə 1997-ci ildən kursantlarımız Şimali Atlantika Alyansına daxil olan ölkələrdə qəbul edilmiş təhsil standartları əsasında hərbi bilik və təcrübə qazanırlar [15]. Bu da Silahlı Qüvvələrimiz üçün daha bacarıqlı, peşəkar və ümumi hazırlığı yüksək olan zabit kadrların hazırlanmasına şərait yaratmışdır.

Hərbi Hava Qüvvələrinin əsasının hələ 1992-ci ilin fevralında qoyulmasına baxmayaraq, onun problemləri, əsasən də kadr problemi həll olunmamışdı. HHQ-nin kadr problemi, bütövlükdə, ordu quruculuğunun kadr probleminin tərkib hissəsi olmaq etibarilə sonralar, məhz Ali Baş Komandan Heydər Əliyev tərəfindən həll edildi. Onun tələbi və qayğısı nəticəsində respublikamızda Milli Hərbi Aviasiya Məktəbi yaradıldı və 1997-ci ilin payızında məktəbin ilk buraxılışı oldu [7].

Bu baxımdan, 1997-ci ildən ali hərbi məktəblərdə aparılan təşkilati-struktur dəyişikliklər və tədbirlər yüksək ixtisaslı zabit kadrlarının hazırlanmasında zəruri baza rolunu oynadı.

Ümummilli lider Heydər Əliyevin Silahlı Qüvvələrin hissələrində əsgər və zabitlərlə müntəzəm keçirdiyi görüşləri, onların problem və qayğıları ilə maraqlanması, hərbi təhsil sisteminin yenidən qurulmasına və hərbi biliklərin tədrisinin keyfiyyətinin yüksəlməsinə xüsusi diqqət yetirməsi öz bəhrəsini verdi. Bu gün Silahlı Qüvvələri yüksək hərbi biliklərə, vərdişlərə yiyələnmiş bacarıqlı, vətənpərvər kadrlarla təmin edən tədris ocaqlarının, təlim mərkəzlərinin fəaliyyətindən fəxrlə danışmaq olar.

1997-ci ildən etibarən yenidən yaradılan hərbi təhsil sistemində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyası, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi, Ali Hərbi Dənizçilik Məktəbi, Ali Hərbi Təyyarəçilik Məktəbi, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzi, C.Naxçıvanski adına Hərbi Lisey və Naxçıvan şəhərində yerləşən Heydər Əliyev adına Hərbi Lisey ümummilli liderimiz Heydər Əliyevin misilsiz xidmətləri, uzaqgörənliyi sayəsində təşəkkül tapdı. Silahlı Qüvvələrimizin kadr potensialının artırılması istiqamətində bu hərbi təhsil müəssisələrinin müstəsna rolu olmuşdur.

Hərbi təhsil sistemində islahatlar davam etdirilmiş, Çavuş Hazırlığı Məktəbi, Sülh Naminə Tərəfdaşlıq Təlim Mərkəzi, Simulyasiya Mərkəzi, Kompüterləşdirilmiş və lazer sistemli poliqonlar yaradılmışdır. Silahlı Qüvvələrin peşəkar hərbi tibb zabitlərinə ehtiyacını ödəmək məqsədilə 2000-ci ildə ölkə başçısının fərmanı ilə Azərbaycan Tibb Universitetinin nəzdində hərbi tibb fakültəsi yaradılmışdır. Bu fakültənin nəzdində "İlkin ixtisaslaşma", "Təkmilləşdirmə" kursları da fəaliyyət göstərir ki, bu da kadr hazırlığı işinin daha yüksək səviyyədə aparılmasına şərait yaratmışdır [8; 11].

Bu işdə böyük praktiki köməkliyi qardaş Türkiyənin Silahlı Qüvvələri və onun hərbi mütəxəssisləri göstərmişlər. Bir sıra NATO ölkələri, əsasən də ABŞ ilə əməkdaşlıq əlaqələri qurulmuş və onların təcrübəsindən səmərəli istifadə qarşıda duran əsas vəzifələrdən biri olmuşdur.

Hərbi təhsil ocaqlarında müasir standartlara uyğun yeni proqramların tətbiq olunması ali hərbi məktəblərimizə beynəlxalq marağın artması ilə müşayiət olunmuşdur. Təsadüfi deyil ki, bu təhsil müəssisələrində bir sıra xarici ölkələrdən gəlmiş gənclər də hərb elminin sirlərinə həvəslə yiyələnirlər. "Ali hərbi məktəblərdə təhsil sisteminin yaxşılaşdırılması, peşəkarlığın artırılması, sağlam mənəvi mühitin yaradılması zabitlərimizin, Silahlı Qüvvələrimizin rəhbərlərinin müqəddəs vəzifəsidir", - deyən Ulu Öndər zabit kadrların hazırlanması işini həmişə ön plana çəkirdi [2, s.448].

Bu gün əminliklə demək olar ki, respublikada Silahlı Qüvvələrimiz üçün peşəkar kadrlar hazırlayan, geniş imkanlara malik hərbi təhsil ocaqları fəaliyyət göstərir. Bu sırada əsas yerlərdən birini də Silahlı Qüvvələr üçün ali hərbi təhsilli komandir və qərargah zabitlərinin, hərbi-elmi işçilərin hazırlanmasını, onların ixtisasının artırılmasını, hərbi iş sahəsində elmi tədqiqatların aparılmasını və dövlət orqanlarında çalışan yüksək vəzifəli şəxslərə respublikanın müdafiəsi və təhlükəsizliyi ilə əlaqədar hərbi-strateji, hərbi-iqtisadi və hərbi-siyasi məsələlərin öyrədilməsini təmin edən Hərbi Akademiya tutur [4].

1999-cu ildə ölkə başçısının müvafiq fərmanı ilə yaradılan Hərbi Akademiya hərbi təhsil sahəsində yeni bir səhifə açdı və zabit kadrların hazırlığında başlıca rol oynadı [13]. Bu təhsil ocağı az müddətdə Silahlı Qüvvələrin peşəkar ali hərbi təhsilli zabitlərə və elmi kadrlara ehtiyacını ödəmişdir.

2001-ci ildə Silahlı Qüvvələrin Hərbi Akademiyasının və ali hərbi məktəblərin ilk buraxılış mərasimində iştirak edən ümummilli lider Heydər Əliyev təhsildə və təlimdə fərqlənən dinləyici və

kursantlara diplom və zabit paqonlarını təqdim etmiş və öz çıxışında bildirmişdir ki, Azərbaycan Ordusunun öz peşəkarlıq səviyyəsini qaldırması ən başlıca vəzifədir… O, Azərbaycan Ordusunda xidmət etmək, zabit olmaq, Azərbaycanın müstəqilliyinin, dövlətçiliyinin, Azərbaycan torpaqlarının keşiyində durmaq peşəsini şüurlu olaraq seçmiş bu gənclərə böyük ümid bəslədiyini, Azərbaycanın hərbi potensialının daha da güclənəcəyinə əmin olduğunu söyləmişdir [2,s.443].

*Nəticə.* Beləliklə, bu sahədə aparılan tədqiqatlar onu göstərir ki, Azərbaycan xalqı öz müstəqilliyini bərpa edəndən sonra hərbi sahədə peşəkar kadrların hazırlanması üçün daha yaxşı imkanlar açılmışdır. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin qurucusu Ulu öndər Heydər Əliyev dövlətin onurğa sütununu təşkil edən bu sahəyə diqqəti daha da artırmış və Azərbaycanda mükəmməl hərbi təhsil sistemini formalaşdırmağa müvəffəq olmuşdur. Ümummilli liderin uzaqgörənliyi nəticəsində bu gün Azərbaycan Respublikası Silahlı Qüvvələrində ordu quruculuğunun bütün sahələrində müəkkəmməl hərbi təhsil görərək püxtələşmiş zabit kadrları ilə təmin edilmiş bütöv bir hərbi təhsil sistemi yaradılmışdır. Bu təhsil sistemi bundan sonra da Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi və ərazi bütövlüyünün təmin edilməsinə öz töhfəsini verəcəkdir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası 1991-2001. Bakı, “XXI-Yeni Nəşrlər Evi”, 2001, 280 s.
2. Heydər Əliyev və ordu quruculuğu. Bakı, “Adiloğlu” nəşriyyatı, 2006, 480 s.
3. Həsənov Ə. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasətinin əsaslari. Bakı, “Zərdabi LTD”, 2016, 700 s.
4. R.Süleymanov, O.Aslanlı. General-leytenant Heydər Piriyev: Hərbi Akademiyanın Azərbaycanın müdafiə sənayesinin inkişafında böyük rolu olacaq / Azeri Defence, 30 noyabr 2019. Mənbə: https://azeridefence.com/general-leytenant-heydər-piriyev-hərbi-akademiyanin-azərbaycanin-mudafiə-sənayesinin-inkisafinda-boyuk-rolu-olacaq/ [Müraciət tarixi: 16.01.2020].
5. Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə xidməti. Tarixi və döyüş yolu. Mənbə: https://dmx.gov.az/page/1.html. https://dmx.gov.az/about [Müraciət tarixi: 16.01.2020].
6. Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə xidməti. Tarixi və döyüş yolu. Milli Qvardiya. Mənbə: https://dmx.gov.az/page/1.html. [Müraciət tarixi: 16.01.2020].
7. Bu gün Cənubi Qafqazın ən güclü dövləti Hərbi Hava Qüvvələri gününü qeyd edir / Ordu.az, 14 Fevral 2020. Mənbə: https://ordu.az/az/news/127103. [Müraciət tarixi: 16.01.2020].
8. Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsi. Mənbə: https://mod.gov.az/az/azerbaycan-tibb-universitetinin-herbi-tibb-fakultesi-065/ [Müraciət tarixi: 16.01.2020].
9. Müstəqil Azərbaycan Dövlət müstəqilliyinin bərpası və qorunub saxlanılması. Mənbə: http://republic.preslib.az/ru_a3.html [Müraciət tarixi: 16.01.2020].
10. Azərbaycan Respublikasının milli özünümüdafiə qüvvələrinin yaradılması haqqında Azərbaycan Respublikası Ali Sovetinin Qərarı (30 avqust 1991). Mənbə: preslib.azaz_d4.html http://republic.preslib.az/az_d4-13.html [Müraciət tarixi: 16.01.2020].
11. Azərbaycan Tibb Universiteti. Hərbi tibb fakültəsi. Mənbə: http://www.amu.edu.az/az/cafedra/36 [Müraciət tarixi: 16.01.2020].
12. Azərbaycan Respublikası Milli Məclisinin Müdafiə və təhlükəsizlik məsələləri üzrə daimi komissiyasının təşkili haqqında Azərbaycan Respublikasi Milli Məclisinin Qərarı. 18 noyabr 1993-cü il.№ 740. Mənbə: http://www.e-qanun.az/framework/8678 [Müraciət tarixi: 16.01.2020].
13. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının yaradılması haqqında Azərbaycan Respublikasi Prezidentinin Fərmanı. 20 fevral 1999-cu il, № 107. Mənbə: http://www.e-qanun.az/framework/5132 [Müraciət tarixi: 16.01.2020].
14. Şabanov Mehman. 1980-ci illərin sonu 1990-ci illərin əvvəllərində Azərbaycan torpaqlarına qarşı erməni təcavüzü // Kültür Evreni, Uluslararası hakemli Sosyal Bilimler Dergisi. Ankara, 2010 №7, s.177-190. Mənbə: http://www.kulturevreni.com/7-177.pdf [Müraciət tarixi: 16.01.2020].
15. Azərbaycan Respublikasi Prezidentinin sərəncamı. Bakı şəhəri, 14 noyabr 1997-ci il № 692. Mənbə: http://www.eqanun.az/alpidata/framework/data/3/f_3966.htm [Müraciət tarixi: 16.01.2020].

**NURULLA ALİYEV,**
**AZİZAGA QANİ-ZADE**

## MILITARY EDUCATION IN AZERBAIJAN IN 1993-2003

In the article after the re-independence of the Republic of Azerbaijan in October 1991, the history of the formation and strengthening of the military system, the development of military education, and the innovations in military education are the most important rde of our nation`s leader Heydar Aliyev.

The systematic work of training officer officers in the army and keeping it under control has been studied and analyzed based on saírces and studies.

*Keywords:* State, security, Great Leader, army building, military education.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 16 yanvar 2020*
*Məqalənin çapa qəbul olunma tarixi: 06 yanvar 2021-ci il.*
*Rəyçilər: t.ü.f.d.Vahid İsmayılov, t.e.d. İbrahim Zeynalov.*

**UOT 94 "19/..."**

**ЭЛЬМИРА ИСМАИЛОВА**
*Доктор философии по истории,*
*Бакинский государственный университет*
**E-mail: eismayilova@bsu.edu.az; elmira_sh@mail.ru**

# ВНЕШНЯ ПОЛИТИКА ТУРЦИИ: 1923-1990 гг.

*После окончания Первой мировой войны Османская империя распалась. 29 октября 1923 года Турция официально была провозглашена Республикой. С момента провозглашения Республики политика Турецкой Республики основывалась на принципе Ататюрка «Мир в стране, мир во всем мире». Внешнюю политику Турции можно разделить на три периода – период до Второй мировой войны, период Холодной войны, и период после Холодной войны. В статье дается краткий экскурс во внешнюю политику Турции в 1923-1990 гг.*

*Ключевые слова*: Турция, внешняя политика, Холодная война, Советский Союз, Западный блок, Ближний Восток.

*Введение.* С окончанием первой мировой войны Османская империя пала. 29 октября 1923 года была основана Турецкая Республика. Новообразованная республика начала проводить внешнюю политику, на которую оказали влияние видение Ататюрка и его личность. Большинство авторов называют эту эпоху «Турцией Ататюрка». По словам Мустафы Кемаля Ататюрка, цели внешней политики Турции заключались в том, чтобы добиться признания в качестве суверенного государства и стремиться в полной мере пользоваться благами мира.

Внешняя политика Турции в целом считается стабильной и основывается на традициях. С момента создания Турецкой Республики в 1923 году внешняя политика основывалась на принципе Ататюрка «мир в стране, мир во всем мире». Во внешней политике Турции в указанный период можно выделить три основных периода - до Второй мировой войны, в период холодной войны и после холодной войны.

*Основные периоды внешней политики Турции с 1923-1990 гг.* Первый период охватывает период с 1923 года до конца второй мировой войны. В этот период внешняя политика Турции носила многоаспекный характер. Помимо поддержания хороших отношений с западными странами, турецкие политики также предприняли попытку установить прочные связи с независимыми странами третьего мира. Эта двойственная политика требовала принятия антиколониальной позиции, в то же время оставаясь близкой к колониальным державам. Основной целью Турции было признание Западом. Были предприняты попытки положить конец проблемам, унаследованным от Османской империи и которые должны были быть решены Лозаннским мирным договором 1923 года, который юридически оформив распад Османской империи, установил новые границы Турции. Относительно ближневосточного региона отношения, в основном, сводились к ряду конфликтов, которые молодая республика имела с соседними государствами еще не получившими к тому времени полной независимости от Франции и Великобритании. Другим фактором, сдерживающим развитие отношений было то, что весь регион некогда был частью Османской империи и воспоминания об этом периоде все еще были свежи.

17 декабря 1925 года Турция и Советский Союз подписали Пакт о ненападении и безопасности. Договор являлся, в некотором смысле, продолжением советско-турецкого договора 1921 года, к принципу невмешательства которого были добавлены ненападение и нейтральность (3, стр.62). Хорошие отношения наблюдались с 1933-1936 гг., однако с зарождением турецко-британских отношений в 1936 году началось постепенное ухудшение советско-турецких отношений. После смерти Ататюрка в 1938 году, отношения и вовсе пошли на спад. Внешняя политику Турции в период между 1939-1945 гг. Можно охарактиризовать, как политику активного нейтралитета. В 1939 гоу Турция подписала соглашение о дружбе с Великобританией и Францией, а в 1942 году - договор о ненападении с Германией. К концу Второй мировой войны Турция объявила войну Германии и Японии. Однако нейтральная политика Турции во время войны сделала ее уязвимой для советской территориальной и идеологической экспансии.

Второй период начался с окончанием Второй мировой войны и началом холодной войны. Из-за биполярного характера международной системы страны чувствовали угрозу со стороны одной из сверхдержав. Внешня политика Турции начинает постепенно носить односторонний характер. Для Турции источником угрозы был Советский Союз. Стремление Советского Союза изменить систему, установленную Конвенцией Монтрё 1936 года, восстановившей суверенитет Турции над проливами Босфор и Дарданеллы из Черного в Средиземное море, а также требования Сталина во время и после Второй мировой войны сыграли важную роль в присоединении Турции к Западному блоку. Это привело к определенной зависимости от Запада и, главным образом, от США. Советский Союз денонсировал пакт о дружбе и ненападении 1925 года, который должен был быть возобновлен с Турцией в 1945 году. Весной 1945 года Советский Союз предъявил Турции территориальные претензии (Карс, Ардахан), потребовал изменения статуса черноморских проливов, признание права СССР на создание военно-морской базы в Дарданеллах. Советский Союз также обвинил Турцию в помощи Германии во время Второй мировой войны. СССР начал экспансионистскую политику в отношении Восточной Европы. Это посеяло семена холодной войны в международных отношениях. Во время холодной войны Турция выступала оплотом против экспансии советского влияния в Восточном Средиземноморье и на Ближнем Востоке. Турция начала полагаться на поддержку Запада в вопросах экономики и безопасности. Турция получила военную и финансовую помощь от США в рамках доктрины Трумэна, а затем и плана Маршалла (4). В то же время «северная угроза» заняла ценральное место во внешней политике Турции, что привело к потере интереса к другим регионам, таким как Ближний Восток (5, с.66).

С политическими выборами в 1950 году в Турции началась новая эра многопартийной политики. Это было, по мнению иториков, политической революцией в Турции. Приход к власти новой Демократической партии (ДП) привел к значительным изменениям в реализации внешней политики. Демократы начали интенсивную кампанию, чтобы связать Турцию с западным лагерем против советской угрозы. Им удалось добиться вступления Турции в Организацию Североатлантического договора (НАТО) в 1952 году (1, с.246).

В период между 1960 и 1980 годами Кипрская проблема занимала центральное место во внешней политике Турции. Вооруженные силы Турции провели операцию на Кипре в 1974 году, после которого последовало американское эмбарго в отношении Турции в период с 1975 по 1978 года.

Конец холодной войны ознаменовал серьезные изменения для всех участников международной системы, в том числе и для Турции. До этого Турция принимала внешнюю политику, основанную на потребностях безопасности, и ее связи с Западом основывались преимущественно на общих угрозах безопасности. Конец холодной войны также открыл новые горизонты для турецкой политики на Кавказе и в Центральной Азии. С распадом СССР Турция превратилась в независимого игрока на международной арене. Существовали три области, в которых Турция могла бы развивать свое сотрудничество с Западом. Предпочтительным вариантом было полное членство в Европейском сообществе (ЕС). Тургут Озал, будучи первым премьер-министром в 1980-х годах, а затем президентом Турции в начале 1990-х годов, разработал внешнюю политику, которая подчеркивала расширение торговых и экономических отношений Турции с соседними регионами. Его внешняя политика характеризовалась его попыткой присоединиться к тогдашнему Европейскому сообществу. В 1987 году Турция подала заявку на официальное членство в Европейское сообщество. В декабре 1989 года Европейская комиссия подтвердила возможное членство Анкары, но также выразила обеспокоенность низкими экономическими показателями и политической ситуацией в Турции, а также ее проблемными отношениями с Грецией и Кипрским конфликтом (2, с.238). Отказ ЕС от заявления Турции о членстве показал туркам, что отношения с Западом будут по-прежнему основываться на общих проблемах безопасности. Регионами, в которых такое сотрудничество могло бы быть выгодным для всех сторон, были Центральная Азия и Ближний Восток. Усиление России в Центральной Азии вынудило Турцию обратить вимание на Ближний Восток. Вторжение Ирака в Кувейт в 1990 году облегчило этот выбор, так как внимание всего мира оказалось именно здесь.

Отношения с США продолжали развиваться. Следует отметить и тот факт, что США использовали турецких военные базы во время бомбардировок Ирака в 1991 году.

Отношения со странами Ближнего Востока были спокойными. Турция стала первой мусульманской страной, признашей государство Израиль вскоре после его основания в 1949 году. Но в арабо-израильском мирном процессе Турция пыталась играть посредническую роль. Учитывая важность энергетических каналов для Европы, Турция начала закладывать основы переноса энергии с Кавказа и Персидского залива.

В 1990-х годах Турция увязла в экономической и политической нестабильности. Слабые коалиционные правительства не смогли решить экономические и политические структурные проблемы страны. Курдский национализм и исламский фундаментализм воспринимались истеблишментом, особенно военными, как угроза турецкой «национальной безопасности».

*Заключение.* 29 октября 1923 года была провозглашена Турецкая Республика. В процессе перехода от Османской империи к республиканскому периоду произошли значительные изменения во внешней политике Турции. Период с 1923-1990 гг., основной целью которого являлось образование государства и защита независимости, оказал влияние на последующее развитие государства.

Внешняя политика Турции возникла из идей Ататюрка. Например, предложенный Ататюрком принцип «Мир в стране, мир во всем мире» можно назвать одним из основных принципов внешней политики. Другой важный принцип, заложенный Ататюрком, заключался в направлении на Запад.

В формировании внешней политики Турции большую роль сыграло и географическое положение страны. Турция расположена на пересечении трех областей, имеющих все большее стратегическое значение для Соединенных Штатов и Европы: Балканы, Каспийский регион и Ближний Восток. Таким образом, то, как развивается Турция, важно как для Соединенных Штатов, так и для Европы.

**ЛИТЕРАТУРА**

1. Bilgin Mustafa Sıtkı. 1950’li Yıllarda Türkiye’nin Ortadoğu Politikası ve Bu Politikanın Türk-Arap Münasebetlerine Etkisi // Akademik Bakış, Cilt 11, Sayı 21, Kış 2017, s.245-259.
2. Foreign Policy of the Turkish Republic // CIDOB International Yearbook 2011, s.237-240.
3. Göl Ayla. A Short Summary of Turkish Foreign Policy: 1923-1939 // Ankara Üniversitesi Siyasal Bilgiler Fakültesi Dergisi. Cilt: 48, Ocak-Aralık 1993, No: 1-4, s.57-71
4. Oran Baskın (ed.). Türk Dış Politikası, Kurtuluş Savaşından Bugüne Olgular, Belgeler, Yorumlar, Cilt I (1919-1980). İstanbul, İletişim Yayınları, 2002, 900 s.
5. Turan Kürşad. Türk Dış Politikasında Değişimler: Bir Değişim mi, Geçici Bir İlgi mi? // Akademik Bakış, Cilt 6, Sayı 11, Kış 2012, s.65-84.

**ELMİRA İSMAYILOVA**
***PhD, Baku State University***

## TURKISH FOREIGN POLICY: 1923-1990

With the end of World War I, the Ottoman Empire fell. The Republic of Turkey was founded on October 29, 1923. Since the creation of the Republic of Turkey in 1923, foreign policy has been based on Ataturk's principle of “Peace at Home, Peace in the World”. There are three main periods in the foreign policy of Turkey - before the World War II, during the Cold War and after the Cold War. The article gives a brief excursion into the foreign policy of Turkey in the specified period.

*Keywords*: Turkey, foreign policy, Cold War, Soviet Union, Western Bloc, Middle East.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 19 fevral 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 06 yanvar 2021-ci il.*
*Rəyçilər: t.ü.f.d.Turan Axundova, t.e.d. Sani Hacıyev.*

**UOT 94**

**SƏMAYƏ MUSTAFAYEVA**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti*

**ŞƏHLA QURBANOVA**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi,*
*tarix üzrə fəlsəfə doktoru*
**E-mail: qurbanova@mail.ru**

# RONALD REYQANIN PREZİDENTLİYİNİN İKİNCİ DÖVRÜNDƏ ABŞ-IN DAXİLİ SİYASƏTİ

*ABŞ-ın 1984-1988-ci illərdəki daxili siyasətindən bəhs edən bu məqalədə "Reyqan iqtisadiyyatı"nın mahiyyəti açıqlanmış, vergi islahatı, işsizliyi və inflyasiyaya qarşı mübarizə, sosial xərclərin azaldılması, hərbi xərclərin çoxaldı İması, xidmət sahəsinə xüsusi diqqət yetirilməsi və s. məsələlər öz geniş əksini tapmışdır.*

*Açar sözlər*: R.Reyqan, vergi islahatı, sosial sahə, hərbiləşmə, büdcə.

*Giriş*. 1984-cü ilə qədər daxili və xarici siyasətdə əldə edilən uğurla Reyqan və Buşa seçici səslərinin görünməmiş üstünlüyü ilə ikinci müddəti qazanmağa kömək etdi. Onlar Demokrat Uolter F.Mondeyl və Ceraldin Ferraro üzərində qələbə qazandılar (11). Beləliklə, 1984-cı ildə Reyqan yenidən ABŞ prezidenti seçildi. Xalq onu "tefton prezident" adlandırırdı.

ABŞ-ın fəal daxili siyasət yeritməsi bu dövrdə daha da sürətləndi. ABŞ-ın iqtisadi inkişafı onun yenə də dünyanın lider dövləti kimi qalmasına imkan verdi.

Vergi sistemində dəyişikliyi respublikaçılar partiyası Reyqanın prezidentliyinin ikinci müddətinin əsas vəzifəsi elan edirdilər. Buna görə də 1986-cı ildə senatın qəbul etdiyi "Vergi islahatı haqqında qanun" 1981-ci ildəki qanunun ünvanına olan bir neçə tənqidi qeydləri nəzərə almaq və onun bir neçə mənfi nəticələrini kompensasiya etmək məqsədi daşıyaraq qəbul edildi (2, 112). Bu qanunda vergi stimullarının fəaliyyətini təkcə imtiyazlı siniflərə deyil, həm də bütün vətəndaşlara aid etmək, əhalinin daha geniş təbəqələrində sahibkarlığa və şəxsi təşəbbüslərə maraq oyatmaq üçün yatırımlar etmək təklif edilirdi. Hər şeydən öncə, əvvəlki islahatı kimi sonuncu islahatın da əsas məqsədi fərdi gəlir vergisində olduğu kimi, korporasiyaların gəlir vergisinin də son həddini aşağı salmaq idi. Vergilərin miqdarı azaldıldı və köhnə güzəştlər ləğv edildi. Gəlir vergisinin çoxpilləli şkalası əvəzinə üçpilləli şkala tətbiq edildi. Yüksək gəlirlər üzərinə qoyulan verginin maksimum həddi 50%-dən 28%-ə endirildi. Gəlir vergisinin aşağı həddi 11%-dən 15%-ə qaldırıldı. Şİrkətlərdən alınan vergilər 48%-dən 34%-ə endirildi. 80-ci illərdə bu iqtisadi inkişaf üçün çox mühüm amil idi (10, 30).

Əgər 1970-ci ildə inkişaf etmiş ölkələr arasında sənaye məhsulu istehsalında ABŞ-ın payı 32% idisə, 1936-cı ildə bu rəqəm 34% oldu. Həmin illərdə xarici ticarət dövriyyəsi 18%-dən 20%-ə qədər qalxdı. Ölkədə inflyasiya ləğv edildi (5, 46). Qazanılmış gəlirlərdən verginin artırılması, kapitaldan olan gəlirlərə görə isə onun tədricən azalması faktını nəzərə alsaq, administrasiyaya geniş reklam olunan vergi yüklərinin hərəkətinin biznesin xeyrinə tətbiq edilməsini siyasi və iqtisadi cəhətdən mümkün etdi. Bundan başqa vergi imtiyazlarının böyük hissəsini ləğv etməyə və müxtəlif "dəliklər"i bağlamağa cəhd göstərildi. Bunların köməyilə bir çox şirkətlər və varlı şəxslər əhəmiyyətli dərəcədə öz vergi öhdəliklərini azaldırdılar. Lakin bu vergi islahatına ümumi maraqların xüsusi qrupların maraqları üzərində qələbəsi kimi baxmaq çətindir. Keçmiş xəzinə əməkdaşı L.Dildaynın fikirləri həqiqətə daha yaxındır. O təsdiq edir ki, vergi islahatı ədalətin və bərabərliyin artmasına səbəb olmur, ancaq bir qrupun maraqlarının digərləri üzərində qələbəsini özündə ifadə edir. Bu çox vergi ödəmiş varlıların, müxtəlif vergi imtiyazlarından geniş şəkildə istifadə etmiş varlılar üzərində qələbəsidir. Onlar arasındakı mübarizə prosesində tökülənlər kasıblara çatdı. Neomühafizəkarların proqram tələblərindən biri də korporativ strukturların (hər şeydən öncə həmkarlar ittifaqlarının) demontajı idi. Hansı ki, onlar öz üzvlərinin "eqoist". Korporativ maraqlarını rəhbər tutaraq, əmək məhsuldarlığının və istehsalın səmərəliliyinin artmasına nail olmağa çalışan sahibkar və menecerləri əlaqələndirirlər. Neomühafizəkarların kitab, məqalə və nitqlərində həmkarlar ittifaqlarının təsiri çoxşişirdilirdi. Onlar az qala, siyasi hakimiyyəti qəsb

edə biləcək, ən güclü təzyiq göstərə bilən qrup kimi təsvir edilirlər. Əlbəttə, həmkarlar ittifaqları ilə qarşıdurma Reyqan üçün məqsəd deyildi. Bu daha çox həmkarlar ittifaqlarını "yerində oturtmaq" üçün vasitə idi. Daha sonra onlarla tamamilə başqa əsasda razılıq əldə edə bilmək istəyirdi (7, 186) Reyqanın çıxışlarından birində bildirdiyi kimi, hər şeydən əvvəl, əmək məhsuldarlığının yüksəldilməsi, istehsalın səmərəliliyi və rəqabətə davamlılığı üçün biznesdə və dövlətdə müştərək cəhdlər olmalı idi. Təbii ki. həmkarlar ittifaqlarına öz tələblərinin irəli sürülməsi və qorunması üçün çox geniş imkanlar verən əməkdaşlığın (sosial partnyorluq təcrübəsi) əvvəlki formaları artıq bu məqsədlər üçün yararsız idi və onlardan ya imtina edilirdi, ya da onlar əvvəlki rollarını itirirdilər. Nəticədə, maraqların razılaşdırılması və müvafiq mexanizmin təkmilləşdirilməsi məsələsi 80-ci illərin sonunda siyasi, mübarizənin kəskinləşən obyektinə çevrilməyə başladı. Reformistlərin cəhdləri ilə yaradılmış "firavanlıq dövlətinin "qüsurlar"ını tənqid edərək, neomühafizəkarlar bildirirlər ki, sosial- iqtisadi sferada öz üzərinə həddən artıq öhdəliklər götürməklə o qədər "yükləndi" ki, təsiri zəif oldu. Özünün əsas, daha doğrusu, siyasi funksiyalarının öhdəsindən lazımınca gələ bilmədi. Qanuniliyə və ölkədaxili intizama əməl edilməsi, iqtisadiyyatın fəaliyyəti üçün münbit şəraitin təmin edilməsi lazım gəlirdi (6, 275). Onların atdığı əməli addımlar dövlətin funksiyalarının əhəmiyyətli dərəcədə yenidən bölüşdürülməsinə səbəb oldu. Onun iqtisadiyyatda rolu əhəmiyyətli dərəcədə dəyişdi. Bu təkcə özəlləşdirmənin deyil, həm də dövlət müdaxiləsinin direktiv metodlarından imtina etmənin, səlahiyyətlərin məhdudlaşdırılmasımn, lazım gəldikdə isə müxtəlif növ tənzimləyici agentliklərin demontajınm nəticəsi idi. Dövlət idarəsinin və sosial xidmət sferasının özəlləşdirilməsi və menecerləşdirilməsinin mənası personalın saxlanmasına sərf edilən resurslara və bütövlükdə dövlət xərclərinə qənaət çərçivəsindən xeyli kənara çıxmış oldu. Hər şeydən əvvəl, bu, dövlətin fəaliyyətinə bazar elementini daxil etmək demək idi. Dövlət və onun vətəndaşının dəqiq bir sərhədi müəyyənləşirdi. Şəxsi kapital qoyuluşu və şəxsi təşəbbüslər sahəsi onlar üçün əlçatmaz bir bölməyə aid olmuş olurdı. Ənənəvi bürokratiyaya və onun inhisarçı idarəsinə ciddi zərbə endirilirdi. Lakin, ABş-da neomühafizəkar kursun tənqidçiləri haqlı olaraq dövlətin tənzimedici rolunun həddən artıq zəifləməsinin ciddi itkilərə də səbəb olacağını göstərirdilər. Onların fikrincə, bu, elmin və elm tutumlu sahələrin inkişafına, elmi-texniki inkişafın nailiyyətlərinin bütünlüklə iqtisadiyyata və xüsusilə, "köhnə" ənənəvi sahələrə tətbiqinə, yenidən sənayeləşmənin yaratdığı kəskin sosial və iqtisadi diqqətsizlikdə də özünü göstərirdi.

Ticarət-siyasi maneələrin azaldılması kursu amerikan kapitalına imkan verdi ki, rəqibləri qarşısında müharibədən sonrakı illərdə sahib olduğu texnoloji və maliyyə üstünlüklərindən maksimum xeyir əldə etsin. ABŞ iqtisadiyyatının xarici bazarlardan artan asılılığı və elm tutumlu istehsalın rolunun artması şəraitində bu kurs təkcə amerikan şirkətlərinin başqa ölkələrin bazarlarına nüfuz etməsinə deyil, həm də ABŞ- ın özündə texniki inkişafın intensivləşdirilməsinə, iqtisadiyyatın struktur baxımından yenidən qurulmasına və inflyasiya kimi bir sıra mühüm problemlərin həllinə kömək edirdi. Öz tərcümeyi-halında R. Reyqan digər nailiyyətləri sırasında 1981 -ci ildə Konqresdən uğurla keçmiş iqtisadi bərpa proqramını və 1986-cı ildə həyata keçirilmiş vergi islahatını xüsusi fərqləndirirdi. Sonuncu böyük maraq doğurur. Belə ki, birincisi, bu, Reyqan hökumətininm daha uğurlu layihələrindən biri idi, ikincisi isə, ABŞ-daki tədqiqatlarda bu çox az dərəcədə təsdiq olunur. Qeyd etmək lazımdır ki, vergi dərəcələrinə yenidən baxılması planı hələ Reyqanın prezidentliyinin birinci müddətinin sonunda meydana çıxmışdı. Həmin vaxt bəzi səhvlərin düzəldilməsi (cəmiyyətin daha pis vəziyyətdə olan təbəqəsinin vəziyyətini yaxşılaşdırmaq), o cümlədən, tələb olunan sahələrdə dövlətin rolunun azaldılması istiqamətində başladılmış kursun davam etdirilməsi zərurəti aydın olmuşdu. İslahatın özündən danışmazdan əvvəl, həmin dövr üçün Reyqanla Konqres arasında olan münasibətləri xarakterizə etmək marağı yaranır. Belə ki, ABŞ-da istənilən qanun layihəsinin taleyi bir çox mənada prezidentlə qanunvericilər arasındakı əməkdaşlıqdan asılıdır. Bu məsələdə isə konstruktiv əməkdaşlığa federal büdcə defisiti barəsində tikir ayrılıqları mane olurdu: birincisi, ölkə üçün kəsrli büdcənin səbəbləri və nəticələri müxtəlif cür qiymətləndirilirdi, ikincisi isə, konqres və prezident yaranmış vəziyyətlə bağlı kimin günahkar olması və bunun üçün kimin məsuliyyət daşımalı olması barədə heç cür razılığa gələ bilmirdilər. Reyqan təkid edirdi ki, "kəsrin səbəbi aşağı vergilərdir. Onun üzündən federal büdcəyə kifayət qədər gəlir daxil olmaması deyil, həddən artıq dövlət xərcləridir", ardınca isə belə bir faktın təsdiqi gəlirdi ki, "kəsri prezident yox, konqres yaradır"

(2, 61) Konqresmenlər isə Reyqanın iqtisadi siyasətini həddindən artıq mühafizəkar hesab edirdilər və qeyd edirdilər ki. büdcəyə daxil olan pulun azaldılması ilə dövlət xərcləri (xüsusilə də hərbi xərclər) azalmır və Reyqanın iqtisadi proqramları da belə azalma tələb etmir. Bundan əlavə, büdcənin təsdiqi üçün məsuliyyət konqresin üzərinə düşür və deməli, uğursuzluq olduğu halda bu qanunvericilərdən soruşulacaq, o zaman da prezident növbəti dəfə sudan quru çıxacaq.

Hakimiyyətin iki qolu arasında qarşılıqlı anlaşmada müəyyən problemlər olduğuna tam əmin olmaq üçün Reyqanın memuarlarından bir sitat gətirək: "Büdcənin təsdiqi konqresin səlahiyyətlərinə daxildir. Mənim tərəfimdən təklif olunan büdcə layihələrinin hər birində dövlət xərclərinin azaldılması barədə maddə var idi. Buna baxmayaraq büdcə heç vaxt səliqəli şəkildə qəbul edilməmişdir. Bunun əvəzinə konqresdə büdcəni tam təsdiq etməməyə və dövlət xərclərini əvvəlki səviyyədə saxlamağa ixtiyar verən "sonsuz qətnamələr" yer alırdı. Bu yolla konqres gerçəkliklə utanmaz oyun oynayaraq, problemin həlli üçün heç bir qərar qəbul etməyərək Ağ evi kəsrdə ittiham etmişdir" (12). Daha sonra prezident Kapitoli sənədlərini oxuması barədə şəxsi təcrübəsini təsvir edir: "Bir dəfə mən büdcəyə dair qətnamələrdən birini vərəqləyirdim, o, 1400 səhifəlik idi və mən inanmıram ki, heç olmazsa, bir konqresmen nə vaxtsa onu oxuyub".Burada tam aydın deyil ki. Reyqan məlum qətnamənin meydana çıxmasını necə ehtimal edirdi. Lakin buna heç bir şübhə yoxdur ki, prezidentin xidmətlərini "böyük qanunverici" kimi şişirtməyə dəyməz. 1981-ci ildə bu sahədə inzibati ərazinin uğurları isə mütəxəssislərin çoxsaylı proqnozlarına baxmayaraq ənənə halını almamışdı. Bu fondda 1986-cı il vergi islahatı, həqiqətən də, böyük uğur idi. O, əsasən, vətəndaşın şəxsi gəlirinə olan verginin azaldılmasına və korporasiyaların gəlirlərinə verginin artırılmasına aid idi. Prezidentin təklif etdiyi və "konqresin işçi qrupunun düzəliş etdiyi qanun layihəsi şəxsi vergidən azad minimumunun 2000 dollara qədər, ümumi ailə minimumunun isə 5000 dolları dək artırılmasını nəzərdə tuturdu (12).

Bütünlükdə isə monetarizm siyasəti kursunun davamından və qarşıdakı islahatın səhvlərini nəzərə almaq cəhdindən danışmaq olardı. 1986-cı il oktyabrın 22-də qanun layihəsi qüvvəyə mindi. Bu, Reyqan administrasiyasının iqtisadiyyat sahəsində həyata keçirdiyi son iri layihə idi. Bəzi tənqidçilər hesab edirlər ki, "Reyqanomika" xalq arasında uğur qazanmamışdır. Onlar 1986-cı ilin sonunda vergi islahatı həyata keçirilməyə başlayanda prezidentin və onun ətrafının populyarlığının aşağı düşməsini dəlil gətirirlər. Lakin bu həm də amerikalıların hökumətə inamını zədələyən "İran-kontras" hadisəsi ilə də bağlı idi. Beləliklə. 1986-cı ilin sonunda Reyqanın populyarlığının aşağı düşməsi xarici siyasi fəaliyyəti ilə daha çox bağlı idi və onun iqtisadi siyasətinin nəticəsi ola bilməzdi, çünki amerikalılar onun məqsəd və üsullarını dəstəkləyirdilər.

Növbəti il ərzində vergi sistemində planlaşdırılan dəyişikliklərin əksəriyyəti tətbiq edildi. Beləliklə, 1988-ci ildə 60-cı illərin ortalarından bəri olmayan qəfil iqtisadi artım və vətəndaşların həyat keyfiyyətinin ümumi yaxşılaşması müşahidə olundu. Reyqan administrasiyasının uğurları sırasında ən azı belə bir faktı misal göstərmək olar ki, 80-ci illər ərzində hər il 100 min amerikalı milyonçu olmuşdu. Lakin insanların əksəriyyətinin gəlirinin artmasına baxmayaraq, əhalinin kasıb təbəqəsinin orta gəliri 9.367 dollardan 8,800 dollara düşmüşdü. Beləliklə, "Reyqanomika"nın Birləşmiş Ştatlar üçün əhəmiyyətini inkar etmədən, vurğulamaq lazımdır ki, onun ölkə iqtisadiyyatı və əhalisi üçün mənfi nəticələri də olmuşdur. İşsizliyin artması, inflyasiyanın aşağı düşməsi və davamlı iqtisadi artım xarici borcun artmasına gətirdi, lakin onun nəticələrindən həm korporasiyalar, həm də sadə vətəndaşlar qazandılar. Bu da Reyqanın sosial-iqtisadi islahatlarını, ümumilikdə, uğurlu hal kimi qiymətləndirməyə imkan verir. "Reyqanomika" 80-ci illərdə Birləşmiş Ştatların inkişafında mühüm rol oynadı və mühafizəkar ideyaların uğurla reallaşdırılmasının nümunəsi oldu. Bu dövrdə istehsal vasitələri sürətli inkişaf etdi. Xarici ölkələrə kapital qoyuluşu artırıldı. Ölkənin bank işində təmərküzləşmə gücləndi. 80-ci illərin ortalarında ölkədəki 50 iri bank bütün bankların aktivlərinin 35%-ni, depozitlərinin isə 32%-ni öz əlində cəmləşdirmişdi (5, 46).

Evsizlərin problemini həll etmək iiçün borcvermə sistemi 1986-cı ildə təkmilləşdirildi. Bundan sonra ev almaq üçün götürdüyü borcu vətəndaş 30 il müddətinə ödəyə bilərdi. Reyqan hökuməti əmək münasibətlərinin tənzimlənməsi sahəsində də tədbirlər gördü. İşsizlik 80-ci illərin ortalarında xeyli aşağı salındı. Hökumət kasıblığa qarşı mübarizə üçün geniş tədbirlər proqramını həyata keçirdi. İldə 1 1 min dollar gəliri olan şəxs kasıblıq həddində yaşayan hesab edilir və ona hökumət yardımı verilirdi.

Reyqan hökuməti büdcə defisitini ləğv etmək üçün səy göstərirdi. 1985-ci ildə Konqres Qremm-Radmen-Xollinqs qanunımu qəbul etcli. Bu qanuna görə büdcə defisiti 1991-ci ilə kimi ləğv edilməli idi (5, 47)

Bütün bu tədbirlər nəticəsində bir çox xərclər aradan qalxdı və milyonlarla aşağı gəlirli insanın yükünü azaltdı. Onun prezidentlik dövrünün sonunda, xalq enişsiz və böhransız ən uzun müddətli dinc çiçəklənmə dövrünün zövqünü yaşayırdı (11). Ronald Reyqan yeni tip prezident idi. Sələfi Cinimi Karterdən fərqli olaraq işə passiv yanaşmadan faydalanırdı və bunu hətta belə bir zarafatla da ifadə etmişdi: "Deyirlər ki, gərgin iş hələ heç kimi öldürməyib, ancaq mən düşündüm ki, risk etmək nəyə lazım?” (3 ,215) Bu cür qarışmamaq mövqeyi, xüsusilə daxili iqtisadi siyasətdə özünü göstərmişdir. Bununla, varlılar rahat buraxılmışdılar və onlara öz var-dövlətlərini bacardıqları qədər artırmağa icazə verilmişdi.

Hökumət inflyasiya və işsizlik problemlərini uğurla həll etmişdir. İnflyasiya indeksi 1988-ci ildə 4,5% oldu (Uyğun göstərici 1980-ci ildə 12.5% olmuşdur). İşsizlik kvotası isə 7%-dən 5,4%-ə endirildi (9, 221). Məşğulluğun artmasının əsas mənbəyi xidmət sahələrinin genişlənməsi idi. 13 milyon iş yeri açıldı. 80-ci illərin ikinci yarısından başlayaraq ABŞ iqtisadiyyatına xarici kapital axını güclənməyə başladı. Bu əsasən qiymətli dövlət kağızlarının, bank əmanətlərinin qoyulmasından, şəxsi kampaniyaların səhmlərinin əldə edilməsindən, müstəqil kapital qoyuluşundan ibarət idi.

Reyqan hökuməti daxili siyasətdə sosial sahəyə xüsusi önəm verirdi. Əmək qanunvericiliyinin inkişafına xüsusi diqqət yetirildi. Bir saatlıq minimum əmək haqqı əvvəlki kimi 3,35 dollar həcmində qaldı. Müavinətlər ləğv edildi. Ərzaq talonları alanların sayı 25 milyondan 21 milyona endirildi. 300 min azyaşlı uşaqları olan ailə müavinət almaqdan məhrum edildi. Evsizlərin problemini həll etmək üçün borcvermə sistemi 1986-cı ildə təkmilləşdirildi (5, 47).

Bu dövrdə ABŞ-da muzdlu işçilərin 75% qeyri-maddi istehsal sahəsində çalışırdı. Onun 44%-ni qadınlar təşkil edirdi (8, 33). Bu zaman ABŞ cəmiyyətini varlılar, orta sinfin üç təbəqəsi, yoxsullar, dilənçilər, evsizlər kimi sosial qruplara bölmək olardı. Bu qruplar arasında gəlirlərin və yığılmış sərvətlərin səviyyəsinə görə böyük fərq var idi. 80-ci illərdə yüksək təminatlıların sayı artdı. Ailələrin böyük əksəriyyəti orta rifaha malik qrupa aid edildi. Bir çox amerikalılar müxtəlif kampaniyaların səhmlərini əllərində cəmləşdirərək əmək haqlarından başqa kollektiv mülkiyyətdən də hər il gəlir əldə edirdilər.

1980-ci illərdə insanlar özləri QİÇS-ə qarşı təşkilatlar yaratmağa başladılar. Onlar hökuməti epidemiya ilə məşğul olmaq istəməməkdə günahlandırırdılar. Prezident Reyqan 1987-ci ilin mayına qədər - səhiyyə orqanları epidemiyanın mövcudluğuna inandıqdan sonrada - bir dəfə də olsun ictimaiyyət qarşısında xəstəlik barəsində danışmamışdı (1,334) Reyqan QIÇS-in yayılması məsələsindən ilk dəfə mayın 31-də xeyriyyə məqsədilə təşkil edilmiş şam yeməyində söhbət açmışdı. Bu vaxta qədər artıq 21000 Amerika sakini bu xəstəlikdən vəfat etmişdi. Yalnız fəal vətəndaşların sayəsində QİÇS-lə mübarizənin federal maliyyələşməsi artmışdı (3, 221).

1988-ci ilin oktyabrında R.Reyqan hindu oyunları sənayesinin fəaliyyətini tənzimləyən qanunu imzalayırdı. Bu qanun hindu rezervasivaları ərazisindəki kazinoda qumar oyunlarını qanuniləşdirirdi. Xüsusilə, Kaliforniya, Florida və Massaçusetsdə ayrı-ayrı qəbilələr növbəti illərdə çox böyük maddi qazanc əldə etmiş oldular (3, 223).

*Nəticə*. Reyqan dünya siyasətində özünəməxsus məktəb açmış bir prezident kimi qaldı. O, siyasətin özündə bir incəsənət yaratdı. Reyqanın dövründə silahlanma ən yüksək mərhələsinə qalxdı. Belə ki, onun dövründə hərbi büdcə ölkənin federal büdcəsinin 23%-indən 27%-nə qalxdı. Hərbi sənaye komplekslərinin (bu komplekslərə hərbiçilərin yüksək dairəsi, dövlətin müəyyən quluqçuları, silah istehsal edən korporasiyalar və hərbiləşdrilmiş elm, daxildir) fəaliyyəti gücləndi. Onlardan on ikisi ABŞ-ın Müdafiə Nazirliyi olan Pentaqonun sifarişlərini həyata keçirirdi. ABŞ-da ən çox inkişaf edən və böhran keçirməyən sahə hərbi sahə idi. Çünki bu sahə hökumətin nəzarəti altında idi. Hərbi xərclər 1979-1980-ci illərdə 134 milyard dollardan 1988-ci ildə 291 milyard dollara qədər qalxdı (8, 34).

Reyqan çox böyük ictimai nüfuz sahibi kimi öz prezidentlik vəzifəsi ilə vidalaşmışdır. Bəzi jurnalist, tarixçi və politoloqların fikrincə, XX əsrdə F.D.Ruzveltdən sonra ABş-ın daxili və xarici siyasət kursunda R.Reyqan kimi olmamışdır. O, ABŞ-ı universal dövlətə çevirmişdir.

## ƏDƏBİYYAT

1. Алан Аксельрод. История Америки. Пер. с анг. И.С.Бородычевой. М., Астрель, 2007, 376 с.
2. Борисок В.И., Шамберг В.М. Экономический и социальный портрет США. М., Логос, 1990, 60, (4) с.
3. Грег Вард. История США. Пер. с анг. И.А.Сергеевой. М., АСТ, 2009, 243 с.
4. Гарбузов В.И. Революция Рейгана. М., Наука, 2008, 57 с.
5. M.Fətəliyev, M.Qasımlı. Avropa və Amerika ölkələrinin müasir tarixi. II hissə. Bakı, Adiloğlu, 2008, 380 s.
6. S.M.Mustafayeva. ABŞ və Böyük Britaniyanın yeni tarixi. Bakı, ADPU-nun məətbəsi 2009, 350 s.
7. Лебедева Л.Ф. США: государства и социальное обеспечение. Механизм регулирвоания. М., Наука, 2000, 143 с.
8. S.M.Mustafayeva. Avropa və Amerika ölkələrinin ən yeni tarixi. II hissə. Bakı, ADPU-nun məətbəsi, 2011, 506 s.
9. E.Bayramzadə . Amerika prezidentləri. II nəşr. Bakı, 2017, 264 s.
10. M.Baxışov. Avropa və Amerika ölkələrinin müasir tarixi. İkinci Dünya müharibəsindən sonrakı dövr. Bakı, ATU-nun məətbəsi, 2018, 339 s.

*İnternet resursları*

11. Ronald Reagan Presidential Library&Museum - reaganlibrary.gov
12. White House - whitehouse.gov

**SAMAYA MUSTAFAYEVA**
***Associate Professor of Azerbaijan State Pedagogical University***

**SHAHLA QURBANOVA**
***Senior lecturer of Azerbaijan State Pedagogical University,***
***Doctor of Philosophy in History***

## US DOMESTIC POLICY DURING THE SECOND TERM OF RONALD REAGAN'S PRESIDENCY

This article on US domestic policy in 1984-88 describes the essence of the "Reagan economy", tax reform, the fight against unemployment and inflation, reducing social spending, increasing military spending, special attention to the service sector, and more. issues are widely reflected.

*Keywords*: R. Reagan, tax reform, social sphere, militarization, budget.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 26 yanvar 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 06 yanvar 2021-ci il.*
*Rəyçilər: t.ü.f.d. Ə.Əhmədov, t.e.d. Sevinc Yusifzadə .*

**UOT 316.334:2; UOT 2-18:316.37**

**Dr.DADAŞ MÜTƏLLİMOV**
*Uludağ Universiteti, İctimai Elmlər İnstitutu,*
*İslam Tarixi və Sənətləri Bölümü, İslam Tarixi Doktora Mezunu*
**E-mail: dadash_baki@hotmail.com**

**Dr. ALİYA MÜTƏLLİMOVA**
*Bozok Universiteti, İlahiyyat Fakültəsi,*
*Fəlsəfə və Dini Elmlər Bölümü, Dini Elmlər Şöbəsinin Üzvü*
**E-mail: aliya.sharafullina@bozok.edu.tr**

# RUSİYADA İSLAMOFOBİYA FENOMENİ

*İslamofobiya – İslam qarşısında qorxu deməkdir. Qərb dünyasında islamofobiya "müsəlmanlara nifrət və düşmənçilik" qorxusundan yaranmışdır. Bu gün Qərb dünyasında İslam və müsəlmanlar terrorizmi, zorakılığı və digər çatışmazlıqları xatırladırlar. 11 sentyabr hadisələrindən sonra bəzi insanlar müsəlmanların zərərinə hərəkət etməyə başladılar. Faktiki olaraq, 11 sentyabr terror aktı islamofobiyanın başlanğıcı hesab olunur. Avropa üçün isə bu başlanğıc 7 iyul 2005-ci ildə Londonda baş verən hücumlardır. Çox mürəkkəb və dərin tarixi olan İslamofobiya anlayışını başa düşmək çətindir. Buna görə məqalədə əvvəlcə İslamofobiya anlayışı izah edilir, İslamofobiyanın mənşəyi və səbəbləri izah edilir, daha sonra Rusiyadakı İslamofobiyanın səbəbləri və müasir Rusiyadakı İslamofobiyanın təzahürlərinə aydınlıq gətirilməsinə cəhd edilir.*

*Açar sözlər:* İslam, Din sosiologiyası, İslamofobiya, Avropa, Rusiya.

*Giriş*. Son bir neçə əsrdir xalqlar, ötən əsrlərə nəzərən daha çox bir-biri ilə qarışmışdır. Xalqların bəziləri bu vəziyyəti yaxşı, bəziləri isə pis hesab edir. Bu xalqların içində millətlərinə və dinlərinə sadiq qalanlar rəqiblərinə qarşı ikinci dərəcəli insan münasibəti göstərdikləri üçün bir sıra problemlərlə üzləşmişlər. Bu problemlər çoxaldıqca da, fərqli düşüncələr ortaya çıxmışdı.

"*İslam*" və "*fobiya*" sözlərinin birləşməsindən meydana gələn İslamofobiya sözü qlobal bir fenomen və problemi xarakterizə edən bir anlayışdır (11, s.22). İslamofobiya tərəddüd, nifrət, düşmənçilik, uzaq durmaq və bəyənməmək şəklində özünü büruzə verən irrasional bir qorxudur. İslamofobiya anlayışı ilk dəfə 90-cı illərdə istifadə edilmişdir. 11 Sentyabr 2001-dən sonra populyarlıq qazanmış və aydutorada istifadəsi geniş yayılmışdı (9, s.755).

İslamofobiyanı anlamaq nöqtəsində, xüsusilə Qərbi Avropada müsəlmanların dini haqqında anlayış azınlığı müsəlmanlarla, qeyri-müsəlmanlar aralarındakı münasibətlərin pis olmasında əsas amildir. Avropadakı müsəlman əhalinin sayının artması bu münasibətlərin əhəmiyyətini də artırmışdı (8, s.2). Ancaq təkcə Avropada deyil, Rusiyada da müsəlmanların sayı günbəgün artması İslamofobiya anlayışının artmasına gətirib çıxarmışdı.

*İslamofobiya anlayışının tərifi*. "İslamofobiya" sözü ümumiyyətlə "İslamdan qorxmaq", İslamı din, həyat tərzi, sosial layihə və mədəni anlayış baxımından tamamilə rədd etmək mənasını verir (2, s.8). Phobia (fobiya) Yunan mifologiyasında "terror tanrısı" olan Phobos'dan qaynaqlanan bir sözüdür (11, s.22). Ancaq heç bir reallığa söykənməməklə bərabər bir termin olaraq da, tərəddüd, qorxu və İslamdan və müsəlmanlardan qaçmaq instinktini ifadə edir (7, s.11).

İslamofobiya anlayışını təyin edərkən "irqçilik" (racism), "xariçi düşmənciliyi"(ksenofobiya), "Yəhudi düşmənciliyi " (antisemitizm) və "İslam düşmənciliyi " (anti-islamizm) anlayışlarına rast gəlirik. Əslində bu anlayışların məna əlaqələri olduqca yaxındır. Ancaq bu anlayışları bir-biri ilə qarışdırmamaq lazımdır (11, s.22). "İrqçilik" yalnız bir qrup insanın digər insanlardan fərqli olması deyildir. İrqçilik bioloji fərqliliklə yanaşı həm də digərlərindən daha yaxşı, daha güclü, daha yüksək olma düşünçəsidir. Ən əsası da bu üstünlüyün atalarından miras qalmasıdır (18). Xüsusilə səlib yürüşlərindən sonra Avropada inkişaf edən siyasi rəqabətə əsaslanan mənfi və düşmən münasibəti ifadə edir (11, s.23). Anti-İslamçılıq bir ideoloji və siyasi infrastrukturun bəhrəsi olsa da, Qərb dünyasında İslamofobiya anlayışı "İslama qarşı kin, nifrət və düşmənçilik", "Müsəlmanlardan nifrət etmək və bəyənməmək" şəklində "irrasional" bir qorxu kimi ortaya çıxmışdır.

*İslamofobiya anlayışının ortaya çıxması.* İslamofobiya dünya ədəbiyyatında ortaya çıxan yeni bir anlayışdır. İslamofobiya anlayışı qlobal bir fenomen və problemi xarakterizə edir (11, s.22). İslamofobiya sözünün tarixi kökləri İspaniyada, Endülüslərin İslam tərəfindən fəthinə qədər gedib çıxır (2, s.8). Başqa sözlə, Qərbin İslama və ya müsəlmanlara qarşı düşmənçiliyi 11 sentyabrda meydana gələn bir duyğu deyildir. Lakin dəqiq nə vaxt, harada və kim tərəfindən, hansı məqsədlə ortaya çıxdığı da bilinmir. Əlbəttə ki, İslamın yer üzündə suverenliyini qazandığı günlərdən bəri, xristianlarda İslama qarşı "islamofobiya" düşüncəsi yaranmaya başlamışdır (5, s.88). Lakin, səlib yürüşlərindən sonra bu hiss bir az azalsa da, son 10 ildə yenidən gündəmdə olduğu görülür.

Fransız dilində "İslamofobiya" sözünün 1920-ci illərdə, daha sonra isə 1970-ci illərdə bəzi əsərlərdə işlədildiyi görülmüşdür. Lakin bu söz İslamdakı bəzi ixtilaflar və fikir ayrılıqları haqqında olmuşdur. Xüsusilə müəyyən bir ənənədə doğulub böyüyən bir insan, bu ənənədən imtina etdiyində, onun üçün istifadə edilirdi. İngilis dilində bu sözün fransız dilindən tərcümə edildiyi düşünülür, lakin məna və məzmun xaricində istifadə olunmuşdu. Yəni qeyri-müsəlmanların müsəlmanlara düşmən münasibətini ifadə edir. 1979-cu ildə İrandakı İslam inqilabından sonra Qərbdə İslamla bağlı xurafat və irqçi ritorika və münasibətlər aktiv reqressiya dövrü kimi tanınırdı. Başqa sözlə, İran İslam inqilabının Qərb dünyasında anti-İslam münasibətlərin oyandırılması olaraq başa düşülməktədir (3, s.4; 15, s.15).

1989-cu ildən başlayaraq dünya tək qütblü olaraq düşünülməyə başlamışdı. Belə bir dünyanın yaranmasının səbəbləri Berlin divarının yıxılması, kommunizmin tarix səhnəsindən çəkilməsi və Sovet İttifaqının dağılmasıdı. Qərb dünyasında (xüsusən ABŞ-da) bu dövrdəki bəzi siyasi yanaşmaların və düşüncə mərkəzlərinin sosioloji olaraq "başqa" yeni bir "düşmən" axtardıqlarını və bu sahədə İslamı seçdiklərini görürük (3, s.4).

1997-ci ildə İngiltərədə Runnymede Trust tərəfindən dəstəklənən və Prof. Gordon Gonway-nın başçılığı ilə müxtəlif dinlərin üzvlərindən ibarət bir komissiya toplantısında "İslamofobiya: Hamımız üçün bir problem" adlı məruzəsi ilə çıxış etdi. Bu hesabatda İslamofobiyanın 11 Sentyabrın məhsulu olmadığı və əvvəlcədən də mövcud olduğunu söylədi. Bundan əlavə, məruzədə İslam qorxusu və müxalifliyinin əsrlər boyu Qərb ölkələrində olduğu, lakin son iki onillikdə daha açıq göründüyü və təhlükəli ölçülərə çatdığı vurğulandı. İslamofobiyanın ilk dəfə texniki bir konsepsiya kimi istifadə edildiyi hesabatda, İslamofobiyanın elementləri olan səkkiz qavrayış növü qeyd edildi. Bunlar İslamofobiya qurumunun qavrayışlarıdır və aşağıdakı kimi sıralanır:

1. İslam vahid, fərqli və qapalı bir dindir.
2. İslam, digər mədəniyyətlərlə ortaq dəyərlərə sahib olmayan ayrı bir dindir, "digəri"dir.
3. İslam Qərbdə aşağı, barbar, irrasional, ibtidai və cinsi ayrıseçkilik dindir.
4. İslam qəddar, təcavüzkar, zorakı, terroru dəstəkləyən və sivilizasiyaları düşmənə qarşı toplayan bir dindir.
5. İslam dini inancların siyasi və hərbi maraqlar üçün istifadə edildiyi bir siyasi ideologiyadır.
6. Müsəlmanların Qərb mədəniyyəti ilə bağlı verdiyi tənqidlərin Qərbin nəzərində heç bir dəyəri yoxdur və dərhal rədd edilir.
7. İslam əsas cərəyandan (sünni) başqa müsəlmanları xaric etdikləri üçün ayrıseçkilik edən bir dindir.
8. Anti-İslamçılıq təbii və normal sayılır (11, s.23).

Göründüyü kimi, hesabatda, Qərb dünyasında İslam fərqli, digər, aşağı, vulqar, vəhşi, irrasional, ibtidai, düşmən, qəddar, zalım, təcavüzkar, zorakılığı dəstəkləyən və terrorçu olaraq qəbul edilir. Məruzədə, demək olar ki, bütün mənfi xüsusiyyətlər ilə əhatə olunan, İslam əleyhinə düşmənçilik bəsləyən müsəlmanlara qarşı ayrıseçkilik və kənarlaşdırma kimi əməllərə qanuni zəmin yaradıldığı vurğulanmışdır (11, s.23; 10, s.262).

11 sentyabr hücumlarından sonra bu fobiya, siyasət və medianın rəhbərliyi altında Qərb cəmiyyətinin şüuraltına həkk olunmağa başladı. Çünki bu tarixdən sonra bütün dünyada etibarsız bir mühit yaradıldı. Eyni zamanda bir qorxu gücünün yaradılması cəhdləri başladı. Bütün dünyada geniş bir əraziyə yayılan bu qorxunun İslamdan qaynaqlandığını göz önünə sərdilər.

*İslamofobiya anlayışının Mediyadakı rolu.* Bu gün çox yayılmış bir fikrə görə, İslamofobiya 11 sentyabrdan sonra ortaya çıxan yeni bir hadisədir. Ancaq bu düşüncə səhvdir. Bu fikri qəbul etsək, Qərb tarixində anti-islamizmin dərin köklərini inkar etmiş və 11 sentyabr tarixindən müstəqil olaraq mövcud olan irqçi və islamofobiya meyillərin mövcudluğuna məhəl qoymayacağıq (3, s.4; 6, s.19).

Məlumdur ki, düşünülənin digər düşüncəyə qarşı qərəz, qorxu, narahatlıq kimi duyğuların özündə daha köklü bir sosioloji əsas var. Bu çərçivədə, Qərb dünyasında görülən İslamofobiya, ictimai, siyasi, mədəni, tarixi, dini və s. müxtəlif köklərdən qidalanır (11, s.25). İslamın ilk tarixlərindən başlayaraq xristianlar və müsəlmanlar arasında iqtisadi, dini, siyasi, hərbi və sosial-mədəni qarşıdurmalar meydana gəldi. Bu münaqişələr keçmişdən gələn qorxuları canlı saxlayır və yeni şərtlərdə yeni qorxuların meydana gəlməsinə əhəmiyyətli təsir göstərir. Ancaq bu gün görürük ki, həm tarixdən, həm də terror hadisələrindən yaranan qorxular, həqiqət nə olursa olsun, son illərdə demokratiya və insan hüquqlarının beşiyi kimi qəbul edilən Qərb dünyasında müsəlmanlara qarşı qərəzləri gücləndirdi və işıqlandırdı (9, s.748).

Bu gün İslamofobiya ilə bağlı çox sayda ədəbiyyatın olduğunu qeyd etdik. Bu ədəbiyyatın əksəriyyəti qərblilərə, bir qismi isə müsəlmanlara aiddir. Qərb dünyası İslamofobiyanın başlanğıc tarixini dəqiq bir şəkildə ifadə etməsə də, bu anlayışın köklərinin yüzillərə çatdığını söyləyə bilərik. Müsəlmanların ortaya qoyduğu əsərlərin əksəriyyəti müdafiəçi bir çəhət ilə işlənir. Əksinə, deyə bilərik ki, Qərbin multikultural keçmişi yoxdur və İslama qarşı qərəzlidir. Əslində bu araşdırmalarda çox dərin bir keçmişə sahib olan bu qorxunun, 11 Sentyabrdan sonra şişirdilərək dünyaya süni bir gündəm olaraq daxil edilən və medianın bu məzmunda çox əhəmiyyətli bir rol oynadığı bilinmişdir. Qərb dünyasında müşahidə olunan İslamofobiyanın təbiəti və yaranması ilə bağlı yüksək maarifləndirici məlumatlarla birgə, şərhlər də daxil edilmişdir.

Vaşinqtondakı Pew Tədqiqat Mərkəzinin "Qərblilər və Müsəlmanlar bir-birlərini necə görürlər?" 14 ölkədə 14000 insanla aparılan sual-cavabın nəticələrinə görə, müsəlmanlar fanatik, şiddətli və dözümsüzdür (16, s.190-201). Ancaq bu sual-cavaba müsəlmanların əksəriyyəti, qərblilər eqoist, əxlaqsız, acgöz, fanatik və şiddətlidir qarşılığın vermişlər (11, s.25). Əli Kirmanın fikrincə, İslamofobiya konsepsiyasının formalaşmasında iki əsas xətt var. Bunlardan birincisi, qərblilərdən qaynaqlandığı və İslamın özündən deyil, İslamdan və Müsəlmanlardan asılı olmayaraq inkişaf edən, "Qərbli", "başqaları"dır. İkincisi, müsəlmanların özlərindən irəli gələn "şərqli", "daxili" səbəblərdir.

Bu gün İslam dini ilə əlaqəli bütün düşüncələr yalnız Avropa ölkələrində yaşayan insanlarda yaranan sadəcə düşmənçilik hissi deyildir. Düşmənçilikdən başqa qorxu və paranoyaya çevrilmişdir. Mediya, həmçinin İslamofobiyanın ən dərin ölçüsünü daşımaqdadır. Məsələn, İngilis müəllif Karen Armstronga görə, "İslamofobiya, səlibçilərdən bəri davam edən tarixi bir hadisədir. 11 sentyabr İslam ruhunu əks etdirmir. Problem dinlərdə deyil, siyasətçilərdədir. Kəşmir İraqın işğalı və Əfqanıstanda baş verənlər, dinlərdən yox, siyasətçilərin tətbiqinden yaranır ve bu islamofobiyanı ortaya çıxarmış olur. İslamofobiya əslində Qərb müstəmləkəçi ənənəsi ilə qidalanır. İslamofobiya Qərbdə dərin köklərə malikdir. Siyasətçilər israrla bu dərin kökləri ortaya çıxarır. Bunulada Qərb mediası da bu prosesdə mənfi rol oynayır" (7, s.11). Bu gün qaçqınlar sayəsində Avropadakı müsəlmanların sayı hər gün artır. Qərblilər bu hadisələri isti münasibətlə qarşılaya bilmirlər. İrqçi insanlar və bəzi radikal partiyalar İslam dinini zorakılıq dini kimi göstərməyə çalışırlar. Bununla da mediada aparılan təbliğat nəticəsində Avropa insanları inanır ki, qaçaq olaraq gələn müsəlmanlar terror aktları həyata keçirə bilərlər. Qərblilər bunun üçün İslam dinini "təhdid" olaraq görürlər.

*Rusiyada İslamofobiyanın meydana gəlmə səbəbləri.* Dünyadakı hər kəsin İslamofobiyani demək olar ki, hər gün dilə gətirilməsinin səbəbini medianın olduğunu söyləmişdik (14, s.92). Yuxarıda da qeyd etdiyimiz kimi, Avropa ölkələrində mətbuat və vizual nəşrlərin müsəlmanları mənfi tərəfdən, İslam dini isə dağıdıcı və inkişaf etməmiş bir din olaraq tanıdılır. Təəssüflər olsun ki, son vaxtlar Rusiyada medianın danışıqlarını Avropaya daha çox bənzəməyə başlayıb. Müxtəlif yayım kanalları süni şəkildə islamofobiya dalğası yaradır. Vizual nəşrlərin qaldırdığı məsələlər qəti sürətdə həqiqəti əks etdirmir (4, s.461-487). İslamofobiya problemi bu gün çox aktual və mübahisəli bir məqama çevrilmişdir. Nümunə olaraq M.Reshetnikovun "Argument i i Fakti" qəzetində dərc olunmuş məqaləsini göstərmək olar. Yazıdakı ifadələrə görə:

"11 Sentyabrda New Yorkda baş verən terror hadisələrinin sifarişçiləri və nümayəndələri İslam dünyasının elitasına aid olan təhsilli insanlar idi ... İslam qeyri-müsəlmanlara qarşı edilən hər hansı bir cinayətə cavab verir ... Bu cür hərəkətlər onların anlayışlarına və inanclarına uyğundur" (12, s.3). Bu və buna bənzər nəşrlər cəmiyyəti və dövləti "dində təqiblərin" səbəblərini araşdırmağa yönəldirdi. Ancaq din fenomeni belə bir hərəkətə dözmür. Eyni zamanda, bu hərəkəti həyata keçirən dini dözümsüzlüyü ortadan qaldırır və buna görə də çoxmillətli və çox dinli Rusiyada sosial təhlükəsizliyi təhdid edir.

Tarixdə İslamofobiyanın mənşəyini Rusiyadan tapa bilərik. Dini zəmində qarşıdurmalar həmişə İslam dövlətlərinə qarşı çıxma prosesində yaranmışdır. (1, s.20-26) SSRİ-nin yaranması ilə İslam dünyasında qarşıdurmalar dayandırıldı və qarşılıqlı əməkdaşlıq dövrü başladı. Bu dövrdə Qərbi Orta Şərq bölgəsindəki nüfuzunu gücləndirmək istədi, lakin SSRİ sosialist ölkələri ilə əməkdaşlıqda buna qarşı çıxdı. Eyni zamanda, SSRİ-də "İslam yalnız siyasi və iqtisadi proseslərin nəticəsidir" fikri mövcuddur. Bu münasibət SSRİ dağılandan sonra ilk müəyyən edilən amil oldu. Bu amil dövlətin müsəlman bölgələrində baş verən dini qarşıdurmaların mənşəyini izah etmək üçün istifadə edilmişdir. Əslində İslam radikallığının ortaya çıxması ya istər sosial, istər iqtisadi, istər siyasi, istərsə də ideoloji böhran nəticəsində meydana gəldi.

Əslində ümumilikdə vəziyyət narazılıqla sosial gərginliyə səbəb olur. Ancaq tarixi faktlar bunun əksini göstərir. Bu nöqteyi-nəzərin uyğunsuzluğu, - Niyə münaqişə mərkəzlərinin əsas əhalisi İslam dininin üzvlərinin yaşadığı bölgə oldu? Bu suala cavab verə bilmədiyi üçün nəzərə çarptı (13, s.36).

Göründüyü kimi, birinci düşüncə İslam təliminə görə əsaslı deyildir, ikincisi birbaşa təhlükəlidir və cəmiyyətdə İslamofobiya fenomeninin böyüməsi üçün bir səbəbdir. Bu məzmunda vətəndaşların şüurunda İslam aşağıdakı düşüncələrlə inkişaf edir: Müsəlmanlar yalnız qanuni təhsili deyil, dini təhsili də maraqlandırır; dədə-baba sözü, adət-ənənə əvəlcə gəlir; yerli insanları mənimsəmək istəyi; "İslam" və "Cinayət" ifadələri sinonimdir. İslamın anlaşılmaz və bilinməyən "xüsusiyyətləri" də İslamı bilmədən qorxu yaradır (10, s.265). Buna görə bu gün Rusiya müsəlmanları İslamın mahiyyətini dəqiq və başa düşülən bir şəkildə izah etməyə borcludurlar.

*İslamofobiyanın ortaya çıxmasında faktor olaraq - Vəhhabilik*. "Vəhhabilik" termini sosial düşüncədə İslamofobiya fenomeninin formalaşmasında mühüm rol oynayır. Əvvəlcə bu termin "Radikal islamçılar" üçün istifadə edilmişdir. Lakin "vəhhabilik" termini yanlış izah edildi və fundamentalizm kimi təqdim olunmağa başladı. Fundamentalistlər özlərini "Həqiqi İslam" ın nümayəndələri kimi təqdim etdilər və mərkəzi rəhbərliyə, nüfuza və idarəetmə rejiminə qarşı çıxdılar.Bu faktlara əsaslanaraq fundamentalistləri vəhhabilər adlandırmağa başladılar. Ancaq "fundamentalistlər" bunu inkar etməkdən imtina edirlər. Vəhhabilərin özləri onları fundamentalist kimi görməyin əleyhinədirlər. "İnqilabçılar, islahatçılar, fundamentalistlər, ekstremistlər, ənənəçilər, radikallar və hətta modernistlər" bu fərqli qeyri-islam normativ mədəniyyətində hazırlanmış şablonlardır və bunlar vəhhabi üçün istifadə edilməyə davam edir.

İslam və "vəhhabilik" ayrı şeylərdir. Bu gün Rusiya müsəlmanları fərqli şeyləri göstərmək və ya izah etmək üçün yollar tapmalıdırlar. Əslində "vəhhabilik" İslam dinini ayrıseçkilik edir, dinin tədrisini təhrif edir və bununla da İslamofobiya qavrayışının yaranması üçün zəmin hazırlayır. Bugünkü Rusiyada "vəhhabilik" və buna bənzər radikal cərəyanlar "Ənənəvi İslam Nümayəndələrini" çətin vəziyyətdə buraxır. Əslində, bu cərəyanlar səbəbindən cəmiyyətdə qorxu və anlaşılmazlıq halları artır.

*Müasir Rusiyada islamofobiya məsələsi*. Müasir Rusiyada "Radikal İslam" və "İslam" anlayışları bir məna olaraq birləşmişdir. "Radikal İslam" müsəlmanlar üçün istifadə olunmayan bir termindir. "İslam" isə bir din olaraq bilinməktədir. Beləliklə, "İslam" və "İslamçılıq" terminləri sinonim hala gəldi. Bəzən milli-demokratlardan belə bu ritorikanı eşidə bilərik. Onlar "Radikal İslam"a qarşı mübarizə adı altında, Müsəlmanların hər hansı bir fəaliyyət göstərməsinin qarşısını almağa çalışırlar (13, s.39-40).

Gündəlik həyatda islamofobiya anlayışının statistikası ortaya çıxaran "Obshestvennoe mnenie" (İctimai Rəy) Fondu, Rusiya vətəndaşları arasında İslama münasibətləri ilə bağlı sorğu hazırladı. Nəticə isə müsəlmanları məyus etdi. Sorğunun nəticələrinə görə, İslam həm sosial dincliyini, həm də Rusiya Federasiyasında yaşayan digər etnik azlıqların həyat təhlükəsizliyini təhdid etdiyini ortaya

qoydu. Müasir Rusiyada İslam haqqında, Üsamə bin Laden beynəlxalq Terrorizm və İslam normalarına uyğun geyimli qadınlara qarşı bir qadın terrorçuluğun olduğunu söyləyir. Sorğuda iştirak edənlər arasında cox insanın Quranı doğru olaraq başa düşməməsi. Bir çox insan Quranın insanda mənfi düşüncələr yaratdığını və onları "qeyri-müsəlmanları" öldürməyə təşviq etdiyini ifadələrində demişlərdi. Əslində, respondentlər Quranı oxumadıqlarını vurğulamışlar ancaq "bu barədə çox şey eşitdiklərini və televiziyada izlədiklərini" deyirlər (17).

İslamofobiya ilə mübarizə dövlət tərəfindən immiqrasiya siyasəti çərçivəsində aparılmalıdır. Həqiqətən, Radikal fikirlərin daşıyıcıları çox vaxt Orta Asiya mühacirləri kimi qəbul olunurlar. Bu vətəndaşlar, İslam dininin əsas müddəalarını bilmədən, Rusiyaya mühacirət edirlər. Bununla onlar vəhhabilərin, və Radikal İslamçıların təsiri altına düşürlər (13, s.40). Lakin bunlarla yetinməyib Sosial Mediada müxtəlif qruplar quraraq "Həqiqi İslam" dəvətciləri olduklarını idda ederek ön plana çıxırlar.

Gündəlik həyatda İslam dini terminləri olan, lakin bu gün terrorçuların istifade ettiyi "mücahidlər", "Allahın döyüşçüləri" və s. kimi sözleri biz düşünürük ki, istifadə olunması dayandırmalıdır. Əslində Rusiya və dünya xalqları Terroristlərin yalnız İslam dinindən istifadə etdiklərini başa düşməyə borcludurlar. Çünkü, bu kimi ifadələr İslam dinini əslində olmayan hərəkətlərə yol açır və İslamı bir çıxmaza aparır.

*Nəticə*. Yekunda deyə bilərik ki, müsəlmanlara qarşı edilən hər hansı bir hücumun əsas səbəbi "cəhalətdir". Bu gün dünya mediası İslamla yalnız zorakılıq və terrorizm dini olaraq məşğul olur. İslamın əsil görüntüsü mediada çox olmur, müharibələr və qiyamlar ilə birlikdə tez-tez xatırlanır. Terroru İslamla əlaqələndirmək islamofobiyanın yayılmasına ve artmasına səbəb olur. Medianın təsiri ilə qidalanan cəmiyyətlər "İslam" və "Müsəlman" sözlərini eşidəndə 11 sentyabr 2001-ci il hücumu və cəmiyyətin dincliyini pozan bənzər hadisələrlə əlaqələndirdilər. Bununla, bu hücumlardan sonra mövcud İslamofobiya münasibətləri daha radikal hala gəlir. Biz bu fikirdəyik ki, şüurlu, məqsədyönlü və mütəşəkkil anti-islamçılıq olmasaydı, bu gün dünyada bu miqyaslı İslamofobiya olmazdı. Xristian dövlətlərinin bir çox səbəbə görə İslam və müsəlmanlara qarşı mənfi düşüncələri yaranmışdır. Ən vacib səbəb isə Xristian dünyasının, İslamı özləri üçün bir rəqib olaraq görmələri olmuşdur.

Məlum olduğu kimi, dünən bu günü, bu gün də sabahı müəyyənləşdirir. Buna görə düşünürük ki, müsəlmanlar özləri haqqında olan mənfi qərəzləri düzəltmək üçün səy göstərməlidirlər. Əlbəttə ki, dünyadakı müsəlmanlarla bağlı şüursuz qərəzlərin nə qədər azalacağını və ya artacağını bizə zaman göstərəcək. İnsanlıq olaraq isə biz, dünyanı hər kəsin yaşaya biləcəyi bir cəmiyyət olaraq ortaq bir istiqamətə çəkməliyik.

## ƏDƏBİYYAT


1. Abashin, Sergey (2005). "İslamofobiya".Gumanitarnaya Mysl' Yuga Rossii, 1, 20-26.
2. Aydın, Mehmet Zeki; Yardım Müşerref (2008). "Belçika'da İslamofobi ve Müslümanlara Yönelik Ayrımcılık". Çukurova Üniversitesi İlahiyat Fakültesi Dergisi, XII (1), 7-32.
3. Ayık, Mustafa Arif (2013). "Batıda İslamofobi ve Kilise", (Yayınlanmamış Yüksek Lisans Tezi), Bursa Uludağ Üniversitesi Sosyal Bilimler Enstitüsü, Bursa.
4. Bekkin, Renat (2017). "Islamophobıa In Russia: National Report 2016", Seta Turkuvaz Haberleşme ve Yayıncılık A.Ş., İstanbul.
5. Bibikova, Ol'ga Pavlovna (2015). *İslamofobiya na Zapade i v Rossii*, Moskova: İslam v Sovremennom Mire.
6. Canatan, Kadir (2007). "İslamofobi ve Anti-İslamizm - Kavramsal ve Tarihsel Yaklaşım", (Edt: Canatan, K.& Hıdır, Ö.) Batı Dünyasında İslamofobi ve Anti-İslamizm (19-62)
7. Çöteli, Sami (2012). "Propaganda ve İslamofobi'nin İngiliz Kitle İletişim Araçlarından Yansımaları". Akademik Bakış Dergisi (Uluslararası Hakemli Sosyal Bilimler E-Dergisi), 33, 1-17.
8. Çötok, Nesrin Akıncı; Taşdelen H. Musa (2013). "Avrupa Ekseninde Yabancı Korkusu ve İslamofobi Algısının Değerlendirilmesi", Academic Journal, Electronic Turkish Studies, 8 (6), 1-13.
9. Er, Tuba; Ataman, Kemal (2008). "İslamofobi ve Avrupa'da Birlikte Yaşama Tecrübesi Üzerine". Bursa Uludağ Üniversitesi İlahiyat Fakültesi Dergisi, 17 (2), 747-770.

10. Kanah, A.M. (2013). *İslamofobiya kak yavlenie XXI veka,* Minsk: İzdatel’stvotsentr BGU.
11. Kirman, M. Ali (2010). “İslamofobi’nin Kökenleri: Batılı Mı Doğulu Mu?”. İslami Araştırmalar Dergisi, 21 (1), 21-39.
12. Reshetnikov, M. (2001). “*İslamskiyeistokiterrorizm”.* Argumentı i Faktı (17 Ekim 2001).
13. Sidorov, Denis (2014). “İslamofobiya Sovremennoy Rossii, Obozrevatel'-Observer. 5, 34-41.
14. Suslova, M.N. (2012). “İslamofobiya v Ssha i Rosiiı: Sotsial'no-Politicheskie Osobennosti Problem”. Vestnik Volgogradskogo gosudarstvennogo universiteta, 4 (1), 91-97.
15. Uzun, Nihat (2012). *Avrupa’da İslamofobi İngiltere Örneği,* İstanbul: Pınar Yayınları.
16. Valiakhmetova, G.N., Klimova, T.S. (2015). *“Supergeroi-Musul'mane: Komiksy Protiv İslamofobii İ Radikal'nogo İslamizma”.*Izdatel'stvo Ural'skogo universiteta, 6, 190-201.
17. Россияне об исламе (08 октября 2012). / ФОМ (Фонд Общественного Мнения). Результаты опросов общественного мнения о политике, экономике и повседневной жизни россиян. http://fom.ru/obshchestvo/10652 [Erişim tarihi 11.02.2020].
18. Irkçılık / Türkcebilgi. http://www.turkcebilgi.com/%C4%B1rk%C3%A7%C4%B1l%C4%B1k [Erişim tarihi 11.02.2020].



**DADASH MUTALLIMOV**
***Uludag University, İnstitute of Social Sciences, Department of İslamic History and Arts, doktor of Philosophy***

**ALİYA MUTALLİMOVA**
***Bozok University, Faculty of Theology, Department of Philosophy and Religious Sciences, doktor of Philosophy***


## THE PHENOMENON OF İSLAMOPHOBİA İN RUSSİA


Islamophobia, fear of İslam in General. The concept of Islamophobia "seen in the Western world with hatred, hatred and hostility against İslam feeds", "Muslims do not hate and dislike as" irrational "fear" stands out in front of us. Today, İslam and Muslims with terrorism, violence and other negativity. After the attack of September 11, 2001, the whole world is biased against Muslims started to move. Indeed, the 9/11 attacks Islamophobia is regarded as the milestone. Is this the beginning of the calendar for Europe 7/2005 are made to London.

Very complex and deeply rooted in history, it is not quite easy to understand the concept of Islamophobia. So the definition of the concept of Islamophobia in the article, primarily raised, folded, emergence of Islamophobia and describes the views on the reasons, after the Torigins of the emergence of Islamophobia in Russia and the manifestations of Islamophobia have been dealt with in modern Russia.



*Keywords:* Islam, Sociology of Religion, Islamophobia, Europe, Russia.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 11 fevral 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 06 yanvar 2021-ci il.*
*Rəyçilər:s.e.f.d. Məşdi İsmayılov, t.e.d.Sevinc Yusifzadə.*

**UOT 94**

**SƏBİNƏ ƏLİZADƏ**
*Azərbaycan Dövlət Aqrar Universitetinin müəllimi*
**E-mail: sabina.al1985@mail.ru**

## TÜRK DÜNYASINA QARŞI ÇEVRİLƏN ERMƏNİ TƏHDİDİNİN NƏTİCƏLƏRİ

*Uzun illərdən bəri bütövlükdə türk dünyası üçün bir bəlaya çevrilmiş "erməni məsələsi" bu gün də yaxın keçmişdə olduğu kimi əsas müzakirə olunan siyasi məsələlərdən biridir.Konkret bir dövlət ətrafında birləşməyən daim dağınıq formada yaşayan ermənilər ,real imkanların məhdudluğundan ,insan resurslarının azlığından ,çoxsaylı və güclü dövlətlərin əhatəsində və nəzarəti altında yaşadıqlarından, daim nəyin bahasına olur olsun yaşamaq hüququ qazanaraq yerini möhkəmləndirmək şüarı, onlarda özünəməxsus erməni mentalitetinin və milli ictimai fikrin özünəxas erməni xislətinin formalaşmasına gətirib çıxarmışdı. Yalançı ambisiyalarla süslənən dirnaqarası "erməni mifi" erməni milli xarakterinin formalaşmasına böyük təsiri olmuşdur. Bunun ən ağrılı tərəfi isə bu milli xarakterin formalaşması,qonşu xalqlara bəla gətirən faciəli hadisələrin baş verməsində az rol oynamadı və günü bu gün də oynamaqdadır*.

*Açar sözlər*: Erməni məsələsi, güclü dövlət, ictimai fikir, milli xarakter.

*Giriş.* Ermənilər daim elə əqidə ətrafında birləşmişlər ki, onlar nəinki digər qövmlərdən olan qonşularına, hətta öz soydaşları olan günahsız sadə insanlara zülm edirdilər.Onların əsas həyat atributu-güclülər önündə yaltaqlıq, mütilik və eyni zamanda onlara müxənnətlik etmək meyli hesab edilir.Hər dəfə yeni xalqlarla təmas onlarda ticarətə məhəbbət yaratmaqla bərabər, onlara yalançılıq və var dövlət hərisliyi aşılamışdı. Təsadüfi deyil ki, Osmanlı dönəmində ermənilər" ticarət və ziraat" məsələlərini öz əllərində cəmləşdirmişdilər.Onlar həmçinin yaşadıqları dövlətlərdə müşahidəçilik qabiliyyətini gücləndirərək dövlətin məhvinə sürükləyən məsələlərə xüsusi diqqət yetirmişlər. Xüsusilə, qeyd etmək lazımdır ki, daim dəyişkən sərhədli xalq olan ermənilər güclü monarxiyalardan asılı olmuş və həmişə sistemli şəkildə onlara xəyanət etmişlər. Roma və Bizans kimi böyük imperiyaların havadarı olan ermənilər çox keçmir ki, onlara xəyanət edirlər. Nəticədə onlar həmin ərazilərdən qovulmağa başlayırlar. Bizansın təqiblərindən qaçan ermənilər Osmanlı torpaqlarına pənah gətirdilər.Onlara çoxlu imtiyazlar verilir rahat yaşamaları üçün hər cür şərait yaradılır. Orxan Qazinin hakimiyyəti illərində Bursanın fəthindən sonra erməni ailələrinin oraya köçürülməsi, II Fateh Mehmetin Konstantinopolun fəthindən sonra erməni arxiyepiskopluğunun buraya köçürülməsi buna əyani misaldır. Eyni zamanda öz dövlətçilikləri ilə əlaqədar ermənilər geniş planlar cızır və bunu reallaşdırmaq üçün fürsətlər axtarırdılar. Özlərini qəddar müsəlmanların zülmü altında yaşayan əzabkeş xristianlar kimi qələmə verən ermənilər xristian kartından fəal istifadə edirdilər. Sözsüz ki, bu həqiqətdən uzaq olsa da fakt faktlığında qalır ki, həm Rusiyada, həm də Qərbi Avropada ermənilərin çoxlu tərəfdarları və muzdlu vəkilləri peyda oldu. Bundan istifadə edən ermənilər intensiv şəkildə ictimai rəyi və hakim dairələri öz tərəfinə çəkə bildilər [2].

Ermənilərin Cənubi Qafqaz torpaqlarını xüsusilə Azərbaycan torpaqlarına yiyələnməsi dalğalarla baş verirdi. Ermənilər əvvəlcə Osmanlı torpaqlarında öz dövlətlərini qurmağa çalışırdılar. Bu zaman "1878 ci il manevri" ortalığa atılır. Belə ki, 1877-1878- ci il Osmanlı-Rusiya müharibəsi türklərin məğlubiyyəti ilə başa çatır. Bundan istifadə edən ermənilər Rusiyadan xahiş edirlər ki, onlara arxa dursun. Nəticədə, San Stefano sülhünün 16-cı maddəsində ermənilərin yığcam yaşadığı Osmanlı torpaqlarında islahatlar keçirib onlara özünüidarə hüququ verilməsi haqqında müddəa əlavə edilir. Öz növbəsində ermənilər çar II Aleksandrdan özlərinin Qərbi Ermənistan adlandırdıqları ərazinin Osmanlıdan alıb Rusiyaya birləşdirilməsini xahiş edirdilər. Ən maraqlısı budur ki, belə məzmunda məktubların əksəriyyəti Rusiya imperiyasının tərkibində olan Tiflisdən, Bakıdan və Gəncədən göndərilirdi. [1] Bu isə osmanlı -erməni münasibətlərinin kəskinləşməsinə gətirib çıxartdı. Belə ki, Osmanlı dövlətinin məğlubiyyətini özlərinə fürsət bilən ermənilər öz dövlətlərini qurmaq üçün hazırladıqları layihəni gizlincə imperator II Aleksandra, xarici işlər naziri Qorçakova və Osmanlı dövləti ilə danışıqlar aparan qraf İqnatevə çatdırdılar. Layihənin məzmunu aşağıdakılardan ibarət idi: 1.Qərbi

Ermənistan Şərqi Ermənistanla birləşdirilsin. 2. Müstəqil Ermənistan Rusiyanın himayəsində qalsın. 3. Qərbi Ermənistan Osmanlı dövlətinin tərkibində qaldığı tədqirdə, rus qoşunları islahatlar keçiriləndən sonra buradan getsinlər. Ümumilikdə, San Stefano sülhünün mübahisə doğuran maddələrindən bir neçəsi ermənilərlə bağlı idi. Uzun müzakirələrdən sonra 16-cı maddə 61-ci maddə ilə əvəz edildi. Həmin maddəyə əsasən rus ordusu Qərbi Ermənistan adlandırdıqları Osmanlı ərazisini dərhal tərk etməli idi [7].

Berlin konqresinə qədər ermənilərin Avropada döymədiyi qapı qalmadı. Ümumiyyətlə, bir fakta nəzər yetirmək lazımdır ki, ermənilərin yaşadıqları ərazilərdə onlar heç bir zaman çoxluq təşkil etməmişlər. Ermənilərin Avropaya müraciəti zamanı bir neçə maraqlı məqamlar xüsusilə diqqəti cəlb edir. Belə ki, Avropa ölkələrinə danışıqlara gedən erməni nümayəndə heyətinin başçısına siz konqres iştirakçıları ilə hansı dildə danışacaqsız sualına cavabında hamının çox asan başa düşdüyü bir dildə ağlayıb göz yaşı tökəcəyik demişdir. Bu ənənəvi erməni siyasəti sonrakı illərdə onların məkrli siyasətlərinin həyata keçirilməsinə əlverişli şərait yaratdı. Buna baxmayaraq,1878-ci il manevri həyata keçirilə bilmədi. Çünki Rusiyanın boğazlara yiyələnməsi, həmçinin ermənilərin həyasızlığı iri dövlətlərin maraq dairəsinə uyğun gəlmirdi. Hadisələrin bu şəkildə cərəyan etməsi ilə barışmayan ermənilər bu məsələnin həlli yolunu Osmanlı dövlətinə qarşı qiyamda gördülər [1]. Erməni məsələsini silahlı vasitələrlə həll etməyə çalışan ermənilər Kiçik Asiyanı, Avropanı, Qafqazı və Rusiyanın iri şəhərlərini bürüyən terrorçu komitə, təşkilat və cəmiyyətlər şəbəkəsi yaratdılar. Artıq XIX əsrin əvvvəllərində Türkiyədə "Erməni icmasının xilaskarı" adlı cəmiyyət yaradılmiş və fəaliyyət göstərirdi. Əsrin 80- 90 cı illərində isə "Armenikan", "Hınçak" və "Daşnaksütyun" partiyaları yaradılır. Erməni terrorçu partiyalarının proqramları ümumi idi: millətçiliyin təbliği, silahlanma və xüsusi döyüşçü dəstələrinin yaradılması,türk torpaqları hesabına erməni dövlətinin yaradılması kimi müddəalar daxil idi [2].

Daşnakların dənizdən-dənizə erməni dövləti yaratmaq arzusu I Dünya müharibəsi ərəfəsində daha geniş miqyas aldı. Hətta Osmanlı dövlətinin 3-cü ordusuna rəhbərlik edən Ənvər paşa Ərzurumda erməni liderləri ilə görüşdə məlum olur ki, ermənilər müharibə başlayanda Osmanlı dövlətinə xəyanət edəcəklər. Çünki çar Rusiyası gələcəkdə müharibənin nəticəsindən asılı olaraq Osmanlı ərazisində erməni muxtar dövləti yaradılmasına təminat verməklə ,bu ərazidə yaşayan erməniləri Türkiyəyə qarşı müharibəyə cəlb edə bilmişdi [4]. Müharibənin qızğın çağında ermənilər yaratdıqları terror təşkilatlarının əli ilə soyqırımlar həyata keçirməyə başladılar. Samsun, Zeytun, Vanda olan Hınçaq və Daşnaksütyun partiyalarının əli ilə həyata keçirilmiş silahlı qiyamlar buna əyani misaldır [6]. Rus ordusunun Şərqi Anadoluya daxil olması ermənilərin türklərə qarşı kütləvi qırğın törətməsi üçün əlverişli şərait yaratdı. Onlar qarətlərlə məşğul olur,dinc əhalini zorla evlərə, məscidlərə doldurub diri-diri yandırır, insanları diri diri torpağa basırırdılar.Ermənilərin yerli əhaliyə qarşı həyata keçirdikləri bu qırğınlar Osmanlı dövlətinə tədbir görməyə vadar etdi və erməni əhalisi döyüş meydanlarından uzaqlaşdırıldı. Bununla da türklərin rus və inqilislərə qarşı döyüşlərdə neytrallığı təmin edildi.[9] Antantanın təbliğat maşını sübut etməyə çalışırdı ki, dünyaya sübut etsinlər ki, guya müharibə illərində Osmanlı ərazisində bir milyondan artıq erməni öldürülmüşdü. Hətta yalançı və sübutsuz bir faktı da irəli qoyurdular ki, guya həmin vaxtı ermənilərin sayı 2,5 milyondan çox idi. Halbuki, Osmanlı ərazisində rəsmi məlumata əsasən müharibəyə qədər bu ərazidə 1300 min erməni yaşayırdı və göstərilən əhalinin yarısı döyüş gedən ərazidə yaşayırdı. Bir də bu danılmaz faktdır ki, müharibə dövründə osmanlı ərazisində iki milyondan çox türkün həyatına son qoyulmuşdur [4].

Dövlət qurma istəklərinə nail olmayan ermənilər uydurma" erməni soyqırımı" manevrinə əl atdılar. Erməni ideoloqları dünyanı inandırmağa çalışırdılar ki, guya 1915 ci il aprelin 24-də daxili işlər naziri Tələt paşa erməni əhalisinin dövlət səviyyəsində qırılmasına dair yazılı göstəriş vermişdi. Bu günə qədər erməni ideoloqları həmin sənədin əslini fakt kimi heç kimə göstərə bilmirlər çünki, ümumiyyətlə belə sənəd yoxdur. İstər 1878 ci il manevri, istərsə I Dünya müharibəsi ermənilərə dənizdən dənizə Erməni dövlətinin yaradılmasına nail olmaq üçün uydurduqları erməni soyqırımı heç bir nəticə verə bilmədi.

Ermənilər üçün ən parlaq səhifə Rusiyada baş verən 1917-ci il oktyabr çevrilişindən sonra Zaqafqaziyanın müstəqillik əldə etməsi, Sovet hakimiyyətinin milli ayrı seçkilik siyasəti, Bakıda yaradılan qondarma Bakı Xalq Komissarları Sovetinin yaradılması ilə açıldı. Hələ müharibə gedən dövrdə 1918-ci il martın 3-də imzalanan Brest-Litovsk müqaviləsinə əsasən Rusiya vaxtilə Osmanlıdan qopardığı Qars, Ərdahan və Batum vilayətlərini geri qaytarmağa məcbur olur.Belə bir vaxtda

Zaqafqaziya Seymi bu müqaviləni tanımaqdan imtina edir.Çünki, sülhün şərtləri Seymin tərkibində olan gürcülərin və ermənilərin xeyrinə deyildi.Çünki ermənilər Qarsın, gürcülər isə Batumun verilməsinə qarşı idilər.Osmanlı da öz növbəsində Seymlə ayrıca konfrans keçirməyə və vəziyyətin nizama salınmasına çalışırdı. Bu məqsədlə Trabzon konfransı 1918 ci il martın 14-də çağrılır.Konfrans bir aya qədər davam edir.Lakin istənilən nəticə əldə edilmir.Qeyd etmək lazımdır ki, konfrans iştirakçıları arasında fikir ayrılığı mövcüd idi. Seym 1918-ci il 13 aprel tarixli iclasında Osmanlı dövlətinin qarşısına silahla çıxmağı qərara aldı. 8 günlük müharibə kimi tarixə düşən savaş Osmanlının qalibiyyətli qələbəsinə gətirib çıxardı.Onu da qeyd etmək lazımdır ki, hələ konfrans gedən zaman azərbaycanlılar Osmanlılara qarşı hər hansı silahlı mübarizədə iştirak etməyəcəkləri barədə məlumat verirlər. Zaqafqaziya Seymi ilə növbəti danışıqlar 1918 ci il mayın 14-də Batum konransında davam etdirildi. Konfransda artıq Türkiyə hərbi əməliyyatlarda verdiyi qurbanlar əvəzinə bir sıra yeni ərazilər və imtiyazlar tələb edirdi.Bu tələblərə Tiflis quberniyasının Axıska və Axalkələk qəzaları, İrəvan quberniyasının Aleksandropol və Sürməli qəzaları, Eçməidzin qəzasının Sərdarabad hissəsi,İrəvan qəzasının cənub və cənub qərb hissəsini təşkil edən Kəmərli, Uluxanlı və Vedibasar bölgələri ,Şərur Dərələyəz qəzasının Şərur hissəsivə Ordubad istisna olmaqla Naxçıvan qəzası, habelə Qars-Aleksandropol-Culfa dəmiryolu daxil idi.Bu isə öz növbəsində bu tələblər nəinki 1877-1878-ci il rus-türk sərhəd xəttini, hətta 1828-ci il sərhəddini də aşırdı.Osmanlı dövlətinin tələblərinə münasibətdə ümumi mövqeyə gələ bilməyən Zaqqafqaziya heyətində fikir ayrılıqları və ziddiyətləri daha da dərinləşdirdi.1918-ci il mayın 26- da Zaqafqaziyanın sonuncu iclası keçirildi və gürcü Milli Şurası Gürcüstanın müstəqilliyini elan etdi, eyni zamanda Seym özünü buraxmaq haqqında qərar qəbul etdi [8]. Seymin dağılmasından sonra Azərbaycan nümayəndələri mayın 27 də toplaşaraq Azərbaycanın idarə olunmasını öz üzərinə götürdülər.Müvəqqəti Milli Şura mayın 28- də keçirdiyi ilk iclasda Azərbaycanın müstəqilliyini elan etdi.Elə bu zaman ortalıqda qalan ermənilər erməni məsələsini yenidən qızışdıraraq meydana atıldılar .İstəklərinin həyata keçirilməsi üçün yeganə çıxış yolu Sovet Rusiyasının köməyi idi. Çünki ermənini dövlətyaratması üçün konkret ərazisi yox idi. Ermənilər siyasi mərkəz kimi Aleksandropolu görürdülər bu isə Osmanlı tərəfinin mənafeyinə zidd idi. Belə bir vaxtda ermənilər İrəvanın ona verilməsi məsələsini gündəmə gətirdilər. İndi türklər yeni yaranan erməni dövləti üçün siyasi mərkəz olaraq ya Aleksandropolu ermənilərə verməli və bu şəhərlə bağlı iddialarından əl çəkməli, ya da İrəvanı müsəlmanlardan alıb onlara verməli idilər. İki seçim qarşısında qalan türklər ikinci varianta üstünlük verdilər. Batum konfransında (11 may – 4 iyun 1918) erməni dövlətinin yaradılması məsələsi ətrafında aparılan danışıqlardan belə məlum olur ki,yeni yaranan erməni dövləti Eçmiədzin və Yeni Bəyazid qəzalarından ibarət olmalı idi. Aparılan danışıqlar mayın 30-u başa çatdı. İrəvanın ermənilərə verilməsi və İrəvan bölgəsində erməni dövlətinin yaradılması müqabilində erməni heyəti aşağıdakı şərtlərin yerinə yetirilməsini öz üzərinə götürdü [3].

1.Erməni müsəlman münaqişəsinə son qoyulmalı,Bakının müsəlman əhalisinin təhlükəsizliyi təmin olunmalı. 2.Azərbaycan qəzalarında erməni silahlı birləşmələri tərəfindən müsəlmanlara qarşı həyata keçirilən kütləvi qırğınlar dayandırılmalı. 3.Ermənistan hökuməti İrəvanda və yeni yaradılan erməni dövlətinin digər ərazilərində müsəlmanların sərbəst dini ibadət, mədəniyyət, siyasivə ana dilində təhsil almaq hüquqlarını təmin edəcəkdir. 4.Ermənilər Azərbaycana qarşı ərazi iddialarından imtina etməli. 5.Ermənilər gələcəkdə Azərbaycanla konfedeativ dövlətdə birləşməli idilər.

Yeni yaranmış erməni dövlətinin ərazisi İrəvan şəhəri və ətrafdakı torpaqlar ibarət olmaqla 9 min km $^2$idi. Nəticə etibarilə,Osmanlı dövləti Batum konfransının gedişində İrəvan mərkəz olmaqla Azərbaycan torpaqları hesabına kiçik bir ərazidə ermənilərə dövlət yaratdı və İstanbul hököməti onu tanıyan ilk dövlət oldu [5]. Bununla Osmanlı dövləti erməni məsələsi ilə bağlı "beynəlxalq qınağı" bir tərəfdən aradan götürdülər, digər tərəfdən də Rusiya və Fransa kimi iri dövlətlərin Şərqi Anadoluda yaratmaq istədikləri erməni dövlətini Cənubi Qafqazda yaratmaqla erməni problemini özündən uzaqlaşdırmış oldular. Ermənilər öz növbəsində İrəvan bölgəsində özlərinə dövlət yaradılmasına nail oldular, sonra isə öz üzərlərinə düşən şərtlərin heç birinə əməl etmədilər və bu gün də əməl etmirlər. Belə ki,Batum konfransından bu günə kimi daşnak hököməti erməni silahlı birləşmələrini, eyni zamanda erməni cinayətkar təşkilatlarını himayə edərək türk müsəlman əhalisinə soyqırım cinayətlərini daha da genişləndirmiş,eyni zamanda Azərbaycana yeni ərazi iddiaları irəli sürərək Azərbaycan torpaqlarının 20% ni işğal etmişlər.

*Nəticə.* Bu gün biz hamımız yaxşı bilirik ki,erməni məsələsi tarixi məsələ deyil,siyasi məsələdir.Əgər buna təkcə biz yox, beynəlxalq aləm tarixi aspektdən yanaşsalar birmənalı olaraq qalib olan tərəf biz, uduzan tərəf ermənilər olacaq.Lakin beynəlxalq aləm hələ ki bu haqsızlığa göz yumur və susur. Sozsüz ki, xristian amili burda çox mühüm rol oynayır və hadisələrin belə cərəyan etməsinə rəvac verir.Dağlıq Qarabağ probleminin bu günə qədər davam etməsi buna əyani misaldır. Hər bir müharibədə müttəfiqlərin olması zəruridir.Bu gün Qarabağ həqiqətləri müxtəlif millətlərin şüuruna dərindən nüfuz edir.Düzdür, erməni lobbisi bu gün güclüdür, amma onlar son məqamda geniş və nüfuzlu müsəlman dünyasının fikri ilə hesablaşmalıdır.Get gedə bu proses daha da güclənir. Bu prosesin güclənməsində ölkə rəhbəri İlham Əliyevin apardığı uğurlu siyasət bu şəraitin genişlənməsinə təkan verir.Çünki, bu yol ulu öndərimiz Heydər Əliyevin qoyub getdiyi siyasi xəttin nəticəsi və davamıdır.

## ƏDƏBİYYAT

1. Anar İsgəndərli. Azərbaycan həqiqətləri 1917-1920. Bakı, Elm və təhsil, 2012, 228 s .
2. Ermeni Komiteleri'nin Âmâl ve Harekât-ı İhtilâliyyesi: İ'lân-ı Meşrûtiyyet'den Evvel ve Sonra, Matbaa-i Orhaniye, İstanbul 1332 (1916), 323, [144] s.: resim, tıpkıbasım; 25 sm.
3. Həsənli C. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920). Bakı, Garisma MMC, 2009, 576 s.
4. Qafarov V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917- 1920). Bakı, Azərnəşr, 2011, 474 s.
5. Mahmudov Y. İrəvan və ətrafındakı torpaqlar ermənilərə hansı şərtlə verilmişdir.Azərbaycan xalqının həmin torpaqlara tarixi varislik hüququ bərpa olunmalıdır / Azərbaycan qəzeti, 2014 14 oktyabr.
6. Esat Uras, Tarixdə ermənilər və erməni məsələsi. İstanbul, Bəlgə yayınları, 1976, 769 s.
7. Orhan Arman. Çarlıq Rusiyasının Türkiyədəki oyunları. Ankara, Yarın, 1967, 30 s.
8. Авалов, З.Д. Независимость Грузии в международной политике 1918-1921 гг. : Воспоминания. Очерки / З. Авалов. - Paris : [б. и.], 1924. - XX, [2], 318 с.
9. Ерих Файгл. Правда о терроре. Армянской терроризм-истоки и причины. Б., Азернешр, 2000, s.176.

**SABİNA ALIZADE**
***Lecturer of Azerbaijan State Agrarian University***

## CONSEQUENCES OF THE ARMENIAN THREAT AGAINST THE TURKISH WORLD

"The Armenian Question", which has long been a disaster for the Turkic world, is one of the main issues discussed in the recent past. Armenians who live in a scattered, unified form around a particular state, due to limited real capabilities, lack of human resources, size and control of numerous and influential states, and their motto, in spite of everything, has strengthened the place to live, unique Armenian mentality and the formation of the Armenian identity of national public opinion. "Armenian myth", which was decorated with false ambitions, had a great influence on the formation of the Armenian national character. The most painful part of this side is the formation of this national character, which brought disaster to the neighboring nations, which continue to this day.

*Keywords:* Armenian issue, strong state, public opinion, national character.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 11 dekabr 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 06 yanvar 2021-ci il.*
*Rəyçilər: t.ü.f.d.Elgün Aslanov, t.e.d. Anar İsgəndərov.*

**UOT 94(479.24)**

**ƏZƏT MƏHƏRRƏMOVA**
*Bakı Dövlət Universitetinin doktorantı*
**Email: ezetmeherremova@gmail.com**

# SOVET HAKİMİYYƏTİNİN XX ƏSRİN 20-Cİ İLLƏRİNDƏ AZƏRBAYCANDA TƏTBİQ ETDİYİ DİNİ SİYASƏT

*1920-ci il aprel ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Azərbaycanda siyasi hakimiyyət bolşeviklərin əlinə keçdi. AXC-yə məxsus bütün dövlət qurumları ləğv edildi, Kommunist partiyası istisna olmaqla, bütün siyasi partiyalar buraxıldı. Çox keçmədi ki, rus bolşevizmi digər sahələrdə olduğu kimi, din məsələsində də ideoloji mübarizəyə başladı və İslama qarşı qəti hücuma keçdi. Dinə qarşı mübarizə "Mədəni inqilab" siyasəti çərçivəsində həyata keçirilir, ateizm təbliğ olunurdu. 1920-ci ildə "Vicdan azadlığı haqqında" dekretin qəbul olunması, 1924-cü ildə Bakıda "Allahsızlar Cəmiyyəti" təşkil edilməsi Sovet hakimiyyətinin öz ideologiyasını həyata keçirilmək yolunda atdığı addımlar idi. Aparılan siyasət nəticəsində bütün məktəblərdə dinin tədrisi və dini ayinlərin icrası qadağan olundu; bir çox din xadimləri sürgün və repressiyalara məruz qaldı, məscidlərin əksəriyyəti bağlandı va ya dağıdıldı. Lakin həyata keçirilən bütün tədbirlərə baxmayaraq Azərbaycan xalqı öz adət-ənənələrindən, dini etiqadından uzaqlaşmadı. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra uzun illər tətbiq edilən qadağalara son qoyuldu, ölkə vətəndaşlarının dini etiqad və vicdan azadlığı təmin edildi, dini qurumların fəaliyyətinə və dini ayinlərin icrasına şərait yaradıldı.*

*Açar sözlər*: din, dövlət, qanun, sənədlər.

*Giriş*. Hər xalq öz tarixində bir çox ağır sınaqlardan keçmişdir. Azərbaycan xalqı da tarixin müxtəlif dövrlərində fərqli çətinliklərlə qarşı-qarşıya qalmışdır. 1918-ci ilin mayın ayının 28-də Zaqafqaziya Seyminin Azərbaycan fraksiyasının nümayəndələri tərəfindən "İstiqlaliyyət Bəyannaməsi" qəbul edilmiş və beləliklə də, Azərbaycan Xalq Cümhuriyyəti yaranmışdı. Lakin təəssüf ki, bu müstəqilliyin ömrü cəmi 23 ay davam etdi. 1920-ci il aprel ayının 28-də Sovet qoşunları tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin istiqlaliyyətinə son qoyuldu. AXC-nin süqutundan sonra Azərbaycanda siyasi hakimiyyət bolşeviklərin əlinə keçdi. AXC-yə məxsus bütün dövlət qurumları ləğv edildi, Kommunist partiyası istisna olmaqla, bütün siyasi partiyalar buraxıldı. Bolşeviklər bu ərazidə öz hakimiyyətlərini qoruyub saxlamaq üçün müxtəlif üsullara əl atır, insanların şüurunda kommunist ideologiyasını formalaşdırmağa çalışırdılar. Sovetlər Birliyi dövründə Azərbaycanda əsas milli-ideoloji problemlərindən biri də dinlə, əsasən də İslam dini ilə bağlı olmuşdur. Bolşeviklər digər sahələrdə olduğu kimi, din məsələsində də ilk dövrlərdə loyallıq göstərmiş, lakin bu proses çox uzun çəkməmiş və rus bolşevizmi İslama qarşı qəti hücuma keçmişdi. "Mədəni inqilab" siyasəti çərçivəsində ölkədə dinə qarşı mübarizə aparılır, ateizm təbliğ olunurdu.

*Tətbiq edilən dini siyasətin mərhələləri.* Sovet hakimiyyəti dini siyasətini müəyyən mərhələlərlə həyata keçirmişdir. II Dünya müharibəsinə qədər Azərbaycanda həyata keçirilən dini siyasət iki mərhələyə bölünür:

I mərhələ (1920-1927-ci illər): İslamla mübarizəyə hazırlıq dövrü;

II mərhələ (1928-1941-ci illər): İslama qarşı hücum dövrü [10, s.143].

Nəriman Nərimanovun təşəbbüsü ilə 1920-ci il mayın 15-də Azərbaycan SSR Xalq Maarif Komissarlığında "Vicdan azadlığı haqqında" dekret qəbul olundu. Bu dekret Sovet hakimiyyətinin öz ideologiyasını həyata keçirmək yolunda atdığı ilk addımlarından biri idi. Dekretə əsasən Azərbaycanda dini məhkəmələr, həmçinin Dini Etiqad Nazirliyi ləğv edildi. Dini Etiqad Nazirliyi Azərbaycan Xalq Cümhuriyyətinin din siyasətini həyata keçirən icra hakimiyyəti orqanı idi. Bu orqan milli ənənələrə qayıtmaq, əhalinin dini ehtiyaclarını ödəmək məqsədilə yaradılmışdı. Sovet rəhbərliyi Dini Etiqad Nazirliyini ləğv etməklə həm AXC dövründən qalan dövlət qurumlarının aradan qaldırılması yolundan daha bir addım atmış, həm də öz dini siyasətini yeritmiş oldu.

Azərbaycan Sovet Sosialist Respublikasının 1921-ci il mayın 19-da qəbul olunmuş ilk konstitusiyasında din dövlətdən və təhsildən ayrılır, həmçinin vətəndaşlara dini etiqad azadlığı da verilirdi. Lakin buna baxmayaraq, din azadlığı formal xarakter daşıyırdı. Çünki Xalq Maarifi Komissarlığı nəzdindəki bütün məktəblərdə dinin tədrisi və dini ayinlərin icrası qadağan olunmuşdu, hətta tədris müəssisələri və məktəb şuralarının sədri vəzifəsini tutan dinlə əlaqəli şəxslər vəzifələrindən azad edilmişdilər [4, s.166].

Sovet hakimiyyəti dövründə heç bir dini təşkilat mülkiyyətə sahib ola bilməzdi. Onların bütün əmlakının xalqa məxsus olduğu bəyan edilmişdi. Həmçinin dini qurumlar hüquqi şəxs olmaq hüququndan da məhrum edilmişdilər, Dini təşkilatlar könüllü əsaslarla yaradılmalı, dindarların hesabına saxlanılmalı, dövlət tərəfindən edilən bütün maddi yardımlar dayandırılmalı idi. Bu isə dini təşkilatların maddi vəziyyətinə əhəmiyyətli dərəcədə təsir göstərirdi. Dindarların könüllü yardımı və ayinlərin icrası üçün verilən vəsait dini təşkilatların və ruhanilərin maddi tələbatını tamamilə ödəyə bilmirdi. Artıq rəsmi sənədlərdə vətəndaşların dini mənsubiyyətinin göstərilməsi də ləğv edilmişdi.

*Sovetin anti-din təbliğatı.* Din xadimlərinin vətəndaşların ailə-məişət münasibətlərinə qarışmasının qarşısını almaq məqsədilə Azərbaycan Xalq Komissarları Soveti (XKS) və Respublika Ədliyyə Komissarlığı 1920-ci ilin may-avqust aylarında vətəndaş nikahı haqqında, Vətəndaşlıq Vəziyyəti Aktlarının Qeydiyyatı (VVAQ), Notariat orqanları haqqında, uşaqlar və vətəndaşlıq vəziyyətinin qeydə alınması qaydası haqqında bir sıra dekret və qərarlar qəbul etdi [1, s.73].

1923-cü ilin sentyabrın 29-da AK(b)P yuxarı orqanların göstərişlərini rəhbər tutaraq, azərbaycanlılar arasında din əleyhinə geniş təbliğata başlamaq üçün tədbirlər planı hazırladı. Bu plana əsasən şiələr və sünnilər arasında ziddiyyətlər gücləndirilməli və loyal müsəlman dini liderlər kommunistlərin tərəfinə çəkilməli idi. Bununla əlaqədar, hətta "qırmızı mollalar ordusu" yaradıldı. Bu plan MK tərəfindən bəyənildi və həyata keçirilməsi tövsiyə olundu. Elə həmin ilin oktyabr ayının əvvəllərində AK(b)P MK katibliyinin müşavirəsində Respublika Xalq Komissarlığına din əleyhinə təbliğatı gücləndirmək tövsiyə olundu [6, s.28].

Din əleyhinə təbliğatı daha da genişləndirmək məqsədilə 1924-ci ilin yanvar ayının 8-də AK(b)P Siyasi Bürosunun iclasında "Din Əleyhinə Komissiya" yaradıldı. Komissiyanın tərkibinə R.Axundov, Çaqin və İ.Kasparov da daxil edildi. Həmin ilin may ayının 19-da komissiyanın iclası keçirildi, "məscidlərdə birinci dərəcəli sovet məktəblərini bitirmiş uşaqlara şəriət dərsinin tədrisi" məsələsi müzakirə olundu və çıxış edənlər şəriət dərslərinin keçirilməsinin əleyhinə danışdılar. İclasın qərarında Azərbaycan SSR-də buraxılmış səhvlərin, yol verilmiş çatışmazlıqların Rusiyada və digər yerlərdə yayılmaması üçün tədbirlər görülməsi tövsiyə olundu.

Bundan əlavə 1924-cü ildə Bakıda "Allahsızlar Cəmiyyəti" təşkil edildi. Bu cəmiyyətin üzvləri əsasən, fəhlələrdən ibarət idi [2, s.7]. Sonralar isə kənd fəallarını da ətrafına toplayan "Allahsızlar Cəmiyyəti" din əleyhinə aparılan təbliğat sahəsində "böyük iş" görürdü. Bir müddət sonra bu cəmiyyətin kənd yerlərində şöbələri fəaliyyətə başladı, mütəmadi olaraq mühazirələr, kurslar və kitabxanalar təşkil edildi.

Sovet rəhbərliyi dinə qarşı mübarizədə elə ilk zamanlardan yoxsul təbəqələrdən – fəhlə və yoxsul kəndlilərdən istifadə etməyə çalışırdı. Çünki bu təbəqə mövcud vəziyyətindən narazı idi. Sovet hakimiyyəti isə bu amildən istifadə edərək yoxsul təbəqəni şirnikləndirmək və onlardan öz məqsədləri üçün istifadə etməyə çalışırdı.

Dinə qarşı mübarizə formalarından biri də gənc nəsil arasında anti-din təbliğatı aparmaqdan ibarət idi.

SSR MİK və XKS 1924-cü ilin iyununda məhərrəmlik mərasimlərinin keçirilməsini qadağan etdi. 1926-cı ildən etibarən isə məhərrəmliyə qarşı kampaniyalar daha da gücləndirildi. Məhərrəmlik mərasimlərində iştirak edən komsomolçular cəzalandırılır, kommunistlər isə partiya üzvlüyündən xaric edilirdilər. Aşura günü ərəfəsində mətbuatda kəskin yazılar dərc olunurdu. Lakin buna baxmayaraq, sovet rəhbərliyi məhərrəmliyin ləğvinə nail ola bilmədi.

Sovet hakimiyyəti illərində bir çox ibadət ocaqları, başqa dinlərə məxsus abidələr, o cümlədən Bakıdakı Aleksandr kilsəsi partlayıcı maddə vasitəsilə dağıdıldı, din xadimlərinə, dini adət-ənənələrə qarşı zorakı tədbirlər görülməyə başlandı, xalqın əsrlərlə etiqad etdiyi pirlərin ziyarət edilməsi qadağan edildi [8, s.296]. "Allahsızlar cəmiyyəti"nin işini sürətləndirmək üçün, AK(b)P

1929-cu ilin aprelində keçirilən plenumunda dinə qarşı mübarizə, çadranın və papağın atılması ilə bağlı məsələni də müzakirəyə çıxarmışdı. Bir qədər sonra "Allahsızlar cəmiyyəti" dinə qarşı mübarizəni gücləndirmək adı altında "Mübariz Allahsızlar İttiifaqı"na çevrildi.

1927-ci ildə Bakı şəhərində və Bakı qəzasında 120-dən artıq məscid fəaliyyət göstərirdi. Lakin bu məscidlərin fəaliyyəti əvvəlki intensivliyini itirmişdi. Onlardan bəzisi dini bayram və matəm günləri, bəzisi isə yalnız cümə günləri işləyirdi. Məscidlərin təxminən yarısı dindarlara gündəlik xidmət göstərirdi. Məscidlərdə dini həyat tənəzzül edirdi. Odur ki, din xadimləri məscidlərdə aparılan təbliğatı gücləndirərək, onun formalarını dəyişmək yolu ilə dini canlandırmağa çalışırdı.

İslama qarşı mübarizənin II mərhələsində din əleyhinə təzyiqlər daha da gücləndirilmişdi. Minlərlə məscid bağlanmış, dağıdılmış və ya anbarlara çevrilmişdi. Azərbaycan Sovet hakimiyyətinin tərkibinə qatılmazdan əvvəl burada təqribən üç minə yaxın məscid fəaliyyət göstərdiyi halda, XX əsrin 30-cu illərinin sonlarından cəmi 17 məscid fəaliyyət göstərirdi. Fəaliyyət göstərən məscidlər də formal xarakter daşıyırdı. Bir tərəfdən "Allahsızlar Cəmiyyəti"nin fəaliyyəti, digər tərəfdən isə Gizli Polis Təşkilatlarının zülm və işgəncə qorxusu səbəbindən heç kim məscidə getməyə cürət etmirdi [9, s.40]. Hətta 1936-cı ildə yol salınması bəhanəsi ilə Bibiheybət məscidi də dağıdılmışdı [3, s.224]. Bununla da bir daha aydın olur ki, sovet rəhbərliyi Azərbaycanda ilk günlərdən son günə kimi bütün gücündən istifadə edərək, xalqın müqəddəs inanc yerlərini məhv etməyə çalışmışdır. Bu vəhşiliyi törətməkdə, sözsüz ki, məqsəd var idi. Onlar nəyin bahasına olur-olsun müsəlmanları öz dinindən uzaqlaşdırmağı, bununla da onları öz quluna çevirməyi hədəfləyirdilər.

1928-ci ildə məktəblərdə, məscidlərin nəzdində, hətta evlərdə belə dini təlim qadağan edildi [7, s.318]. Mərkəzin göstərişlərinə əməl etməyən din xadimləri Sibirə, Qazaxıstana sürgün edilir və güllələnirdilər. Rza Əfəndi Qadirov, Hafiz Ramazan Əfəndi kimi yüzlərlə din xadimi də bu terrordan yaxa qurtara bilməmiş və bu dəhşətin qurbanı olmuşlar [5, s.156].

*Nəticə.* Sonda belə nəticəyə gəlmək olar ki, sovet hakimiyyəti İslam dini üzərində müəyyən nəzarətə sahib olsa da, onu cəmiyyətin həyatından tam formada çıxara bilməmişdir. Bəhs olunan illərdə din xadimlərinin xeyli hissəsi repressiyaya məruz qalmış, bir hissəsi isə hakimiyyətin ciddi nəzarəti altına alınmışdı. Bu amil özünü daha çox Bakıda biruzə verirdi. Bölgələrdə isə İslam dini öz təsirini qismən qoruya bilmişdi.

Onu da qeyd edək ki, sovet dövründə xalqın milli dəyərlərindən, mədəni irsindən, dini adət-ənənələrindən, tarixi keçmişindən uzaqlaşdırılması yolunda bir çox məqsədli addımlar atıldı. Ərəb əlifbası latın qrafikası, latın qrafikası kiril hərfləri ilə əvəz edildi. Məscidlər dağıdıldı, bir çoxu bağlanaraq, anbarlara çevrildi, din və din adamları təqibə məruz qaldılar. Qiymətli əlyazma əsərləri, qədim kitablar dini ədəbiyyat adı ilə yandırıldı.

Lakin bütün görülən əks tədbirlərə baxmayaraq, Azərbaycan xalqı öz adət-ənənələrindən, dini etiqadından uzaqlaşmadı, əksinə bu dövr ərzində böyük bir mədəni inkişaf yolu keçdi. Sovet dövründə Azərbaycan müsəlman Şərqində ilk dəfə olaraq ötən əsrin 30-cu illərinin axırlarında savadsızlığın aradan qaldırılmasına nail oldu.

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsindən sonra yetmiş il ərzində tətbiq edilən qadağalara son qoyuldu, ölkə vətəndaşlarının dini etiqad və vicdan azadlığı təmin edildi, dini qurumların fəaliyyətinə və dini ayinlərin icrasına şərait yaradıldı.

## ƏDƏBİYYAT


1. A.Əhədov. Azərbaycanda din və dini təsisatlar. Bakı, Azərnəşr, 1991, 73 s.
2. A.Göyüşov. Azərbaycanda sovet hakimiyyətinin İslama münasibətdə apardığı dövlət siyasəti // Qütb jurnalı, iyul 2004, 7 s.
3. A.Paşazadə. Qafqazda İslam. Bakı, Azərnəşr, 1991, 224 s.
4. H.Orucov. Azərbaycanda din: ən qədim dövrdən bu günədək. Bakı, CBS Polygraphicproduction, 2012, 166 s.
5. M.Şabanoğlu. Talanın Yastı Yolları. Bakı, Azərbaycan Milli Ensiklopediyası Nəşriyyatı, 2001, 156 s.

6. M.Quluzadə. Azərbaycanda dövlət-din münasibətləri (İslam dininin timsalında 1920-2000-ci illər). Bakı, Açıq dünya, 2002, 28 s.
7. Z.Bünyadov. İslam tarixi, fəlsəfə və ibadətlər. Bakı, "İrşad" İslam Araşdırma Mərkəzi Nəşriyyatı, 1998, 318 s.
8. XX əsr Azərbaycan tarixi. II cild. Bakı, Təhsil Nəşriyyat-Poliqrafiya, 2009, 296 s.
9. Cengiz Gökgöl. Komünist Rusya ve Müslümanlar. Ankara, Mücahit Nəşriyyatı, 1958, 40 s.
10. Seyfettin Erşahin. Türkistanda İslam ve Müslümanlar (Sovyet Dönemi). Ankara, nəşriyyat, 1999, 143 s.

**AZAT MAHARRAMOVA**
***PhD student of Baku State University***

## RELİGİOUS POLİCY İMPLEMENTED BY THE SOVİET GOVERNMENT İN AZERBAİJAN IN THE 20S OF THE XX CENTURY

After the Democratic Republic of Azerbaijan fell on April 28, 1920, political power in Azerbaijan shifted to the Bolsheviks. All government offices of the Democratic Republic of Azerbaijan were abolished, and all political parties except the Communist Party were dismissed. Russian Bolshevism, as elsewhere, initiated an ideological struggle against religion and had a strong attack on İslam. The struggle against religion was carried out within the framework of the "Cultural Revolution" policy, where atheism was promoted. The adoption of the Decree on Freedom of the Conscience in 1920 and establishing of the Society of Unbelievers in Baku in 1924 were steps taken by the Soviet authorities to implement their ideology. As a result of this policy religious education was prohibited in all schools; many priests were exiled and repressed, and many mosques were closed or destroyed. However, despite all the measures taken, the Azerbaijani people did not give up from their religious traditions and beliefs. After the Republic of Azerbaijan gained it's independence again, long-term bans were cancelled, religious freedom and conviction of citizens were ensured, religious organizations were able to activate and people were able to carry out rituals.

*Keywords*: religion, state, law, documents.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 12 dekabr 2019-cu il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 06 yanvar 2021-ci il.*
*Rəyçilər: t.e.d. Sevda Süleymanova, t.e.d. Anar İsgəndərov.*

**UOT 94(479.24)**

**GÜLNAR BƏŞİROVA**
*Azərbaycan Hərb Tarixi Muzeyinin tədqiqatçısı,*
*baş elmi işçi*
**E-mail: gulnar.bsirova@mail.ru**

# XX-XXI ƏSRLƏRİN QOVUSUGUNDA AZƏRBAYCAN RESPUBLİKASINDA QAÇQINLIQLA BAGLI PROBLEMLƏRİN HƏLLİNDƏ SUMQAYIT SƏHƏRİNİN YERİ VƏ ROLUNA DAİR

*Mövcud məqalədə müxtəlif mötəbər qaynaqların materialları habelə, hal-hazırki, tarixşünaslıq ədəbiyyatının əsasında Azərbaycan respublikasına qarşı erməni təcavüzkarlığının başlanmasından sonra Sumqayıt şəhərində sığınacaq tapmış minlərlə qaçqın və köçkünlərin problemlərinin həllində bu şəhərin rolu və yeri ilə bağlı məsələlər nəzərdən keçirilmişdir.*

*Müəllif qeyd edir ki. artıq 1994-cü il ərəfəsində bu şəhərdə 15774 qaçqın ailəsi, 62838 nəfər adam yerləşdirilmişdi. Mərkəzi Respublika və yerli şəhər hakimiyyət orqanlarının gücü ilə Sumqayıtda 12 çoxmərtəbəli yaşayış binasından ibarət bütöv bir kompleks, 21 saylı şəhər məktəbinin ərazisində yeni tədris korpusu, ayrıca uşaq bağçası və s. tikilmişdir.Bu şəhərdə qaçqınların müxtəlif problemlərinin həlli üzrə işlər davam etdsirilir.*

*Açar sözlər:* miqrasiya, Sumqayıt, Azərbaycan, Ermənistan, qaçqın.

*Giriş.* Məlumdur ki, XX əsrin 80-ci illərinin sonu - 90-cı illərinin əvvəllərində Ermənistanın təcavüzkar işğalları nəticəsində 1 milyonadək qaçqın və köçkün Azərbaycan Respublikasının kənd və şəhərlərinə sığınmaq məcburiyyətində qalmışdır. Qaçqınların pənah gətirdikləri şəhərlərimizdən biri də Sumqayıtdır. Bu məqaləni yazmaqda başlıca məqsəd 1988-ci və sonrakı illərdə öz yurd-yuvalarından didərgin salındıqdan sonra Sumqayıtda məskunlaşmış qaçqınların talelərini araşdırmaq, bu problemin həllində Sumqayıtın rolunu dəyərləndirməkdir. Eyni zamanda bu şəhərə pənah gətirmiş qaçqınların yaşayış tərzini və müxtəlif illərdə onların say dinamikasının təkamülünü tədqiq edərək müvafiq nəticələrə gəlməyə də cəhd göstərməyi nəzərdə tuturuq.

Azərbaycan ötən əsrin sonlarında növbəti dəfə qaçqın problemi ilə üzləşdiyi dövrdən başlayaraq bununla bağlı bir çox məsələlər müxtəlif ictimai-siyasi xadimlərlə yanaşı, çoxsaylı elm xadimləri, o cümlədən tarixçilərin və başqalarının diqqət mərkəzində olmuşdur. Sumqayıtın tanınmış ziyalılarından professor Həsən Sadıqov və Ramazan Məmmədovun «Sumqayıt həqiqətləri. Sumqayıt: tarixdən səhifələr (1930-2000)» adlı kitabında, tarix elmləri doktoru, mərhum Həmid Alıyevin «Sumqayıt şəhərinin tarixi», «Sumqayıt şəhərinin sosial-iqtisadi inkişafı» və «Sumqayıt şəhərinin sosial-iqtisadi və ictimai-siyasi tarixi» adlı kitablarında və bir çox digər müxtəlif əsərlərdə bizi maraqlandıran məsələnin müxtəlif cəhətləri işıqlandırılmışdır. Lakin bununla yanaşı bu məsələnin daha dərindən və ətraflı araşdırılmasına hələ də ehtiyac duyulmaqdadır.

XX əsrdə Azərbaycan tarixinin ən faciəli səhifələri məhz qaçqınlıq və məcburi köçkünlüklə bağlı olmuşdur. Azərbaycanın geostrateji mövqeyi, zəngin təbii sərvətləri tarix boyu müxtəlif işğalçıları ahənrüba kimi özünə cəlb etmiş, dağıdıcı yürüşlər zaman-zaman xalqımızın xeyli hissəsini doğma yurd-yuvadan didərgin salmışdır. XIX əsrin əvvəllərində yurdumuzun torpaqlarında sığınacaq verdiyimiz nankor ermənilərin daha çox torpaq əldə etmək cəhdləri isə 1905, 1918-1920, 1948-1953 və 1988-1993-cü illərdə azərbaycanlıların öz yurdlarından didərgin salınması ilə nəticələnmişdir.

Ümumi siyasi və sosial-iqtisadi inkişaf Azərbaycanda miqrasiya proseslərinə də öz təsirini göstərmişdir. Azərbaycanlıların Ermənistan, Dağlıq Qarabağ və işğal olunmuş digər ərazilərdən qovulması, ölkədə böyük sayda qaçqın və məcburi köçkün kütləsinin yaranmasına gətirib çıxarmışdı [3].

Məcburi köçkün statusuna malik olan şəxslər əksər hallarda özlərini öz statuslarına müvafiq olaraq məcburi köçkün yox, elə qaçqın hesab edirlər.

Ölüm təhlükəsi ilə üzləşərək canlarını qaçmaqla qurtaran adamların özlərini qaçqın adlandırmaları təbii, başa düşülən bir haldır. Məcburi köçkün statusuna malik olan adamlar da faktiki olaraq ölüm təhlükəsi ilə üzləşmiş və canlarını qaçmaqla xilas etmişdilər. Doğrudur, onlar öz ata-

baba yurdlarını tərk etdikdən sonra digər rayon və şəhərlərdə müvəqqəti məskunlaşmış və əslində, yalnız elə bu səbəbdən də hüquqi cəhətdən məhz qaçqın yox, məcburi köçkün hesab olunurlar. H.Sadıqovun dediyi kimi, "öz yurd-yuvasından "qaçaraq" ölümdən yaxasını qurtarmış adamlara əslində, qaçqın adı məcburi köçkün adından daha çox uyğun gəlmirmi?!" [8].

1988-ci ildən başlayaraq Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizi - Dağlıq Qarabağın, eləcə də ona bitişik olan 7 rayonun (Ağdam, Cəbrayıl, Füzuli, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan) ərazisi işğal olunmuş, Dağlıq Qarabağdan, ətraf rayonlardan, həmçinin Ermənistanla və ya Dağlıq Qarabağla həmsərhəd olan yaşayış məntəqələrindən 700 min nəfərədək azərbaycanlı öz daimi yaşayış yerindən məhrum olaraq məcburi köçkün düşmüş və respublikanın 62 şəhər və rayonunda, 1600-dən çox sıx məskunlaşma obyektində müvəqqəti sığınacaq tapmışdılar. İlkin vaxtlarda məcburi köçkünlərin böyük əksəriyyəti 12 çadır düşərgəsində, 16 fin tipli yığma evlərdən ibarət qəsəbədə, ferma, yeraltı qazma və yol kənarlarında, dəmiryol üzərindəki yük vaqonlarında, ictimai binalarda, yataqxanalarda, təhsil müəssisələrinə məxsus binalarda və uşaq bağçalarında, sanatoriya, pansionat, istirahət evlərində, turist bazalarında, tikintisi yarımçıq qalmış binalarda, qohum evlərində və digər kommunal şəraiti olmayan, sanitar normalara cavab verməyən yerlərdə çox ağır şəraitdə məskunlaşmışdır [12].

Məlumdur ki, "1988-ci ildə ermənilər özləri törətdikləri bütün cinayətlərdən, təxribatlardan və Azərbaycana qarşı təcavüzkar hərəkətlərindən istifadə edərək Ermənistanda yaşayan azərbaycanlıların zorla çıxarılmasına, onların qaçqın vəziyyətinə düşməsinə nail oldular" [8].

1988-ci ildə Ermənistandan gələn qaçqınlarımızın sayı 250 min nəfər idisə, indi həmin qaçqınların sayı 400 min nəfəri keçib [7]. Bu gün isə Azərbaycan qaçqınlarının və məcburi köçkünlərinin sayı 1,5 milyon nəfərdən çoxdur.

Məlumdur ki, hələ 1988-ci ilin fevral ayında 2 min azərbaycanlı Ermənistanı tərk etmişdi. Onlar Azərbaycana, əsasən Bakıya, Sumqayıta və Gəncəyə (o vaxt Kirovabad adlanırdı) köçmüşdü. 1988-ci il fevralın axırına qədər Ermənistan SSR-dən Azərbaycan SSR-ə 4 mindən çox adam pənah gətirmişdir [6]. 1988-ci il noyabrın ortalarında isə Ermənistandan Azərbaycana 80 mindən artıq qaçqın pənah gətirmişdi [15].

Məlumdur ki, 1988-ci il yanvar ayının 25-dən fevralın 23-dək Ermənistandan qovulub Azərbaycana gələn qaçqınların sayı artıq 4 min nəfərə çatmışdır. Ermənilərin Sumqayıtda özləri bilavasitə törətdikləri iğtişaşlardan sonra Ermənistandan azərbaycanlıların zorla, silah gücünə qovulması daha geniş miqyas almışdır. 1988-ci il noyabr ayının 28-dən dekabrın 7-dək erməni separatçıları və millətçiləri basqın edib azərbaycanlılar yaşayan 22 rayonun 185 yaşayış məntəqəsinin sakinlərini kütləvi surətdə ata-baba yurdlarından çıxartmışdılar [8, s.184].

Azərbaycanlılar Ermənistanda yaşadıqları 172 kənddən, bir çox rayon mərkəzləri və şəhərlərdən qovulmuş, onlar əmlaksız və evsiz-eşiksiz qalmışdılar. Ermənistan SSR-in 20 rayonundan təkcə Sumqayıta 18 min 330 nəfər qaçqın və ya 3030 ailə gəlmişdi. Ermənistandan qovulub Sumqayıta gələn ailələrin arasında 4 rus ailəsi də var idi. Evsiz-eşiksiz qoyulmuş və yaşamaq hüququndan məhrum edilmiş azərbaycanlılardan fərqli olaraq ermənilər Azərbaycanda sakitcə yaşayıb və işləmişdilər [16].

1989-cu il mart ayının ortalarında isə SSRİ Nazirlər Soveti "Azərbaycan və Ermənistan respublikalarını məcburən tərk etmiş vətəndaşlara kömək tədbirləri haqqında" məsələyə baxmışdır. Bu barədə "Nedelya" qəzetinə verdiyi geniş müsahibəsində SSRİ Əmək və Sosial məsələlər üzrə Dövlət Komitəsi Əhalinin Miqrasiyası və Köçürülməsi İdarəsinin rəis müavini V.A.Volox qeyd etmişdir ki, Ermənistan SSR-dən qovulmuş azərbaycanlıların pənah gətirdikləri yeganə sığınacaq yeri Azərbaycan Respublikası olmuşdur [8, s.185].

1990-cı illərin ortalarında isə Azərbaycan Respublikasındakı məcburi köçkünlərin ümumi sayı 750.000 nəfər olmuşdur [3].

Sumqayıtlılar təkcə Ermənistandan qovulmuş azərbaycanlıları yox, həm də Dağlıq Qarabağdan və onun ətrafındakı yeddi rayondan qovulmuş məcburi köçkünlərin də böyük bir dəstəsini qəbul etmiş, onlara sığınacaq vermişdi. Azərbaycan Qaçqınlar Komitəsi Sumqayıt şöbəsinin verdiyi məlumata görə, 1994-cü il yanvar ayının əvvəlində Sumqayıtda artıq 62838 nəfər məcburi köçkün məskunlaşmışdır [8, s.189].

1994-cü ildə erməni işğalçıları tərəfindən zəbt edilmiş Dağlıq Qarabağ və Azərbaycan Respublikasının digər rayonlarından Sumqayıtda müvəqqəti sığınacaq tapmış respublikanın 14 rayonunun 15714 ailəsi, o cümlədən 62838 nəfər adam da əlavə edilərsə, şəhərdə 1994-cü il yanvarın 1-nə Azərbaycan Respublikasının Qaçqınlar Cəmiyyətinin (Qaçqınlar Komitəsinin – G.B.) məlumatına görə, 337 min nəfərə yaxın əhali yaşamışdı. İlk qaçqınlar Bakıya, Sumqayıta gəlmiş, başlarına gətirilən fəlakətdən zorakılıqdan şikayətlənmişdilər. Başqa sözlə, Sumqayıtın hər 5 nəfər sakinindən biri qaçqın idi [1, s.191].

Dağlıq Qarabağ və Azərbaycan Respublikasının digər rayonlarından Sumqayıta pənah gətirmiş məcburi köçkünlər əsasən şəhər müəssisələrinin yataqxanalarında, məktəbli düşərgələrində, uşaq bağçalarında, mehmanxana və qonaq evlərində, inzibati binalarda. sanatoriyalarda, tikintisi başa çatmamış yaşayış evlərində, qohumlarının mənzillərində, Novxanı və Saray bağlarında müvəqqəti məskunlaşmışdılar [8, s.191].

Beləliklə, 1988-ci ildən başlayaraq Ermənistan Respublikasının ərazisindən – öz ata-baba torpaqlarından qovulan 200 mindən artıq azərbaycanlı, 50 mindən çox Axısqa türkü, Qarabağın ərazisindən - doğma yurdlarından qovulmuş azərbaycanlılar və nəhayət, Dağlıq Qarabağın ətrafındakı yeddi rayondan: Laçın, Ağdam, Cəbrayıl, Qubadlı, Zəngilan, Kəlbəcər, Füzuli rayonlarından zorakılıqla çıxarılmış azərbaycanlı qaçqın və məcburi köçkünlərin birlikdə sayı 1 milyona çatmışdır. Həmin bu qaçqın və məcbur köçkünlərin böyük bir hissəsi Sumqayıt şəhərində özünə sığınacaq tapmışdır [6].

Məlumdur ki, bu gün öz intibahının yeni mərhələsini yaşayan Sumqayıtın nəinki keçmiş SSRİ-də, bütün dünyada tanınması Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Həmin dövrdə Ulu öndər Heydər Əliyevin böyük qayğısı sayəsində şəhər tarixinin əlamətdar səhifələri yazılıb. Sumqayıtlılar Ulu Öndərin xüsusi diqqət və qayğısını hər zaman hiss ediblər. Şəhərin sosial-iqtisadi inkişafında, sənayenin formalaşmasında, elmin, təhsilin, mədəniyyətin tərəqqisində bu dahi insanın əvəzsiz xidmətləri danılmaz bir faktdır. Ölkəmizə rəhbərliyi müddətində 16 dəfə Sumqayıtda olan Ulu öndər Heydər Əliyevin hər səfəri şəhərin tarixinə mühüm hadisə kimi yazılıb. Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycana rəhbərliyi dövründə də, əvvəlki kimi, Sumqayıta daim diqqət və qayğısını əsirgəmirdi. Bu qayğının nəticəsində Sumqayıt yenidən özünün dirçəliş dövrünə qədəm qoydu. 1993-cü il dekabrın 18-də Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanın Prezidenti kimi ilk dəfə Sumqayıta gəlmiş, şəhərimizdə quraşdırılmış yeni telefon stansiyasının açılışında iştirak etmiş, Tarix Muzeyində olmuş, "Şəhidlər xiyabanı" kompleksini ziyarət etmiş, icra hakimiyyətinin işçiləri ilə görüşərək tapşırıq və tövsiyələrini vermişdi. Ulu Öndərin uzaqgörən siyasəti, verdiyi tövsiyə və tapşırıqlar şəhərin sosial-iqtisadi inkişafına böyük təkan vermişdi. Müstəqillik illərində Heydər Əliyev 6 dəfə Sumqayıtda olmuş, müxtəlif tədbirlərdə iştirak etmiş, şəhər ictimaiyyəti ilə görüşmüşdü. Bütün bunlar Ulu öndərin Sumqayıta və sumqayıtlılara xüsusi diqqətinin təzahürü idi.

Məhz Ümummilli liderin müdrik və uzaqgörən iqtisadi inkişaf modelinin nəticəsi olaraq ötən əsrin 90-cı illərində Sumqayıtın yeni ictimai-iqtisadi münasibətlər sisteminə adaptasiyası sürətlənmişdi. Şəhərin sənaye potensialının bərpası, mövcud müəssisələrin modernləşdirilməsi, elmi innovasiyaların tətbiqinin sürətləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər tez bir zamanda müsbət nəticələrini göstərməyə başladı. Həmin vaxt Ulu öndərin şəxsi dəstəyi ilə xarici investisiya cəlb edilməklə Sumqayıtda iri layihə həyata vəsiqə qazandı: kimya sənayesinin gələcək inkişafında əvəzsiz rol oynayacaq buxar-generator qurğusu inşa edildi.

Ulu öndərin təşəbbüsü ilə 2001-ci ildə Azərbaycan Sənaye İnstitutunun bazasında Sumqayıt Dövlət Universitetinin, Politexnik Texnikumunun bazasında isə Azərbaycan Müəllimlər İnstitutunun Sumqayıt filialının yaradılması şəhər təhsilinin həyatında əlamətdar hadisələr olmuşdur [11].

Ümummilli liderin şəhərlə bağlı qarşıya qoyduğu vəzifə belə idi ki, Sumqayıt yenidən ənənəvi sənaye kompleksi kimi bərpa edilsin, yerli kadr potensialına söykənərək müasir müəssisələr açılsın, ən vacibi isə, Sumqayıtda insanların rahat yaşamaları üçün müvafiq şərait yaradılsın və yeni iş yerləri açılsın, bununla da Sumqayıt yenidən seçilən bir şəhərə çevrilsin.

Bütün mənalı həyatını ölkəmizin tərəqqisinə, insanların rifahının yaxşılaşdırılmasına həsr edən Ümummilli liderimizin ən böyük arzusu zəbt olunmuş torpaqlarımızın işğaldan azad edilməsi idi. Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarına təcavüzü nəticəsində doğma ocaqlarından

didərgin salınmış soydaşlarımızın bütün qayğıları, problemləri Azərbaycan dövlətinin, Ümummilli lider Heydər Əliyevin gündəlik qayğısına çevrilmişdi [11].

O da tarixi həqiqətdir ki, işğal nəticəsində qaçqın və məcburi köçkünə çevrilən insanların üzləşdikləri sosial və digər problemlərin həlli istiqamətində atılan ilk addımlar bilavasitə Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Məhz Ulu öndərin xalqın istək və tələbi ilə yenidən hakimiyyətə qayıtmasından sonra doğma yurdlarından didərgin salınmış 1 milyon nəfərədək soydaşımız dövlət qayğısı ilə əhatə olundu, onların üzləşdiyi sosial problemlər tədricən öz həllini tapmağa başladı. Ulu öndər müxtəlif ölkələrin dövlət başçıları, rəsmi şəxsləri ilə keçirilən çoxsaylı görüşlərində, beynəlxalq və yerli qurumlarda etdiyi çıxışlarında mütləq qaçqın və məcburi köçkünlər məsələsinə toxunur, bunu ölkədə bir nömrəli problem adlandırırdı.

Ulu öndər Heydər Əliyev hər zaman Azərbaycanın üzləşdiyi bu humanitar fəlakət probleminin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində də uğurlu nailiyyətlərə imza atmışdı. Görülən işlər sayəsində 1993-2004-cü illərdə ayrı-ayrı dövlətlər, maliyyə qurumları, beynəlxalq humanitar və inkişaf təşkilatları tərəfindən qaçqın, məcburi köçkün və aztəminatlı əhaliyə müxtəlif layihələr üzrə humanitar yardım göstərilmişdi [11].

Ümummilli lider istər Azərbaycana rəhbərliyinin ilk dövründə (1969-1982), istər fəaliyyətinin Moskva dövründə, istərsə də Azərbaycan Respublikasının Prezidenti olduğu dövrdə (1995-2003) Sumqayıta xüsusi qayğı göstərmiş, onun problemləri ilə yaxından maraqlanmış, onların həlli üçün hər şeyi etmişdir. Bircə onu qeyd etmək kifayətdir ki, Heydər Əliyev 1969-2003-cü illər ərzində Sumqayıtda 16 dəfə olmuşdur [2, s.8].

1996-cı il iyunun 2-də Azərbaycan Respublikasının sabiq prezidenti Heydər Əliyevin Sumqayıta növbəti səfəri olmuşdu. O, sumqayıtlılar qarşısında çıxış edərkən bildirmişdir ki, "Sumqayıtda on minlərlə qaçqın yaşayır, onların maddi-iqtisadi vəziyyətləri istənilən səviyyədə deyil, yerindən-yurdundan didərgin düşmüş, torpaqlarını, evini-eşiyini qoyub gəlmiş, var-yoxunu itirmiş qaçqınlar burada ağır vəziyyətdə yaşayırlar. Mən bunları bilirəm. Mənim ürəyim daim sizinlədir, xüsusilə burada yaşayan qaçqınlarla, köçkünlərlədir" [1, s.164].

Ümummilli lider Heydər Əliyev 2003-cü il aprelin 3-dəSumqayıta sonuncu dəfə səfər etmişdir. Həmin gün bütün Respublika ictimaiyyətinin diqqəti Sumqayıta yönəlmişdi. Dövlət başçısı Sumqayıtda ictimai-mənəvi iqlimin dəyişdirilməsinə yönəldilmiş müşavirədə şəhərin problemlərini hərtərəfli əhatə edən proqram xarakterli nitq söyləmişdir [9].

Hal-hazırda təxminən Sumqayıtda 300 minə qədər insan yaşayır. Sumqayıtın bir xüsusiyyəti də odur ki, buraya Azərbaycanın bir çox rayonlarından insanlar gəlib toplaşıblar [2, s.170].

Sumqayıtın sabiq İcra hakimiyyətinin başçısı V.Əliyev bildirmişdir ki, 2004-cü ildə 295 min əhalisi olan şəhərdə 62 mindən çox məcburi köçkün məskunlaşmışdır [6].

Sumqayıt şəhər rəhbərliyi ölkə Prezidentinin göstərişlərinə əsasən və dövlət başçımızın yaxından dəstəyi ilə şəhərdə məskunlaşmış on minlərlə qaçqın və köçkünün sosial-iqtisadi və ictimai-mədəni ehtiyaclarının ödənilməsi bu insanların şəhərimizin həyatında tam və dolğun inkişafını təmin etmək yolunda mümkün olan bütün tədbirləri həyata keçirmək üçün yorulmadan çalışır [14].

Sumqayıt bu gün Ümummilli liderin layiqli davamçısı İlham Əliyevin xüsusi qayğısı ilə əhatə olunub. Prezident İlham Əliyev 18 dəfə Sumqayıta səfər edib. Ölkə rəhbərinin Sumqayıta hər səfəri zamanı verdiyi tövsiyə və tapşırıqların, sərəncamların icrası və həyata keçirilən genişmiqyaslı tədbirlər sənayedə olduğu kimi, həm də tikinti, abadlıq və quruculuq sahəsində əsaslı dönüş yaradıb. Ölkə rəhbərinin tövsiyələri, tapşırıqları və dəstəyi sayəsində Sumqayıtda abadlıq, quruculuq, yaşıllaşdırma işləri, yeni sosial obyektlərin tikintisi və təmiri, şəhərin memarlıq və dizayn baxımından müasir görkəmini saxlamaq şərti ilə irimiqyaslı layihələr icra olunub. Prezident İlham Əliyevin tapşırığı və qayğısı sayəsində şəhərdə 2015-ci ilin sonu, 2016-cı ilin əvvəllərindən başlayaraq abadlıq, quruculuq, yaşıllaşdırma sahəsində irimiqyaslı ünvanlı layihələrin icrasına başlanılıb və qısa müddətdə uğurla başa çatdırılıb. Bunlardan biri - şəhərin əsas giriş yolu olan Sülh küçəsi 4,2 kilometr məsafədə hər iki tərəfə genişləndirilərək 90 min kvadratmetrə çatdırılmasıdır. Sumqayıtın ikinci giriş yolu olan Sahil küçəsi də 7,5 kilometr uzunluğunda yenidən qurulub, yolun eni 13 metrə çatdırılıb. Burada Corat qəsəbəsindən keçən hissədə sakinlərin istirahəti üçün park salınıb.

**Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcovun qeyd etdiyi kimi** Cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu iqtisadi siyasət nəticəsində Ulu öndərin vaxtilə qarşıya qoyduğu hədəflərə yaxınlaşaraq möhtəşəm nailiyyətlər əldə edilib [4].

Çağdaş dünyanın ən görkəmli siyasətçilərindən olan Ulu öndər H.Ə.Əliyevin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də Sumqayıt şəhərinə və onun əhalisinə böyük diqqət və qayğı göstərir. Prezident İ.H.Əliyev də dəfələrlə bu şəhərdə olmuş, şəhər əhalisi ilə və burada məskunlaşan qaçqınlarla görüşmüş, onların problemləri ilə yaxından maraqlanmışdır [2, s.8].

2018-ci il dekabrın 27-də Sumqayıt şəhərində qaçqın və məcburi köçkün ailələri üçün inşa edilmiş yaşayış binaları kompleksinin açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bu açılışda iştirak etmişdilər [14].

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev və "Archico" MMC-nin rəhbəri, layihənin icraçısı Məhəmməd Musayev görülmüş işlərlə bağlı dövlətimizin başçısına və birinci xanıma məlumat vermişdilər [14].

Şəhərin mərkəzində, Koroğlu prospektində yerləşən kompleksin inşasına 2017-ci ilin martında başlanılmışdır. Xüsusi memarlıq üslubunda və müasir səviyyədə inşa olunan bu kompleks 1005 qaçqın və məcburi köçkün ailəsi üçün nəzərdə tutulmuşdur. Ərazisi 4 hektar olan kompleksdə ümumilikdə 12 bina, o cümlədən səkkizmərtəbəli səkkiz, 15 mərtəbəli dörd bina var. Kompleksdə məktəb, uşaq bağçası, mərasim evi, polis məntəqəsi və digər zəruri infrastruktur obyektləri inşa edilib. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mənzillərdə yaradılan şəraitlə tanış olmuşdular [14]. Həmçinin dövlətimizin başçısına məlumat verilmişdi ki, bu yaşayış kompleksi ölkə üzrə məcburi köçkünlər üçün salınan sayca 101-ci şəhərcikdir [14].

Layihənin icrası zamanı Sumqayıtdakı 12-ci mikrorayonda yerləşən 21 saylı məktəbə əlavə olaraq, dördmərtəbəli yeni korpus inşa edilmiş, məktəbin mövcud binasının fasadı, dam örtüyü tamamilə yenilənmişdir. Məktəbin 540 şagird yerlik yeni korpusunda 21 sinif otağı var. Burada təlim-tədrisi yüksək səviyyədə aparmaq üçün hərtərəfli şərait yaradılıbdır.

Bu layihənin icrası Azərbaycan dövlətinin qaçqın və məcburi köçkün uşaqlarının təhsilli, bilikli və intellektual səviyyədə yetişməsinə nə dərəcədə həssaslıqla yanaşmasının əyani təzahürüdür. Eyni zamanda bu işlər ümumilikdə ölkəmizdə təhsil sahəsinin inkişafı, onun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində icra olunan layihələrin ardıcıl və keyfiyyətlə davam etməsini göstərir [14].

Kompleksin ərazisində 50 yerlik uşaq bağçası da inşa edilibdir. Uşaq bağçasında balacaların təlim-tərbiyəsinin təşkili, onların istirahəti və əyləncəsi üçün hər cür şərait yaradılıbdır [14].

*Nəticə*. Bütün bunlar sübut edir ki, Prezident İlham Əliyev qaçqınların və məcburi köçkünlərin problemlərinin həllinə xüsusi qayğı ilə yanaşır, bu məsələni daim diqqət mərkəzində saxlayır. Dövlətimizin başçısı qaçqınların və məcburi köçkünlərin sosial problemlərinin həllini dövlətin sosial siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edib. Son illərdə qaçqınlar və məcburi köçkünlər üçün bütün zəruri infrastrukturla təchiz olunmuş qəsəbələr salınıb, çoxmərtəbəli binalar inşa olunub. Qaçqınların və məcburi köçkünlərin sağlamlıqlarının təmini, sosial durumlarının yaxşılaşdırılması, məşğulluqlarının artırılması və digər məsələlərlə bağlı da bir sıra mühüm işlər görülüb. Bu işlərə Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr də töhfə verir. Ümumiyyətlə, Azərbaycan dövlətinin qaçqınların və məcburi köçkünlərin sosial məsələlərinin həlli istiqamətində gördüyü tədbirlər dünyada çox nadir təcrübədir. Bu təcrübə bütün beynəlxalq təşkilatlar tərəfindən çox yüksək qiymətləndirilir və ondan istifadə olunur.

Bu il Sumqayıtın şəhər statusu almasının 70-ci ili tamam olur. Prezident İlham Əliyevin 14 fevral 2019-cu il tarixli Sərəncamı ilə Sumqayıtın 70 illik yubileyi ölkədə geniş qeyd ediləcək. Artıq şəhərimizdə bununla bağlı müxtəlif tədbirlər həyata keçirilməkdədir.

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcovun haqlı olaraq qeyd etdiyi kimi, Prezident İlham Əliyevin diqqəti və qayğısı ilə görülən işlərin nəticəsində Sumqayıt həm gözəlləşib, şan-şöhrəti artıb, həm də şəhərdə tamamilə yeni infrastruktur yaranıb. Hansı ki, bu infrastruktur uzun onilliklər sumqayıtlılara ən yüksək standartlar əsasında xidmət edəcək. Ona görə bu gün Sumqayıt özünün yeni inkişaf mərhələsini yaşayır. Sumqayıtın bugünkü inkişafı göstərir ki, Heydər Əliyevin

arzuları reallaşır, ideyaları həyata vəsiqə qazanır. Çünki Ulu öndər Heydər Əliyev Sumqayıtı belə görmək istəyirdi.

**ƏDƏBİYYAT**


1. Alıyev H.A. Sumqayıt şəhərinin tarixi. Bakı, Elm və təhsil nəşriyyatı, 2011, 544 s.
2. Alıyev H.A. Sumqayıt şəhərinin sosial-iqtisadi və ictimai-siyasi tarixi. Bakı, Elm və təhsil nəşriyyatı, 2015, 256 s.
3. Aslanova A.F. Azərbaycanda miqrasiya proseslərinin iqtisadi-demoqrafik aspektləri: /İqtisad üzrə fəlsəfə doktoru dis. /. Bakı, 2017, 148 s. Mənbə:http://unec.edu.az/application/uploads/2018/12/DISSERTASIYA-AFAQ-son-variant-20-iyun.pdf [Müraciət tarixi: 06.06.2020].
4. Zakir Fərəcov. Heydər Əliyev ideyaları Sumqayıtın inkişafının və quruculuğunun əsas zəminidir / "Azərbaycan" qəzeti, 11.05.2018. Mənbə: https://azpress.az/index.php?lang=az&sectionid=news&id=80389 [Müraciət tarixi: 06.06.2020].
5. Əliyev H. Müstəqillik yollarında: 2-ci cild. Bakı, Azərbaycan nəşriyyatı, 1997, 446 s.
6. Əliyev V. Sumqayıt şəhərinin sosial-iqtisadi inkişafını sürətləndirmək imkanları (elmi-praktiki konfransda məruzə) // "Azərbaycan" qəz, 2004, 20 fevral.
7. "Ermənistandan qovulan soydaşlarımız BMT-nin qaçqınlar siyahısına daxil edilmir" – Azərbaycan Qaçqınlar Cəmiyyətinin sədri Əziz Ələkbərli ilə müsahibə / Modern.az İnformasiya Agentliyi, 20 iyun 2015. Mənbə: http://modern.az/articles/79791/1/ [Müraciət tarixi: 06.06.2020].
8. Məmmədov R.S., Sadıqov H.Ş. Sumqayıt tarixdən səhifələr (1930-2000). Sumqayıt,"Zərdabi" nəşriyyatı, 2010, 240 s.
9. Heydər Əliyev və Sumqayıt / Heydər Əliyev Mərkəzlərinin İnformasiya portalı. Mənbə: https://heydaraliyev-centers.az/sumgayit/heydar-aliyev-ganja [Müraciət tarixi: 06.06.2020].
10. İlham Əliyev və Mehriban Əliyeva məcburi köçkünlər üçün yaşayış kompleksinin açılışında / İstiPress, 24 dekabr 2018. Mənbə: http://www.istipress.com/siyaset/24-12-2018/ilham-eliyev-ve-mehriban-eliyeva-mecburi-kockunler-ucun-yasayis-kompleksinin-acilisinda [Müraciət tarixi: 06.06.2020].
11. Rəşad Cəfərli. Sumqayıtın möhtəşəm inkişafı, quruculuğu Heydər Əliyev ideyalarının və İlham Əliyev kursunun təntənəsidir / "Azərbaycan" qəzeti, 2020-05-20. Mənbə: Azərbaycan Respublikası Sumqayıt şəhər İcra Hakimiyyətinin rəsmi internet səhifəsi: http://sumqayit-ih.gov.az/news/504.html [Müraciət tarixi: 06.06.2020].
12. Avropa parlamenti azərbaycanlı qaçqın və məcburi köçkünlərin müdafiəsində aktiv olmalıdır / Trend New Agency, 17 mart 2016. Mənbə: https://az.trend.az/azerbaijan/society/2508371.html [Müraciət tarixi: 06.06.2020].
13. Nazim Mustafa. Azərbaycanlıların əzəli torpaqlarından sonuncu – 1988-1989-cu illər deportasiyası / "Xalq qəzeti", 8-10 dekabr 2013-cü il, №271-272. Mənbə: http://nazimmustafa.info/?p=307 [Müraciət tarixi: 06.06.2020].
14. İlham Əliyev Sumqayıtda qaçqın və məcburi köçkün ailələr üçün yeni yaşayış binaları kompleksinin açılışında iştirak edib. 27 dekabr 2018. Mənbə: https://president.az/articles/31373 [Müraciət tarixi: 06.06.2020].
15. Nazim Mustafa. 1988-1989-cu illər deportasiyası. Azərbaycanlıların etnik təmizlənməsi / İrəvan şəhəri: Etnik təmizləmə. Mənbə: https://iravan.info/1988-1989_deportasiyasi.html [Müraciət tarixi: 06.06.2020].
16. Elçin Əhmədov: Sumqayıt hadisələri erməni millətçilərinin məqsədyönlü şəkildə hazırladıqları planın tərkib hissəsi idi / AzərTac, 28 fevral 2020. Mənbə: https://azertag.az/xeber/Elchin_Ahmedov_Sumqayit_hadiseleri_ermeni_milletchilerinin_meqsedyonlu_sekilde_hazirladiqlari_planin_terkib_hissesi_idi-1427681 28 fevral 2020 [Müraciət tarixi: 06.06.2020].

**GULNAR BASHIROVA**
*senior researcher at the Museum of Military History of Azerbaijan*

## ON THE PLACE AND ROLE OF SUMGAYIT IN THE SOLUTION OF PROBLEMS RELATED TO REFUGEES IN THE REPUBLIC OF AZERBAIJAN AT THE TURN OF XX-XXI CENTURIES

This article, based on materials from various reliable sources, as well as existing historiographic literature, considers issues related to the purpose and place of Sumgayit city in solving the problems of thousands of refugees and migrants who found shelter in this city after the outbreak of the Armenian aggression against the Republic of Azerbaijan.

The author emphasizes that in 1994, 15.714 families and 62.838 peoples of both sexes were placed in this city. With the efforts of the central republican and local city authorities, a whole complex of 12 multi-storey residential buildings, a new educational building on the territory of the city school № 21, a separate kindergarten, etc. were built in Sumgayit. Efforts to resolve the various refugee problems in this city are ongoing.

*Keywords:* migration, Sumgayit, Azerbaijan, Armenia, refugee.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 06 iyun 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 06 yanvar 2021-ci il.*
*Rəyçilər: t.ü.f.d. Nailə Ciddi, t.e.d. İbrahim Zeynalov.*

**UOT94**

**SEVİNC MƏMMƏDOVA**
*AMEA akad.Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu*
**E-mail: sevinc.mammedova81@gmail.com**

# PARİS SÜLH KONFRANSINDA İRANIN AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNƏ QARŞI İRƏLİ SÜRDÜYÜ ƏRAZİ İDDİALARI

*I Dünya müharibəsi (1914-1918) başa çatdıqdan sonra qalib dövlətlərin Fransanın paytaxtı Parisdə təşkil etdikləri Sülh Konfransında Azərbaycan və İran nümayəndə heyətləri iştirak edirdilər. Azərbaycana qarşı ərazi iddiaları sürən İran dövlət rəsmiləri Azərbaycanın İranla vahid dövlət şəklində, yəni konfederasiya şəklində birləşməsini təklif edirdilər. Mövzu günümüzdə də aktuallığını saxlayır. İranda rəsmi və qeyri-rəsmi səviyyələrdə tez-tez Azərbaycana qarşı ərazi iddiaları irəli sürülür. Bununla da Azərbaycanın daxili və xarici siyasətinə təsir etmək istəyirlər. İranın ərazi iddialarına cavab vermək üçün tutarlı cavab olan məqalə hazırki Paris sülh konfransında İranın AXC-yə qarşı irəli sürdüyü əsassız ərazi iddialarına həsr olunub.*

*Açar sözlər*: Azərbaycan, İran, konfrans, saziş, konfederasiya.

*Giriş*. 1918-ci il mayın 28-də müsəlman Şərqində yaranmış ilk demokratik dövlət-Azərbaycan Xalq Cümhuriyyəti elan etdiyi "İstiqlal bəyannaməsi"nin üçüncü bəndinə əsasən həmsərhəd millətlər və dövlətlərlə mehriban qonşuluq münasibətləri qurmağı öz fəaliyyətinin əsas prinsiplərindən biri kimi elan etsə də, cənub qonşusu İran "Azərbaycan adında dövlət tanımadığını" bildirərək qəti etirazını bildirdi. İranın Qafqaz siyasətində həmişə mühüm yer tutan Şimali Azərbaycanda yeni, müstəqil dövlətin yaranması və eyni zamanda Azərbaycan adlanması ilk gündən İranı narahat edirdi. İran özünə qarşı olan bu "təhlükəni" dəf etmək üçün gənc dövlətlə normal qonşuluq siyasəti yürütmək əvəzinə Azərbaycan torpaqlarının İranın tarixi əyaləti olduğunu bildirərək ona qarşı ərazi iddiaları irəli sürdü.

AXC-nin yaradıldığı ilk gündən İran Qacar dövlətinin Baş Naziri Nəcəfqulu xan Bəxtiyari Səmsam os-Səltənə 1918-ci il 3 avqustda irticaçı bir qərar qəbul edərək ölkənin ayrı-ayrı vilayətlərində bütün fərmandarlara əmr vermişdi ki, tayfa xanları və sərkərdələri gizli şəkildə sərhəd boyu irəliləyib İrana aid olan sərhəd ərazilərini tutsunlar [12, s.175]. Baş nazir İrana aid sərhəd əraziləri dedikdə Naxçıvan, Muğan və Astaranın işğalını nəzərdə tuturdu [12, s.227]. İranı Azərbaycan dövlətinə qarşı müharibəyə sürükləyə biləcək bu irticaçı qərar Səmsam os-Səltənənin bir gün sonra istefa verməsinə səbəb oldu. Buna baxmayaraq İran öz işğal, yaxud ilhaq planı üzərində dayandı. Azərbaycanın İrana birləşdirilməsi planı İranın xarici siyasətində qarşıda duran ən mühüm planı idi.

*Azərbaycan və İranın Paris Sülh Konfransında iştirakı.* AXC hökumətinin xarici siyasətinin ən mühüm vəzifəsi də Paris sülh konfransında iştirak etmək və özünün suveren bir dövlət kimi Qərb dövlətləri tərəfindən tanınmasına nail olmaq idi. Azərbaycan parlamenti Paris sülh konfransında iştirak etmək üçün Əli Mərdan bəy Topçubaşovun rəhbərliyi ilə nümayəndə heyətinin göndərilməsi haqqında qərar qəbul etdi.

Konfransın fəaliyyətinin ilk vaxtlarında Azərbaycan-İran münasibətlərinə ciddi təsir edəcək bir sıra hadisələr baş verdi. İlk olaraq Azərbaycan hökuməti Paris sülh konfransında İranın ərazi iddiaları ilə bağlı bir sıra çətinliklərlə qarşılaşdı. Azərbaycana qarşı ərazi iddiaları irəli sürən İran Türkmənçay sülh müqaviləsində Rusiyaya birləşdirilən Şimali Azərbaycan torpaqlarının geri qaytarılmasını, bu torpaqların tarixən İrana məxsus olduğunu və bu ərazidə məskunlaşan əhalinin də İrana birləşmək arzusunda olduğunu iddia edirdi. İranın belə mövqedə olmasının əsas səbəbi bolşevik inqilabından sonra Sovet Rusiyasının Rusiya imperiyasının bağladığı imperilast müqavilələrin qüvvədən düşməsi idi. Sovetlərin keçmiş müqavilələri ləğv etməsi İranın Azərbaycanı özünə birləşdirmək ümidini daha da artırırdı.

İran Birinci Dünya müharibəsində iştirak etməmiş və bitərəf mövqedə durmuşdur. İran xarici işlər nazirliyi konfransda iştirakı ilə bağlı əvvəlcə Fransa hökumətinə müraciət etsə də, Fransa xarici

işlər nazirliyi İranın bitərəf mövqedə olduğunu əsas gətirərək sülh konfransında iştirak etmək hüququna malik olmadığını bildirmişdi [13, s.6]. İran təcavüzkar dövlətlərin İrana daxil olmalarını və dəymiş ziyanı qeyd edərək, Amerika və İngiltərənin dəstəyi ilə rəsmi şəkildə konfransa dəvət edilməsinə nail oldu. İranın xarici işlər naziri Əliqulu Məsud Ənsari Müşavir ül-Məmalik başda olmaqla Zəkaül-mülk Foruği, Hüseyn Əli Nəbiül Kaşi, İntizamil-Mülk və şahzadə Əmanullah Cənabani olmaqla İran heyəti 1919-cu ilin yanvarında Parisə çatdı [11, s.12]. İran nümayəndə heyəti Paris Sülh konfransına İranın Xarici İşlər Naziri Əliqulu Məsud Ənsari Müşavir-əl Məmalik tərəfindən hazırlanmış, fransız və ingilis dillərində yazılmış 3 fərqli hissədən ibarət memorandum təqdim etmişdi. Memorandumda XVI-XVIII əsrlərə aid "tarixi hüquqlara" istinad edərək Bakı, Naxçıvan və Qarabağ da daxil olmaqla bütün Azərbaycanın, Dərbənd şəhəri daxil olmaqla Dağıstanın bir hissəsinin, demək olar kı, Qafqazın yarısını, habelə Mərv, Xivə və s. daxil olmaqla Orta Asiyanın geniş hissəsini əhatə edən ərazilərin İrana verilməsi məsələsi qoyulmuşdu. Bununla bərabər İran hökuməti Türkiyəyə də qarşı ərazi iddiası irəli sürürdü [10, s.33]. Memorandumdan göründüyü kimi İran demək olar kı öz ərazisi qədər ərazinin ona verilməsini nəzərdə tutmuşdu. Mövcud tarixi şəraitdə İranın İngiltərədən asılı olduğunu nəzərə alsaq, İran formal olaraq müstəqil sayılsa da, əslində suveren dövlət kimi tələb irəli sürə bilməzdi. Bu səbəbdən, aparıcı dövlətlər İranın ərazi iddialarını ciddi qəbul etmirdilər.

Memorandumun birinci hissəsi ölkənin siyasi, hüquqi və iqtisadi müstəqilliyinin qorunması ilə bağlı idi. Bu hissədə İran barədə İngiltərə və Rusiya arasında bağlanmış 1907-ci il müqaviləsinin eyni zamanda kapitulyasiyanın ləğvi, xarici qoşunların İran ərazisindən çıxarılması, ikinci hissəsində İranın ərazi iddiaları, üçüncü hissədə isə təcavüzkar ölkələrin bitərəf mövqe tutan İrana daxil olması nəticəsində dəymiş ziyanın İrana təzminat şəklində ödənilməsi qeyd edilirdi [11, s.10].

*Azərbaycanı İrana birləşdirmək səyləri və ya konfederasiya planı.* İran dövlət rəsmiləri Azərbaycanın işğal planını İranla vahid dövlət şəklində birləşmək adı ilə həyata keçirərək, bu "birləşməni" hər iki dövlət üçün məqsədəuyğun hesab edirdilər. İlk dəfə bu fikri Paris Sülh konfransına səfəri zamanı Bakıda Əhməd bəy Ağaoğlu ilə görüşü zamanı İranın xarici işlər naziri Müşavir ül-Məmalik irəli sürmüşdü. Danışıqlar zamanı nazir Azərbaycanın İrandan başqa digər qonşu dövlətlərlə konfederasiya şəklində birləşməsinin mümkünsüzlüyünü bir neçə səbəblə belə əsaslandırmışdı; 1.I Dünya Müharibəsindən məğlub çıxan Türkiyə ilə birləşərsə Antantanın AXC-yə rəğbəti azalacaq, 2.Qonşu Ermənistanla münasibətlər qənaətbəxş olmadığından Cənubi Qafqaz konfederasiyasının mümkünsüzlüyü və Rusiya təhlükəsi.

Beləliklə, yalnız İranla birləşmək Azərbaycan üçün əlverişli hesab edilirdi. İran diplomatiyasının növbəti hiyləsi olan bu təklifə Əhməd bəy Ağaoğlu kəskin etirazını bildirmişdi [1, v.40-41]. Əhməd bəyin etirazına cavab olaraq, öz növbəsində İran diplomatı da "Azərbaycan bizim şahların hakimiyyətinə tabe idi" fikrini səsləndirmişdi.

1919-cu ilin 11 yanvar tarixində Müşavir ül-Məmalik İstanbulda AXC nümayəndə heyətinin rəhbəri Əli Mərdan bəy Topçubaşovla qeyri-rəsmi görüşü zamanı eyni məsələni yenidən qaldırmışdı. Nazir sülh konqresində Vilson prinsiplərindən əlavə, "tarix, tarixi haqq da vardır" bildirərək tarixən Zaqafqaziya xanlıqlarının İran şahlarına tabe olduğu ilə Araz çayından şimaldakı Azərbaycan torpaqlarının İrana birləşdirilməsini bildirmişdi. Topçubaşov cavabında bunu İranın Azərbaycana ərazi iddiası kimi qiymətləndirsə də, vəziyyəti yüngülləşdirmək üçün qeyd etmişdi ki, Azərbaycan köməksiz qalarsa İrana birləşə bilər [4, s.216]. Bir neçə gün sonra Ə.Topçubaşovun Müşavir ül-Məmaliklə növbəti görüşündə yenidən konfederasiya məsələsinə toxunuldu. Nazir bildirdi ki, Azərbaycan İranla birləşdiyi təqdirdə daxili müstəqilliyini saxlayacaq, xarici siyasətə gəldikdə isə bu, xüsusi aktla müəyyənləşdiriləcək. Topçubaşov cavabında belə mühüm məsələnin Tehranda, yaxud Bakıda müzakirə olunmasının vacibliyini vurğulamışdı [4, s. 225].

Azərbaycanı İranın tərkib hissəsi hesab etməsi və torpaqlarının İrana birləşdirilməsi və ya hər iki ölkənin ittifaq şəklində birləşməsi ideyası sırf Azərbaycan müstəqilliyinə qarşı yönəlmiş ideoloji təbliğat idi.

1919-cu ilin avqust ayının 8-də Vosuq od-Dövlə ingilispərəst Firuz Mirzə Nüsrət od-Dövləni İranın xarici işlər naziri təyin etdi. Bir neçə gün sonra Firuz Nüsrətüddövlə İran nümayəndə heyətinin

rəhbəri vəzifəsində Paris sülh konfransında iştirak etmək üçün Avropaya ezam edildi. Nüsrətüddövlə ilə birgə İran şahı Əhməd şahın 1919-ci ilin avqust ayının 17-də yol üstü Bakıda dayanması, onun çox mehriban qarşılanması, apardığı danışıqlar, böyük təntənə ilə yola salınması iki qonşu ölkə arasında yaranmış gərginliyi bir qədər yumşaltdı. Adil xan Ziyadxanov qatarla yola düşən İran şahını Batuma qədər müşayət etdi, şah və xarici işlər naziri F. M. Nüsrətüddovlə ilə söhbət zamanı Azərbaycan həqiqətlərini onlara çatdırdı. [2, v.1-2 və v.7-8] Bu mühüm görüşdən sonra İranın siyasi dairələrinin AXC-yə qarşı mövqeyi xeyli dəyişdi.

1919-cu ilin sentyabrında İranın yeni Xarici İşlər Naziri Firuz Mirzənin nümayəndə heyətinin başçısı kimi Paris sülh konfransında iştirak etmək üçün Avropaya gəlməsi ilə İran-Azərbaycan siyasi münasibətləri nizama salındı və nəticədə Azərbaycan–İran birgə komissiyası yaradıldı. Komissiyanın əsas işi iki dövlət arasında gələcəkdə bağlanacaq müqavilələrin əsaslarını, maddələrini hazırlamaq idi. Tərkibi Azərbaycan tərəfdən C. Hacıbəyli və M. Y. Mehdiyev, İran tərəfindən isə Z.Mülkdən ibarət olan komissiya oktyabrın 29-da ilk iclasını keçirdi. Noyabrın 1-dək davam edən müzakirələr 4 bənddən ibarət sazişin bağlanması ilə nəticələndi. Azərbaycan nümayəndə heyəti tərəfindən təqdim edilən bu sənəd aşağıdakı bəndlərdən ibarət idi:

1. Qafqaz Azərbaycanı Rusiyada hər hansı forma və şəkildə hakimiyyət və quruluşun yaranmasından asılı olmayaraq, Azərbaycan nümayəndə heyətinin Sülh konfransına təqdim etdiyi tələb və xəritələrdə göstərilmiş torpaqları ilə Rusiyadan birdəfəlik və qəti surətdə ayrılır.

2. 1918-ci il mayın 28-dən etibarən Qafqaz Azərbaycanının göstərilən hüdudlarında mövcud olan Azərbaycan Respublikası paytaxtı Bakı şəhəri, ümumi seçki hüququ əsasında Azərbaycan hökuməti tərəfindən çağrılan Azərbaycan Müəssislər Məclisinin təsdiqindən sonrakı qanunlar çərçivəsində fəaliyyət göstərən seçkili Prazident və Parlamenti olmaqla müstəqil, suveren, demokratik respublika kimi tanınır.

3. Azərbaycan Demokratik Respublikası qonşu İran dövləti ilə siyasi-iqtisadi əlaqə yaradır, bu əlaqənin əsasları və formaları, eləcə də İran və Azərbaycan hökumətləri tərəfindən qarşılıqlı razılığa əsasən işlənib hazırlanır və müəyyən edilir. Özü də İran və Azərbaycan hökumətlərinin xarici işlər sahəsində fəaliyyətlərinin birləşdirilməsi arzu olunur.

4. I və II bəndlərdə yuxarıda göstərilən məqsədlərə nail olması, Azərbaycan Respublikasının istiqlalının tanınması, onun müstəqilliyi və bütövlüyünə hər hansı qəsdin xətərsizləşdirilməsi işində Azərbaycan Respublikası İrana göstərilən kömək timsalında onun siyasi, iqtisadi, mədəni inkşafına və hərbi qüvvələrinə, İngiltərənin həqiqi köməyinə möhtacdır [9, s.210].

Sazişdə xüsusilə 4-cü bənd diqqətəlayiqdir. Həmin bənddə Azərbaycan Respublikasının istiqlalının və müstəqilliyinin tanınması öz əksini tapmışdı. Bəndlərdə Azərbaycanın müstəqilliyinin və ərazi bütövlüyünün qorunması ilə bağlı qeydlər olsa da, bu birləşmənin görünməyən tərəfləri var idi. Belə ki, İran Azərbaycanı ittifaq adı altında diplomatik yolla özünə birləşdirməklə işğal niyyətini həyata keçirirdi. Azərbaycan nümayəndə heyətinin İranın ərazi iddiaları ilə bağlı məlumatı vardı. Sadəcə mövcud siyasi şəraitdə ölkənin xaricdən təhlükəsizliyinə nail olmaq üçün İran amilindən istifadə edərək, İran tərəfi ilə danışıqlara gedirdi.

İranın Azərbaycan siyasətinin əsas mahiyyəti, yəni işğal planı İran-ingilis rəsmilərinin yazışmalarında aydın görünürdü. 17 noyabr 1919-cu ildə Nüsrətüddövlə Lord Kerzona yazdığı məktubunda İran və Britaniya arasındakı yaxşı münasibətləri nəzərə alıb İranın Qafqazdakı maraqlarının üstün olmasında ondan yardım istəyirdi [8, s.58]. Məktub ünvanlandığı vaxtda artıq İran-İngiltərə müqaviləsi (1919-cu il 9 avqust) imzalansa da, İngiltərənin Qafqaza aid öz marağı var idi və bu maraqlar İranın regionda siyasətini müdafiə etməyə mane olurdu.

Azərbaycan nümayəndə heyəti ilə danışıqlar apardıqdan sonra Firuz Nüsrət üd-Dövlə Britaniya xarici işlər nazirliyinə bu haqda məlumat verərək bildirir ki, Azərbaycanın İrana birləşdirilməsi üçün bütün vasitələrdən istifadə etməyə hazırdır. Belə bir sərvətli və məhsuldar məntəqəni- Bakını əldən vermək olmaz. Britaniya razı olmasa da, İran müstəqil hərəkət etmək əzmindədir [7, s.68].

Lord Kerzon Nüsrət od-Dövlə ilə aparılan danışıqlardan sonra Britaniyanın Tiflisdə Ali kommisarı Oliver Vordropa 20 dekabr 1919-cu ildə ünvanladığı teleqramda İran-Azərbaycan

konfederasiya məsələsinə toxunmuşdu. Teleqramda İranla razılaşdırılmış 4 maddənin mətni ilə yanaşı, eyni zamanda türk yönümlü "Müsavat" partiyasından fərqli olaraq, İran meylli siyasət yeridən "İttihad" partiyasının bu məsələyə müsbət münasibətdə olduğunu bildirmiş və "İttihad" partiyasının ideyalarının sırf İran siyasətinə uyğun olduğunu qeyd etmişdir. Bakı ilə Tehran arasında münasibətlərin "İttihad" partiyasının rəhbərliyi altında nizama salınmasını məqsədəuyğun hesab edirdi [6, s.328].

Bundan başqa İran hökumət nümayəndələri Azərbaycan tərəfini inandırmağa çalışırdı ki, Azərbaycan İranla birləşəcəyi təqdirdə Britaniyanın da himayəsinə keçəcək. Polkovnik Stoks 18 yanvar 1920-ci ildə O. Vordropa göndərdiyi şifrəli teleqramında bu barədə daha geniş şərh vermişdir. Teleqramda qeyd edilirdi ki, Prins Mirzə Rza xan Ərfə əd-Dövlə Bakıdan keçib İrana gedərkən Azərbaycanın hökumət nümayəndələri ilə görüşmüş və Azərbaycan Baş naziri Nəsib bəy Yusifbəyli irəli sürülən təklifin yalnız İran Azərbaycanın müstəqilliyini rəsmən tanıdıqdan sonra müzakirə oluna biləcəyini bildirmişdir [6, s.476]. Sənəddən də aydın görünür ki, Azərbaycan tərəfi konfederasiya təklifindən çox müstəqilliyinin rəsmən tanınması uğrunda mübarizə aparırdı.

İran diplomatı Rza xan Ərfə əd-Dövlə eyni zamanda bildirmişdi ki, konfederasiya İrandan çox Azərbaycan və İngiltərə üçün əlverişlidir. Bu fikirlə Azərbaycan siyasətçiləri də razılaşarlar. İrana birləşməklə Azərbaycan İngiltərə ilə dostluq əlaqələrini daha da möhkəmləndirəcək və bunun da Azərbaycanın gələcəyinə çox böyük xeyri olacaqdır [6, s.477].

*İranın AXC-yə qarşı ərazi iddialarının iflasa uğraması*. İran hökuməti müstəqilliyini tanımadığı bir ölkə ilə bir sıra ikitərəfli məsələləri həll etmək və müqavilələr bağlamaqda çətinliklərlə üzləşirdi. İran rəsmiləri yaranan problemləri aradan qaldırmaq və AXC hökuməti ilə danışıqlar aparmaq üçün başda Seyid Ziyaəddin Təbatəbai olmaqla Qafqaza Fövqəladə Heyətin göndərilməsini qərara aldılar. Nüsrətüddövlə Firuz Azərbaycan nümayəndə heyətinin rəhbəri Əlimərdan bəy Topçubaşovla apardığı danışıqlardan sonra Parisdən İranın Xarici İşlər Nazirliyinə teleqrafla bildirmişdi ki, "Azərbaycan haqqında onların Parisdəki nümayəndələri ilə çox faydalı və geniş müzakirələr apardım. İndi isə Lord Kerzonla bu məsələ haqqında danışıram. Nazir təklif edirdi ki, müzakirələrin nəticəsi əldə edilənədək heç bir addım atılmasın" [3, s.56].

İran hökuməti 1919-cu il dekabrın 5-də başda Seyid Ziyaəddin Təbatəbai olmaqla Qafqaza Fövqəladə heyət göndərdi. Seyid Ziyaya həmçinin İranın AXC ilə konfederasiya yaratmaq planı haqqında məxfi müzakirələr aparmaq da tapşırılmışdı. Firuz Nüsrət od-Dövlədən fərqli olaraq İranın baş naziri Vosuq od-Dövlə Azərbaycanla konfederasiya şəklində birləşməsinə çox böyük ehtiyatla yanaşırdı. O, Qafqaza ezam edilmiş Fövqəladə komissiyanın rəhbəri Seyid Ziyaya göndərdiyi 1920-ci il 6 yanvar tarixli məktubunda bildirirdi: "İran-Azərbaycan konfederasiyasının gələcəkdə hər hansı problemlər yaradacağına diqqət etmək lazımdır ki, bu birləşmə bizim siyasətimizə zidd olmasın. Danışıqlar zamanı konfederasiya məsələsi gündəmə gətirilərsə, yubanmadan Tehrana məlumat verin". Həmçinin məktubda Azərbaycanın sərhəd problemlərinin qaydaya salınması, ingilislərlə həllini tapmayan məsələlərdə İranın vasitəçi olacağı qeyd edilirdi [3, s.132].

Məktubda diqqəti çəkən digər məsələ Naxçıvanla bağlı idi. Vosuq od-Dövlə Naxçıvan mövzusunda Azərbaycanın baş naziri ilə apardığı müzakirələr haqqında Nüsrət od-Dövləyə teleqramla bildirmişdi ki, Lord Kerzonla görüşü zamanı mütləq bu məsələni müzakirə etsin. Oradakı sərhəd probleminə Azərbaycan hökumətinin etirazına səbəb olmadan dostcasına son qoyulacaqdır [3, s.131]. İran nümayəndə heyətinin rəhbəri Seyid Ziyaəddin Təbatəbai öz ölkəsinin nazirlər kabinetinə yazdığı məktubda sərhəd məsələsinə toxunaraq bildirirdi ki, 1914-cü ildə olan sərhədləri İran-Azərbaycan sərhədləri kimi tanısaq beynəlxalq mənafe ilə yanaşı Ermənistana zidd olacaqdır. Bütün bu danışıqlarda mənim çalışdığım Azərbaycanla Ermənistan arasında münaqişəli olan Naxşıvan məsələsidir… Naxçıvanın Azərbaycanın tərkib hissəsi kimi tanınması İranın Ermənistana qarşı düşmənçilik mövqeyi tutması deməkdir." [3, s.201].

İran Nazirlər Kabinetindən Fövqəladə heyətə ünvanlanan digər məktubda müzakirələrdən qəti nəticə əldə edilənə və Britaniya dövləti tərəfindən İran dövlətinin tələblərinin himayə edilməsi bəlli olana qədər konfederasiya barəsində ehtiyatlı olmaq və Azərbaycan tərəfi ilə söhbət etməmək tövsiyyə olunurdu. Məktubda həmçinin qeyd edilirdi ki, Azərbaycan Ədliyyə Nazirinin "Azərbaycan

Rusiyanın varisi olduğu üçün Rusiya hüquqlarından öz payına düşən hissəni aparır" iddiası ədəb hüdudlarından xaric olmaqla yanaşı, həm də məntiqi dəlillərə ziddir. Çünki əgər Rusiya üçün varis axtarsaq, İran dövləti hal-hazırda Azərbaycan hökumətinin yerləşdiyi və İrandan zorla ayrılan mülklərə hamıdan çox layiqdir. Qeyd etdiyiniz kimi əgər Azərbaycan hökuməti rəsmi olaraq tanınarsa, İran dövləti heç bir halda icazə verməyəcək ki, rusun sabiq məhkəmələrinə özünün varisliyini təmin etsin [3, s.126].

Konfederasiya təklifinin İran hökuməti tərəfindən irəli sürüldüyünə baxmayaraq, İranın Baş Naziri Vosuq od-Dövlə, Seyid Ziyaəddin Təbatəbaiyə göndərdiyi məktubda təklifin müəyyən vaxta təxirə salınmasının tərəfdarı olduğunu bildirirdi: "Azərbaycan dövlət adamları konfederasiya məsələsi ilə ciddi şəkildə maraqlandıqları təqdirdə qəbul və ya rədd etmə cavabı verməyin. Dərhal mövzunu yazılı və ya teleqrafla bizə çatdırın. Mən bu zəmində araşdırmalar aparıb nəticəni sizə yazacağam" [13, s.17].

Paris Sülh konfransında İranın İngiltərə ilə 9 avqust 1919-cu il sazişi məlum olduqdan sonra iştirakçı dövlətlərin İrana münasibəti dəyişdi. Bütünlükdə İngiltərənin tabeliyinə keçən bir dövlətin digər dövlətlərə qarşı ərazi iddiası irəli sürməsi ciddi qəbul edilmədi. İranın daxili vəziyyəti və beynəlxalq aləmdə mövqeyi ona düşmənçilik niyyətlərini reallaşdırmağa imkan vermədi. Tez bir zamanda Azərbaycanın müstəqilliyini tanımamaq mövqeyindən çəkinərək tanımaq yolunu seçməyə məcbur oldu.

Fövqəladə Heyətin Bakıda apardığı 5 aylıq diplomatik danışıqları nəticəsində 1920-ci il martın 20-də Azərbaycan-İran arasında Dostluq müqaviləsi imzalandı və İran Azərbaycanı de-yure tanıdı. Müqavilə ratifikasiya olunmamış bir aydan sonra, aprelin 28-də Azərbaycan Sovet Rusiyası tərəfindən işğal olundu. İranla Azərbaycan arasında münasibətlər bu dəfə formal olaraq Azərbaycan Sovet Sosialist Respublikasının, əslində isə boloşevik Rusiyasının nəzarətinə keçdiyindən konfederasiya planı reallaşmayıb kağız üzərində qaldı.

*Nəticə.* Azərbaycan Xalq Cümhuriyyətinin yaradıldığı elan edilən ilk gündən İran bu yeni dövlətin müstəqilliyini tanımaq əvəzinə, onun ərazilərini diplomatik yolla özünə birləşdirmək və ya vaxtilə "Azərbaycanın İranın tərkibində" olmasını əsas gətirərək ittifaq adı ilə işğal etməyə cəhd etdi. Lakin bu məsələ gündəmə gətirilsə də, İranın niyyəti baş tutmadı.

Mövcud siyasi şəraitdə 1920-ci il 11 yanvarda Paris Sülh Konfransında AXC-nin müstəqilliyinin dünyanın böyük dövlətləri tərəfindən de-fakto tanınması ilə İranın Azərbaycana münasibəti dəyişdi. Artıq beynəlxalq aləmdə tanınan müstəqil bir dövlətə qarşı torpaq iddiasının məntiqsiz olduğunu görən İran diplomatiyası Azərbaycana qarşı yürütdüyü ərazi iddiasından əl çəkərək 1920-ci il 20 martda AXC-ni de-yure tanıdı.

## ƏDƏBİYYAT


1. ARDA, fond 894-Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, siyahı 10, iş 150.
2. ARDA, fond 2598 – Azərbaycan Respublikasının İrandakı diplomatik nümayəndəliyi, siyahı 1, iş 2.
3. ADR-İran diplomatik münasibətləri Qafqaz Fövqəladə Komissiyasının sənədləri işığında (1919-1920-ci illər) Bakı, "Şərq-Qərb", 2017, 392 s.
4. Əlimərdan bəy Topçubaşov. İstanbulda diplomatik görüşlər (Azərbaycan Respublikasının fövqəladə və nazirinin qeydləri).1918-1919-cu illər. Bakı, "Aspoliqraf", 2018, 368 s.
5. Həsənli C. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920) Bakı, "Garisma" MMC, 2009, 576 s.
6. Azərbaycan Xalq Cümhuriyyəti: Böyük Britaniyanın arxiv sənədləri. Tərtib edən: t.e.n.N.Ə.Maksvell. Bakı, Çaşıoğlu, 2008, 576 s.
7. Mustafayev V. Azərbaycan Xalq Cümhuriyyəti-İran münasibətlərinin ideoloji "problemləri"// Azərbaycan Demokratik Respublikasının 100 illiyinə həsr olunmuş "Şərqin ilk demokratik respub-likası" mövzusunda Elmi Konfransın materialları. Bakı, "Papirus NP" nəşriyyatı, 2019, s.68.
8. Mədətli E. Azərbaycan həqiqətləri İran tarixşünaslığında. Bakı, Təhsil, 2011, 272 s.
9. Nəsibli N. Azərbaycan Demokratik Respublikasının xarici siyasəti. Bakı, Qanun, 2011, 328 s.

10. История диломатии. Том 3: Дипломатия в период Второй мировой войны (1919-1939). Москва-Ленинград, Государственное издательство политической литературы, 1945, 883 с.
11. ایرج زوقی. چگوگی شکست. ماموریت نمایندگان ایران در کنفرانس صلح پاریس ( 1919)
12. بیات، کاوه، توفان بر فراز قفقاز، نگاه به مناسبات منطقه ای ایران و جمهوری آذربایجان، ارمنستان و گرجستان در دوره نخستین استقلال، 1918-1921، مرکز اسناد و تاریخ دیپلوماسی (وزارت امور خارجه)، تهران، وزارت امور خارجه، 1380، 458 ص.
13. فرشته سادات اتفاقفر. تلاشهای سیدضیاالدین طباطبای در ایجاد کنفدراسیومیا ایران و آذربایجان (روسیه) 1298. فصلنامه سیاست مجله دانشکده حقوق و علوم سیاسی سال 37 شماره 1 باهار 1382 صفحات 1-19

**SEVINJ MAMMADOVA**
***Institute of Oriental Studies named after academician Z.M.Bunyadov of ANAS***

## IRAN'S TERRITORIAL CLAIMS AGAINST AZERBAIJAN DEMOCRATIC REPUBLIC IN PARIS PEACE CONFERENCE

After the end of World War I (1914-1918) the victorious countries organized a Peace Conference in Paris, France. Delegations from Azerbaijan and Iran participated in the conference. Iranian state officials who nominated territorial claims against Azerbaijan, proposed Azerbaijan to unite in the form of confederation with Iran. On January 11, 1920, the Paris Peace Conference recognized the de facto independence of the Azerbaijan Democratic Republic. Iran's attitude towards Azerbaijan has changed. On March 20, 1920, the Iranian government recognized Azerbaijan Democratic Republic as a de jure. In conclusion, Iran receded its land claims against Azerbaijan.

*Keywords*: Azerbaijan, Iran, confederation, agreement, conference.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 12 fevral 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 06 iyun 2021-ci il.*
*Rəyçilər: t.ü.f.d. Vidadi Mustafayev, t.e.d.Sani Hacıyev.*

**UOT 94(479.24)**

**ELMAR ƏSGƏROV**
*Bakı Dövlət Universitetinin Azərbaycan tarixi (Humanitar fakültələr üzrə) kafedrasının doktorantı*
**E-mail: asgerovelmar57@mail.ru**

# XX ƏSRİN SONUNDA AZƏRBAYCANDA SİYASİ VƏZİYYƏT (1990-1991-ci illər)

*XX əsrin 1990-1991-ci illərində Azərbaycanın ictimai-siyasi vəziyyətindən, SSRİ rəhbərliyinin yarıtmaz siyasətindən, ölkədə hökm sürən qarışıqlıqdan, 20 Yanvar faciəsindən, "Səhər" qəzetinin fəaliyyətindən, ermənilərin azərbaycanlılara qarşı apardığı terrordan, Dağlıq Qarabağ münaqişəsindən, Heydər Əliyevin Naxçıvana qayıtdıqdan sonra sıravi vətəndaş və deputat kimi Azərbaycanın müstəqilliyi uğurunda apardığı mübarizədən bəhs olunur.*

*Açar sözlər*: Qarabağ, 20 Yanvar, qəzet, sovet, yenidənqurma.

*Giriş*. Məqalədə XX əsrin sonunda (1990-1991-ci illərdə) Azərbaycanda baş verən siyasi hadisələr öz əksini tapmışdır. Bu qarışıq zamanda SSRİ rəhbərliyinin yarıtmaz siyasəti, "yenidənqurma" adı altında separatçılıq yolunu tutmaları, ermənilərin torpaqlarımıza olan iddialarına göz yummaları göstərilmişdir. Eyni zamanda, Ermənilərin Azərbaycanın şəhər və kəndlərinə basqınları və bunun nəticəsində Qarabağ bölgəsində törətdikləri terrorlar işıqlandırılmışdır. Həmçinin, 20 Yanvar faciəsindən sonra ulu öndər Heydər Əliyevin SSRİ və Azərbaycan rəhbərliyinə qarşı ortaya qoyduğu sərt mövqey, Naxçıvandakı deputatlıq dönəmi və digər hadisələr məqalədə ardıcıllıqla şərh olunmuşdur.

Artıq 80-ci illərin ortalarından başlayaraq tənəzzül yolunu tutmuş SSRİ-də rəbərlik bir sıra addımlar atmaq qərarına gəldi. Bu dövrdə atılan addımlardan biri də SSRİ rəhbəri M.Qarbaçov tərfindən irəli sürülən "yenidənqurma" siyasəti idi. "Yenidənqurma" siyasəti ilə ölkənin tənəzüldən xilas olacağına və ölkənin yeniləşdirilərək inkişaf edəcəyinə inamı respublikalarda yaratmağa çalışırdılar. Heç də hər şey deyildiyi kimi deyildir. Əslində isə, bu siyasət Qarabağ və onun ətrafındakı xalqı aldatmağa, ölkəni və əhalini daha ciddi çətinliklərə salmağa xidmət edirdi.

Bu qarışıq zamanda Azərbaycanın ictimai-siyasi həyatında böyük rol oynayan, baş verən hadisələrin önündə gedən Azərbaycan Xalq Cəbhəsi 1989-cu ilin payızında çox nüfuzlu və kütləvi bir təşkilata çevirilmişdir. Günü-gündən nüfuzu artan Azərbaycan Xalq Cəbhəsinin yerli təşkilatçılarının rəhbərliyi altında bölgələrdə 1989-cu ilin noyabr-dekabr - 1990-cı ilin yanvar aylarında fasiləsiz mitinqlər, nümayişlər keçirilmişdir. Cəlilabadda yerli hakimiyyət orqanları ləğv edilmiş, Sabirabad, Ağcabədi və Lənkəranda rayon rəhbərləri xalqın tələbi ilə istefaya göndərilmiş, AXC-nin Naxçıvan şöbəsinin başçılığı altında Araz çayı boyunca Sovet-İran sərhəddindəki qurğular dağıdılmış, yerlərdə partiya komitəsinin, hökumət orqanlarının fəaliyyəti dayandırılmışdır [4, s.347]. Bütün bunlar artıq mərkəzin respublikadakı vəziyyətə nəzarəti əldən verdiyini açıq şəkildə göstərirdi. Lakin bununla barışa bilməyən SSRİ rəhbərliyi, 1990-ci ilin yanvarında Azərbaycana müxtəlif qoşun hissələri, cəza dəstələri yerləşdirdi. SSRİ müdafiyə naziri Marşal Dimka Yakov isə, gizlicə Gəncəyə gəlib vəziyyətlə tanış olaraq, qanlı əməliyyat planı hazırlamışdı.

Bu dövrdə imperiyadakı qeyri-sabit vəziyyətdən sui-istifadə edən millətçi ermənilər Azərbaycanın sərhəd kəndlərinə və DQMV-nin Azərbaycanlılar yaşayan kəndlərinə silahlı basqınlar edirdilər. Hələ 1989-cu ilin əvvəlində ermənilərin tələbi ilə Qarabağ komitəsi yaradılmışdır. Volskinin rəhbərlik etdiyi komitəyə 5 nəfər rus, 2 nəfər erməni və 1 nəfər azərbaycanlı üzv daxil idi. Komitə yaradılarkan əsas məqsəd Qarabağ xalqlarının demokratik şəraitdə yaşaması və bu bölgənin iqtisadi cəhətdən işkişaf etməsinə yönədilmişdir. Lakin əsas məsələnin sosial-iqtisadi problemlər olmadığı, Dağlıq Qarabağın Azərbaycandan ayrılması tələbinin yerinə yetirilməsi idi. «Советский Карабах» qəzeti 1989-cu ilin mayın 7-də bildirirdi ki, artıq 4 gündür sənayə müəssisələrində iş dayandırılıb, məktəblərdə dərslər aparılmır. Bütün danışıqların əsas mövzusu isə Qarabağ problemidir. Tətillərin dayandırılması üçün başlıca şərt olaraq DQMV-nin Azərbaycan SSR-dən ayrılması tələbidir [10, s.285]. Qarabağın Azərbaycandan qoparılıb "Böyük Ermənistan" planının bir

parçası olması hələ əvvəldən düşünülmüş siyasi adım idi. Erməni generalı Andranik Ozayanın 1918-ci ildə "Şeypur" jurnalının 7 dekabr tarixli 8-ci nömrəsində dərc olunmuş mülahizəsi bunun bariz nümunəsi idi. O, bildirmişdir ki; "Qafqazda Gürcüstan və Azərbaycan ola bilməz. Burada ancaq Ermənistan ola bilər. Ya gərək qafqazın hamısı Ermənistan olsun, ya da Ermənistana tabe". Burdan da göründüyü kimi Azərbaycana qarşı yönəldilmiş işğalçılıq siyasətinin və "Qarabağ hərəkatı"nın tarixi keçmişə dayanırdı. XX əsrin sonunda yenidənqurma siyasətini irəli sürən M.Qarbaçov və onun köməkçiləri bunu yaxşı bilirdilər və bu işdə öz dəstəklərini əsirgəmirdilər.

Həmçinin, SSRİ prokurorluğunun baş istintaq idarəsinin rəisinin birinci müavini V.İ.İlyuxinin "Komsomolskaya pravda" qəzetinin 15 aprel 1989-cu il tarixli nömrəsində dərc olunmuş müsahibəsində deyirdi: "Biz «Qarabağ» komitəsinin istintaqı ilə çox dərindən məşğul olmuşuq. Bu məlum komitənin fəaliyyəti əvvəllər çoxlarının başa düşdüyü kimi heç də günahsız deyildir. "Qarabağ hərəkatı" bəzilərinin iddia etdiyi kimi yenidənqurmanın da yetirməsi deyildir. Bu hərəkat 40-50-ci illərdən mövcuddur". Erməni milliyyətçiləri içərisində hətda tarixi həqiqəti qəbullanaraq Qarabağın Azərbaycana məxsusluğunu dilə gətirənlər də vardır. "Azadlıq" radiosunun erməncə verlişlərinin baş redaktoru, Daşnaksütyun partiyasının liderlərindən biri Eduard Ohanesyan Münxendəki erməni kulubunda Azərbaycan EA Kibernetika institunun elmi işçisi Asəf Hacıyevlə görüşündə söylədiyi belə bir fikir öz əksini tapmışdır: "Biz erməni intelektualları kimi bir qərara gəldik ki, yaranmış şəraitdə Qarabağ ərazicə və hüquqi cəhətdən Azərbaycana məxsus olmalıdır. Mən siyasi baxımdan bu nəticəyə gəlmişəm. Biz buna o vaxt gedəcəyik ki, siz Azərbaycanlılar Qarabağ ermənilərinin həyatını erməni dəyərləri ilə təmin etməyə razı olasınız" [11, s.18].

Qarabağ komitəsinin ləğvindən sonra respublikada hökm sürən qarışıq vəziyyətlə əlaqədar olaraq SSRİ Ali Sovetinin Rəyasət Heyəti DQMV-də və ətraf rayonlarda 1990-cı il yanvarın 15-də fövqəladə vəziyyət elan etdi. Əhali Yanvarın 17-də Bakı və ətrafına yerləşdirilən qoşuna etiraz edərək, AKP MK binası qarşısında qoşunun Dağlıq Qarabağ və erməni basqınlarına məruz qalan sərhəd bölgələrinə göndərilməsini tələb edirdilər. Lakin bütün bu tələbləri cavabsız qoyan Mərkəz Yanvarın 19-dan 20-nə keçən gecə əhaliyə qarşı amansız qırğına başladı. Telestudiyanın enerji blokunun partladılması nəticəsində bütün dünyadan təcrid olunmuş Azərbaycanın səsi heç yerə çatmadı. Bir müddət sonra tədricən televiziya və radio, onun ardınca isə ölkədə qəzetlər fəaliyyətini bərpa etməyə başladılar. Bu dəhşətli faciədən sonra çap olunan ilk qəzet isə "Komunistin" əlavəsi "Səhər" qəzeti oldu. Azəerbaycan xalqının üzləşdiyi 20 Yanvar faciəsini xalqımıza çatdırmaq məsuliyyəti "Səhər" qəzetinin əməkdaşlarının çiyninə düşmüşdü. Qəzet işıq üzü görən günü əl-əl gəzdi. Qəzetin təsisçisi və baş redaktoru Məzahir Süleymanzadə 2010-cu ildə nəşr olunmuş öz "Güllələnmiş qəzet" kitabında qəzetin 1 milyondan çox nüsxəsinin çap olunaraq şəhərdə paylandığını qeyd etmişdir. Bır sıra qəzetlər isə həqiqətdən çox uzaq olan uydurma və yalan yazılar dərc edirdilər. "Pravda", "Krasnaya zvezda", "İzvestiya" qəzetlərində xalqımızın başına gətirilən faciədən birtərəfli materiallar dərc edirdilər. Azadlıq uğrunda canlarından keçənləri ictimaiyyətə ekstremist, təxribatçı kimi təqdim edirdilər və şəhidlik zirvəsinə yüksəlmiş gəncləri islam dövləti yaratmaqda "günahlandırırdılar". Qəzetlərin belə qərəzli mövqe tutmasının əsas səbəbi həmin mətbu orqanlarda çalışan əməkdaşların arasında ermənilərin çoxluq təşkil etməsidi. "Komsomolskaya pravda" qəzeti digərlərindən fərqli olaraq öz obyektivliyini qoruyub saxlamışdı [9, s.36]. Mərkəzi televiziya və radio isə Bakı və Azərbaycanın ünvanına olmazın hədələr yağdırırdı. Belə bir şəraitdə isə Heydər Əliyev 1990-ci il yanvarın 21-də Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək, 6 minədək adamın iştirak etdiyi yığıncaqda doğma xalqının yanında olduğunu ifadə etdi, SSRİ və respublika rəhbərliyini birbaşa günahlandırdı [3, s.213].

Sovet İKP MK-nın 1990-cı il fevralın 5-7-də keçirilən plenumunda 20 Yanvar hadisəsindən sonra Ə.Vəzirovun yerinə Azərbaycan KP MK-nın birinci katibi A.Mütəllibov və Ermənistan KP MK-nin birinci katibi S.Arutunyan öz çıxışlarında Dağlıq Qarabağ münaqişəsinə toxunmuşdular. A.Mütəllibov öz çıxışında Dağlıq Qarabağ hadisələrini iki xalqın faciəsinə çevrildiyini, hətda ordunun belə bu münaqişənin qarşısını ala bilmədiyini səsləndirmişdir. Ermənistan KP MK-nın birinci katibi S.Arutunyan isə erməni xislətini biruzə verərək hiyləgərcəsinə öz çıxışında bildirmişdir: "Yenidənqurma ilə əlaqədar olaraq DQMV-nin erməni əhalisinin öz iradəsini bildirməsi Ermənistan SSR-in qonşu respublikanın ərazisinə qəsdi kimi qarşılanmışdır. Amma DQMV məsələsi

ərazi mübahisəsi deyildir. Bu məsələni Ermənistan yox, Dağlıq Qarabağ əhalisinin özü qaldırmışdır və onun mahiyyəti xalqın öz müqəddaratını müstəqil təyin etməsindən ibarətdir". Birinci katibin səsləndirdiyi fikirdən göründüyü kimi Dağlıq Qarabağın ermənilərə məxsusluğunu ifadə etmişdir.

Heydər Əliyev isə Qarabağdakı hadisələrdən narahat olaraq ordakı məsələləri «Ana torpaq» qəzetinə verdiyi müsahibədə təhlil etmişdir. Həmçinin Qarabağdakı hadisələrə biganə yanaşan respublika rəhbərliyinin xalqı çətin vəziyyətə salacağını, cəmiyyətin demokratikləşməsinin vacibliyi ilə bağlı aşağıdakı müsahibəni vermişdir: "Mənə elə gəlir ki, Azərbaycan xalqı milli oyanış, milli dirçəliş, milli özünüdərketmə dövründə gərək müstəqil demokratik yolla inkişaf etsin. Daha dəqiq desək, gərək cəmiyyətimizdə demokratik proseslər daha da sürətlə inkişaf etdirilsin. Bizim başqa yolumuz yoxdur. Əgər bundan sonra demokratik yolla getməsək, nə Azərbaycanın tam dövlət müstəqilliyinə nail ola bilərik, nə də xalqımızın tarixini, ənənələrini əsas götürməklə, özümüzü dünya millətləri səviyyəsində hiss edə bilərik" [5, s.10].

Günü-gündən Azərbaycan xalqının Heydər Əliyevə olan sevgisi və ehtiyacı artmaqda davam edirdi. Bunu yaxşı dərk edən o dövrkü rəhbərlik hər cəhətdən onun doğma vətənə qayıtmasına mane olmağa çalışırdılar. Hətda onun qayıdışını "Azərbaycanda böyük qarşıqlıqlar baş verə bilər" xəbərdarlığı, Heydər Əliyevə qarşı bir sıra planların hazırlanması, Bakıya qaydacağını bilən Azərnəşrin direktoru Əjdər Xanbabayevin qətlə yetirilməsi kimi işlər onu yolundan döndərə bilmədi. 20 iyul 1990-cı ildə Bakıya sonra isə, 22 iyulda Naxçıvana gəldi. Naxçıvanda böyük sevgi və məhəbbətlə qarşılanan Heydər Əliyev bu hadisə ilə bağlı üz təsüratlarında belə demişdi: "Naxçıvana gələndə Naxçıvan ayağa qalxdı, Naxçıvan məni qucaqladı, bağrına basdı. Görünür, mənim Naxçıvana gəlməyim taleyin işi imiş" [7, s.43]. Naxçıvanda 30 sentyabr 1990-cı ildə baş tutan seçkilərdə Heydər Əliyev Azərbaycan SSR Ali sovetinə və Naxçıvan MSSR Ali Sovetinə deputat seçildi. Deputat kimi fəaliyyətə başlamasının ilk günündən Azərbaycanın müstəqilliyi uğrunda mübarizəyə başlayan Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanın adından "Sovet Sosialist" sözləri gütürülərək Naxçıvan Muxtar Respublikası adlandırılmış, Azərbaycan Xalq Cümhuriyyətinin 3 rəngli bayrağı Naxçıvan MR-nın Dövlət bayrağı kimi qəbul edilmişdir. Onu da qeyd etməliyik ki, bu qərarlar alınarkən hələ Azərbaycan öz müstəqlilliyini elan etməmiş və SSRİ öz müstəqilliyini saxlayırdı. Ona görə də 17 noyabr 1990-cı ildə bu tarixi sessiyaya rəhbərlik edən Heydər Əliyev öz üzərinə çox böyük və məsuliyyətli iş götürmüş, deputatları bu qərarların qəbul olunmasının vacibliyinə inandıra bilmiş və həmin qərarlar qəbul edilmişdir. Həmçinin, Heydər Əliyev Naxçıvan MR Ali Məclisinin 21 noyabr 1990-cı ildə keçirilən sessiyasında 20 Yanvar faciəsinə siyasi qiymət verilməməsinə etiraz olaraq 20 Yanvarın hər il Naxçıvan MR-da "Milli matəm günü" kimi qeyd olunması qərarını almışdır [6, s.150].

1990-cı il 29 noyabr tarixində Naxçıvan Ali Məclisinin sessiyasında alınan qərarların tətbiq olunması, qərarlara uyğun olaraq muxtar respublika ərazisində fəaliyyət göstərən dövlət idarələrinin blanklarının, möhürlərinin dəyişdirilməsi, yeni bayraqların, deputatlar üçün yeni nişanların hazırlanması haqqında qərar vermişdir. 20 Yanvar faciəsinin törədilməsində günahkar olanların tapılıb cəzalandırılmamasına Heydər Əliyev öz münasibətini bildirərək 1991-ci il iyunun 19-da SSRİ Nazirlər Sovetinə aşağıdakı məzmunda məktub göndərmişdir: «Yanvar hadisələrində yüzlərlə adam öldürüldü və şikəst edildi. Artıq il yarım keçib. Nəinki bu dəhşətli cinayətlərin hamıya məlum olan günahkarları üzə çıxarılmayıb, əksinə, bunları ört-bastır etmək üçün əllərindən gələni edirlər. Ümid edirlər ki, zaman keçdikcə bu faciə unudulacaq. Ancaq tarix dəfələrlə sübüt etmişdir ki, doğma xalqa qarşı törədilmiş qanlı cinayətləri on illər keçsə də, unutmaq və bağışlamaq mümkün deyil» [2, s.286].

1990 və 1991-ci illərdə ermənilər həmişə olduğu kimi SSRİ məkanında yaranmış şəraitdən və orduda intizamın pozulmasından məharətlə istifadə edərək, erməni diasporunun köməyi ilə silahlanırdılar. «Krasnaya zvezda» qəzetinin verdiyi məlumata görə İrəvanda erməni terrorçuları hərbi hissəyə hücum edərək 165 ədəd reaktiv oqnemyotu(odvuranı), onun 102 ədəd başlığını və 675 ədəd siqnal raketini aparıblar [10, s.288].

Öz separatçılıq əməllərindən əl çəkməyən ermənilər silahlanaraq genişlənməkdə olan terrorçuluq fəaliyyətini daha fərqli bir boyuta çevirdilər. Onlar 10 sentyabr 1990-cı ildə uzun müddət Ağdərə Rayon Komitəsinin II katibi işləyən Arif Əliyevi girov götürərək 12 gün ağır işgəncələr altında saxlamışdılar. Həmçinin, partlayış üsulundan istifadə edərək onlarla azərbaycanlını qətlə yetirmişdilər. Belə partlayışlardan ilki 1990-cı ilin 15 sentyabrında DQMV-də tele-radio mərkəzinin partdadılması

olmuşdur. Sonrakı partlayış isə 30 noyabrda Xankəndi aeraportu yaxınlığında törədilmiş və nəticədə 2 Azərbaycanlı qətlə yetirilmiş, 11 nəfər yaralanmışdır. Qadın, uşaq, qoca demədən azərbaycanlılara qarşı öz çirkin əməllərindən əl çəkməyən erməni terrorçuları, hətda 9 yanvar 1991-ci ildə «Molodyoj Azerbaydjana» qəzetinin müxbiri Salatın Əsgərovanın olduğu maşına atəş açaraq onunla birlikdə 3 hərbi qulluqçunu qətlə yetirmişdilər. Həmçinin, ermənilər rəhbər şəxsə qarşı terrorçuluq əməllərini də həyata keçirtməkdən çəkinmirdilər. 9 may 1991-ci ildə DQMV Təşkilat Komitəsinin rəhbəri V.P.Polyaniçkoya ermənilər sui-qəsd planı hazırlasalar da, xoşbəxtlikdən baş tutmamışdı. Lakin o, bir müddət sonra «naməlum» şəxs tərəfindən Şimali Osetiyada öldürüldü [8, s.221].

SSRİ-nin 1991-ci ilin martın 17-də yeni ittifaq müqaviləsi əsasında saxlanılmasına dair referendumun keçirilməsi nəzərdə tutulurdu. İttifaq müqaviləsinin bağlanmasına Azərbaycan rəhbərliyi razılıq versə də, Ermənistan rəhbərliyi buna etiraz edərək boykot yolunu tutdu. Ona görə də Mərkəz Ermənistan rəhbərliyini cəzalandırmaq və yenidən öz təsir dairəsinə qaytarmaq üçün bəzi addımlar atmaq qərarına gəldi. Bunun nəticəsində bu qrup qoşun dəstələri ermənilərin baza rayonlarına yeridildi. Aprelin 30-dan mayın 15-nə kimi davam edən əməliyyat zamanı Çaykənd, Qarabulaq, Hadrut istiqamətində ermənilərin bir sıra baza məntəqələri ləğv edildi. 1991-ci il Aprel əməliyyatından sonra ermənilər ciddi şəkildə geri çəkildilər. Qoşunların Dağlıq Qarabağdan çıxarılmasına razılıq verilməsi, Dağlıq Qarabağın Azərbaycanın tərkibində qalmasına razılıq verilməsi idi. Ermənistan tərəfi partiya funksioneri Valeri Qriqoryanın rəhbərlik etdiyi nümayəndə heyəti təkliflə Bakıya gəldi. Bakıda alınan qərardan deyəsən razı qalmayan Ermənistan tərəfi Valeri Qriqoryanın Xankəndinə qayıtmasından bir neçə gün sonra onun öldürülməsini planladılar. 1991-ci ilin avqustunda imperiyada baş vermiş dövlət çevrilişindən maksimum yararlanan ermənilər imperiyanın Dağlıq Qarabağdakı hərbi qüvvələrini ələ alaraq sentyabrın 2-də "Dağlıq Qarabağ respublikası deyilən qondarma qurumu yaratdılar. Ermənistan tərəfi işğal faktını gizlətmək üçün qondarma qurumu ortaya atdı. Ərazidə olan 15 min nəfərlik erməni silahlı dəstələri "Dağlıq Qarabağ özünümüdafiə qüvvələri" adı altında birləşdirildi, sonralar isə "DQR müdafiə ordusu" adlandırıldı. Azərbaycan tərəfi isə cavab olaraq Dağlıq Qarabağın muxtariyyətini ləğv etdi [1, s.40].

SSRİ-nin dağılmağını sürətləndirən daxili münaqişələr və rəhbərliyin yarıtmaz siyasəti nəticəsində artıq respublikalar bir birinin ardınca öz müstəqilliklərini elan edirdilər. Belə bir şəraitdə nəhayət, 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı" yekdilliklə qəbul edildi. SSRİ-nin isə, 1991-ci il dekabrın 8-də Brest şəhəri yaxınlığındakı "Viskuli" iqamətgahında Rusiya Federasiyası, Ukrayna və Belarus respublikaları rəhbərləri tərəfindən Müstəqil Dövlətlər Birliyi (MDB) yaradılması haqqında müqavilə ilə tamamilə mövcudiyyətinə son qoyulduğu elan olundu.

*Nəticə.* Məqalədə qeyd olunan hadisələr SSRİ rəhbərliyinin ermənilərin törətdiyi qırğınlara səs çıxarmaması ölkədə qarşıqlıq və əhali nazarazılığına səbəb olmuşdur. Separatçılıq əməllərindən əl çəkməyən ermənilər silahlanaraq genişlənməkdə olan terrorçuluq fəaliyyətini daha fərqli bir boyuta çevirməsindən və terrorçuluq fəaliyyətindən bəhs olunmuşdur. Qırmızı ordunun törətdiyi 20 Yanvar faciəsindən sonra "Səhər" qəzetinin çəkinmədən xalqın başına gətirilən müsibəti işıqlandırmış, bu hadisələrə biganə qalmayaraq Moskvanı tərk edib ölkəyə qayıdan Heydər Əliyev Naxçıvanda Ali sovetin binasında üçrəngli bayrağımızı SSRİ bayrağı ilə əvəz etmişdir. Artan narazılıq və ixtişaşlar nəticəsində Azərbaycan və digər respublikalarda başlanılan azadlıq mübarizəsi ölkəmizin öz müstəqilliyinə təkrar qovuşmasına və eyni zamanda SSRİ-nin süqutuna gətirib çıxartdı.

## ƏDƏBİYYAT

1. Akif Nağı. Qarabağ müharibəsi (Qısa tarix). Bakı, "MBM-R", 2009, 112 s.
2. Azərbaycanlıların soyqırımı: tarixin qanlı salnaməsi. I cild. Bakı, Oskar NPM, 2012, 444s.
3. Azərbaycan tarixi. Yeddi cilddə. VII cild (1941-2002-ci illər). Bakı, "Elm", 2008, 608 s.
4. Azərbaycan tarixi. Abdullayev M. elmi redaktorluğu ilə. Bakı, "Bakı Universiteti" nəşriyyatı, 2015, 412 s.
5. Heydər Əliyev və mətbuat. I cild (4 cilddə). Bakı, "Nurlar", 2003, 640 s.

6. Qayıdış (1990-1993). Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. Bakı, "Azərbaycan" nəşriyyatı, 2008, 840 s.
7. Məmmədov M. Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslər (1988-2005-ci illər). Bakı, Şirvannəşr, 2005, 208 s.
8. Məmmədov N. Azərbaycan Respublikasında Qarabağ bölgəsi 1986-1990-cı illərdə. Bakı, "Avropa" nəşriyyatı, 2018, 340 s.
9. Məhərrəmov V. Qanlı gecə - Qanlı tarix. Bakı, Hərbi Nəşriyyat, 2011, 96 s.
10. Paşayev A. XIX-XX əsrlərdə ermənilərin azərbaycanlılara qarşı ərazi iddiaları, soyqırımları və deportasiyaları (arxiv sənəd və materialları əsasında). Bakı, "Çaşıoğlu", 2011, 328 s.
11. Pompeyev Y. Qarabağ qan içində. Tərcümə. Bakı, "Azərbaycan Ensiklopediyası", 1996, 160 s.

**ELMAR ASGEROV**
***PhD student of Baku State University***

## POLITICAL SITUATION IN AZERBAIJAN AT THE END OF THE 20TH CENTURY (1990-1991)

The article deals with the socio-political situation of Azerbaijan in 1990-1991 of the twentieth century, incomplete policy of the the USSR leadership, turmoil prevailing in the country, January 20 tragedy, terror of Armenians against Azerbaijanis, Nagorno Karabakh conflict, and Heydar Aliyev's struggle for Azerbaijan's independence as a secret citizen and MP after returning to Nakhchivaн.

*Keywords*: Karabakh, January 20, daily, soviet, prestroika.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 20 may 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 06 yanvar 2021-ci il.*
*Rəyçilər: t.e.d. Nuru Məmmədov, t.e.d. İbrahim Zeynalov.*

**UOT 32:93/94**

**LEYLA ÇİVİŞOVA**
*Beynəlxalq münasibətlər kafedrasının doktorantı*
**E-mail: leyla.civisova@mail.ru**

# II DÜNYA MÜHARİBƏSİNİN SONLARI VƏ MÜHARİBƏDƏN SONRAKI İLK İLLƏRDƏ SSRİ-İRAN MÜNASİBƏTLƏRİ

*II dünya müharibəsinin sonlarından etibarən Yaxın və Orta Şərqin geosiyasi həyatında İranın əhəmiyyəti o dərəcədə artmışdı ki, müttəfiq olmalarına baxmayaraq bu məsələdə SSRİ, ABŞ və İngiltərə arasında ziddiyyətlər özünü açıq şəkildə göstərməyə başlamışdı. Iranla bağlı cərəyan etməkdə olan hadisələrə münasibətdə İngiltərə və ABŞ hökumətləri oxşar mövqelərdən çıxış edirdilər. Fərqli mövqe sovet hökumətinə məxsus idi ki, bu mövqedə bütövlükdə əvvəllərdə olduğu kimi, müharibə dövrü və sonrakı ilk illərdə də iki məsələ mühüm yer tuturdu: a) Cənubi Azərbaycan məsələsi; b) İranın şimal ərazilərindəki neft mənbələrinin istismarı məsələsi.*

*Göstərilən dövrdə məhz bunlarla əlaqədar SSRİ-nin İran siyasətində sərtləşmə/yumşalma münasibətləri özünü bütün sahələrdə göstərirdi. Məqalədə II dünya müharibəsinin sonlarından 50-ci illərin əvvəllərinə qədərki dövrdə sovet-İran münasibətlərinin siyasi aspektləri, İranın ətrafında gedən geosiyasi oyunlar, ABŞ və İngiltərənin yeritdiyi İran siyasəti, İran neftinin ələ keçirilməsi uğrunda diplomatik-siyasi mübarizə kimi problemlər regionda genişlənən milli azadlıq hərəkatları fonunda ətraflı təhlil edilir.*

*Açar sözlər*: SSRİ, İran, ABŞ, İngiltərə, ikinci dünya müharibəsi, müttəfiqlik, geosiyasi rəqabət, Cənubi Azərbaycan məsələsi, İran nefti, işğal, diplomatik mübarizə, soyuq müharibə.

*Giriş.* Yaxın və Orta Şərqin geosiyasi həyatında II dünya müharibəsinin sonlarına doğru İranın əhəmiyyəti o dərəcədə artmışdı ki, bu məsələdə Atlantik xartiyasının üzvləri kimi, SSRİ, ABŞ və İngiltərə arasında ziddiyyətlər özünü göstərməyə başlamışdı. Iranla bağlı cərəyan etməkdə olan hadisələrə münasibətdə İngiltərə hökuməti ABŞ-ın mövqelərində dururdu. Fərqli mövqe sovet hökumətinə məxsus idi ki, bu mövqe bütövlükdə əvvəllərdə olduğu kimi, müharibə dövründə də İrana münasibətdə dualist xarakter daşıyırdı. Ümumiyyətlə, SSRİ-nin xarici siyasətində müharibə dövrü və sonrakı ilk illərdə iki məsələ mühüm yer tuturdu:

- birincisi, Cənubi Azərbaycan məsələsi;
- ikincisi, İranın şimalındakı neft mənbələrinin istismarı məsələsi.

Təsadüfi deyildi ki, məhz bunlarla əlaqədar SSRİ-nin İran siyasətində sərtləşmə/yumşalma münasibətləri özünü bütün sahələrdə gösrərirdi. Sovet hökuməti də İrana I Pyotrun "Vəsiyyətnamə"sində nəzərdə tutulan münasibəti sərgiləyirdi, İranı həmişə Rusiyadan asılı vəziyyətdə saxlamaq və qüvvətlənməsinə imkan verməmək. Tarixə müraciət etsək, İran 1907-ci ilin avqustunda çar Rusiyası ilə İngiltərə arasında nüfuz dairələrinə bölünmüşdü (9, 189). Rusiyada bolşevik çevrilişindən sonra iki ölkə arasında münasibətlər 1921-ci il 26 fevral müqaviləsinə əsasən nizamlanırdı. Müqavilənin beynəlxalq hüquq normalarına zidd olması və Rusiyanın təzyiqi ilə imzalanmasını onun 5-ci və 6-cı maddələrinin təhlili aydın şəkildə göstərirdi. Belə ki, 5-ci maddəyə görə, İran öz ərazisində digər dövlətlərə qarşı yönələn qruplaşmalara və hərəkətlərə yol verməyəcəyi öhdəliyi götürməyə vadar edilir, hansı fəaliyyətin düşmənçilik hərəkəti olduğunu müəyyənləşdirmək isə SSRİ-nin öhdəsinə buraxılırdı. Müqavilənin 6-cı maddəsi açıq imperialist xarakteri daşıyırdı. Həmin maddədə deyilirdi: "Əgər İran tərəfdən sovet dövlətinin sərhədləri üçün təhlükə yaranarsa və İran hökumətinin onu aradan qaldırmaq imkanı olmazsa, onda Rusiyanın sovet hökumətini müdafiə etmək üçün hərbi tədbirlər görməklə İran ərazisinə də öz qoşunlarını yeritmək hüququ vardır."(8, 46)

Sovet hökuməti məhz 1921-ci il 26 fevral müqaviləsini əsas götürməklə İngiltərə ilə müvafiq razılaşmadan sonra 1941-ci il avqustun 25-də öz qoşunlarını İranın şimal ərazisinə - Cənubi Azərbaycana yeritmişdi, İranın cənubu isə ingilis qoşunları tərəfindən işğal olunmuşdu (5, 12-13). Sovet hökumətinin 1941-ci il avqustun 25-də İranın SSRİ-dəki səfiri Məhəmməd Səidə verdiyi notada İranda yaranmış vəziyyətin səciyyəsi və İrana sovet hərbi hissələrinin yeridilməsi səbəbləri

açıq şəkildə göstərilirdi: “Almaniyanın SSRİ üzərinə hücumundan sonra keçən dövr ərzində sovet hökuməti cari ildə üç dəfə - iyunun 26-da, iyulun 19-da və avqustun 16-da İran hökumətinin diqqətini alman casuslarının İrandakı pozuculuq və casusluq-təxribatçılıq fəaliyyətinin doğurduğu təhlükəyə yönəltmişdi... Təəssüflər olsun ki, İran hökuməti alman agentləri tərəfindən İran ərazisində qarışıqlıq və iğtişaşlara son qoya biləcək tədbirlərin görülməsindən imtina etdi və ... bunun nəticəsində sovet hökuməti zəruri tədbirlər görməyə və ləngimədən 1921-ci il müqaviləsinin 6-cı maddəsi ilə Sovet İttifaqına məxsus hüququ həyata keçirməyə - özünümüdafiə məqsədi ilə öz qoşunlarını müvəqqəti olaraq İran ərazisinə yeritməyə məcburdur.” Notada eyni zamanda Sovet hökumətinin İrana heç bir ərazi iddiasının olmaması göstərilir və bildirilirdi ki, “İranın və SSRİ-nin maraqlarına qorxu yaradan bu təhlükə aradan qaldırılan kimi”, Sovet hökuməti öz qoşunlarını İrandan çıxaracaqdır (1, s.136; s.142).

İkinci dünya müharibəsinin sonlarında cərəyan edən hadisələrin müasirlik işığında araşdırılması göstərir ki, SSRİ-nin İranın şimalına qoşun yeritməsi ilk növbədə geosiyasi maraqlardan və Şimali İran neftinə sahiblənmək arzularından qaynaqlanırdı, çünki azərbaycanlı müəlliflərdən A.Məmmədlinin dediyi kimi, İranda cəmi iki min nəfərlik alman casusunun fəaliyyətinin qarşısını almaq üçün ölkənin işğal olunmasına heç bir zərurət yox idi (3, 94). Bununla belə, bir faktı da nəzərə almaq lazımdır ki, müharibənin gedişində müttəfiqlərin İrandan keçməklə SSRİ-yə çatdırdıqları 4 mln tondan çox hərbi sursat SSRİ-nin hərbi uğurlarında mühüm rol oynamışdı. SSRİ və Qərb ölkələrinin İrana münasibətdə alçaldıcı siyasətinin mahiyyətini aşağıda qeyd edəcəyimiz sənəd əyani şəkildə göstərirdi. Hələ Tehran konfransından xeyli əvvəl, 1942-ci il yanvarın 29-da Tehranda SSRİ, İngiltərə və İran arasında doqquz maddə və üç əlavədən ibarət müttəfiqlik müqaviləsi bağlanmışdı. Bu müqaviləyə görə SSRİ və İngiltərə İranın ərazi bütövlüyünə, suverenliyinə və müstəqilliyinə hörmət edəcəklərini öz öhdələrinə götürür, burada yerləşdirəcəkləri hərbi qüvvələri öz iradələrinə əsasən müəyyənləşdirirdilər. İngiltərənin Baş naziri U.Çörçill 1943-cü il sentyabrın 27-də İ.V.Stalinə yazdığı şəxsi məxfi məktubunda göstərirdi ki, "beynəlxalq konfransın işi qurtaranadək Tehran aeroportu və o rayon bağlı olmalıdır, görüş barədə İran hökumətinə də heç bir məlumat verilməməlidir"(4, 20-21).

ABŞ politoloji fikri II dünya müharibəsinin sonlarına yaxın dünyanın geosiyasi mozaikasında İranın yeri, rolu və əhəmiyyətinə daha realist münasibət sərgiləyirdi. ABŞ-ın maliyyə məmurlarından A.Milspo İranın əhəmiyyətindən bəhs edərək yazırdı: “İran Orta Şərq adlandırılan olduqca geniş rayonun bir hissəsidir. Qərb sərhədlərində bu rayona Sudan, şərq sərhədlərində isə Əfqanıstan daxildir. Türkiyə də olmaqla bu rayona 8 dövlət daxildir ki, coğrafi baxımdan həmişə özünəməxsus siyasi və strateji əhəmiyyətə malik olmuşdur. Bu bölgə Şərqi Aralıq dənizi üzərində ağalıq edir, Süveyş kanalı və Qırmızı dənizi əhatə edir, Hind okeanına çıxır, Asiya və Uzaq Şərqə Avropa dəhlizlərindən birini yaradır, həm də rusların Aralıq dənizinə, Atlantik və Hind okeanlarına gedən çıxışını bağlayır”(1, 102).

Qeyd edək ki, İran dövlətinin paytaxtında keçirilən görüşdən onun hökumətinin xəbərinin olmaması böyük dövlətlərin İrana əyalət münasibətinin əyani göstəricisi idi. Üç ölkə başçısının İrana ikinci dərəcəli dövlət kimi yanaşmalarına baxmayaraq Tehran konfransında (1943-cü il 28 noyabr - 1 dekabr) tərəflərin İran barəsində mövqeyi mahiyyət etibarilə də xalqların milli azadlıq hərəkatına qarşı çevrilmişdi. Belə k, milli azadlıq hərəkatına qarşı Tehranın hər hansı addımı antihitler koalisiyası tərəfindən soyuqqanlıqla qarşılanmalıydı. Çünki Almaniyaya qarşı mübarizədə və həmçinin İngiltərə və SSRİ-nin geosiyasi niyyətlərində İranın mövqelərinin möhkəmləndirilməsi, milli azadlıq hərəkatlarına münasibətdə ehtiyatlı xəttin yeridilməsi lazım idi. İran, onun ərazisi və xalqlarının taleyi ilə bağlı məsələlər müharibənin gedişində müxtəlif səviyyələrdə diplomatik danışıqların mövzusuna çevrilmişdi. Həmin müzakirələrin nəticəsində üç dövlət başçısının Tehran, Krım və Potsdam konfransları və bunlarda İranla bağlı qəbul edilən qərarlar özünəməxsus yer tuturdu.

Hərbi əməliyyatların xüsusilə qızğın dövründə belə İranın ətrafında gedən mürəkkəb siyasi oyunlar səngimək bilmirdi. Əslində hər bir dövlət, xüsusilə qonşuluqda olan sovet dövləti milli və dövlət mənafeyini güdür, yaxın gələcəkdə isə bütövlükdə regionu öz nüfuz dairəsinə daxil etməyi planlaşdırırdı. Təsadüfi deyildi ki, məhz buna görə də İ.Stalin, F.Ruzvelt və U.Çörçill 1943-cü il dekabrın 1-də - Tehran konfransın sonuncu günündə "Üç dövlətin İran haqqında bəyannaməsi"ni

qəbul etməklə bu məsələdə ümumi razılığa gəldiklərini bəyan etmişdilər. Bəyənnaməyə görə, tərəflər İranın tam müstəqilliyini, suverenliyini və ərazi toxunulmazlığını təmin etməyi, müharibə başa çatdıqdan sonra İranın ərazisini tərk etməyi hədəflədiklərini bildirirdilər (10, 460).

Tehran konfransından sonra İngiltərənin İranda mövqeləri nəzərəçarpacaq dərəcədə zəifləməyə başlamışdı. Amerikan qoşunlarının İranın cənubuna çıxarılmasından, almanların İrandan qovulmasından və ölkədəki hərbi vəziyyətdən istifadə edən ABŞ SSRİ ilə güclü rəqabətdə hələ ikinci dünya müharibəsi illərindən ölkədə öz mövqelərini möhkəmlətməkdə idilər. Xüsusilə, Qəvvam əs Səltənə İranda baş nazir (1942-ci il, 9 avqust - 1943-cü il, 13 fevral) vəzifəsinə gələndən sonra bu proses daha da güclənmişdi. Qəvvam ABŞ-a SSRİ-yə alternativ və İranın himayədarı kimi baxırdı, 1943-cü il aprelin 8-də onun layihəsinə əsasən İran-amerikan ticarət sazişi imzalanmış, bununla da İrana gətirilən ABŞ malları üzərinə qoyulan gömrük haqqları azaldılmışdı (3, 80).

Məhz Qəvvamın təşəbbüsü ilə 1943-cü ilin yanvarında İran maliyyəsində baş administrator vəzifəsini alan ABŞ məmuru B.Milspo ikinci dəfə İrana gəlmiş və İran Məclisindən böyük səlahiyyətlər almışdı. Ona İran büdcəsini yaratmaq və işinə nəzarət etmək, bütün dövlət vergilərinə və gəlirlərinə, gömrük gəmilərinə və İran hökumətinin maliyyə ohdəliklərinə nəzarət etmək hüququ verilirdi. Bütün maliyyə məmurlarını işə təyinetmə və işdən çıxarma, əmək haqqlarnı artırma və azaltma, bütün sənədlərdən qeyri-məhdud səlahiyyətlərlə istifadə etmə, maliyyə qanunlarının yenidən işlənməsi, yeni gəlir mənbələrinin axtarılması və s. məsələlər Milsponun səlahiyyətlərinə daxil idi (3, 80-81). O İranın neft sənayesi, ticarəti, hava nəqliyyatı və s. sahələr üzərində ABŞ-ın mövqelərini möhkəmləndirməli idi. Əslində bütün ölkənin iqtisadiyyatı Milsponun nəzarətinə verilmişdi, hətta 1944-cü ildə Milspo Amerika kompaniyalarına neft konsessiyaları verilməsini təmin etməyə cəhd göstərmişdi. Buna görə də Milsponun fəaliyyəti İranın geniş dairələri arasında narazılıq doğurmuş və o 1945-ci il yanvarında ictimaiyyətin təzyiqi, habelə İran Məclisinin qərarı ilə İranı tərk etməyə məcbur olmuşdu (3, 82). Aydın görünürdü ki, hadisələrin belə inkişafında covet kəşfiyyatının da az xidməti olmamışdı.

Sovet İttifaqının öz qoşunlarını İranın şimalına yeritməsi, Tehran və Cənubi Azərbaycanda yerləşdirməsi burada demokratik hərəkatın dərinləşməsində müsbət rol oynamışdı. Məlum olduğu kimi, 1941-1945-ci illərdə Cənubi Azərbaycanda onlarla müxtəlif qəzet və jurnallar Azərbaycan dilində nəşr edilməyə başlamış, demokratik təşkilatlar yaradılmış, azadlıq ideyaları geniş yayılmışdı. Cənubda yaranmış nüfuzlu siyasi partiyaların içərisində 1945-ci ilin sentyabrın əvvəllərində meydana gəlmiş Azərbaycan Demokratik Partiyası (ADP) mühüm əhəmiyyətə malik idi. Məhz ADP-nin fəaliyyəti nəticəsində Cənubi və Şimali Azərbaycanın birləşməsi ideyaları geniş yayılırdı, halbuki o dövrkü beynəlxalq şərait və üç dövlət rəhbərlərinin məkrli siyasəti Azərbaycanın bütövləşməsi üçün zamanın verdiyi fursəti reallaşdırmağa imkan verməmişdi. Sovet hökuməti İranda öz təsirini yaymağa və nüfuzunu möhkəmləndirməyə demokratik hərəkatı dəstəkləməkdən başlamış, İran kommunistlərinə çoxşaxəli maddi və mənəvi dəstək vermişdisə, ABŞ və İngiltərə hökumətləri İranı SSRİ-nin “əlindən almaq üçün” konkret siyasi planlar hazırlamışdılar. Bununla belə, görünür ki, iki Azərbaycanın birləşməsi məsələsinə hər üç cahangir dövlətin münasibəti eyni dərəcədə mənfi olmuşdu ki, bunun nəticəsində Cənubi Azərbaycan təkrar faciələrlə dolu növbəti tarixi mərhələni yaşamış, milli-azadlıq hərəkatı ciddi sınaqlara məruz qalmışdı.

İran hökuməti sovet qoşunlarının olduğu şəraitdə belə Cənubi Azərbaycandakı demokratik hərəkatı yatırtmaq üçün müxtəlif vasitələrdən, xüsusilə də mətbuatdan geniş istifadə edirdi. Müharibənin əvvəllərində Təbrizdə fəaliyyət göstərən, iri mülkədarların və iri tacirlərin mənafeyinə xidmət edən "Azərbaycan Xalq Partiyası" və "İrane Bidar" partiyaları İngiltərə və faşist Almaniyasını təbliğ edir və ətrafında mürtəce qüvvələri birləşdirməyə çalışırdı. İran hökuməti bu partiyalar vasitəsilə Cənubi Azərbaycanda antisovet təbliğatı aparırdı (11, 176). Göstərilən cəhdlərə baxmayaraq nə daxili irticanın, nə də xarici müdaxilənin Cənubi Azərbaycanda azadlıq hərəkatını boğmağa gücü çatmadı. Bu məsələdə milli faktor böyük rol oynayırdı.

Müharibənin sonlarında İran hökumətinə Murtəza Bəyat başçılıq edirdi, lakin o apreldə istehfa vermiş və yeni hökumət mayın ortalarında qurulmuşdu ki, ona İngiltərəyə meylli siyasət yeridən İbrahim Həkimi başçılıq edirdi. Hökumətinin xarici siyasətində ilk addım Tehrandakı sovet, ingilis və Amerika səfirlərinə qalib ölkə əsgərlərinin İrandan çıxarılması haqqında nota vermək

olmuşdu. İranın xarici işlər naziri Ə.Sipehbudinin sovet səfiri M.Maksimova verdiyi 19 may 1945 - ci il tarixli notada deyilirdi ki, «savaşin sona çatması münasibəti ilə ürəkdən sevindik. İran hökümətinin təbriklərini böyük müttəfiqlərin qəhrəman ordusu ilə birlikdə düşmənin qüvvələrini əzmiş, alman ordularını şərtsiz təslim olmağa məcbur etmiş SSRİ-nin qüvvətli ordusuna çatdırmağı özümüzə borc bilirik. İranla Sovetlər birliyi arasındakı yaxşı münasibətləri təsdiq etməklə yanaşı, İran hökumətinin aşağıdakı fikrini və ricasını zati-alinizin nəzərinə çatdırırıq. Belə ki, Avropada müharibə rəsmən bitib. Savaşın nəticəsi olaraq İrandakı mövcud vəziyyəti saxlamağa ehtiyac duymuruq. Ölkənin qısa müddətdə normala dönməsinin zəruriliyini və İran xalqının iradəsini ifadə edərək bildiririk ki, artıq İran ərazisində sizin dövlətininizin silahlı qüvvələrinin qalmasına ehtiyac yoxdur. Almaniya ilə savaşda bizim müttəfiqlərin qalibiyyətinə yardım məqsədilə imzalanmış üç dövlətin müqaviləsinin ruhuna uyğun olaraq İran hökuməti rica edir ki, Sovet İttifaqı silahlı qüvvələri İran ərazisini tərk etsin. Sovet səfirindən rica edirik ki, yuxarıda deyilənləri Sovetlər birliyi hökumətinin nəzərinə çatdırsın və İran Xarici İşlər Nazirliyinə bu məsələ ilə əlaqədar öz hökumətinin razılığını bildirsin»(2).

İran XİN-in İngiltərə və Amerika səfirliyinə təqdim etdiyi notalar da eyni məzmunda idi. Lakin İran siyasi dairələrinin müttəfiq dövlətlərin qoşunlarının ölkənin sərhəddlərindən asanlıqla çıxacağı haqqında fikirlər həqiqətə uyğun deyildi. Çünki Almaniya üzərində əldə edilən qələbədən sonra nəinki SSRİ-nin, habelə ABŞ və İngiltərənin də İranla bağlı planları geosiyasi və enerji amillərinə köklənmişdi. Soyuq müharibə tədricən Yaxın və Orta Şərqi, xüsusilə də İran və Türkiyəni əhatə etməkdə idi. Dünya müharibəsindən sonra İngiltərə, ABŞ və SSRİ arasında İran bazarına sahib olmaq, İranın şimal və cənubunda neft yataqlarını ələ keçirmək uğrunda güclü rəqabət gedirdi.

Sovet İttifaqının Cənubi Azərbaycan, xüsusən də İranla əlaqədar siyasətinin əsasında başlıca amil kimi neft məsələsinin olmasını müasir politoloji fikir, o cümlədən də İran mənbələri və tədqiqat əsərləri təsdiq edirlər. Sənədlər 1945-ci il iyunun əvvəllərindən etibarən Cənubi Azərbaycanda SSRİ-nin müəyyənləşdirdiyi aparıcı siyasi xəttin neft uğrunda mübarizə olduğunu göstərməklə yanaşı, həm də bu siyasətin həyata keçirilməsi yollarına aydınlıq gətirirdi. Belə kl, 6 iyun 1945-ci il tarixində ÜK(b)P Mərkəzi Komitəsi Siyasi Bürosu uzun tərəddüdlərdən sonra Cənubi Azərbaycanda və İranın şimalındakı digər vilayətlərdə fəaliyyətin təşkili haqqında gizli qərar qəbul etdi. Qərarda Cənubi Azərbaycana geniş hüquqi və milli muxtariyyət verilməsi üçün hazırlıq işlərinə başlanması məqsədəuyğun hesab edilirdi. Eyni zamanda Gilan, Mazandaran, Gorgan və Xorasan vilayətlərində fəaliyyətin genişləndirilməsi, bu hərəkata liderlik etmək üçün Azərbaycan Demokrat Partiyası yaradılması və Azərbaycan əhalisinin bütün təbəqələrinin müstəqillik uğrunda hərəkata cəlb olunması nəzərdə tutulurdu. Hərəkata başçılıq etməli olan məsul işçilər qrupu Təbrizdə yaradılmalı, onlar öz fəaliyyətlərini Təbrizdəki SSRİ Baş konsulluğu ilə əlaqəli şəkildə qurmalı idilər. Bu qrupa ümumilikdə başçılıq etmək vəzifəsi Azərbaycan KP MK-nın rəhbəri M.C.Bağırova həvalə olunmuşdu. Siyasi Büronun 6 iyun tarixli qərarının 5-ci bəndi Cənubi Azərbaycandakı millət vəkili seçimlərinin aşağıdakı prinsiplərini müəyyən etmişdi:

- dövlət və böyük torpaq sahibləri hesabına kəndlilərə torpaq payı ayrılması və onlara uzunmüddətli kredit verilməsi;
- müəssisələrdə işin inkişafı və genişlədilməsi, eyni zamanda digər ictimai vasitələrlə işsizliyin ləğv edilməsi;
- şəhərlərin gözəlləşdirilməsi və əhalinin su ilə təmin edilməsi;
- əhalinin sağlamlığı ilə bağlı işlərin yaxşılaşdırılması;
- dövlət vergilərinin 50%-dən az olmayan qisminin yerli ehtiyaclar üçün ayrılması;
- milli azlıqların və tayfaların hüquq bərabərliyi, Azərbaycan, kürd, erməni, assuri dillərində məktəblər açılması, kitab və qəzetlərin nəşri, məhkəmə və yerli müəssisələrin yazışmalarının ana dillərində aparılması, əyalət idarələrinin, buna əsasən polis və jandarmanın yerli milli qüvvələrinin təşkil edilməsi, əyalət, vilayət və şəhər məclisləri kimi yerli idarələrin qurulması;
- Sovet - İran idarələrinin köklü şəkildə yaxınlaşdırılması (2).

Qərarın digər bəndlərinə görə, Cənubi Azərbaycanda mədəni təbliğat işini gücləndirmək üçün Azərbaycan SSR-nin İranla mədəni əlaqə cəmiyyəti yaradılmalı, Təbrizdə «Sovet Azərbaycanının Dostları» cəmiyyəti təsis edilməli, Azərbaycanın bütün vilayətlərində və Gilanda bu cəmiyyətin

şöbələrinin fəaliyyəti təşkil edilməli idi. Azərbaycan KP MK-ya İranda yaymaq üçün Bakıda aylıq bir jurnal və gündəlik üç yeni qəzet nəşr edilməsi tapşırılmışdı. Azərbaycan Nəşriyyat və Poliqrafiya Birliyinə Cənubi Azərbaycan Demokrat Partiyasının mətbəə vasitələri ilə təmin etmək üçün üç düz səthli makina verilməsi nəzərdə tutulmuşdu. Ayrıca qərara görə, SSRİ Xarici Ticarət Komissarlığına Bakıda nəşr ediləcək jurnal və Cənubi Azərbaycanda 30 min tirajla çıxacaq qəzetləri kağızla təmin etmək vəzifəsi tapşırılmışdı. İranda seçkilərin uğurla başa çatması üçün Azərbaycan Kommunist Pratiyası Mərkəzi Komitəsinə bir milyon manat həcmində xüsusi fond təsis edilmişdi (2).

SSRİ-nin İran siyasətində 1945-1946-cı illər milli-demokratik hərəkatın məğlubiyyətindən sonra ciddi dəyişikliklər baş verdi. İran hökuməti Qərbin köməyi ilə buradakı milli hərəkata divan tutduqdan sonra sovet hökumətinin İrana təsir etmək imkanları zəiflədi, baxmayaraq ki, Cənubi Aərbaycan yenə də diqqət mərkəzində idi. Azərbaycanlı müəlliflərdən S.Bayramzadə XX əsrin 40-cı illərinin axırlarından etibarən İran mərkəzi hökumətinin Azərbaycan məsələsinə münasibətində yeni cəhətlər müəyyən edirdi ki, bu da hər şeydən əvvəl mərkəzi hökumətin Cənubi Azərbaycanda demokratik fikrin, siyasi fəallığın qarşısını almaq səyi ilə bağlı idi. Başqa sözlə, Azərbaycan məsələsinə yalnız etnomilli məsələ çərçivəsində deyil, həm də ümumi siyasi, demokratik hərəkat çərçivəsində yanaşılırdı. Bütöblükdə, İran mərkəzi hökumətinin Azərbaycan siyasəti daim asimilyasiya tədbirləri ilə müşayiət olunurdu. Bununla belə, Tehranda mövcud olan “Azərbaycanlılar cəmiyyəti” Azərbaycanın vəziyyəti barədə yerli mətbuatda tez-tez məlumatlar dərc etdirirdi. Həmin cəmiyyətin üzvləri dövlətin maarif və dil sahəsindəki siyasətini tənqid edirdilər, bəzi zamanlar tənqidlər daha kəskin formada sərgilənirdi (7, 5).

SSRİ kimi İranda hərbi hissələrini yerləşdirmiş ABŞ və İngiltərə hökumətləri də nəinki İranda, habelə Türkiyədə möhkəmlənmək üçün müvafiq planlara malik idilər. İngiltərə hələ XVIII əsrin sonu – XIX əsrin əvvəllərindən İrandan özünün iqtisadi və siyasi mənafeləri üçün istifadə etməyə başlamış və İranın cənub vilayətlərində öz mövqeyini möhkəmləndirmişdi. ABŞ hökuməti isə nəinki İranın, ümumilikdə Yaxın Şərqin neft yataqlarının istismarında maraqlı olduğunu gizlətmirdi. Məhz belə vəziyyətdə İran şahı 1950-ci il iyunun 27-də general Əli Razmarı Baş nazir təyin etmişdi (3, 88-89). Ə.Razmar böhrandan çıxmaq üçün istiqraz almaq məqsədilə ABŞ-a müraciət etdi. Lakin ABŞ amerikalılarınCənubi İran neftini ələ keçirməsinə maneçilik törətdiyinə görə, Razmar hökumətinə istiqraz verməkdən imtina etdi. Yaranmış şəraitdə Razmar hökuməti Sovet hökuməti ilə ticarət müqaviləsi bağlamaq üçün danışıqlara başladı ki, nəticədə 1950-ci ilin noyabrında Sovet-İran ticarət müqaviləsi bağlandı. Hökumət ABŞ və İngiltərənin İran neftinə sahiblənməsinə imkan verəcək tədbirlərin həyata keçirilməsinə imkan vermədi, ABŞ-ın Cənubi İran neftini ələ keçirmək planına ciddi zərbə vuruldu. Yeritdiyi siyasət Ə.Razmara həyatı hesabına başa gəldi və o 1951-ci il martın 7-də Tehran məscidində ibadət zamanı öldürülmüşdü (3, 90-91).

İran neftinin istismarı məsələsində SSRİ İranda ABŞ və İngiltərə ilə ciddi rəqabət aparırdı. Amerika imperialistləri İngiltərə ilə birlikdə M.Müsəddiq hökumətindən (1951-1953) neft sənayesinin milliləşdirilməsi haqqında qanundan əl çəkməsini tələb etdikləri dövrdə İran SSRİ-nin dəstəyindən ciddi şəkildə istifadə edirdi. 1951-ci il iyulun 15-də Tehrana gələn ABŞ prezidentinin vasitəçi nümayəndəsi A.Harriman İran neftinin kəşfi, çıxarılması, təmizlənməsi və satılmasının iki yeni kompaniyanın ixtiyarına verilməsi və burada əsas rolu xaricilərin, ilk növbədə amerikalıların oynaması təklifi ilə çıxış etmişdi. Təsadüfi deyildi ki, A.Harrimanın Tehrana gəlməsi yüzminlik etiraz nümayişi ilə qarşılanmış və hökumət A.Harrimanın təklifini rədd etmişdi.

*Nəticə.* Xarici siyasət prioritetlərinin seçilməsi məsələsində İran hakimiyyətində ciddi mübarizə gedirdi. 1946-1953-cü illərdə İran hökumətinin xarici siyasətində SSRİ və Qərbə münasibətdə iki qüvvə ciddi mübarizə aparırdı ki, xarici siyasət istiqamətləri buna əsasən müəyyənləşdirilirdi. ABŞ-ın başlıca məqsədi SSRİ-İran münasibətlərini pisləşdirmək, İngiltərəni arxa plana keçirmək yolu ilə öz nüfuzunu İranda möhkəmləndirmək idi ki, tədricən buna nail olunmuşdu. M.Müsəddiq hökumətinə qarşı Qərb dövlətlərin təhriki ilə İranda baş verən hadisələr Yaxın və Orta Şərq ölkələrinə də öz təsirini göstərirdi. Xarici kapital ağalığına qarşı mübarizə İraqda, Pakistanda, Livanda, Misirdə, Suriyada, Liviyada və başqa ölkələrdə də görünməmiş vüsət almışdı (6, 266).

## ƏDƏBİYYAT

1.Atamoğlan Məmmədli. İran ikinci dünya müharibəsi illərində. B.: Hüquq ədəb. nəşr., 2000, 156 s.
2. İkinci dünya savaşından sonra Rusiyanın təsiri ilə İrandakı gəlişmələr / Xalq cəbhəsi qəzeti, 2018, 5 sentyabr. http://www.xalqcebhesi.az/news/southazerbaijan/29849.html [Müraciət tarixi: 21.05.2020].
3. Məmmədzadə G.M. İranın sosial siyasəti və beynəlxalq vəziyyəti (XX əsrin 20-ci illəri – XXI əsrin ilk illəri). Dərs vəsaiti. B.: Bakı Universiteti nəşriyyatı, 2010, 364 s.
4. Qasımov M. Beynəlxalq münasibətlərdə Azərbaycan məsələsi. B.: Azərnəşr, 1993, 91 s.
5. Qasımov M., Abdullayev M., Beynəlxalq münasibətlər tarixi (XX əsr. II hissə 1946-1999-cu illər). Dərslik. Bakı, Bakı Universiteti nəşriyyatı, 1999, 450 s.
6. Алиев С.А. История Ирана. М.: Ин-т востоковедения РАН, 2004, 648 с.
7. Байрамзаде С. Южный Азербайджан: от 21 азера до белой революции в Иране (Экономическое и социально-политическое положение). Б.: Tərəqqi MMC, 2016, 334 с.
8. Иран. Очерки новейшей истории. М.: Наука, 1976, 586 с.
9. История Ирана. М.: Изд-во Моск. ун-та, 1977, 576 с.
10. История внешней политики СССР, т. 1 (1917-1945 гг.). М.: Наука, 1976, 520 с.
11. Лаврентьев А.К. Империалистическая политика США и Англии в Иране. М.: Издательство восточной литературы, 1960, 456 с.

**LEYLA CHIVISHOVA**
***Phd of the International Relations Department***

## END OF WORLD WAR II AND USSR-IRAN RELATIONS IN THE FIRST YEARS AFTER THE WAR

From the end of the Second World War, the importance of Iran in the geopolitical life of the Near and Middle East has increased so much that contradictions between the USSR, the US and the UK have already begun to show itself, despite their allies. With regard to the ongoing events in Iran, US and England governments have taken on similar positions. Different positions belonged to the Soviet government that, as in the past in the years of war and in the following years both issues were of great importance: a) The issue of South Azerbaijan; b) the issue of exploitation of oil sources in northern Iran.

In the mentioned period, the USSR's stiffening / softening relations in the Iranian policy have shown itself in all spheres. The article covers the political aspects of the Soviet-Iranian relations, the geopolitical games around Iran, the Iranian policy pursued by the United States and Britain, the diplomatic and political struggle for the seizure of Iranian oil, from the end of the Second World War to the early 50's, in the background of expanding national liberation movements in the region analyzed.

*Keywords:* USSR, Iran, USA, England, World War II, alliance, geopolitical competition, problem of South Azerbaijan, Iranian oil, occupation, diplomatic struggle, cold war.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 21 may 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 06 yanvar 2021-ci il.*
*Rəyçilər: s.e.f.d. Qurban Məmmədov, t.e.d. Sani Hacıyev.*

**UOT 32:93/94**

**ÇİNARƏ SƏFƏROVA**
*Azərbaycan Dövlət Aqrar Universitetinin müəllimi,*
*Gəncə Dövlət Universitetinin dissertantı*
**Email- seferova.cinare@bk.ru**

# TÜRKİYƏ-GÜRCÜSTAN MÜNASİBƏTLƏRİNİ ŞƏRTLƏNDİRƏN AMİLLƏR

*Türkiyə-Gürcüstan əlaqələri Gürcüstanın müstəqilliyini elan etdiyi 9 Aprel 1991-ci il tarixdən hər keçən gün inkişaf etməkdədir. Türkiyə üçün Gürcüstan olduqca əhəmiyyətli bir "strateji ortaq" dır. Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz xətlərində bir dəhlizin yaradılması, tarixi bağlar və iqtisadi tərəfdaşlıq Gürcüstanın Türkiyənin xarici siyasətindəki əhəmiyyətini göstərən açıq səbəblərdən biridir. Xüsusilə, Gürcüstanın qurulduğu ilk illərdə bölgə siyasətində daha fəal olan Türkiyə bölgənin daxili sabitliyi üçün aktiv mövqe tutdu. Ancaq irəliləyən illərdə Türkiyə Gürcüstana istiqamətli siyasətini dəyişdirməməklə birlikdə daxili məsələlərə bilavasitə qarışmağı deyil, mülayim olmağı seçərək, həm bölgədə öz tarazlığını, həm də əmin-amanlığı qorumaq üçün diplomatik bir dildə hərəkət etdi.*

*Açar sözlər*: Gürcüstan, Türkiyə, Strateji Tərəfdaş, Türkiyənin xarici siyasəti, Strateji mövqeyi.

*Giriş.* Qafqaz Avropa və Asiya sərhədində mövcud olan geniş bir geopolitik və stratejik bölgədir. Həmçinin Qafqaz Sovetlər Birliyinin çökməsindən sonra ortaya çıxan sosial, politik və iqtisadi problemlərlə yanaşı həm də həll olunmamış qarşıdurmaların təsiri altındadır. Cənubi Qafqaz sərhədində yerləşən Türkiyə, bölgədə barış və sabitlik mühitinin yaranmasında potensial bir rola sahibdir. Son on ildə daha diqqətli xarici siyasət izləməyə başlayan Türkiyə yeni xarici siyasətində qonşu coğrafiyalardakı problemlərin həllində təsirli rol oynamağı hədəfləri sırasına almışdır. Türkiyənin qonşu bölgələrdəki problemlərin həll olunmasını dəstəkləmə siyasəti regional barış və sabitliyin təmin edilməsi baxımından son dərəcə önəmlidir. Qonşu bölgə olan Cənubi Qafqaz üçün də fərqli olmamalıdır.

Sovet höküməti dağıldıqdan sonra Ermənistan və Gürcüstan Türkiyənin xarici siyasət prioritetləri arasında yer almamışdır. Bu dövlətlərin yerinə Türkiyə Azərbaycan və Orta Asiya türk dövlətləri ilə yaxınlaşma yolunu seçmiş maddi və siyasi qaynaqlarını o regionlarda özü üçün bir təsir dairəsi yaratmaq üçün istifadə etmişdir. Sovet höküməti dağıldıqdan sonra Türkiyənin Azərbaycanla qurulan ikili əlaqələri xarici siyasətinin bu bölgədəki əsas diqqətinə çevrilmişdir. Bu əlaqə cox zaman kimlik və qohumluq vurğusu üzərində cəmlənmişdir. Bu tutumun Türkiyənin Cənubi Qafqazdakı təsirini məhdudlaşdırdığını söyləmək olar. Məsələn, Türkiyənin Azərbaycanla yaxın əlaqəsi və həmrəyliyi Ermənistanla arasındakı əlaqənin davam etdirilməsini çətinləşdirmişdi. Dağlıq Qarabağ probleminin Azərbaycanın xeyrinə həll olunmasında hər zaman qardaşlıq mövqeyi göstərmişdir.

1990-cı illərin əvvəllərində Türkiyə xarici siyasəti Sovetlər Birliyinin dağılması ilə ortaya çıxan boşluqda bir təsir dairəsi yaratmağı hədəfləmişdir.Ancaq yeni qurulan dövlətlərin gözləntiləri ilə Türkiyənin imkanları üst-üstə düşməmiş, bu səbəblə regiona yönələn xarici siyasət gözlənilən uğur qazanmamışdır. Ancaq 1990-cı illərin sonlarından Türkiyə Cənubi Qafqaza yönələn qurucu və geniş əhatə dairəli bir xarici siyasət strategiyası qəbul etməyə başlamışdır. Türkiyə enerji paylama mərkəzi cəhətdən son dərəcə önəm qazanmış, Xəzər təbii qazının, neftinin Qərbə daşınması hökümətin prioritetindən biri olmuşdur. SSRİ-nin dağılması ilə Orta Asiya və Qafqaz respublikalarının müstəqillik qazanması bölgənin enerji qaynaqlarını dünya bazarlarına açılmasını gündəmə gətirdi. Zəngin enerji ehtiyatlarına sahib olmaq və bunları inkişaf etdirmək, reallaşdırmaq istəyən yeni ölkələr enerjinin pula çerilməsi üçün bazarlara çatdırılmasının vacibliyi baxımından təşəbbüslərə başladılar . Xüsusilə, Azərbaycan kimi Gürcüstan da Bakı-Tiflis-Ceyhan boru xəttinin çəkilməsindən sonra önəm qazanan bir ölkə olmuşdur.

Türklər və gürcülər e.ə.VIII əsrdən etibarən bir-biriləri ilə münasibət qurmağa başlayan iki millətdir.Kimmer və iskitlər dövründən etibarən başlayan bu əlaqələr miladi dövrdə belə inkişaf edərək Oğuz türklərinin Anadoluya gəlişi ilə iki qonşu xalqın münasibətlərinə çevrilmişdir. Səlcuqlar dövründə başlayan sıx münasibətlər Osmanlılar dövründə artaraq inkişaf göstərmişdir. Xüsusilə Osmanlı dövlətinin son dövrlərində milliləşdirmə prosesi yaşayarkən, Rusiya çarlığı ilə əlqələrini ayıran və müstəqillik mərhələsinə girən Gürcüstan Türkiyə ilə daha yaxın münasibətlər qurmağa başlamışdır. 1917-ci ildə rus inqilabları ilə başlayan bu müddət tarixi türk və gürcü dostluğunun ən yaxın və sıx əlaqələrinin yaşandığı bir mərhələ olmuşdur.

SSRİ-nin dağılmasından sonra 9 aprel 1991-ci ildə müstəqilliyini elan edən Gürcüstanı ilk tanıyan ölkə Türkiyə olmuşdur. Türkiyənin o zamankı xarici işlər naziri Hikmət Çetin 21 may 1992-ci ildə Tibilisidə olmuşdur və iki ölkə arasında imzalanan saziş ilə Türkiyə-Gürcüstan diplomatik əlaqələri başlamışdır [9, s.124-128]. Elə həmin il Süleyman Dəmirəlin Eduard Şevardnadze ilə görüşündən sonra "Dostluq və Qonşuluq Sazişi" imzalanması ilə ikitərəfli əlaqələrin inkişafı üçün vacib bir addım atılmışdır.

Türkiyənin Cənubi Qafqazdakı rolu regiondakı ölkələr ilə ayrı-ayrı əlaqələrinə bağlıdır. Ehtimalla, Türkiyənin bütövlükdə bölgəyə əyildiyi tək vəziyyət Rusiya və Gürcüstan arasında 2008-ci ildə avqust ayında ortaya çıxan silahlı qarşıdurmalardan dərhal sonra "Qafqaz Sabitlik və Əməkdaşlıq Platforumu" yaratmaq təklifidir. Bu təklifilə Türkiyə, bölgə ölkələri arasında əlaqələri asanlaşdıraraq, sabit və güvənilən əməkdaşlığa yönəlmiş bir çərçivə təqdim etmişdir [2]. Cəhd müsbət qarşılansa da zamanlanma və quruluş baxımından tənqid olunmuşdur. Platformun ən önəmli əksiklərindən biri olaraq AB və ABŞ-ın bura daxil olmaması göstərilmişdir. Bu vəziyyət hər iki tərəflə də yaxın əlaqələri olan Gürcüstanı da özəlliklə əlaqələndirmişdir.

Etnik olaraq Zaqafqaziyanın ən zəngin yerlərindən olan Gürcüstan müstəqilliyinin ilk illərində problemli bölgələr olan Abxaziya və Cənubi Osetiyaya həddindən artıq yönəlmişdir [3, s.345]. Əsasən Türkiyə də SSRİ-nin parçalanmasından sonra türk dövlətlərinə diqqətini cəmləmiş, xüsusən də Azərbaycan və Qarabağ bölgəyə dair siyasətində ön plana çıxmışdı. Rusiya isə "Yaxın Ətraf Doktrinası" ilə Qafqaza olan marağını artırmış və tarixən iddia etdiyi "arxa bağ" üzərində təsirini artırmışdı. Bütün bu siyasi çərçivə içərisində Türkiyə 1994-cü ildən etibarilə Gürcüstan ilə yaxın əlaqələr inkişaf etdirməyə başlamışdır [4, s.127]. Radikal və millətçi çıxışlara sahib Zviad Gamsahurdiyadan sonra vəzifəyə keçən Eduard Şevardnadze Rusiyanın Gürcüstana təsirini tarazlaşdırmaq və tam müstəqilliyi təmin etmək üçün Qərblə yaxşı münasibətlər qurmağın lazım olduğunu düşünərək Türkiyəni bu mənada bir vasitəçi olaraq görmüş, Türkiyə ilə yaxın əlaqələr qurmağa diqqət göstərmişdir [11]. Gürcüstandakı siyasi qarışıqlıq (Cənubi Osetiya və Abxaziya) məsələləri Türkiyənin bölgə ilə əlaqəsini inkişaf etdirməsini bir az geciktirmiştir. Bir tərəfdən bu qarışıqlıq Türkiyəni yaxından maraqlandırmışdır. Xüsusilə Türkiyədə yaşayan abxaz əhali bu proseslərdən təsirlənmiş və reaksiya göstərirdilər. Ankara bir tərəfdən Gürcüstanın strateji mövqeyini, digər tərəfdən, ölkəsində yaşayan abxaz vətəndaşların istəkləri barədə düşünmək məcburiyyətində qalmışdır. Abxaz-Gürcüstan münaqişəsini yüngülləşdirmək üçün BMT və Rusiya arasında fasilələrlə danışıqlar davam etmiş və 1998-ci ildə oktyabr ayında gerçəkləşən görüşlərə, 7-9 iyun 1999-cu ildə İstanbul ev sahibliyi etmişdir. Türkiyə 1999-cu ildə atdığı bu addımlarla iki tərəf arasında vacib bir vasitəçi rolunu oynamışdır [1, s.12-13].

Eduard Şevardnadzenin prezidentliyi dövründə ölkədə iqtisadi və siyasi qeyri-sabitlik artdı, Gürcüstan Avropa standartlarına görə son dərəcə kasıb qalmışdı, Rusiya tərəfindən dəstəklənən Abxaziya və Cənubi Osetiya bölgələri tamamilə Tbilisinin nəzarətindən çıxmışdı. Acarıstan Muxtar Respublikası Aslan Abashidzenin rəhbərliyi ilə öz yolunu tutmağa başlamışdı. Getdikcə dərinləşən siyasi və sosial-iqtisadi böhran 2003-cü il noyabr ayının 2-də keçirilən parlament seçkilərində ən yüksək səviyyəsinə çatmışdır.

Ancaq Gürcüstanda Abxaziya və Cənubi Osetiya kimi separatçı bölgələrdəki problemlər davam edirdi. Gürcüstanın bir hissəsi olmasına baxmayaraq əslində müstəqil olan Abxaziya və Cənubi Osetiyada 1990-cı ildən bəri Rusiya Federasiyasının sülhməramlı qoşunları var. Rusiya Federasiyasının Abxaziyada 2 min, Cənubi Osetiyada 1000 dairəsində əsgəri olduğu təxmin edilirdi [6, s.5].

2003-cü ildə məxmər inqilabı (Gül dövrü) adlandırılan və demokratiya vəd edən hərəkət nəticəsində prezident Şevardnadze istefa etdi və 2004-cü ildə seçimlərdən sonra Mixail Saakaşvili respublikanın prezidenti seçildi. 2007-ci il noyabr ayında Saakaşvili siyasi nümayişlərdən sonra vəzifəsini bir il əvvəl tərk etmək qərarına gəlir və yenidən prezident seçkiləri keçirildi. 2008-ci il yanvar ayının 5-də prezident seçkilərində Mixail Saakaşvili yenidən prezident seçildi. Növbəti dəfə prezident seçkiləri 2013-cü ildə keçirilmişdi [6, s.2].

2008-ci ildə Gül İnqilabı ilə Saakaşvilinin hakimiyyətə gəlməsi gərginliyin əslində alovlandırılmasına səbəb olmuşdur. Şevardnadze dövründə Türkiyə ilə münasibətlər Qərbə yaxın bir siyasət aparan Saakaşvili dövründə eyni şəkildə qalmışdır. Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin verdiyi qazanclar iki ölkə üçün çox vacib olduğu üçün hakimiyyətə gələn Saakaşvili də ikitərəfli əlaqələri yaxın tutmağı hədəfləyən bir siyasət izləmişdir [10, s.139]. 2011-ci ildə Gürcüstan parlamentində təsdiq edilən Milli Təhlükəsizlik Konsepti'nde Türkiyə "strateji müttəfiq" olaraq iştirak etmişdir [5].

Hakimiyyətini millətçi ritorikası ilə gücləndirməyə çalışan Saakaşvili separatçı hərəkətlərin artmasına ən böyük amil olmuşdur. Eyni zamanda ABŞ və NATO ilə tərəfdaşlığı inkişaf etdirərək ordusunda islahatlar aparmışdır. Bütün bu inkişaflar nəticəsində ABŞ və Qərbin dəstəyinə güvənən Saakaşvili əskərlərini "Konstitusiya quruluşunu təmin etmək üçün əməliyyat" adı altında C.Osetyaya yerləşdirməsi Rusiya-Gürcüstan müharibəsinə səbəb olmuşdu [8].

Problemli bölgədə 8 avqust 2008-ci ildə Gürcüstanın Cənubi Osetya bölgəsini nəzarət altına almaq üçün əməliyyat başlatması və sonra Rusiyanın cavab olaraq müharibəyə başlaması bölgədəki gərginliyi artırmışdır. 5 günlük hərbi əməliyyatlar və toqquşmalar nəticəsində Rusiya əməliyyatın dayandırıldığını elan etmiş, ancaq Gürcüstanın əməliyyatı davam etdirəcəyi təqdirdə qarşılıq verəcəyini açıqlamışdır. Gürcüstan prezidenti Saakaşvili isə Rusiyanın rəhbərlik etdiyi MDB-dən ayrıldığını elan etmişdir.

Qafqazdakı strateji mövqeyinə görə Gürcüstan həm Rusiya, həm də ABŞ-ın təsir dairəsinə girmək məcburiyyətində qalmışdır.ABŞ əskərlərini Gürcüstan torpaqlarında yerləşdirməsi Tbilisi ilə Moskva arasında gərginliyə səbəb olmuşdur.Bununla birlikdə Moskva Gürcüstandakı separatçı bölgələrə dəstək verməklə burada hərbi qüvvələr yerləşdirmişdir. ABŞ-ın Gürcüstandakı maraqları daha çox Bakı-Tbilisi-Ceyhan xam neft kəməri və bu boru kəmərinin təhlükəsizliyi ətrafında cəmləşir [6, s.7].

Gürcüstan Qaradəniz, Rusiya Federasiyası və Türkiyə arasındakı coğrafi mövqeyinə görə böyük strateji önəmə sahibdir.Tarixi səbəblərə görə Rusiya ilə uzun və dərin köklü keçmişə sahib olan Gürcüstan Qərb ölkələri və qonşu ölkələrlə münasibətlərə alternativ olaraq inkişaf etməyə başladı. Avropa Birliyi ilə "Tərəfdaşlıq və Əməkdaşlıq" müqaviləsi imzalamış olan Gürcüstan Sülh naminə tərəfdaşlıq proqramında da iştirak edir.

Gürcüstan Türkiyə üçün strateji bir ortaq mövqesindədir. Siyasi və hərbi aspektdən son dərəcə qüvvətli olan əlaqələrin iqtisadi ölçüdə əks olunması üçün səylər göstərilməktədir. Gürcüstan Türkiyə üçün ikili əlaqələr baxımından yeni və fərqli bir dövlətdi.İki dövlət arasında ikili əlaqələri bəlli edən ünsürləri əsasən 3 cəhətdən dəyərləndirə bilərik. 1.Abxaziya və Cənubi Osetiya mövzularında Gürcüstanın həssaslığını; 2.Türkiyədə yaşayan Gürcü coğrafiyasından gəlmiş xalqların reaksiyaları; 3. Son olaraq boru xətləri məsələsində əməkdaşlıq.

Gürcüstan müstəqilliyini əldə etdikdən sonra ölkə içərisində ciddi daxili problemlərlə qarşı-qarşıya qaldı. Gürcüstanın separatçı hərəkatlar olaraq izah etdiyi problemlər qarşısında Türkiyənin siyasəti son dərəcə həssas önəmdə dəyərləndirildi. Türkiyə ümumi xarici siyasətində və əsas prinsiplər çərçivəsində Gürcüstanın ərazi bütövlüyünü dəstəklədiyini hər mühitdə açık olaraq dilə gətirirdi. Separatçı hərəkətlərə qarşı rəsmi çərçivədə isti münasibət yoxdur.Ancaq Türkiyədə yaşayan Gürcüstan coğrafiyasından gəlmiş xalqların Türkiyənin Gürcüstan siyasətindən fərqli gözləntiləri və reaksiyaları oldu. Abxaziya məsələsində Gürcüstana qarşı reaksiyalarını ictimaiyyətlə paylaşdılar [7, s.66].

Ankara 2012-ci ilə qədər Gürcüstana 40 milyon dollardan çox hərbi yardım göstərmişdir və Gürcüstan zabitlərinin təlimində mühüm vəzifələri öz üzərlərinə götürmüşdür. Həmçinin Türkiyədə çox sayda Gürcü mənşəli vətəndaşın yaşaması, ölkələr arasında əlaqələrin qüvvətlənməsinə əhəmiyyətli bir amildir.

20-21 noyabr 2007-ci il tarixlərində Bakı-Tbilisi-Qars dəmiryolu layihəsinin Gürcüstan hissəsində təməlqoyma mərasimi keçirilmişdir.Türkiyədəki rəsmi açılış mərasimi isə 24 iyul 2008-ci il tarixində Qarsda reallaşdırılmışdır.Türkiyə ilə türk Respublikaları arasında kəsilməz dəmiryolu əlaqəsi təmin edilərək tarixi İpək Yolunun canlandırması məqsədi ilə planlanan Qars-Tbilisi dəmiryolunun inşası barəsində 26-29 iyul 1993-cü il tarixlərində Ankarada Türkiyə-Gürcüstan Qarışıq Nəqliyyat Komissiyası iclasında razılıq qəbul edilmiş, bu razılaşma çərçivəsində tərəflərin texniki heyətləri 23 Noyabr 1994-cü ildə Samsunda bir araya gəlmişdi.

Türkiyənin Gürcüstana dəstəyinin önəmli bir hissəsini hərbi yardımlar təşkil etməktədir. Gürcüstan ordusunun NATO standartlarında təchizatlandırılması, imkan və qabiliyyətlərinin artırılması, təlim keçmiş kadr ehtiyacının qarşılanması, xüsusi qoşun hazırlığı kimi mövzularda Türkiyənin böyük dəstəyini görmüşdür. Cənubi Qafqaz Türkiyənin təhlükəsizliyi üçün də xüsusi əhəmiyyətə malikdir. Cənubi Qafqaz Türkiyənin Orta Asiyaya açılan qapısıdır. Türkiyənin Gürcüstan və Azərbaycan ilə münasibətləri hər gün yüksələn istiqamətdə inkişaf etməkdədir. Digər sərhəd qonşusu Ermənistan əsilsiz soyqırım iddiası səbəbiylə düşmən münasibət saxlamaqdadır. Türkiyənin Ermənistanla olan əlaqələrinə təsir edən digər bir konu da Qarabağ məsələsidir.Bu problemlərlə əlaqədar olaraq Türkiyənin Cənubi Qafqaz siyasətinin mərkəzində Azərbaycan və Gürcüstan yerləşir. Türkiyə hər üç ölkənin də müstəqilliklərini dəstəkləmiş və Cənubi Qafqaz ölkələrinin ərazi bütövlüyünü qoruyaraq Türkiyənin və Qafqazın təhlükəsizliyi üçün vacib görmüşdür. Həmçinin, Türkiyənin bölgə ölkələri ilə siyasi və iqtisadi əlaqələrlə yanaşı etnik və mədəni əlaqələri də mövcuddur. Bu əlaqələr bölgənin Türkiyənin xarici siyasətində və Türk ictimai fikrində əhəmiyətli bir yerə sahib olmasına imkan verir.

*Nəticə*. Yekun olaraq onu qeyd etmək lazımdır ki, Cənubi Qafqaz sərhədində yerləşən Türkiyə bölgədə barış və sabitlik mühitinin yaranmasında potensial bir rola sahibdir. Son illərdə daha yaradıcı və diqqətli xarici siyasət izləməyə başlayan Türkiyə qonşu coğrafiyalardakı problemlərin həllində təsirli rol oynamağı bacarmışdır.Türkiyənin qonşu bölgələrdəki problemlərin həll olunmasını dəstəkləmə siyasəti regional barış və sabitliyin təmin edilməsi baxımından son dərəcə önəmlidir. Qonşu bölgə olan Cənubi Qafqaz üçün də fərqli olmamalıdır. Orta Asiya və Qafqazdakı müstəqil dövlətlərin müstəqilliklərini davam etdirmək cəhdləri Türkiyənin təhlükəsizliyi və rus təhdidindən uzaq durmaq baxımından son dərəcə vacibdir. Bugün geçərli olmayan rus əskəri təhdidinin yenidən ortaya çıxmaması Rusiya Federasiyasının bu bölgələrdə hakimiyyət qura bilməməsinə bağlıdır. Bölgə ölkələri ilə hərbi razılaşmalar təsis edilmiş, Türkiyənin tərəf olduğu razılaşmalara daxil edilmələri və eyni ittifaq altına girmələri Türkiyə tərəfindən dəstəklənmişdir. Gürcüstan xarici siyasəti Rus təhdidi ilə mübarizə üçün ittifaqlar siyasətinə yönəlmişdir.Gürcüstan kimi kiçik bir ölkənin Rusiya Federasiyasına qarşı tək mübarizə aparması mümkün deyildir. Bu səbəblə, Gürcüstanın müstəqilliyindən etibarən ona dəstək ola biləcək və Rusiyanı tarazlayacaq dost bir ölkəyə ehtiyacı olmuşdur.Türkiyə bu dəstəyi mümkün olduğu qədər verməyə çalışmış, Gürcüstan xalqı arasında müttəfiq ölkə təəssüratı yaratmışdır.

## ƏDƏBİYYAT

1. Arslan Cahit. Türk-Rus-Gürcü Ilişkilerinin Merkezindeki Ülke: Abhazya // Akademik Bakış, Sayı 16, Nisan 2009, s.96-107. Mənbə: https://arastirmax.com/tr/system/files/dergiler/9383/makaleler/16/arastirmax-turk-rus-gurcu-iliskilerinin-merkezindeki-ulke-abhazya.pdf [Müraciət tarixi: 19.02.2020].
2. Babacan Ali. Turkish Initiatives, Calming the Caucasus / International Herald Tribune, Eylül 23 2008.Mənbə:https://www.nytimes.com/2008/09/23/opinion/23iht-edbabacan.1.16407371.html?searchResultPosition=1 [Müraciət tarixi: 19.02.2020].
3. Buket Elmas. Türkiyenin Gürcistan politikasındakı değişim ve dönüşüm.Uluslararası Sosyal Araştırmalar Dergisi, Cilt: 11 Sayı: 59 Yıl: 2018, s.344-351.
4.Demirağ Yelda. Bağımsızlıktan Kadife Devrime Türkiye-Gürcistan İlişkileri // Uluslararası Ilişkiler, Cilt 2,7 (Güz 2005), s.125-155.

5. Gafarlı O. Gürcistan Seçimleri ve Türkiye'nin Güney Kafkasya Politikası // BİLGESAM, Kasım 2012. Mənbə: https://www.academia.edu/2206947/G%C3%BCrcistan_Se%C3%A7imleri_ve_T%C3%BCrkiye_nin_G%C3%BCney_Kafkasya_Politikas%C4%B1 [Müraciət tarixi: 19.02.2020].
6.Gürcistan Ülke Bülteni.DEİK/Türk-Gürcü İş Konseyi, 2012.Mənbə: https://www.corlutso.org.tr/uploads/docs/gurcistan_ulke_raporu.pdf [Müraciət tarixi: 19.02.2020].
7. Okan Yeşilot. Hazardan Karadenize stratejik Bakış.İstanbul, Yeditepe yayınevi, 2014 Kasım, s.336.
8. Özbay F.Tarihsel Süreç İçerisinde Güney Osetya Sorunu, 2011. Mənbə: http://www.bilgesam.org/tr/index.php?option=com_content&view=article&id=153 [Müraciət tarixi: 19.02.2020].
9. Ural Selçuk. Bağımsızlıktan Kadife Devrime Gürcistan Dış Politikasında Türkiye'nin Yeri (1991-2004) // Kafkas Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, Sayı:7, 2011, s.124-128.
10. Yılmaz Salih & Bahrevskiy Evgeniy. Rusya&Türkiye Avrasya Paktı Mümkün mü? Ankara, SRT Yayınları, 2017, s.334.
11. Cornell E. Svante. Small Nations And Great Powers: A Study Of Ethno-Political Conflict In The Caucasus. Routledge Curzon, 2005, S.65(1), p.142-163.

**CHİNARA SAFAROVA**
***Lecturer of the Azerbaijan State Agrarian University,***
***Candidate for a degree of the Ganja State University***

## FACTORS DETERMINING TURKEY-GEORGIA RELATIONS

Turkish-Georgian relations have been developing day by day since April 9, 1991, when Georgia declared its independence.Georgia is a very important "strategic partner" for Turkey. Creation of one corridor on Baku-Tbilisi-Ceyhan and Baku-Tbilisi-Erzurum oil and gas pipelines, historical ties and economic partnership are one of the obvious reasons for Georgia's importance in Turkey's foreign policy. In particular, Turkey has taken more active position for internal stability of the region in the early yearsof the establishment of Georgia. However, in the coming years, Turkey will not change its policy towards Georgia not to interfere directly in internal affairs, choosing to be mild, acted in a diplomatic language to maintain both its balance and peace in the region.

*Keywords*: Georgia, Turkey, Strategic Partner, Turkish foreign Policy, Strategic Position.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 19 fevral 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 06 yanvar 2021-ci il.*
*Rəyçilər: t.ü.f.d. E.M.Aslanov, t.e.d. Qabil Əliyev.*

**UOT 902**

**ЛАЛЕНДЕР ОРУДЖЕВА**
*Бакинский Государст университет,*
*доктор философии по истории*
**Email: lalandar orucova @gmail.com**

# ОБОРОНИТЕЛЬНЫЕ СООРУЖЕНИЯ И ПОГРЕБАЛЬНЫЕ ПАМЯТНИКИ В ЭПОХУ КУЛЬТУРЫ СРЕДНЕЙ БРОНЗЫ В АЗЕРБАЙДЖАНЕ

*В данной статье на тему оборонительные сооружения и погребальные памятники в эпоху средней бронзы в Азербайджане имеет научное значение. Автор в статье раскрывает вопрос исследования артефактов, которые представляет собой доказательством религиозных воззрений местных племён. На основании памятников, которые были найдены в Нахчиване, Карабахе, на Мугане, Гобустане а также в горной зоне Молого Кавказа можно сделать вывод, что уже в это время здесь была материальная культура, которая является важным фактором.*

*Ключевые слова*: бронза, культура, постройки, эпоха, кирпич.

*Введение.* Развитие древних государств на Ближнем Востоке и появление крупных племенных союзов на территории Закавказья в III – II тысячелетии до н.э. явились одной из причин военных столкновений и грабежей, которые считались самым выгодным источником обогащения**.**

Поэтому в эпоху бронзы, особенно на ее втором этапе, на территории Закавказья, в том числе Азербайджана, наряду с укрепленными поселениями и ранними городами, появляются и мощные оборонительные сооружения_циклопического типа, построенные из громадных квадровых и удлиненных камней. Из оборонительных сооружений на территории южной части Азербайдажана пока исследованы нахичеванские крепости Чалханкала, Вайхыр Гяуркала и др.

**Чалханкала** расположена в 22 км к северо-востоку от Нахичевани, в 10 км севернее Кюльтепе II, около с. Паиз, на правом берегу Джагирчая (приток Нахичеванчая). Находясь на высокой крутой г.Чалхан, она известна также под названием Гяуркала и Огланкала [1, с.35]. В крепость ведут крутые тропинки с востока, из ущелья Джагричая, и с севера - через проход между обрывистыми скалами. Чалханкала своим выгодным расположением и оборонной мощью напоминает известную средневековую крепость Алинджакала.

На г.Чалхан воздвигнуто мощное оборонительное сооружение, словно опоясанное громадными скалами. Поэтому она часто называется Кэмэрдаг (гора с поясом, или опоясанная гора). На юго-восточной стороне, под скалами имеются большие гроты, которые заполнены древними культурными остатками. На поверхности была найдена серая керамика среднего периода эпохи бронзы. Основной вход в Чалханкала через эти гроты.

Оборонительное сооружение Чалханкала тянется в направлении восток-запад. Оно сложено из огромных камней разных размеров (лицевая сторона камней грубо обтесана). Из больших каменных блоков сложены внутренняя и наружная части стен промежуток между ними заполнен глыбами разных размеров [2, с.75, 76-78].

В зависимости от рельефа план стены зигзагообразен, через определенные промежутки в ней имеются выступы в виде контрфорсов. Стена состоит из 22 частей, следующих одна за другой, которые ясно видны в плане. Длина сохранившейся части стены достигает 350 м, высота 2,5 м. Вход в крепость шириной 2,7 м расположен с западной стороны. Верх входа прикрыт длиной плитой, закрывался он большими каменными плитами. По мнению Б.Б.Пиотровского, эта часть стены была циклопического типа и построена из сырцового кирпича.

Внутри крепости, в 150 м к востоку от входа сохранились остатки стены трехкомнатного строения, примыкавшего к оборонительному сооружению.

Зафиксированы также остатки стен большого жилища в юго-восточной части Чалханкалы. Оно вытянуто с запада на восток, состоит из четырех комнат. Здесь во время нашествий можно было поместить тысячи людей и скот.

Вблизи крепости раньше существовал родник, который, повидимому, во время обороны обеспечивал население водой. Кроме того, на скалах имеются естественные углубления - бассейны, наполнявшиеся дождевой водой, употреблявшейся для питья и приготовления пищи. Такая традиция в Нахичеванском крае (например, в Алинджакале) продолжалась и в средние века. На Чалханкале имеются также бассейны, высеченные в скалах. Подобные чашечные углубления известны в Гобустане [4, с.26, 265]. Чалханкала относится к числу циклопических крепостей.

Циклопические строения Закавказья относит к II тысячелетию до н.э., хотя нижний слой Бешташенской крепости (Цалкский район в Грузии) дал материал энеолитического периода. Циклопические сооружения в Азербайджане появились с середины II тысячелетия до н.э. и существовали до середины I тысячелетия до н.э. [5, с. 34].

Чалханкала по строительной технике аналогична оборонительным сооружениям Кюльтепе II, Гяуркала (Шахтахты) и Огланкала (в долине Арпачая), которые датируются XX-XVвв. до н.э.

Появление циклопических сооружений связывается в основном с развитием скотоводства и делит их на три группы: к первой относится циклопические сооружения, в которых в мирное время жила часть населения (при этом остальное население обитало за наружными стенами), а во время нашествий находились все племена и скот; ко второй - циклопические строения небольших размеров, где во время военных столкновений оборонялось население неукрепленных поселений; к третьей - сооружения, предназначенные для ночлега скота на высокогорных пастбищах. Мы считаем что циклопические крепости воздвигнуты в основном в военных целях, т.е. для обороны. В эпоху бронзы этого требовало существующее экономическое, общественное и политическое положение на Ближнем Востоке и в его неотъемлемой части - в Азербайджане.

Нахичеванский край был одним из главных форпостов между Ближнем Востоком и Закавказьем, поэтому он каждый момент мог подвергнуться нашествию иноземцев.

И.И.Мещанинов отмечает, что циклопические сооружения не были построены наспех при беспощадных нашествиях врагов - халдов [6, с. 67].

*Вайхыр-Гяуркала* - второе мощное оборонительное сооружение, расположенное рядом с Чалханкала и служившее нахичеванским племенным союзам. Оно находится в 10 км севернее Кюльтепе II, в проходе Кызылбогаз, на левом берегу Нахичеванчая.

И.М. Дьяконов отмечает, что древние крепости Мидии строились часто так, чтобы рвы или естественное течение реки служили для них дополнительным рубежом обороны [7, с.185]. С юга в крепость можно попасть со стороны с. Вайхыр по узким тропинкам, с севера - через левобережную дорогу Нахичеванчая.

Местоположение Вайхыр-Гяуркала очень благопрятно для проживания, в связи с чем можно предположить, что здесь была резиденция правителя племенного союза Кюльтепе II. Не случайно, что крепость по технике строения очень близка к оборонительным сооружениям Кюльтепе II, относящимся к первой половине II тысячелетия до н.э.

В результате археологических исследований внутри крепости Вайхыр-Гяуркала и к югу от нее, около с. Вайхыр, на месте разрушенных погребений были обнаружены черепки лощеных серых и черных сосудов со штампованной и врезной орнаментацией, монохромно-расписная керамика, бронзовые серьги-лунницы и обсидиановые пластинки. Аналогичные материалы, характерные для нахичеванской культуры, найдены в Кюльтепе I, Кюльтепе II Кызылванке и других памятниках, датируемых XVIII-XVвв. до н. э. [8, с.116-122].

Следовательно, крепость Вайхыр-Гяуркала была возведена не позднее XVIII в. до н.э. и одновременно с Чалханкала явилась основным оборонительным сооружением в долине Нахичеванчая.

Казанчыгала расположена недалеко от с. Казанчы, на высоком холме по правому берегу р. Алинджачай. При сооружении крепости был учтен своеобразный рельеф холма, на котором она расположена. Высокий обрыв на восточном склоне являлся естественным ограждением, которое значительно усиливало обороноспособность крепости. Крепость имела правильную круглую форму.

Казанчыкала была укреплена четырьмя полукруглыми башнями, выступавшими наружу. Крепости Казанчыкала, Чалханкала и Вайхыр-Гяуркала, относятся к II тысячелетию до н.э.

*Погребальные памятники. Грунтовые погребения.* В изучении культовых обрядов, идеологических воззрений экономики, общественной и политической жизни древних племен ценнейшим источником являются погребальные памятники которые не только сохраняют в себе уникальные вещественные доказательства определенных религиозных верований, культовых представлений, развития металлургии, международной торговли, ремесленного, дела, культурных связей, но и позволяют разобраться в этнических и социальных вопросах рассматриваемой эпохи. Для ее среднего периода в Азербайджане были характерны различные погребальные памятники грунтовые, каменные ящики и курганы. Они обычно расположены вблизи поселений.

В Азербайджане погребальные памятники этого времени изучены на территории Нахичеванского края, Мильско-Карабахской степи, Мугани, в Гобустане и горной зоне Малого Кавказа.

На территории Азербайджана грунтовые погребения среднего периода эпохи бронзы случайно выявлены и изучены в Нахичеванском некрополе, на Карабулакском кладбище в поселении Гюнештепе, около гор. Физули и в урочище Бабадервиш Казахского района.

*Нахичеванский некрополь* расположен на северной окраине, несколько левее нахичеванско-шахбузской шоссейной дороги. Площадь его в основном покрыта современными постройками.

Могилы представляли собой прямоугольную яму, ориентированную по оси север-юг, восток-запад. Они были перекрыты тремя-четырьмя большими каменными плитами. Найденные здесь скелеты принадлежат взрослым и детям. Несмотря на то, что скелеты были разрушены, положение и направление их были определены. Скелеты находились в сильноскорченном положении, черепа лежали в разных направлениях.

В одной могиле скелеты сохранились сравнительно хорошо и были ориентированы по оси юг-запад, лицом обращены на запад. Рядом с ним лежал на правом боку другой, детский скелет, ориентированный по оси север-юг, лицом к востоку, тоже в скорченном положении. Перед лицевой стороной черепа был обнаружен древесный уголь. В одной могиле найдено семь черепов, повернутых лицом вниз. Подобное коллективное захоронение зафиксировано и в кызылванских каменных ящиках [9].

В разрушенных грунтовых погребениях в Нахичеванском некрополе была обнаружена серая, черная, полихромно-расписная керамика (кувшины, вазы, кружки, чайники и др.), бронзовые браслеты, кольца, серьги, бусы, сделанные из разных минералов. Были обнаружены и некоторые лощеные серые и черные сосуды с розовой прокладкой. Известно, что подобная керамика была характерна для кур-аракской культуры.

По сведениям греческих, римских, арабских, армянских и персидских историков, географов и путешественников город Нахичевань был основан еще до нашей эры.

*Карабулакский некрополь* расположен вблизи гор. Физули, на правом берегу р. Кенделанчай и датируется II-I тысячелетиями до н.э. Здесь было выявлено погребение. В связи с сильной разрушенностью форму могильной ямы и ее ориентацию определить было невозможно. Кости склета разрозненные, целыми обнаружены только два глиняных сосуда и несколько черепков [10].

Целые сосуды состоят из красной бадьи и черного кувшина. Бадья аналогична сосудам, найденным в Узерликтепе и в памятниках данного периода Нахичеванской АССР.

Археологические раскопки Кюльтепе II доказывают, что производство таких бадей было характерно для племен эпохи бронзы еще в III тысячелетии до н. э.

Карабулакский могильник принадлежит к многослойным поселениям Каракепектепе и Гюнештепе и охватывает полностью II тысячелетие до н. э. и начало I тысячелетия до н.э.

*Погребение в Гюнештепе* выявлено на территории древнего поселения Гюнештепе, расположенного около гор. Физули, на правом берегу Кенделанчая, Оно было полностью разрушено. На дне, на выравненном грунте остались истлевшие кости скелета, а также кости крупного рогатого животного.

*Погребениев Бабадервише* было выявлено в культурном слое поселения раннего периода эпохи бронзы. Бабадервиш I расположено вблизи гор. Казах, на левом берегу Акстафачая. Могила имела неправильную форму с закругленными углами и ориентирована с запада на восток. В западной части погребения в разбросанном виде находились кости – нижняя челюсть и отдельные ребра. На полу в восточной части лежали хорошо сохранившиеся скелет ягненка и трубчатая кость крупного рогатого животного. Вдоль южной стены стояли глиняные сосуды, там же обнаружены бронзовый клинок кинжала [11].

Эти погребения были расположены близко друг от друга под земляной прослойкой, перекрыты большими каменными плитами.

Поверхность *каменного ящика №1* покрыта большими красными плитами. Могильная яма ориентирована по оси запад-восток. В могиле обнаружено 14 черепов. Один из них лежал в северо-западном углу, рядом с ним находились пастовые бусы, а чуть дальше лежал кусок спиралевидной подвески. Около южной стены лежало семь черепов, вокруг которых найдены четыре больших браслета, три иголки, 10 наконечников стрел.

В могиле обнаружены разнотипные простые и расписные керамические изделия - кувшины, чаши и чайники.

*Погребение Кечили I.* В Шамхорском районе, на территории с.Кечили, в местечке Тексакгызлы, было изучено археологом Г.П. Кесаманлы грунтовое погребение среднего периода эпохи бронзы. Здесь зафиксирован скелет в скорченном положении, череп расположен в направлении к северо-западу. Около черепа находились четыре глиняных сосуда - кувшины и чаши. Чернолощеные глубокие чаши на плечевой части орнаментированы шагающим штампом – горизонтальными волнистыми линиями.

Керамика, орнаментированная подобным образом волнистыми линиями, очень характерна для мильско-карабахского гончарного производства рассматриваемого периода эпохи бронзы. Аналогичная керамика известна по памятникам Армении второго этапа среднего периода эпохи бронзы. Это позволяет датировать грунтовое погребение Кечили I XVI-XVII вв. до н.э.

*Заключение.* На основании памятников, которые были найдены в Нахчиване, Карабахе, на Мугане, Гобустане а также в горной зоне Молого Кавказа можно сделать вывод, что уже в это время здесь была материальная культура, которая является важным фактором.

## ЛИТЕРАТУРА


1. Алиев В.Г. Древняя крепость Чалханкала /Археологические открытия 1969 года. М., Наука, 1970 г. 454 с.
2. Алиев В.Г. Чалханкала и вопрос крупных племенных объединений в Азербайджане / Изд.АН Аз.ССР. Сер. история, философия и право, 1977 г. № 2, с.75, 76-78.
3. Пиотровский Б.Б. Археология Закавказья: с древнейших времен до 1 тысячелетия до н.э. Курс лекций. Л., ЛГУ, 1949, 136 с.
4. Джафарзаде И.М. Гобустан. Баку, Элм, 1973, 198 с.
5. Халилов Дж.Н. Археологические памятники Западного Азербайджана периода бронзы и раннего железа. Баку, АН Аз.ССР, 1959, 172 с.

6. Мещанинов И.И. Восточное Закавказье времен халдитских завоеваний. Вестник Древней Истории, 1937, Т. 1, с.66-77.
7. Дьяконов И.М. История Мидии. М-Л., Изд-во АН СССР, 1956, 486 с.
8. Алиев В.Г. Культура расписной керамики эпохи бронзы в Азербайджане. Баку, Elm,1977, 163 s.
9. Мещанинов И.И. Дневник раскопа Кызылванка НАИИ АН АзССР. Ф1, оп 2, 1141, с.76, 204, 208, 236.
10. Исмайлов Г.С. Новые данные о Карабулагском древнем могильнике // Доклады АН Аз.ССР, 1971, 11-12, с. 95-99.
11. Исмайлов Г.С. Погребальные памятники в урочнин Бабадервиш // Доклады АН Аз.ССР. Сер. история, философия и право. 1972, № 2, с. 43-45.
12. Кушнарева К.Х. Памятники медного века в Нагорном Карабахе // Советская Археология, 1954, № 20, с.165-179.

**LALANDAR ORUJOVA**
***Baku State University, PhD in Histopy***

## DEFENDER CARTELS AND TOMB MONUMENT IN THE MIDDLE BRONZE PERIOD OF AZERBAJAN

In the middle Bronze all over the Transcaucasia a profound social and property differentiation was taking place which in the end resulted in appearance of early-class society. Patriarchal system had become dominant on the whole. Fortified settlements of early town type, where intensive consolidation of kindred tribes can be observed, were arising, big tribal unions were forming on a highly developed social-economic and public soil of South Azerbaijan (Uremia), Nakhichevan and Milsk-Karabakh valley. They were early town-states.

*Keywords:* middle, culture, the buildings, brick, bronze.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 24 fevral 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 06 yanvar 2021-ci il.*
*Rəyçilər: t.ü.f.d. Qənirə Pirquliyeva, t.e.d. Qüdrət İsmayılov.*

**UOT 902**

**HİCRAN MAHMUDOVA**
*Tarix üzrə fəlsəfə doktoru,*
*BDU Arxeologiya və etnoqrafiya kafedrasının müəllimi*
**E-mail: hicranmahmudova@mail.ru**

# DƏMİR DÖVRÜNDƏ TÜRK TAYFALARININ KURQANLARI

*Tarixi inkişaf gedişində yeni, daha möhkəm və bərk metal olan dəmirin meydana çıxması və yayılması əmək alətlərinin və silahların təkmilləşməsinə, kənd təsərrüfatında, sənətkarlıq və hərbi işdə texnoloji tərəqqinin sürətlənməsinə səbəb olmuşdu. Türk tayfalarının məskunlaşdıqları bölgələrdə yaratdıqları arxeoloji mədəniyyətlərin daha zəngin nümunələri də məhz bu dövrdə, e.ə. I minillikdə qeydə alınmışdır. İnsanların axirət dünyasına münasibətində formalaşmış inanc sistemi onların qəbir abidələrinin, dəfn adətlərinin daha fərqli formada özünü göstərməsi ilə yadda qalır. Türk tayfalarının tarixində ictimai inkişafın fərqli cəhətləri, sosial təbəqələşmənin xüsusiyyətləri, sosial institutların formalaşması, əvvəlki arxeoloji mədəniyyətlərlə varislik məsələsi və s. kimi cəhətlər məhz kurqanların araşdırılması ilə müəyyən oluna bilir.*

*Açar sözlər*: dəmir dövrü, arxeologiya, qəbir abidələri, kurqanlar, türk tayfaları.

*Giriş*. Türk tayfalarının e.ə. I minillik dövrü arxeoloji abidələri içərisində qəbir abidələri öz çoxsaylılığı ilə digər abidələrdən fərqlənir. İctimai təbəqələşmə prosesini, mənəvi və maddi mədəniyyəti, iqtisadiyyatı tədqiq etmək üçün mühüm mənbə sayılan qəbir abidələri, əsasən, zəngin avadanlığa, quruluşunda özünəməxsusluğa malikdir. Maraqlıdır ki, qəbir abidələrinə daha çox çay sahili ərazilərdə, çöl və dağ çökəkliklərində rast gəlinmiş, qəbir tiplərində isə o qədər də fərqlilik müşahidə olunmamışdır. Dəmir dövründə türk tayfalarının qəbir abidələri, əsasən, müxtəlif forma və ölçülü torpaq qəbirləri və kurqanlardan ibarət olmuşdur. Mustye dövründə meydana çıxaraq tunc dövründə geniş yayılmış torpaq qəbirlərinin üzəri ağac, torpaq və qumla qurulduğundan, müasir dövrümüzə bunlar təbii ki, gəlib çatmamışdır. Türk tayfalarının məskunlaşdığı arealda göstərilən dövr üçün daha xarakterik olan kurqanların örtüyü torpaq, daş və bunların qarışığından tökülür, kurqanaltı qəbirlər isə ya torpaqda qazılır, ya da iri daşdan, ağac tirdən düzəldilirdi.

*Əsas mətn*. Azərbaycan ərzisində də türklər üçün daha çox xarakterik olan, dəfn adəti ümümtürk xarakteri daşıyan kurqanlar qeydə alınmışdır. Hələ XIX əsrdə Emil Reslerin Qarabağda tədqiq etdiyi kurqanların quruluşu, dəfn adətləri və üsullarının Herodotun təsvir etdiyi iskit kurqanları ilə üst-üstə düşdüyü tədqiqatçılar tərəfindən qeyd olunmuşdur. Belə ki, M.Xəlilov Ballıqaya və Sırxavənd arasında örtüyü 9 m, dərinliyi 5 m olan kurqanda atla birgə dəfn və qəbrin quruluşunu iskitçar kurqanları ilə oxşarlığını göstərməyə çalışmışdır [11, 15]. At dəfnli və ağac konstruksiyalı kurqanlar Azərbaycanın bir çox yerlərində, o cümlədən Borsunlu kurqanında (e.ə. XII-XI əsrlər) qeydə alınmışdı. Qəbir kamerası 256 kv m olan kurqan hələ qədimdən qarət olunsa da, öz ölçü və avadanlığı ilə tayfa başçısı qəbrini xatırladan kurqanın Taqar mədəniyyətinin iskit dövrü at dəfnli hökmdar kurqanları ilə müqayisə edən H.Cəfərov onlar arasında bənzərlik olduğunu bildirmişdir [6, 4].

Azərbaycanla yanaşı, kəsmə kameralı, dairəvi və ya kvadrat hasarlı daş kurqanlar Sibirin, Altayın iskit dövrü müxtəlif ərazilərində mövcud olmuşdur. Bu dövr tayfalarının qəbir abidələrinin böyük əksəriyyətini torpaq örtüklü kurqanlar təşkil edir. Kurqanın ölçüləri dəfn olunan sosial statusundan asılı olaraq dəyişdiyi kimi, kurqanaltı qəbirlərin də müxtəlif tiplərinə rast gəlinir: düzbucaq və ya kvadrat biçimli, üstü ağac tiplərlə örtülmüş qəbir quyusu; katakomba, sərdabələr. Adətən qəbirdə ölü arxası üstə uzadılmış vəziyyətdə dəfn olunur, bəzən ayaqları dizdən bükülürdü. Maraqlıdır ki, kremasiya adətinə çox az rast gəlinmişdir. Qəbirlərdə əksərən müxtəlif tipli döşəmələr: taxt, həsir, üzvü materiallardan xərək və s. ola bilirdi. Qəbir avadanlığı adətən silahlardan, at əsləhəsindən, bəzəklərdən, mətbəx avadanlıqlarından və s. ibarət olurdu. Türk tayfalarında dəfn prosesi bir və ya bir neçə atın dəfni ilə müşayət olunur, bəzən kurqanlarda döyüş arabalarının qalıqları da qeydə alınırdı.

Altayın Mayemir-Pazırık mədəniyyəti, Qazaxıstanın, Qırqızıstanın, Pamirin Sak-Usun, Tuvanın Uyuk mədəniyyətinin yayıldığı mərkəzi, qərb, şimal və cənub rayonlarında kərtmə-çapma kameralı kurqanlar tədqiqatçıların diqqətini çəkmişdir [3; 5; 9]. Tuvanın Aldı-bel mədəniyyətinə aid kuqranlar Zubovka, Poş-daq (Boş dağ), Kuyluqt-Xem adlı ərazilərdə qeydə alınsa da, bu mədəniyyətin çar kuqranı Arjan hesab olunur Arjan mürəkkəb və möhtəşəm kuqran olub, hökmdar, xanımı, 15 əyan, tabe olan tayfaların hədiyyəsi olan 7 minik atının və 6 əlavə atın dəfn olunduğu kompleksdir. Bu kompleks skif dövrü abidələrinin zəncirvari əlaqəsini izləməyə imkan verir. Arjan kompleksinə aid silahlar və bəzəklər Qara dəniz sahili ərazilərdə e.ə.VIII-VII əsr kuqranlarının avadanlıqları ilə oxşarlıq təşkil edir. Dağıq Altayın Ulaqan rayonunda, Pazırık çölündə e.ə.V-IV əsrlərdə yaşamış əhaliyə məxsus 5 böyük hökmdar kurqanı, eyni zamanda Başadar və Tuektin kurqanları aşkar olunmuşdur [4, 46]. Qeyd edək ki, bir qayda olaraq bu kurqanlarda atla birgə dəfn mövcud olmuşdir. Dairəvi planlı bu tip qəbirlərin diametri 3-20 m, hündürlükləri isə 0,2-2m arasında olmaqla, üzəri torpaq, daş, qaya parçaları ilə örtülüdü. Kurqanaltı qəbirlər, adətən, üzəri ağac tirlə örtülürdü ki, bu məqsədlə yerli əhali qara şam ağacının gövdə və kötüklərindən istifadə etmişdir. Döşəmə taxta lövhə və kötüklərdən, tavan 2-5 çiv vasitəsilə bir-birinə kip bərkidilmiş şam gövdəsi və tozağacı budaqlarından hazırlanırdı. Bəzən isə belə daş kurqanlarda döşəməni sadə torpaq əvəz edirdi. Şimali Qara dəniz sahilinin eyni tipli kurqanları cənubi Ural ətrafında, Altayda Semireçye, Şərqi Qazaxıstan və Sırdəryanın aşağı axarlarında tapılmışdır [9, 19].

Taqar mədəniyyətinin İskit-Sibir dünyasının mərkəzində yerləşdiyini hesab edən tədqiqatçılar kvadrat və ya düzbucaqlı hasarlı kurqanların tikintisində devon qumdaşından, şist, daş və ağacdan istifadə olunduğunu, Orta Yenisey, Krasnoyarsk, Açino-Mariinskdə də qeydə alındığını bildirir. Qeyd edək ki, hətta Karasuk dövrü qəbirlərində də bu formalı hasarlar mövcud olmuşdur. Kurqan örtüyünün altında kvadrat xəndəklər qazılırdı. Onun dərinliyi 0,75 m-dən 3,5 m-dək, bəzən 7,5 m-də olurdu [9, 19-20]. Burada da döşəmə və tavan lövhə, yaxud tir-dirəklərdən düzəldilirdi.

Dağlıq Altayın iskit dövrü üçün dairəvi daş örtüklü kurqanlar səciyyəvidir. Ekoloji mühitdən asılı olaraq, tikinti materialı torpaq olan tikililərin quruluşunu izləmək çətindir. Burada hasarları xəndək və ya quyular əvəz edirdi. İrmen mədəniyyətinə xas dairəvi və ya oval forma Karasuk və Luqav mədəniyyətlərinin qəbir abidələri içərisində də rast gəlinmişdir. Kuznetsk çökəkliyi ərazisində daş hasarlı qəbirlər azdır. Oval formalı daş örtüklər Tuvanın Monqun – Taygin tip qəbirləri üçün xarakterikdir. Kurqan əhatəsindəki qəbirlərin sayına görə erkən iskit dövündə Dağlıq Altay abidələri Monqun – Taygin, Karasuk və Luqav mədəniyyətləri ilə oxşarlıq təşkil edir. Bir kurqandakı qəbirlərin sayına görə irmen qəbir tikililəri Tuvanın Aldı-bel mədəniyyətləri ilə oxşardır. Bu yaxınlıq erkən iskit dövrü mədəniyyətlərində müşahidə edilən dayaz torpaq dəfnləri ilə tamamlanır. Bir-birinə bitişik, bəzən 0,5-1 m aralı olan sal daşlar üzükvari həlqə yaradaraq, dairə təşkil edirdi. Dağlıq Altayın, Tuva və Cənubi Sibirin bəzi kurqanları zəncirvari halqa şəklində yerləşmişdir. Burada qərb və ya şərq tərəfdəki iki daş sanki giriş qapısını əvəzləyirdi. Yəqin ki, halqalı və kvadrat hasarlı daş kurqanlar xereksurların ilkin, sadə forması olmuşdu. Uyuk mədəniyyətinə aid qəbir kompleksləri içərisində daş örtüyünün diametri 8-60 m, hündürlüyü 0,75-2,5 m olan, ümumi diametri 18-160 m təşkil edən xereksur planda 4 ədəd xaçvari oxu olan nəhəng təkəri xatırladır. Hasarın kənarından örtüyə doğru cığır uzanır və bir neçə daşın belə düzülüşü X-vari formadadır [9, 17].

Şimali Qaradəniz sahili çöllərində 100-dən çox iskit kurqanları məlumdur ki, onlar əsasən, e.ə.VII-V əsrlərə aiddir. Onlardan təxminən 80-i arxeoloji cəhətdən daha yaxşı öyrənilmişdir. Bu bölgədə e.ə.VII əsrdən ağac konstruksiyalı torpaq xəndəklər, e.ə.VI əsrdən isə digər qəbirüstü tikililər nəzərə çarpır. Heredot və başqa müəlliflərin sözlərinə əsasən, Şimali Qaradəniz çölləri kifayət qədər məskunlaşmış olsa da, burada e.ə.VII-V əsrlərə aid iskit qəbirləri azlıq təşkil edir. Iskit tipli mədəniyyətə malik əhali Orta Don ətrafında e.ə.VI əsrin sonlarından məskunlaşmış və çöl zonasında tunc dövrü qəbirləri az, meşə, çöl zonasında isə çoxsaylı olması ilə seçilmişdi. Ümumiyyətlə, e.ə.V əsrin II yarısından etibarən Şimali Qaradəniz sahili ərazilərdə artıq kurqan qrupları daha cox nəzərə çarpmağa başlamışdı. Çöl zonalarındakı qəbirlərin əksəriyyəti (2300-dən 2042-si) e.ə.IV-III əsrlərə aiddir. E.ə.VII-V əsrlərə aid cəmi 158 qəbir qeydə alınmışdır ki, onlardan 7-si e.ə.VII-V əsrlərə, 10-u e.ə.VI əsrə, 7-si e.ə.VI-V əsrlərə, 61-i e.ə.V əsrə, 73-ü e.ə.V-IV əsrlərə aid edilir [10, 345]. Arxaik dövrə aid qəbirlərin əksəriyyəti (158-dən 88-i) Krım ərazisində aşkar olunmuşdur. Burada da, həm torpaq, həm də daş qutu qəbirlər vardır [10, 347].

Azərbaycan Abşeron, Şirvan, Mil-Qarabağ, Muğan, Şərur və digər düzləri, geniş qış otlaqları, su ehtiyatları və isti iqlimi ilə qədim köçəri tayfaların, o cümlədən iskitlərin buraya gəlməsi üçün əlverişli mühit olmuşdu. Bu fikri arxeoloji qazıntılar da təsdiq edir. 1959-1960-cı illərdə Mil düzündə 0,5m hündürlüyündə, 15m diametrli, qəbir quyusunun dərinliyi 3m-dən artıq olan Kiçik kurqan açılmışdır. Qəbirdə bükülü vəziyyətdə, başı qərbə yönəlmiş kişi skeleti ilə yanaşı yerli istehsala aid qara rəngli qab, atın kəllə skleti, daş və sümük muncuqlar qeydə alınmışdı. At əsləhəsi içərisində jabotin tipli tunc yəhər, 5 ədəd tunc lövhəcik, üzərində heyvan fiquru çəkilmiş koban tipli at alınlığının aşağı hissəsinin bir parçası da vardı. Tədqiqatçılar bu tapıntını e.ə.VII əsrin II yarısına aid edirlər [7, 25-26].

1978-ci ilin noyabrından 1983-cü ilin iyulunadək, 5 ha sahəni əhatə edən Şəmkir nekropolunda aparılan arxeoloji qazıntılar nəticəsində 13 və 25 saylı qəbirlərdə insanın atla bərabər dəfni, at əsləhə və bəzəkləri qeydə alınmışdır. Eyni zamanda buradan iskit tipli ox ucluqları və sırğalar tapılmışdır. E.ə.VII-IV əsrlərə aid edilən abidədəki dəfn mərasimi Q.Aslanov tərəfindən iskit tayfalarında müşahidə olunduğu bildirilmişdir [2, 4-8]. Iskitlərin Azərbaycanda olduğunu təsdiq edən Q.İsmayılzadə belə hesab edir ki, iskitlərin atlı ordası adətən, qışı Azərbaycanın çöl vilayətlərində, yay mövsümünü cənubda, əsas etibarilə Aladağ və Qaradağda-Urmiyaətrafı rayonlarda keçirirdilər [8, 98- 99]. Odur ki, Kiçik kurqana yaxın dövrə və mədəni mənsubiyyətə malik qəbir kompleksləri Azərbaycanın digər rayonlarında da: Yuxarı Talış və Qarabağ, Muğan və Şirvan düzlərində, Mingəçevirdə və başqa ərazilərdə qeydə alınmışdır [8, 99].

Mingəçevir ərazisində iskit dövrünə bir neçə kurqan aid edilir. Buradakı qəbirlərdə bükülü vəziyyətdə, insan və heyvan sümükləri ilə yanaşı çoxsaylı avadanlıqlı dəfnlər müşahidə olunmuşdur. Bütövlükdə Mingəçevir kurqanları e.ə.XI-IX,e.ə.IX-VIII, e.ə.VII-VI əsrləri əhatə edir. Ümumilikdə qəbirlərdə 30-a qədər at və əsləhələr qeydə alınmışdır ki, analoji müqayisələr nəticəsində onlar e.ə.VII əsrə aid edilmişdir. Burada ölülər kürəyi üstə, düz uzadılmış vəziyyətdə, başları şimal-qərb istiqamətdə dəfn olunmuşdur. Kurqanlardan 40-a qədər iskit tipli ox ucluğu tapılmışdır. Metalloqrafik tədqiqatlar tunc ucluqların tökmə və ya döymə üsulu ilə hazırlandığını göstərir. Mingəçevirin iskit mənşəli tunc güzgüləri qulplu – heyvan başlıqlı olurdu [1, 186]. Qəbirlərdə məişət əşyaları və əmək alətləri yoxdur, silah və bəzəklər isə çoxsaylıdır. Tapıntılar Avroasiya çölləri boyunca e.ə. I minillikdə yayılmış iskit mədəniyyətinin xarakterik nümunələrindən olub, geniş ərazidə eynitipli mədəniyyətin yayıldığını göstərir.

*Nəticə*. Qədim türklərdə uzun müddət zəngin maddi mədəniyyət nümunələrinin əsas saxlanc yeri məhz qəbirləri- mohtəşəm kuqranları olmuşdur. Məlum olduğu kimi, qəbir abidələri cəmiyyətin inkişafı gedişində təbəqələşməni və elitarizmin izlərini müşahidə etməyə imkan verən mühüm abidələrdən hesab olunur. Türk xalqlarının kurqan tipli qəbirləri öz zəngin artefaktları ilə seçildiyi kimi, dəmir dövründə sənətkarlığının inkişaf səviyyəsini, hərb işini, dini inanclarını, gündəlik məişət və təsərrüfat həyatını, bütövlükdə maddi və mənəvi mədəniyyətini öyrənmək, bu mədəniyyətin izlərini, varisliyin hansı bölgələrdə izlənməsini müəyyən etməklə, türklərin məskunlaşma arealını izləmək mümkündür.

## ƏDƏBİYYAT

1. Xəlilov C.Ə. Ağyazıda arxeoloji tapıntılar // Azərbaycanın Maddi Mədəniyyəti, X c., Bakı: Elm, 1987, s.45-56.
2.Асланов Г.Г. Шамхорский могильник. Баку: Элм, 1986, 112 с.
3.Воробьева С.Л. Металлические комплексы горы Курманту эпохи раннего железа: результаты исследования 2012-2014 гг // Новое в исследованиях раннего железного века Евразии: проблемы, открытия, методы. Международная Научная Конференция. Тезисы докладов. Москва, МАКС Пресс, 2018, с.37-40.
4.Грач А.Д. Древные кочевники в центре Азии. Москва: Наука, 1980, с.256.
5.Кузнецова Т.М. Курганы «Репятоховая могила», «Червоно могила» и Келермес. // Новое в исследованиях раннего железного века Евразии: проблемы, открытия, методы. Международная Научная Конференция. Тезисы докладов. Москва, МАКС Пресс, 2018, с.97-99.

6.Джафаров Г.Ф. Борсунлу – погребение племенного вождя. Баку, Элм, 1986, 11, [1] с.: ил.
7.Ильинская В.А., Тереножкин А.И. Скифия VII-IV вв. до н.э. Киев: Наук. думка, 1983, 377с.
8. Исмаилзаде Г.С. Территория Азербайджана в предистории великого шелкового пути // Диалог цивилизаций, 2003 №2, с.98-99.
9. Маннай-Оол М.Х. Тува в скифское время. Москва: Наука, 1970, 118 с.
10.Скифские погребальные памятники степей Северного Причерноморья. Киев: Наук. Думка, 1986, 336 с.
11. Халилов М.Дж. Протоскифы и их потомки в Карабахе / Наследие, №2-3, 2005, с.14-17.

**HIJRAN MAHMUDOVA**
***Lecturer at Baku State University***

## MOUNDS OF TURKIC TRIBES IN THE IRON AGE

During the period of historical development, the appearance and distribution of the gland as a more durable material contributed to the improvement of tools and weapons, the rapid development of the technological prosperity of agriculture, crafts and military affairs. Richer examples of archaeological cultures created by the Turkic tribes in the area of their settlement were discovered in the 1st millennium b.c. Beliefs associated with the world of the world, formed in the belief system, are shown in more different forms in their burials and funeral rites. In the history of the Turkic tribes, the versatile development of the social system, the peculiarities of social stratification, the formation of social institutions, the issues of permeability by early archaeological cultures, etc. sides can be determined by studying the mounds.

*Keywords*: iron age, archaeology, burial monuments, mounds, turkic tribes.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 24 yanvar 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 06 yanvar 2021-ci il.*
*Rəyçilər: t.e.d. Qüdrət İsmayılov, t.e.d. İsmayıl Məmmədov.*

**UOT 39(4/9)**

**FƏXRİYYƏ HƏVİLOVA**
*Bakı Dövlət Universiteti*
**E-mail: fexriyyehavilova@mail.ru**

# QƏRBİ AZƏRBAYCANIN MADDİ MƏDƏNİYYƏTİ

*Qərbi Azərbaycanın maddi mədəniyyətinin araşdırılması Azərbaycan etnoqrafiyası elmi qarşısında duran ən vacib və aktual problemlərdən biridir. Maddi mədəniyyət bəşər tarixinin ayrılmaz tərkib hissəsi olub əsrlər boyu təkamül və inkişaf yolu keçmişdir. Bölgənin maddi mədəniyyətini əks etdirən faktoloji materialların elmi-etnoqrafik təhlilindən belə nəticəyə gəlmək olar ki, təsərrüfat məşğuliyyətinin yönümü də maddi mədəniyyətin ayrı-ayrı sahələrinin yaranmasında mühüm rol oynamışdır.*

*Açar sözlər:* maddi mədəniyyət, maldarlıq, sənətkarlıq, əkinçilik.

*Giriş*. Azərbaycanın qərb bölgələrinin maddi mədəniyyətinin araşdırılması Azərbaycan etnoqrafiyası qarşısında duran ən vacib və aktual problemlərdən biridir. Problemi aktuallaşdıran birinci səbəb ermənilərin ərazi iddiaları ilə bağlıdır. Tədqiqatın əsas məqsədi maddi mədəniyyət nümunələri əsasında bu bölgələrin qədim dövrdən etibarən oğuz türklərinin məskunlaşdıqları ərazilər olduğunu isbat etməkdir. Məlumdur ki, VIII əsrin əvvəllərindən başlayaraq Qara dəniz bölgəsində yaşayan türk mənşəli kimmer, iskit, sak tayfalarının axını və məskunlaşması prosesi başlamışdır. Türklərin bu etnik köç prosesi XI –XII əsrlərə qədər davam etmişdir. Orta əsrlər dövründə də bu bölgələrin Azərbaycan türklərinin tarixi vətəninin bir hissəsi olması haqqında təkzib edilməz qaynaqlar mövcuddur. Oğuz türklərinin tarixini özündə əks etdirən "Kitabi-Dədə Qorqud" dastanında da Qərbi Azərbaycan haqqında geniş məlumatlar verilmiş, bu bölgə oğuz türklərinin vətəni kimi təsvir edilmişdir.

Problemi bir qədər aktuallaşdıran ikinci bir məsələ isə son dövrlərdə xalqın həyat və məişət tərzinin sürətlə dəyişikliyə uğraması, bir sıra ənənəvi maddi mədəniyyət nümunələrinin xalqın istifadəsindən çıxaraq yox olmasıdır. Tarixi təkamülü hərtərəfli bərpa etmək üçün bu maddi mədəniyyət nümunələrini elmi cəhətdən qeydə almaq, sistemləşdirmək, etnoqrafik təhlil və şərhini vermək etnoqrafiya elminin həlli vacib olan problemlərindən hesab edilir.

Tarixdən məlumdur ki, Qərbi Azərbaycan ərazisinin əzəli və yerli sakinləri Azərbaycan türkləri olmuşdur. Ermənilər isə bu ərazilərə Çar Rusiyasının təşəbbüsü ilə tarixin müəyyən mərhələlərində xarici ölkələrdən köçürülərək gəlmə bir xalqdır.

Azərbaycan ərazisinin son dərəcə əlverişli iqlim şəraiti, zəngin flora və faunası, yerli əhalinin qədimliyi, təsərrüfat məişəti, çoxsahəli sənətkarlığı, maddi və mənəvi dünyası onun etnoqrafik baxımdan daha çeşidli və məzmunlu olmasına əsaslı zəmin yaratmışdır. Maddi mədəniyyət bəşər tarixinin ayrılmaz tərkib hissəsi olub xalqın fiziki əməyinin nəticəsi kimi formalaşmış, uzun əsrlər boyu təkamül və inkişaf yolu keçmişdir. Təbii-coğrafi şəraitin, dövrün sosial-siyasi xarakteri və etnik xüsusiyyətlərinin, xalqın spesifik həyat tərzinin və təsərrüfat fəaliyyətinin istiqamətinin təsiri ilə formalaşan maddi mədəniyyət sahələri istehsal fəaliyyətinin göstəricisi olmaqla bu və ya digər etnosun sosial-iqtisadi, siyasi- mədəni və ideoloji tarixini eyni zamanda etnogenezini öyrənmək üçün mühüm mənbə rolunu oynayır.

Maddi mədəniyyətin yaradıcısı olan insan öz yaşayışını təmin etmək üçün çox zaman elə maddi istehsalın özündən asılı olur. Yəni insan yeyib-içmədən, geyinmədən, evə-ocağa sahib olmadan hər hansı ictimai-faydalı əməklə yetərincə məşğul ola bilməz. Bu baxımdan maddi mədəniyyətin araşdırılması xalqın ictimai şüur səviyyəsi, etnik təzahür göstəricisi, həmçinin istehsal fəaliyyətinin öyrənilməsidir.

Maddi mədəniyyət sahələrindən biri olan yaşayış məskənlərinin tarixi çox qədimdir. Ərazimizdə təbii və süni yaşayış məskənlərinin tarixi əsasən qədim daş dövründən başlayır. Azərbaycanda əhalinin artması ilə əlaqədar tarixin sonrakı inkişaf mərhələlərində, daha dəqiq desək, ibtidai icma quruluşunun dağıldığı və sinifli cəmiyyətin yarandığı dövrdən etibarən kənd tipli yaşayış

məskənləri daha geniş inkişaf tapmışdır. Buraya tarixən yaranmış oba, şenlik, yurd, düşərgə, qışlaq, yaylaq, yataq, binə və başqa yaşayış məskəni tiplərini daxil etmək olar (5,s.56).

Azərbaycanda geniş yayılmış yaşayış məskənlərinin xarakterik tarixi tiplərindən başlıcası kənd olmuşdur. Kənd-oturaq əhaliyə məxsus daimi yaşayış evləri, təsərrüfat tikililəri, həyətyanı sahələri, inzibati, sosial-mədəni, dini mərkəzləri, ümumi otlaqları, əkin sahələri, içməli suları, ayrıca qəbirstanlığı olan və əhalinin etnik tərkibinin ümumiliyi ilə xarakterizə olunan tarixən formalaşmış məskəndir. Naxçıvanda yaşayış məskənlərinin əsas hissəsini kəndlər təşkil edir. XIX əsrdə təkcə Şərur-Dərələyəz qəzasında yaşayış məntəqələrinin 85 faizindən çoxunu kənd tipli yaşayış yerləri təşkil edirdi (6, s.43).

Azərbaycan yaşayış məskənlərinin relyef üzrə təsnifatına daxil olan qruplarından biri də vadi kəndləridir. Vadi kəndləri, adətən, dağ yamaclarının və dağ çaylarının mövcud olduğu səfalı və mülayim iqlimli vadilərin sinəsində salınırdı. Vadi kəndlərinə Azərbaycanın qərb bölgəsinin həm dağlıq, həm də düzənlik hissələrində təsadüf edilir. Kəmərli, Aslanbəyli, Qaymaqlı kəndləri İncəsu çayı vadisində, Eldar düzünün Salahlı, Poylu, Kəsəmən, Qarabağlı kəndləri isə Qabırrı çayı vadisində salınmışdır. Keçmişdə Qazax qəzası kəndlərinin əhalisinin 2/3 hissəsi çay vadilərindəki kəndlərdə yaşayırdı.

Yaşayış məskənləri və evlərin yaranmasında təbii-coğrafi mühit, iqlim, xammal mənbələri mühüm rol oynayır. Qafqazın cənub-şərqində yerləşən Naxçıvan ərazisi, Dərələyəz, Zəngəzur dağ silsiləsinin müəyyən hissəsi isə Arazboyu düzənlikdən ibarətdir. Bu düzənliklərə Şərur, Sədərək, Böyükdüz, Naxçıvan, Culfa, Ordubad düzənlikləri daxildir. Zona öz iqliminin müxtəlifliyi baxımından da seçilir. Dağlıq zonada yay qısa, qış isə uzun olur. Yayın qızmar istisi və qışın kəskin soyuğu düzənlik bölgələrdə daha bariz şəkildə özünü göstərir.

Azərbaycanın qərb bölgələri üçün özünəməxsus daşdan tikilmiş, quruluş etibarilə bəzən dərin özülü olan, pilləkanvari ağacdan damın üzəri torpaqla örtülmüş yaşayış evləri xarakterikdir. Bu cür yaşayış evləri Cənubi Qafqaz ərazisində ən qədim dövrlərdən məlum olmuşdur.

Azərbaycanın xalq yaşayış evlərinin tikintisində çay daşından fərqli olaraq qayadaşı (kötürdaşı) bir qayda olaraq, xam və işlənmiş şəkildə istifadə olunurdu. XIX əsrdə qərb bölgəsinin əhalisi tikinti daşlarını Daşsalahlı, İncili, Ağköynək, Musaköy, Zəyəm, Daşkəsən və Murut mədənlərindən; Naxçıvan əhalisi Şahtaxtı, Tağğəraltı, Oğlan-qız, Xaraba, Gilan və Qarabağlar mədənlərindən, daş karxanalarından əldə edirdi. Bəhs olunan dövrdə Azərbaycanın tikinti daşı ilə zənginliyini yazılı məlumatlar da təsdiq edir. Əhalinin xalq yaşayış fondunun formalaşmasında ağac materiallarından da istifadə edilirdi.

Qaradamları süni mağaraların və qazmaların inkişaf etmiş forması hesab etmək olar. Azərbaycan ərazisində xüsusilə qərb bölgəsində e.ə. VI-IV minilliyə aid Şomutəpə və Töyrətəpə yaşayış yerlərindən aşkara çıxarılmış dairəvi planlı, konusvari (günbəzşəkilli) dam örtüklü yaşayış evləri qaradam tipli evlərin bariz nümunəsidir. Qaradam tipli yaşayış evlərinin plan quruluşu, tikinti texnikası və təyinatı haqqında bir çox mənbələrdə, Azərbaycana gəlmiş səyyahların yol qeydlərində ətaflı məlumatlara rast gəlinir. XVIII-XIX və XX əsrin əvvəllərində qaradam tipli yaşayış evləri yayılma arealına görə Kiçik Qafqaz dağlıq və dağətəyi ərazisini, Dağlıq Qarabağ və Naxçıvan bölgələrini əhatə etmişdir. Naxçıvan bölgəsinin qaradamları yerüstü tikilmə baxımından fərqlənirdi. XIX-XX əsrin əvvəllərində Naxçıvanın dağlıq hissəsində qaradam tipli yaşayış evlərinin başqa bir variantı-eyvanlı qaradamlar geniş yayılmışdı. Belə evlərin qarşısı tirlər üzərində tikilmiş eyvanla tamamlanırdı. Eyvanların ya hər iki tərəfi açıq saxlanılır, ya da yanları daşla hörülür, yalnız qabaq tərəfi açıq olurdu (8, s.64).

Naxçıvan qaradamları Azərbaycanın qərb bölgəsində yayılan qaradamlardan kəskin fərqlənir. Buradakı qaradamlar yerüstüdür. Bayırdan və içəridən plan quruluşlarına görə belə tikililər adi evləri xatırladır. Onların damı yastıdır və bir neçə bacası, hətta yan bacası olur. Bəzi hallarda evlərin döşəməsi yerin səviyyəsindən bir qədər aşağıda salınır. Belə qaradamlar "qazma qaradam" adlanır.

XIX-XX əsrin əvvəllərində qərbi Azərbaycanda geniş yayılmış yaşayış evlərinin bir qismini də möhrə tipli evlər təşkil edirdi. Belə evlərin hələ çox qədimdən mövcud olduğunu arxeoloji qazıntılar da təsdiq edir (8, s.63).

Xalqımızın ənənəvi evtikmə mədəniyyətində yerli tikinti materialları başlıca yer tutmuşdur. Azərbaycan xalqının inşaat təcrübəsində tarixən bitki, gil, daş və mineral qatışıqlar, habelə heyvan mənşəli dəri, keçə və s. materiallardan səmərəli şəkildə istifadə olunmuşdur. Bu materialların hər biri istifadə tarixi və tətbiq məqamı ilə fərqlənir. Bütün bu ənənəvi inşaat ünsürləri zəmanəmizədək özlərinin əməli əhəmiyyətini qoruyub saxlamışdır (7,s.114).

Arxaik ev tiplərinin böyük qismi kühül, daxma, daxal, daşqura, koma, kolux və s. xüsusilə də elat məişəti ilə üzvi surətdə bağlı olub nəsli-qəbilə evləri kimi sabitləşmişdir.

Kühül tipli evlər çox qədim dövrdə qazma texnikasının meydana gəlməsi nəticəsində yaranmışdır. Qədim tarixə malik olan kühüllərin bəzi nümunələri özlərinin yaşayış və təsərrüfat əhəmiyyətini yaxın keçmişədək saxlamışdır.

Azərbaycanda kühüllərdən ibarət süni tipli yaşayış və təsərrüfat tikililəri Qobustan yaylasında və Kiçik Qafqazda (Zəngəzur, Laçın, Minkənd, Mişni) zəmanəmizə qədər gəlib çatmışdır (7,s.116). Xalq yaşayış evləri fondunun bir qismini də maldar elatlara məxsus olan və müxtəlif adlar daşıyan müvəqqəti yaşayış evləri (alaçıq, coma, dəyə, muxuru, qarakeçə, dünnüklü ev, kolux, mağardəyə və s.) təşkil edir ki, bunlara qərb bölgəsində də rast gəlinir.

İstehsal alətləri, yaşayış evləri və qida məhsulları ilə yanaşı, xalq geyimləri də insanların normal həyat şəraitinin yaranması yolunda ən zəruri maddi mədəniyyət ünsürlərindəndir.(5,s.140)

Xalqın tarixi ilə möhkəm bağlı olan geyimlər onun mədəniyyətini öyrənmək üçün qiymətli mənbələrdən biridir. Geyimlər etnogenez xüsusiyyətləri aydınlaşdırmaq, xalqlar arasında mədəni-tarixi əlaqə və qarşılıqlı təsir məsələlərini müəyyənləşdirmək işində yardımçı material rolunu oynamaqla xalqın həm təsərrüfat sahələrinin səviyyəsindən və həm də coğrafi şəraitdən asılıdır. Xalqın yaradıcılığının tarixi etnoqrafik və bədii xüsusiyyətləri öz əksini geyimlərdə tapır (4, s.5).

Geyim mədəniyyətinin formalaşmasında təbii-coğrafi şərait, xüsusilə də iqlimin həlledici rolu inkar edilməzdir.

Erkən orta əsrlərin Azərbaycan kişi və qadın geyimləri haqqında ətraflı məlumatları "Kitabi-Dədə Qorqud" dastanından almaq olar. Burada kişi və qadın geyimlərində kömlək, şalvar, cübbə, çuxa, kaftan, qurşaq, kürk və yapıncının eləcə də, baş geyimlərindən xanların tacı, bəylərin baş sarğısı, börk, ayaqqabı növlərindən isə başmaq, ədik, soqman və sərmuzenin xalqın geyim fondunda üstünlük təşkil etdiyi aydınlaşır (3, s.47).

XIX-XX yüzilliklərin əvvəllərində Azərbaycanın ənənəvi qadın geyimləri özünün rəng əlvanlığı, biçim tərzi və tikiliş üslubunun mürəkkəbliyi, eləcə də tip və formalarının müxtəlifliyi ilə seçilirdi. Azərbaycanın qadın milli geyimləri alt paltarları və üst paltarları olmaqla iki variantda mövcud olmuşdur.

Qadın alt geyimləri müxtəlif biçimli tumandan, darbalaq və cütbalaq kimi geyim elementlərindən ibarət idi. Cütbalaq adətən tünd rəngli parçalardan iki ayrıca balaq kimi biçilir, xişdəklə (və ya miyança ilə) birləşdirilir, beldə saxlanması üçün yuxarı hissəsi büzülərək orada nifə tikilir və nifədən keçirilən vasitə (tumanbağı) ilə bağlanırdı.

Ermənistan azərbaycanlıları arasında da alt tumanı "şəltə" adı ilə bəlli olmuşdur. Lakin İrəvanda geyinilən "şəltə" Naxçıvan şəltəsinə nisbətən xeyli uzun olmuşdur. Burada şəltə, bir qayda olaraq, üst tumanından təxminən dörd barmaq enində qısa tikilərmiş (2, s.42).

Qadın üst geyim tiplərinin əsas elementlərindən biri üst köynəyi idi. Sahib şəxsin iqtisadi imkanından asılı olaraq qadın üst köynəyi bahalı parçalardan, həmçinin ucuz başa gələn pambıq, yun və kətan parçalardan tikilir, qoltuğunun altına isə fərqlənən parçadan xişdək qoyulurdu.

Azərbaycanın müxtəlif bölgələrində üst köynəyinin boyu ölçü etibarilə fərqli xüsusiyyət kəsb edir.

1) Naxçıvan, Bakı, Şəki, Qarabağ, Gəncə, İrəvanda yaşlı qadın köynəyinin uzunluğu yarım arşın hüdudunda (45-46 sm-dən 54-55 sm-dək) olurdu.

2) Lənkəran qadınlarının üst köynəyi nisbətən uzun olub dizdən təxminən dörd barmaq yuxarıda qalırdı.

3) Azərbaycanın qərb bölgəsində, o cümlədən Borçalıda geyinilən uzun ətəkli qadın köynəyinin boyu 130-140 sm ölçüdə biçilib tikilirdi (7, s.134).

Gəncəbasar bölgəsində bəzən bağlı-qotazlı tumanın ətəyi yarıdan aşağı qırçınlı formada tikilirdi. Qırçınlı tuman dizə qədər 5-6 taxtadan, dizdən aşağı isə 10-12 taxtadan hazırlanırdı. Taxtalarının qovuşduğu hissəyə tikiş boyu yaşıl, göy, qırmızı və b. rəngli atlas və tirmədən zolaq (qıy) qoyulurdu (5,s.145).

Azərbaycanın qərb bölgəsi və Gəncəbasar hüdudlarında mövsümi səciyyəli çiyinə geyilən qadın geyimi zıvın (zıbın) və ya zıvını geniş yayılmışdır. Onu isti qış paltarı kimi köynəyin üstündən geyirdilər. Uzunluğu tumanın nifə yerinə kimi olan zıvının yan tərəflərində çapıq (peş) olur, qolları dirsəyə qədər çatır, xişdək əvəzinə qoltuğunun altına kəsik-qoltuqaltı qoyulurdu. Mövsümi səciyyəli üst geyimlərinin altından geyildiyindən onu ucuz parçalardan tikir, heç bir bəzək növü əlavə etmirdilər. Zıvının çapığı ətəkdən 8-10 sm kənara çıxır və "qulaqcıq" adlanırdı (1, s. 73).

Çəpkən-köynəyin üstündən geyilən üst geyim tipi olub astarlı tikilir və hətta yüngül sırınırdı. Azərbaycanın ayrı-ayrı etnoqrafik bölgələrində çəpkən adətən qollarının quruluşuna görə fərqli xüsusiyyətlər kəsb edirdi. Qarabağ bölgəsində sallamaqol, Naxçıvan bölgəsində uzunqol, Gəncəbasar bölgəsində isə dirsəyə qədər qolu olan çəpkən geniş istifadə olunmuşdu. Uzunqol çəpkənin qolları dirsəyə qədər dar olur, sonra yelpazə şəklində 20-30 sm enlənirdi. Hərəkət sərbəstliyi yaratmaq üçün qoltuğun altından kəsik saxlanılırdı.

Naxçıvan və İrəvan bölgələrində qadın köynəyinin ətəyi bir qədər uzun tikilirdi. İrəvan qadınlarının alt köynəyi dizdən bir qədər yuxarı olub, qolu uzun, düz və "xişdəkli"li tikilərmiş. Davamlı olmaq üçün alt köynəyinin yaxasına bir qarış enində ikinci "qat"ın qoyulması dəb halını almışdır. İrəvan qadınlarının alt köynəyi çox vaxt ağdan, bəzən də güllü çit və ya kətandan tikilərmiş (7,s.132).

Arxalıq - Azərbaycanda geniş yayılmış üst geyim elementlərindən biridir. Varlılarda tirmə, tafta, atlas, xara, zərxara, məxmər, darayı, qanovuz və b. parçalardan, kasıblarda isə sətin, lastik və digər ucuz parçalardan tikilən arxalıq Abşeronda "don" (9,s.122), Azərbaycanın qərb bölgələrində isə "künəcə" adı ilə yayılmışdır.

Qollarının formasına görə Lənkəran, Naxçıvan, İrəvan arxalıqları dirsəyə qədər düz, dirsəkdən aşağı qondarma qollu, Gəncə-Qarabağ arxalıqları isə nilufər qollu (yelpazəli) olurdu (2,s.351-353).

Qadın arxalığının bir variantı Azərbaycanın qərb bölgələrində qeydə alınmış "əlcəkli arxalıq"dır. Onu gövdə və qollardan ibarət biçib astarlı tikirdilər.

Ləbbadə-Gəncəbasar, Bakı, Qərb bölgəsi və Şəki rayonu hüdudlarında geniş yayılmış qadın üst geyimlərindən biri olmuşdur. O, iki qabaq, bir arxa və iki qoldan ibarət biçilir, içərisinə nazik yun və ya pambıq döşəməsi qoyulurdu.

Künəlcə - belə qədər düz ətəyi olan qadın üst geyimidir. Qadın üst geyimləri arasında çəpkənlə tipoloji oxşarlıq təşkil edən, ancaq qolunun biçiminə və ətəyinin uzunluğuna görə ondan fərqlənən küləcə Azərbaycanın Gəncəbasar, Borçalı, Naxçıvan, Şirvan, İrəvan və Qərb bölgələrində boğçalıq (bayramlıq) geyim dəstinin mühüm tərkib hissəsi olmuşdur. Onu varlılar xara, darayı, qanovuz, atlas, məxmər, tafta və s.-dən, yoxsullar isə ucuz pambıq parçalardan tikdirirdi. Künəlcə astarlı olur və qolları bir qayda olaraq düzləmə tikilərək ensiz bilərziklə tamamlanırdı.

*Nəticə.* Məlum olduğu kimi xalqın istehsal fəaliyyəti tarixində maddi mədəniyyət nümunələrinin böyük rolu və əhəmiyyəti olmuşdur. Maddi mədəniyyət bəşər tarixi inkişafının ayrılmaz tərkib hissəsidir. Hər bir xalqın maddi mədəniyyəti təbii coğrafi və tarixi şəraitin, habelə ictimai-iqtisadi inkişafın mövcud səviyyəsinin təsiri altında inkişaf edərək spesifik xüsusiyyətlər kəsb edir. Qərbi Azərbaycanın maddi mədəniyyətini əks etdirən faktoloji materialların elmi-etnoqrafik təhlilindən belə nəticəyə gəlmək olar ki, təsərrüfat məşğuliyyətinin yönümü kimi maldarlıq, əkinçilik və sənətkarlıq da maddi mədəniyyətin ayrı-ayrı sahələrinin yaranmasında və formalaşmasında mühüm rol oynamışdır. Araşdırmalarımız zamanı həm də belə qənaətə gəldik ki, bölgələrə müvafiq məxsusi cəhətləri, əhalinin məşğuliyyəti ilə bağlı bəzi spesifik xüsusiyyətləri nəzərə almasaq, Qərbi Azərbaycanın maddi mədəniyyəti azərbaycanlıların maddi mədəniyyətilə tam eyniyyət təşkil edir. Bu da bir daha söyləməyə imkan verir ki, qərb bölgələri tarixən xalqımızın məskun olduğu ərazidir. Azərbaycanlılar bu ərazilərin köklü sakinləri olmuşlar.

**ƏDƏBİYYAT**

1.Abdullayev B.İ. Azərbaycanlıların kişi geyimləri // Azərb.SSR EA Xəbərləri (Tarix, fəlsəfə və hüquq seriyası) Bakı, 1978, №2, s.73.
2. Dünyamalıyeva S.S. Azərbaycan geyim mədəniyyəti tarixi. Bakı, Elm, 2002, 448 s.
3.Əfəndiyev R. Azərbaycanın maddi mədəniyyət nümunələri, geyimlər. Bakı, Azərnəşr, 1960, 68 s.
4. Əzizbəyova P. Azərbaycan milli geyimləri. Moskva, İncəsənət nəşriyyatı, 1972, 128 s.
5. Həvilov H. Azərbaycan etnoqrafiyası. Bakı, Azərnəşr, 1991, 276 s.
6. İbrahimov F. Azərbaycanın orta əsr şəhərlərində metalişləmə sənəti (IX-XIII əsrlər). Bakı, Elm, 1988, 66 s.
7.Mustafayev A.N. Azərbaycanın maddi mədəniyyət tarixi. Bakı, Bakı Universiteti nəşriyyatı, 2009, 232 s.
8.Nərimanov İ.H, Xəlilov C.Ə. Sarıtəpə arxeoloji qazıntıları. (1956-cı il) // AMM, 1962, № 4, s.60-67.
9. Народы Кавказа. Москва, Издательство Академии Наук СССР, 1960, 685 s.

**FAKHRİYA HAVILOVA**
***Baku State University***

## MATERIAL CULTURE OF WESTERN AZERBAIJAN

Exploring the Material Culture of Western Azerbaijani is one of the most important and urgent problems of science of Ethnography of Azerbaijan. Material culture has been an integral part of human history, for centuries it has passed through evolution and development. From the scientific and ethnographic analysis of the factual materials reflecting the material culture of the region, it can be concluded that the direction of economic activity also played an important role in the creation of different areas of the material culture.

*Key words:* cultura material, cattle breeding, craftsmanship, farming.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 18 fevral 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 06 yanvar 2021-ci il.*
*Rəyçilər: t.ü.f.d.Kərəm Məmmədov, t.e.d.Qüdrət İsmayılov.*

**UOT 39(4/9); UOT 94(479.24)**

**ALMAZ ŞABANOVA**
*Bakı Dövlət Universitetinin doktorantı*
**Email:almaz.yaver@gmail.com**

# AZƏRBAYCANLILARIN MİLLİ GEYİMLƏRİNDƏ RƏNG SEMANTİKASI

*Məlumdur ki, bütün dünya xalqlarının məişətində, xüsusən geyim mədəniyyətində rəng çalarlarının özünəməxsus əhəmiyyəti olmuşdur. Rəng semantikasının izlərinə etnoqrafik baxımdan əhəmiyyətli şifahi xalq yaradıcılığı nümunələrində rast gəlmək mümkündür. Azərbaycanlılarda mərasimlərin mahiyyətinə görə (toy, nişan, xınayaxdı, dəfn və s.) geyimlərdəki rəng çalarları fərqlidir. Məqalədə Azərbaycanlıların geyimlərindəki rəng çalarlarına münasibət müxtəlif tarixi dövrlər və ayrı-ayrı bölgələr üzrə təhlil olunur.*

*Açar sözlər*: Geyim, Rəng, Qırmızı,Yaşıl.

*Giriş*. Dünyada yaşayan xalqlar müxtəlif olduqları kimi, onların baxış və görüşləri, əhatə olunduqları mühitə münasibətləri, məişət mədəniyyətləri də fərqli-fərqlidir. Bu deyilən cəhət rənglərə də aiddir. Yəni hətta hamı tərəfindən eyni adda, mahiyyətdə deyilən, düşünülən bir rəng ayrı-ayrı etnosun etnik mədəniyyətində fərqli assosiasiya yarada bilir. Rənglər bəzi hallarda əşya və hadisələrin məzmununu, insanların xarakterlərini, emosiyalarını müəyyənləşdirən simvola da çevrilir.

Bütün dünyada ağ rəng işıq, uğur, xoşbəxtlik, hətta Tanrı rəngi hesab edildiyi halda, başqa rənglərə münasibət belə deyil. Belə ki, bir çox xalqlarda sarı rəng - fəallıq, mərhəmət, şəfqət, qırmızı rəng - toplaşma, cəmləşmə, göy (mavi) rəng - qəzəb, hirs, həyəcan, etiraz simvolu bilinir [8, s.75]. Əksər türk xalqlarında, o sıradan Azərbaycan türklərində sarı rəng - quraqlığın, qıtlığın, xəbisliyin, paxıllığın, qırmızı rəng dava-dalaşın, müharibənin, dəliliyin (dilimizdə "Dəli qırmızı sevər" deyimi vardır), yaşıl rəng - bolluğun, bar-bərəkətin, mavi rəng - sevincin, şadlığın, xoş xəbərin simvolu sayılır [2, s.351]. Rənglər və bu rənglərdən geyimlərdə istifadə özündə müəyyən etnoqrafik xüsususiyyətləri ehtiva edir. Geyim və bəzəklərdəki müxtəliflik, ornamentlərdəki çalarlar həyat tərzini, ictimai mənsubiyyəti özündə əks etdirməklə ərazi üzrə fərqli olması ilə də seçilir [3, s.180].

Azərbaycan milli kostyumu özündə xalqın milli xüsusiyyətlərini əks etdirən son dərəcə gözəl və dəbdəbəli paltardır. Yaradılma prosesində kostyum ölkəsi kimi dəyişikliklərə məruz qalırdı. Milli kostyum orijinal və bənzəri olmayan, çox gözəl bir geyimdir. Burada hər detal – müəyyən bir simvoldur. İnsanlar özlərinə geyim hazırlamağı hələ çox qədim zamanlardan öyrənmişdilər. Azərbaycanın ərazisində aparılmış arxeoloji qazıntılar zamanı aşkar olunmuş nümunələr hələ eramızdan üç min il öncə bu bacarığın mövcudluğunu göstərir. Bunu sübut edən qazıntılar sırasında tuncdan hazırlanmış iynə və millər, qızıl bəzək əşyaları, çəkmə formasında hazırlanmış saxsı qablar yer alır. Bütün bunlar artıq həmin uzaq zamanlarda onları yaratmış insanların məharəti və mədəniyyətin inkişafı haqqında çox şey deyir.

Erkən orta əsrlərin Azərbaycan, eləcə də Qarabağ kişi və qadın geyimləri haqqında ətraflı məlumatları «Kitabi-Dədə Qorqud» dastanından almaq olur. Nəzərə alsaq ki, «Kitabi-Dədə Qorqud» dastanının yazıya alınma məkanı və hadisələrin cərəyan etdiyi ərazilər Azərbaycandır, Dədə Qorqudun özü «Rəsul Əleyhissəlam zamanına yaqın Bayat boyundan qopmuş bir ərdir», Bayat ellərinin tarixi məskunlaşma məkanı isə Qarabağdır [5, s.424]. Bu səbəbdən heç bir tərəddüd etmədən dastanda adları çəkilən geyim tiplərinin Qarabağ əhalisinə də məxsusluğunu söyləmək olar. Dastanda bütün geyimlər, bir qayda olaraq, ümumi şəkildə «don» adlandırılır [6, s.150]. Burada kişi və qadın geyimlərindən kömlək (köynək), şalvar («mahmudi şalvar», «al məxmuru şalvar»), cübbə («samur cübbə»), çuxa (adi və doqquzlama – doqquz qırçınlı çuxa), kaftan (uzun və qısaqol, yaxası açıq, ağ və qırmızı parçadan tikilən üst geyim növü), qurşaq («altunlu incə kətan bez»), kürk və yapıncının («kəpənək»); eləcə də baş geyimlərindən xanların tacı, bəylərin baş sarığı (çalma, dolbənd), börk (keçə börk), külah, niqab, duvaq, yaşmaq və çəmbərin (dingə); ayaqqabı növlərindən isə başmaq, ədik (çəkməni xatırladan uzunboğaz kişi ayaqqabısı), soqman (topuğa qədər boğazı olan ayaqqabı) və sərmuzənin (qadın ayaqqabısı) xalqın geyim fondunda üstünlük təşkil etdiyi aydınlaşır [6, s.151-153].

Milli qadın geyimlərinin formalaşmasında biçim, forma, bəzək elementləri zinət əşyaları ilə yanaşı onların rəng çalarlarıda böyük əhəmiyyətə malikdir. Azərbaycan milli geyimləri özünəməxsusluğu, bənzərsizliyi ilə göz oxşayır və dünya xalqlarının geyimləri arasında seçilən bir yerə sahibdir. Azərbaycanda istehsal olunan geyim məhsulları və hazır geyim nümunələri digər ölkələrdə yüksək qiymətləndirilirdi. Bunundа başlıca səbəbi bu materialların müxtəlif təbii rənglərlə boyanması idi. Hələ qədim dövrlərdə sənətkarlar öz duyğularını rənglər vasitəsilə ifadə edirdilər. Sanki bu rənglər vasitəsilə əlaqə qurur, fikirlərini ifadə edirdilər. Bu dövrün miniatürlərinə nəzər salsaq, rəng çalarlarının nə qədər vacib bir element oldugunu aydın görə bilərik. Erkən orta əsrlərdə Azərbaycandan ixrac olunan xammallar sırasında, boyaq maddələri də xüsusi yer tuturlar. Bu dövrdə təbii boyaq maddələrinin ixrac olunduğu barədə müəyyən mənbələrdə məlumatlara rast gəlinir. Qırmızı rəng bu boyaq maddələri içərisində ən qiymətlisi hesab edilirdi. Orta əsrlərdə xalq arasında da qırmızı rəngdən daha çox istifadə edilirdi. Qırmızı rəngli geyim sevinc, xoşbəxtlik rəmzi sayılır, toy mərasimlərində bəy və gəlin nəinki təkcə qırmızı rəngli paltar geyinərdilər, həmçinin əllərini də, biləyə qədər xına ilə qırmızı rəngə boyayırdılar.

XIV-XV əsrlərdə Azərbaycan xalq geyim fonunda ciddi dəyişikliklər baş vermişdir. Geyimlər gündəlik və mərasim geyimləri kimi müxtəlif səciyyə kəsb etmiş, mərasim geyimlərində motivləşmə (biçim, rəng, bəzək və növ müxtəlifliyi) getdikcə daha da dərinləşmişdir.

XV əsrin miniatürlərinə nəzər saldıqda deyə bilərik ki, qadın geyimlərində əsasən qırmızı, yaşıl, mavi, yasəməni, şabalıdı və s rənglərdən istifadəyə üstünlük verilirdi. Üst geyimlərində istifadə olunan parçalar sadə olurdu. Üst geyimi olan çuxa və cübbə astarlı tikilirdi. Hər birinin üz və astarı müxtəlif rənglərdə olur, məhz bu səbəbdən də bir geyim dəstində bir neçə rəng görünürdü. Geyim materialı kimi rəngli parçalardan istifadə olunması geyimlərə daha da gözəl estetik görünüş bəxş edirdi [1, s.168]. Bir dəst geyimində bir neçə rəng çalarlarından istifadə olunurdu. Əsas fərqləndirici xüsusiyyətləri ondan ibarət olurdu ki, üst-üstə geyinilmiş geyimlərin yaxasına xeyli bəzək vurulurdu və elə tikilirdi ki, hər bir geyimin altından digər geyimin yaxası görünürdü. Bu geyimlərin forması eyni olurdu. Amma yaxa kəsiyi müxtəlif olurdu. Bu geyimlər bir-birindən ancaq rəng çalarlarına görə seçilirdilər.

XVI əsrdən başlayaraq saraylarda al qırmızı, ləl rəngli, yaşıl, qara və digər rənglərdə parçalar istifadə olunurdu ki, bu da saray həyatının rəngarəngliyindən, geyimə nə dərəcədə əhəmiyyət verildiyindən xəbər verirdi. Bu dövrdə Azərbaycanda geyimlərdə bütün rənglərdən istifadə edilsə də, əsasən dəbdə olan rəng al qırmızı və onun çalarları idi. Bu dövrdə yaşıl rənglərdən istifadə edilməsinə Azərbaycan miniatürlərində də rast gəlinir [7, s.152]. XVI əsrdə Azərbaycanda ucu şiş, qırmızıbaşlı əmmamələrlə yanaşı, adi bəzəksiz əmmamələrdən də istifadə edilirdi. Bu dövrdə ən çox istifadə olunan əmmamələr, əsasən ağ rəngli idi. Şah, vəzir və ya rütbəli ruhanilər isə başlarına yaşıl rəngli əmmamə qoyardılar. XVI-XVII əsrlərə aid Azərbaycan miniatürlərinə baxdıqda qadınların alt köynəyinin ağ parçadan ibarət olduğunu görmək olar. Beləliklə müxtəlif dövrlərdə çəkilmiş miniatürlərə nəzər saldıqda milli geyimlərimizdəki fərqlər nəzərə çarpır. XVI-XVII əsrləri əhatə edilən illərdə Azərbaycan milli geyimləri zəngin inkişaf yolu keçmişdir. Araşdırmalar nəticəsində məlum olmuşdur ki, bu dövrdə Azərbaycanda əsl mənada milli geyim məktəbi yaradılmışdır. Bu dövrlərdə tikilən geyimlər şəxsin yaşını, peşəsini, hətta hansı təbəqəyə mənsub olmasını da özündə əks etdiridi.

Səfəvilərin erkən hakimiyyət dövrü ictimai, siyasi, hərbi sahələrdə olduğu kimi, özünün iqtisadi qüdrətli və ticarət münasibətləri ilə də Azərbaycan tarixinin zəngin səhifələrini təşkil edir. 1561-1563-cü illərdə Təbrizdə olmuş Antoni Cenkinson şahın almaq istədiyi malların adlarını geniş siyahıda göstərir. Saray mühitində ən çox tələbat olan mallar gümüşü parça və ya qızılla işlənmiş (güləbətin tikmələr) məxmər, al qırmızı, ləl rəngli, yaşıl və qara məxmərlər, yaşıl komnov, kamlot və atlasın növləri idi.

Cenkinson öz qeydlərində göstərirdi ki, yüksək mənsəbli adamların papağı üçün qalın və sıx toxunuşlu, al qırmızı rəngli karazey adlanan mahud növü də xaricdən gətirilirdi. Şahın sifariş etdiyi mallar içərisində Holland parçası və London mahudunun bütün növ və rəngləri də var idi. Bu rənglər al-qırmızı, bənövşəyi, innabı, qara, şabalıdı rənglər idi və bunlardan ancaq yüksək mənsəbli adamlar öz geyimlərində istifadə edirmişlər. Qalanları isə başqa açıq rənglərdə, məsələn, Londondan gətirilən kürən-tünd qırmızı, şir rəngi, yaşıl, açıq yaşıl və s. rənglərdən istifadə edirmişlər [9, s.137-138].

Milli geyim dəstinin hazırlanmasında müxtəlif rəng çalarlarından istifadə olunduğunu 1636-1639 cu illərdə Azərbaycanda olmuş alman səyyahı A. Oleari yazırdı: gözəllər geyimlərində müxtəlif rəngli xəzlərdən də (göy, mavi və s) istifadə edərdilər.

Azərbaycan xalqının zəngin rəng duyumu vardır. Xalq sənətkarlarının yaratdığı xalça, parça, keramika və digər sənət əsərlərində bunun şahidi oluruq. Al və yaşıl rənglər Azərbaycan xalqının geyimində uğurla işlədilən əsas rənglər hesab olunur [7, s.155]. Yaşıl rəng təbiətin canlanmasının başlanğıc, bünövrə mənasını daşıyır. Tanrının yaratdığı təbiətin bütün rəngləri: qəhvəyi ağac gövdəsi, al-əlvan gül çiçəklər, payızın sarı-qızılı rəngi öz başlanğıcını əsasını ancaq yaşıl təbiətdən alır.

Bizim eranın XVII yüzilliyində Azərbaycan ipək istehsalı üzrə ən qabaqcıl və əsas məkanlardan biri kimi tanınırdı. Parçalar öz gözəlliyi və naxışları ilə məşhurlaşmışdır. Olduqca gözəl yaylıqlar və digər əşyalar istehsal olunurdu. 39 rəngdə parlaq dolğun çalarlar üstünlük təşkil edirdi. Həmçinin qeyd etmək lazımdır ki, hətta gəlinin toy libası da məhz qırmızı rəngli parçadan tikilirdi. Azərbaycanlılar üçün qırmızı rəng rifah və xoşbəxtlik simvoludur. Gənc qızlar parlaq və rəngbərəng parçalardan tikilmiş paltarları geyinməyə üstünlük verirdilər. Bununla da onlar gürcü və dağlı qızlardan fərqlənirdi, çünki onlar daha tünd rəngli geyimlərdən istifadə etməyə üstünlük verirdilər. Odur ki, parlaq rəng qamması Azərbaycan xanımlarının milli kostyumunun fərqləndirici xüsusiyyətidir.

Azərbaycanda XVIII əsrdə xanlıqların yaranması bütün sahələrə təsir etdiyi kimi, Azərbaycan milli geyiminə də təsirsiz ötüşməmişdir. Milli geyimlərdə meydana gələn fərqlər xanlıqların müxtəlif coğrafi ərazilərdə yerləşməsi ilə əlaqədar olmuşdur. Belə ki, rəng çalarları da bölgələr üzrə dəyişkən olurdu. Hər bir bölgənin geyim dəsti özünə məxsus rəng koloriti vardır. Bunu həmçinin həmin bölgələrin təbiəti ilə də əlaqələndirə bilərik. Abşeronun təbiətinə uyğun olaraq Bakı geyimlərinin rəngi seçilirdi. Şəhər qadınlarının geyim dəsti ansambl təskil edirdi. Geyim dəstində ən çox bənövşəyi rəngin çalarlarından və innabı rəngdən istifadə olunurdu. Geyimin rəngindən aslı olmayaraq onların kənar bəzək və tikmələrində mütləq şəkildə, mavi və qızılı sarı rənglərdən istifadə edilirdi. Bakı qadınları öz geyimlərində də təbiətlə həmahəng olmağa çalışmışlar, dənizin, səmanın ağ, mavi, göy, sahilin qızılı sarı qum rənginə üstünlük vermişlər. Naxçıvanda geyimlərin rəng seçimində innabı, yaşıl, gümüşü rənglərə üstünlük verilirdi. Geyim dəstindəki rənglər ən kiçik detallara qədər dəqiqliklə və 37 uyğun çalarda seçilirdi. Geyim dəstinin ayrı-ayrı elementləri güllü parçadan tikilsə də, mütləq şəkildə sakit rənglərdən də istifadə olunurdu. Qarabağ geyimlərində üst tumanı və üst çiyin geyimi ya eyni, ya da uyğun rənglərdə olurdu. Köynək isə tuman və arxalığın rənginə nisbətən açıq və parlaq rənglərdə seçilirdi. Geyimlərdə əsas etibarı ilə al yaşıl rənglərdən istifadəyə üstünlük verilirdi. Al rəngi geyimlərdə də görmək o dövrün insanına xoş əhval-ruhiyə bəxş edirdi [4, s.57]. Hətta kişilər də, belə geyimlərində al rəngdən istifadə edirdilər. Al, yaşıl rənglərdən həm kişi həm qadınların geyimində məharətlə istifadə olunardı. Gəncədə tünd yaşıl və şabalıdı rənglərdən də istifadə geniş yayılmışdı. Şəki geyimlərində müxtəlif rənglərdən istifadə edilsə də, geyim dəsti bütünlükdə ansambl təşkil edirdi və rənglər bir-birini mütləq şəkildə tamamlamalı idi. Çox vaxt ağ, mavi, göy bəzən isə tünd qırmızı rənglər istifadə edilirdi. Qırmızı rəngli paltarlar əsasən toy paltarı hesab edilirdi. Bütün bölgələrdə gəlin paltarı ancaq qırmızı rəngdə idi. Gəlinlik paltarları daha çox qorunub saxlandığından dövrümüzə qədər gəlib çatmış paltarların əksəriyyəti qırmızı rəngdədir.

Bakı geyimləri - Şəki və Şamaxı geyimləri ilə oxşarlıq təşkil edir. Geyimlərdə bənövşəyi və innabı rənglərin olmasına baxmayaraq, ağ və tünd mavi rənglər üstünlük təşkil edirdi. Paltarın hansı rəngdə olmasından aslı olmayaraq kənar bəzək və tikmələrində mavi və qızılı-sarı rənglərdən istifadə edilirdi. Beləliklə, Bakı geyimlərində insanlar təbiət rənglərinə - ağ, mavi, qızılı-sarı, qum rənglərinə üstünlük verirdilər. Şamaxı geyimləri - müxtəlif rənglərdən istifadə edilirdi, bu da çox güman ki, Şamaxının təbiəti ilə əlaqədar idi.

*Nəticə.* Azərbaycan milli geyimləri özünəməxsusluğu, bənzərsizliyi ilə göz oxşayır və dünya xalqlarının geyimləri arasında seçilən bir yerə sahibdir. Azərbaycanın milli geyimləri tarixən uzun və çox mürəkkəb inkişaf yolu keçmişdir. Azərbaycan milli geyimləri və öz rəngarəngliyi ilə seçilir. Azərbaycanlılarda mərasimlərin mahiyyətinə görə geyimlərdəki rəng çalarları fərqlidir.

## ƏDƏBİYYAT


1. Atakişiyeva M., Cəbrayılova N., İslamova B. Azərbaycan milli geyimləri. Moskva, İskusstvo 1972, 376 s.
2. Azərbaycan etnoqrafiyası. 3-cü cild. Bakı, Şərq-Qərb, 2007, 568 s.
3. Bünyadova Ş. Azərbycanın təsərrüfatı və maddi mədəniyyəti (XII-XVI əsrlər). Bakı, Elm, 2007, 360 s.
4. Əfəndiyev R.S. Azərbaycan geyimləri tarixi // Azərbaycan Elmlər Akademiyasının məruzələri XV cild № 9, 1959, 178 s.
5. Əlibəyzadə E. Azərbaycan xalqının mənəvi mədəniyyət tarixi. Bakı, Gənclik, 1998, 678 s.
6. Rəcəbli Q.Ə. “Kitabi-Dədə-Qorqud” Azərbaycanın qədim və orta əsrlər geyimləri haqqında // Dil və Ədəbiyyat. Nəzəri, elmi, metodik jurnal, 2000 № 4(29), 236 s.
7. S.S.Dünyamalıyeva. Azərbaycan geyim mədəniyyət tarixi. Bakı, “Elm”, 2002, 293 s.
8. Н.П.Жуковская. Категории и символика традиционной культуры монголов. М., Наука, 1988, 196 с.
9. Путешественники об Азербайджане. Т. I. Баку, Азербайджанской ССР,1961, 367 с.



**ALMAZ SHABANOVA**

***PhD student at Baku State University***


## COLOR SEMANTICS IN CLOTHING AND DECORATIVE ITEMS


The article is devoted to the analysis of color semantics in clothing and decorative items. It is known that colors played a special role in the life of all peoples of the world, especially in the clothing culture. Signs of color semantics can be found in ethnographic examples of significant oral folk art. The color of the costumes varies according to the essence of rituals (weddings, engagement, henna, funeral, etc.) in Azerbaijanis. The article analyzes the attitude of the Azerbaijani people to the colors of their dresses by different historical periods and by different regions.



*Keywords:* Dress,Colour, Red, Green.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 28 yanvar 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 06 yanvar 2021-ci il.*
*Rəyçilər: t.e.d. Şirin Bünyadova, t.e.d.Qüdrət İsmayılov.*

**UOT:94(479.242); UOT 913.1**

**NURLANA ƏLİYEVA**
*AMEA Naxçıvan Bölməsi*
**E-mail: nurlana_aliyeva@yahoo.com**

# XIX-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ NAXÇIVAN DİYARINDA SƏNƏTKARLIĞIN TARİXİ COĞRAFİYASI

*XIX-XX əsrin əvvəllərində bütün Azərbaycanda olduğu kimi Naxçıvan bölgəsində də əhalinin əsas məşğuliyyət sahələrindən biri sənətkarlıq olmuşdur. Bu dövrdə bir çox sənət sahələri inkişaf etmiş və burada müxtəlif sənətkarların cəm olduğu sənətkarlıq mərkəzləri yaradılmışdır. Naxçıvan ustalarının hazırladıqları sənətkarlıq məmulatları demək olar ki, Yaxın Şərqdə özünəməxsus yer tutmuş və şöhrət tapmışdır. Naxçıvan diyarında sənətkarlığın inkişafı onun ayrı-ayrı sahələrinin həm istehsal etdiyi mallara olan tələbatı, həm də ticarət əlaqələrinin səviyyəsi ilə şərtlənmişdir. Son olaraq Naxçıvan diyarının sənətkarlığın tarixi coğrafiyası ilə bağlı belə bir nəticəyə gəlmək olar ki, sənətkarlıq bölgənin daha çox iki şəhərində Ordubad və Naxçıvan şəhərində üstünlük təşkil etmişdir.*

*Açar sözlər*: Naxçıvan bölgəsi, XIX-XX əsrlər, Ordubad, sənətkarlıq mərkəzləri, sənətkarlıq məmulatları.

*Giriş*. XIX-XX əsrin əvvəllərində bütün Azərbaycanda olduğu kimi Naxçıvan bölgəsində də əhalinin əsas məşğuliyyət sahələrindən biri sənətkarlıq olmuşdur. Bu dövrdə bir çox sənət sahələri inkişaf etmiş və burada müxtəlif sənətkarların cəm olduğu sənətkarlıq mərkəzləri yaradılmışdır. Naxçıvan ustalarının hazırladıqları sənətkarlıq məmulatları demək olar ki, Yaxın Şərqdə özünəməxsus yer tutmuş və şöhrət tapmışdır. Naxçıvan diyarında sənətkarlığın inkişafı onun ayrı-ayrı sahələrinin həm istehsal etdiyi mallara olan tələbatı, həm də ticarət əlaqələrinin səviyyəsi ilə şərtlənmişdir. Başqa şəkildə desək, sənətkarlıq və onun ayrı-ayrı sahələri bir tərəfdən cəmiyyətin iqtisadi inkişaf səviyyəsinin, digər tərəfdən ölkənin xarici iqtisadi əlaqələrinin göstəricisi kimi çıxış edirdi.

S.Budaqova yazır ki, Naxçıvan xanlığında elə bir kənd yox idi ki, orada sənətkarlıqla məşğul olunmasın. Kəndlərdə sənətkarlıq müəyyən qədər inkişaf etsə də, sənətkarlıq şəhərlərdə, xüsusilə Naxçıvan xanlığının siyasi və iqtisadi mərkəzi olan Naxçıvan şəhərində mərkəzləşmişdi. Ancaq S.Budaqova XVIII-XIX əsrin əvvəllərinə aid tədqiqatlarında Naxçıvan diyarının əsas şəhərləri olan Naxçıvan və Ordubadda sənətkarlığın o qədər də yüksək səviyyədə olmadığını bildirir [2, s.25]. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq monoqrafiyasının müəllifi C.Mustafayev isə belə bir fikir söyləyir: “Mövcud materialların təhlili belə bir qənaətə gəlməyə əsas verir ki, Naxçıvanın iqtisadi həyatında sənətkarlıq istehsalı həlledici rola malik idi” [6, s.51]. Göründüyü kimi, eyni problemə dair bir-birinə zidd olan mülahizələr bildirilir. Z.Şahverdiyev isə qeyd edir ki, hər iki halda ifrata varılmışdır. Naxçıvan xanlığında kənd təsərrüfatı ilə sənətkarlığın inkişafı bir vəhdət təşkil edirdi. İstər xanlıq dövründə, istərsə də Rusiya tərkibində Naxçıvan bölgəsində əsas sənətkarlıq mərkəzləri Naxçıvan və Ordubad şəhərləri idi [14, s.50]. Ancaq sənətkarlığın təkcə Naxçıvan və Ordubad şəhərlərinə bağlanılması fikri də doğru deyil. Kənd yerlərində ev peşəsi sənətkarlığının daha geniş yayıldığı fikrindəyik. Kənd yerlərində sənətkarlığın inkişafında aztorpaqlı kəndlilərin rolu daha böyük idi. Çünki az olan məhsulu yığdıqdan və kiçik torpaq sahəsini əkdikdən sonra bekar qalan kəndlilər istər-istəməz sənətkarlıqla məşğul olurdular. Kəndlilər qış dövründə sənətkarlıqla daha çox məşğul olurdular. Belə hallar qışı sərt keçən Naxçıvan xanlığında daha çox gözə çarpırdı. Çox cəhətli təsərrüfatla məşğul olan kəndlilər ilk növbədə öz ailələrinin və təsərrüfatlarının ehtiyaclarını nəzərə alırdılar. Belə ki, kəndli ailələri çörək bişirir, ipək lifləri açır, yunu darayır, yun sapları əyirir, rəngləyir, geyim paltarları tikir, dəri aşılayır, çarıq tikir, xalça toxumaqla məşğul olur, əl dəyirmanlarında un üyüdür, yaşayış evi və tövlə inşa edir, əmək alətləri hazırlayır, dülgərlik və dəmirçiliklə də məşğul olurdular.

Naxçıvan sənətkarları içərisində toxucular, dərzilər, misgərlər, dulusçular, zərgərlər, dəmirçilər, bənnalar, dabbaqlar, bəzzazlar və s. var idi. Naxçıvan diyarının şəhərlərində Rusiya işğalı

ərəfəsi və işğaldan sonrakı ilk dövrdə sənətkarlığın vəziyyəti İ.Şopenin məlum əsərində və 1831-ci ilə dair kameral təsvir materiallarında əks olunmuşdur. İ.Şopenin məlumatına görə Naxçıvanda ticarət və sənətkarlıqla məşğul olanlar 715 nəfər idi. Onlardan 400 nəfərdən çoxu bilavasitə sənətkarlıqla məşğul olurdu. 1831-ci il kameral təsvirində Naxçıvan şəhərində olan sənətkarların sənət sahələri üzrə siyahısı da verilir. Buradan aydın olur ki, Naxçıvanda 50-dək sənət sahəsi var idi. Onların içərisində toxucular (126 nəfər), başmaqçılar (56 nəfər), xarratlar (38 nəfər), papaqçılar (35 nəfər) və b. üstünlük təşkil edirdi idi [14, s.82]. Ordubad şəhərində də eyni sənətkarlıq sahələri üstünlük təşkil edirdi. Burada toxucular (177 nəfər), həllaclar (29 nəfər), boyaqçılar (19 nəfər) və b. sayca daha çox idi [15, s.563].

Sənətkarlığın bir növü olan metalişləmə sənəti hələ qədim dövrdən Naxçıvan diyarında intişar tapmışdır. Ərazinin təbii sərvətlərlə və faydalı qazıntılarla zəngin olması bu sahənin inkişafına müsbət təsir göstərmişdir. Yazılı mənbələrin məlumatı və arxeoloji qazıntıların nəticələri göstərir ki, Kiçik Qafqaz dağ silsiləsində yerləşən 400 dən çox mis mədəninin xeyli hissəsi Naxçıvan diyarında yerləşir. Naxçıvan diyarında yerləşən Kültəpədə aparılan arxeoloji qazıntılar burada yerli xammalla işləyən metalişləmə sənətinin hələ Enolit dövründə formalaşdığını sübut edir [4, s.86].

İstifadə edilən xammalın xarekterindən və istehsal edilən məhsulun təyinatından asılı olaraq metal emalı silahsazlıq, dəmirçilik, misgərlik və zərgərlik kimi bir neçə müstəqil sənət sahəsinə bölünürdü.

Dəmirçilər kənd təsərrüfatı alətləri - oraq, dəryaz, bıçaq, nal, mıx və s. düzəldirdilər. Naxçıvan xanlığında kənd dəmirçiliyi geniş yayılsa da, dəmirçiliyin başlıca mərkəzi şəhərlər idi. Yazılı mənbələrin verdiyi məlumata görə, Naxçıvanda 40 dəmirçi fəaliyyət göstərirdi. Naxçıvan diyarı ərazisində hələ qədim dövrdə fəaliyyət göstərmiş mis mədənlərinin xeyli hissəsi XIX-XX əsrin əvvəllərində də yerli metallurqlar tərəfindən istismar edilirdi. Ordubad şəhərindən 32 verst məsafədə yerləşən Əyərək kəndi yaxınlığında yerləşən mis mədənlərinin XIX əsrin əvvəllərində Qacar şahzadəsi Abbas Mirzənin göstərişi ilə istismar edilməsi haqqında məlumat vardır. Bəhs olunan mənbədə 1859-cu ilə aid qaynaqlarda Ordubad qəzasında 5 misəritmə müəsisəsi fəaliyyət göstərildiyi qeyd edilir [9]. Naxçıvan diyarında metalişləmə sənəti ilə bağlı yayılmış sənət sahələrindən biri də zərgərlik sənəti idi. Zərgərlik metal emalının qədim tarixə malik olan sahələrindən biridir. Azərbaycan xalqının məişətində mühüm yer tutan zərgərlik məmulatlarının yayılma arealı da kifayət qədər geniş olmuşdur. Azərbaycanın ayrılmaz bölgəsi olan qədim Naxçıvan diyarında arxeoloji qazıntılar zamanı zərgərlik sənətinə aid çoxlu nümunələr əldə edilmişdir. I Kültəpə qədim yaşayış yerində tapılmış qızıl məftildən hazırlanmış sırğa, bilərziklər və s. kimi arxeoloji materiallar bunu təsdiq edir. X əsr müəllifi İbn Hövqəl Azərbaycanda zərgərlik sənətinin mühüm mərkəzləri sırasında Naxçıvanın adını çəkmişdir. Tədqiqata cəlb etdiyimiz dövrün ilk illərinə aid kameral təsvirdə isə Naxçıvanda 18, Ordubad şəhərlərində isə 5 gümüşbəndin çalışdığına rast gəlirik [9]. Bir sözlə bu sahə ilə məşğul olan sənətkarlar adətən şəhərlərdə məskunlaşırdı.

Naxçıvan ərazisində xalçaçılıq sənəti geniş inkişaf yolu keçmişdir. Ölkə ərazisində yerləşən müxtəlif qoyun cinsləri xalça ustalarını bol və keyfiyyətli yunla təmin edirdi. Təbii boyaq maddələrinində zənginliyi burada həm xalçaçılığın, həm də boyaqçılıq sənətinin inkişafına güclü təkan verən amillərdən olmuşdur. Xalqımızın məişətində xalça-palaz məmulatlarının xüsusi mövqeyə malik olması da bu sənət sahəsinin inkişafında az rol oynamırdı. Naxçıvan diyarında qoyunçuluğun inkişafı sayəsində əldə edilən yun xalçaları lazımi qədər xammalla təmin edirdi. Naxçıvan xalçaçılarının hazırladıqları gəbə, palaz, xalça, cecim, məfrəc evin otaqlarını bəzəmək üçün, xurcun və çuval yola çıxanlar üçün istifadə olunurdu.

Xalçaçılıq Naxçıvan xanlığının ərazisinə daxil olan Dərələyəz mahalının şərq hissəsində daha geniş yayılmışdır. Bölgədə xalça həm şəxsi istifadə, həm də satış üçün hazırlanırdı. Xalçaçılıqla əlaqədar olaraq xanlıqda boyaqçılıq sənəti də xeyli inkişaf etmişdi [11, s.65]. XIX əsrdə Naxçıvanda xalça istehsalı artıq kütləvi şəkil almış, yun məmulatı ilə yanaşı, pambıq və ipək saplarla da xalça toxunmuşdur. Aparılan araşdırmalar nəticəsində məlum olmuşdur ki, Naxçıvan şəhərindən 6 verst aralıda yerləşən Təzəkənddə xalça toxuculuğunu öyrədən xüsusi kurslar fəaliyyət göstərmişdir. Tədqiqatlardan aydın olur ki. burada xalça toxuculuğunu öyrənənlər arasında kəndli ailələri arasından çıxmış qızlar üstünlük təşkil etmişdirlər. Məlumatlardan aydın olur ki, Təzəkənd

toxuculuğun inkişaf etdiyi Naxçıvan şəhər ətrafında yerləşən əsas kənd olsa da, bu sahə Nehrəm, Yamxana, Dizə, Qaraçuq, Tumbul kəndlərində də inkişaf etmşdir [13, s.72-73].

Arxiv sənədlərindən aydın olur ki, xalça toxuculuğu üzrə İrəvan quberniyasının tərkibinə daxil olan qəzalar içərisində Naxçıvan qəzası ikinci, Şərur-Dərələyəz qəzası isə üçüncü yeri tuturdu. XIX əsrin sonu XX əsrin əvvəllərinə aid rəqəmlər göstərir ki, İrəvan quberniyasının Naxçıvan və Şərur Dərələyəz qəzalarında1700 ailə bu işlə məşğul olurdu [12, v.31]. H.Səfərli və S. Hacıyeva öz tədqiqatlarında yazırlar ki, bölgədə istehsal olunan xalçaçılıq məmulatları təkcə bölgə əhalisinin tələbatını ödəmir, bəzi hallarda sıx iqtisadi mədəni əlaqələrin olduğu Cənubi Azərbaycan, Xəsərsahili vilayətlərə və Dağıstana da göndərilirdi [13, s.73].

Xalçaçılıq sənətindən bəhs edərkən bölgədə mövcud olan digər toxuculuq sənəti haqqında da məlumat vermək lazımdır. XIX əsrdə Naxçıvan diyarının kəndlərində pambıq parça toxuculuğunun geniş yayıldığı və yüksəliş dövrü keçirdiyi haqqında məlumatlar vardır. Azərbaycanda tarixən pambıq parça, o cümlədən, bez istehsalının klassik vətəni Naxçıvan olmuşdur. Bölgə öz üstünlüyünü uzun müddət qoruyub saxlaya bilmişdir. XIX əsrin birinci yarısında bez parçaları həm şəhərlərdə fəaliyyət göstərən karxanalarda, həm də kənd yerlərində ev şəraitində toxunurdu. Təkcə Naxçıvan şəhərində fəaliyyət göstərən 40 bəzzaz karxanasında çalışan toxucuların sayı 145 nəfərə çatırdı. Aparılan tədqiqatlar göstərir ki, diyarın Naxçıvan, Əlincəçay, Əylis mahallarında çalışan pambıq parça toxucularının sayı 300 nəfərdən çox idi [9, s.102]. XIX əsrin ikinci yarısında Azərbaycanın digər bölgələrində pambıq parça istehsalı tənəzzülə uğrayıb aradan çıxdığı halda, Naxçıvanda bez toxuculuğu həm kustar sənət, həm də ev peşəsi formasında hələ də davam etməkdə idi. Maraqlı haldır ki, burada bez toxuculuğu təkcə şəhər və şəhər tipli qəsəbələrdə deyil, həm də kəndlərdə əmtəə istehsalı səciyyəsi daşımaqla satış məqsədi güdmüşdür. Bundan əlavə, Naxçıvan və Ordubad şəhərlərində də xeyli culfa, başqa sözlə, bez toxuyan (bəzzaz) cəmləşmişdi. Bir qədər əvvəllərə aid başqa bir mənbənin yazdığına görə, Çar Rusiyası Cənubi Qafqazı ələ keçirib bu yerlərə sahib olan zaman Naxçıvan şəhərində 40 nəfər bəzzaz işləyirdi [2, s.23]. XIX əsrin 30-cu illərinə aid arxiv sənədində isə həmin dövrdə Naxçıvan şəhərində, ümumiyyətlə, toxucuların sayının 126 nəfər olduğu və Ordubadda çalışan 145 nəfər bəzzazla birlikdə isə hər iki şəhərdə 271 nəfər culfa işlədiyi xəbər verilirdi. XIX əsrin sonlarından bəhs edən başqa bir mənbənin yazdığına görə, o zaman Ordubad əhalisinin yarısı toxuculardan ibarət olub İrəvan və digər quberniyaların əhalisini pambıq parça ilə təmin edirdi [5, s.59].

XIX əsrin 30-cu illərində diyarın Naxçıvan, Əlincəçay və Əylis mahallarında pambıq parça toxuyanların sayı, təxminən 300 nəfər təşkil edirdisə, həmin əsrin 80-ci illərində bir qədər başqa adla Naxçıvan qəzasının tərkibində olmuş bu üç mahalda bez toxuyan qadın toxucuların sayı 910 nəfərə çatmışdır [8, s.104].

Naxçıvan sənətkarları basma naxış üsulu ilə pambıq parçalar da istehsal edirdilər. Bu növ parçaların Naxçıvan diyarında toxunması haqqında türk səyyahı Övliya Çələbi də məlumat vermişdir. Dərin tarixi köklərə malik olan basma naxış parça istehsalı XIX əsrdə Naxçıvanda xeyli inkişaf etmişdir. Əsrin əvvəllərində Ordubad şəhərində 8 nəfər, 80-ci illərdə isə 7 nəfər basma naxış ustası fəaliyyət göstərirdi. Naxçıvan şəhərində bu sənətlə məşğul olan sənətkarların sayı daha çox olub, XIX əsrin 80-ci illərində 26 nəfərə çatırdı. Belə sənətkarların Yaycı kəndində də fəaliyyət göstərməsi haqqında məlumat vardır [8, s.105].

Ordubadda Naxçıvandan fərqli olaraq qadınlar ev şəraitində ipək parça toxuyur və ipək saplar hazırlayırdılar. Toxuculuq sənətində Ordubadın xalçaçıları və bez parça hazırlayanları ustalıq baxımından heç də Naxçıvan sənətkarlarından geridə qalmırdılar. Ordubad və ümumiyyətlə, Naxçıvan diyarında toxunan parçalara xarici bazarda da böyük ehtiyac duyulurdu. Naxçıvan diyarında şəhərlərdən savayı, Dərələyəz mahalında başqa kənd yerlərindən fərqli olaraq əhali sənətkarlığın müxtəlif sahələri ilə məşğul olurdu. Bu mahalda toxuculuq daha çox inkişaf etmişdi. Burada da, əsasən, xalça, ipək və bez parçalar toxunardı. Naxçıvan diyarında toxunan və xarici bazarda ən çox satılan parçalardan qeyd edildiyi kimi, qırmızı rəngli bez parça olmuşdur. Bez parça çox zaman daha artıq ehtiyac duyulan Qarabağ və İrəvan xanlıqlarına satmağa aparılırdı [1, s.73]. Ordubad şəhərinin 1873-cü il kameral təsvirinə əsasən K.Simirnov yazır ki, şəhər əhalisindən başqa qəzanın Nüsnüs, Əndəmiç, Kotam, Gənzə, Anabad, Kilit, Əylis Varagird kəndlərinin əhalisinin demək olar ki, hamısı ipəkçiliklə məşğul olurdu [8, s.101].

XX əsrdə Naxçıvan iqtisadiyyatına dair tədqiqatda bölgədə ipək emalı sənayesi bəzi digər rakurslarda da nəzərdən keçirilir. Orada yazılır: «ümumiyyətlə, 1910-1912-ci illərdə Naxçıvan qəzası kəndlərinin 32 faizi barama istehsalı ilə məşğul olurdu. Baramaçılıq Ordubad rayonu ərazisində xüsusilə geniş yayılmışdı. Rayon ərazisində olan 46 kənddən 43-də baramaçılıq az-çox inkişaf etmişdi. Həmin dövrdə Naxçıvan qəzasında baramaçılıq başqa yerlərə nisbətən yüksək məhsul verirdi. 1911-1913-cü illərdə Naxçıvan şəraitində bir qutudan 4 pud barama alınması normal hadisə hesab olunurdu…" İpəkçilik müəssisələri ən çox Ordubad (12 müəssisə), Naxçıvan şəhərlərində, Əbrəqunus və Cənnəb kəndlərində mərkəzləşmişdi [14, s.55].

Barama istehsalının daima yüksələn xətlə inkişaf etdiyini Naxçıvan diyarının ipəkçiliyin əsas mərkəzi olan Ordubad qəzasının timsalında daha aydın müşahidə etmək olar. Rusiya İran müharibəsinin sonlarında burada cəmi 6 pud xam ipək istehsal edilmişdisə, XIX əsrin 30-cu illərində bu göstərici 240 puda, 50-ci illərində 915 puda, XX əsrin əvvəllərində isə 5 min puda çatmışdır [8, s.111]. Bölgə ərazisində Ordubadla yanaşı Culfa və Əylis də ipək ixracatında əsas mərkəzlərdən sayılırdı. Ümumiyyətlə Naxçıvan bölgəsi xam ipəyin istehsalına görə Azərbaycanın bir sıra qabaqcıl bölgələri ilə eyni sırada dururdu [13, s.59].

Qoyunçuluq və maldarlığın inkişafı Naxçıvan diyarında gön-dəri məmulatı istehsalı üçün əlverişli şərait yaradırdı. Bu dabbaqçılıq sənətinin inkişafına müsbət təsir edirdi. Bu sənətkarlıq sahəsi çox qədim tarixə malik olub öz başlanğıcını ibtidai icma quruluşu dövründən götürür. Zaman keçdikcə gön-dərilərin bəsit xalq üsulları ilə aşılanması tədricən peşəkar dabbağlar tərəfindən tətbiq edilən daha mürəkkəb kimyəvi-mexaniki üsullarla əvəz edilirdi. Azərbaycanın digər bölgələrində olduğu kimi Naxçıvanda da əhalinin gön-dəri məmulatlarından hazırlanan məhsullara olan tələbatı çəkməçilər, sərraclar, papaqçılar, kürkçülər tərəfindən ödənilirdi. C.Mustafayev qeyd edir ki, bu sənətkarlar arasında çəkməçilər xüsusilə çoxluq təşkil edirdilər [7, s.134]. Əldə olunan məlumatların təhlili göstərir ki, Naxçıvan diyarında gön-dəri məmulatı istehsalı ilə bağlı olan bu sənət sahələrinin hər biri geniş yayılmaqla yanaşı həm də yüksək inkişaf səviyyəsinə çatmışdır. Təkcə bir faktı göstərmək kifayətdir ki, XIX əsrin 30-cu illərində Azərbaycanın 5 şəhərində-Şamaxı, Ordubad, Naxçıvan, Nuxa və Şuşa şəhərlərində fəaliyyət göstərən 136 nəfər dabbağın 50 nəfəri, başqa sözlə desək 1/3 hissəsindən çoxu Naxçıvan və Ordubad şəhərlərinin payına düşürdü [8, s.129].

| İllər | 1832 | 1858 | 1867 | 1869 | 1894 | 1897 | 1899 | 1903 | 1910 | 1914 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Emalatxanaların sayı | 6 | 10 | 10 | 13 | 2 | 15 | 2 | 2 | 2 | 1 |
| İşçilərin sayı | - | - | 24 | 30 | 11 | - | 16 | 20 | 10 | 4 |
| İllik məhsul istehsalı (rublla) | - | 4460 | 5000 | 7000 | 900 | 1000 | 1200 | 2600 | 800 | 2113 |

*Bax: Muradov V. Naxçıvan diyarında sənətkarlıq və ticarət (XVIII-XX əsrin əvvəlləri). Bakı: Elm, 2017, 264 s.*

Bir məsələni də vurğulamaq istərdik ki, Azərbaycanın digər şəhərlərindən fərqli olaraq Ordubad şəhərində dabbaqxanalar şəhərin mərkəzində yerləşmişdir. Belə ki, Ordubad şəhərində yerləşən 12 dabbaqxana düz şəhərin mərkəzində mövcud olmuşdur. Bu da bağlara axan suyun keyfiyyətinə mənfi təsir edirdi [3, s.112]. XIX əsrin 30-cu illərinin əvvəllərində Naxçıvan şəhərində isə 22 nəfər dabbaq fəaliyyət göstərirdi. 1865-ci ildə Naxçıvan şəhərində çalışan dabbaqların sayı 33 nəfərə çatmışdır. XX əsrin əvvəllərində isə bu siyahıda azalma müşahidə olunmuşdur.

Naxçıvan diyarında aparıcı sənətkarlıq sahələrindən biri də dulusçuluqdur. Xanlıqda dulusçuluq da xeyli inkişaf etmişdi. Dulusçuluq xanlıqlar dövründə sənətkarlığın aparıcı sahəsinə çevrilmişdi. Naxçıvan xanlığının Rusiya tərəfindən işğalı dövründə Naxçıvan və Ordubad şəhərlərinin hər birində 12 nəfər dulusçu çalışırdı. Xanlığın Təzəkənd adlı yaşayış məntəqəsində Naxçıvanın hakimi Ehsan xana məxsus saxsı səhəng istehsal edən emalatxana fəaliyyət göstərirdi. Naxçıvan xanlığının ayrı-ayrı kəndlərində 33 nəfər saxsı qab istehsalı ilə məşğul olurdu [15, s.843]. XVIII əsrdə və XIX əsrin əvvəllərində baş vermiş müharibələr, görünür, dulusçuluq sənətinin

coğrafiyasına da təsir göstərmişdi. Əvvəlki dövrlərdə dulus emalatxanalarının əksəriyyəti Naxçıvan və Ordubad şəhərlərində cəmləşdiyi halda, göstərilən dövrdə dulus ustaları daha çox kənd yerlərində fəaliyyət göstərirdilər.

Naxçıvan şəhəri ilə müqayisədə Ordubad şəhərində dulusçuluq sənətinin miqyası daha məhdud idi. XIX əsrin 30-cu illərinə aid mənbədə bu şəhərdə karvansaralardan birində yerləşən cəmi bir emalatxananın fəaliyyət göstərməsi haqqında məlumat verilir. Yeri gəlmişkən qeyd edək ki, XIX əsrin sonrakı onilliklərində Ordubadda fəaliyyət göstərən dulus emalatxanalarının sayı faktiki olaraq dəyişməz qalmışdı. "Qafqaz təqvimi" məcmuəsinin 1868-ci ilə aid nömrələrindən birində göstərilir ki, Ordubad şəhərindəki dulusçuluq emalatxanası yaşayış evində yerləşir və ancaq ilin isti vaxtlarında fəaliyyət göstərir. Burada istehsal edilən şirsiz qablar ancaq yerli əhalinin tələbatını ödəyir. İki dulus emalatxanasının fəaliyyət göstərdiyi 1869-cu il istisna olmaqla sonrakı illərdə Ordubadda cəmi bir dulus emalatxanası işləyirdi [10, s.143]. Kənd dulusçuları Naxçıvan diyarında yaşayan əhalinin saxsı məmulatı ilə təmin edilməsində mühüm rol oynayırdılar. Əldə olan məlumatlar göstərir ki, XIX əsrin 90-cı illərində Naxçıvan, Ordubad və Dərələyəz mahallarında dulusçuluqla məşğul olan sənətkarların sayı 90 nəfərə çatırdı. Onlar istehsal etdikləri məhsulların bir hissəsini şəhərlərdə təşkil edilən həftəbazarlarına çıxarmaqla şəhər əhalisinin də saxsı qablara olan tələbatını ödəyirdilər.

Göründüyü kimi, Naxçıvan və Ordubad şəhərlərində XIX əsrin 60-80-ci illərində dulusçuluq sənətində müəyyən yüksəliş müşahidə edilsə də, bu həmin əsrin 90-cı illərindən başlayaraq tədricən dönməz xarakter alan tənəzzüllə əvəz olunmağa başladı. Əslində, ümumazərbaycan xarakteri daşıyan bu tənəzzülün ən başlıca səbəblərindən birini xarici ölkələrdən cini qabların kütləvi idxal edilməsi təşkil edirdi. Yüksək keyfiyyətli belə qablarla rəqabətə tab gətirməyən yerli dulusçular vəziyyətdən çıxmaq üçün bir tərəfdən istehsalın həcmini azaldır, digər tərəfdən isə əsas diqqəti şirsiz qablar istehsalına yönəldirdilər. Naxçıvan diyarında mis qablar istehsalının yayılmasını da Ordubad və Naxçıvan şəhərlərində dulusçuluğun tənəzzülünü dərinləşdirən səbəblərdən biri kimi göstərmək olar. Dulusçuluq sənətinin inkişafının son mərhələsi hesab edilən XIX-XX əsrin əvvəllərini Naxçıvan diyarında bu sahənin vaxtaşırı olaraq tənəzzül və yüksəlişin bir-birini əvəz etdiyi dövr adlandırmaq olar [10, s.144]. Ümumiyyətlə, tədqiq etdiyimiz dövrdə Naxçıvanda bir çox sənətkar dükanı var idi ki, onlarda yuxarıda adını çəkdiyimiz sənətlərdən savayı dərzilər, çəkməçilər, dəmirçilər, dəlləklər öz peşələri ilə məşğul olurdular.

*Nəticə*. Son olaraq tədqiq etdiyim dövrlə bağlı Naxçıvan diyarının sənətkarlığın tarixi coğrafiyası ilə bağlı belə bir nəticəyə gəlmək olar ki, sənətkarlıq bölgənin daha çox iki şəhərində Ordubad və Naxçıvan şəhərində üstünlük təşkil etmişdir. Sənətkarlığın hər hansı bir sahəsinə görə bu şəhərlərdən biri digərini üstələmişdir. Bütün bunlara baxmayaraq diyarın kəndlərində də ev peşəsi sənətkarlığın bir çox sahəsi geniş şəkildə yayılmışdır. Bunlardan əsasən xalçaçılıq sənətini xüsusilə qeyd edə bilərik.

## ƏDƏBİYYAT


1. Abdullayev A. Naxçıvanda sənətkarlığın tarixi coğrafiyası (XVIII əsrin ikinci yarısı - XIX əsrin birinci yarısı) // Naxçıvan Dövlət Universiteti. Elmi əsərlər, 2015, № 2 (67), s.72-74.
2. Budaqova S. Naxçıvan diyarının tarixi coğrafiyası (XVIII əsrin ikinci yarısı - XIX əsrin birinci qərinəsi). Bakı, Elm, 1995, 96 s.
3. Hacıyeva S. Naxçıvanda sənətkarlıq (XII-XIX əsrlər). Naxçıvan, Əcəmi, 2017, 184 s.
4. Həbubullayev O. Kültəpədə arxeoloji qazıntılar. Bakı, Azərb. SSR EA nəşriyyatı, 1959, 180 s.
5. Mustafayev A. Azərbaycanın maddi mədəniyyət tarixi (etnoqrafik materiallar əsasında tipoloji tədqiqat). Bakı, "Bakı Universiteti" nəşriyyatı, 2009, 420 s.
6. Mustafayev C. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq. Bakı, Elm, 2002, 272 s.
7. Mustafayev C. Xanlıqlar dövründə Şamaxıda sənətkarlıq // AMEA Tarix İnstitutu, Elmi əsərlər, 2009, cild 28, s.130-137.
8. Muradov V. Naxçıvan diyarında sənətkarlıq və ticarət (XVIII-XX əsrin əvvəlləri). Bakı, Elm, 2017, 264 s.

9. Muradov V. Naxçıvan diyarında misgərlik və zərgərlik sənətinin inkişaf tarixindən. Mənbə: http://www.anl.az/down/meqale/az_xalcalari/2016/18/517831.pdf [Müraciət tarixi: 11.06.2020].
10. Muradov V. Naxçıvan diyarında dulusçuluq sənətinin inkişafi tarixindən (XVIII-XIX əsrin əvvəllərində) // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, ictimai və humanitar elmlər seriyasi, 2017 №1, s.140-147.
11. Naxçıvan tarixi, III cilddə, II cild. Naxçıvan, Əcəmi, 2014, 528 s.
12. Naxçıvan MR Dövlət Arxivi, fond 34, siyahı 5, iş 7, v. 31.
13. Səfərli H., Hacıyeva S. Naxçıvanda xalçaçılıq: tarixdə və günümüzdə. Naxçıvan, Əcəmi, 2019, 104 s.
14. Şahverdiyev Z. Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində. Bakı, Elm, 2008, 264 s.
15. Шопен И. Исторической памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. Санкт-Петербург, Типография Императорской Академии Наук, 1852, 1231с.

**NURLANA ALIYEVA**
***Nakhchivan Branch of ANAS***

## HISTORICAL GEOGRAPHY OF NAKHCHIVAN CRAFTS IN THE 19TH AND EARLY 20TH CENTURIES

In the 19th and early 20th centuries, as in all Azerbaijan, one of the main occupations of the population in the Nakhchivan was crafts. During this period, different areas of crafts were developed, and craft centers were created where various craftsmen came together. The handicrafts made by Nakhchivan masters have earned a special place in the Middle East. The development of crafts in Nakhchivan is conditioned by the demand for its products and the level of trade relations. Finally, in connection with the historical geography of crafts in Nakhchivan, we can conclude that crafts prevailed in more than two cities of the region - Ordubad and Nakhchivan.

*Keywords*: Nakhchivan region, 19th and 20th centuries, Ordubad, craft centers, handicrafts.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 11 iyun 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 06 yanvar 2021-ci il.*
*Rəyçilər: t.e.d. H.Səfərli, t.e.d. İbrahim Zeynalov.*

**UOT 94(3); UOT 902**

**AYNURƏ ƏLƏSOVA**
*Gəncə Dövlət Universitetinin doktorantı*
**E-mail: alasova87@mail.ru**

# AZƏRBAYCAN VƏ YAXIN ŞƏRQİN MƏDƏNİ İRSİ ERKƏN ƏKİNÇİLİK DÖVRÜNDƏ

*Arxeoloji qazıntılar ilkin sivilizasiyaların əsasını erkən əkinçilik mədəniyyətləri təşkil etmişdir. Bu dövrdə iqtisadiyyatın əsasını əkinçilik və maldarlıq təşkil edirdi. Azərbaycanda yerli mədəniyyətin qeyri-adi inkişafı Tovus ərazisində yerləşən Göy təpə yaşayış yeri ilə xarakterizə olunur. Yaşayış yeri iri ölçülü çiy kərpicdən dairəvi formada, sıx yerləşmiş kiçik evlərdən ibarət tikilmişdi. Erkən əkinçilik mədəniyyəti nəinki yeni həyat tərzinin formalaşmasına gətirib çıxardı, eyni zamanda onun diferensasiyasının əsasını qoydu.*

*Açar sözlər*: Azərbaycan, mədəni irs, arxeoloji abidələr, erkən əkinçilik mədəniyyətləri, çiy kərpic.

*Giriş*. Dünyada aparılan arxeoloji tədqiqatlardan məlum olur ki, neolit dövrünün erkən əkinçiləri ilkin sivilizasiyaların meydana gəlməsində başlıca rol oynamışlar. Təsadüfi deyil ki, məhz erkən əkinçi- maldar tayfaların yayıldığı ərazilərdə ilkin sivilizasiyaların qalıqları aşkar olunur. Bu baxımdan arxeologiya elminin ən aktual tədqiqat istiqamətlərindən biri qədim istehsal təsərrüfatına yiyələnmiş, oturaq həyat tərzi keçirən erkən əkinçi maldar tayfaların formalaşması və məskunlaşması problemi olduğu kimi, sənətşünaslıq və arxitektura tariximizin də öyrənilməsi üçün mühüm mərhələ hesab oluna bilər. Bir sıra vacib amillər, əlverişli ekoloji durum, Ön Asiyanın mədəniyyətlərinə yaxınlıq Azərbaycanda və ümumən Cənubi Qafqazda qədim istehsal təsərrüfatı sahələri olan əkinçilik və maldarlığın formalaşmasına şərait yaratmışdır. Nəticədə bölgədə Yaxın Şərq mədəniyyətlərinə məxsus abidələrlə sinxron erkən əkinçi-maldarlara aid yaşayış məskənləri meydana gəlmişdir. Bu məskənlər tikinti mədəniyyətinin təkmilləşməsi istiqamətində sonralar mühüm əhəmiyyət daşımışlar.

*Əsas mətn.* Azərbaycanın qədim mədəni irsinin mütərəqqi xətt üzrə inkişafında qonşu Şərq ölkələrinin yüksək mədəniyyətləri və svilizasiyaları ilə yaradıcı qarşılıqlı təsir amili də xüsusi rol oynamışdı. Yaxın Şərqə və Xəzəryanı bölgələrə inteqrasiya şəraitində Azərbaycan ərazisi vahid mədəni məkanın tərkib hissəsinə çevrilmişdi. Əkinçilik və maldarlığın inkişafı üçün əlverişli şəraitə malik olan Azərbaycan ərazisinə hətta Ön Asiyanın mədəni mərkəzlərindən, o cümlədən, Mesopotamiyadan əkinçi tayfaların köçü başlanmışdı. Son illərdə Azərbaycanın bir sıra bölgələrində Übeyd və Uruk mədəniyyətlərinə aid məişət-təsərrüfat və qəbir abidələrinin üzə çıxarılması buna tutarlı sübutdur. Azərbaycan ərazisində maddi mədəniyyət sahəsindəki irs öz yeni təcəssümünü əkinçilik və maldarlıq iqtisadiyyatının tam təşəkkülündə, ilk metalın mənimsənilməsində və geniş istehsalında, dulusçuluq və toxuculuq sənət sahələrinin yüksəlişində, çiy kərpic memarlığının meydana çıxmasında və geniş yayılmasında iqtisadi-mədəni əlaqələrin genişlənməsində, inteqrasiya meyllərinin artmasında və sairə də tapmışdı.

Azərbaycanda insan cəmiyyəti hələ daş dövrünün şel və aşel mərhələsindən meydana gəlib inkişaf tapmışdır. Məsunlaşmanın intensivliyi, əlverişli mühit Azərbaycanın əkinçiliyin və maldarlığın qədim mərkəzlərindən biri olmasını mümkün etmişdir. Azərbaycan ərazisində neolit dövrünə aid olan qədim yaşayış yerlərindən bir qismi Gəncə-Qazax bölgəsində, əsasən Kür çayının orta axarı boyunca yerləşir. "Neolit" termini ilk dəfə ingilis arxeoloqu Con Lebbok tərəfindən daş dövrünün son mərhələsi kimi müəyyənləşdirilmiş və uzun zaman bu dövrün başlıca xüsusiyyətinin daş alətlərin cilalalanması texnikası olduğu bildirilmişdir [4, s.113-117]. Daş alətlərin cilalanması texnikasının hələ paleolitin sonundan məlum olması elmdə qəbul edilsə də, arxeoloji tədqiqatlar neolit dövründə bəşəriyyətin inkişafında, xüsusilə onun təsərrüfat məşğuliyyətində çox mühüm mütərəqqi dəyişikliklərin baş verdiyini təsdiqləyir. Neolit dövründə oykumenanın inkişafında qeyri-bərabərlik daha da dərinləşir, texnoloji inkişaf səviyyəsinə, təsərrüfat fəaliyyətində istifadə olunan xammala, materiallara görə fərqlənən mədəniyyətlər təşəkkül tapır. Bəzi regionlar neolit dövrünü keçirib paleometal mərhələsində yaşadıqları, hətta dəmirlə tanış olduqları halda, digərləri hələ neolit dövründə yaşamaqda, başlıca olaraq daş alətlərdən istifadə etməkdə idilər. Bu səbəbdən neolitin xronoloji çərçivəsi müxtəlif regionlarda fərqli olub e.ə.VIII-II minilliklər arasında dəyişir [4, s.116-117].

Neolit dövrü həm istehsal yenilikləri, həm də yaşayış yerlərinin tikinti texnikasındakı yenilik Azərbaycanda olduğu kimi Yaxın Şərqin və Anadolunun erkən əkinçilik arxeoloji mədəniyyətlərində daha yaxşı izlənilir. Bu dövrdə yaşayış evlərinin konstruksiyasında nəzərə çapaçaq tərəqqi baş verir. Daş və möhrədən dayanaqlı evlər geniş yayılır. Yarımqazma və qazma tipli evlər meydana çıxır. Arxeoloji tədqiqatlar əkinçilik və heyvandarlıq təsərrüfatına keçidlə cəmiyyət və mədəniyyətdə köklü dəyişiklikləri nümayiş etdirir. Əhali istər kəmiyyət etibarı, istərsə yerləşmənin sıxlığına görə artır, demoqrafik partlayış izlənir, əhalinin 100 dəfə artdığı ehtimal olunur. Bu isə öz növbəsində dövrün ilkin tikinti-memarlıq xüsusiyyətinə birbaşa təsir etməklə, eyni zamanda mövcud coğrafi mühit və təbii şəraitin imkan verdiyi tikinti materiallarından istifadə edilməklə, yeni tikililərin meydana gəlməsinə imkan verir. Bununla əlaqədar olaraq, erkən əkinçilik komplekslərini səciyyələndirən arxeoloji əlamətlərin sabit dəsti formalaşır ki, buraya daş və ya möhrədən inşa olunmuş evlər, gil fiqurlar, əvvəlcə daş və ağacdan, sonra isə saxsı qablardan istifadə, daş balta və kərkilər daxildir. Azərbaycanda inkişaf etmiş Şərq mədəniyyətlərində olduğu kimi, neolit dövründən başlayaraq, yeni tikinti materialı olan çiy kərpicdən istifadə genişlənir. Arxeoloji tədqiqatlardan məlum olur ki, neolit dövründə Azərbaycan və ümumən Cənubi Qafqaz qədim memarlıq və tikinti ənənəsinə malik olmuşdur. Bütün tikililər möhrədən olan saman qatışıqlı çiy kərpicdən hörülmüşdür. Dairəvi planlı memarlıq üslubunda olan sarı gildən hörülmüş kərpiclərdə tünd rəngli bərkidici məhluldan istifadə olunmuşsa, tünd gildən olan kərpiclərin hörgüsündə əksinə olaraq açıq rəngli bərkidici məhlul istifadə olunmuşdur. Göründüyü kimi, bu dövr əsasən oturaq əkinçilərə məxsus çiy kərpic materialın üstün lük təşkil etdiyi və dairəvi formalı evlərin yayılması ilə səciyyəvidir. Hörgü texnikasının təkmilləşməsi nəticəsində, artıq sonrakı dövrdən başlayaraq, dairəvi formalı belə evlərin sayı artır. Belə evlər, iri nəsli - qəbilə birliklərinə aid olub, əsasən tək, bəzən də arakəsmə ilə ikiyə ayrılmış şəkildə tikilirdi. Maraqlı burasıdır ki, xarici təcavüzdən qorunmaq üçün təsərrüfat tikililərinin evlərə bitişik və ya onların yaxınlığında salınması yaşayış yerlərinin demək olar ki, hamısı üçün xarakterik olmuşdur. Belə ki, erkən tunc dövrü mədəniyyətinə aid olan yaşayış yerlərində dördkünc və dairəvi formalı çiy kərpicdən tikilmiş evlər geniş yayılmışdır. Azərbaycanda Qarabağdan Gəncə - Qazaxa, Naxçıvana, hətta Urmiya hövzəsinə qədər yayılmış Kür-Araz mədəniyyəti abidələrinin evləri buna misal ola bilər [3, s.60].

Bu zaman Fələstin, İordaniya və Suriyada Natufi mədəniyyəti əsasında neolit, erkən əkinçilik mədəniyyəti təşəkkül tapdığı kimi, Cənubi Azərbaycanda Hacı Firuz, Naxçıvan I Kültəpənin alt mədəni təbəqənin alt horizontı, Ağcabədidə Kamiltəpə, Ağstafa rayonunda I Həsənsu yaşayış yeri, Tovuzda Hacı Ələmxanlı, Göytəpə yaşayış yerləri Azərbaycanda e.ə. VII-VI minilliyin birinci yarısında istehsal təsərrüfatının bərqarar olduğunu, oturaq həyat tərzinə uyğun yaşayış məskənlərinin yayıldığını sübuta yetirir [1, s.47]. Bunlardan Hacı Ələmxanlı yaşayış yeri neolit dövrü əkinçilik mədəniyyətinin erkən mərhələsi əks etdirir. İstər memarlıq üslubunda, istərsə də əmək alətləri və keramika Göytəpə və Şomutəpə yaşayış yerləri ilə bir çox oxşarlıqlara baxmayaraq Hacı Ələmxanlı yaşayış yerini artefaktları arxaikliyi ilə fərqlənir, bəzi xüsusiyyətlərinə görə fərqlənir [1, s.48].

Evlərin kompakt deyil, ayrı-ayrılıqda yerləşməsi ekoloji şəraitin dəyişməsi, quraqlığın gücləndiyi şəraitdə sosial inkişafda ayrı-ayrı ailələrin fərdiləşməsinin sürətləndiyini göstərir. Qəbilələrarası rəqabət, toqquşmalar müdafiə xarakterli divarların meydana çıxmasının şərtləndirir. IX İyerixonda tədqiq olunan 2,25 enində divar qalıqları (19 m uzunluqda tədqiq olunub) əvvəlkilər fərqli olaraq artıq müdafiə xarakteri daşıyır. Arxeoloji materiallar əsasında izlənilir ki, oturaq həyata keçid evə münasibəti dəyişir, həmçinin insan rahatlığını təmin edən bu tikintiyə qayğını artırırdı. Evlərin döşəməsinə əhəngli suvaq çəkilir, döşəmə və divarlar qırmızı və ya açıq sarı rənglə boyanır. Evlərin bəzilərinin yarımqazma xarakterli olması ehtimal olunur. Beləki, ev döşəməsi aşağıda idi, pillələr aşağı enirdi. Bu evlər planına görə mezolit dövrünün komalarına bənzəyirdi. Amma, daşdan deyil, çiy kərpicdən inşa olunmuşdular. İyerixon Neolit A kompleksi oturaq həyat tərzinin bərqarar olması ilə inkişaf etmiş inşaat sənətinə malik erkən əkinçi məskəni təsüratını yaradır[4, s.117-118]. Yaşayış yerinin arxeoloji tədqiqi sakinlərin yüksək rifahını sənədləşdirir. Bu möhrə və çiy kərpicdən inşa olunmuş evlərin daxili sahmanının yüksək bədii tərtibatında həmçinin, istehsal sahəsi ilə bağlı olmayan estetik tələbatın ödənilməsinə yönəlmiş əşyaların çeşidində özünü göstərir.

Rab vadisi mədəniyyəti üçün düzbucaq biçimli tikililər səciyyəvi olsa da, koma və qazmaların istifadəsi davam edir. Bu isə əhalinin daimi oturaq əkinçilərə və mövsümü köç edən maldarlara ayrıldığını düşünməyə əsas verir. Azərbaycan və Yaxın Şərqin sinxron mədəniyyət və

abidələrində evlərin ümüumi quruluşu demək olar ki, eyni olmuşdur. Arxeoloji tədqiqatlar Natufi mədəniyyətinin yayıldığı bölgədə əhalinin daimi yaşayış məskənlərində yaşadığını, bu məskənlərdə sakinlərin sayının 250-400 nəfər olduğunu göstərir. Uzun müddət regionda iki yaşayış yeri – Tell əs-Sultan və Nahal Ören məlum idi. Hazırda həmin abidələrlə yanaşı Netiv xa – Qdud, Qilqar və Geşer (İordan vadisi) və Hatulla arxeoloji qazıntılarla öyrənilib. Keramikadan əvvəlki neolit A və keramikadan əvvəlki neolit B kompleksləri xüsusilə böyük maraq doğurur. Hesablamalara görə İerixon A kompleksi 2,5 ha əraziyə malik olmuş, əhalisinin sayı 1000 nəfərə qədər idi. Sakinlər dairəvi biçimli evlərdə yaşayırdı [5, s.48-52].

Tovuz rayonu ərazisində 2008-ci ildən etibarən Azərbaycan və Fransa arxeoloqlarının bölgədə yerləşən Mentəştəpə arxeoloji abidəsində apardığı arxeoloji tədqiqatlar cari ildə gözlənilməz nəticələr vermişdir. Qazıntılar nəticəsində Mentəş qədim yaşayış yerində Neolit dövründən Erkən tunc dövrünə qədər uzun bir tarixi çərhələnin mövcudluğu üzə çıxarılmışdır. Təqribən dörd min il müddətində davam edən yerli mədəniyyətlərin inkişaf proseslərini qədim yaşayış yerinin tədqiqatları zamanı anlamaq mümkün olmuşdur. Burada Azərbaycanda neolit dövrünə aid dairəvi evlərlə yanaşı, düzbucaqlı tikililərə də rast gəlinmişdir. Menteş neolit dövrü yaşayış yerində arxeoloji araşdırmalar zamanı məlum olmuşdur ki, abidədə yaşam son neolit (e.ə.5800-5700) dövründən tunc dövrünə qədər davam etmişdir [2, s.15-16]. Qədim yaşayış yerinin mədəni qat yapımının III mərhələsi 200 illik dövrü özündə əks etdirir. Həmin təbəqədə indiyədək bu əraziyə (Gəncə-Qazax bölgəsi) xas olmayan çiy kərpicdən ibarət düzbucaqlı formalı memarlıq tikliləri və çox zəngin maddi-mədəniyyət nümunələri aşkar edilmişdir. Qədim yaşayış yerinin ilkin məskunlaşması dövrü radiokarbon 14 analizlərinə əsasən son neolit dövrünə sirayət edir. Neolit dövrünə aid mədəni təbəqə çiy kərpiclrədən olan dairəvi formalı memarlıq tikili nümunələri ilə seçilir. Tikililərdə tapılan saxsı məmulatı bitki tərkibli olub, cilalı və çox vaxt da, boyalı keramika nümunələrindən ibarətdir. Arxeoloji abidənin qeyd olunan təbəqəsindən aşkar olunan maddi mədəniyyət nümunələri o qədər də zəngin deyil, lakin dairəvi formalı memarlıq tikililərinin birinin içərisindən aşkar olunan mis memarlıq nümunəsi və lazurit daşının farqmentləri xüsusi ilə diqqətəlayiqdir. Son neolit dövrünə aid mədəni qat yatiminda ən maraqlı tapıntı kütləvi dəfnlə bağlı olan qəbir quyusunun aşkar olunmasıdır. Burada 30-dan çox insan skeleti aşkar edilmişdir. Onların arasında uşaq skeletləri çoxluq təşkil edir [2, s.16-17]. Qeyd etmək lazımdır ki, bu cür qəbir regionda son neolit dövrünə aid olan yeganə tapıntıdır. Həmçinin qeyd edək ki, burada dəfn adətindən danışmaq mümkün deyil. Sadəcə qəbir çuxuru son neolit dövründə Menteş sakinləri arasında epidemiyanın yayılması nəticəsində kütləvi tələfatın olmasının bildirir. Qədim yaşayış yerinin mədəni təbəqələrində çiy kərpiclərdən ibarət düzbucaqlı formalı memarlıq tikililəri və çox zəngin maddi mədəniyyət nümunələri aşkar edilmişdir. Qeyd edilən mədəni təbəqənin arxeoloji materialları, saman tərkibli, boya naxışlı keramika nümunələri və düzbucaqlı tikililər e.ə V minilliyin sonlarında qədim yaşayış yerinin Şimali Mesopotamiya ilə çox sıx bağlılıqlarının olmasını göstərir.

Erkən əkinçilik mədəniyyətinin mühüm mərkəzlərindən biri Anadoluda e.ə. VIII minilliyin sonu-VII minilliklərdə mövcud olub. Burada e.ə.VIII minilliyin sonu –VII minilliyin əvvəllərinə aid Hacılar, Çayönü yaşayış yerləri, e.ə. VII minilliyin ikinci yarısı –VI minilliyin birinci yarısına aid Çatal Hüyük yaşayış yerləri tədqiq olunub. Oturaq həyat tərzi keçirən, əkinçiliklə məşğul olan Hacılar yaşayış məskənin sakinləri dairəvi planlı möhrə evlər tikir, onun divarlarını qırmızı boya ilə boyayırdılar[4, s.118]. Suvaq və boya evlərin döşəmələrinə də vurulurdu. Bu mədəniyyətin daşıyıcılarının başlıca əmək alətləri çaxmaqdaşı və obsidiandan oraq dişləri, çilalanmış daş baltalar, sümük bizlər, qıyıqlar idi. Arpanın becərilməsi arxeoloji qazıntılar nəticəsində tapılan nəbati qalıqlarla təsdiqlənir. E.ə. VII minilliyin ikinci yarısı – VI minilliyin birinci yarısına aid edilən, Konya vadisində yerləşən Çatal Hüyük yaşayış yeri neolit dövrü icmasının parlaq oturaq mədəniyyət yaratdığını nümayiş etdirir. Çatal Hüyük 13 hektar əraziyə malik idi, ətrafında 20-yə yaxın kiçik yaşayış yerləri yerləşir [5, s.68-77]. Çatal Hüyük sakinlərinin ideoloji təsəvvürlərində məhsuldarlıq ilahəsinə sitayiş əsas yer tuturdu. Bunu relyef və boya rəsmləri, daş və terrakot heykəlciklər əyani nümayiş etdirir. Çatal Hüyük yaşayış yerinin tipinin müəyyənləşdirilməsinə tədqiqatçıların münasibəti bir mənalı deyil. Arxeoloqların çoxu onu şəhər hesab edir və sahəsinin 13 hektar olmasını, əhalisinin çoxluğunu (2000-6000 nəfər) ön plana çəkirlər [4, s.118]. Bununla belə Çatal Hüyük yaşayış yerində şəhər üçün zəruri olan bəzi əlamətlər, o cümlədən sənətkarlıq və ticarət mərkəzi olması, intellektual potensialın burada cəmləşməsi və digər amillər arxeoloji qazıntıların nəticələri ilə təsdiqini hələ tapmayıb.

Azərbaycanda bu dövr qəbir avadanlığı olduqca zəifdir. Qəbirlərin əksəriyyətinin avadanlığı bir neçə saxsı qab fraqmentlərindən ibarət olmuşdur. Bəzi qəbirlərdə isə yalnız bir ədəd qab fraqmentinə rast gəlinmişdir. Aşkar edilmiş keramika məmulatının yalnız bəzilərinin gilinin tərkibi bitki qatışıqlıdır. Digər bütün fraqmentlər təmiz tərkibli və ya qum qatışıq gildən hazırlanmış qablara məxsus olmuşdur.

*Nəticə*. Cəmiyyətin sürətli inkişafı müxtəlif ərazilərdə məskunlaşmış insanlar arasında mədəni-sosial əlaqələr genişlənir və bu da öz növbəsində cəmiyyətdə əldə olunmuş yeniliklərin lokal, dar bölgədən çıxaraq geniş arealda yayılmasına, ötürülməsinə gətirib çıxarır. Mədəni nailiyyətlərin mübadiləsi planetimizin əsaslı şəkildə məskunlaşmasına, mühüm sivilizasiya mərkəzlərinin seçilməsinə imkan yaradır. Erkən əkinçilik mədəniyyətlərinin formalaşması və inkişafı dövrü də bu prosesin davam etməsi, mövcud arxitektur-memarlıq texnikasının da da təkmilləşdirilərək, digər nəslə ötürülməsi ilə xarakterizə olunur. Dünyanın bir sıra bölgələrində olduğu kimi, ilk vaxtlar çiy kərpicdən tikilmiş dairəvi və düzbucaqlı evlərin qeydə alınması, bu bölgənin də ümumdünya mədəni inkişaf prosesindən kənarda qalmadığını, paralel inkişafın getdiyini göstərməyə imkan verir. Hətta Yaxın Şərqin məşhur sivilizasiyalarının müxtəlif mədəniyyət və abidələrində qeydə alınmış yaşayış evlərinin əsas materialının çiy kərpic olduğu dövrdə, Respublikamızın fərqli abidələrində oxşar tərkibli, oxşar texnika ilə hazırlanma qaydalarının müşahidə olunması həm qarşılıqlı əlaqələri, həm də lokal inkişafın getdiyini göstəməyə imkan verir. Bu inkişaf prosesində neolit dövründə bəzək əşyalarının əsas tipləri-bilərziklər, muncuqlar, üzüklər, asmalar, sırğalar meydana çıxır. Bəzək əşyaları müxtəlif materiallardan-daş, ağac sümük, gildən hazırlanırdı. Bütövlükdə, əkinçilik və heyvandarlığ vərdişlərinin mənimsənilməsi neolit dövründə bəşəriyyətin ən böyük nailiyyəti olub sonrakı mədəni-tarixi tərəqqinin əsaslarını təşkil etmişdi.

## ƏDƏBİYYAT


1. Quliyev F., Nişiyaki Y. Göytəpə neolit yaşayış yerində arxeoloji tədqiqatlar // Azərbaycanda arxeoloji tədqiqatlar-2010. Bakı: Xəzər Universiteti nəşriyyatı, Afpoliqraf, 2011, s.46-49.
2. Quliyev F.E., Liyonet.B. Mentəş neolit yaşayış yerində arxeoloji araşdırmalar // Azərbaycanda 2014-cü ildə aparılmış arxeoloji və etnoqrafik tədqiqatların yekunlarına həsr olunmuş elmi sessiyanın materialları. Bakı: Afpoliqraf, 2015, s.14-17.
3. Mustafayev A.H. Azərbaycanın maddi mədəniyyət tarixi (etnoqrafik materiallar əsasında tipoloji tədqiqat). Bakı: «Bakı Universiteti» nəşriyyatı, 2009, 420 s.
4. Археология. Под ред. В.Л.Янина. Москва, изд. Московского Универстета, 2006, 608 с.
5. Mellart J. The Archaeology of Ancient Turkey. London, Rouman and Littlfild, 1978, 111 p.



**AYNURA ALASOVA**

***Doctoral student of Ganja State University***


## CULTURAL HERITAGE OF AZERBAIJAN AND THE MIDDLE EAST IN THE PERIOD OF EARLY AGRICULTURAL CULTURE


Archaeological excavations show that the early agricultural cultures were the initial layer of the first civilizations. The economy was based on agriculture and cattle breeding. An extraordinary flourishing in Azerbaijan of local culture characterizes the Gek Tepe settlement located in Tovuz. The settlement was closely built up with small houses built of steep, round mud bricks. The early agricultural era not only led to the establishment of a new way of life, but also marked the beginning of its differentiation.



*Keywords*: Azerbaijan, cultural heritage, archaeological sites, early agricultural cultures, adobe brick.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 fevral 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 06 yanvar 2021-ci il.*
*Rəyçilər: t.e.d. Qüdrət İsmayılov, t.e.d. Qabil Əliyev.*

**UOT 572.9**

**GÜNEL NURUŞOVA**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi*
*Arxeologiya və etnoqrafiya kafedrası, doktarant*
**E-mail. gunelnursoy1990@outlook.com**

# ANTROPOLOGİYADA ETNİKLİK MƏSƏLƏSİ

*Antropologiyanın müasir problemləri çoxşaxəli olub, insana və onun yaşadığı cəmiyyətə fiziki, etno-sosial, mədəni, linqvistik, hüquqi, psixoloji və s. baxımdan yanaşmanı araşdırmağa köməklik edir. Etniklik problemi mövcud toplumun mənşəyini, özünüdərkini, digər toplumlardan fərqini müəyyənləşdirməyə imkan versə də, zaman-zaman irqçilik kimi anlayışla da səhfən qarışdırılmışdır. Antropologiyada hal-hazırda bu terminlə bağlı bütün etnik xüsusiyyətlər – mədəniyyət, dil, din və s. əsas götürülərək, kompleks yanaşmadan istifadə olunur.*

*Açar sözlər*: antropologiya, etnos, irq, millət, irqşünaslıq, avtoxton.

*Giriş*. Antropologiyada “etniklik” məsələsi və ya “etnik antropologiya” terminlərinin hansı mənada işlənməsi və bu terminlərin obyektiv izahı ilə bağlı müxtəlif yanaşmalar mövcuddur. Bütövlükdə irqi, milli və ya linqvistik mənsubiyyəti ifadə edə biləcək etniklik sözünün kökü yunancadan tərcümədə “etnos- qəbilə, irq” mənasını ifadə etsə də, müasir cəmiyyətlərdə irqi-mədəni mənsubiyyəti, eləcə də fərqi izah edə biləcək bir ifadə tərzi kimi də işlənir. Paralel olaraq, məxsusi xüsusiyyətlər, fərqləndirici ictimai, mədəni-məişət dəyərləri də etnikliyin göstəricisi kimi qəbul oluna bilər. Müasir antropologiya elmində mədəni, irqi, dini və ya linqvistik xüsusiyyətlər tam kompleks şəkildə götürülməklə, etnikliyin mahiyyəti izah olunur [3].

Tarixən, fərqli dillərdə “etniklik” terminin mahiyyəti və yazılışında da müxtəlifliklər olmuşdur. Tədqiqatçı R.Cekson bu məfhumun əsasən milliyyət anlayışına uyğun gəldiyini bildirmiş, C.Qarsiya isə irq və etnilkik terminlərinin oxşar və fərqli cəhətlərini göstərməyə çalışmışdır [5, 11]. K.Fot isə daha fərqli yanaşma irəli sürərək, “Dil və etniklik” adlı kitabında etnikliyin linqvistika ilə əlaqəsini göstərmiş, antropolinqvistik araşdırmalarla etnosun mənşəyini fərqləndirməyə çalışmışdır [6, 17]. Keyfiyyətcə yeni etnosun və ya etnik birliklərin yaranması ilə nəticələnən etnik proseslər müxtəlifdir. Ona görə bu prosesləri təsnif etməklə sistemləşdirmək zəruridir. Bu proseslərin içərisində etnotəkamül və etnonəql (transformasiya) proseslərini bir-birindən fərqləndirmək lazımdır. Etnosun daxilində etnik komponentlərin dəyişməsinə baxmayaraq yeni etnos meydana gəlmirsə, bu etnogenetik proses etnotəkamül xarakteri daşıyır. Etnonəql prosesinin son nəticəsi tamamilə yeni keyfiyyətlərə malik dil və mədəni xüsusiyyətlərə malik yeni etnik birliyin meydana gəlməsidir. Etnik özünüdərkin dəyişməsi, insanın etnik mənsubiyyətinin dəyişməsi etnonəql prosesi nəticəsində mümkündür. Maraqlıdır ki, “etnik antropologiya – irqşünaslığı” ifadə etdiyi halda, etnikl irqçilik kimi qəbul edilmir.

*Əsas mətn.* Etnik kimliyin müəyyən edilməsi, etniklik və irqşünaslıqla bağlı antropologiyanın müxtəlif sahələrində aparılan tədqiqatlar XX əsrin sonlarından etibarən daha fərqli istiqamətdə aparılmağa başladı. Genetik tədqiqatlar, mikrobioloji araşdırmalar nəticəsində Homo Sapiensin formalaşma məkanı və yayılma zonasının müəyyən edilməsi ilə ilk formalaşan etnos, irq və ya hər hansı toplum məsələsinə də yeni yanaşmalar yarandı. XX əsrdə müstəmləkə və yarımmüstəmləkə ölkələrində irqçiliyə qarşı olan əks konsepsiyalar irəli sürülməyə başlanmışdır. Bunun nəticəsi olaraq, irqi cəhətdən üstünlüyün xüsusi formaları yaranmış və burada artıq ağ irqin deyil, digər irqlərin nümayəndələrinin üstünlüyü fikri irəli sürülürmüşdür. Belə nəzəriyyələr Afrika, Hind, Çin və digər bölgələrdə formalaşmışdı. XIX əsrin sonu XX əsrin əvvəllərində Latın Amerikası ölkələrində formalaşan "indianizm" adlı cərəyanın əsas məqsədi Amerika hindularının ictimai-siyasi vəziyyətini yaxşılaşdırmaq idi. Bu cərəyanın başçıları Xorxe Lira, Ernesto More və başqaları hinduların Peru cəmiyyətində xüsusi mövqe tutmasını təmin etmək üçün hətta islahatlar proqramı da təklif etmişdilər [4, 103-110]. Ümumiyyətlə, Amerikanın avtoxton əhalisinin - hinduların inkişaf yolu, psixoloji xüsusiyyətləri və s. haqqında XIX əsrdə tədqiqatlar aparılmışdır. Bu tədqiqatlar içərisində XIX əsrdə argentinalı mütəfəkkir Sarmiento Fakundonun adını çəkə bilərik. İlk dəfə məhz o, hinduların və

avropa əsilli əhalinin Argentinada qaynayıb-qarışması və burada xüsusi bir etnik birliyin yaranması prosesinin getdiyini göstərmişdir. İndianizm cərəyanının əsas mərkəzi Latın Amerikası ölkələrində Qvatamela, Peru, Çili və başqaları idi. Bu ölkələrdə əhalinin kifayət qədər böyük hissəsini hindular təşkil edirdi. Qvatemalada indianistlər hətta dövlət dili kimi ispan dilinin qadağan olunmasını irəli sürürdülər. İndianizmin klassik ölkəsi Peruda bu cərəyanın müxtəlif istiqamətləri formalaşmışdı. Bu proses İkinci Dünya müharibəsindən sonra daha da genişlənir və indianizm Peruda mövcud olan partiyaların proqram sənədlərinə də daxil edilir. 1949-cu ildə Peruda Hindu İnstitutu təşkil edilir, biraz sonra isə Yerli Xalqların Dillərinin Öyrənilməsi Cəmiyyəti sonradan instituta çevrilir [4, 112-124]. Həmin institutlarda hinduların həyat tərzi, maddi və mənəvi mədəniyyəti, sosial münasibətləri və s. tədqiq olunurdu.

XX əsrin 60-70-ci illərində İndianistikanın ən mühüm nümayəndələrindən biri Perulu mütəxəssis Luis Varkaltel hesab olunur. Luis Varkarsel And ərazilərində bəşər tarixində ən qədim əkinçilik mədəniyyətinin formalaşmasını əsas gətirərək hinduların əqli və şüuri cəhətdən digər irqlərdən üstün olduğunu irəli sürürdü. O, etnoqrafiya, filologiya, mədəniyyət tarixi və s. barədə çoxlu kitablara malik idi. L.Varkartel Xorxe Farfan ilə birlikdə Peruda "Hindu filologiyası"nın əsasını qoymuş, Keçua linqvistikasını öyrənmək üçün xüsusi cəmiyyət təşkil etmişdir. 1968-ci ildə X.Farfan Sanmarkos Universitetində "Keçua linqvistikası" kafedrasının əsasını qoymuşdur. Həmin kafedrada əsas devizlərdən biri o idi ki, vaxt gələcək keçua dili özünün həqiqi hörmətini qazanacaq və bizim müqəddəs sərvətimiz olacaq. Peru ilə yanaşı Baliviya, Meksika və digər ölkələrdə də indianizmin ideyaları yayılmışdı [7, 48-51]. Ekvadorda isə xüsusi Milli etnoqrafiya və Tarix İnstititu yaradılmışdı 1954-cü ildə Xixon İkamanio tərəfindən Hinduların Qorunması Cəmiyyəti təşkil olunur. Həmin cəmiyyət hinduların digər əhali qrupları ilə yaşamasının əleyhinə çıxırdı. İlk əvvəllər "hindular da insandır" şüarı altında formalaşan bu cərəyan sonrakı dövrlərdə hinduların digər insanlardan üstünlüyünü əsaslandırmağa, onların bəşəriyyət daxilində xüsusi mövqe tutduğunu göstərməyə çalışmışdır. Ümumilikdə isə indianistlər ağların və digərlərinin Amerika ərazisindən qovulması ideyası ilə çıxış edirdilər. Bu ideya "kaskanes" adı ilə aparılırdı [8]. Xüsusən, Meksikanın cənubunda bu hərəkət daha geniş yayılmışdı.

Müasir irqçiliyin digər növü isə Afrikada "neqritüd" formasında özünü biruzə verirdi. Əslinə qalsa keçən əsrin 30-cu illərində bu hərəkat ABŞ-ın cənub ştatlarında başlamışdı. Burada qaraların ağlarla eyni hüquqlardan bərabər istifadə etməsini istəyən tərəfdarlar "qara nə varsa füsunkurdardır, ağ nə varsa çirkindir" şüarı altında çıxış edirdilər. Ümumiyyətlə, XIX əsrin sonu XX əsrin əvvəllərində diffuzianistlərin əsas tədqiqat obyektlərin biri Afrika idi. Bu sahədə xüsusilə Leo Frobeniusun əsərləri çox məhşur idi. Onun Afrika mədəniyyətləri və xalqlarının dilləri haqqında əsərləri öz mahiyyətini bugün belə itirməmişdir. Lakin, L.Frobeniusun irəli sürdüyü mədəniyyət nəzəriyyəsi heç kim tərəfindən qəbul olunmur [4, 78]. Həmin bu dalğada XX əsrin II yarısında (50-60-cı illərdə) zəncilərin mənəvi simalarına görə, təbiətlə qaynayıb-qarışmalarına görə, təbiətin övladları olmalarına görə, yalan və xəbisliyin onların həyatından uzaqda olmasına görə insanlıq arasında xüsusi bir mövqe tutmaları haqqında bir nəzəriyyə formalaşır. Həmin nəzəriyyə neqritüd adını alır.

Ümumiyyətlə, XX əsrin 50-ci illərinin sonu 60-cı illərinin əvvəlləri Afrikada milli dövlətlərin yarandığı dövrdür. "Afrika bumu" nəticəsində 17 müstəqil dövlətin yaranması Afrika mərkəzçilik konsepsiyasının formalaşmasına gətirib çıxardı. Afrika mərkəzçiliyini və neqritüdü qərb ölkələrində əsasən Seneqalın prezidenti, şair, yazıçı, filosof Leapold Sedar Senqorun adı ilə bağlayırlar. Əslinə qalsa bu istiqamət hələ müstəmləkə dövründə Martinikada E.Sezar və Fransa Qvineyasında Leon Damas tərəfindən irəli sürülmüşdür [8]. Onların əsərlərində göstərilirdi ki, zəncilər özlərinin mənəvi keyfiyyətlərinə və daxili aləmlərinə görə avropalılardan fərqlənirlər və avropalıları geridə qoyurlar. Bu səbəbdən də zəncilər təbiətin övladları kimi yer kürəsində daha çox yaşamağa layiqdirlər, nəinki avropalılar.

Sonrakı dövrlərdə Amerika zənci hərəkatının əsas ideoloqlarından biri Eduard Blayden tərəfindən zənci irqinin özünəməxsusluğu ideyası irəli sürülmüşdü. O, neqritüd nəzəriyyəsinin tərəfdarı deyildi. Sadəcə zəncilərin ayrı-ayrı tipləri, antropoloji əlamətləri və s. barədə əsərlər yazmışdır. Eyni zamanda o göstəririrdi ki, aqressiv avropalılardan fərqli olaraq zəncilər öz təbiətlərinə görə sülhse-vərdirlər və münasibətləri dinc yolla həll etməyə çalışırlar. Amerikalılardan fərqli olaraq zəncilərdə

fərdiyyətçilik çox azdır, onlar daha çok kollektivçidirlər. Dini inam formaları onlarda ürəkdən gəlir. E.Blayden zənciləri ağlardan fərqləndirmirdi. Lakin, bitmiş formada neqritüd konsepsiyasını L.Senqor irəli sürmüşdür. O, "Afrika mədəniyyətinin qanunları və sivilizasiya ruhu", "Neqritüd və germanizm", "Neqro Afrika estetikası" əsərlərində bu konsepsiyanın əsas ideya istiqamətlərini ifadə etmişdir. L.Senqor göstərirdi ki, bəşər tarixində iki mədəni tip - ağ avropalıların və qara avropalıların mədəni tipi mövcuddur. O, əsərlərində bu tiplər arasında mövcud olan fərqliliklərin səbəblərini araşdırmağı qarşısına məqsəd qoymuşdur [7, 92-99]. Diffuzionistlərdən L.Frobeniusun Afrika mədəniyyətinin müstəsnalığı ideyasını əxz edən L.Senqor zəncilərin təbiətin övladı olması ideyasını irəli sürür. L.Senqor yazır ki, Afrikalı kəndli, balıqçı, çoban, ovçu olmasından asılı olmayaraq təbiətin qoynunda yaşayır və ağaclar, heyvanlar, ümumiyyətlə təbiəti təşkil edən bütün digər tərkib hissələrlə müəyyən əlaqələr sistemində yaşayır və təbiətin fəsillərinə uyğun ritmik şəkildə həyatını qurur.

Buradan o, belə bir nəticəyə gəlir ki, Afrika mədəniyyətləri təbiətin tərkib hissəsi olmaqla yaşamaq, yaratmaq motivlərini əsas götürürlər. Avropa mədəniyyətləri, ağ insanlar isə özləri arasında və təbiətlə qarşılıqlı inam əsasında olan münasibətləri məhv ediblər. Bu səbəbdən də onun neqritüd nəzəriyyəsində ağ insan dağıdıcı, məhvedici qüvvə kimi xarakterizə olunur. Burada qeyd olunur ki, ağların fəaliyyəti yer kürəsində həyatın məhv olmasına, yox olmasına gətirib çıxara bilər. Sonrakı əsərlərində L.Senqor öz konsepsiyasının kəskin müddəalarından imtina etsə də, zənci mədəniyyətinin və zənci düşüncə tərzinin müstəsnalığı ideyasını təbliğ etməkdə davam edirdi [3].

Elmi ədəbiyyatda "etnos" və"irq" anlayışlarının mənasına dair mübahisələr demək olar ki, həmişə mövcud olmuşdur. Bəzi müəlliflərə görə, bu əlamətləri "irq" də daşıya bilər. Məsələn, İngiltərə "Mədəni antropologiya" məktəbinin nümayəndələri "etnik azlıq" və "milli azlıq" anlayışlarının mahiyyətini oxşar qaydada izah etməyə çalışmışdılar. Bir çox elmi tədqiqatlarda bu terminlər bəzən qarışdırılır, izahında oxşarlıqlara üstünlük verilir, müəyyən vaxtlarda isə sinonim kimi də işlədilirdi. Etnik mənsubiyyətin izahının qarışdırılması isə nəticədə, milli-ərazi münaqişələrinin həllinə qeyri-obyektiv münasibət formalaşdırır, qədim tarixin təhrif olunmasına, məqsədyönlü şəkildə avtoxton etnosun mövqeyinin zəiflədilməsinə gətirib çıxara bilir. Məlumdur ki, millət tarixi kateqoriya kimi insanların tarixi birliyinin mütəşəkkil formasıdır. Xalqın tədricən millətə çevrilməsi daha çox kapitalizmin meydana gəlməsi, kapitalizm inkişaf mərhələsinə keçilməsi ilə bağlıdır. Bu zaman xalqı millət kimi formalaşdıran əsas amillər ümumi ərazi, dil, mədəniyyət, iqtisadi və mənəvi həyat birliyi hesab olunur. Azərbaycanın görkəmli ziyalısı Əhməd bəy Ağaoğlu milləti ictimai birliyin ali, fövqəltarixi və fövqəlsinifi forması hesab edir. Bununla da etnik kimlik məsləsinə öz münasibətini bildirir. Lakin o, müasiri və qələm yoldaşı olan mütəfəkkirlərdən bir sıra məsələdə müsbət mənada fərqlənir. Onun qənaətinə görə, özünə ehtiram tələb etməklə bərabər, başqalarının duyğu və düşüncələrinə də hörmət bəsləmək həqiqi millətçi üçün vacib şərtdir. Yalnız, belə olduqda "mədəni bir dövlətdə bir neçə millət yola gedə bilər", "tərəqqi və əxlaqın ali idealları" onların arasında "bağlayıcı halqa" olar: o ideallar ki, milli dövlət quruluşunun əsasını təşkil edir[1, 128]. Eyni zamanda, insanın cəmiyyətdə sosial varlıq olduğundan, mənsub olduğu topluma da yanaşmada da siyasi, mədəni etniklik müəyyən ümumi cəhətlər nəzərə alınmaqla, bir-birindən fərqləndirilə bilər.

*Nəticə*. Göründüyü kimi, etnikliyi irqçiliklə qarışdırmaq mümkün deyildir və müasir dünyanın ictimai-siyasi, sosial-mədəni həyatında mövcud olan əsas prioritet istiqamət etnosların fərqli cəhətlərini üzə çıxarıb, bir-biri ilə hər hansı münaqişələrin yaradılması deyil, əksinə, qloballaşan dünyada multi-kulturalizmə üstünlük verməklə, mədəni-elmi nailiyyətlərin inteqrasiyasına nail olmaqdan ibarətdir. Müasir dövrdə yaranan milli ayrı seçkiliklə bağlı yalan informasiyaların qarşısının alınması, elmi faktlara əsaslanan antropoloji mənsubiyyət göstəricilərin müəyyən edilməsi, bu göstəricilərin varisliyinin qədimdən müasir dövrə qədər ötürülməsi məsələsi də mövzunu aktual problemlər sırasına daxil edir. Etniklik məsələsini araşdırmaqla, mədəni antropologiya elminin əsas cəhətlərinin, xüsusiyyətlərinin üzə çıxarılması ilə zaman-zaman bizdən asılı olmadan türk xalqlarının tarixinə edilmiş saxtalıqların, müdaxilələrin səbəbini, izahını tapa bilər və bu boşluqları doldura bilərik. Müasir dövrümüzdə qloballaşma prosesi və informasiya texnologiyalarının sürətli inkişafı etnik özünüdərk, etnoslararası münasibətlər kimi məsələlər də təsir imkanına malikdir.

## ƏDƏBİYYAT

1. Mirəhmədov Ə. Əhməd bəy Ağaoğlu. Bakı, Ərgünəş, 2014, 264 s.
2. Məmmədov A. Avropa İttifaqı və Azərbaycan hüququnda "milli və dini azlıqlar" problemi // "Strateji təhlil" jurnalı, say 2 (9) 2014, s.177-201.
3. Ronald L. Jackson. The Negotiation of Cultural Identity: Perceptions of European Americans and African American, Greenwood Publishing Group, 1999, 131 p.
4. Thomas H.Eriksen. Ethnicity and Nationalism. London, Pluto Press, 2002, 115 p.
5. Jorge J.Gracia. Race or Ethnicity?: On Black and Latino Identity. Cornell Univ.Press, 2007, 189 p.
6. Carmen Fought. Language and Ethnicity. Cambridge Univ. Press, 2006, 249 s.
7. Макарова И.А Социально-философские подходы к определению понятия "этнос» // Вестник Забайкальского государственного университета, 2013, № 5, с.35-48.
8. Тезич Мустафа Джан. Коцепции этноса, этничности и Ethnicity в научных традициях России и Запада // Новые исследования Тувы, № 2 2016. Mənbə: https://nit.tuva.asia/nit/article/view/102 [Müraciət tarixi: 29.01.2020].

**GUNEL NURUSHOVA**
***Doctoral student of Baku State University***

## THE QUESTION OF ETHNICITY IN ANTHROPOLOGY

The modern problems of anthropology are multifaceted, and help to research the physical and ethno-social, cultural, linguistic, legal, psychological and other aspects of man and the society in which he lives. Although the issue of ethnicity allows us to determine the origin, self-consciousness and difference of an existing society from other societies, it is sometimes mistakenly confused with the concept of racism. Today in anthropology a complex approach based on all the ethnic features associated with this term - culture, language, religion, etc. is used.

*Key words*: anthropology, ethnos, race, nation, racial studies, autochthonous.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 29 yanvar 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 06 yanvar 2021-ci il.*
*Rəyçilər: t.e.d. Şirin Bünyadova, t.e.d. Qüdrət İsmayılov.*

**UOT 902**

**SELCAN MƏMMƏDZADƏ**
*AMEA A.A.Bakıxanov adına*
*Tarix İnstitunun doktorantı*
**E-mail: azerbaycan.selcan@mail.ru**

# URMİYA HÖVZƏSİNDƏ VƏ NAXÇIVANDA PROTOŞƏHƏR MƏDƏNİYYƏTİNİN XÜSUSİYYƏTLƏRİ

*Məqalənin məqsədi Azərbaycanın ilk şəhərlərinin əsas xüsusiyyətlərini müəyyənləşdirən meyarları öyrənməkdir. Bu məqsədlə Urmiya hövzəsində və Naxçıvanda şəhər mədəniyyətinin formalaşma xüsusiyyətləri araşdırılır. Arxeoloji qazıntılar nəticəsində bu bölgədəki yaşayış yerlərinin şəhərsalmanın formalaşmasının ən qədim mərkəzlərindən biri olduğu müəyyən edilmişdir. Bu yaşayış yerləri karvan yollarının kəsişməsində və ya təbii sərvətlərin yaxınlığında idi. Şəhərlər müdafiə strukturları ilə əhatə olunmuşdu.*

*Açar sözlər*: Protoşəhər, Urmiya hövzəsi, II Kültəpə, Oğlanqala, Sumbatan-Dizə.

*Giriş*. Sivilizasiya əsas şərti kimi qəbul edilən şəhərlərin tarixi qədim Azərbaycan tarixində Orta tunc dövrünə aid edilir. Latın dilindən götürülmüş "sivitas" sözünün mənası "şəhər" deməkdir. Dövlətçilik tariximizin başlanğıcı sayılan Manna dövlətinin formalaşdığı Urmiya gölü hövzəsində 1930-cu illərdən başlayan arxeoloji qazıntı işləri burada qədim şəhər mədəniyyətinin izlərinə rast gəldi. Naxçıvan qazıntıları e.ə.III-II minilliklərdə Naxçıvanda şəhərsalma mədəniyyətinin meydana gəlməsini müəyyən edir. Oturaq həyat tərzinə keçən əkinci-maldar icmaların həyatında yeni əlamətdar hadisə ilk daimi yaşayış məskənlərinin Urmiya hövzəsində bu tarixi proses e.ə VI minillikdən başlayır. Hövzənin ilk sakinləri yaşadıqları coğrafi arealın fərqli xüsusiyyətlərinə görə müxtəlif mədəniyyətlərə sahib idilər. Urmiya hövzəsində yaşayan əhalinin yaşayış tərzini müəyyən edən əsas cəhət müxtəlif mədəniyyətlərin inteqrasiyası olmuşdur [11]. Amerika arxeoloqları Sulduz-Uşnu vadisində ilk məskunlaşmanı Mərkəzi Zaqrosda yerləşən Təpə Asiab, Təpə Quran, Təpə Sarab (və yaxud Təpə Söhrab) və Çoğa-Mərən kimi Neolit düşərgələrinin sakinlərinin şimala miqrasiyası ilə əlaqələndirirlər [13, pp.63-108].

Sulduz vadisində məskunlaşmanın ilk nümunələri Hacı Firuztəpə adlanan ərazidə qeydə alınıb [17, pp. 230-233]. Arxeoloji qazıntılar nəticəsində buradamüxtəlif formalı bəzəksiz keramika fraqmentləri, dini mərasimlərdə istifadə olunan qadın heykəlcikləri aşkar edilmişdir. Yaşayış yerinin ikinci qədim mədəni təbəqəsindən boyalı qab nümunələri, daş dən əzənlər, sümükdən hazırlanan əşyalar və s. tapılmışdır. Radiokarbon analizlərinə əsasən bu təbəqə e.ə. 5184/82 və ya e.ə. 5297/71-ci illərlə tarixlənir. Təbəqədən enolit dövrü üçün səciyyəvi olan artefaktlar tapılıb və onlar Təpə Sarab və Carmodan tapılan analoji nümunələrlə çox oxşardır. Əsasən qəhvəyi və sarı rənglərdə olan saxsı qabların hazırlanmasında samandan da istifadə olunurdu. Düzbucaqlı formalı tikililərin döşəməsində əhəng daşından istifadə edilmişdir. Əşyalarla dəfn olunma axirət dünyasına inamla bağlı idi. Qazıntılar zamanı anbar məqsədi ilə istifadə olunan tikilinin qalıqları arasında 6 litr tutumlu 6 ədəd saxsı qab tapılmışdır. Küplərdəki üzüm sirkəsinin əlamətləri əsasında çaxır hazırlandığı sübuta yetirilmişdir; bu bəşər tarixində ilk hadisə kimi dəyərləndirilir [12, pp.2954, 2967; 14, pp.67, 69].

Yanğın izləri nəticəsində Hacı Firuztəpənin hərbi əməliyyatlar nəticəsində dağıldığı güman olunur. Radiokarbon analizlərinin nəticəsinə əsasən bu hadisə e.ə. 5152-ci ilə aid edilir. Məzarlıqdan 28 insana aid sümüklər, sadə saxsı qab qalıqları, kiçik qadın heykəlləri, çaxmaqdaşından hazırlanan nizə ucluqları və mübadilə zamanıəmtəələrin növünü və sayını müəyyən etmək üçün istifadə olunan müxtəlif həndəsi formalı tokenslər tapılmışdır [9, c.74].

Sulduz vadisinin Eneolit dövrünə aid məskənlərindən biri də Dəlmətəpədir (Həsənlidən 5 km cənub-qərbdə). Burada çaxmaqdaşından istifadənin ilk əlamətlərinə rast gəlinmişdir. Yaşayış yerinin mərkəzində yerləşən təsərrüfat məqsədli quyularda ərzaq saxlamaq üçün istifadə olunurdu. Tapılan sadə formalı saxsı qablar Hassun mədəniyyətinin aid nümunələrilə, üzəri naxışlarla bəzədilmiş saxsı qablar isə Xələf mədəniyyətinin analoji məmulatı ilə eynilik təşkil edir. Lakin boyalı keramika nümunələri arasında müəyyən fərqlərdə nəzərə çarpır. Radiokarbon analizinin nəticəsinə əsasən saxsı qabların tarixi e.ə.4087/36-cı ilə aid edilir [12, p.2967; 13, pp.111-127; 14, p.73, 79, 104; 9, c.72-73].

Təbriz yaxınlığında yerləşən Bəsməncan və Bostanabaddan, Mərənd ətrafı yaşayış yerləri olan Kültəpə, Təpə Parpar, Təzəkənd və Livarda da enolit dövrünə aid naxışlı qab nümunələrinə rast gəlinmişdir [15, ss.19, 23, 33, 38-39].

Salmas düzündə yerləşən (Urmiya gölünün şimalında) Əhrəncantəpədə Eneolit dövrünə aid bir abidə tapılmışdır [18, pp.7-17]. Göldən cənubda yerləşən Pişdəlitəpədə aşkar olunan bəzi nümunələr Ubeyd mədəniyyətinin yayıldığı ərazilərdə də qeydə alınıb [10, c.121-122]. Piştəlipənin ən qədim keramika nümunələri Hacı Firuztəpədə tapılan boyalı və həndəsi naxışlarla bəzədilən keramika nümunələri ilə oxşardır. Piştəlipədən tapılan bəzi qablar üzərində qabartma üsullu dairələr olmasına görə orjinallığı ilə diqqət çəkir. Abidə e.ə. IV əsrin ikinci yarısına aid edilir. [12, pp.2956, 2967, figs.1025, 1026].

Ümumiyyətlə, Ubeyd mədəniyyəti üçün səciyyəvi olan qablar Urmiya hövzəsində geniş yayılmışdı. İlk dəfə bu tip artefaktlara T.Barton-Braun 1948-ci ildə Göytəpədə arxeoloji qazıntılar aparan zaman "N" və "M" təbəqələrində rast gəlmişdir. Burada möhrədən olan divar qalıqları, kömürləşən arpa dənələri, gildən hazırlanan sapand daşları və ev heyvanları formasında fiqurlar, kəsici alətlər, gildən düzəldilmiş möhür nümunələri tapılmışdır.

XX əsrin 60-cı illərində Çarlz Barneyin rəhbərliyiilə ABŞ arxeoloji ekspedisiyası Yanıqtəpədə qazıntılar aparılmışdır. Bu zaman Eneolitin son dövrlərinə aid 6 təbəqə tapılmışdır. Ən qədim təbəqədə insan sümükləri ilə yanaşı, gildən və alebastrdan düzəldilmiş qab nümunələri, qolbaqlar, sümük qıyıqlar, dəvəgözüdən hazırlanmış kəsici alətlər aşkar edilmişdir. Əhali eneolit dövrünün sonundan bu ərazini tərk etmiş və Erkən Tunc dövrünün əvvəllərində yenidən buraya qayıtmışlar.

XX əsrin 60-70-ci illərində Alman arxeoloqları tərəfindən aparılan araşdırmalarda Meşkin, Xalxal və Ərdəbil yaxınlığında Orta Tunc dövrünə aid yaşayış məskənlərinə rast gəlinmişdir [15, s.48-58, 70].

1966-1969-cu illərdə Alman arxeoloqlarının Se Girdan adlanan ərazidə (Dinhətəpə yaxınlığında) kurqan abidələrinin qazıntıları apardıqları qazıntılarda narıncı və boz rənglərdə keramika qalıqları, bəzi məzarlardan mis bəzək əşyaları tapılmışdır. Bu artefaktlar Arslantəpənin VII təbəqəsindən (Şərqi Anadolu)və Qafqazda (Maykop ve Leçinkay) müvafiq qatlarından tapılan erkən kurqan abidələrinin materialı ilə oxşarlıq təşkil edir. E.ə. IV minilliyə aid olan bu tip kurqanlara İran yaylasının digər ərazilərində rast gəlinməmişdir [7, s.39-40]. Xudafərin yaylasında yerləşən Səramlı, Darağacı, Dormishkanlı, Kulitəpə, Köhnətəpə və Köhnə Pəsgahtəpəsi kimi məskənlər eneoloton sonlarına aid olunur [16].

Urmiya ətrafında tapılan maddi mədəniyyət nümunələri burada mövcud olan protoşəhərlərin Naxçıvan ərazisinin ilk cəmiyyətləri ilə ticarət əlaqələri saxladığını sübut edir. Çox güman ki, Urmiya hövzəsində qədim mədəniyyət və təsərrüfat həyatının mövcud olması Azərbaycanda digər qala-şəhər tipli yaşayış yerlərinin yaranmasına təsir etmişdir. Eneolit dövründə hövzədə iki müxtəlif etnik birlik məskunlaşmış və bir-biri ilə sıx əlaqədə olmuşdur. Bu qruplardan biri Qarabağın aran hissəsinə və Mil düzünə (Kamiltəpə və Əliköməktəpə) köçmüşdür.

E.ə. IV minilliyin ortalarında Urmiya hövzəsinin və Arazboyu məskənlərin ictimai həyatında yeni mərhələ – Tunc dövrü başlayır. Bu dövrün erkən şəhər tipli məskənləri naxçıvan abidələri ilə təmsil olunub. Orta tunc dövründə Naxçıvan iqtisadi, mədəni cəhətdən inkişaf etmiş şəhər kimi tanınırdı. Yaşayış yerlərinin bir-birinə yaxın bir neçə təpələrdə salınması onların bir patriarxal ailəyə mənsub olduğunu sübut edir. Buradakı bəzişəhərlər 10 hektardan çox ərazini əhatə edirdi. Bu ilkin şəhərlərin mərkəzi hissəsi Mesopotamiyanın qədim şəhərləri kimi müdafiə divarları ilə əhatələnmişdir.

İlk protoşəhərlərdən biri Naxçıvandan 12 km şimalda, Yuxarı Uzunoba və Didivar kəndlərinin qonşuluğunda, Cəhriçayla Naxçıvançayın birləşdiyi ərazidə yerləşir. Yaşayış yerinin salamat qalan hissəsi və ətraf əraziləri çayların qovşağından şimalda olub, hər iki yandan çay terrasları ilə sərhədlənir. II Kültəpənin Orta, Son Tunc və İlk Dəmir dövrü mədəni təbəqələri qala-şəhərin yaranması və təkamülü dövrünə təsadüf edir. Orta tunc dövrü təbəqəsində dörd tikili qatında 3,6-4 m dərinlikdə qala divarlarının bünövrəsi, yaşayış binalarının, təsərrüfat tikililərinin qalıqları aşkar olunmuş və bu dövrün ilk inkişaf mərhələsinə aid zəngin materiallar toplanılmışdır. Qala divarlarının bünövrələri ilk tunc dövrü təbəqəsi üzərində qurulmuşdur [4, s.36-39]. Qala divarları bir qədər uzunsov beşbucaqlı plana malikdir və kvadrat formalı beş bürclə möhkəmləndirilmişdir. Qalaya giriş qapısı nisbətən iri daş bloklardan, istehkam divarları isə yüksək keyfiyyətli müxtəlif

ölçülü kərpicdən tikilmişdir. II Kültəpənin ilk narınqala divarları e.ə. XVIII əsrədək saxlanılmışdır [4, s.43]. V.H.Əliyev narınqalanın dəqiq stratiqrafiyası, tikili laylarının arxeoloji materiallarının müqayisəli elmi tədqiqi əsasında II Kültəpə qala-şəhərində Orta Tunc dövründə mühüm sosial-ictimai dəyişikliklər baş verdiyini müəyyənləşdirmişdir. E.ə. III minilliyin ikinci yarısında II Kültəpənin ictimai həyatında mülki bərabərsizlik yaranmışdır. Yaşayış yerinin varlılara məxsus olan sahəsində müdafiə divarının qalınlığı 15 m təşkil edir. [5, s.43]. Naxçıvanda qalatikmə memarlığının e.ə. II minilliyin əvvələrində meydana gəlməsi ilk dəfə II Kültəpədə qədim şəhər mədəniyyətinin yaranması ilə bağlıdır. [5, s.162].

I Maxta Kültəpəsi yaşayış yeri müasir Maxta kəndi yaxınlığında, Şərur şəhərindən 5 km şimal-qərbdə yerləşir və 0,78 ha sahəni əhatə edir. Erkən Tunc dövründə məskunlaşan abidədə mədəni təbəqənin qalınlığı 4 m-dir. Yaxınlıqdakı Qarabulaq adlı dağətəyi ərazidə alçaq təpəciklərin üzərində kurqan abidələri yerləşir. 1988-ci ildə aşkar edilmiş kurqanların beşində Son Tunc dövrünə aid saxsı məmulatı və bəzək əşyaları üzə çıxarılmışdır [2; 4].

Naxçıvan ərazisində şəhər mədəniyyətinin ilk nümunələrindən olan Şahtaxtı yaşayış məskəni e.ə. III minilliyin ortalarından protoşəhər kimi mövcud olmuşdur. Protoşəhər mədəniyyətinin öyrənilməsində vacib sayılan abidələrdən biri də Oğlanqaladır. Oğlanqala Şərur rayonu ərazisində, Arpaçayın sağ sahilində, strateji cəhətdən əlverişli ərazidəyerləşir. Hələ Eneolit-İlk Tunc dövrlərində Arpaçay vadisinin bu dağətəyi düzənlik ərazisində Naxçıvanın qədim oturaq əkinçi-maldar tayfaları sıx məskunlaşmışlar. Onların mühüm yaşayış məskənlərindən biri Ovçular təpəsində salınmışdır [3, s.334]. Burada salınmış yaşayış yerinin müdafiə divarları ilə möhkəmləndirilməsi tayfalararası toqquşmaların göstəricisi hesab oluna bilər. Oğlanqalanın şəhər-dövlət və paytaxt olması haqqında mülahizələr vardır. Qala divarlarının tikintisində uzunluğu 1,5-3 metr, eni 1 metrdən artıq olan kobud yonulmuş daşlardan istifadə olunmuşdur. Siklop tikililər sırasına daxil edilən bu abidə Aşşur qabartmalarındakı dağ qalalarını xatırladır. Oğlanqalanın mərkəzi hissəsində 70x100 metr sahədə Narınqala inşa edilmişdir. Qala divarlarının bəzi yerlərdə 4 cərgə üst-üstə düzülmüş tikililəri günümüzədək qalıb. Qala bürcləri bəzi yerlərdə iki yarımdairəvi tikililərlə məhdudlaşdırılmışdır [3,s. 37]. Oğlanqala ərazisində aparılan arxeoloji qazıntılar nəticəsində saray qalıqlarına, dini-inzibati mərkəz olan tikiliyə rast gəlinmişdir. Qalanın mərkəzi hissəsində yerləşən saray tikilisində aparılan qazıntılar nəticəsində üzərində mixi işarələr olan təsərrüfat küpü tapılmışdır. Tədqiqatçılar C14 arxeoloji analizin nəticəsinə əsasən Oğlanqalanın xronoloji çərçivəsini e.ə. 1200-800-cü illər kimi qeyd edirlər. Bu Oğlanqalanın müstəqil dövlətin mərkəzi kimi mövcud olduğu dövrdür [2].

Naxçıvan şəhərlərinin quruluşunda əsaslı dəyişikliklər e.ə II minilliyin sonlarında meydana gəlir. Sumbatan-dizə qədim şəhər yeri eyni adlı dağın zirvəsini, Düzdağla Dəyirman dağı arasında yerləşən Süleyman və Rəsul dərələrini əhatə edir. Şəhər yerinin ümumi sahəsi 20 hektardan artıqdır. Şəhərin çiçəklənmə dövrü e.ə. I minilliyin birinci yarısına düşür. Şəhər yerində yaşayış evləri, müdafiə divarları və inzibati binaların qalıqları ilə yanaşı üç nekropol da aşkar edilmişdir. 2008-ci ildə aparılan arxeoloji tədqiqatlar nəticəsində abidənin çoxtəbəqəli olması məlum oldu və yaşayış yerinin yaxınlığında kurqanlar aşkar edildi [7, s.52].

Qədim yaşayış yerlərinin protoşəhər tipli olmasını sübut edən bir sıra amillər vardır. Yaşayış məskənlərini əhatə edən sahə, əhalinin sayı və sıxlıq xüsusiyyəti, sənətkarlıq sahələri ilə məşğul olan əhalinin xüsusi məhəllələrə sahib olması, yaşayış yerlərinin ətrafına müdafiə divarının çəkilməsi, ətraf ərazilərlə ticarətin mövcud olması və digər komponentlər protoşəhərlərin əsas göstəriciləridir [6]. Müdafiə divarı Göytəpə yaşayış yerindəhələ Eneolitin ilkin mərhələsini əks etdirən təbəqədə aşkar edilib. Bu tip və ya buna oxşar başqa yaşayış yerlərini şəhər hesab etmək olarmı? Bununla bağlı bir sıra mülahizələr mövcuddur. Məsələn, hesab edilir ki 100-ə qədər əhalinin məskunlaşdığı yaşayış yerlərini mövsümü düşərgə, xırda kəndlər kimi xarakterizə etmək olar. Əhalisi 1000 nəfərə qədər olanları daimi kəndlər, 1000-nəfərdən çox olanları şəhərcik və ya "protoşəhər" kimi qəbul etmək mümkündür. Azərbaycanın qədim şəhərləri əvvəlcədən düşünülmüş plan əsasında deyil, yaşayış yerlərinin inkişafı və genişlənməsi nəticəsində yaranmışdır [3, s.334].

*Nəticə*. Bütün deyilənlər Urmiya hövzəsi və Naxçıvan bölgəsi yaşayış yerlərində Eneolot-Erkən Tunc dövrlərində urbanizasiya proseslərinin başlandığına, ilkin şəhərsalma ənənələrinin formalaşmasına işarə edir. Bölgənin qabaqcıl məskənlərinin iqtisadi yüksəlişi üçün gərəkən vacib kriteriyaların

mövcudluğu şəraitində bu proseslər uğurla cərəyan edirdi. Əlverişli strateji mövqedə salınan məskənlərdə tranzit mübadilənin, təbii sərvətlərə və xammala yaxınlıq müxtəlif sənət sahələrinin meydana gəlməsinə, demoqrafik artım yaşayış yerlərinin sahəsinin genişlənməsinə təkan verirdi. Cəmiyyətin sosial təbəqələşməsi dərinləşdikcə sakinlərin can və mal güvənliyinin təmin olunması məqsədilə şəhər çevrəsi müdafiə səddi ilə əhatələnirdi. Sadaladığımız bu iqtisadi amillər sonda şəhər tipli yaşayış yerlərinin tədricən dini-ideoloji və siyasi-inzibati mərkəzə çevrilməsi ilə nəticələndi. Göründüyü kimi, dövlətçilik tariximizin başlanğıcında start götürən dərin iqtisadi proseslər birbaşa şəhər mədəniyyəti ilə bağlı olmuşdur. Yazıyaqədərki dövrdə meydana gəldiklərindən ilk şəhərlərimizin əsil adları tarixi yaddaşımızda qalmayıb və biz şərti olaraq onları yerləşdikləri məkanın müasir adı ilə adlandırırıq.

## ƏDƏBİYYAT

1.Aşurov S.H., Əlimirzəyev A.N. Kür-Araz mədəniyyəti cəmiyyətlərinin inzibati idarəetməsinə dair yeni tapıntılar // Azərbaycan Arxeologiyası və Entoqrafiyası, 2013 №1, c.34-39.
2.Baxşəliyev V, Ristvet L, Gopnik H, Aşurov S. Oğlanqalada 2010-cu ildə aparılan arxeoloji tədqiqatların nəticələri, s.339-347 / Azərbaycanda arxeoloji tədqiqatlar - 2010. Bakı, Xəzər Universiteti, 2011, 364 s.
3.Cəfərov H. Azərbaycanda protoşəhər sivilizasiyasının təşəkkülü və formalaşması məsələsi: sinifli cəmiyyətə keçidin bəzi aspektləri // Tarix və onun problemləri, 2016 № 3, s.323-336.
4.Əliyev.V. Naxçıvanın ilk tunc dövrü tayfalarının mədəniyyəti // Azərbaycan Arxeologiyası, 2010, say 1, s.36-47.
5. Əliyev V.H., Məmmədova A.Ə. II Kültəpə yaşayış yerində tədqiqatlar, s.155-163 / Azərbaycanda arxeoloji tədqiqatlar - 2012. Bakı, Xəzər Universiteti, 2013, 380 s.
6.İbrahimli B. Naxçıvanın qədim şəhərləri: Sumbatan-Dizə // Naxçıvan: ilk yaşayış yeri və şəhərsalma yeri kimi" mövzusunda beynəlxalq simpoziumun materialları. 07 iyun 2011. Naxçıvan, Naxçıvan Dövlət Universiteti, 2012, s.173-180.
7.Müseyibli N. Leylatəpə mədəniyyətinin qəbir abidələri və dəfn adətləri. Bakı, Nafta-Press, 2014, 140 s.
8.SeyidovA, İbrahimov K. Azərbaycan ərazisində erkən şəhər mədəniyyəti (Naxçıvan materialları əsasında) // Azərbaycanın paytaxt şəhərləri. Elmi-praktik konfrans, 24 noyabr 2014. Məqalələr toplusu. Bakı, "Elm və Təhsil", 2014, s.31-46.
9.Мелларт Дж. Древнейшие цивилизации Ближнего Востока. Москва, Наука, 149 с.
10.Мунчаев Р.М. Кавказ на заре бронзового века. Москва, Наука, 1975, 413с.
11.Ajorloo B. The Neolitization process in Azerbaijan: An introduction to review // Procedings of the 5$^{th}$ İnternational Congress on the Archaeology of the Ancient Near East (3-8 april 2006). Madrid, 2008, pp.107-125.
12.Dyson R.H. Early Cultures of Solduz, Azerbaijan // Asia Institute Book. Produced under the Direction of Jay Gluck by Meiyi Shobo / Tokyo, Japan and Asia Institute books. Kobe, Yapan, 1967, pp.2951-2970.
13.Hamlin C. Dalma Tepe // Iran, Vol. XIII, 1975, pp.111-129.
14.Henrickson E.F. An updated chronology of the Early and Middle Chalcolitic of the Central Zagros Highlands, Western Iran // Iran, 1985, Vol. XXIII, pp. 63-108.
15.Kroll S. Archāologische Fundplätze in Iranisch–Ost-Azerbaidjan // AMI, Band 17, 1984, ss.13-133+8 Tafel.
16. Maziar S. Settlement dwnamics of the Kuro-Araxes culture: An Overview of the Late Chalkolitic and Early Bronze Age in the Khoda Afarin Plain, North-Western Iran // Paléorient. Paris, 2015, 41, pp.25-36.
17. South and Southwest Asia. New Haven, Yale University Press, 2000, pp.230-233.
18.Tala'i H. Pottery Evidence from Ahrendjan Tepe. A Neolithic Site in the Salmas Plain (Azerbaidjan, Iran) // AMI. NF. 1983, Band 16, pp.7-17.

**SELJAN MAMMADZADA**
***PhD student of the Institute of History of ANAS***

**FEATURES OF THEPROTO-URBAN CULTURE OF THE URMIA BASIN AND NAKHCHIVAN REGION**

The purpose of the article is to study the criteria that determine the main characteristics of the early cities of Azerbaijan. The article discusses the features of the formation of urban culture in the Urmia Bassin and districtof Nakhchivan. As a result of archaeological excavations, it was found that the settlements of this region were one of the oldest centers of the formation of urbanization. These settlements were based on crossroads of caravan routes or near natural resources. Cities were surrounded by defensive structures.

*Keywords*: Proto-city, Urmia basin, II Kultepe, Oghlangala, Sumbatan-Diza.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 04 fevral 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 06 yanvar 2021-ci il.*
*Rəyçilər: t.ü.f.d. Allahverdi Əlimirzəyev, t.e.d. Qüdrət İsmayılov.*

*Tarix və onun problemləri / История и её проблемы / History and its problems, 2021 №1, 161-164*

**UOT 39; 572.9**

**MƏLAHƏT ORUCOVA**
*Bakı Dövlət Universiteti Tarix fakültəsi*
*Arxeologiya və etnoqrafiya kafedrası, doktorant*
**E-mail: melahet.ova@mail.ru**

# ƏNƏNƏVİ CƏMİYYƏTLƏRDƏ QADININ STATUSU MƏSƏLƏSİ

*Qadının ailə və cəmiyyətdəki mövqeyi, sosial, iqtisadi və hüquqi vəziyyəti cəmiyyətin, mədəniyyətin xarakteri və ümumi inkişafı ilə sıx bağlıdır. Müxtəlif tipli mədəniyyətlərdə qadının rolu və statusunun çoxşaxəli olmasına baxmayaraq, o daim ikinci yeri tutmuşdur. Ənənəvi cəmiyyətlər kişi və qadın rolunun fərqini aydın nümayiş etdirir. Qadınların qeyri-bərabər vəziyyəti dini inanc sistemi ilə əsaslandırılırdı.*

*Açar sözlər*: ənənəvi cəmiyyət, sosial status, qadınlar, sosial stratifikasiya, adətlər.

*Giriş*. İctimai münasibətlərin formalaşması prosesində qadın və kişilərdən ibarət iki submədəniyyət qarşılıqlı münasibərdə olmuşdur. İnsanların ilkin mütəşəkkil kollektivinin də məhz qadınlarla bağlı olması və sonrakı tarixi inkişaf gedişində onlar arasındakı mübarizə arxaik və ənənəvi cəmiyyətlərdə status və stratifikasiya kimi bölgülərin kəskin özünü göstərməsi ilə müşahidə olunur. Ənənəvi cəmiyyətlərdə qadın ilk növbədə kişinin qərarlarına tabe olan ana və həyat yoldaşıdır. Qadının kişiyə tabe olması ilk dəfə hüquqi cəhətdən Hammurapinin qanunlarında təsdiq olunmuşdur. İslam dünyasında Məhəmməd Peyğəmbər qadınların sosial statusunu dini qaydalarla cəmiyyətə qaldırmağa çalışmışdır.

*Əsas mətn.* Mədəni antropologiyada qadınların sosial statusu üç əsas istiqamət üzrə araşdırılır: qadının cəmiyyətdəki rolu; qadın rolunun ictimai əhəmiyyəti; qadın hüquqları. Ənənəvi cəmiyyətlərdə qadının statusu ilə bağlı 2 fərqli cəmiyyətlər müəyyən edilir: qadınının üstünlük təşkil etdiyi cəmiyyətlər - (hindu, irokez) və qadının maksimal dərəcədə tabe olduğu, hüquqsuz olduğu cəmiyyətlər - (Yaxın Şərq cəmiyyəti)[ 3, 64-71].

Mədəni antropoloji tədqiqatlar əsasında müəyyən olunmuşdur ki, tunc dövründən etibarən kişi və qadınların gizli cəmiyyətləri olmuş, hətta onların xüsusi kult sistemi yaradılmışdır. Tədqiqatçılar hətta ilk ictimai əmək bölgüsünü də qadın və kişilər arasında yaranmış ilkin rəqabətin nəticəsi olaraq izah edirlər [5, 99-203]. Marqaret Mid "Kişi və qadın. Dəyişən dünyada cinsi məsələnin tədqiqi" adlı əsərində insan cəmiyyətindəki fərqlilikləri, təbəqələşməni məhz kişi və qadınlar arasındakı fizioloji və psixoloji fəqrlərdə axtarmağı lazım bilirdi [7, 107]. Tunc dövründən etibarən ənənəvi cəmiyyətlərdə 6-7 yaşlı qız artıq sadəcə uşaq hesab olunmurdu, uşaqlara aid amulet-qoruyucuları ilə yanaşı, qadın bəzəklərinə də malik olur və qadınlara məxsus sənətkarlıq sahələrini öyrənirdilər. Onların içərisində toxuculuq və geyim hazırlanması, saxsı qab və yemək hazırlanması, əkinçilik kimi işlər üstün yer tuturdu. Arxeoloji qazıntılar nəticəsində aşkar olunmuş Alakul mədəniyyəti daşıyıcılarına məxsus keramika nümunələri antropoloji cəhətdən tədqiq olunarkən, onların üzərində cəmi 30%-də kişi barmaq və dırnaqlarının izinə rast gəlinmişdir, yerdə qalan əksəriyyət isə qadın və qız uşaqlarına aid edilmişdir [5, 88-101]. Hətta təsərrüfatda xırdabuynuzlu heyvanların mövcudluğu da qadınların əsas məşguliyyəti kimi toxuculuqla – yun istehsalı ilə əlaqələndirilirdi.

Ənənəvi cəmiyyətlərdə erkən nigahın mövcudluğu da qəbir abidələrinin tapıntıları ilə təsdiq olunur. Belə ki, qəbirlərdən bəzən 15-17 yaş arası qadın və körpə uşaq skletinin tapılması bunu təsdiq edir. Klod Levi Stross bildirir ki, ənənəvi cəmiyyətlərdə nikahla bağlı çoxsaylı qadağalar olduğundan, sərbəst seçim imkanı qadınlarda demək olar ki, yox idi [6, 69]. Bu dövrlərdə qadının hüquqsuz olması zorla öldürülərək qəbrə qoyulmuş qadınların qeydə alınması ilə də təsdiq olunur. Bununla belə, qədim cəmiyyətlərdə, xüsusən iskitlərdə dini inanc sistemində qadın – ana əsas İlahə hesab olunurdu [4, 103-104].

Ənənəvi cəmiyyətlərdə yaş bərabərsizliyinin mövcudluğu XIX – XX əsrdən öyrənilir. Alman antropoloqu Henrix Şurs 1902-ci ildə yazdığı "Yaş qrupları və kişilər ittifaqı" əsərində qədim dövrdən etibarən eqalitar cəmiyyətlərdə cinsi bərabərsizliyin müəyyən izlərinin olduğunu göstərmişdir ki, bunun da geniş izahı antropoloq A.Barnard tərəfindən verilmişdir [1, 78]. Məlumdur

ki, kişi beyni qadın beynindən 150 $sm^3$ daha böyükdür və bu kişi bədəninin daha iri olması ilə əlaqəlidir. Yəni bədənlər üzrə cinsiyyət diformizmi, yəni ki, ağ və boz maddənin nisbəti də cinsiyyətdən asılı olaraq dəyişir. Qadınlarda gicgah, əmgək, beyinin ön tərəfi, boyun hissə və onurğa beyni, belin qurşağdan yuxarı hissəsində boz və ağ maddənin bir birinə nisbəti daha yüksəkdir. Boz maddənin qalınlığı əmgək hissəsində qadınlarda kişilərə nisbətən daha qalındır və bu fərqliliklər ömür boyu saxlanılır. Baxmayaraq ki, cinsi ayrılıq beyinin ölçülərində əsaslı rol oynamır, sadəcə morfoloji dəyişikliklər onların xarakterində, davranışlarında fərqli şəkildə davam edir. Androgen və estrogenlər insan beyninin differessasiyasına, yəni, fərqlənməsinə təsir edir, yəni hər bir cinsə spesifik olaraq morfoloji və neyrokimyəvi təsir edir [2, 140]. Müasir elmi tədqiqatlar göstərir ki, cinsi fərqlilik embrionun üçüncü ayından başlayaraq özünü büruzə verir və embrionun inkişafında bu fərq beyində başlayır. Bu da beyinin formalaşmasına öz təsirini göstərir, beyindəki hipotalamus kişi və qadında ayrı-ayrı inkişaf edir. Hipotalamus hipofiz vəzisinin nəzarətində olsa da o, insan bədənindəki digər bütün vəzilərin hormon sekresiyasına yəni, hormon ifrazına təsir göstərir və bununla da, hipotalamus bir neçə vəzi ifraz etməsinə baxmayaraq və hipofiz vəzisinin tərkibində olduğu üçün o insanin bütün hormonal dəyisikliklərinə təsir göstərir. Nəticədə, hipotalamusun fərqli şəkildə differensasiyasi qadınların yetkin yaşda qadın cinsi hormonlarının ifrazına və onlarin aylıq olaraq ifrazina gətirib çıxarır. Hipotalamusun kişi üzrə differensasiyasında isə kişilərdə aylıq dövrün olmamasına gətirib cixarir. Kişilərdə aylıq hormonlar olmur və bu onlarda dövr etmir [2, 38]. Qeyd edək ki, ənənəvi cəmiyyətlərdə qadınların məhz bu mərhələdə müxtəlif işlərdən uzaqlaşdırılması, onların müəyyən müddət kənarlaşdırılması müşahidə olunmuşdur ki, ibtidai düşüncədən bu günə qədər bəzi bölgələrdə hələ də qadınların menstrual dövrü mənfi emosiyalarla qəbul olunur.

Cinsiyyət fərqliliyini beynin funksiyalarında da görmək olur. Məlumdur ki, kişi və qadında ümumi qan dövranının həcmi fərqlidir, qadınların serebral qan dövranının həcmi kişilərdən çoxdur. Müxtəlif alimlərin fikirlərinə görə estrogenin miqdarı qan dövranın artması ilə əlaqələndirirlər. Cinsi fərqlilik beynin neyrokimyasında da özünü göstərir. Əksər hallarda qadın beynindəki serotonin hormonunun ifrazı kişilərdə daha tez getsə də, qadınlarda daha çoxdur. Bu hormon hərəkət etməni, görməyi və s. yönləndirir və onun pozulması müxtəlif psixi patologiyalara gətirib çıxarır [2,43].

Ənənəvi cəmiyyətlərdə qadınların bədəninin fizioloji quruluşu ilə yanaşı onların sosial vəziyyəti də müvafiq aydada nizamlanır. Belə ki, qadınların cinsi yetişkənliyi ekoloji iqtisadi şərtlərdən asılı olaraq dəyişir. Bir populyasiya sərhədlərində kənd yerlerindəki qızlar daha gec yetkinləşirlər, lakin daha təminatlı ailələrin qızlari isə daha tez inkişaf edirlər. Afrika və Latın Amerikasının ölkələrində qız uşaqlarının 13-15 yaşında nikaha girməsi daim müşahidə olunmuşdur. Lakin antropoloqlar göstərir ki, yığıcılıq və maldarlıqla məşğul olan cəmiyyətlərdə qadınların cinsi inkişafı 15-16 yaşlarında başlayır və ilk uşaqlarının 18-19 yaşlarında dünyaya gətirirlər. Cinsi yetişkənlik kişilərdə və qadınlarda köklü olaraq bir-birindən fərqlənir. Kişilərdə androgen qadınlarda isə estrogen hormonu yüksəkdir. Müəyyən dövrdən sonra hormonal artımda tənəzzül baş verir və bu onların həyat tərzi ilə bağlıdır. Bu onların artıq öz uşaqlarına və nəvələrinə daha çox bağlanmasına yardım edir. Məsələn, Tanzaniyadakı xadza qəbilələrində bu vəziyyət belədir. Qızlardan fərqli olaraq oğlanlarda cinsi yetişkənlik daha gec başlayır. Oğlan uşaqlarında ikincili cinsiyyət əlamətləri qızlardakından daha gec mərhələdə başlayır. Qvatemalada mayyaların fiziki inkişafını araşdırılarkən, sosial, iqtisadi, siyasi təsirlərin modelini yaradılmağa cəhd olunmuşdur. Əvvəllər qadınların daha tez yaşlanması bildirilirdisə, müşahidələr nəticəsində ilk olaraq kişilərin qocalması təsdiq olunmuşdur [3, 87-95]. Düzdür, bir çox sosio-iqtisadi cəmiyyətlərdə kişilər qadınlardan daha gec evlənir. Məsələn, ovçu-yığıcı cəmiyyətlərində onlar özlərini göstərməyə borcludurlar, maldar cəmiyyətlərində isə onlar öz döyüşçü qabiliyyətlərini və mal-qaraya qulluq etmə bacarıqlarını sübut etməlidirlər. Məsələn, Keniyanın masay qəbiləsində və həmçinin digər maldar cəmiyyətlərində kişi döyüşçülərin müəyyən yaş sinfi seçilirdi və onları “moran” adlandırırdılar. Bir qayda olaraq, bu qrup kişilər “kişilərə aid xüsusi evlərdə” yaşayırdılar və onlar nigaha girə bilməzdilər. Təxminin 35 yaşında moranlar ailə qururdular və bu andan etibarən onlar hərbi yürüşlərdə iştirak etmirdilər və təsərrüfatla məşğul olurdular [7, 67].

Sosial-mədəni antropologiyada insanların yaşa və cinsə görə fərqləri müxtəlif xalqların təqdis adətlərində özünü göstərir. Təqdis, məlum olduğu kimi müəyyən sosial qrup və ya mistik qrup

çərçivəsində fərdin yeni inkişaf mərhələlərinə daxil olması demək olub, bir ayin kimi gənclərin həyatında mühüm rol oynayır. Kollektiv ayinlərdə əsasən keçid nəzərdə tutulurdu, 6 və yaxud 12 yaş arası olanlara aid edilirdi, eyniz zamanda, kiçik qrup çərçivəsində də keçid ola bilərdi. Gizli cəmiyyətə və qardaşlığa daxil olma ilə bağlı ayinlər ibtidai dinlərin səviyyəsində özünü göstərirdi və bu zaman şaman və rəhbərlər tərəfindən təqdis qəbul olunurdu [5, 137].

Təqdisin məqsəd və vəzifələri eyni olub, sadəcə məkan və zamana uyğunlaşması ilə bağlı fərqliliklər ola bilirdı. Hər bir xalqın tarixində təqdis ayini mövcud olmuşdur, adətən müəyyən mərasimlərlə müşayət olunmuşdur. İbtidai cəmiyyətdə də yetkinlik çağına çatmış oğlanlara təqdis mərasimi zamanı sünnət edilməsi tarixdən məlumdur. Maraqlıdır ki, bu əməliyyat yetkinlik yaşına qədəm qoyan oğlanlara onların fiziki dözümlülüyünü yoxlamaq məqsədilə tətbiq edilirdi. Bu adət ibtidai-icma quruluşunda yaşayan müxtəlif tayfalarda icra olunmuşdur. Sonrakı dövrlərdə də bir sıra xalqlarda qalmışdır və xüsusən müsəlmanlarda onun icrası zərurətə çevrilmişdir. Azərbaycan ailələrində oğlan uşağı anadan olduqdan sonra onun sünnət olunması orta əsrlərdə əsas adətlərdən biri sayılırdı. Ümumiyyətlə, sünnət bir adət halını almış, uşaqlara ya lap körpəlikdə, yaxud da bir qədər böyüdükdən sonra tətbiq olunurdu. Yeri gəlmişkən, qeyd edək ki, müsəlman olmayan xalqlarda, məsələn yəhudilərdə də sünnət adəti hələ də mövcuddur [2, 95-104].

Aydındır ki, uşağa qarşı bu cür davranış ana və ata üçün daxilən bir ağırlıq gətirirdi. Onun icrası valideynlərdə təbii olaraq daxili həyəcan doğursa da, buna baxmayaraq, adət halını aldığına görə insanların şüurlarında elə yerləşmişdir ki, heç kəs bu adətə qarşı çıxmır və etiraz belə etmirdilər. Keniya və Tanzaniya ərazisində məskunlaşan massailər arasında da sünnət adəti vardır. Yenicə sünnət olunan yeniyetmələr qara paltar geyinir, üzlərini isə ağ rəngə boyayırlar. Sünnət mərasimi zamanı özünü cəsarətlə aparanlar rəngli lələklərlə özlərini bəzəyə bilərlərdilər. Əməliyyat zamanı qışqıranlara yalnız boz rəngli lələklə bəzənməyə icazə verilirdi. Belə yeniyetmələr savannada hələ iki-üç ay gəzə bilərlərdilər. Bu zaman ərzində onların yarası sağalır və onları istənilən evdə pulsuz yeməklə təmin edirdilər. Sünnətli oğlanlar çirkli hesab olunduqlarından, yeməyə əl vurmur, onu xüsusi çöplər vasitəsilə yeyirdilər. Onlar doğma kəndlərinə qayıdanda qadınlar onlara yeni paltar və bəzəklər bağışlayırlar. Əfqanlar oğlanı yeddi yaşınadək «xətnə» adlanan adətə görə sünnət etməlidirlər. Xətnə mərasimində iki oğlan uşağı olmalıdır. Bu onlara ikiqat ömür arzulamaq niyyəti kimi izah olunur. Bu zaman qonaqlıq verilir, qonaqlar uşaqlara hədiyyələr paylayırlar [6, 45-88].

Avstraliyada təqdis müddəti ağsaqqalar tərəfindən qabaqcadan müəyyən edilirdi. Gənclər bu zaman müəyyən pəhriz saxlamalı və diş sındırmaq, yanan tonqal üstündə oturmaq, kürəyindən bıçaq ilə dərisinin kəsilməsi və sairə kimi, hətta daha əzablı imtahana dözməli idilər. Məsələn, diyeri qəbiləsində təqdis edilməli gənci gözlənilmədən tutub qollarını daldan bağlayır, çığırıb inləməsinə baxmayaraq ona 20 dəqiqə davam edən təqdis əzabı verirdilər. Bəzən bu kimi təqdis adəti gənclərə tam mənada fiziki şikəstlik də gətirirdi. Bəzən belə hallar da olurdu ki, gənc təqdisdən qorxaraq meşələrdə, dağlarda gizlənməkdə yaxasını bu işgəncədən qurtarmağa çalışırdı. Belə gənclər "vəhşi adamlar" cərgəsinə keçirilir, onu izləyir və tutub təqdisdən keçirirdilər. Təqdis zamanı gənci onun üzvü olduğu qəbilə və ya tayfanın "sirləri" ilə, adət və ənənələri ilə tanış edir və ona silah gəzdirmək hüququ verirdilər. Gənclər isə həmin qrupun həqiqi üzvü olmaq üçün tələb olunan keyfiyyətləri qazanırdılar. Təqdis adəti, əsil mənada, gəncləri ictimai qaydalara, nizam-intizama və ənənələrə tabe olmağa öyrətmək məqsədi güdürdü ki, onların pozulması xarakterik böyük cəza tədbirləri ilə nəticələnə bilərdi. Xarakterik cəhət budur ki, təqdisdən sonra gənc ova çıxmalı, yaşlıların nəzarəti altında ov edib gətirməli idi. Qızların təqdisi və gənc oğlanlarda olduğu kimi eyni məqsəd daşıyırdı. Təqdisdən sonra qızlar qadınlar sırasına daxil edilirdilər [3, 64-107]. Gənclərin təqdisinə dair tədqiqatçılar Şimali Amerika hindləri, Melaneziya, Odlu Torpaq və sair yerlərdə yaşayan xalqlar haqqında maraqlı materiallar toplamışlar. Ehtimal ki, bu təqdis, ibtidai tayfalarda çox yayılmış bir adət olmuşdu [3, 66]. Həm də təqdis təfərrüatına qəbilənin toteminə xas olan bir çox xüsusiyyətlər daxil idi ki, bu da qəbilə adət və ənənələrinin qorunub-saxlanılmasında dinin rolunu göstərir. Fratriyaların rolu xüsusilə bir təhlükə baş verən zaman daha böyük olurdu. Belə vaxtlarda onlar hərbi ittifaqı əvəz edirdilər.

İki qohum fratriya həmişə ümümtayfa bayramlarını keçirirdi, xeyir və şər üşlərini təşkil edirdi, bayramlarda və qəbilə başçıları öldükdə onların dəfnində bir-birinə yardım edirdi. Xüsusilə

fratriyalar gənclərin təqdis şənliklərində əlbir iştirak edirdilər. İrokezlərdə gənclərin təqdisi işinə çox əhəmiyyət verilirdi. Bir çox xalqlarda olduğu kimi, gənclər yalnız təqdis ediləndən sonra evlənmək və qəbilə yığıncıqlarında iştirak etmək hüququ əldə edirdilər [ 3, 89-105].

*Nəticə*. Yuxarıda deyiliyi kimi, hələ ilk nəsli qruplarda ehtimal ki, yaşa görə münasibətlər daha ilkin olub ona çox yer verilirmiş. Yaşlılara bir qayda olaraq, xüsusi ehtiram edilir, onlarla hesablaşırdılar. Ehtimal ki, bu adət həmin yaşlı adamların böyük həyat təcrübəsinə malik olmasından və buna görə də maddi həyatda hər cür çətinlik və bədbəxtliklərə qarşı mübarizə yollarını daha yaxşı bilməsindən irəli gəlmişdi. Belə adamların şəxsi nüfuzunu böyük içtimai əhəmiyyəti var idi. Onların keçmiş nəsillərdən qalmış adət və ənənələri indi mənsub olduqları insan qruplarında davam edir və hamının ehtiram etməsini tələb edən adət və ənənəyə çevrilmişdi. Antropoloji faktlar göstərir ki, bütün ibtidai xalqlardakı nüfuza malik olan ağsaqqallar mahir ovçu və döyüşçü, yaxşı həkim (əlbəttə ibtidai mənada) olmaqdan əlavə, həm də, həmin qəbilə və ya qrupun adət və ənənələrini yaxşı bilən adamlar idilər. Onlar bu ənənələrin həmin qrup daxilində mühafizə edilib saxlanılmasına xüsusi diqqət verirdilər. Ənənəvi cəmiyyətlərdə kök salmış gənclərin təqdisi adəti də, ehtimal ki, yeni nəsli adət və ənənələrə tabe etmək və onları bu ənənələrin mühafizəçilərinə ehtiram etməyə məcbur etmək məqsədini daşıyırdı.

## ƏDƏBİYYAT

1. Барнард А. Социальная антропология: Исследуя социальную жизнь людей. Москва, изд. Институт этнологии и антропологии РАН, 2009, 219 с.
2. Бутовская М.Л. Антропология пола. Москва: изд. Век-2, 2013, 253 с.
3. Геннеп А. Инициация, обряды перехода, систематическое изучение обрядов. Москва, изд. Восточная литература, 1999, 200 с.
4. Кузьмина Е.Е. Мифология и искусство скифов и бактрийцев Москва, изд. Российский институт культурологии, 2002, 288с.
5. Куприянова Е.В. Тень женщины: женский костюм эпохи бронзы как текст. По материалам некрополей Южного Зауралья и Казахстана). Челябинск. Изд. Фито Граф 2008, 244 с.
6. Леви-Строс К. Структурная антропология Москва, изд.ЭКСМО-Прес, 2001, 512 с.
7. Маргарет Мид. Мужское и женско. История полового вопроса в меяющемся мире Москва, изд. РЛССПЭН, 2004. 412 с.

**MALAHAT ORUJOVA**
*Doctoral student of Baku State University*

## THE ISSUE OF THE STATUS OF WOMEN IN TRADITIONAL SOCIETIES

A woman's position in the family and society, her social, economic and legal status are closely related to the nature of society itself, culture, and general development. Despite the huge diversity in the status and role of women in various cultures, she always takes second place. Traditional society demonstrated a clear distinction between male and female roles. The largely unequal position of women was justified by religious beliefs**.**

*Keywords*: traditional societies, social status, women, social stratification, customs.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 19 fevral 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 06 yanvar 2021-ci il.*
*Rəyçilər: t.e.d. Şirin Bünyadova, t.e.d. Qüdrət İsmayılov.*

**UOT 930:314; UOT 94(479.24)**

**AYDIN MƏMMƏDOV**
*Bakı Dövlət Universiteti*
*Mənbəşünaslıq, Tarixşünaslıq və metodika kafedrasının dosenti*
**E-mail: aydin.mmmdov.67@ mail.ru**

# AZƏRBAYCANIN 40-50-Cİ İLLƏR TARİXŞÜNASLIĞINDA TARİXİ DEMOQRAFİYA MƏSƏLƏLƏRİ

*Müharibədən sonrakı illərdə totalitar rejimin, eləcə də inzibati-idarəetmə metodunun güclənməsi ilə ictimai elmlərin obyektiv inkişafına əngəllər getdikcə artırdı. Belə ki, 40-50-ci illərdə marksist ideologiyanın inhisarı elmin ayrı-ayrı sahələri üzərində, xüsusən də ictimai elmlər sahəsində özünü daha qabarıq büruzə verirdi. Xüsusilə tarix elminə təzyiq daha güclü idi. Bütün bunlara baxmayaraq, müharibədən sonrakı illərdə İ.Cəfərzadənin, S.Qazıyevin, M.Şəriflinin, Ə.Sumbatzadənin, İ.Əliyevin və digər Azərbaycan tarixçiləri öz əsərləri ilə tarixi demoqrafiya sahəsində müəyyən işlər görmüşlər. Vətən tarixinin müxtəlif dövrlərini tədqiq edən bu alimlər, sovet ideologiyasının təzyiqlərinə baxmayaraq Azərbaycanın tarixi və demoqrafik düşüncəsinin inkişafına böyük töhfələr vermişlər.*

*Açar sözlər:* Azərbaycan tarixşünaslığı, Azərbaycan əhalisi, tarixi demoqrafiya, əhali artımı, əhali məskunlaşması.

*Giriş.* Azərbaycan tarixinə dair məqalələr məcmuəsində 1949-cu ildə dərc edilən İ.Cəfərzadənin "Azərbaycan ərazisində qədim insan mədəniyyətinin izləri" adlı məqaləsi də böyük maraq doğurur. Müəllif sözügedən məqaləsində ibtidai insan cəmiyyətindən üzü bəri Azərbaycanda ibtidai insanların yaşayıb-artması və məskunlaşması üçün hər cür təbii şəraitin mövcud olmasını uzun illər boyu Azərbaycanın bir çox bölgələrində apardığı çoxsaylı arxeoloji ekspedisiyalar nəticəsində əldə etdiyi faktoloji materiallar əsasında sübut etməyə çalışmış, buna nail də olmuşdur (4, s.14-33).

İ.Cəfərzadə 1949-cu ildə "Köhnə Gəncənin tarixi-arxeoloji oçerki" adlı kitabında uzun illər arxeoloji tədqiqatlar nəticəsində əldə etdiyi nəticələr əsasında Azərbaycanda ən qədim dövrlərdən bu günə qədər sıx yaşayış məskənlərinin mövcud olmasını aydın şəkildə göstərə bilmişdir.

XX əsrin 40-50-ci illər Vətən tarixşünaslığında S.Qazıyevin "1941-ci ildə Mingəçevirdə arxeoloji qazıntılar", "Qədim Azərbaycanda qəbilə quruluşu" (Казиев С. Археологические раскопки в Мингечауре в 1941 г. Материальная культура Азербайджана. Bakı, AMEA-nın nəş-tı, 1949, I buraxılış. s.87-103; Yenə onun. Родовой строй в древнем Азербайджане. Сборник статей по истории Азербайджана. Bakı, AMEA-nın nəş-tı, 1949, I buraxılış. s.34-46); V.Leviatovun "1946-cı ildə Bakının qala hissəsində arxeoloji qazıntılar" (Левиатов В. Археологические раскопки 1946 г. в крепостной части г. Баку //AMEA-nın xəbərləri 1948 №4, s.120-130); O.Həbibullayevin "Kültəpə qazıntıları" (Абибуллаев О. Раскопки холма Кюлтепе // Краткие сообщения ИИМК АН СССР, 1953, Вып.51, s.16-23); O.İsmizadənin "İsmayıllı rayonunda arxeoloji qazıntılar" (Исмизаде О. Археологические раскопки в Исмаиллинском районе // AzFAN xəbərləri, 1941 №4, s.25-28) və bir çox digər azərbaycanlı arxeoloq alimlərin işıq üzü görən əsərləri bir daha Azərbaycanın bəşər sivilizasiyasının ən qədim məskunlaşma ocaqlarından biri olduğunu qətiyyətlə sübut edir.

XX əsrin 40-50-ci illər Azərbaycan tarixşünaslığının yuxarıda sadalanan kifayət qədər sanballı elmi tədqiqat əsərləri ilə zənginləşməsi sovetlər dönəmində mərkəzin aparıcı elmi dairələri tərəfindən də qəbul olundu. Belə ki, 1955-ci ildə Moskvada nəşr edilən çoxcildlik "Ümumdünya tarixi"nin I cildində yazılırdı: "Azərbaycan Yaxın Şərqdə insanların ilk dəfə oturaq həyat tərzinə keçdikləri, şəhərlər saldığı, kənd təsərrüfatı, sənətkarlıq və ticarətlə məşğul olduğu ölkədir".

XX əsrin 40-cı illərinin sonunda Azərbaycan tarixşünaslığında kollektiv əməyin bəhrəsi olan "Azərbaycanın maddi mədəniyyəti" adlı məqalələr toplusu işıq üzü gördü. (Материальная культура Азербайджана. Баку, АН Аз.ССР, 1949. Вып.1; Материальная культура Азербайджана. Баку, АН Аз.ССР, 1951. Вып.2; Материальная культура Азербайджана. Баку, АН Аз.ССР, 1953. Вып.3).

Bu toplularda nəşr olunan görkəmli alim və tədqiqatçıların birbirindən maraqlı elmi əsərləri də Azərbaycanda ibtidai insan cəmiyyətindən üzü bəri sıx məskunlaşmış yaşayış məskənlərinin, yüksək inkişaf etmiş şəhər mədəniyyətinin mövcud olmasını əyani şəkildə əks etdirir.

1948-ci ildə Azərbaycan SSR EA Tarix İnstitutu tərəfindən V.Leviatovun "XVIII əsr Azərbaycan tarixindən oçerklər" adlı kitabı nəşr olundu. Kifayət qədər geniş mənbəşünaslıq bazası əsasında yazılmış bu kitabda Azərbaycanda xanlıqlar dövrünə dair ictimai-siyasi proseslər kifayət qədər geniş surətdə təhlil edilmişdir. Sözügedən kitabda tarixi demoqrafiya məsələləri də əks olunmuşdur. Müəllif XIX əsrə dair mənbələrə əsaslanaraq, məsələn, Lahıcın əhalisinin sayı haqqında yazır: "XIX əsrin əvvəllərində Lahıcda 291 ev vardı. Əgər hər bir evdə orta hesabla 5 nəfər adamın yaşadığını zənn etsək, onda burada 1500 nəfər sakinin yaşadığını söyləyə bilərik." (6, s.40). Yaxud müəllif, xanlıqlar dövründə ölkədə sosialiqtisadi tənəzzülün güclənməsi səbəbindən şəhərlərin və şəhər əhalisinin inkişaf tempinin də aşağı düşdüyünü söyləyir: "XVIII əsrdə Azərbaycanda XII-XV əsrlərdə mövcud olan iri şəhərlər kimi şəhərlər yox idi. Yalnız, ən böyük şəhər olan və bir neçə on min əhalisi olan Təbriz müstəsna idi. Əsrin sonlarına yaxın Şamaxının əhalisin sayı 10 min nəfərə güclə çatırdı. Gəncə, Ərdəbil, Şuşa, Nuxa, Şabran, Bakı kimi şəhərlərdə isə əhali 3-8 min civarını keçə bilmirdi" (6, s.43).

XX əsrin 40-cı illərinin sonu 50-ci illərin əvvəllərində Azərbaycan tarixşünaslığında Vətən tariximizin qədim dövrlərinə dair yeni tədqiqat əsərləri meydana gəldi. İ.Əliyevin (1, s.85-93; 2, s.156-183), İ.Əliyevlə İ.Cəfərzadənin birgə yazdıqları "Azərbaycanın qədim tarixinə dair oçerklər" adlı əsərləri, İ.Dyakonovun Midiya tarixinə dair tədqiqatları (5, s.4-52) Azərbaycan ərazisində e.ə. I minillikdə mövcud olan qədim dövlətlərimizin iqtisadi-siyasi qüdrətinin yüksəlişi ilə əhalinin artım və məskunlaşma tempinin də intensiv surətdə inkişafının paralel surətdə getməsini aşkar surətdə göstərir.

1956-cı ildə akademik Ə.Əlizadənin "XIII-XIV əsrlərdə Azərbaycanın ictimai-iqtisadi və siyasi tarixi" adlı son dərəcə qiymətli monoqrafiyası işıq üzü gördü. Monoqrafiyada monqolların işğalı nəticəsində Azərbaycanda baş verən sosialsiyasi və ictimai proseslər, o cümlədən işğalın törətdiyi fəsadlarla yanaşı, iqtisadi tənəzzül geniş mənbəşünaslıq bazası əsasında ən xırda təfərrüatları ilə öz əksini tapmışdır. Məhz təsvir olunan hadisələrin fonunda sözügedən dövrdə Azərbaycan əhalisinin sosial-iqtisadi və demoqrafik durumunu aydın şəkildə təsəvvür etmək olur. Məsələn, müəllif monqolların əhalinin əsas dolanışıq mənbəyi olan əkin sahələrinin məhvi ilə bağlı yazır: "Monqollarda iri və xırda buynuzlu mal-qaranın həddən ziyadə çox olması kənd təsərrüfatının inkişafına ciddi əngəl törədirdi. Monqol feodalları öz arvadları, uşaqları, düşərgəsinin bütün əmlakı, dəvələri və ilxıları ilə bu və ya digər yerə gedərkən, əkin sahələrini, bağları, ümumiyyətlə, kəndlilərin bütün təsərrüfatını məhv edir, sakinlərin əmlaklarını talan edir, mal-qarasını sürüb aparır. Özlərini isə fiziki cəhətdən məhv edir, sağ qalanları isə əsir apararaq, çoxsaylı sürülərinə baxmaq üçün qula çevirirdilər" (*3, s.*129).

Təbii ki, belə bir şəraitdə əhalinin təbii və mexaniki artımı son dərəcə aşağı səviyyədə inkişaf etmiş və yaxud inkişaf edə bilərdi. Belə ki, sözügedən monoqrafiyada müəllif zəngin Azərbaycan torpaqlarına yiyələnmək uğrunda Qızıl Ordu və Hülakülər arasında gedən qanlı müharibələri də təsvir etmişdir. Azərbaycanın hərbi əməliyyatlar meydanına çevrilməsi əhalinin demoqrafik durumuna məhz bu cür təsir göstərmişdir: "Azərbaycanda daima hərbi əməliyyatların, müharibələrin baş verməsi əhalinin vuruşan tərəflərin törətdiyi fəsadları öz çiyinlərində daşımasına, o cümlədən fiziki məhvinə səbəb olurdu. Şəhər və kəndlər dağıntılara məruz qalaraq viran olur. Tamamən boşalırdı. Yerli əhali ya tamamən məhv edilir, ya da qula çevrilir, sağ qalanlar isə meşələrdə və dağlarda gizlənməli olurdular. Bütün bunlar isə şəhərlərin və kəndlərin tənəzzülünə, ticarətin iflasına, bütövlükdə isə Şimali Azərbaycanın iqtisadi həyatının süqutuna səbəb olurdu" (3, s.145, 258-259).

XX əsrin 40-50-ci illərində maraqlı elmi məqalələri ilə diqqəti cəlb edən tədqiqatçılardan biri də Məmmədəli Şərifli (1909-1969) olmuşdur. O, "XII-XIV əsrlərdə Azərbaycanda ticarət və ticarət yolları", "Azərbaycan IX-XII əsrlərdə" adlı elmi məqaləsində Ərəb xilafətinin dağılmasından sonra Cənubi Qafqazda yaranmış ictimai-siyasi, sosial-iqtisadi vəziyyətin əhali məskunlaşmasına göstərdiyi təsiri obyektiv şəkildə təsvir etmişdir. Müəllif, Ərəb xilafətinin xarabalıqları üzərində meydana gələn Azərbaycan feodal dövlətlərinin yaranma və inkişaf, o cümlədən süqutu səbəblərini konkret tarixi faktlar əsasında, elmi-obyektiv surətdə araşdırmışdır. Bu dövrdə bir-birini əvəz edən Sacilər, Salarilər, Şirvanşahlar, Rəvaddilər kimi güclü feodal dövlətlərinin Azərbaycanın erməni və gürcü feodallarının

dağıdıcı basqınlarından qorumasına, o cümlədən şəhər və kəndlərin, əhalinin təbii və mexaniki sayının artmasına səbəb olmuşdur. Müəllifin fikrincə, IX-XII əsrlərdə sözügedən feodal dövlətlərinin bütün Azərbaycan torpaqlarını vahid dövlət şəklində birləşdirməsi, ölkə miqyasında iqtisadi və mədəni əlaqələrin daha da dərinləşməsinə, etnik fərqlərin aradan qalxmasına, vahid Azərbaycan-türk xalqının formalaşması prosesinin sürətlənməsinə müsbət təsir göstərirdi. M.Şəriflinin digər məqalələrində də, sözügedən dövrdə siyasi-iqtisadi amillərin əhali artımına müsbət təsir göstərməsi prosesini aydın surətdə sezmək olur. (Şərifli M. Azərbaycan IX-XII əsrlərdə. Azərb.SSR EA Tarix İnstitutunun Əsərləri, XII c., 1957, s.31-94; Yenə onun, Rəvvadilər dövləti haqqında. Azərb.SSR EA Tarix İnstitutunun Əsərləri, XI c., 1957, s.27-44; Шарифли М. Торговля и торговые пути Азербайджана в XII-XIV веках. Из-во АзФАН СССР. Баку, 1944. И 2-3, s. 47-56; К истории города Шамахы.Изд-во АзФАН СССР, 1944 № 8, s.37-49) M.Şərifli həmçinin, üç cildlik Azərbaycan tarixi kitabının 1958-ci ildə işıq üzü görən I cildinin müəlliflərindən biri olmuşdur.

Azərbaycanın görkəmli tədqiqatçılarından biri olan Əlisöhbət Sumbatzadə də 1958-ci ildə nəşr olunmuş "XIX əsrdə Azərbaycanın kənd təsərrüfatı" adlı monoqrafiyasında sözügedən dövrdə Azərbaycan xalqının tarixi demoqrafiya məsələlərinə dair son dərəcə geniş məlumatlar vermişdir. Müəllif yazır ki, bütövlükdə XIX əsrin 30-50-ci illərində Azərbaycanda yetişdirilən taxıl nəinki ölkəni çörəklə təmin edir, hətta ordunu təchiz etməyə və satış üçün ixrac etməyə də bəs edirdi (7, s.75). Müəllifin fikrincə, ölkədə taxıl istehsalının inkişaf dinamikasını izləməyə imkan verən əsas mənbə vilayət rəhbərlərinin, qubernatorların illik hesabatlarına edilən "Payızlıq və yazlıq əkin sahələri, onların məhsuldarlığına dair cədvəllər" adlı əlavələr olmuşdur (7, s.73). Ə.Sumbatzadə dövrün ideoloji tələblərinə uyğun olaraq birinci və ikinci rus-İran müharibələrindən sonra, Azərbaycanın Rusiya tərəfindən işğalını sözügedən monoqrafiyasının I fəslinin I hissəsini "Azərbaycanın Rusiyaya birləşdirilməsi və bu hadisənin XIX əsrin I yarısında ölkə iqtisadiyyatı üçün mütərəqqi əhəmiyyəti" kimi adlandırsa da, hadisələrin bütün gedişatı boyunca bu "mütərəqqi hadisə"nin əsl mahiyyətini tutarlı tarixi faktlarla açıqlamağa cəhd göstərmişdir. Belə ki, müəllif: "...beləliklə, çar hökuməti Azərbaycanda ayrı-ayrı xanların hakimiyyətini ləğv etməklə, heç də feodal dövlətçilik üsuli-idarəsini aradan qaldırmadı, sadəcə xanların hakimiyyətini komendantların hakimiyyəti ilə əvəz etməklə, köhnə dövrlərdən mövcud olan inzibati sistemdə müəyyən dəyişikliklər etməklə əhali, xüsusən də, feodal asılı kəndlilər üzərində feodal sinfinin cəbr aparatını gücləndirmiş oldu" – deyə yazır (7, s.46).

Ə.Sumbatzadə bu fikrini əhali sayı ilə bağlı qiymətli demoqrafik məlumatları ilə də təsdiq edir. O, sonuncu Qarabağ xanı Mehdiqulu xanın varisi Cəfərqulu ağadan söhbət açarkən: "1822-ci ildə Qarabağda xanlıq rejiminə son qoyulduqdan sonra, bu mülk də (yəni, Cəfərqulu ağanın mülkü – A.M.) ləğv edilərək ona dair təsvir tərtib edildi. Həmin təsvirdən bəlli olur ki, 1824-cü ildə Cəfərqulu ağanın mülkündə 463 oturaq, 584 köçəri həyat sürən ailə mövcud olmuşdur" – deyə yazır (7, s.46-47).

Ə.Sumbatzadə sovet tarixşünaslığının ideoloji tələblərinə uyğun olaraq 1813-cü ildə imzalanmış Gülüstan müqaviləsindən sonra regionda dinclik və əmin-amanlığın hökm sürməsi səbəbindən Şimali Azərbaycanda əhalinin məskunlaşması prosesinin artdığını bildirmişdir (7, s.22). Müəllifin fikrincə, bu proses Qarabağ xanlığında daha aydın şəkildə təzahür etmişdir. Belə ki, müəllif Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarına (AKAK) istinadən: "Gülüstan sülh müqaviləsindən cəmi 3 il sonra, İrandan 4000 qarabağlı ailə öz yurduna dönmüş və hazırda Qarabağ xanlığında 7872 ailə yaşayır. ... daha 6 il sonra, yəni 1823-cü ildə Qarabağda artıq 18563 ailə yaşayırdı ki, bu da 1805-ci ildə burada mövcud olan 10000 ailədən demək olar ki, 2 dəfə çox idi" (7, s.22).

Ə.Sumbatzadənin sözügedən monoqrafiyasında əhali məskunlaşması, əhalinin təbii və mexaniki artımı ilə bağlı faktlara tez-tez rast gəlinir. Müəllif əhalinin say dinamikasının sadəcə statistik göstəriciləri ilə kifayətlənmir, bu faktın ictimai-siyasi səbəblərini də araşdırmağa cəhd etmişdir.

*Nəticə*. Azərbaycanın XX əsr 40-50-ci illər tarixşünaslığında xalqımızın məskunlaşması, təbii və mexaniki artımı, ölümü, daxili və xarici miqrasiyası ilə bağlı çoxsaylı faktlar onları doğuran obyektiv və subyektiv səbəblərlə elmi müstəvidə kifayət qədər obyektiv şəkildə araşdırılmış, ciddi elmi nəticələr əldə edilərək tarixi demoqrafik fikrin inkişafına böyük töhfələr vermişdir. Məhz bu dövrdə tarixçilərimiz öz əsərlərində Azərbaycan tarixinin ayrı-ayrı dövrlərində əhalinin təbii və mexaniki inkişaf artımına təsir göstərən amilləri sırf sözügedən dövrə dair ictimai-siyasi, sosial-iqtisadi, mənəvi-psixoloji və milli dəyərlər zəminində araşdırmağa cəhd etmişlər. Məhz 50-ci illərin əvvəllərində

azərbaycanlı tarixçilər tarixi demoqrafiyaya dair tədqiqatlar aparmağa başlamışlar. Ə.Sumbatzadənin 1952-ci ildə çap etdirdiyi "XIX əsrdə Azərbaycanın Rusiyaya birləşdirilməsinin ölkə əhalisinin artımına mütərəqqi təsiri" adlı məqaləsini tarixi-demoqrafiyaya dair ilk xüsusi elmi-tədqiqat işi hesab etmək olar. Deməli, məhz bu dövrdə azərbaycanlı tarixçilər tarixi demoqrafiyaya dair formaca sovet ideologiyasının müəyyən etdiyi tələblərə "əməl etsələr" də, mahiyyətcə milli maraqlarımıza xidmət edən əsərlər yazmağa nail olmuşlar.

## ƏDƏBİYYAT


1. Алиев И. О мидийском обществе // Изв. АН Азерб.ССР, 1948 №10, с.85-94.
2. Алиев И. О некоторых вопросах двернейшей истории мидийских племен // Труды Института истории философии АН Азерб.ССР, V. Баку, 1954, с.157-183.
3. *Ализаде* А. *Социально-экономическая* и *политическая история Азербайджана XIII-XIV* вв. Баку, Изд-во АН Аз.ССР, 1956, 419 с.
4. Джафарзаде И. Сборник статей по истории Азербайджана. Б., Изд-во АН Азерб. ССР, 1949, I вып., 310 с.
5. Дьяконов И. Первобытно-общинный строй на территории Мидии // Труды Института истории философии АН Азерб.ССР, 1954 №5, с.5-52.
6. Левиатов В. Очерки из истории Азербайджана в XVIII веке. Баку, Изд-во АН Аз.ССР, 1948, 227 с.
7. Сумбатзаде А. Сельское хозяйство Азербайджана в XIX в. Б., Изд-во АН Азерб.ССР, 1958, 364 с.


**AYDIN MAMMADOV**
***Associate professor of Baku State University***

## HISTORICAL DEMOGRAPHIC ISSUES IN THE 40-50'S HISORIOGRAPHY OF AZERBAIJAN

In the postwar years, with the strengthening of the totalitarian regime, as well as the administrative-command method of management, obstacles to the objective development of social sciences were increasingly posed. The monopoly of Marxist ideology has established itself over individual areas of science. Especially, the pressure on historical science was strong. Despite all this, in the post-war years, in the writings of I.Jafarzade, S.Kaziev, M.Sharifli, A.Sumbatzade, I.Aliyev and other historians of Azerbaijan, a certain work was done in the field of historical demography. Studying various periods of the history of our Fatherland, they made a huge contribution to the development of the historical and demographic thought of Azerbaijan.

*Keywords:* Azerbaijani historiography, Population of Azerbaijan, historical demography, population growth, settle of population.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 12 fevral 2020-ci il.*
*Məqalənin çapa qəbul olma tarixi: 06 yanvar 2021-ci il.*
*Rəyçilər: t.e.d. Anar İsgəndərov, t.e.d. İsmayıl Məmmədov.*

UOT 94 (479.24)

**RƏNA ŞAHBAZOVA**
*Bakı Dövlət Universitetinin müəllimi, tarix üzrə fəlsəfə doktoru*
**E-mail: rshahbazova@gmail.com**

# V.V.BARTOLDUN ƏSƏRLƏRİNDƏ ORTA ƏSR AZƏRBAYCAN DÖVLƏTLƏRİ: ELDƏNİZLƏR VƏ ŞİRVANŞAHLAR

*V.V.Bartoldun Azərbaycan tarixinə həsr olunmuş əsərlərinin xarakterik cəhətlərindən biri – tarixçinin Şirvanşahlara olan böyük marağı ilə bağlıdır. V.V.Bartoldun həm oxuduğu mühazirələrində, həm "Azərbaycan tarixinin müxtəsər icmalında", həm də bilavasitə mövzu ilə bağlı olan məqalələrində Şirvan tarixi geniş araşdırılmışdır. Şirvan hökmdarlarının gürcü çarları ilə münasibətləri, şirvanşahlar Axsitanın, Fəriburzun, III Mənuçöhrün hakimiyyəti, Şamaxı və Bakı şəhərlərinin iqtisadi həyatı bu qəbildən olan məsələlərdəndir.*

*Açar sözlər*: V.V.Bartold, Azərbaycan tarixi, orta əsr, Eldənizlər, Şirvanşahlar.

*Giriş.* Orta əsrlərin başqa iri dövlətləri kimi, Böyük Səlcuq imperiyası da uzun müddət mövcud ola bilmədi və XI əsrin sonu – XII əsrin əvvəllərinə doğru ayrı-ayrı müstəqil dövlətlərə (sultanlıqlara) parçalandı. Bu dövrdə həm Avropada, həm Asiyada bərqərar olmuş siyasi pərakəndəlik Səlcuq imperiyasının yerində yaranan sultanlıqları da əhatəsinə almış oldu. Belə ki, yaranan səlcuq sultanlıqları da siyasi və sosial baxımdan möhkəm dövlət qurumları deyildilər. Onlar atabəylər tərəfindən idarə olunurdu. Həmin sultanlıqların içərisində Kirman, Rum (Konya), Suriya, İraq sultanlıqları xüsusilə fərqlənirdilər.

Böyük Səlcuq imperiyası parçalandıqdan sonra yaranmış sultanlıqlardan ən qüdrətlisi İraq Səlcuq sultanlığı idi. Bu sultanlıq 1161-ci ildən etibarən Azərbaycan atabəyləri (Eldənizlər sülaləsi) tərəfindən idarə olunmuş, 1191-ci ildə bu sülalənin görkəmli nümayəndəsi Qızıl Arslan İraq sultanlığında həm də rəsmi hakimiyyəti ələ keçirmişdi. Azərbaycan tarixçisi R.Ə.Hüseynov qeyd edir ki, "1161-ci ildən etibarən yeni dövlət, Eldənizlər sülaləsinin başçılığı ilə Azərbaycan sultanlığı yarandı ki, onun da tərkibinə İraq sultanlığı daxil oldu. Səlcuq dövlətinin Azərbaycan dövlətinə çevrilməsi baş verdi" [8, 95].

Eldənizlərin hakimiyyəti dövrü Azərbaycanın həm iqtisadi, həm də mədəni inkişafı baxımından yüksəliş dövrü sayılır. Bu sülalə Azərbaycanın klassik orta əsr cəmiyyətinin təşəkkülü dövründə hakimiyyətdə olmuşdur. Bir çox siyasi, ictimai və iqtisadi təsisatların yaranması və inkişafı məhz Eldənizlərlə bağlı idi. Bəzi tarixçilər bu dövrü Azərbaycanın siyasi və mədəni "İntibahı dövrü" də adlandırırlar [7, 229-230; 5, 3-4 və s.].

Eldənizlər dövləti yalnız Azərbaycanda deyil, bütün Cənubi Qafqazda İraq sultanlığının tərkibinə daxil olan bütün bölgələrdə üstünlüyə can atırdı. Dərbənd əmirləri, Əhərin məlikləri, Muğan əmirləri və Fars vilayətinin atabəyləri Eldənizləri özlərinin süzereni kimi tanımışdılar. Şirvan dövləti, Kirman Səlcuq sultanlığı, Təbəristan hakimləri, Artukilər və Zəngilərin bir qolu Eldənizlərin nüfuz dairəsində idilər [8, 95].

Eldənizlər dövlətinin beynəlxalq əlaqələri də çox geniş olmuşdur. Bu sülalə uzun müddət ərzində Yaxın Şərqin ən qüdrətli dövlətləri olan Zəngilərlə, Əyyubilərlə, Abbasi xəlifələri ilə rəqabət aparmışdır. Bu münasibətlər V.V.Bartolda da yaxşı məlum olan XII əsrin müsəlman mənbələrində (o cümlədən Kəmaləddin İbn Adimin, Sədrəddin Əli əl-Hüseyninin və İbn əl-Əsirin əsərlərində) çox ətraflı təsvir olunmuşdur [3, 104-106]. V.V.Bartoldun tədqiqat əsərlərində bu siyasətin yalnız bir hissəsi (Eldənizlərin Azərbaycan Şirvanşahlar dövləti ilə bağlı olaraq həyata keçirdiyi hərbi-siyasi və diplomatik tədbirlər) öz əksini tapmışdır.

Məlumdur ki, İraq Səlcuq sultanlığında taxt-tac uğrunda uzunmüddətli mübarizədə Şəms əd-Din Eldəniz də yaxından iştirak etmiş, o da bəzən mərkəzi hakimiyyətə qarşı baş qaldırmış separatçı qüvvələrin sırasında olmuşdur. Lakin atabəyi olduğu Arslan-şah sultan taxtına çıxdıqdan sonra (1160-cı ildə) Şəmsəddin Eldəniz separatçı qüvvələrin, o cümlədən Mosulda hakim olan Zəngilərin

bir qolunun yenidən İraq sultanlığının vassal asılılığına keçməsinə çalışmışdır. Arslan-şaha qarşı çevrilmiş ittifaqı darmadağın etmiş Şəmsəddin Eldəniz Mosul hakimi olan Zəngiləri vassal asılılığına sala bilmiş, bu isə öz növbəsində Suriyada hakimiyyətdə olan Zəngilərin digər qolu ilə münasibətlərin kəskinləşməsinə səbəb olmuşdur [4, 23]. Təəssüf ki, XII-XIII əsrlərdə müsəlman dünyasının beynəlxalq həyatında baş verən bu mühüm hadisələr V.V.Bartoldun araşdırmalarından kənarda qalmışdır.

V.V.Bartoldun əsərlərində Azərbaycan Şirvanşahlar dövləti ilə münasibətlərə ziddiyyətli yanaşmalar mövcuddur. Belə ki, alim bir tərəfdən qeyd edirdi ki, Eldənizlərlə Şirvanşahların münasibətləri düşmənçilik səciyyəsi daşımışdır [2, 55]. Eyni zamanda tarixçi belə bir faktı da qeyd edirdi ki, "şirvanlılar öz sikkələrində özlərini səlcuq sultanları Arslan-şahın (1161-1177) və Toğrulun (1177-1194) vassalları adlandırırdılar" [2, 54-55]. V.V.Bartold daha sonra qeyd edirdi ki, "atabəylər Qızıl Arslan Osmanın (1186-1192) Şamaxını və Şirvanşah Əxsitanın Bakını zinətləndirmələri haqqında bəzi yazılarda olan sözlər Qızıl Arslan Şamaxını ələ keçirdikdən sonra Axsitanın öz iqamətgahını müvəqqəti olaraq Bakıya köçürməsi kimi anlaşılmalıdır. Axsitan Şamaxıya yalnız Qızıl Arslanın ölümündən sonra qayıtmışdır" [2, s.55].

Məlumdur ki, qədim dövlətçilik ənənələrini qoruyan Şirvanşahlar dövləti Səlcuq hakimiyyəti dövründə də nisbi siyasi müstəqilliyini qoruyub saxlamağa cəhd göstərmişdir. Səlcuq sultanı Məlik-şahın hakimiyyətinin sonuna doğru şirvanşahlar yaranmış əlverişli vəziyyətdən istifadə edərək müstəqil xarici siyasət yeritmişlər. Lakin mənbələr birmənalı şəkildə göstərir ki, 1067-ci ilin sonunda Səlcuq sultanı Alp Arslan Şirvan ərazisinə qoşun yeritmiş, şirvanşah Fəriburz sultanın "himayəsini" qəbul etmişdir [1, II, 301].

Sonrakı dövrdə şirvanşahlar müstəqil xarici siyasətləri bərpa etmiş, 1160-cı ilin sonunda şirvanşah III Mənuçöhrün vəfat etməsindən istifadə edən arvadı Tamar qıpçaqlara arxalanaraq Şirvanı "gürcü" mülklərinə birləşdirməyə cəhd göstərmişdir [1, II, 303]. Lakin məhz Şəmsəddin Eldənizin yardımı ilə Şirvan taxtına III Mənuçöhrün böyük oğlu I Axsitan (1160-1196) çıxmış, Tamar isə Şirvanşahlar sarayını tərk etmək məcburiyyətində qalmışdır [5, 34]. Şirvanşah I Axsitan isə hakimiyyətinin sonunadək Eldənizləri "himayəçi" olaraq qəbul etmiş və onlarla dostluq münasibətləri qurmuşdur.

Ümumiyyətlə, V.V.Bartoldun Azərbaycan tarixinə həsr olunmuş əsərlərinin xarakterik cəhətlərindən biri – tarixçinin Şirvanşahlara olan böyük marağı ilə bağlıdır. V.V.Bartoldun həm oxuduğu mühazirələrində [2, 43-44, 53-55], həm "Azərbaycan tarixinin müxtəsər icmalında", həm də bilavasitə mövzu ilə bağlı olan məqalələrində Şirvan tarixi geniş araşdırılmışdır. Səlcuq hakimiyyəti dövründə də Şirvan tarixi kifayət qədər ətraflı işıqlandırılmışdır. Şirvan hökmdarlarının gürcü çarları ilə münasibətləri, şirvanşahlar Axsitanın, Fəriburzun, III Mənuçöhrün hakimiyyəti, Şamaxı və Bakı şəhərlərinin iqtisadi həyatı bu qəbildən olan məsələlərdəndir.

V.V.Bartold qeyd edirdi ki, hələ Böyük sultan Məlik-şahın dövründə (1072-1092) Şirvan hökmdarı I Fəribürz Səlcuqlara müqavimət göstərməyə çalışmış, lakin sonra vassal kimi sultana and içmişdi [6, 876]. Məhz bu şirvanşahın dövründə Şirvan dövlətinin Səlcuqlara ödəməli olduğu bac 70 min dinardan 40 min dinara endirilmişdi [6, 876].

I Fəribürzdən sonra Şirvanşahlar dövlətində hökmdarların hakimiyyət ardıcıllığı V.V.Bartoldun əsərlərində ziddiyyətli və mübahisə doğuran şəkildə təqdim olunur. Belə ki, V.V.Bartold "Şirvanşah" adlı məqaləsində yazmışdır: "Sultan Mahmudun dövründə (1118-1131) Şirvan sultanın qoşunları tərəfindən tutuldu… Sultanın gəlişindən sonra Şirvanşah (onun adı mənbələrdə qeyd olunur) onun yanına gedib ədalət istədi, lakin həbs olundu" [6, 876]. Göründüyü kimi, akademik Səlcuq yürüşü ərəfəsində və dövründə şirvanşahın adını konkret olaraq qeyd etməmişdir [2, 53-54]. Daha sonra V.V.Bartold yazmışdır: "Həmin şirvanşahın adı haqqında nə müsəlman, nə gürcü mənbələri, nə də sikkələr dəqiq məlumat vermir. Fəribürzdən sonra, hələ xəlifə Müstəzhirin dövründə, yəni 512/1118-ci ilədək olan sikkələrdə onun oğlu Mənuçöhrün adı qeyd olunur. Çox güman ki, növbəti hökmdar Əfridun, çox güman ki, əvvəlkinin qardaşı olmuşdur və gürcü mənbələrinin məlumatlarına görə, o, Şirvanla Dərbənd arasındakı müharibə zamanı, təxminən 1120-ci ildə həlak olmuşdur… Zərb etdirdiyi sikkələrdən də görünür ki, onun oğlu II Mənuçöhr, xəlifə Müqtəfinin (1136-1160) müasiri olmuşdur və deməli, 517/1123-cü ildə devrilə bilməzdi" [6, 877].

Lakin V.V.Bartolddan sonra davam etdirilmiş tədqiqat işləri (xüsusilə numizmatik araşdırmalar) göstərdi ki, sultan Mahmudun Şirvana yürüşü zamanı I Fəribürzün nəvəsi (yəni I Afridunun oğlu) Mənuçöhr hakimiyyətdə olmuşdur. O, "II Mənuçöhr" kimi deyil, yuxarıda adını qeyd etdiyimiz III Mənuçöhr (1120-1160) adı ilə hakimiyyətdə olmuşdur [1, II, 302; 5, 22].

III Mənuçöhrün hakimiyyəti illərində Şirvan – Səlcuq – Gürcü münasibətləri V.V.Bartold tərəfindən kifayət qədər işıqlandırılmamışdır. Belə ki, akademik Səlcuq sultanı Mahmudun Şirvana yürüşlərini təsvir etsə də, onların səbəblərini aydınlaşdırmamışdır. Azərbaycan tarixçilərinin əksəriyyəti 1123-cü il yürüşünün əsas səbəbini Şirvanşahların xarici siyasətindəki kəskin dönüşlə əlaqələndirir. Belə ki, arvadı Tamarın və onun gürcü əhatəsinin təsiri altında olan şirvanşah III Mənuçöhr "gürcü çarı ilə ittifaqa bel bağlayıb onun Azərbaycanla əlaqədar olan siyasətinin mahiyyətini düzgün qiymətləndirməyərək, Şirvanşahlar dövlətinin ənənəvi siyasətini pozaraq Səlcuq türklərindən üz döndərdi" [5, 22]. Məhz bu addım sultan Mahmudun 1123-cü ildə Şirvana hücumu və şirvanşahın əsir edilməsi ilə nəticələndi [1, II, 302]. V.V.Bartold İbn əl-Əsirin həmin yürüşün səbəbləri ilə bağlı olan məlumatlarını da (yəni yürüşün səbəbinin "gürcü talanları olduğunu") ehtiyatla qarşılayırdı.

Bu faktları nəzərdən qaçıran V.V.Bartold Şirvanşah III Mənuçöhrün (akademik onu "II Mənuçöhr" adı altında təqdim edirdi) hakimiyyəti dövrünü "sülalənin yüksəliş dövrünün başlanğıcı" hesab edir [6, 877]. Doğrudur, bu şirvanşahın hakimiyyəti illərində geniş miqyaslı abadlıq işləri aparılmış, Bakının qala divarları ucaldılmış, köhnə şəhərlər möhkəmləndirilmiş və yeni şəhərlər salınmışdı [1, II, 302-303]. Lakin Şirvanşah III Mənuçöhrün xarici siyasətini uğurlu hesab etmək qeyri-mümkündür. Belə ki, Azərbaycan Şirvanşahlar dövləti ilə Böyük Səlcuq imperiyası arasında münasibətlərin pozulması ölkəmiz üçün ağır nəticələr vermişdi: Şirvanşahların türk-müsəlman dünyası ilə əlaqələrinin zəifləməsindən istifadə edən gürcü carı IV David 1123-1125-ci illərdə Azərbaycana yürüş etmiş, Gülüstan və Buğurd qalalarını, Şamaxını ələ keçirmişdi [5, 22; 1, II, 302-303].

1160-cı ildə III Mənuçöhrün ölümü ilə Şirvanda vəziyyət mürəkkəbləşdi, taxt-tac uğrunda mübarizə başlandı [1, II, 303]. Sarayda yaranmış qarışıqlıqdan istifadə edən Tamar kiçik oğlu və bir dəstə gürcüpərəst əyanla birlikdə qıpçaq türklərinə arxalanaraq Şirvanı gürcü mülkləri ilə birləşdirməyə cəhd göstərdilər [5, 22-23]. Yalnız III Mənuçöhrün böyük oğlu I Axsitanın (1160-1196) hakimiyyətə gəlməsi ilə Şirvanın gürcü mülklərinə qatılması təhlükəsi aradan qalxdı. Maraqlıdır ki, 1175-ci ildə Şirvana edilmiş rus yürüşlərinin qarşısının alınmasında gürcülərin xidmətini xeyli şişirdən V.V.Bartold [6, 877] I Axsitanın hakimiyyətə gəlməsində məhz atabəy Şəms əd-Din Eldənizin böyük yardım göstərdiyini qeyd etməyi unutmuşdur [1, II, 303; 5, 23].

V.V.Bartold Azərbaycan Şirvanşahlar dövləti ilə gürcü hakimlərinin münasibətlərinə də diqqət yetirmiş, lakin bu məsələyə dair ziddiyyətli mülahizələrdə irəli sürmüşdür. Ümumiyyətlə, Azərbaycan Şirvanşahlar dövləti ilə Cənubi Qafqazın digər dövlət qurumları, o cümlədən gürcü çarlığı ilə münasibətlər tarix ədəbiyyatında fərqli şəkildə təhlil və təqdim edilir. Hələ XIX əsrin ortalarında B.Dorn şirvanşahların "bütün XII əsr boyunca gürcülərdən asılı olduğu" fikrini irəli sürmüşdür; təəssüf ki, V.V.Bartold da bu fikri əsasən qəbul etmişdir. Belə ki, o, Bakıda oxuduğu mühazirəsində (IV mühazirədə) akademik qeyd edirdi ki, "şirvanşahlar əslində onlara (gürcülərə - R.Ş.) tabe idi. Lakin V.V.Bartold başqa bir əsərində ("Azərbaycan tarixinin qısa icmalı"nda) Şirvanşah-gürcü münasibətlərini "müttəfiqlik" kimi təqdim edirdi .

Azərbaycan tarixçisi Ə.Əlizadə Şirvanşah-gürcü münasibətləri ilə bağlı olan bu cür fikirlərin əksinə olaraq ilk dəfə daha mütərəqqi və obyektiv baxış irəli sürmüşdür: "Tam əminliklə demək olar ki, X-XIII əsrlərdə Şirvanda "gürcü nüfuzu" olmamışdır. Kəsranilərlə (Şirvanşah sülaləsi idi – R.Ş.) qohumluq və müttəfiqlik münasibətləri yaratmış Baqratilərin (gürcü sülaləsi idi – R.Ş.) öz məqsədləri olmuşdur". Ə.Əlizadə haqlı olaraq onu da qeyd edirdi ki, bu məsələni araşdırarkən yalnız gürcü salnamələrinə istinad etmək doğru deyildir .

Sonrakı illərdə bu məsələ Azərbaycan tarix elmində daha geniş şəkildə müzakirə edilmişdir. S.B.Aşurbəyli gürcü çarı IV Davidin bütün müsəlman qonşuları ilə, o cümlədən, Azərbaycan Şirvanşahlar dövləti ilə "dostluq münasibətlərinə can atdığını" qeyd etmişdir .

R.Hüseynovun son monoqrafiyasında da bu məsələ diqqət mərkəzindədir: Azərbaycan tarixçisi Şirvanşah-Baqrati münasibətlərinin "süzeren-vassal" səciyyəsi daşımadığını birmənalı

şəkildə göstərmişdir [8, 112-123]. R.Hüseynov gürcü hökmdarlarının həm siyasi, həm də iqtisadi baxımdan müsəlman dünyasından, o cümlədən Azərbaycandan həm siyasi, həm iqtisadi baxımdan asılı olduğu fikrindədir [8, 120].

V.V.Bartold XI-XII əsrin hadisələri ilə bağlı olan əsərlərində daha çox sinxron yazılı mənbələrə və numizmatik materiallara istinad etmişdir. Maraqlıdır ki, V.V.Bartold Şirvan və ümumilikdə Azərbaycan tarixi üzrə tədqiqat əsərlərində zəruri olan numizmatik məlumatları əsasən həmin dövrün sikkələrinin məşhur araşdırıcısı Y.A.Paxomovun əsərlərindən əxz etmişdir [6, 878]. Y.A.Paxomovun həmin əsərləri isə XX əsrin I rübünə aid olduğuna görə, yəni numizmatik tədqiqatların hələ zəif olduğu bir dövrə aid eidldiyi üçün, onları yetərli hesab etmək qeyri-mümkündür. Məsələn, sonrakı numizmatik araşdırmalar I Axsitandan sonra hakimiyyətdə olmuş şirvanşahların adlarını dəqiq müəyyən etməyə imkan vermişdir. V.V.Bartold özü də dövrünün numizmatik materiallarının azlığı ucbatından şikayətlənərək yazır ki, "XIII əsrin birinci yarısı üçün Şirvanın siyasi vəziyyəti qeyri-müəyyəndir… Nə şirvanşah Rəşidin, nə Şirvanşah Əfridun bin Fəribürzün, nə də onun oğlu Cəlal əd-Din Sultanşah sikkələrdə qeyd olunmamışdır" [6, 877].

Son numizmatik araşdırmalar nəticəsində aşkara çıxarılmış sikkələrdə I Axsitandan sonra onun hakimiyyətdə olmuş qardaşı (II Əfridunun) oğlu Fəribürzün və Axsitanın kiçik qardaşı Fərrux-zadun oğlu Gərşəsbin adları zərb olunmuşdur [1, II, 305]. Fərruxzadın (Axsitanın kiçik qardaşının) öz adına zərb olunmuş xüsusi sikkələr tapılmasa da, epiqrafik abidələrdə onun adı tez-tez çəkilir [1, II, 305]. Tədqiqatçılar belə bir mülahizə də irəli sürürlər ki, Şirvanın hakim sülaləsinin bu nümayəndələri, qısa müddət ərzində (1196/97-1204) öz mülklərini (Şamaxı, Dərbənd, Bakı, Şəki və Qəbələ) müstəqil surətdə idarə etmişlər [1, II, 304].

Müasir numizmatik materiallar əsasında onu da müəyyən etmək olar ki, 1200/01-ci ildə hakimiyyət Şahənşahın II Əfridunun qardaşı oğlu II Fəribürzün əlinə keçmişdi. Onun adının zərb edildiyi sikkələrdə olan "əl-adil", "camal əd-dünya" ləqəbləri bu şirvanşahın hakimiyyətinin əslində müstəqil olduğunu göstərir [1, II, 305]. Görünür, II Fəribürz də digər şirvanşahlar kimi Səlcuq sultanlarının ali hakimiyyətini tanımaqdan imtina etmişdi.

*Nəticə.* Qədim dövlətçilik ənənələrinə malik olmuş Şirvanşahlar dövləti Səlcuqilər dövründə də Cənubi Qafqazın siyasi həyatında mövqeyini saxlamışdı. Bu dövrün Şirvan həyatına V.V.Bartoldun xeyli yer ayırması da bu səbəbdəndir. Lakin baş vermiş bir çox hadisələr (Azərbay-canda hakimiyyəti bölüşdürmüş Eldənizlərlə Şirvanşahların gərgin münasibətləri, onların xarici düşmənlərə qarşı bəzən uğursuz müqaviməti) göstərir ki, monqolların hücumu ərəfəsində bu sülalələrin heç biri ölkəni vahid hakimiyyət altında birləşdirmək və xarici təhlükədən (monqol təhlükəsindən) qorumaq iqtidarında deyildi.

## ƏDƏBİYYAT

1. Azərbaycan tarixi [7 cilddə]: / – Bakı: Elm, – c.2. – 1998, – 596 s.; c.3. – Bakı: Elm, – 1999. – 534 s.
2. Bartold, V.V. Müsəlman dünyası tarixində Xəzəryanı bölgələrin yeri/ V.V.Bartold/ Azərb. dilinə cev. akademik Z.M.Bünyadov və E.R.Ağayeva. – Bakı: Elm, – 1999. – 160 s.
3. Gözəlova, Y.H. IX-XII əsrlərdə Azərbaycanın beynəlxalq ticarət əlaqələri/ Y.H.Gözəlova. – Bakı: Elm, – 2005. – 160 s.
4. Gözəlova, Y.H. Eldəniz-Zəngi və Eldəniz-Əyyubi münasibətləri // Şərqin aktual problemləri: tarix və müasirlik. – Bakı: Nurlan, – 2001, – s.22-23.
5. Mahmudov, Y.M. Azərbaycan tarixi. İntibah dövrü/ Y.M.Mahmudov. – Bakı: Altay dünyası, – 1996, – 84 s.
6. Бартольд, В.В. Ширваншах. Сочинения. / В.В.Бартольд. – Т.II, Часть I. – Москва: Наука, – 1963. – с.875-880.
7. Буниятов, З.М. Государство атабеков Азербайджана (1136-1225 гг.)/ З.М.Буниятов. – Баку: Элм, – 1978, – 271 с.
8. Гусейнзаде, Р.А. Кавказ и сельджуки. – Баку: Кавказ, – 2010, – 272 с.

**RANA SHAHBAZOVA**
*Baku State University*

**MIDDLE AGES AZERBAIJANI STATES ELDANIZS AND SHIRVASHAHS IN V.V.BARTOLD'S WORKS**

One of the specific features of V.V.Bartold's works dedicated to the Azerbaijan history is connected with a great interest of a historian to the Shirvanshahs. The history of Shirvan is extensively investigated in V.V.Bartold's lectures, "Brief summary of the Azerbaijan history", as well as in the articles on this topic. Relations of the Shirvan's rulers with the Georgian tsars, the authority years of Shirvanshahs Akhsitan, Fariburz and Manuchihr III, also economical life of Shamakhi and Baku are issues of this kind.

*Keywords*: V.V.Bartold, Azerbaijan history, middle ages, Eldanizs, Shirvanshahs.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 4 dekabr 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 06 yanvar 2021-ci il.*
*Rəyçilər: t.ü.f.d. Rövşən Muğanlinski, t.e.d.İsmayıl Məmmədov.*

**UOT 39(4/9)**

**YASƏMƏN QASIMLI**
*Bakı Dövlət Universiteti*
*Arxeologiya və Etnoqrafiya kafedrası*
**E-mail: yasemen-qasımlı@mail.ru**

# RUSİYA TARİXŞÜNASLIĞINDA SİBİRİN TÜRK XALQLARININ DİNİ İNANC SİSTEMİ

*Məqalədə Rusiya tarixşünaslığında Sibirin yerli türk xalqlarının şamanizmlə bağlı mövcud olan bəzi elmi mülahizələrinin analizi öz əksini tapmışdı. Belə ki, göstərilən problem ilk dəfə məhz rus etnoqrafları, arxeoloqları, tarixçi-diyarşünasları tərfindən elmdə "Rusiyanın Asiyası" adlandırdıqları əraziləri işğal edildikdən sonra ciddi şəkildə araşdırlmağa başlanmışdı. Bir çox səyyahlar, alimlər az bir zaman keçdikdən sonra Sibirin əksər xalqlarını və millətlərini bir adla-türk olaraq adlandırmağa başlamışlar. Sibir türklərinin tarixini hərtərəfli öyrənərək, qarşıda olan problemlər sırasında slavyanlar üçün önəmli və görünməmiş olan məsələlərdən biri və birincisi kimi bu xalqların dini inanc formalarını, o cümlədən şamanizmin üstünlüyünü ayrıca diqqətə alaraq araşdırmağa başlamışlar. Əldə edilən əsas elmi nəticələri sırasında bu alimlərin yekdil olaraq, şamanizmin bütün dünya türklərinə aid olaması və onun din deyil, Tanrı-bütün türklərin əsas inancı qarşısında ibadət forması olması barədə olan elmi mülahizə olmuşdu.*

*Açar sözlər*: şamanizm, müharibə və müharibədən sonra, tofa- tofalar, yakutlar.

*Giriş.* Rusiyanın işğalçılıq siyasətinin önəmli hissələrindən olan və XVIII əsrdən imperiyanın xarici siyasətinin prioritet istiqaməti hesab edilən Sibir və oranın yerli xalqı hakim dairələrin "qulluqçuları" olan rus tarixçiləri tərəfindən ilk dəfə elmi nöqteyi nəzərdən ciddi şəkildə öyrənilməyə başlanılmışdı. Bu məqsədlə yaradılan xüsusi elmi cəmiyyətlər, təşkil edilən arxeoloji-etnoqrafik ekspedisiyaların qarşıya qoyduqları və ilk araşdırdıqları problemlər sırasında yerli türk xalqlarının həyat tərzi, dini dünyagörüşü məsələləri olmuşdu. 150 ildən artıq bir müddətdə aparılan araşdırmaların ciddi elmi nəticələri XX əsrin ikinci yarısından elmi ictimaiyyətə çatdırılmış və bu gün artıq dini dünyagörüşlər sistemində Sibir xalqlarının tarixində mühüm yer tutan şamanizm barədə cürbəcür elmi mülahizələr vardır. Məqalədə bu elmi mülahizələrin bir qismi ümumiləşdirilərək, müəyyən sistemə salınmış, şamanizmin Rusiya tarixşünaslığında mövcud mövqeyinə həsr edilmişdi.

Rusiya İmperiyasının işğalçılıq siyasətinin qurbanlarından olan Sibir xalqlarının əksər hissəsi keçən iki yüzilliyin tarixi ədəbiyyatında əsasən türk, nadir hallarda türkdilli xalqlar adlandırılır. XIX əsrin əvvəllərinə aid olan bəzi arxiv sənədlərində bu ərazilər "Rusiyanın Asiyası" və ya "Rusiyanın şimalı"adlandırılarkən, görünür yerli əhalinin antropoloji tipi, aid olduqları dil ailəsi, adət-ənənələri, yaşayış tərzləri kimi mühüm məsələlər müvafiq alim-mütəxəssislər tərəfindən hərtərəfli nəzərə alınmışdı.

Rusiya tarixşünaslığında Sibirin türk xalqlarının ənənəvi dini dünya görüşləri XIX əsrdən araşdırmaçıların diqqətini cəlb etməyə başlamışdı. Bu xalqların alimlər tərəfindən öyrənilməsi prosesində ilk öncə əsas yer tutan dini dünyagörüşləri və onların özünəməxsus atributları olmuşdur. Belə ki, XIX əsrdə Sibir ərazisində aparılan ayrı-ayrı arxeoloji, etnoqrafik və digər yönümlü araşdırmaların nəticələri artıq XX əsrin 20-30-cu illərinə doğru tam formalaşan rus türkologiyası tərəfindən Sibirin axraik dini baxışları sırasında olan və xüsusi elmi analiz aparılmayan şamançılığın elementləri barədə xeyli cürbəcür xarakterıi yığcam məlumatları elmi ictimaiyyətə catdırılmağa başlanıldı (26, 289; 2; 8,10).

Bu illərdə, yəni II Dünya müharibəsi ərəfəsində Sibirin çoxsaylı xalqlarının dini dünyagörüşü, ənənəvi inanclar sistemi elmə daxil edilərək, müəyyən qədər şamançılıq ilə əlaqələndirilmişdi. Müharibədən sonrakı onilliklərdə yenidən bu problemin həllində artıq şamanlıq-şamançılıq bu xalqların əsas dini inanc forması kimi qəbul edilərək, elm qarşısında, daha dəqiq ifadə olunsa sovet tarixşünaslığında yeni problemlərin və onların həlli yolları hədəf kimi tarixçi- ideoloqlar qarşısında mühüm vəzifələr sırasına daxil olmuşdu. Bu suallar arasında Azərbaycanın müasir

tarixşünaslığı üçün suallardan biri də şamanlığın ilk forması, inkişaf pillələri üzrə yaranan yeni elementlərlə zənginləşən şamanlıq, nəhayət ümumiyyətlə şamanlığın yarandığı tarixlə əlaqəli olan məsələlərin həllini qeyd etmək lazımdır. Bu və digər qeyd etmədiyimiz digər sualların araşdırlmasında keçən əsrin 60-cı illərində müəyyən maraqlı elmi mülahizələr meydana gəlmişdi. Bu qəbildən Azərbaycan türklərinin qədim dini inancları sistemində müəyyən yerə malik olan şamançılıq və şamançılığın yerinin və əhəmiyyətinin dərk edilməsində məhz bu illərdə yavaş-yavaş dünya elmi ictimaiyyətində öz yerini tapan bəzi ciddi mülahizələri qeyd etmək lazımdır.

Sovetlər dönəminin çox məşhur və dünya elmi tarixində əsərləri qəbul edilən S.P.Tolstov Sibir xalqları arasında şamanlığın dünyanın bəzi yerlərindən fərqli olaraq nisbətən gec, buddizmin təsiri ilə yarandığı haqqında elmi mülahizələrini qeyd etmək gərəkdir (23, s.17).

Eyni elmi müddəa digər bir tanınmış alim S.İ.Vaynşteyn tərəfindən daha da maraqlı faktlarla təsdiqləndi. Belə ki, müəllifin araşdırmalarına görə, S.P.Tolstovun araşdırmaları yeni mənbələrlə, yəni yazılı mənbələrlə zənginləşdirilərək, bu dinin yalnız VI əsrdən meydana gəldiyini və şamanizmlə birgə digər ibtidai dini inancların da mövcud olduğunu və şamanlığın ikinci dərəcəli yer tutaraq ictimai şüurlara sirayət etməsi diqqətdən kənarda qalmadığı sübuta yetirilmişdi (4).

Maraqlı və kifayət qədər elmi analizlər sistemi əsasında irəli sürülən müddəalardan birində şamanizmin ibitidai din növlərindən biri kimi, yaxud ibtidai icmadövrünün sonundan sinifli cəmiyyətə keçid zamanı Şimali və Cənubi Sibirin yerli əhalisi tərəfindən geniş yayılan dünyagörüş forması olması barədə mülahizədir (24, s.278; 20, s.4,8). Bu xalqlar sırasında yakutlar, altaylar, xakaslar, şorlar, tıvalar, tofalar və digər türk xalqlarını qeyd edilmişdir.

Göstərilən elmi mülahizələri dəqiqləşdirmək üçün elmlərin inteqrasiyasından istifadə edən alimlər etnoqrafik araşdırmalardan sonra artıq şamanizmin Sibirin yerli xalqları arasında yayılma tarixini dəqiqləşdirmək üçün arxeologiyaya müraciət etməyə başlamışlar. Bu zaman aparılan arxeoloji qazıntılar nəticəsində əldə edilən maddi mədəniyyət nümunələrini dini mənsubiyyətə görə təsnifatlaşdırılması zamanı daha çox qəbir abidələrinin artefaktları cəlb edildi. Belə ki, bu artefaktların əksəriyyəti keçən əsrin 80-90 cı illərində artıq arxeoloqlar tərəfindən öyrənilmiş və onların xronoloji çərçivəsi dəqiqləşdirilmişdi (16, s.296, 318, 321; 14, s.474).

Bu xalqlardan yakutlara aidolan şamanizm elementləri ilk dəfə A.Y.Kulakovskiy, A.A.Popov, İ.A.Xudyakov tərəfindən öyrənilmişdi (12;19, s.288-292; 25, s.120, 139). Ayrıca olaraq, xüsusi olaraq qeyd etmək lazımdır ki, Sibir xalqlarının, o cümlədən araşdırdığımız Cənubi Sibirin türk xalqlarının tarixşünaslığı XVII-XVIII əsrləri kifayət qədər geniş rus alimlərindən S.V. Baxruşin, Mirzoyev V.V., V.F.İvanov tərəfindən XX əsrdə araşdırılmış və çap olunmuşdu (3; 13; 9).

Xakas kaçinlərinin, saqayların dinidünyagörüş sistemi haqqında ilk elmi mülazirə xarakterli məlumata hələ 1900-cü ildə rahib V. Suxovskiy, 1907-ci ildə türkoloq N.Katanov və İ.Karatanov tərəfindən təqdim edilmişdi (22, s.152-153; 17; 10, s.634).

Tıva türklərinin şamanizmlə əlaqəsi ilk dəfə Y.K.Yakovlev və V.P.Dyakonova tərəfindən elmə daxil edilmişdir (27, s.52; 7, s.275).

Tofaların dünyagörüşləri haqqında ilk maraqlı araşdırmaları N.F.Katanovun və B.E.Petrininəsərlərində vardı (11, s.36; 21, s.16). Altayların dini dünyagörüşü A.V.Anoxinin və L.P.Potapovanın əsərlərində öz əksini tapmışdır (1, s.108-123; 18).

Sonrakı illərdə göstərilən ümumi xüsusiyyətlər əsərlərin irəli sürdüyü əsas şamanizmin ayrı-ayrı növləri kimi –müqəddəs hesab olunan dağ, ağac, su hövzələri, təbii qüvvələr-külək, yağış, qar, həmçinin günəş, ay, ulduzlar, planetlər; o cümlədən bəzi vəhşi heyvanlara inam; quşlar; ruhlara inam öyrənilməyə başlamışdı (6, s.79-83; 18, s.124-128; 5, s.37-40).

Şamanizmin rus alimlərinin marağına səbəb olmasının bir çox səbəbləri olmuşdur. Belə ki, bu mövzuda çox dəyərli elmi araşdırmaların müəllifi olan L.P.Potapov öz mövqeyini belə izah edir: "Bu səbəblərdən biri, bəlkə də ən əsaslarından hesab edilməyən Şamanizmin yaranma tarixinin o qədər də qədim olmaması ilə bağlıdır. Bu vaxt təxminən 1500 illik bir zamana söykənir"(18, s.146).

Digər bir səbəb şaman sözünün yayıldığı coğrafiyanın hüdudları ilə əlaqədardır. Bu söz regional xüsusiyyət daşımasına baxmayaraq, bütövlükdə bütün Altay dağ sistemini, Sayan dağətəyi bölgələrini əhatə edir.

III-buranın yerli əhalisi dünya xalqlarının dil-linqvistik təsnifatına əsasən, monqol, tunqusdilli xalqlarla birgə Altay dil ailəsinə daxildirlər. Bununla belə, dil eyniyyəti qüvvədə qalmaqla, araşdırdığımız xalqların əsas dini dünyagörüşü şamanizm olaraq qalmaqdadır. Bu xalqların sırasına: dağlıq Altay ərazisində yaşayan "altay-kiji" adlanan altaylılar: telengitlər, teleslər, şimali və dağ-Altay teleutları, sorlar, kumandanlar, cilkanlar, tubalar, xakaslar- kaçinlər, saqaylar, beltirlər, qızıllar, koyballar, tuvalılar və Altay dil qrupuna daxil olan sayanlar, qırğızlar, uyğurlar, kijigetlər və digər sayları tükənməkdə olan etnik qrupları aid etmək olar (18, s.6).

Beləliklə, şamanizm – şamançılıq din deyil, ekstaz texnikasının arxaik formasıdır, şamanlar bu ekstazı bacaran, həyata keçirən insanlardır. Şamanizmin vətəni Mərkəzi Asiya hesab edilsə də, Sibirdə yayılan şamanizmi klassik, yaxud ənənəvi forması hesab etmək olar; yəni XIX-XX əsrlərdə Rusiya tarixşünaslığında əsasən şamanizmin klassik vətəni Sibir özünə yer tapmışdı. Bu zamanlarda, yəni yerli Sibir türklərinin ruslar tərəfindən məcburi xristianlaşmasına qədər şamanizm dini dünyagörüşləri sisteminin mühüm hissəsi kimi qəbul edilərək, əsasən insanların tanrılarla əlaqəsini nəzərdə tuturdu. Şamançılıq cadugərliklə əlaqələndirilir, şər qüvvələrlə mübarizə forması olaraq, həm də falçılıq və ekstrasensliklə bağlı olan bu fəlsəfi düşüncə tərzinin real formatı kimi izah olunurdu. Göstərilən dövrün elmi ədəbiyyatına əsasən, şaman-cadugər idi. Şamanların gördükləri bütün işlər iki əsas yönümdə olmalı idi: birinci – dini şüur və inanclar, ikincisi – şamanlıq, cadugərlik, yaxud təbiblik. Məzmun etibarilə və sosial quruluşuna görə ictimai şüurun müxtəlif sahələrinə aid olan bu insan fəaliyyətinin bir növü olan şamanlıq hər iki funksiyanı yerinə yetirirdi.

Şamanizm əsasən köçəri həyat tərzi keçirən qədim türk xalqlarında geniş yayılmışdı. Şamanizm Sibirin yerli xalqlarında "kara janq" – qara din anlamı verir. Bu xalqlardan xakasların əfsanələrinə görə şamanlar –yeraltı dünyanın sahibi Yerlik tərəfindən öyrədilmişdi. Digər bir fakta görə, əgər altay-sayan xalqlarından olan xakaslarda şamançılıqda dini dünyagörüş əsas yer tutursa, tuvalılar və bu qrupa daxil olan azsaylı xalqlarda şamanlardan ümumi problemlərin həllində istifadə olunur.

Altay-Sayan ərazisində şamanizm təbiətin mücəssiməsi dual – ikili dünyagörüş ilə bağlıdır. Bu dini dünyagörüşlərə görə təbiətdə hər bir hadisənin – dağın, çayın, ağacın, daşın, quşun, heyvanın, şimşəyin, yağışın öz sahibi var. Bu "sahiblər" insan obrazında deyil. Belə "sahib" deyilən varlığın ağlı, şüuru olmaqla bərabər, özünəməxsus obrazları da var. Obraz ya antropomorf (əsasən dağ, çay, göl), ya da zoomorf (quş, heyvan) şəklindədir. Burada ruhlara inam da nəzərə alınmışdı.

*Nəticə*. Rusiya tarixşunaslığında XIX və XX əsrlərində Qərbi Sibirin türk xalqlarının arxaik dini inanclarında şamanizm demək olar ki, bütün azsaylı xalqlar arasındakı oxşar və fərqli cəhətləri üzə çıxarılaraq, aşağıdakı kimi təsnifatlandırılmışdır:

1. Dağa sitayiş: Səbəb daşın təbiətə təsir göstərmək bacarıqlı, yəni yağışın, qarın yağdırılmasına daşın təsiri. Bu daşı çox vaxt sata ya da satak adlandırardılar. Bu adda daş əlyazmalarda VII əsrdən rast gəlinir.

2. Ardıc ağacına inanc: Bu ağac yandırılarkən yaranan tüstünün təsirindən bəd ruhların qovulmasında istifadə olunurdu. Qərbi Sibirin türk xalqları bu ağacı artış adlandırırdılar.

3. Ayrı – ayrı amuletlərə inam.

4. Təbiət qüvvələrinə dərin inam. Bura dağlar, çaylar, güllər və s.aiddir. Xüsusilə, düzənlikdə yetişən ağac, yaxud dağlardakı hansısa bir formanı xatırladan ağac türklər tərəfindən mütləq müqəddəsləşdirmə baş verir. Ağaclara parçaqalıqları, at tükü, insan saçı asırdılar. Maraqlıdır ki, bu əşyalar ümumiləşdirilərək calama, çalama, çalaba, dalama kimi adlandırılırdı. Bu söz demək olar ki, bütün türk xalqlarında cuzi fərqlə qorunma mənasını dəyişmədən qalmaqdadır. Belə ki, baş – çalma və bel bağı -dolama kimi qorunub saxlanır.

Bununla da, Rusiya tarixşünaslığında Sibir türklərinin dini inanc sistemində Tanrıya inam əsas olaraq, cürbəcür sitayiş nümunələri, o cümlədən şamançılıq mühüm yer tutan məsələlərdən biri kimi aktual olaraq qalmaqdadır.

## ƏDƏBİYYAT

1. Анохин А.В. Материалы по шаманству у алтайцев. - Сб.МАЭ АН СССР. Л.: Изд-во Российской Академии Наук, 1924, т.4, вып.2, 150 с.
2. Анисимов А.Ф. Религии эвенков. М.: Изд-во Академии Наук, 1958, 236 с.

3. БахрушинС.В. Основные течения Сибирской историографии 18 века. Северная Азия. В кн.:1-2, М.:Изд-во Академии Наук, 1925, 306 с.
4. Вайнштейн С.Н. Тувинское шаманство. Доклад на VII Международном Конгрессе антропологических и этнографических наук. М.: Наука, 1964, 296 с.
5. Виташевский Н.А. Материалы для изучения шаманства у якутов. Иркутск: Тип. Перекресток, 2000, т.2, вып. 2, с.37-40.
6. Гурвин И.С. Культурасеверных якутов – оленеводов. В кн.: Сборник материалов по этнографии якутов. Якутия: Наука, 1948, 248 с.
7. Дьяконова В. П. Религиозные представления алтайцев и тувинцев о природе и человеке. В кн.: Природа и человек в религиозных представлениях народов Сибири и Севера. Л.: Наука, 2006, 291 с.
8. Золотарев А.М. Пережитки тотемизма у народов Сибири. Л.:Изд-во Института народов Севера ЦИК СССР, 1938, 52 с.
9. Иванов В.Ф. Историко – этнографическое изучение Якутии XVII – XVIII вв. М.: Наука, 1974, 286 с.
10. Карашанов И. Черты внешнего быта качинских татар – ИРТО, СПб.: Тип. братьев Никоновых, 1884.т. ТХХ, вып.6. 286 с.
11. Катанов Н.Ф. Поездка к карагасам в 1890. Спб.: Тип. И.Н.Скороходова, 1891, 236 с.
12. Кулаковский А.Е. Материалы для изучения верования якутов. В кн.: Записки Якутского краевого географического общества. В кн.:1. Якутск: Тип. Записки Якутской краев. геогр. общества, 1923, 108 с.
13. Мирзоев В.В. Историогрфия Сибири (XVIII век). Кемерова: Изд-во Кемеровск, 1963, 262с.
14. Народы Сибири. Новосибирск: Паралель, 2017, 530 с.
15. Наречия урянхайцев (сойотов, абаканских татар и каракасов). Тексты, собранные, переведенные Н.Ф. Кашановым. Спб.: Изд-во Императорской Академии Наук, 1907, 683 с.
16. Окладников А.Д. История Якутской АССР. Т1. Якутия до присоединения к Русскому государству. Якутск, Якутское издание,1955, 440 с.
17. Образцы народной литературы тюркскихплемен, изданные В. Радловым.Ч. IX; М.: Тип. Академии Наук, 1978, 12 с.
18. Потапов Л. П. Культ гор на Алтае. «Советская этнография», 1946, №.2, с.145-160.
19. Попов А.А. Материалы по истории религии Вилюйского округа.Спб., МАЭАН СССР. М.-Л.: Наука, 1949, Т.11, 485 с.
20. Природа и человек в религиозных предствлениях народов Сибирии Севера. Л.: Наука, 1977, 336 с.
21. Петри Б.Э. Оленеводство у карагасов. Иркутск: Перекрестек, 1927, 27 с.
22. Суховский В. О Шаманстве в Минусинском крае. Известия общество археологии, истории и этнографии при Казанском Университете. Казан: Тип.Литер. Университета, 1901, т. XVII, вып. 2-3, 9 с.
23. Толстов С.П. Основные теоретические проблемы советской этнографии //"Советская этнография", 1960, № 6, с.210-225, 230-232.
24. Токарев С.А. Ранние формы религии и их развития. М.: Издательская группа, 2017, 400с.
25. Худяков И.А. Краткое описание Верхоянского округа. М.: Наука,1969, 448 с.
26. Шахнович М.И. Советский историк религии В.Г.Богораз – В кн.: Вопроса преодоление религиозных пережитков в СССР. М. –Л.:Изд-во Академия Наук, 1966, с.289.
27. Яковлев Е.К. Этнографические заметки о сойотах урянхайцах. Известие Красноярского подотд. ВСОРТО, 1902, т.1, вып 3, с.52.

**YASEMEN QASIMLI**
***BSU, Department of Archeology and Ethnography***

## THE RELIGIOUS SYSTEMS OF THE TURKIC PEOPLES OF SIBERIA ON THE HISTORIOGRAPHY OF RUSSIA

The article discusses some issues related to shamanism among the Turkic peoples of Siberia, studied in Russian historiography. This problem was first studied by Russian ethnographers, archaeologists, historians and local historians after the seizure of the territory of the so-called "Asian Russia." Numerous scientists and travelers for the first time pointed out an important fact regarding the ethnic characteristics of these peoples and called all the peoples and ethnic groups of Siberia under the same context - the Turks. Studying the Turks of Siberia, scientists among the first questions drew attention to the religion of these peoples interesting to the Slavs and established various forms of worship, including shamanism. Among the main conclusions of scholars on shamanism is that this form of worship applies to all Turks and is not a religion, but a form of confession to Tengri, the main deity of all Turks.

*Keywords*: shamanism, war and the post-war period, tofs-tofalars, Yakut.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 18 fevral 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 06 yanvar 2021-ci il.*
*Rəyçilər: t.ü.f.d. Kərəm Məmmədov, t.e.d. İsmayıl Məmmədov.*

**UOT 94 (479.24)**

**LAMİƏ SULTANOVA**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
*kiçik elmi işçi, dissertant*
**E-mail: tarix1650@yandex.ru**

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN AQRAR SİYASƏTİ XX ƏSRİN 20-30-CU İLLƏR SOVET TARİXŞÜNASLIĞINDA

*Şərq aləmində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti tarixinin tədqiqi tarixşünaslığın əsas diqqət mərkəzində olan məsələlərdən biridir. 1918-ci ildə kənd təsərrüfatı ölkəsi olan Azərbaycanda aqrar sahədə mövcud vəziyyət ürəkaçan deyildi. Kəndlərdə aztorpaqlı və ya torpaqsız olan kəndlilər mülkədar torpaqlarını icarəyə götürərək muzdur kimi işləmək məcburiyyətində qalırdı. Sovet tarixşünaslığının müxtəlif mərhələlərində Azərbaycan Xalq Cümhuriyyətinin aqrar siyasətinə münasibət həmin dövrdə gedən ictimai-siyasi proseslərə uyğun olaraq dəyişmişdir. Məqalədə XIX əsrin 20-30-cu illər sovet tarixşünaslığında AXC dövründə arqar vəziyyətdən bəhs edilir.*

*Açar sözlər:* Azərbaycan Xalq Cümhuriyyəti, bəy, kəndli, aqrar islahat.

*Giriş.* Son illər ərzində aparılan çoxsaylı tədqiqatlara baxmayaraq Azərbaycan Xalq Cümhuriyyətinin tarixinin tədqiqi Vətən tarixşünaslığının aktual problemlərindən biri olaraq qalmaqdadır. AXC tarixinin siyasi, iqtisadi və mədəni məsələləri müxtəlif tədqiqat işlərində geniş araşdırılsa da, bir sıra məsələlərin tədqiqinə ehtiyac vardır. Bunlardan biri AXC dövründə aqrar məsələ və hökümətin aqrar siyasətdir. Qeyd etmək lazımdır ki, aqrar məsələ həmin dövrdə çox mühüm əhəmiyyət kəsb edirdi. Baxmayaraq ki, AXC dövründə bu məsələ öz həllini tapmamışdı, bununla belə hökumətin bu istiqamətdə siyasəti əhəmiyyət daşıyırdı. Cümhuriyyət hökumətinin aqrar məsələ ilə bağlı uğursuz siyasəti onun mövcud olduğu tarixi dövrü tədqiq edən sovet tarixşünaslığının diqqətini cəlb etmişdir. Bu da təsadüfü deyildi. Belə ki, Cümhuriyyət tarixinin "nöqsanları"nı "ifşa" etmək istəyən sovet tarixşünaslığı üçün bu məsələ ətrafında araşdırmalar "bol material" verirdi.

XX əsrin 20-80-ci illəri ərzində sovet tarixşünaslığında 1918-1920-ci illərdə Azərbaycanda aqrar məsələ və Azərbaycan kəndində baş verən proseslər tədqiqata cəlb olunmuşdur. Sovet tarixşünaslığının müxtəlif - 20-30-cu illər, 40-60-ci illər, 60-80-ci illərlə çərçivələnən mərhələlərində bu məsələ müxtəlif cür tədqiq edilmişdir.Bu isə öz növbəsində həmin dövrlərdə Sovet dövlətində gedən ictimai-siyasi proseslərlə bağlı olmuşdu. Başqa cür desək, həmin proseslərin elmi ideologiyaya təsirindən qaynaqlanmışdır. Bu baxımdan 20-30-cu illər sovet tarixşünaslığını xüsusi qeyd etmək lazımdır.

*XX əsrin 20-30-cu illər sovet tarixşünaslığı.* Bəhs edilən dövrdə çap olunan ədəbiyyatda Azərbaycanda sosialist inqilabının ictimai-iqtisadi şərtləri məsələsi qənaətbəxş dərəcədə tədqiq edilməmişdi. Azərbaycan kəndində ictimai təbəqələşmə, sinfi ziddiyyətlər və kənd yoxsulları ilə qolçomaqlar arasında mübarizə 1917-1920-ci illərdə Azərbaycanda kəndli hərəkatı məsələləri demək olar ki, zəif işıqlandırılmışdı. Bolşeviklərin Azərbaycanın zəhmətkeş kütlələrinin inqilabi mübarizəsinə rəhbərliyi məsələsi də kifayət qədər işıqlandırılmamışdır [2, s.24].

Bu dövrdə AXC-nin mövcud olduğu 1918-1920-ci illər tarixinin bəzi məsələlərinə, o cümlədən, Müsavat hökumətinin aqrar siyasətinə xüsusi diqqət bir sıra amillərlə bağlı idi. Əvvəla, həmin dövrdə Azərbaycanda millətçilik meyilləri ilə mübarizə aparılır və Müsavat partiyasının qaralanması kompaniyası davam edirdi. Bu mühacirətdə öz fəaliyyətini genişləndirən cümhuriyyətçilərin fəaliyyəti ilə bağlı idi. 1927-ci ildə MK-nın III tərkibi ləğv edilib onun üzvləri və digər fəal partiyaçılar həbs olunduqdan sonra gizli Müsavatın həyatında yeni – III mərhələ başladı.Bu mərhələdə taktika dəyişir.Partiyanın ümumi rəhbərlik orqanı yaradılmır, əsas fəaliyyət növü çox məhdud idi: öz aralarında və xarici büro ilə əlaqə, informasiya mübadiləsi, tövsiyyə və tapşırıqların alınması. Buna baxmayaraq, gənclər və ordu hissələri arasında təbliğat aparılır, xaricdən qazet və jurnallar gətirilib daxildə yayılırdı. Azərbaycan Milli Mərkəzi (AMM) də yaranan Siyası Mərkəz Azərbaycandakı bütün antisovet təşkilatların fəalliyətini əlaqələndirirdi. 1927-ci ildən sonra bütün belə təşkilatlar

Müsavat bayrağı ətrafında birləşərək, onun ideoloji-siyasi göstərənliyi ilə hərəkət edirdilər [3, s.79]. Digər tərəfdən isə bu Sovet hökumətinin 1927-ci ildən başlayaraq kənddə başladığı köklü dəyişikliklər dalğası ilə bağlı idi. Belə ki, ÜİK(b)P-nin XV (1927-ci il) qurultayının kənd təsərrüfatının kollektivləşdirilməsi haqqında qərarı qəbul edilmiş və kolxoz hərəkatının inkişafında yeni mərhələ başlamışdı. Bir sinif olaraq qolçomaqlar üzərinə "hücum" başlamışdı. SSRİ-nin digər yerlərində olduğu kimi kollektivləşdirmə Azərbaycanda da ciddi əks-səda doğurmuşdu.

Digər tərəfdən isə bu Sovet hökumətinin 1927-ci ildən başlayaraq kənddə başladığı köklü dəyişikliklər dalğası ilə bağlı idi. Belə ki, ÜİK(b)P-nin XV (1927-ci il) qurultayının kənd təsərrüfatının kollektivləşdirilməsi haqqında qərarı qəbul edilmiş və kolxoz hərəkatının inkişafında yeni mərhələ başlamışdı. Bir sinif olaraq qolçomaqlar üzərinə "hücum" başlamışdı. SSRİ-nin digər yerlərində olduğu kimi kollektivləşdirmə Azərbaycanda da ciddi əks-səda doğurmuşdu.

M.Ağayev, Y.Rathauzer, Z.İbrahimov, Ə.Rəhimov və digər tədqiqatçılar əsərlərində Azərbaycan Xalq Cümhuriyyəti dövründə mövcud olan aqrar münasibət, kəndlərdə yaşayış səviyyəsinə, kəndlərdə aqrar həyəcanlar və bu kimi bir sıra məsələlərə toxunmuşlar. Bəhs edilən zaman kəsiyində Azərbaycan Xalq Cümhuriyyətində aqrar məsələyə çox yer verilməməsi həmin dövrdə Bakıda cərəyan edən siyasi hadisələrin daha çox işqılandırılması ilə əlaqədardır.

*Mahmud Ağayevin "Müsavatın aqrar siyasəti"* əsəri. İlk öncə diqqətimizi 1930-cu ildə nəşr olunan Mahmud Ağayevin "Müsavatın aqrar siyasəti" əsərinə yetirək. Müəllifin əsəri bütünlüklə Müsavat partiyasının və Azərbaycan Xalq Cümhuriyyəti hökümətinin ifşa edilməsinə xidmət edir. Müsavatın qətnaməsinə münasibət bildirən müəllif buradakı bir maddəyə xüsusi diqqət yetirir. Burda qeyd edilən torpaq ayrıldıqdan sonra " əməkçilərin xüsusi mülkiyyətinə keçməlidir" maddəsində "əməkçi" sözünə şübhə ilə yanaşır. Çünki burjuaziya da özünü əməkçi sanır, bu halda torpaq kapitalist mülkədarların əlində qalır, o vaxt onlar haqqında heç danışıq belə olmaz. Mülkədarlar bir sinif kimi məhv olmamaq üçün öz mənafelərinə uyğun olaraq həll etməyə çalışırdılar. Müəllif hesab edir ki, 1918-ci ilin noyabrında türklərin əvəzinə artıq Bakıya ingilislərin gəlməsi buna təsir etmişdi. Başqa sözlə, feodal münasibətlərinin hakim olduğu Türkiyə əvəzinə kapitalizmin inkişaf etdiyi İngiltərə qüvvələrinin burada olması ilə hesablaşmaq lazım gəlirdi.Artan kəndli hərəkatını Hökumət qoşunları amansızcasına yatırırdı. Kəndlilər də partizan dəstələri düzəldərək şiddətli mübazirə aparırdılar. Hökumət onları quldur adlandırsa da, həqiqətdə isə bunlar üsyançı kəndlilər ordudan qaçan əsgərlər idi [1, s.36].

Bildiyimiz kimi, 1919-cu ildə Müsavatın II qurultayı çağırılmış, burada torpaq məsələsi haqqında - torpağın əvəzsiz olaraq alınması haqqında qərar çıxarılmışdı. Müəllifin qənaətinə görə, bu dəfə də ingilislərin Bakını tərk etməsi, bolşeviklərin Denikinə zərbə endirməsi bu cür qərarın verilməsinə səbəb olmuşdu. M.Ağayevin fikricə, hökumətin torpağı kənd burjuaziyasına icarəyə verməkdə məqsədi torpaqları üsyana qalxan kəndlilərin zəbt etməsindən qorumaq idi [1, s.60]. M.Ağayeva görə, Azərbaycan Xalq Cümhuriyyəti dövründə kəndlilər üzərində çar zamanında olduğundan daha artıq bir boyunduruq düşmüşdü və hökumət bütün orta əsr vasitələrini tətbiq edirdi. "Kəndlilərin böyük bir əksəriyyətini parçalayıb yoxsullaşdırır, bunları torpaqsız və ya aztorpaqlı kəndli halına salır, qolçomaqlar vücuda gətirilir, təsərrüfat üçün kapitalist forması yaradırdı" [1, s.63]. Mahmud Ağayevin fikrinə görə, bəylər kəndlilərdən malcəhət istəyib, kəndliləri çətin vəziyyətə salırdılar. 1918-ci il 2 oktyabrda Parlamentdə Torpaq Komissiyasının qanun layihəsinin dinlənməsinə müəllif münasibət bildirir. Bu qanun layihəsini yarımçıq bir şey kimi qiymətləndirir. Doğurdan da bu qanun layihəsi deyil, yarımçıq bir şey idi. Xırda burjua sosialistləri bu qanun layihəsi ilə cənab mülkədarlara xidmət göstərirdilər, mülkədarlar bu danışıqlar altında gizlənərək kəndlilərin əlindən aldıqları torpaqların haman kəndlilərin özlərinə satmağa başladılar [1, s.42]. Müəllifin gəldiyi nəticəyə görə, Müsavatın siyasəti hökumətə sahib olacağına kimi torpağı əvəzsiz olaraq alınması ilə bağlı gözəl sözlərlə dolu idi. Hakimiyyət başına gələr-gəlməz Müsavat müəyyən sinfi siyasət yürüdərək, Azərbaycan kəndində torpaq məsələsinin mülkədarcasına həllinə çalışaraq, kapitalizmin kənddə inkişafına səy göstərirdi. Müsavatın siyasəti mülkədar sinfini mühafizə edib onların mülklərini saxlamaq idi. Xülasə, müəllif əsərdə Müsavatın əsas siyasəti kimi mülkədar sinfini mühafizə edib, kapitalist formalarının inkişafı üçün şərait yaratmaqdan ibarət olduğunu bildirir.

*Y.Rathauzerin "Şura Azərbaycanı uğrunda mübarizə"* əsəri. 1929-cu ildə Y.Rathauzer tərəfindən yazılan "Şura Azərbaycanı uğrunda mübarizə" əsərində də AXC dövründə aqrar məsələyə toxunulur. Müəllif əsərdə torpaq üstündə Azərbaycan kəndlərindəki iğtişaşlardan bəhs edərək Müsavatın mülkədarların yardımına gəlməsini göstərir. "Məlum olduğu üzrə 1917-ci ilin axırlarında və 1918-ci ilin əvvəllərində Azərbaycanın bir çox yerlərində, bilxassə Gəncə quberniyasında böyük torpaq iğtişaşları baş verdi. Məhkum edilən kəndlilər bütün acıqlarını xanlardan və bəylərdən alaraq, bunların əmlaklarını dağıdıb, ailələrini məhv edirlərdi.Mülkədarların yardımına Müsavat firqəsi gəldi. O, kəndliləri Qafqaz cəbhəsindən qayıdan rus saldatları və Bakı Kommunası üzərinə saldırmaqla onları inqilabdan çəkindirməyə çalışırdı [4, s.9]. Ümumi nəticə kimi onu demək olar ki, müəllif əsərdə torpaq qanunun uzadılmasının səbəbini Torpaq Nazirliyinin fəaliyyətində görür. Məsələnin mürəkkəbliyini bəhanə edərək vaxt qazanmağa çalışırdı.

Azərbaycan kəndliləri içərisində bolşevik təbliğatının genişlənməsini müəllif qeyd edir. Bolşevik təbliğatı Azərbaycan kəndliləri içərisində özünə münasib bir zəminə bulmuşdu. Bunun üçün də kommunizm kabusunun Müsavat hakimlərini dəhşətə salması əbəs deyildir. Qəzalardan daxil olan çoxsaylı şikayət teleqramları kəndlərdə torpaqların mülkədarlar tərəfindən amansızcasına tutulması hallarının miqyasının nə dərəcədə çox olduğunu sübut edir. Ümumi nəticə kimi onu demək olar ki, müəllif əsərdə torpaq qanunun uzadılmasının səbəbini Torpaq Nazirliyinin fəaliyyətində görür. Məsələnin mürəkkəbliyini bəhanə edərək vaxt qazanmağa çalışırdı. Müəllif Müsavat partiyasının rəhbəri M.Ə.Rəsulzadəni torpaq məsələsinin həllini təxirə salmaqda günahlandırırdı. Müəllif Azərbaycan kəndlərində ən yaxşı torpaqların mülkədarların əlində olması, torpaq məsələsinin yubadılması AXC hökumətinin mülkədarların tərəfində olmasını göstərir.

*N.Pçelinin "Крестьянский вопрос при Мусавате (1918-1920)"* əsəri. Sovet tarixşünaslığının AXC-nin aqrar siyasətinin təhlil olunduğu dair əsərlər içində N.Pçelinin "Крестьянский вопрос при Мусавате (1918-1920)" əsəri xüsusi yer tutur. Əsərdə 1913-cü ildə çar hökuməti tərəfindən ləğv edilən feodal ödənişlərinin bərpası, Azərbaycan kəndində Müsavatın hakimiyyətini, kəndli torpaqlarının zorla müsadirəsi, bir neçə dəfə vergilərin artırılması, Müsavatın zülmü əks olunmuşdur. Kəndlilərin arasında sinfi təbəqələşməni xarakterizə edən müəllif kəndlilər içindən çıxan bir qrup kəndli burjuaziyasının sahib olduğu torpaqlar haqqında statistik göstəricilər verir: 0,5% -i 1289.47 desyatin torpağa, 86%-i 6,15 desyatin torpağa, təxmini 1000 nəfərə yaxını 34,47 desyatindən 151,61 desyatinə qədər torpağa sahib idilər.Müəllif hesab edir ki, kənd əhalisinin yoxsullaşması, onların içindən qolçomaqların ayrılması, xan-bəy torpaq sahibliyi, milli münasibətlər Azərbaycan kəndində aqrar məsələni dolaşdırıb çətinləşdirirdi. Tədqiqat əsərində kəndlilər arasında baş qaldıran qiyamlar haqqında da məlumat verilir. Təkrar olaraq rus əsgərləri getdikdən sonra bəy və xanların onlar üzərində ağalığının qarşısını almaq üçün kəndlilər onların mülkünə hücum edib özlərini öldürüdüyünü Pçelin 1918-ci il Gəncə quberniyasına dair xronika göstərir: 1) 4-30 yanvarda kəndlilər Zəyəm kəndində Barxan bəy Qarabəyovun mülkünə hücum ediblər.Barxan bəy Qarabəyov və qardaşı öldürülüb; 2) 6 yanvarda Böyükağa Qarabəyovun mülkünə hücum edildi. 6 Qarabəyov və onların köməyinə gələn 4 qonşu bəy öldürülüb. 3) Həmin gün Həmid bəy Zülqədərova Göylər stansiyası yaxınlığında mülkünə hücum edildi.Bəy ailəsindən 8 nəfər öldürüldü, qızı və oğlu Məmmədqadir İbadullayev tərəfindən əsir alındı. 4) Həmin gün Soyuq bəy Zülqədərovun mülkündə bəy ailəsinin 15 üzvü öldürüldü. 5) Həmin vaxt Allarbəy Zülfəqədərovun ailəsi və Mehram bəyin ailəsindən 2 bəy döyülmüşdü. 6) Bu rayonda xalq arasında "xırda bəy" adlandırılan bir sıra bəylərə də hücum edildi. Təxmini 30 belə bəy ailəsi kəndlilərdən qorunmaq üçün erməni kəndi Badakənddə gizləndi. 7) Şamaxı bəyləri isə mülklərindən qaçdı. 8) Morul bəylərinin və onların mülklərini onlara Tiflisdən gələn Şeyxülislam xilas etdi. Kəndlilərin diqqətini yayındırmaq məqsədilə bəylər tərəfindən erməni-tatar qırğını hazırladıqlarını Şaumyanın fikrini sitat gətirən müəllif yazır: "9-12 yanvar hadisələri günü Yelizavetpol, Şuşa, Qazax və digər qəzaların erməni əhalisi qırğın gününün gözləmə dəhşətini yaşayırdı. Pçelinə görə, Müsavatçılar heç də aqrar məslənin həllində maraqlı deyildi". Müsavatçılar həqiqətdə aqrar məsələ işinin təşkilində yox, daha çox bu iş ətrafında səs-küy yaranmasında maraqlı idilər. Kəndlilərə nümayiş etdirdilər ki, "iş hərəkət edir", yaxında "torpaq alacaqsız". Bakı və əyalətlərdə bəylərin "sinfi bərabərliyi", yerlərdə torpaq sahiblərinin xeyrinə bəhrə verilməsi aqrar qanunun Parlamentdə uğursuzluğuna səbəb olurdu.Azərbaycanın Rusiya ilə əlaqələrinin kəsilməsi

iqtisadi böhrana səbəb olmuşdur. Rus sənayesindən ayrılma, kağız pulların dəyərdən düşməsi və s. azərbaycanlıların natural təsərrüfata qayıtmağa məcbur edirdi. Pçelin tədqiqat işinin yekununda Azərbaycan kəndlisinin torpaq və su uğrunda qələbəsini diqqətə çatdırır [5, s.25].

*Nəticə.* Beləliklə, sonda ümumiləşdirmə apararaq deyə bilərik ki, AXC-nin aqrar siyasəti və bu sahədə görülən işlər sovet tarixşünaslığında belə əks olunur ki, hökumət bu məsələnin həllində mülkədarların mənafeyini daha üstün tuturdu. Mövcud olduğu illər ərzində aqrar məsələnin həllinin yubadılmasında AXC Hökuməti səbəb kimi göstərilir. Azərbaycan qəzalarında kəndlilər tərəfindən aqrar böhranlar xarakterizə edilərək bildirilir ki, Hökumət burada da mülkədarlara kömək göstərir. Qəzalardan kəndlilərin onların mülklərinə ziyan vurub dağıdılması şikayətlərinə dərhal reaksiya verilməsi bir daha Hökumətin mülkədarların tərəfindən çıxış etməsinə sübüt kimi gətirilir. Doğrudur, sovet tarixşünaslığında 1918-1920-ci illərdə Azərbaycan kəndində mövcud sinfi ziddiyyətlər qabardılmışdır. Lakin buna baxmayaraq, sovet tarixşünaslığında AXC Azərbaycan xalqının milli dövləti kimi qiymətləndirilmirdi, ona sinfi mövqedən qiymət verilirdi. Bu səbəbdən Milli Hökumətə münasibətdə qeyri-obyektivlik özünü göstərirdi. AXC aqrar məsələni həll edə bilməsə də, onun bu məsələnin həlli üçün etdiyi cəhdlər diqqətdən kənarda qalırdı.

## ƏDƏBİYYAT

1. Ağayev M. Müsavatın aqrar siyasəti. Bakı, Azərnəşr, 1930, 64 s.
2. İbrahimov Z., Tokarjevski Y.A. 1920-ci illərdə və 30-cu illərin əvvəllərində Azərbaycan sovet tarixşünaslığı məsələsinə dair // Azərbaycan SSR EA Tarix İnstitutunun əsərləri, XVII cild. Bakı, 1966.
3. İbrahimli X. Azərbaycan siyasi mühacirəti (1918-1991). Bakı, Elm,1996, 304 s.
4. Rathauzer Y. Şura Azərbaycanı uğrunda mübarizə. Aprel inqilabı tarixinə dair. Çevirən H.Ə.Axundov. AK(b)F MK və Bakı Komitəsinin Firqə Tarixi Şöbəsi. Bakı, Azərnəşr, 1929, 116 s.
5. Пчелин Н. Крестьянский вопрос при Мусавате (1918 – 1920). Баку, АзГНИИ, 1931, 62 s.

**LAMIA SULTANOVA**
*Doctoral student at the Institute of History*
*Of the National Academy of Sciences of Azerbaijan*

## AGRARIAN POLICY OF THE AZERBAIJAN DEMOCRATIC REPUBLIC OF XX CENTURY 20-30S IN SOVIET HISTORIOGRAPHY

Despite numerous studies conducted in recent years, the study of the history of the Azerbaijan Democratic Republic remains one of the urgent problems of national historiography. The article touches on the agrarian problem in the Azerbaijani village of Soviet historiography in the 1920s and 1930s.

*Key words:* Azerbaijan Democratic Republic, nobleman, peasant, agrarian reform.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 07 yanvar 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 06 yanvar 2021-ci il.*
*Rəyçilər: t.ü.f.d. R.Rüstəmov, t.e.d. Anar İsgəndərov.*

**UOT 94**

**ARƏŞ İFTİXARİ**
*Azərbaycan MEA-nın Tarix İnstitutunun*
*aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru*
**E-mail: arasheftekhari@yahoo.com**

# İRAN TARİXŞÜNASLIĞINDA ERMƏNİLƏR VƏ ERMƏNİSTANIN YERİ MƏSƏLƏSİNƏ DAİR

*İran tarixşünaslığında ermənilərin fəaliyyəti və ermənilər haqqında yazılmış əsərlərin nəşrinə təxminən XX əsrin əvvəllərindən start verilmişdir. Əsrin sonlarında regionda baş vermiş hadisələrin təsiri nəticəsində İran-Ermənistan əlaqələri strateji səviyyəyə çatdırılmış və inkişaf etdirilmişdir. O, səbəbdəndir ki, İslami dövlətin hərtərəfli himayəsi altında aktiv şəkildə fəaliyyət edən ermənilərin və erməni lobbisinin apardıqları antitürk və antiazərbaycan fəaliyyətləri get-gedə artmışdır. Belə ki, onların Azərbaycana qarşı fəaliyyətləri üçün çox əlverişli şərait yaradılmışdır. Məqalədə İran tarixşünaslığında ermənilərə və Ermənistana dair nəşr olunmuş əsərlərin mahiyyəti şərh və təhlil olunur.*

*Açar sözlər:* İran tarixşünaslığı, Ermənistan, Azərbaycan, erməni mətbuatı.

*Giriş.* Qədim mənbələrdə dərc olunmuş armen, ərmən və ərminiyyə kimi terminlərin müasir erməni xalqına nə qədər aid olub olmadığı məsələsi və ermənilərin etnik mənsubiyyəti, mədəniyyəti, ərazisi və siyasi tarixi haqqında irəli sürülən mübahisəli və saxta iddiaların nəşri, bu sahədə fəaliyyət göstərən tarixçilərin diqqətini özünə daha artıq cəlb etmişdir [3]. Tarixçi Y.Mahmudov Aşşur mixi yazılarına, Bisütun kitabəsinə, Herodotun tarixinə, Ksenofontun Anabasis əsərinə və Strabonun coğrafiya əsərinə istinad edərək, ermənilərin mənşəyi, kimliyi, Kiçik Asiyaya nə vaxt və haradan gəlmələri, ermənilərin qədim Urartu irsinə sahib çıxmaq iddiaları, hazırda daşıdıqları «erməni» adı, «Böyük Ermənistan» və «Erməni yaylası» coğrafi anlayışları barələrdə geniş məlumatlar vermişdir [1]. Əsərdə qeyd olunur ki, "Çağdaş dünyanın bir acı həqiqəti də budur ki, erməni millətçiləri öz xalqını tarixdə heç zaman olmamış «Böyük Ermənistan» xülyasına inandırmaqda davam edir, böyük güc mərkəzləri isə bu xülyanın baş tutmayacağını bilə-bilə özlərinin regional maraqları naminə «erməni kartından» istifadə edirlər. Nəticədə Cənubi Qafqaz beynəlxalq gərginlik ocağı olaraq qalmaqda davam edir" [1, s.9-10].

XIX əsrin əvvəllərindən başlayaraq, Gülüstan, Türkmənçay və Edirnə sülh müqvilələrindən sonra ermənilərin Qacar İranından və Osmanlı imperiyasından Azərbaycan ərazilərinə köçürülməsi üçün əlverişli şərait yaradılmışdır. XX əsrin hadisələri, xüsusi ilə də I dünya savaşından sonra gündəmə gətirilmiş erməni məsələsi və Ermənistan Respublikasının yaradılması mövzuları bir mənalı olaraq, beynəlxalq münasibətlər sistemində ermənilərin rollarının artmasına səbəb olmuşdur. Nəticədə erməni etnosunun tarixi, coğrafiyası, dili, dini, mədəniyyəti və onların tarixi hadisələrdə oynadıqları rolları kimi mövzular alimlərin diqqətini cəlb etmiş və bu kiçik xalqın iddiaları ilə bərabər onların iddialarına qarşı aparılmış elmi tədqiqatların həcmi artmışdır.

Qeyd edək ki, Xristian Qərb dünyası hələ xaç yürüşləri dövründən müsəlman Şərq dünyasına qarşı istilaçılıq siyasətlərinə və hərbi təcavüzlərinə başlamışlar. Həmin istiqamətdə ermənilərin Osmanlı, Səfəvi və Qacar dövlətlərinə qarşı xəyanətləri, 1905-1906-cı və 1918-ci illər Azərbaycanın şimal və cənub ərazilərində törədikləri cinayətləri, Daşnaksutyun terror təşkilatının İran təmsilçisi Yeprem Xanın Səttar Xana və Məşrutə inqilabına qarşı xəyanətləri, Məhəmməd Rza Pəhləvi ilə erməni terror təşkilatlarının yaxın münasibətləri və nəhayət 1990-cı ildən başlanmış İran-Ermənistan strateji əlaqələri kimi əhəmiyyətli məsələlər, mütəxəssislərin diqqətini özlərinə cəlb edən əhəmiyyətli mövzulardan hesab edilir. Bu sahədə ermənilərin törədikləri cinayətlərə ən çox məruz qalmış Azərbaycan xalqını təmsil edən Azərbaycan alimlərinin dəyəri əsərlərinin rolu danılmazdır. Belə ki, bu əsərlərdə bir mənalı olaraq, ermənilərin həqiqi tarixi öz əksini tapmışdır [1, s.125-126].

İranda XX əsrin əvvəllərindən etibarən ermənilər haqqında məhdud şəkildə nəşr edilmiş əsərlərin mahiyyəti əsasən tarixi, ədəbi, mədəni və siyasi mövzulara həsr edilmişdir. Lakin XX əsrin sonlarında Azərbaycan ərazilərində qızışdırılmış erməni separatçılığı və Ermənistanın Azərbaycan

ərazilərinə hərbi təcavüzü nəticəsində İran tarixşünaslığında erməni amili və Ermənistan dövlətinə dair məsələləri əks etdirən əsərlərin nəşrinə böyük təkan vermişdir.

Qeyd edək ki, məsələnin beynəlxalq müstəvisini də nəzər salmaq vacibdir. Belə ki, Qafqaz regionunda hər hansı bir layihənin uğurla başa çatması ancaq Rusiyanın razılığından asılıdır. Bu onu göstərir ki, Rusiya Federasiyası köçmüş SSRİ-nin hegemonluğunu yenidən bərpa etməyi əsas məqsəd kimi nəzərdə tutmuşdur [4, s.1-6]. Həmçinin Rusiya Federasiyasının Qafqaz siyasəti Qərbin, xüsusilə ABŞ-ın regional nüfuzunun azaltmaqdan və yaranmış strateji balansı qorumaqdan ibarətdir [39, s.6]. Bu arada aparıcı dövlətlərin regional siyasətlərinə müxtəlif dərəcəli tabe olan region ölkələrinin daxili və xarici siyasətlərinin görünməyən cəhətləri də böyük əhəmiyyət kəsb edir. Qafqaz regionunda gedən əhəmiyyətli proseslər əsasən müsəlman və türk dünyasının strateji məkanlarının birində yaradılmış Ermənistanı bir təbii və zəruri müttəfiq kimi İrana yaxınlaşdıraraq, İranın regional planlarında erməni amilinin əhəmiyyətinin artmasına səbəb olmuşdur. Bütün bu kimi məsələlər İran tarixşünaslığında öz əksini tapmışdır.

*İran tarixşünaslığının mahiyyəti*. İran tarixşünaslığı mahiyyət etibarı ilə özünəməxsus tarixə, konsepsiyalara və istiqamətlərə malikdir. Belə ki, bu konsepsiyalar müxtəlif cərəyanlara (İran rəsmiləri, ermənilər, paniranistlər, şovinistlər, millətçilər, şahçılar, solçular, feministlər, sekularlar, liberallar, fedralçılar və separatçılar) mənsub əsərlərdə müxtəlif dərəcələrdə öz əksini tapmışdır. Lakin bu əsərlərin mahiyyəti heç də bir mənalı qarşılanmır. Belə ki, mütəxəssislərin fikrincə müasir Qərb tarixçilərinin təşəbbüsü ilə əsası qoyulmuş İran tarixşünaslığına aid əsərlərdə qəsdən böyük təhriflərə yol verilmişdir [15, s.24-29]. Qeyd edək ki, Qərb alimlərinin tarixi əsərlərində İran tarixinə dair irəli sürülmüş elmi iddialarla bərabər nəşr edilmiş qərəzli və səf fikirləri də əsasən sonralar ərsəyə gəlmiş İran müəlliflərinin istinad etdikləri yeganə mənbələr kimi elmi dövriyyəyə cəlb edilmişdir. Nəticədə yerli və xarici tarixçilər tərəfindən təkrar olunmuş iddiaların nəşri genişləndirilmiş və İrana məxsus tarixşünaslığın bazası yaradılmışdır.

Xatırladaq ki, İrana tarixşünaslığı mövzusu əslində 1921-ci ildən 1926-cı ilədək Qacardan Pəhləviyə keçid dövrdə və ondan sonra ölkənin hakimiyyətini ələ keçirmiş millətçi, irqçi, irançı və şovinist-fars qüvvələrin irəli sürdükləri qərəzli siyasətlərinin bətnində formalaşmışdır. Bu ideoloji və siyasi məktəb tamamilə XX əsrin əvvəllərində milli dövlət formasında yaradılmış İranın tarixini və ideoloji əsaslarını özündə əks etdirir. Belə ki, yeni məfkurələr sonralar hakimiyyətə gətirilmiş Məhəmməd Rza Şah Pəhləvinin (1941-1979) və İran inqilabından sonra yaranmış İslam Respublikası dövrlərində oturuşmuş və inkişaf etdirilmişdir. İran tarixçisi M. Tərəfdarı İran tarixşünaslığı haqqinda yazır ki, "Rza Şahın hakimiyyəti dövründə Avropanın dəstəklədiyi modern dövlət və milli iqtidar prinsiplərinin adı altında irəli sürülmüş millətçilik, farsçılıq, qədimlilik və qeyri-farsların məhvi siyasətləri irəli sürülmüş və həyata keçirilmişdir" [33, s.219-225].

XX əsrin sonlarında Azərbaycanın Dağlıq Qarabağ ərazilərində yaradılmış separatçılıq hərəkətləri və Ermənistanın Azərbaycan ərazilərinə hərbi təcavüzü məsələləri İran tarixşünaslığında yenidən ermənilərin gündəmə gətirilməsinə səbəb olmuşdur. Ermənilərin separatçı hərəkətləri ilk öncə Azərbaycan Respublikasının və SSRİ-nin daxili problemi hesab edilirdi. Lakin erməniləri himayə edən dövlətlərin iştirakı ilə Ermənistanın Azərbaycan ərazilərinə hərbi təcavüzü həyata keçirilmişdir. Münaqişə haqqında xarici ölkələrin tutduqları mövqeləri problemi ölkə daxili səviyyədən regional və beynəlxalq səviyyəyə gətirib çıxartdı. Bu arada Azərbaycan Respublikasının cənub qonşusu İran İslam Respublikasının daxili və xarici siyasətindən qaynaqlanan İranın Ermənistan siyasəti və ermənilərə olan münasibəti bir siyasi zərurət kimi hədəf götürümüşdür. Lakin İİR-nın Qafqaz siyasətində irəli sürdüyü ikili standart siyasəti və qeyri-şəffaf mövqeyi heç də bir mənalı qarşılanmır. Bütün bu məsələlərdən irəli gələn mürəkkəb və qeyri-obyektiv mövqelər tamamilə İran tarixşünaslığında və mətbuatında öz əksini tapmışdır.

Xatırladaq ki, İran-Azərbaycan əlaqələrini şərtləndirən bir sıra strateji məsələlər mövcuddur ki, bir başa İranın ermənilərlə münasibətində təyin edici rola malikdir. İİR-nın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair tutduğu mövqeyi, İran mühitində yaşayan 35 milyona yaxın azərbaycanlının siyasi-mədəni tələbləri, Xəzər Dənizi hövzəsində yaranmış məsələlər, böyük Turan ideyası, türkçülük və vahid Azərbaycan mövzuları, Azərbaycanın ABŞ, Türkiyə və İsrail əlaqələri, Rusiyanın Ermənistan və İranla strateji əlaqələri, NATO-nun Şərqə doğru genişlənməsi,

Azərbaycan Respublikasının enerji ehtiyatları və layihələri, Qafqazın tranzit əhəmiyyəti, terrorizm, separatçılıq və radikal dinçilik kimi önəmli məsələlər bir başa İranın daxili və xarici siyasətində Ermənistan Respublikasının və erməni amilinin strateji əhəmiyyətini artmışdır. Bütün bu məsələlər bilavasitə İİR-nın dövlət suverenliyi, milli mənafeyi və təhlükəsizliyi ilə tam əlaqədardır [8, s. 277-280].

İran tarixşünaslığında Azərbaycan tarixinin konseptual məsələlərinə dair tədqiqat aparan tarixçi E.Medetli bu haqda yazır ki, "Azərbaycan tarixini saxtalaşdırmağı özünə peşə seçən İranlı tarixçi-şovinistlər təkzibolunmaz ilk mənbələrlə, real tarixi həqiqətlərlə hesablaşmadan ərəb xilafətinin süqutundan sonra Azərbaycan və İran torpaqlarını, habelə digər qonşu ölkələri idarə edən bütün Azərbaycan-türk sülalələrini, o cümlədən səfəviləri, əfşarları, qacarları, bu sülalələrin görkəmli nümayəndələri olan Şah İsmayıl Xətaini, Şah Təhmasib Səfəvini, Şah Abbas Səfəvini, Nadir şah Əfşarı, Ağa Məhəmməd şah Qacarı və başqa Azərbaycan-türk hökmdarlarını da İran-fars hökmdarları kimi qələmə verməkdən çəkinmirlər" [2, s.3].

Xatırladaq ki, Qacar dövrünün sonlarında əsası qoyulmuş İran tarixşünaslığının formalaşmasında ermənilərin də rolları olmuşdur. Nasirəddin Şahın oğlu Sam Mirzənin Fransa dili müəllimi erməni Mirzə Yaqubun ölkədə yaratdığı "Fəramuşxana" adlı birinci mason təşkilatı və şahın digər oğlu Cəlaləddin Mirzə Qacarı, o təşkilata formal şəkildə başçı təyin etdiyi, Həmçinin M.Yaqubun öğlu Mirzə Məlkəmxanın ictimai-siyasi fəaliyyətləri öz yerində İran tarixşünaslığına böyük töhfələr vermişdir.

İran tarixşünaslığının konsepsiyalarına əsasən erməni xalqı ari irqinə mənsubdur, tarixən "Ermənistan" dövləti mövcud olmuşdur və erməni dili isə Hind-Avropa dillər qrupunun İran dilləri cərgəsinə aid edilir. İranda farslarla ermənilərin eyni kökdən olduqları, onların ortaq mədəniyyətə malik olduqları və müştərək mənafelərinin olduğu daima təbliğ edilir. Onlar düşmən hesab etdikləri türklərə qarşı müştərək cəbhədə mübarizə aparırlar. Bu istiqamətdə Azərbaycan müsəlmanlarına qarşı fəaliyyət göstərən müsəlman İran dövləti ilə ermənilərin strateji tərəfdaşlığı heç bir məntiqə sığmır.

*İran tarixşünaslığında erməni amili və Ermənistan*. İranda ermənilərə dair müxtəlif mövzularda nəşr edilmiş əsərlərin əksəriyyəti bir başa Azərbaycan tarixinin konseptual məsələləri ilə tam əlaqədardır. Qeyd edək ki, XX əsrin sonlarında Azərbaycanda baş vermiş hadisələrlə əlaqəli olaraq, İran tarixşünaslığında antitürk və antiazərbaycan mahiyyəti daşıyan əsərlərin həcmi kifayət qədər artmışdır. İran tarixşünaslığının konsepsiyalarına əsasən Azərbaycan tarixinin təhrifi ilə məşğul olmuş şovinist-fars tarixçilərin əsərləri bir mənalı olaraq, erməni dövlətçiliyini dəstəkləyən və onların maddi-mənəvi mənafeyini təmin edən əsərlər sırasında yerləşir.

Qeyd edək ki, XX əsrin sonlarında SSRİ-də baş vermiş ictimai-siyasi hadisələrlə əlaqədar olaraq, İran tarixşünaslığında nəşr olunmuş antitürk və antiazərbaycan əsərlərin həcmi kifayət qədər artmışdır. Bu sahədə yazmış ilkin müəlliflərdən M.Ə.Foruğinin [36], Ə.Kəsrəvinin [43], A.Aştiyaninin [9], H.Tağızadənin [6], F.Adəmiyyətin [23], H.Pirniyanın [19], M.Əfşarın [7], Ə.Kaviyanpurun [42], C.Fəqihin [37], M Mürtəzəvinin [46], İ.Əfşarın [30], P.Vərcavəndin [55], İ.Rzanın [28], İ.Rainin [27], M.Nəvayinin [49], Ə Karəngin [41], Ə.Nurizadənin [50], Y.Əskəriye Nəminin [34], K Bayatın [14], B.Əmirəhmədiyanın [11] və b. müəlliflərin əsərlərində Azərbaycan həqiqətlərinə qarşı nəşr etdikləri qərəzli iddiaları istər-istəməz erməniləri dəstəkləyir və onların söykəndiyi və istinad etdikləri əhəmiyyətli mənbələrdən hesab edilir.

Misal üçün Azərbaycan həqiqətlərinin təhrifini özünə peşə seçmiş İ.Rzanın əsərlərində Azərbaycanın tarixi coğrafiyasına, dövlətçilik tarixinə və maddi-mədəni dəyərlərinə qarşı aparılan qərəzli fikirlər bir başa ermənilərin mənafeyinə qulluq edir [28, s.34]. Yaxud İ.Rain öz əsərlərində, o cümlədən "ermənilərin soyqırımı" və "komonder Yepriem Xan" kitablarında tamamilə ermənilərə haqq qazandırmağa cəhd göstərmişdir. İ.Rain ermənilər tərəfindən iddia olunan soyqırıma məruz qalmış ermənilərin sayını 2,377,027 nəfərə qaldırmaqla erməniləri də irəliləmişdir [ 29, s.63].

İranda antiazərbaycan fəaliyyətləri ilə məşğul olan ermənipərəst müəlliflərin və təşkilatların siyahısı çox genişdir. 1962-ci ildən milli birlik və vətən naminə fəaliyyətə başlamış və panfarsist mövzuların təbliği ilə məşğul olan İrəc Əfşarın başçılıq etdiyi "بنیاد موقوفات دکتر محمود افشار" (Doktor Mahmud Əfşarın vəqfləri fondu) adlı təşkilatın nəşr etdirdiyi yüzlərlə kitab və məqalələri də xeyli

əhəmiyyətlidir. Təşkilatın nəşr etdirdiyi bütün əsərlərdə bir mənalı olaraq, antitürk, antiazərbaycan, antiislam, irançılıq və ermənipərəstlik ideyaları təbliğ edilir [30].

Bu sadədə fəaliyyət göstərən digər qurum, Firiydun Cüneydinin başçılıq etdiyi "بنیاد نیشاپور" (Nişapur fondu) və fonda məxsus "Bəlx" adlı nəşriyyatın yaydığı əsərlər diqqəti çəkir. Fondun indiyədək nəşr etdirdiyi onlarla kitab və məqalələrində antitürk, panfarsizm, ermənipərəstlik və antiazərbaycan ideyaları qabarıq şəkildə təbliğ edilmişdir [21].

İran mühitində erməni məsələsinin təbliği ilə bir başa məşğul olan İran və dünya ermənilərinin nəşr etdirdikləri əsərlərin mahiyyəti və məzmunu çox əhəmiyyətlidir. Bu dırnaq arası əsərlər tamamilə Azərbaycan xalqına və türk dünyasına qarşı yönədilmişdir və uydurmalarla doludur. Xatırladaq ki, ermənilərə məxsus əsərlərin nəşri ilə bərabər fars şovinistləri ilə ermənilərin birgə fəaliyyətləri nəticəsində nəşr edilmiş yüzlərlə kitab və monoqrafiyaları daha artıq diqqəti cəlb etmişdir. Bütün bu kimi əsərlərdə tamamilə erməni amili və Ermənistan ın mənafeyi təbliğ edilir. Erməni müəllifliləri M.Xorninin [24], H.Pasdermaciyanın [17], S.Avanasiyanın [12], Q.Sarkesiyanın [18], F.M.Vartapetin [38], R.Huvansiyanın [51], H.Kaçaznuninin [40], A.Padmageriyanın [16], Ş.Huspiyanın [52], İ.Yunansiyanın [58], A.Huyanın [53], K.Xanlarının [57], R.Markariyanın [45], Sebeus tarixi [20], R.Qalıçiyanın [44], L.Məlkəmiyanın [48], H.M.Hakupiyanın [25], J.Elçibəgiyanın [22], R.Arakeliyanın [5] və b. əsərləri erməni uydurmalarını təbliğ edən məşhur əsərlərdən hesab edilir. Bu əsərlərdə bir sıra əhəmiyyətli məsələlər, o cümlədən ermənilərin İran mühitində apardıqları antitürk və antiazərbaycan fəaliyyətləri və İranla Ermənistan arasında mövcud olan strateji əlaqələri öz əksini tapmışdır.

İran tarixşünaslığında ermənilərin təbliği ilə məşğul olan digər əhəmiyyətli mənbə bazası təxminən XX əsrin əvvəllərindən bu günədək erməni icmaları tərəfindən davamlı yaxud davamsız şəkildə Tehranda, Təbrizdə, İsfahanda, Abadanda və b. şəhərlərdə nəşr edilmiş 100-dan artıq qəzet və jurnallarından ibarətdir [13]. Hal hazırda İran ermənilərinin dini və ictimai təşkilatları tərəfindən erməni dilində nəşr edilən kitablar və jurnallardan əlavə fars dilində də kifayət qədər kitabları, jurnalları, tərcümələri və qəzetləri nəşr edilir. İran inqilabından öncə fəaliyyətə başlamış "هور " (Hur) adlı dərgisinin redaksiya heyəti bu gün İran İslam Respublikası dövründə fəaliyyət göstərən ermənilərin böyük bir antiazərbaycan və antitürk mərkəzinə çevrilibdir. 1980-cı ildən fəaliyyətə başlamış Hur adlı tədqiq və tərcümə müəssisənin təşəbbüsü ilə keçirilən yüzlərlə müxtəlif toplantılardan və nəşr edilmiş kitablardan əlavə ildə 4 dəfə nəşr olunan 50 saydan artıq "پیمان" (Peyman) jurnalında yüzlərlə antiazərbaycan məqalələr çap edilmişdir. Həmçinin "Alik" qəzeti, "Hooys" jurnalı və əvvəllər Araz adı ilə nəşr edilmiş sonralar "آراکس" (Araks) adlandırılmış qəzet və eyni adlı jurnalda nəşr edilmiş məqalələr, o cümlədəndir. Həmçinin bu barədə İranda erməni tarixçilərinin Azərbaycan tarixinə, Dağlıq Qarabağ münaqişəsinə və Ermənistan tarixinə dair tərcümələri və çap etdirdikləri yazıları da diqqət mərkəzində olmuşdur.

İran tarixşünaslığında ermənilərin məşğul olduqları ən əhəmiyyətli sahələrdən biri də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair nəşr etdikləri kitab və məqalələrindən ibarətdir. Bu dırnaq arası əsərlər tamamilə Azərbaycana qarşı yönədilmişdir və uydurmalarla doludur. Ermənilərin fars şovinistləri ilə bərabər İranda nəşr etdirdikləri yüzlərlə əsərdən əlavə onlara məxsus jurnal və qəzetlərdə dərc olunmuş qərəzli iddialar da diqqəti çəkir.

Misal olaraq, İ. Yunansiyanın Tehranda tərtib və nəşr etdirdiyi "Arsax (Qarabağ) məsələsi" kitabında topladığı məqalələrin başlıqlarından kitabın əsl mahiyyəti aydın olur. Kitabın tərtibatçısı "Qafqaz Albaniyası, Aran, yaxud indiki Azərbaycan Respublikası", "Ermənilərlə tatarların toqquşması və Bakı ermənilərinin öldürülməsi (1905-1906)", "Azərbaycan Respublikasında ermənilərin etnik təmizlənməsi və öldürülməsi (1988-1990)", "Qarabağ müharibəsi və onunla əlaqədar hadisələr" və "Anti-ermənilik, Azərbaycan Respublikasının təbliğat silahı" adlı məqalələrdə uydurmalar əsasında qoşduğu fikirlərini irəli sürməyə cəhdlər göstərmişdir [57].

Yuxarıda adları çəkilən əsərlərin müəllifləri Azərbaycana qarşı irəli sürdükləri iddialarını sübut etdirmək üçün qədim mənbələrdən və orta əsrlərə aid ərəb mənbələrindən seçilmiş hissələrə istinad edərək, qərəzli əsərlər nəşr etdirmişlər. Bu əsərlərdə iddia olunmuş fikirlər və istinadlar bir qayda olaraq, sonrakı müəlliflər tərəfindən təkrar edilmişdir.

İran tarixşünaslığında mövcud olan qərəzli əsərlərin çoxluğuna baxmayaraq, Azərbaycan həqiqətlərinni əks etdirən və ermənilərin iç üzlərini ifşa edən müstəqil tədqiqatçılara aid əsərlər dənəşr olunmuşdur. Bu əsərlər sayca az olsa da mahiyyət etibarı ilə mövcud olan tarixi faktlar əsasında yazılmışlar. Bu kitablar və məqalələrdə ümumiyyətlə tarixi baxımdan indiki Ermənistan Respublikası və Dağlıq Qarabağ ərazisi qədim Azərbaycan torpaqları tərkibində təqdim olunur. Habelə ermənilərin bu torpaqlarda necə yerləşdirilməsi və indiyədək qəsb edilmiş ərazilərdə törədikləri cinayətləri şərh olunur. Tarixçilər C.Heyətin [54], M.Zöhtabinin [31], S.Sərdariniyanın [32], R.Rəisniyanın [29], M.Fərzanənin [35], Z.Vəfainin [56] və başkalarının nəşr etdirdikləri kitab və məqalələri bu sahədə mövcud olan boşluqları qismən də olsa doldura bilmişdir.

*Nəticə*. Şübhəsiz ki, İran İslam Respublikasının siyasi, iqtisadi, mədəni və dini konsepsiyaları onun dövlətçiliyinin əsasını təşkil edən milli mənafeləri üzərində qurulmuşdur. Pəhləvilər dövründən fərqli olaraq, İndiki şəraitdə İran dövləti öz regional nüfuzunu artmaq və siyasi-iqtisadi və mədəni təcriddən çıxmaq üçün yaxın qonşuları ilə çox cəhətli münasibətlər qurmağa can atır. Lakin apardığı xarici siyasətinin əsas prinsiplərinə uyğun olmayaraq, onun milli və dini siyasətlərində ikili standartlar müşahidə olunur. Bu məsələnin bariz nümunəsi İran tarixşünaslığında öz əksini tapmış Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair İran dövlətinin tutduğu həqiqi mövqeyidir.

O, səbəbdəndir ki, İranın Qafqaz siyasətini şərtləndirən strateji amilləri və İranın xarici siyasətinin əsas istiqamətlərini nəzərə alaraq, onun milli və dini prinsiplərini üst-üstə düşməməyi müşahidə olunur. İran İslam Respublikası məcburiyyət qarşısında qalaraq, ölkədə və Qafqazda inkişaf etməkdə olan türkçülük və vahid Azərbaycan mövzularına qarşı Ermənistan və Rusiya Federasiyası ilə strateji səviyyədə əməkdaşlıq etmək məcburiyyətində qalmışdır. Bütün bu kimi mövzular İran tarixşünaslığında öz əksini tapmışdır.

## ƏDƏBİYYAT


1. Mahmudov Y. Real tarix və «Böyük Ermənistan» uydurması. Bakı, Turxan NPB, 2014, 144 s.
2. Mədətli E. Azərbaycan həqiqətləri İran tarixşünaslığında. Bakı, Təhsil, 2011, 272 s.
3. Mustafa N., Qurbanov A., Əlili E. Erməni saxtakarlığı yalan üzərində qurulan tarix. Bakı, “VANUR POLİQRAF” MMC, 1918, 269 s.
4. Vitaly Naomkin. Russia and Great Middle East: partner or competitor. Policy watch, № 317, 28.5.1998, p.1-6.

5. آراکلیان رافی. هاکوپیان تاتول. مدارک مستند از وقایع خوجالو و ماراقا, فصلنامهٔ فرهنگی پیمان, شمارهٔ 59, 1391.
6. افتخاری روزبهانی علی. معمای تقی زاده، نشر الکترونیک خانه کتاب و تاریخ ایران، www.ketab.ir.1394
7. افشار محمود. مطلوب ما: وحدت ملی ایران، مجلهٔ آینده، سال اول، شمارهٔ اول، تیر 1394.
8. افشردی محمدحسین. ژئوپولیتیک قفقاز و سیاست خارجی جمهوری اسلامی ایران, تهران، دانشکده فرماندهی و ستاد سپاه, چاپ اول, 1381، 511 ص.
9. اقبال آشتیانی عباس. تاریخ مغول از چنگیز تا تشکیل دولت تیموری، تهران، امیر کبیر، چاپ نهم، 1388، 624 ص.
10. آگاتانغوس. تاریخ ارمنیان، ترجمه گارون سارکسیان، تهران، نشر نائیری، 1397، 192 ص.
11. امیراحمدیان بهرام. روابط ایران و جمهوری آذربایجان (نگاه آذریها به ایران), تهران, دفتر مطالعات سیاسی و بین المللی, 1384, 499 ص.
12. آوانسیان سرژ. ارمنستان آذربایجان گرجستان: از استقلال تا برقراری رژیم شوروی, تهران, معین, 1370، 323 ص.
13. بگلریان آرمن. مطبوعات ارمنی زبان ایران، فصلنامه فرهنگی پیمان، شماره 5 و 6، سال دوم، 1376 .
14. بیات کاوه. بحران قره باغ, تهران, انتشارات پروین, 1372, 155 ص.
15. بیگدلو رضا. شرقشناسی و روشنفکری، اطلاعات حکمت و معرفت، سال 6، شماره یک، فروردین 1390، صص 24-29.
16. پادماگریان الکساندر، آغاسی گیر. تاریخ سیاسی و اجتماعی ارامنه، تهران، نشر سازمان فرهنگی پاد، 1352.
17. پاسدرماجیان هراند. تاریخ ارمنستان، ترجمه محمد قاضی، تهران، نشر زرین، چاپ دوم، 1377، 556 ص.
18. پاوستوس بوزند. تاریخ ارمنیان، ترجمه گارون سارکسیان، تهران، نشر نائیری، 1397، 320 ص.
19. پیرنیا حسن. ایران باستان یا تاریخ مفصل ایران قدیم، 3 جلد، چاپ اول، تهران، مطبعه مجلس، 1313، 2722 ص.
20. تاریخ سبئوس. بر پایه ترجمه آر.دابلیو. تامسون در مقابله با نسخه رابرت پتروسیان، ترجمه محمود فاضلی بیرجندی، تهران، انتشارت ققنوس، 1396، 311 ص.

21. جنیدی فریدون. زندگی و مهاجرت آریائیان بر پایه گفتارهای ایرانی، تهران، انتشارات بلخ، 1391، 312 ص.
22. الچیبگیان ژاسمن. ارمنستان و سلوکیان، ترجمه گارون سارکسیان، تهران، نائیری، 1382، 161 ص.
23. خادم آدم ناصر. اندیشه ها و آثار دکتر فریدون آدمیت، اطلاعات سیاسی-اقتصادی، شماره 247-248، ص 20-27.
24. خورن موسی. تاریخ ارمنستان، ترجمه ابراهام آواسپیان، اراک، روزنامه افق، 1331، 40 ص.
25. رافی (هاکوپ ملیک هاکوپیان). ملوک خمسه، تهران، شیرازه، 1385، 208 ص.
26. رائین اسماعیل. قتل عام ارامنه، تهران، چاپ حیدری، 1351، 274 ص.
27. رائین اسماعیل. یپرم خان سردار، تهران، موسسه تحقیق رائین، چاپ دوم، 2535، 536 ص.
28. رضا عنایت الله. آذربایجان و اران (آلبانیای قفقاز)، تهران، نشر ایران زمین، 1360، 259 ص.
29. رئیس نیا رحیم. آذربایجان در سیر تاریخ ایران، از آغاز تا اسلام. جلد اول، دوم و سوم، تبریز: انتشارات مبنا، چاپ سوم، 1376، 1936 ص.
30. زبان فارسی در آذربایجان. در بر گیرندهٔ بیست و هفت مقاله از نوشته های دانشمندان و زبانشناسان، گردآوری ایرج افشار، تهران، بنیاد موقوفات افشار، چاپ اول، 1368، 520 ص.
31. زهتابی محمد تقی (کیریشچی). ایران تورکلرینین اسکی تاریخی. جلد یک، تبریز: 1377 (1998)، 880 ص.
32. سرداری نیا صمد. ایروان یک ولایت مسلمان نشین بود, تهران, نشر زوفا, 1380, 238 ص .، ضیاالدین سلطانف. جنگ قره باغ، ترجمه صمد سرداری نیا، تبریز، نشر مشترک هاشمی و اختر، 1384، 152 ص .
33. طرفداری محمد علی. اوهام تاریخی مقدس، ماهنامه سوره، شماره 50-51، 1389، صص225-219 .
34. عسگری نمین یحیی. ارمنستان در نگاه جهانگردان شرق و غرب، تهران، نشر کوه سنگر، 1395، 332 ص.
35. فرزانه محمد علی. سالهای سپری شده، به کوشش صدیقه عدالتی، قم، انتشارات آوای منجی، 1396، 488 ص.
36. فروغی محمدعلی. نحوهٔ تدریس زبان فارسی در آذربایجان، مجلهٔ یغما، سال 1306، صص 318-316.
37. فقیه جمال الدین. آتروپاتکان (آذربایجان) و نهضت ادبی، تهران، کتابفروشی علمیریا، 1346
38. فوماتسو متسوپی وارتاپت. ارمنستان در زمان تیمور لنگ، ترجمه ح. صدیق، تبریز، کتاب ساوالان، 1357، 87 ص.
39. قنبرلو عبدالله. بحران قره باغ و بازی قدرتهای خارجی در آن، تهران، پژوهشکده مطالعات راهبردی، 1389.
40. کاچازنونی هوانس. گزارش اولین نخست وزیر ارمنستان به کنفرانس حزب داشناک، ترجمه سجاد زینالی، تهران، نشر بوتا، چاپ اول، 1394، 148 ص.
41. کارنگ عبدالعلی. تاتی و هرزنی دو لهجه از زبان باستان آذربایجان، تبریز، نشر اسماعیل واعظ پور، 1333، 160 ص.
42. کاویان پور احمد. تاریخ عمومی آذربایجان، تهران، انتشارات آسیا، 1346، 408 ص.
43. کسروی احمد. آذری یا زبان باستان آذربایجان، تهران، انتشارات موسسه مطبوعاتی شرق، 1309 ش، 55 ص.
44. گالیچیان روبن. جعل تاریخ آذربایجان، ارمنستان و جدال بر سر اوهام، ترجمه بابک واحدی، تهران، 1392، 176ص.
45. مارکاریان روبرت. اصول بنیادین حل مناقشهٔ قراباغ و سیاست جمهوری اسلامی ایران در قبال آن، موسسه تحقیق و ترجمهٔ هور، https://hoosk.ir.1393/5/6
46. مرتضوی منوچهر. آثار و اسناد مربوط به زبان دیرین آذربایجان، مجلهٔ دانشکدهٔ ادبیات تبریز، شمارهٔ 115، 1354، صص 479-445.
47. مسألهٔ آرتساخ (قراباغ), مجموعهٔ مقالات, به کوشش ایساک یونانسیان, تهران, نشر هَزار کرمان, 1396, 399 ص.
48. ملکمیان لینا. کلیساهای ارامنه ایران, تهران, دفتر پژوهشهای فرهنگی, چاپ دوم, 1380. 119 ص.
49. نوائی ماهیار. زبان کنونی آذربایجان، مجلهٔ دانشکدهٔ ادبیات تبریز، دورهٔ 5 شمارهٔ 1، دورهٔ 5 شمارهٔ 2، دورهٔ 6 شمارهٔ 2، دورهٔ 6 شمارهٔ 3.
50. نوری زاده احمد. تاریخ و فرهنگ ارمنستان از آغاز تا امروز، تهران نشر چشمه، 1376، 648 ص.
51. هوانسیان ریچارد. تاریخ جمهوری ارمنستان جلد1 (1919-1918)، ت آتوسا سمیعی، تهران، نشر نشانه، 1396، 610 ص.
52. هوسپیان شاهین. نگاهی مختصر به تاریخ نخجوان، فصلنامه فرهنگی پیمان، سال دوازدهم، شمارهٔ 45، 1387، ص 73.
53. هویان آندرانیک. روابط فرهنگی ایرانیان و ارمنیان, تهران, دیبا, 138, 242 ص.
54. هیئت جواد. قاراباغ فاجعه سی، وارلیق ژورنالی، سای 84-1، 1371، صص 8-5 .
55. ورجاوند پرویز. ایران و قفقاز (اران و شیروان), تهران, نشر قطره, 1378, 392 ص.
56. وفائی زهره. نام آوران آذربایجان جلد 1، تبریز، انتشارات زینب، 1378، 98 ص .
57. یونانسیان ایساک. مسألهٔ آرتساخ (قراباغ), مجموعهٔ مقالات, تهران, نشر هَزار کرمان, 1396, 399 ص.
58. یونانسیان ایساک. نسل کشی ارمنیان: ریشه ها و پی آمدها (1915-1923)، تهران، نشر ثالث، 1395، 383 ص.

**ARASH H.EFTFKHARI**
***Senior researcher of the Institute of History of the ANAS,***
***PhD in History***

## ARMENIANS AND ARMENIA IN IRANIAN HISTORIOGRAPHY

The studies about Armenians in Iranian historiography are beginning the early of twentieth century. Since the end of this century, as a result of events in the region, Iranian-Armenian relations have acquired a strategic character. It is precisely because of this that the anti-Turkic and anti-Azerbaijani activities of the Armenians under the comprehensive patronage of the Islamic state acquired large proportions. Thus, a favorable environment has been created for their activities against Azerbaijan. The article provides an overview and analysis of the works published about Armenians and Armenia in Iranian historiography.

*Keywords:* Iranian historiography, Armenia, Azerbaijan, Armenian press.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 28 oktyabr 2019-cu il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 06 yanvar 2021-ci il.*
*Rəyçilər: t.e.d. Şahin Fərzəliyev, t.e.d.Sani Hacıyev.*

**UOT 371.3**

**XOŞQƏDƏM İSLAM**
*tarix üzrə fəlsəfə doktoru,*
*Bakı Dövlət Universiteti*
**E-mail: xoshgedem- islam@rambler.ru**

**SEVIL HEYDƏROVA**
*tarix üzrə fəlsəfə doktoru,*
*Bakı Dövlət Universiteti*
**E-mail: s_heydarova@mail.ru**

# TƏHSİLİN İNFORMASİYALAŞDIRILMASINDA ŞAGİRD BACARIĞININ ÜMUMİ NƏZƏRİ MƏSƏLƏLƏRİ

*Hər bir dövlətdə elm və təhsilin inkişafında milli mədəniyyət böyük rol oynayır. Bu mənada təhsil istisna təşkil edir. Təhsil dövlətin əsas gələcəyidir. Bir xalqı məhv etmək üçün onun təhsilindən başlamaq lazımdır. Azərbaycan Respublikası müstəqilliyini bərpa edəndən sonra bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də ciddi dəyişikliklər baş vermiş və nailiyyətlər əldə olunmuşdur.*

*Açar sözlər*: təhsil, elm, məktəb, şagird, dinamik inkişaf.

*Giriş*. Təhsilin informasiyalaşdırılmasının əsas məqsədlərindən biri keyfiyyətli tədris resursları ilə təminat, müəllimlərin ixtisaslarının artırılması, təhsil alanların müstəqilliyinin, kreativliyinin, dərsə marağının yüksəldilməsi nəticəsində təhsilin keyfiyyətinin yüksəldilməsidir. Pedaqoji texnologiya təlim prosesində yeni baxışdır. Müasir texnologiya əsasında təlim prosesi ənənəvi təlimdən fərqli olaraq, maksimum idarə olunan proses hesab olunur. Dünya ölkələri İKT-nin təhsildə tətbiqini dövlətin inkişafının priotet istiqamətlərindən biri olduğunu qəbul edərək, təhsilin informasiyalaşdırılması istiqamətində konsepsiyalar hazırlayır, proqramlar qəbul edir və onları həyata keçirir.

*Təlim texnologiyasının tarixi və əsas informasiya prosesləri.* Təlim texnologiyasının tarixi XX əsrin ikinci yarısında texniki qurğuların meydana gəlməsi ilə başlandı. Dünyada təhsil sahəsindəki nailiyyətləri araşdırma mərkəzinə Beynəlxalq Təhsil Nailiyyətlərinin Qiymətləndirilməsi Assosiasiyası (İEA) rəhbərlik edir. İEA tərəfindən kompüterlərin təhsildə tətbiqinə həsr olunmuş ilk tədqiqatlar 1989-cu və 1992-ci illərdə aparılmışdır [3, s.307]. Bu bir çox ölkələrdə bu araşdırmanın nəticələri təhsil sahəsində islahatların həyata keçirilməsi üçün əsas olmuşdur. Bütün təhsil sahələri daxil olmaqla yeni təhsil sistemi bizə informasiya texnologiyaları təqdim edən resurslara əsaslanır.

Azərbaycan müstəqillik əldə etdikdən sonra ilk dəfə 1995-ci ildə təlimin və təhsilin informasiyalaşdırılmasının keyfıyyətcə daha yüksək səviyyəyə qaldırılması haqqında qərar qəbul olunmuşdur. Yetişən nəsilə liderliyi, qrup çərçivəsində fəaliyyət bacarıqları, tətbiqi biliklər vasitəsilə ətraf mühitin öyrənilməsini və digər bu kimi məsəslələri aşılayan həmin konsepsiya təhsil sərhədlərini genişləndirilməsini nəzərdə tutur. Bütün qeyd edilənlərin həyata keçirilməsi isə informasiya texnologiyaları olmadan mümkün deyil.

Cəmiyyətin inkişaf tarixində üçüncü qlobal sosial-texniki inqilab kimi qeyd olunan müasir İKT - informasiyanın əldə edilməsi, emalı, saxlanılması və ötürülməsi məqsədilə proqram – texniki vasitələrin, istehsal proseslərin və metodlarının yığımıdır [2, s.4]. İnformasiya prosesləri - hər hansı nəticə əldə etmək məqsədilə informasiya üzərində aparılan əməliyyatların ardıcıllığı yığımıdır və prinsip etibarilə İKT-yə aiddir.

Əsas informasiya proseslərinə aiddir: informasiyanın axtarışı, seçimi, yaradılması, saxlanılması, ötürülməsi, kodlaşdırılması, emalı və qorunması. Kodlaşma - bir əlifbanın simvollarının digər əlifbanın simvolları ilə əvəz olunması, ictimai həyatın informasiyalaşdırılması prosesi kimi reallaşır [2, s.5-6].

Təhsilin informasiyalaşdırılması təlimin yeni texnologiyaların təhsil sistemində tətbiqinə yol açır, fərdi təlim, biliklərin sistemli olaraq yoxlanılmasının təşkili üçün, hər bir şagirdin psixofiziki xüsusiyyətlərinin nəzərə alınması kimi əbədi problemlərin həlli üçün şərait yaradır. Bu gün

kompyüter müəllim üçün dünyaya pəncərə, professional biliklərin mənbəyi və pedaqoji əməyin simvoludur. Yeni təhsil konsepsiyasında da qeyd olunur ki, Azərbaycan Respublikasının bütün ərazisində yerləşən təhsil müəssiələri kompyüterləşməlidir.

*Təhsil müəssisələrində keyfiyyətin təmin edilməsi məqsədilə aparılan təlim prosesləri.* Təhsil müəssiələrində pedaqoji texnologiya əsasında 4 təlim prosesi aparılır:

1.Təlim prosesinin texnologiyası

2.Tərbiyə prosesinin texnologiyası

3. İnkişaf texnologiyası

4. Diaqnostika texnologiyası [4, s.225].

Təlim texnologiyası dedikdə bilik, bacarıq və vərdişləri formalaşdırmaq üçün əməliyyatlar komplekti başa düşülür [6, s.67].

Tərbiyə texnologiyası sabit və müntəzəm yaranan münasibətlərin məqsədyönlü formalaşdırılması üçün əməliyyatlar komplekti başa düşülür. İnkişaf texnologiyası təlim-təhsil-tərbiyə texnologiyası ilə sıx əlaqədədir. Burada həm fiziki, həm də əqli bacarıqların formalaşdıdrılması əasa götürülür. Diaqnostik texnologiya pedaqoqların öyrədənin öyrənmə prossesinə hazırlığını qiymətləndirir [1].

Pedaqoji texnologiya, bu təlim prosesinin həyata keçirilməsinin texnikasıdır. Pedaqoji texnologiya, bu təlimin planlaşdırılan nəticələrinin əldə edilməsi prosesinin təsviridir. Pedaqoji texnologiya, təlim nəticələrinin forma, metod, üsulları, tərbiyə, üsullarımn xüsusi yığımı və komplektləşdirilməsini müəyyən edən pedaqoji-psixoloji göstərişlərin toplusudur. O, pedaqoji prosesin təşkilatı metodiki alətidir [1]. Bir tərəfdən təlim texnologiyası informasiyasının təqdim edilməsinin təsəvvür edilməsinin işlənmə vasitələrinin və metodlarının toplusudur, digər tərəfdən isə bu müəllimin şagirdlərə təsir üsulları haqqında elmdir. Təlim texnologiyası təhsilin mərhələsinə, məzmununa, formasına və təlimin tipinə görə müxtəlif olur. Ümumi qaydada təlim texnologiyasının strukturuna öyrədən-öyrənən fəallığının təşkili, öyrənmə, nəticə, korreksiya aparılması, öyrənmənin daha fəal və müstəqil qurulması, nəticələrin əldə edilməsi və qiymətləndirilməsi daxildir.

Təlim üsulunun daşıdığı ikitərəfli xarakterdə məlumatvericilik və idarəedicilik funksiyasını yerinə yetirən öyrətmə ilə öyrənmə üsulu bir-biri ilə sıx əlaqədə olmalıdır. Hər bir şagirdin öz fikri, ideyası olur. Mübadilə nəticəsində fikirlər dəyişir, ideyalar təzələnir. Qrupdakı zəif şagirdlər bu zaman müzakirədə fəal iştiraka qoşulur, kollektiv müzakirənin gedişində bir-birini dinləməyə çalışırlar. Təlim-tərbiyə sahəsində yüksək effektivlik eldə etməyin bir sıra yolları vardır. Bunlardan əsası məzmun dəyərləndirilməsidir. Bu metod zamanı şagird müstəqil düşünmək bacarığı, tənqidi yanaşma bacarıqlarına yiyələnir, müəllim şagirdə yeni məlumatı çatdırmaqla, eyni zamanda şagidlərə yeni məlumatı axtarmaq bacarıqlarını istiqamətləndirir. Psixoloqların araşdırmasına əsasən qeyd etmək lazımdır ki, informasiya insanın eşitdiklərinin 10%-i, gördüklərinin 50%-i, özü etdiklərinin 90%-i həcmində yaddaşda qalır [5, s.229]. Bu sahədə İKT müəllimlər üçün böyük dəstəkdir, ən dinmik təlim vasitəsidir.

Şagirdin cavabına qoyulan tələblərin əsasını əslində biliklərin mənimsənilməsinin yoxlanılması yox, verilən məlumatların yadda saxlanılması təşkil edir. Eyni zamanda, ənənəvi təlim prosesində biliklərin praktiki tətbiqini təsəvvür etmək üçün şagirdə müvafiq imkanlar yaradılmır. Dərsin məzmunu, adətən daha çox nəzəri öyrənilir və həyatın tələbatlarına uyğunlaşdırılmır. Şagirdin şəxsi təcrübəsi, onun tələbatları, maraqları, qabiliyyətləri və fərdi xüsusiyyətləri nəzərə alınmır. Bu cür prosesin nəticəsində heç kim əmin ola bilməz ki, bütün şagirdlər bu bilikləri lazımi səviyyədə dərk edəcək.

Şagirdin hazır bilikləri mənimsəməsi, nəinki onun təfəkkürünün inkişafı üçün stimul yaratmır, eyni zamanda idrak prosesini kütləşdirir, uşağı yaradıcılıqdan, sərbəstlik, müstəqillik, təşəbbüskarlıq kimi keyfiyyətlərdən məhrum edir. Nəticədə təlimin səmərəliliyi azalır, çünki onun keyfiyyəti şagirdin əqli qabiliyyətlərinin və hafizəsinin inkişaf səviyyəsi, idrak motivasiyasının olub-olmaması kimi psixoloji amillərdən birbaşa asılı olur.

Bacarıq - fəaliyyətdə olan bilikdir. Bacarıq - dərk edilmiş, niyyətli zehni fəaliyyətdir, təlim prosesində bu fəaliyyət mürəkkəb və yeni məsələlər həll edərkən, yeni və mürəkkəb üsullar işləyib

hazırlayarkən lazımdır. Bacarıq həmişə biliyin tətbiqi ilə əlaqədardır. Bacarıq təlimin xüsusi, çox qiymətli komponentidir.

Vərdiş - təhsil vermək, öyrətmək vəzifəsinin çox mühüm komponentidir. Lakin bacarıqdan fərqli olaraq, vərdiş dəyişilməyən mühitdə, sabit şəraitdə stereotip şəklində fəaliyyət göstərir. Vərdiş - dürüst, səhvsiz icra edilən fəaliyyətdir. bu fəaliyyət dəfələrlə təkrar edilməsi nəticəsində avtolaşmış olur [5, s.228]. Vərdişlərin daim bilik və bacarıqlarla qarşılıqlı əlaqəyə daxil edilməsi, vərdişlərdən səmərəli istifadə etməyin şagirdlərə öyrədilməsi təhsil vermək işinin mühüm vəzifəsidir. Görkəmli rus psixoluqu, müasir pedaqoji psixologiyanın banilərindən biri olan L.S.Vıqotskinə görə təlim inkişafı qabaqlamalı, uşağın "qarşıdakı (yaxın) inkişaf zonasına" yönəlməlidir [4, s.209].

Bu inkişaf zonasında uşağın potensial imkanları mərkəzləşib, onları aktuallaşdırmaq üçün xüsusi şərait yaradılmalıdır. Buna nail olmaq üçün şagirdlərə imkanlarına uyğun, lakin bir qədər mürəkkəb tapşırıqları müstəqil həll etmək təklif edilməlidir. Eyni zamanda, müəllim və digər ad verməklə onları problemin həllinə istiqamətləndirməlidir. İnkişafedici təlim ilk növbədə təfəkkürü və yaradıcılığı formalaşdırmalıdır.

Müasir dövrdə baş verən sürətli dəyişikliklər təlimin qarşısında şəgirdlərin həyata hazırlanması məsələsini daha kəskin qoyur. Bunun üçün ilk növbədə təlim cəmiyyətin inkişaf meyillərini əks etdirməli axın gələcəkdə həyat şəraitinə hazırlamalıdır. Məktəb şagirdə baza bilik, bacarıq vərdişləri verməklə kifayətlənməməlidir. O, eyni zamanda onda idrakı fəallığı, hər şeyi öyrənmək zəruri keyfiyyətləri formalaşdırmalıdır. Təlim şagirdə zəruri olan informasiyanı müstəqil əldə etməyi, onu yenidən işləməyi, düzgün istifadə və tətbiq etməyi öyrətməlidir.

*Təhsil sisteminin informasiyalaşdırılması üzrə dövlət proqramları.* Məlumdur ki, Azərbaycan Respublikası dövlət müstəqilliyini əldə etdikdən sonra bir sıra dövlət proqramları qəbul etmişdir. "Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı"nın (2008-2012-ci illər) qəbul olunmasında isə əsas məqsəd Azərbaycan Respublikasında müasir informasiya və kommunikasiya texnologiyalarını geniş tədbiq etməklə vahid ümummilli təhsil mühitinin yaradılması və əhalinin bütün təbəqələri üçün keyfiyyətli təhsil almaq imkanlarının təmin edilməsidir. Dövlət Proqramı çərçivəsində Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsi tərəfindən bir sıra fəaliyyət istiqamətləri üzrə müvafiq işlər görülmüşdür. Nəticə etibarilə, 2018-ci ildə Azərbaycan təhsil sistemində informasiya-kommunikasiya üzrə maddi-texniki baza təkmilləşdirilmiş, kompüter avadanlığı və digər zəruri rəqəmsal avadanlıqla təminat işi davam etdirilib. Belə ki, təhsil müəssisələrinin İKT avadanlıqları ilə təmin olunması məqsədi ilə ölkə üzrə təhsil müəssisələrinə 18,000 ədəd noutbuk verilib. Paylanılan avadanlıqların 27%-i Bakı şəhərinə, 73%-i isə rayonlara verilmişdir [7].

Qeyd edək ki, kompüter avadanlığının paylanılması ümumtəhsil müəssisələrində idarəedici heyət və İKT otaqlarının kompüter avadanlığı ilə təminatı üzrə normativlərə əsasən həyata keçirilir.Təhsil Nazirliyi Azərbaycanın ən böyük daxili təhsil şəbəkələrindən olan Azərbaycan Təhsil Şəbəkəsini (ATŞ) genişləndirir. Belə ki, 2018-ci ildə 208 yeni təhsil müəssisəsi ADSL, 285 təhsil müəssisəsi simsiz rabitə xətləri, 65 təhsil müəssisəsi isə fiber optik rabitə kanalları vasitəsi ilə ATŞ-yə qoşulmuşdur. Ümumi ölkə üzrə 2746 təhsil müəssisəsi (fiber-optik qoşulma üzrə 206, simsiz qoşulma üzrə 694, ADSL qoşulma üzrə 1846) ATŞ-yə qoşulub. Onlardan 2403 təhsil müəssisəsi ümumi təhsil müəssisəsidir. Təhsil Nazirliyinin həyata keçirdiyi "Rəqəmsal bacarıqlar" layihəsi çərçivəsində 2018-2019-cu tədris ili ərzində Bakı şəhəri üzrə 65 və Gəncə şəhəri üzrə 6 ümumi təhsil müəssisəsi də (26 min şagird) layihəyə qoşulmuşdur.

Layihə çərçivəsində hazırki dövrədək 230 kompüter otağı və 2500-ə yaxın kompüter istifadəyə verilmiş, internet şəbəkəsinə yüksək sürətli bağlantı ilə təmin olunub [8, s.46]. Sözügedən layihə şagirdlərdə alqoritmik düşüncə və məntiqin, layihələndirmə bacarıqlarının inkişafı və proqramlaşdırmanın əsaslarının öyrədilməsi məqsədini daşıyır. 2018-ci ildə 15 ümumi təhsil müəssisəsinin ibtidai və yuxarı sinif şagirdləri üçün sinif otaqları "Lego Education" təhsil robotları ilə təchiz olunmuşdur. Bakı, Sumqayıt, Lənkəran və Mingəçevir şəhərlərindən 70 nəfər informatika və fizika müəllimləri təhsil robotlarından istifadə qaydaları, onların tədris prosesində tətbiq olunması üzrə təlimlərdən keçirilmişdir.

Qeyd edək ki, texnika ilə təchiz olunmuş müəssisələrin sayı 20-yə çatdırılmışdır. Mövzu ilə əlaqədar məktəblilər arasında 2018-2019-cu tədris ili üzrə "First Lego League (FLL) Azərbaycan" mühəndislik və robototexnika yarışına start verilmişdir [7]. Yarışın məqsədi ümumtəhsil məktəb şagirdlərinin elm və texnologiyalara olan marağını artırmaq, hazırkı qlobal problemlərin elmi-texniki həllinə öz töhfələrini verməyə həvəsləndirməkdir. Beynəlxalq layihələr üzrə əməkdaşlığa gəlincə, Azərbaycan Respublikası və Çin Xalq Respublikası hökumətləri arasında texniki-iqtisadi əməkdaşlıq sazişi çərçivəsində ümumi təhsil məktəblərinin İKT avadanlıqları ilə təchizatı üçün 20880 ədəd noutbuk, 789 ədəd elektron lövhə, 789 ədəd proyektor və 20 ədəd masaüstü kompüter avadanlığı təhsil müəssisələrində istifadə üçün ianə edilib [8, s.44].

Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsi tərəfindən Azərbaycanda 2016-ci ildən etibarən "eTwinning Plus" layihəsi reallaşdırılır. Layihənin məqsədi pedaqoji işçilər arasında ünsiyyəti artırmaq, əməkdaşlıq imkanları yaratmaq, digər ölkələrdən olan həmkarlar ilə birgə təhsilin inkişafı yönümündə müxtəlif layihələr icra etmək üçün şərait yaratmaqdır. Qeyd edək ki, layihə çərçivəsində Azərbaycandan indiyədək 301 məktəbdən 803 müəllimin iştirakı ilə 865 təhsil layihəsi həyata keçirilib [7].

*Nəticə.* Beləliklə, yekun olarfaq qeyd edə bilərik ki, Azərbaycan Respublikası Təhsil Nazirliyi bütün bu illər ərzində ümumtəhsil məktəbləri üçün proqram və dərsliklərin hazırlanması işinin yaxşılaşdırılması istiqamətində mühüm işlər görərək irəliləyişlər əldə etmişdir. Lakin bununla kifayətlənməmiş, eyni zamanda paralel olaraq bu sahədə dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsini öyrənmiş, təhlil etmiş, nəticədə düşünülmüş bir siyasət hazırlanmışdır. Əlbəttə, bu siyasətin həyata keçirilməsi üçün kompleks tədbirlərin reallaşdırılması, müəyyən normativ sənədlərin yaradılması vacibdir ki, bu istiqamətdə də zəruri addımlar atılmışdır.

## ƏDƏBİYYAT

1. Ağaverdiyeva, N. Ali təhsildə Boloniya sistemi // "Səs" qəzeti. - 2010, 26 iyun. – s.10. [Elektron resurs]: / URL: www.anl.az/down/meqale/ses/2010/iyun/125724.htm [Müraciət tarixi: 28.02.2020].
2. Bağırova, S.R. Azərbaycan Respublikası Ali Təhsil sistemi beynəlxalq əlaqələrdə (1991-2006-cı illər) / Tarix üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / - Bakı, 2012. - 27 s.
3. Mahmudov, M. Ali təhsil: inteqrasiya, qloballaşma və böhran //Azərbaycan Dövlət Pedaqoji Universiteti. Pedaqoji Universitet Xəbərləri. Təbiət, humanitar və pedaqoji-psixoloji elmlər seriyası. – Bakı: ADPU, - 2010. № 1. - s.307-319.
4. Mahmudov, M. XXI əsr və yeni təhsil sistemi. Azərbaycan Dövlət Pedaqoji Universiteti // Pedaqoji Universitet Xəbərləri. Təbiət, humanitar və pedaqoji-psixoloji elmlər seriyası. – Bakı: ADPU, - 2010. № 5. - s.220-227.
5. Rüstəmov, F.A., Həmidova, G. Müasir dövrdə Azərbaycanda təhsilin inkişafı // Azərbaycan Dövlət Pedaqoji Universiteti. Pedaqoji Universitet Xəbərləri. Təbiət, humanitar və pedaqoji-psixoloji elmlər seriyası. – Bakı: ADPU, - 2008. № 5. - s.227-235.
6. Heydər Əliyev irsi və Azərbaycanın müasir inkişafında İlham Əliyev mərhələsi. Beynəlxalq elmi-praktik konfransın materialları. Lənkəran, 23-24 dekabr 2006. – Bakı: Azərbaycan nəşriyyatı, - 2007. - 144 s.
7. Təhsil Sisteminin İnformasiyalaşdırılması üzrə 2018-ci ildə görülmüş işlər [Elektron resurs]: / URL. - https://versus.az/ article/az/3706 [Müraciət tarixi: 28.02.2020].
8. Xəlilov, S.S. Təhsil, təlim, tərbiyə. - Bakı: Azərbaycan Universiteti, - 2005. - 45 s.

**XOSHGADAM ISLAM**
***Phd., Baku State Universitety***

**SEVIL HEYDAROVA**
***Phd., Baku State Universitety***

## THEORETICAL ISSUES OF STUDENT SKILLS IN INFORMATIZATION OF EDUCATION

The role of national culture in every state in the development of science and education are invaluable. In this sense, it is an exception. Education is the preparation of the country. If you want to destroy a people is the destruction of the educational system. After the independence of our country, there have been major changes in education.

*Keywords*: education, science, schools, student, dynamic growing.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 28 fevral 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 06 yanvar 2021-ci il.*
*Rəyçilər: t.e.d. İbrahim Zeynalov, t.e.d. Qüdrət İsmayılov.*

**UOT 94**

**ELMİRA MƏMMƏDOVA**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Azərbaycan tarixi kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru*
**E-mail: suleymanova.elmira1954@mail.ru**

# BORCALI SULTANLIĞININ TARİXİNDƏN

*Məqalədə XVII əsrdən XIX əsrədək Borçalının tarixi ərazisində (müasir Gürçüstan və Ermənistanın Lori vilayyətində) mövcüd olan müsəlman feodal mülkü Borçalı sultanlığının inzibati-idarə sisteminin bir sıra toponim və etnonimləri tədqiq olunur. Borçalı (Marneulı), Qarayazı (Qardabani), Qaraçop (Saqareco) adlarının analizi bu ərazilırin türk-oğuz tayfalarına aid olması demək imkan verir.*

*Açar sözlər*: Odlar Yurdu, Borçalı, Qardabani, Qarayazi, Qaraçöp.

*Giriş*. Geniş əraziyə malik olmuş Azərbaycanın sahəsi hələ qədim zamanlardan XIX əsrin birinci rübünə qədər təxminən 421,6 min kv km-dən ibarət idi. Buraya Cənubi Azərbaycanın 280 min kv, Azərbaycan Respunblikasının 86,6 kv km, Cənubi Dağıstanın 10 kv km, Emənistan Respunblikasının (Qərbi Azərbaycan) 29 kv km, Türkiya Respunblikasının Qars vilayəti 6 kv km, Gürcüstan Respunblikasının şimal-şərqində yerləşən 10 kv km ərazilər daxil idi.

Göründüyü kimi, Azərbaycanın tarixi coğrafiyası müasir Şimali İranin, Azərbaycan, Naxcıvan Muxtar, Ermənistan respublikalarının və eləcə də Türkiyə Cümhürriyyətinin Qars vilayəti, Rusiya Federasiyasinda – Dağıstanın cənub hissəsi (Dərbəhd) və Gürcüstanın Dmanisi (Baçkeçid), Marneuli (Sarvan), Qardabani (Qarayazı) Bolnisi (Bolus, Ağcaqala), Tetri-Skaro (Ağbulaq), Saqareco (Qaraçöp), Zalqa (Barmaqsız ) rayonlarının ərazisi ilə əhatə olunurdu.

Burada Vətən torpağımızın hər bir güşəsinə xalq tərəfdən ad qoyulmuşdur. Bu adlar da Vətən torpağının hər parcası kimi doğma və əzizdir. Toponim, етноним, oykonim, antroponim və s. şəkildə işlənilən **bu xüsusi adlar ölkəmizin hər qüşəsindən keçmişin izlərini özündə mühafizə edib müasir zamana kimi gətirən real faktlardır, tarixin canlı şahidləridir.**

XVIII əsrin ikinci yarısında mövcüd olmuş xanlıqlar dövrüdə Azərbaycanin tarixi ərazisində 20 xanliq, 8 sultanlıq, 5 məliklik və Car-Balakən camaatları kimi iri, orta və xırda feodal dövlət qurumları yaranır. Bunlar Bakı, Qarabağ, Şəki, Şamaxı, Gəncə, Dərbənd, Quba, Salyan, Cavad, Lənkaran, Naxçıvan, İrəvan, Təbriz, Qaradağ, Maku, Xoy, Sərab, Salmas, Urmiya, Ərdəbil xanlıqlardır, Ərəş, İlisu, Qəbələ, Qazax, Şəmşədil, Pəmbək, Şoraqel, Borcalı sultanlıqlardır, Xaçın, Vərəndə, Cöləbörd, Dizaq, Gülüstan məlikliklərdir, Car, Çalakən, Muxax, Tala, Saxur, Kaxet, Çənik camaatlarıdır. Bu dövlət qurumlarının hökmdarlari xan, sultan, məlık titulları daşıyırdı və feodal nərdivanı cərcivəsində xan titulu yuxarıda durduğu üçün həmin

Xanlıq Azərbaycanı kimi adlanan bu dövrün siyasi quruluşunun tərkib hissəsində Bopcalı sultanlığı da mövcüd idi. Gürcü tədqiqatcıları onun ərazisini əzəli, əbədı gürcü torpağı kimi qələmə verirlər. Bu da əsrlər boyu Azərbaycanla, sonralar isə Gürcüstanla taleyi sıx bağlı olan müddətin nəticəsidir. **Borcalı** sultanlığının ərazisinə Gürcüstanın ərazisindəki inzibati vahidləri daxil idi: **Qardaçani** – tarixi adı Qaratəpə, Qarayazı, **Saqareco** – tarixi adı Qaraçöp, Qaraca yurdu, **Marneulı** – tarixi adı Sarvan, Borcalı, Tetri Skaro– tarixi adı Ağbulaq, **Bolnisi** – tarixi adı Bolus Kəpənəkçi, **Dmanisi** – tarixi adı Başkeçid. Ermənistanin ərazisindəki inzibati vahidlərindən isə **Stepanavan** – tarixi adı Calaloğlu, **Noyeberyan** – tarixi adı Barana, **Kalinino** – tarixi adı Taşir, **Spitak** – tarixi adı Hamamlı, **Амассия** – tarixi adı Агбаба daxil idi . **Borcalı** sultanlığı yaranana qədər onun ərazisi el, oba, mağal, bölqə və s. anlayışlarda ışlənilirdi və türklərin tarixən burada cəm şəkildə məskun olduğu halda bütün mənbələrdə (istər folklor, istərsə də yazı) onun varlığı Azərbaycanın tarixi ərazisinin ayrılmaz hissəsi kimi göstərilir. **Borcalı** sultanlığı 1604-cü ildə səfəvi I şah Abbasın fərmanı əsasında yrandı. Həmin fərman ilə qarapapaq tayfasının başçısı Hüseyn xanın tabeliyinə verilir. Uzun müddət XVII – XVIII əsrlərdə Səfəvi imperiyasının tərkıbində Qəncə bəylərbəyliyinin ərazi-inzibati bölqüsü kimi Ziyad oğulların tabeliyində olmuşdur. Lakin 1736-cı ildə Nadir xan Əfşarın hakimiyyətə

qəlməsinə etiraz edən Ziyad oğlu Qacarlar onun şah elan olunandan sonra cazalandırıldılar. Nadir şahın fərmanı ilə Borcalı sultanlığı Ziyad oğlu Qacarların tabeliyindən alındı və şahın valisi olan Kartli-Kaxeti çarı Teymurazın tabeliyinə verildi. 1747-ci ildə Nadir şah Əfşarın sui-qəsdlə öldürülməsi nəticəsində yaranmış yarımmüstəqil feodal dövlətlərdən biri də Borçalı sultanlığı (1747-1801) idi. Yarandığı zaman Qazax və Şəmşəddil sultanlıqları kimi Borçalı sultanlığı da Gəncə xanlığının tərkibinə daxil oldu. Bu zaman Gəncə hakimi Şahverdi xan Ziyadoğlu-Qacar (1747-1756) idi. 1752-ci ildə Şəki hakimi Hacı Çələbi xan Borçalı, Qazax və Şəmşəddil sultanlıqları və Gəncə xanlığını özündən asılı vəziyyətə saldı. Həmin vaxt Borcalı sultanlığının hökmdarı Hüseyn xanın oğlu Musaqulu xan (1752-1755) idi. 1755-ci ildə Hacı Çələbi xanın ölməsi ilə təkrar Gəncə xanlığının tabeçiliyinə keçən Borçalı sultanlığı Məhəmmədhəsən xan Ziyadoğlu-Qacarın (1756-1778) hakimiyyəti zamanı Gəncə xanlığının tərkibində qalmışdır. Lakin Kartli-Kaxeti çarı II İrakli və Məhəmmədhəsən xan Ziyadoğlu-Qacarın arasında ziddiyyətli narazılığa səbəb olan ərazi idi. 1765-ci ildə II İrakli Borçalını müvəqqəti olaraq özünə tabe etdi. Buna qarapapalılar ciddi etirazını bildirdilər və ona görə II İrakli Borçalını samouraviyə çevirmişdir. Buna baxmayaraq Məhəmmədhəsən xan Ziyadoğlu-Qacar Borçalıya yürüş edib ərazını öz tabeliyinə qaytara bilmişdi. Məhəmmədhəsən xan Ziyadoğlu-Qacarın ölümü ilə Borçalı, Qazax və Şəmşəddil sultanlıqları Kartli-Kaxeti çarı II İrakli tərəfindən yenidən işğal olundu. 1795-ci ildə Ağa Məhəmməd şah Qacarın Tiflisə yürüşündə iştirak edən Cavad xan Ziyadoğlu-Qacar Borçalı, Qazax və Şəmşəddil sultanlıqlarını Gəncə xanlığının tabeliyinə qaytardı.

Borçalı sultanlığının Gürcüstanın tabelyinə kecməsi Rusiya İmperiyasının işğalları ilə bağlıdır. 30 yanvar 1801-ci ildə Rusiya İmperiyasının himayəsinə girən Kartli-Kaxeti çarı XII David rus ordusunun köməyi ilə Borçalı, Qazax, Şəmşəddil sultanlıqlarını işğal etdi. 1802-ci ildə Rusiya İmperatoru I Aleksandrın əmri ilə Kartli-Kaxeti çarlığı ləğv olundu. Onun ərazisində 5 qəzanı (уезд) əhatə edən Gürcü quberniyası təşkil edildi. Həmçinin yeni işğal edilmiş Borçalı, Qazax, Şəmşəddil üç sultanlıqlar da ləğv edilmiş və onların yerində üç tatar distansiyası yaradılaraq mərkəzi Tiflis şəhəri olan Gürcü quberniyasının tərkibinə verilmişdi. 10 aprel 1840-cı ildə Gürcüstan quberniyası ləğv edildi, onun yerində Gürcüstan-İmeretiya quberniyası yaradıldı. Bu zaman Borçalı distansiyası da ləğv edilərək yenidən sultanlıq kimi Tiflis qəzasının tərkibnə daxil edilmişdir. 14 dekabr 1846-ci ildə Gürcü-İmeretiya quberniyası ləğv edilərək onun ərazisinin bir hissəsində Kutais quberniyası, digər hissəsində isə Tiflis quberniyası yaradıldı. Borçalı sultanlığının ərazisi 1880-ci ilədək Tiflis quberniyasının Tiflis qəzasının tərkibində qalmışdır. Həmin ldə Borçalı sultanlığı ləğv olundu və əvəzində Borçalı qəzası yaradılmışdır. Qəza Lori, Borçalı, Trialeti və Yekaterinenfeld nahiyələrindən ibarət idi. Bəs "**Borcalı**" toponimi necə yaranmışdır? Bu sualın cavabını, əlbəttə, sözün özündə, ifadə etdiyi mə'nada axtarmaq lazımdır. "**Borcalı**" termini həm toponim, həm də etnonim formasında işlənilir. "**Borcalı**" toponimi hələ miladdan II-IV əsrlərdə əvvəl əsrlərdə və bizim eramızın ikinci yüzilliyində Cənub Qafqazda yaşayan türk tayfalarından birinin "Barsillərin" adı ilə bağlıdır. Ərəb müəllifləri Borçalını "Borüçölü", gürcü mənbələri "Qurdis xevi"- yani "Qurd çalası", pəhləvi mənbələri isə bölgəni "Qordman" – yani "Qurd adamların yurdu" adlandırır. Bəzi mənbələrdə "Qordman" və "Qardaban" terminlərin eyni olduğu qeyd edilir. "Qardaban" toponimi "qard" və "aban" sözlərinin birləşməsindən əmələ gəlmişdir. Bu toponimin birinci komponenti qədim türk dilində "qurd" mə'nasinda işlənən sözdən götürülmüşdür. Bu da təsadüfi deyil. Birincisi, qurd qədim zamanlarda türkdilli xalqların totemi olmuşdur. İkincisi, qədim türklər hələ köçəri həyat keçirdiyi zamanlarda çox döyüşkən və cəsur tayfalar olmuşlar. Bu onların adlarında da əks olunmuşdur. Heç təsadüfi deyil ki, hələ " Kitabi- Dədə-Qorqud "dastanında "Qurd üzü mübarəkdir "kimi ifadələr öz əksini tapmışdı. İndi də xalqımız arasında " Qurd oğlu qurd olar", "Qurddan olan kəsəyən olar" kimi yığcam və dərin məzmunlu atalar sözləri vardir. Güman ki,elə həmin atalar sözləri də öz başlanğıcını və özülünü gurdlar tayfasının adından almışdır.

Beləliklə, aydın olur ki , "Qardaban" toponiminin birinci komponenti "qurd" sözü əsasında formalaşmışdır. Tarix "qurd" sözü əsasında düzəldilmiş yer, şəhər, kənd adlarının olduğunu da təsdiq edir. Məsələn, Qafqaz Albaniyasında Qirdman /Giridman çayı, və eyni adlı şəhər/, 1728-ci ildə tərtib olunmuş "Dəftəri – müfəssəli-əyaləti-Tiflis"də Təklə olmağının Qurdlar kəndinin adı da qeyd edilmişdir. Həmin kəndin adı hazırda təhrif olunmuş şəkildə - Kürdlər kimi işlənir. Bakı kəndlərinin

biri də təhrif olunmuş həmin adı daşıyır – Kürdəxanı. Bolnisi rayonun da Bolus – Kəpənəkçi yaxınlığında Qurdlar, Darvaz kəndinin yaxınlığında "Qurd oğlunun qoruğu" adlı toponimlər indi də vardır. "Qardaban" toponimin ikinci komponenti isə "aban" qədim türk dilində isə "ev", "yaşayışın yeri" mə'nasında işlənən "ab", "oba" sözü ilə bağlıdır. Müxtəlif türk dialektlərində bu söz "iy", "ey", "ev", "oba", "yuva" və s. sözlər kimi işlənilir. Məsələn, qədim zamanlarda "oba" sözü Anadolu və Balkan yarımadasında geniş şəkildə işlədilirdi.Urartu yazılarında Azərbaycanın ərazisindəki ilk quldar dövlətinin adı "Mannani-ebani" kimi işlənilir. "Ebani" burada "ölkə" mənasını daşıyır.

Deməli, "Qardabani" toponiminin ümumi mənası "Qurdlar obası", "Qurdlar ölkəsi" deməkdir. Qardabani ərazisində indiyədək türksoylu etnosların kompakt şəkildə yaşamasını nəzərə alsaq, fikrimiz daha aydın təsdiq olunur. "Qardabani" toponimin başqa bir geniş işlənən mənası da var. Bu toponimin birinci komponenti "qar", ikinci komponenti isə "daban" mə'nasinda da türk dilində işlənən sözlərdən götürülmüşdür. Bu da təsadüfi deyil. Həmin yerin təbii görünüşü və relyefi dağətəyidir və "Qardabani" sözünün bu mənada işlənilməsinə imkan verir. "Qardabani"nin başqa bir geniş işlənən toponimik adı "Qarayazı"dır. "Qarayazı" sözünün etimoloqiyası ilə bağlı fikirlər olduqca maraqlıdır. Borcalının tərkibində eyni bir tarixi taleyi olan "Qarayazının" yerli əhalisi də türksoylu tayfalar olub və "Qarayazı" adı burada yaşayan qarayazılılar türkdilli tayfalarla əlaqədar olaraq yaranmışdır. Toponimikada "Qarayazı" sözü daha cox "Böyük çöl", "Böyük düzənlik" mənasında kimi işləndiyi göstərilir. Qarayazılılar – böyük çöllü türk tayfaları Türkiyədə, Azərbaycanın müxtəlif bölgələrində yayılmış və öz qədim adlarını daşımışlar. Kür qırağı meşəlıklər də Qarayazı meşəsi adlandırılır. Qədim türk tayfalarından qarayazılar yeganə tayfadır ki, bu adı özlərində saxlamışlar və öz adlarını, yani böyk çöllü olduqlarını indiki əraziyə oturaq həyat kecirdikləri geniş bir coğrafi əraziyə vermişlər. "Qarayazı" adlı yaşayış məskənləri Azərbaycanın Qazax və Qöycay rayonlarında da var. Türkiyə Respublikasının Qarsa yaxın ərazisində Qarayazı bəlgəsi adlı yaşayış məntəqəsi indi də mövcüddür. "Qarayazı" sözünün digər maraqlı versiyası məşhur Roma sərkərdəsi Qney Pompey ilə də bağlı olduğu bildirilir. Qney Pompey e.ə. 66-cı ildə İberiyadan kecib Albaniya sərhədlərinə daxil olur və Kür çayı sahillərində bataqlıq və meşə ilə əhatə olunmuş bir ərazi ilə qarşılaşır. Burada qoşunlarının tələfat verdiyini görən Pompey sahildə böyük bir daş üzərində bu sözləri yazır: "Keçilməz bataqlığı və qoşunlarımın tələfat verdiyini nəzərə alıb, istiqamətimi dəyişməyə məçbur oluram". Sonralar bu daş ətrafında məskunlaşanlar əzlərini qarayazılılar, yani qara yazısı olan daş ətrafında yaiayanlar adlandırmışlar. Gürçü mənbələrində "Qarayazı" sözü "Karaia" ilə eyniləşdirilmişdir. XVIII əsrdə yaşamış şahzadə Vaxuşti "Gürcüstanın coğrafiyası" əsərində yazır: "Naqebinin (indiki Rustavi şəhəri ərazisi yaxınlığında yaşayış məntəqəsi) şərq və cənub tərəfləri böyük çöllükdür – Karaia addlandırılır (hazırda bura Qarayazı çölləridir). "Karaia" gürcü dilində ""görüş yeri", "otlaq" mənalarında işlənilir. Onun fikrincə, bu yerlər gürcü çarlarının ov yerləri olmuşdur. Gürcü çarı XII Georginin oğlu İoane Baqrationinin "Kartli-Kaxetinin təsviri" əsərində də "Qarayazı" "Karaia" kimi işlənilib. 1932-1947-ci ilədək Qarayazı Gürçüstanın inzibati rayon statusu kimi öz adını saxlamışdır. 1947-ci ildən indiyədək "Qardabani" adlandırılır. Əgər "Qarayazı" həqiqətən gürcü sözüdürsə, onda bəs nə üçün məhz gürcülər özləri 1947-ci ildə "öz sözlərini" tarix səhnəsindən çıxartmalı oldular? "Karaia"nın gürcü sözü olmağına bir söz deyə bilmərik, ancaq bu sözün "Qarayazı"ya dəxli yoxdur, və yaxud olsa-olsa "Qarayazı"nın gürcüləşdirilmiş formasından başqa bir şey deyil.

*Nəticə*. Borçalı sultanlığının tərkibində Qaraçöp yurdu (indiki Saqareco rayonu) da olub. Qaraçöp icması geniş əraziya malik olan yurdlardan olub. Onun ərazisinə 8 kənd aiddir: Düz-Əyrəm (Ayrım), Qazlar, Qarabağlı, Keşəli, Ləmbəli, Paldı (Baldoy-Baldöy), Tüllər, Yor-Muğanlı. Qaraçöp oykonimi türk dillərində «qara camaat» mənasında işlənən «qara» sözü ilə «çöp» tayfa adı əsasında yaranıb. Mənbələrdə bu tayfanın eramızın ilk əsrlərində Qafqazın bu üzündə - Güney Qafqazda məskunlaşdığı qeyd olunub. Xalq arasında Qaraçöpü Yor Muğanlı da adlandırırlar. Bu da həmin kəndlərdə Muğanlı elinə məxsus əhalinin məskunlaşması ilə əlaqədardır. Qaraçöp oykonimin nəsil-tayfa adı əsasında yarandığı «Kitabi-Dədə Qorqud» dastanını da xəbər verir. Dastandakı Qaraca Çoban həmin nəsli yada salır. «Qaraca yurdu» gürcü dilində «Saqareco» kimi tərcümə olunub və gürcü mənbələrində bu toponimi XIV əsrin sonuncu onilliyində qeyd olunub. «Saqareco» oykoniminin əsasında Azərbaycan dilinə məxsus olan «Qaraca» şəxs adı, gürcü dilində isə «məkan, yer» mənasını

bildirən «sa» ön şəkilçisi durur. Gürcü mənbələrə görə, «Qaraca yurdu» toponimi Gürcüstan ərazisində «Didi Turkoba» (Böyük Türklük) dövründə yaranan toponimlərdən biridir. **Saqareco»** toponimi indi həm rayon-inzibati ərazinin, həm də rayon mərkəzinin – şəhərin adını bildirir.

## ƏDƏBİYYAT


1. Tamar Koridze. Musa-Kulikhan //Musakhan // Caucasus in georgian sources: Foreign States, Tribes, Historical Figures. Encyclopedical Dictionary. - Tbilisi: Favorite, 2012. - C.331. - ISBN 978-9941-0-3946-1.
2. Материалы для новой истории Кавказа с 1722 по 1803 год. Пётр Григорьевич Бутков. Часть первая. Санкт-Петербург, 1869 год.
3. Высшие классы коренного населения Кавказского края и правительственные мероприятия по определению их сословных прав. Исторический очерк. Составитель делопроизводитель канцелярии Наместника Его Императорского Величества на Кавказе Линден В. Тифлис. Издание Канцелярии Наместника Е.И.В. на Кавказе. 1917 год: Оглавление —>Глава II. Мусульманские районы Закавказья, входящие в состав Эриванской, Елисаветпольской, Бакинской и отчасти Тифлисской губерний, стр.23-24.
4. Акты, собранные Кавказской Археографической комиссией. Архив главного управления наместника Кавказского. Том I. Напечатан под редакцией, представителя комиссии ст.сов. Адольфа Петровича Берже. Тифлис. Типография Главного Управления Наместника Кавказского. 1866 год. Оглавление: Часть вторая: XII. Закавказские Мусульманские владения: IV. Памбак. 805. Письмо генерал-майора Лазарева к генерал-лейтенанту Кноррингу, от 5-го августа 1801 года, стр.601.
5. Borçalı. Dünən, bu gün və sabah. Bakı, Adiloğlu, 2010, 96 s.
6. Ömərlı Vahid. Qarayazı: Gürcüstanda türklər. I hissə. Bakı, Çaşıoğlu, 2001, 760 s.


**ELMİRA MAMMADOVA**
***the Assistant professor of ASPU,***
***Phd in History***

## THE HISTORI OF BORCHALI SOLTANATE

Some toponims and ethos belonging to historical administrative-territorial devision of fendal Borchali Soltanate (Modern Georgia and Lori provinse of Armenia) from XVII-to XIX centuries are explored in this article. The analyses of the names Borchaly (Marneuli), Garayazı (Gadabany), Garachop (Sagaraco) gives us proofs that they are of turkic-oghuz oricin.

*Keywords*: Land of fire, Borchali, Gadabany, Garayazı, Garachop.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 20 fevral 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 06 yanvar 2021-ci il.*
*Rəyçilər: t.e.d. Xəqani Məmmədov, t.e.d. Qabil Əliyev.*

**UOT 94(479.24)**

**ELNUR ƏBİLOV**
*Bakı Dövlət Universitetinin*
*Tarix, Dil və Metodika mərkəzinin laborantı*
**E-mail: elnur.abilov34@gmail.com**

# HEYDƏR ƏLİYEVİN ƏSƏRLƏRİNDƏ AZƏRBAYCAN TARİXİNİN DÖVRLƏŞDİRİLMƏSİ

*Heydər Əliyev öz əsərlərində Azərbaycanın XX əsr tarixinin mərhələlərə bölünməsinə xüsusi önəm vermişdir. Bununla o, Azərbaycan tarixşünaslığına yeni yanaşma tərzi gətirmişdir. Azərbaycanın XX əsr tarixinin Heydər Əliyev dövrləşdirilməsi yeni bir konsepsiya idi. Buna baxmayaraq, ulu Öndər bütün əsərlərində, tarixi çıxışlarında və nitqlərində Azərbaycanı dünyanın ən qədim insan məskənlərindən biri, müasir sivilizasiyanın ilkin beşiyi və ən qədim dövlətçilik diyarı kimi təqdim etmiş, tarixi inkişafın hər bir mərhələsini yüksək qiymətləndirmişdir.*

*Açar sözlər*: Heydər Əliyev, dövrləşdirilmə, Azərbaycanın XX əsr tarixi, əsər.

*Giriş*. Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlərindən biri də, o həm gərgin siyasi fəaliyyəti dövründə xalqı üçün şanlı tarix yaratdı, həm də bir tarixçi kimi Vətən tariximizdə yeni dövrləşmənin əsasını qoydu. Bu gün Heydər Əliyevin əsərləri ən qədim dövrlərdən başlayaraq müasir günümüzədək mürəkkəb və çətin tarixi hadisələrimizə obyektiv cavab tapmaq üçün ən dəyərli istinad nöqtələrimizdəndir. Ona görə də bütün tədqiqatçılar ilk növbədə keçmişə Heydər Əliyev konsepsiyası ilə yanaşaraq tarixi saxtalaşdırmaların qarşısını almalıdır.

*Heydər Əliyevin Azərbaycan tarixinə dövri yanaşması.* Azərbaycan dünyanın ən qədim və zəngin tarixi olan ölkələrindəndir. Bu baxımdan tariximizin sistemli şəkildə dövrləşdirilməsi və öyrənilməsi hər zaman aktual məsələlərdən biri olmuşdur. Azərbaycan tarixinin ən çox saxtakarlığa məruz qalan mərhələsi onun qədim dövrüdür. Ümumilli lider Heydər Əliyev Azərbaycan tarixinin hər bir dövrünü, o cümlədən qədim dövr tarixini də yüksək qiymətləndirir və bu dövrün tədqiqinə xüsusi diqqət yetirirdi. Görkəmli elm və dövlət xadimi AMEA-da ziyalılarla görüşündə məsələylə bağlı narahatçılığını bu cür dilə gətirmişdir: “Tarixçilərimizin xatirində olmalıdır ki, mən Azərbaycanda işləyən dövrdə - 70-ci illərdə və 80-ci illərin əvvəllərində dəfələrlə onlara müraciət etmişdim ki, bizim tariximiz – həm qədim tariximiz, həm də orta əsrlər tariximiz, həm də son dövrlərin, yəni XVIII, XIX, XX əsrlərin tarixi istənilən səviyyədə yazılmayıb. Tarixçilərin yadındadır ki, mən alimlərlə dəfələrlə görüşmüşdüm, hər dəfə də öz narahatlığımı bildirirdim” [1, s.154].

Dahi Heydər Əliyev öz əsərlərində Azərbaycan tarixini ustalıqla dövrləşdirməklə yanaşı həmçinin hər bir tarixi mərhələyə konkret qiymət vermişdir. Ulu öndərin XX əsrə verdiyi dəyər tarixi gerçəkliyi zərgər dəqiqliyi ilə əks etdirir. Heydər Əliyev yazır: “Başa vurduğumuz yüzillik bəşəriyyətin yaddaşında sürətli elmi-texniki tərəqqi ilə və iki dünya müharibəsində tökülmüş qanlarla, imperiyaların süqutu və yeni suveren dövlətlərin yaranması ilə, “soyuq müharibə”nin doğurduğu gərginliklə, sülh, sabitlik və əmin-amanlıq naminə göstərilən səylərlə yadda qalacaqdır” [2, s.284].

Dövrün böyük dövlət xadimi olmaqla yanaşı, həm də qüdrətli tarixçisi olan Heydər Əliyevin müəllifi olduğu “Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında” adlı müraciət tarix elmimizi inkişafa aparan konseptual əsərdir. Bu qiymətli əsərdə əvvəldən sonadək, bütövlükdə Azərbaycanın keçdiyi tarixi inkişaf yoluna nəzər salınır, tariximizin ayrı-ayrı mərhələləri prinsipial şəkildə qiymətləndirilmiş, bir çox proseslərə yeni nöqteyi-nəzərdən yanaşılmış, ayrı-ayrı hallarda isə tarixşünaslığımızda ilk dəfə olaraq sistemli dövrləşdirmə aparılmışdır. Ən qədim zamanlardan başlayaraq tariximizin ayrı-ayrı dövrləri dərin elmi faktlarla təhlil olunan və doğru-düzgün dəyərləndirilən Müraciətdə eramızdan əvvəl birinci minilliyin sonu və eramızın birinci minilliyinin əvvəlindəki mərhələyə ayrıca diqqət yetirilir.

Böyük siyasi xadim və tarixçi kimi Heydər Əliyevin bu dövrə xüsusi önəm verməsi təsadüfi deyil. Əvvəla məhz bu dövrdə Azərbaycan bütün coğrafi istiqamətlərdən, xüsusilə Şərqdən və Qərbdən daha çox siyasi təzyiqlərə məruz qalır, Şərq və Qərb sivilizasiyalarının qaynayıb qarışdığı

məkana çevrilir, təkallahlı dinlərin yeni formalaşdığı və yayıldığı ərazilərdən birinə çevrilir. Xalqımızın, dövlətçilik ənənələrimizin, mədəniyyətimizin, ictimai-siyasi düşüncə tərzimizin formalaşması istiqamətində çox mühüm hadisələr baş verir. İslam dininin geniş coğrafi ərazilərə yayılması, xüsusilə bu dinin xalqları vahid bayraq altında birləşdirmə missiyası son nəticədə ən qədim sivilizasiya mərkəzlərindən olan Azərbaycan xalqının formalaşmasına səbəb olur.

"Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında" əsərində ilk dəfə olaraq dərin elmi-nəzəri təhlil əsasında XX yüzillikdəki tariximiz dövrləşdirilir. Bu dövrləşməni əhəmiyyətli edən ən mühüm məqam isə onun xalqımızın keçdiyi tarixi inkişaf yolunun gerçəkliklərini bütün dolğunluğu ilə ifadə etməsidir. Heydər Əliyevin XX əsr tarixinin dövrləşdirilməsində bu yüzillikdə baş vermiş iki başlıca hadisə ön plana çəkilir: Əsrin əvvəlində yaranmış Azərbaycan Xalq Cumhuriyyəti və əsrin sonunda əbədi olaraq müstəqillik qazanmış Azərbaycan Respublikası.

*Heydər Əliyevin əsərlərində Azərbaycanın XX əsr tarixinin dövrləşdirilməsi*. Beləliklə, Heydər Əliyev Azərbaycanın bütövlükdə XX əsr tarixini 4 mərhələyə ayırmışdır:

Birinci mərhələ - Azərbaycan Xalq Cumhuriyyətinin yaranması üçün tarixi şəraitin yetişməsi dövrüdür. Bu mərhələni bir sözlə Ərəfə də adlandıra bilərik. Bu dövr 1918-ci ildə Azərbaycan Xalq Cumhuriyyətinin qurulması ilə başa çatır.

İkinci mərhələ - Azərbaycan Xalq Cumhuriyyəti dövrüdür (1918-1920).

Üçüncü mərhələ - 1920-ci ilin aprel işğalı ilə başlayan sovet dövrüdür. Bu mərhələ 1991-ci il oktyabrın 18-də "Müstəqillik Haqqında Konstitusiya Aktı"nın qəbul olunması ilə sona çatır.

Dördüncü mərhələ - 1991-ci ilin oktyabrından başlanan müstəqilliyimizin yenidən bərqərar olması dövrüdür.

Zənnimcə, Heydər Əliyevin XX əsr tarixi dövrləşdirməsini başqa formada mərhələlərə bölmək və yaxud, bu dövrləşdirmədən kənara çıxmaq mümkün deyil, əks halda bu tariximizi təhrif etmək olardı. Bu həm tarixi reallıq baxımından, həm də ətraflı elmi-nəzəri əsaslara söykəndikdə belə qeyri-mümkündür. Bundan əlavə, belə bir cəhəti xüsusi olaraq qeyd etmək istərdim ki, Heydər Əliyev qələminin məhsulu olan bu Müraciət XX əsr tariximizin aynasıdır. Bu əsərdə ötən əsrdə yaşadığımız tarixin bütün dövrlərinə, ayrı-ayrı proseslərinə və hadisələrinə, habelə tarixi şəxsiyyətlərimizə düzgün və konkret qiymət verilir.

XX əsr tariximizin birinci mərhələsində Heydər Əliyev Azərbaycan Xalq Cumhuriyyətinin qurulmasına doğru gedən yolu təhlil edir: "XIX əsrdən başlayan mürəkkəb ictimai-siyasi proseslərin gedişi Azərbaycan cəmiyyətində əsaslı dəyişikliklərə gətirib çıxartdı, yeni mühitdə formalaşan görkəmli ictimai və siyasi xadimlərimiz əsrin çağırış və tələblərinə layiqincə cavab verməyə qadir oldular. Azərbaycan Xalq Cumhuriyyətinin qurulması üçün münbit zəmin yarandı. Bu dövrü XX əsr Azərbaycan tarixinin BİRİNCİ MƏRHƏLƏSİ adlandırmaq olar" [2, s.295].

Bu bütünlüklə yeni bir konsepsiya idi. Çünki vaxtilə sovet tarixşünaslığında XX əsrin tarixi 1917-ci ildə Rusiyada baş vermiş fevral inqilabına istinad edilərək dövrləşdirilirdi. Azərbaycan ikinci dəfə müstəqillik əldə etdikdən sonra tarix elmində obyektiv münasibət bərpa olunsa da, yenə də tarixi hadisələrə, onların mərhələlərə bölünməsinə yanaşma birmənalı deyildi. Ulu öndər Heydər Əliyevin 2000-ci il 29 dekabr tarixli müraciəti gələcək üçün tariximizin elmi konsepsiyasını bir daha konkretləşdirdi. Təəssüf ki, bəzən bu dövrləşdirmənin birinci mərhələsi yalnışlıqla 1917-ci ilin fevral inqilabına qədərki dövr kimi verilir.

Məsələn, Qurban Bayramovun elmi təfəkkürünün məhsulu olan "Heydər Əliyev və Azərbaycan tarix elmi" adlı kitabda qeyd edilir: "Müraciətdə tamamilə düzgün olaraq, istiqlal fikrinin hazırlanması və həyata keçirilməsi uğrunda mübarizədə XX əsrin 1917-ci il fevralına qədərki dövr Azərbaycan tarixinin birinci mərhələsi kimi qeyd edilir" [3, s.132].

Heydər Əliyevin tarixi dövrləşdirməsində Azərbaycan Xalq Cumhuriyyətinin yaranmasına qədərki dövrdə pik nöqtə 1918-ci ilin mart ayından başlayan kütləvi qırğınlar oldu. Bu növbəti faciələrin xəbərçisi idi. Müsəlmanların soyqırımı aprelin 2-si gecədən xeyli keçənədək davam etdi. Bolşevik-daşnak birləşmələri "Kaspi" mətbəəsini, "Açıq Söz" qəzetinin redaksiyasını, "İsmailliyyə" binasını yandırmış, "Təzəpir" məscidinin minarələrini top atəşləri ilə zədələmişdilər. Mart soyqırımı nəticəsində təkcə Bakıda 12 mindən çox azərbaycanlı öldürülmüşdü. Qırğınlar 1918-ci ilin sentyabrın ortalarınadək davam etdi. Bu soyqırımı zamanı 50 minə qədər azərbaycanlı öldürüldü.

Azərbaycan tarixinin yeni dövrü milli azadlıq hərəkatının zirvəsi hesab edilən Azərbaycan Xalq Cumhuriyyətinin yaranması ilə başa çatmışdır. Heydər Əliyev irsində Azərbaycan tarixinin yeni dövrü təqribən aşağıdakı prinsiplər əsasında dəyərləndirilmişdir:

- Azərbaycanın yeni tarixinə qiymət;
- milli-mənəvi dəyərlərin dirçəldilməsi;
- tarixi şəxsiyyətlərə qiymət;
- Azərbaycan xalqına qarşı deportasiyalar və soyqırımlar problemi;
- Azərbaycan Xalq Cumhuriyyətinin yaranması üçün ərəfə dövrü [4, s.81].

XX əsr tariximizin ikinci mərhələsinə ən dolğun elmi-nəzəri və siyasi qiyməti özünün müxtəlif çıxışlarında Heydər Əliyev vermişdir. O, bu dövrlə bağlı qeyd edir: "Azərbaycan üçün İKİNCİ MƏRHƏLƏ çar Rusiyası dağılandan sonra ölkəmizin ilk dəfə dövlət müstəqilliyi əldə etdiyi dövrdür" [2, s.296].

Cumhuriyyət dövrünü "ölkəmizin ilk dəfə dövlət müstəqilliyi əldə etdiyi dövr" kimi dəyərləndirən Heydər Əliyev Azərbaycan Xalq Cumhuriyyətinin müxtəlif sahələrdəki uğurlarını yüksək qiymətləndirmiş, Əlimərdan bəy Topçubaşov, Məhəmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski və digər dövlət xadimlərinin Cümhuriyyətin qurulmasındakı müstəsna rolunu xüsusi qeyd etmişdir.

Yeri gəlmişkən, Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq məhz Heydər Əliyev XX əsr tariximizi təhlil edərkən tariximizin "sovet dövrü" adlandırılan həmin dövrün ilk iki ilini – 1920-1922-ci illəri, daha doğrusu, 1920-ci ilin Aprel işğalından 1922-ci ildə SSRİ-nin yaradılmasına qədərki mərhələni müstəqilliyin saxlanılması dövrü kimi dəyərləndirmişdir. Həmin dövrdə Azərbaycanın müstəqil dövlət kimi varlığını sübut etmək üçün Heydər Əliyevin gətirdiyi əsasların hamısı tarixi reallıqdır.

1991-ci il oktyabrın 18-də "Müstəqillik haqqında Konstitusiya Aktı"nın qəbul edilməsi böyük tarixçi, siyasətşünas Heydər Əliyev dövrləşdirməsində XX əsr Azərbaycan tarixinin dördüncü mərhələsini təşkil edir və bu tarixi mərhələnin başlıca mahiyyəti belə qiymətləndirilir: "Biz o vaxtdan azad, sərbəst yaşayırıq, müstəqil dövlətik. Xalqımız öz taleyinin, torpaqlarının, öz ölkəsinin sahibidir" [2, s.323].

Müraciətdə haqlı olaraq dördüncü mərhələ iki dövrə ayrılır: 1991-1993-cü illər dövrü və 1993-cü ildən sonrakı dövr.

Azərbaycanın XX əsr tarixinin dövrləşdirilməsi məsələsinə Heydər Əliyev 2000-ci ildəki müraciətdən əvvəl də dəfələrlə toxunmuşdu. 1998-ci il mayın 27-də Azərbaycan Xalq Cumhuriyyətinin 80 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə çıxış edərkən o, XX əsr Azərbaycan tarixini bu cür mərhələlərə bölmüşdür: "Azərbaycan Xalq Cumhuriyyətinin yaranmasından keçən 80 il 4 mərhələyə bölünə bilər: birinci – 1918-1920-ci illər, Azərbaycan Xalq Cumhuriyyətinin fəaliyyət göstərdiyi illər; ikinci – 1920-1922-ci illər, Azərbaycan Sovet Sosialist Cumhuriyyətinin hakim olduğu illər; üçüncü – 1922-1991-ci illər, Azərbaycanın totalitar rejim, kommunist ideologiyası şəraitində yaşadığı dövr, Azərbaycan Sovet Sosialist Cumhuriyyətinin Sovetlər İttifaqında başqa müttəfiq respublikalarla birgə fəaliyyət göstərdiyi dövr. Dördüncü dövr 1991-ci ilin sonundan, dekabrından başlayır, Sovetlər İttifaqının dağılması ilə əlaqədar Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsi günündən indiyədək keçən illərdir.

Bu mərhələlərin hər birinin tarixdə özünəməxsus yeri, Azərbaycan tarixində mənası, mahiyyəti və əhəmiyyəti vardır" [5, s.389].

*Nəticə*. Azərbaycan dövlətçilik tarixinin ən vacib dövrü kimi XX əsri qiymətləndirən Heydər Əliyev bu mərhələnin hadisə və proseslərini əsl tarixçi gözü ilə şərh etmişdir. Heydər Əliyev xalqımızın XX əsrin əvvəlində başladığı milli azadlıq hərəkatının məğzində məhz XIX əsrdə geniş vüsət almış milli oyanış proseslərinin dayandığını hesab edirdi. O, qeyd edirdi ki, XX əsrə qədəm qoyan Azərbaycan artıq bir çox sahələrdə, o cümlədən təhsil, milli mətbuat və mədəniyyət sahələrində olduqca əhəmiyyətli uğurlar qazanmışdı. Ən mühümü isə, müasir burjuaziya təbəqəsi artıq Azərbaycanda formalaşıb ölkənin ictimai həyatında böyük rol oynamağa başlamışdı. Bu dövrdə Azərbaycan ziyalılarının müxtəlif sahələrdə göstərdiyi fəaliyyət milli dirçəliş, milli oyanış, milli ruhun aşılanması proseslərinə xidmət edirdi.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Elmlər Akademiyasında ziyalılarla görüşdə Heydər Əliyevin çıxışı // Bakı şəhəri, 21 sentyabr 1993-cü il // Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 1-ci kitab. Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Bakı: Azərnəşr, 1997, 148 s.
2. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti // Bakı şəhəri, 29 dekabr 2000-ci il // Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 31-ci kitab. Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Bakı: Azərnəşr, 2010, 383 s.
3. Bayramov Q.M. Heydər Əliyev və Azərbaycan tarix elmi / elmi red: İ.Hüseynova; rəy: A.Məmmədov, İ.Zeynalov. Bakı: Təhsil, 2004, 264 s.
4. Hüseynova L.Ə. Heydər Əliyev irsində Azərbaycan tarixi məsələləri. Bakı: Təhsil, 2011, 213 s.
5. Azərbaycan Xalq Cumhuriyyətinin 80 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi // Respublika sarayı, 28 may 1998-ci il // Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 15-ci kitab. Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Bakı: Azərnəşr, 2005, 417 s.
6. Prezident kitabxanasının portalı – www.preslib.az
7. Heydər Əliyev irsini araşdırma mərkəzi / Beynəlxalq elektron kitabxana – www.aliyevheritage.org

**ELNUR ABİLOV**
***Baku State University***

## PERIODIZATION OF THE HISTORY OF AZERBAIJAN IN THE WORKS OF HEYDAR ALIYEV

In his works, Heydar Aliyev paid special attention to the division of the history of Azerbaijan in the twentieth century into stages. Thus, he brought a new approach to Azerbaijani historiography. The chronology of Heydar Aliyev in the history of Azerbaijan in the twentieth century was a new concept. Nevertheless, in all his works, historical performances and speeches, the Great Leader presented Azerbaijan as one of the oldest human settlements in the world, the first cradle of modern civilization and the most ancient land of statehood, and praised every stage of historical development.

*Keywords*: Haydar Aliyev, periodization, XX century history of Azerbaijan, work.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 14 yanvar 2020-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 06 yanvar 2021-ci il.*
*Rəyçilər: t.e.d. Anar İsgəndərov, t.e.d.İbrahim Zeynalov.*

**Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlər qarşısında qoyulan tələblər**

- Məqalələrdə müəllif(lər)in adı və soyadı açıq şəkildə, elmi adı və dərəcəsi, işlədiyi müəssisə, həmçinin elektron poçt ünvanı göstərilməlidir.

- Məqalələr Azərbaycan, rus və ingilis dillərində çap oluna bilər. Məqalənin yazıldığı dildə annotasiya, əlavə digər 2 dildə xülasə verilməlidir. Xülasənin üstündə məqalənin adı mütləq göstərilməlidir. Xülasələr bir-birinin eyni olmalı və məqalənin məzmununu əks etdirməli, elmi və qrammatik baxımdan ciddi redaktə olunmalıdır.

- Məqalələrin mətnləri azərbaycan dilində latın əlifbası, rus dilində kiril əlifbası və ingilis dilində (ABŞ) əlifbası ilə Times New Roman-14 şrifti ilə, 1,5 intervalla 8-12 səhifə həcmində qəbul edilir (A4 format, səhifənin ölçüləri: yuxarı – 2 mm, aşağı – 2,5 mm, sol – 3 mm, sağ – 1,5 mm).

- Məqalədə UOT indekslər, 3 dildə açar sözlər göstərilməlidir.

- Məqalə Giriş, Əsas mətn (yarımbaşlıqlar göstərilməklə) və Nəticə hissələrindən ibarət olmalıdır. Məqalədə elm sahəsinin xarakterinə uyğun olaraq elmi işin yeniliyi, müəllifin gəldiyi nəticə aydın şəkildə verilməlidir.

- Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı ya əlifba ardıcıllığı ilə, ya da mətndə rast gəlindiyi ardıcıllıqla və [1] və ya [1, s.119] kimi nömrələnməlidir. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Elmi məqalələrə, simpozium, konfrans və digər nüfuzlu elmi tədbilərin materiallarına və ya tezislərinə istinad edərkən məqalənin, məruzənin və ya tezisin adı göstərilməlidir. İstinad olunan mənbənin biblioqrafik təsviri verilərkən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının "Dissertasiyaların tərtibi qaydaları" barədə qüvvədə olan təlimatının "İstifadə edilmiş ədəbiyyat" bölməsinin 10.2 – 10.4.6. tələbləri əsas götürülməlidir.

- Məqalələrin sonundakı ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir.

- Ədəbiyyat siyahısı avtomatik nömrələmə ilə yığılmış məqalələr qəbul edilməyəcəklər.

- Məqaləyə mütləq 1 mütəxəssis rəyi (rəyçinin adı (tam şəkildə), elmi dərəcəsi, elmi adı və elmi titulu, iş yeri), məqaləni çapa tövsiyə edən müəssisənin elmi şurasının (kefedranın, şöbənin) iclas protokolundan çıxarış əlavə olunmalıdır.

- Elmi jurnallarda "*əvvəli ötən sayımızda*", *"ardı növbəti nömrədə"* adı altında seriya məqalələrin dərs olunmasına icazə verilmir.

- Texniki baxımdan düzgün tərtib edilməyən, həmçinin plagiatlıq faktı aşkar edilən məqalələr çap olunmayacaq.

***Redaksiya ilə əlaqə*:**
**TarixVeOnunProblemleri@gmail.com**

## Требования к оформлению научных публикаций

- В статье должны быть указаны место работы и адрес, электронный адрес автора (авторов).

- Статьи могут быть опубликованы на Азербайджанском, турецком, русском и английском языках. Резюме статьи должно быть на двух языках, помимо языка написания статьи. Оба резюме должны быть одинаковыми и отображать содержание статьи. В резюме должны быть показаны научный результат, научная новизна, практическая ценность и др. Резюме должно быть научно и грамматически отредактировано. В резюме должны быть полностью указаны название статьи, имя автора (авторов).

- Текст статьи должен быть набран шрифтом Times New Roman, кегль 14, 1,5 интервал латинской графикой для статей на азербайджанском турецком языках и английском, кириллицей для статей на русском языке.

- В статье должны быть указаны UOT индексы или коды типа PACS, а также ключевые слова. Ключевые слова должны быть на трех языках (на языках написания статьи и резюме).

- В конце статьи должны быть даны научная новизна, практическая ценность, экономический результат и др.

- В статье должны быть даны ссылки на научные источники. Список литературы должен быть либо по порядку (например, [1] или [1, с.119]) или же по порядку шифра. Если дается сноска на ту же литературу в другом месте текста, тогда номер сноски должен быть таким же как и прежде.

- Информация о каждой сноске, данной в списке литературы, должна быть полной и точной. Библиографическое описание источника должно быть дано в соответствии с его видом (монография, учебник, научная статья и т.д.). При ссылке на статью, материалы симпозиумов, конференций и других научных изданий, должно быть указано название доклада или тезиса. При библиографическом описании ссылаемых источников должны браться за основу требования 10.2-10.4.6 отдела «Используемая литература» действующей инструкции по «Правилам составления диссертационных работ» Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики.

- В статье преимущество должно быть дано научным статьям, монографиям и другим источникам, опубликованным в течении последних 5-10 лет.

- Статьи, список литературы которых набраны в режиме автоматической нумерации, не принимаются.

- К статье должны быть приложены 1 рецензия (с указанием имени, научной степени, научного звания и научного титула, места работы рецензента), выписка из протокола научного совета (кафедры, отдела) учреждения, рекомендующего публикацию статьи.

- Статьи, которые не являются технически корректными, а также содержат плагиат, не будут опубликованы.

***Электронный адрес журнала "История и ее проблемы":***
**TarixVeOnunProblemleri@gmail.com**

**Requirements for scientific publications**

- The place of work and the address, e-mail address of the author(s) should be indicated in the article.

- Articles may be published in Azerbaijani, Turkish, Russian and English. The summary of the article should be in two languages, in addition to the language of the article. Both summaries should be the same and display the content of the article. The summary should show the scientific result, scientific novelty, practical value, etc. The summary should be scientifically and grammatically edited. The summary should contain the full title of the article, the name of the author(s).

- The text of the article should be typed in Times New Roman, 14, 1.5 interval, Latin script for articles in Azerbaijani Turkish and English, Cyrillic for articles in Russian.

- The article should indicate UOT indexes or PACS type codes, as well as keywords. Keywords should be in three languages (in the languages of the article and resume writing).

- At the end of the article scientific novelty, practical value, economic result, etc. should be given.

- The links to the scientific sources should be given in the article. References should be either in order (for example, [1] or [1, p.119]) or in order of cipher. If a footnote is given for the same literature elsewhere in the text, then the footnote number should be the same as before.

- Information about each footnote given in the list of references should be complete and accurate. The bibliographic description of the source should be given in accordance with its type (monograph, textbook, scientific article, etc.). When referring to an article, materials of symposia, conferences and other scientific publications, the title of the report or thesis should be indicated. In the bibliographic description of the referenced sources, the “Used literature” section 10.2-10.4.6 of the current instruction on the “Rules for writing dissertations” of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan should be taken as the basis.

- In the article, the advantage should be given to the scientific articles, monographs and other sources published in the last 5-10 years.

- The article should be accompanied by 1 review (indicating the name, scientific degree, academic title and scientific title, place of work of the reviewer), an extract from the protocol of the scientific council (chair, department) of the institution that recommends publication of the article.

- Articles that are not technically correct, as well as plagiarism, will not be published.

**Email**: **TarixVeOnunProblemleri@gmail.com**

| | |
|---|---|
| *Çapa hazırlayanlar:* | *Sevinc Ruintən, Şəbnəm Cəfərova, Elmar Axundov* |
| *Tərcüməçi radaktorlar:* | *Anar Kərimov, Aynur Məmmədova, Elmira İsmayılova* |
| *Web-redaktor:* | *Nigar Nurəddin qızı İsmayılova* |

**Yığılmağa verilmişdir: 06.01.2021. Çapa imzalanmışdır: 21.01.2021.**
**Redaksiyanın ünvanı: Bakı – 370148, akad.Z.Xəlilov küç.23**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi. Tel.: 539 08 56**
**E-mail: TarixVeOnunProblemleri@gmail.com**

Jurnal "ADİLOĞLU" nəşriyyatında nəşrə hazırlanmış və
ofset üsulu ilə çap edilmişdir.

**Ünvan:** Bakı şəh., Tbilisi pr., 307-44C
Tel.: (050) 593 27 77
(055) 339 75 77
E-mail: adiloglu2000@mail.com